**SEYYİD ƏLİƏKBƏR OCAQ NEJAD**

# QURANİ-KƏRİMDƏ XİTABLAR

**SƏKKİZİNCİ CİLD**

**Bakı – 2014**

**Seyyid Əliəkbər Ocaq Nejad,**
**Qurani-Kərimdə xitablar**

Bakı, “Qələm” nəşriyyatı, 2014. 394 səh.

**Tərtib edən: Mehrab Xəlilov**
**Redaktor: Seyid Əliəsgər Behbudlu**

Hörmətli oxucu!
Kitab Seyyid Əliəkbər Ocaq Nejadın “Qurani-Kərimdə xitablar” mövzusunda söylədiyi moizələr əsasında tərtib olunmuşdur.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 01 iyul 2012-ci tarixli DK-360/B məktubuna əsasən çap olunmasına icazə verilmişdir.

# QURANDA İMAN GƏTİRƏNLƏRƏ XİTABLAR
## (Üçüncü nümunənin davamı)

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ اَلْحَمْدُ للهِ رَبِّ الْعالَمِينَ وَالعاقِبَةُ لِلتَّقوى وَالْيَقِينِ وَالصَّلاةُ وَالسَّلامُ عَلى اَشرَفِ الأَنْبِياءِ وَالْمُرْسَلِيَنَ حَبِيبِنا وَحَبِيبِ اِلهِ الْعالَمِينَ اَبِى الْقاسِمِ مُحَمَّدٍ وَعَلى آلِهِ الطَّيِّبِينَ الطّاهِرِينَ وَلَعْنَةُ اللهِ عَلى أَعْدا ئِهِمْ أَجْمَعِينَ مِنَ الآنَ اِلى قِيامِ يَوْمِ الدِّينِ.

Ötən bəhslərimizdə Allahın Qurani-Kərimdə möminlərə etdiyi xitablardan üçüncü nümunə olaraq “Ali-İmran” surəsinin 102-ci ayəsi haqda söhbət açdıq. Allah-təala bu mübarək ayədə möminlərə xitab edərək onlara təqvalı olmağı təkid edir. Həmçinin təqvanın fayda və xüsusiyyətləri haqda da geniş söhbət etdik. Söhbətimiz bu yerə gəlib çatdı ki, hansı amillər insanda təqvanı gücləndirir? Bu haqda da bir neçə mühüm amillə tanış olduq. Həmin amillərdən biri də qiyaməti xatırlayıb yada salmaqdır. Deməli, qiyamətə imanı olan və həmişə onu xatırlayan insanlar təqvaya yaxınlaşmış olurlar. Amma əgər bir kəs ölümü, qiyaməti, qiyamət gününün məhkəməsini yaddan çıxarıb öz bildiyini etsə, həmin şəxsdə təqva ola bilməz. Təqva o insanlardadır ki, heç bir vaxt qiyaməti unutmurlar.

Əlavə olaraq qeyd edildi ki, bərzəx aləmi, qiyamət, cənnət və cəhənnəm insanın axirət dünyasına aid olduğu üçün bu mərhələ ölümdən başlayır. Ölüm insan üçün bu dünyanın sonu, axirət dünyasının başlanğıcıdır. Ötən bəhslərimizdə Quran ayələrinə və hədislərə istinad edərək insanın ölüm ayağında olarkən son anlarında keçirdiyi hisslər, onun gözünə görünənlər, ölümü insana asanlaşdıran və çətinləşdirən amillər barədə geniş şəkildə bəhs etdik. Bu bəhsimizdə isə insanın ölümdən sonra keçdiyi mərhələlər barədə danışacağıq.

# İnsanın ölümdən sonrakı mərhələləri

## Ölümdən qəbrə kimi

Sual oluna bilər ki, kimliyindən asılı olmayaraq bir insanın ömrü sona çatdıqdan və dünyasını dəyişdikdən sonra nə baş verir? Ümumiyyətlə, insan dünyasını dəyişdikdən sonra qarşıda iki önəmli məsələ dayanır. Çünki insanın vücudu iki hissədən, yəni cisim və ruhdan təşkil olunmuşdur. İnsan dünyasını dəyişərkən ruh bədəndən çıxır və yerdə qalan isə onun cansız bədəni sayılır. Buna görə də onun cansız bədəninə aid olan önəmli məsələ onu şəriətin buyurduğu üzrə son mənzilə yola salmaqdır. Yaxşı olardı ki, bir qədər insanın cismi barədə söhbət edək və bundan sonra isə ruhun necə olması, onun hansı mərhələləri keçməsi haqda söhbət açaq.

## Meyit haqda hökmlər

İnsan öldükdən sonra onun heç bir işi görməyə qüdrəti olmadığı üçün əməl dəftəri də bağlanır. Onun cansız bədənini yerdən götürüb dəfn edənə qədər bir neçə vacib əməl vardır. Əlbəttə, bu vacib əməlləri yerinə yetirmək onun özünə deyil (əgər dünyasını dəyişən müsəlmandırsa), bütün müsəlmanlara vacibdir. Yəni bu elə bir vacib əməldir ki, həmin işləri görmək təkcə ölən şəxsin yaxınlarına deyil, həmçinin bütün müsəlmanlar üçün vacibdir.

Əlbəttə, bunu da qeyd etmək lazımdır ki, bu vacib əməl gündəlik namaz kimi vacib olan əməllərdən deyildir. Əgər bu işləri bir və yaxud bir neçə nəfər yerinə yetirsə, bütün müsəlmanların boynundan da həmin vacib əməl götürülmüş olur. Yəni hər bir müsəlmana vacibdir ki, gündə on yeddi rükət namaz qılsın. Əgər biri bu işi görürsə, digərlərinin boynundan həmin vacib əməl

götürülmür. Bir sözlə desək, vacib əməllər iki qisimdir: əyani vacib əməllər və yetərli vacib əməllər. Əyani vacib əməl odur ki, bu, hər bir müsəlmanın boynundadır və yerinə yetirilməsi onun üçün vacibdir. Məsələn, gündəlik vacib namazlar kimi. Yetərli vacib əməl odur ki, əgər bir müsəlman onu yerinə yetirərsə, digərlərinin boynundan da həmin vacib əməl götürülər. Məsələn, bir nəfər başqa müsəlmanların olduğu bir məclisə daxil olub salam versə, onun salamının cavabını almaq hamıya vacibdir. Ancaq əgər bir nəfər də onun salamına cavab verərsə, bu vacib əməl orada əyləşənlərin boynundan da götürülər.

Ona görə də bir müsəlman vəfat etdikdə onun cənazəsini qəbrə qoyana qədər bütün müsəlmanlara bir neçə əməl vacib olur. Əgər bir neçə nəfər (kifayət qədər insan) həmin işləri yerinə yetirərsə, digər müsəlmanların boynundan da qeyd olunan vacib əməllər götürülür. Allah-təala sözügedən məsələlərin qısa bir zaman müddətində həll olunmasını bütün müsəlmanlar üçün vacib əməllər kimi irəli sürmüşdür. Məlum vacib əməllər aşağıdakılardan ibarətdir:

**1. Meyitə qüsl vermə**

Bir insan (müsəlman) dünyasını dəyişdikdən sonra möminlərə vacibdir ki, onun bədəninə qüsl versinlər. Qeyd etmək lazımdır ki, bu məsələ şəriət hökmlərinə aid olduğu üçün risalələrdə ətraflı şəkildə izah olunmuşdur. Qısası belədir ki, meyitə üç qüsl vermək lazımdır. Sidrlə qarışdırılmış, kafurla qarışdırılmış və xalis su ilə. Qüsl verildikdən sonra səcdə üzvlərinə hənut vurulmalıdır. Əgər kimsə meyitə qüsl verilməmişdən öncə əlini və yaxud bədəninin hər hansı bir hissəsini ona toxundursa, həmin şəxsin də boynuna qüsl düşür. Meyitə toxunan şəxs

adi qaydada, məsələn, cənabət qüslü kimi qüsl verməlidir. Niyyəti də belədir: "məssi meyit qüslü verirəm vacib qürbətən iləllah."

Onu da qeyd etmək lazımdır ki, canı ağzından yenicə çıxan və bədəni hələ soyumayan meyitə əl vurduqda insanın boynuna qüsl düşmür. Əgər meyitin bədəni soyuyubsa və hər kim ona əl vursa, həmin şəxs "məssi meyit" qüslü verməlidir. Ancaq meyitin özünə qüsl verildikdən sonra ona toxunduqda insanın boynuna qüsl düşmür. Yəni meyitin bədəni soyuduqdan sonra ona meyit qüslü verilənədək hər kəs ona toxunsa, boynuna "məssi meyit" qüslü düşür. Bütün bunlar ona görədir ki, insanların ölümü xüsusən xəstəliklər nəticəsində baş verdiyindən meyitin bədənində olan mikroblar daha da aktivləşir və artıq həmin bədəndə mikroblara qarşı müqavimət də qalmır. Alimlər bu barədə kitablar yazmış və öz fikirlərini ətraflı şəkildə bizə çatdırmışlar.

Burada sual oluna bilər ki, bəs hansısa bir heyvan öldükdə və onun bədəninə əl vurduqda nə üçün insanın bədəninə qüsl düşmür? Cavab belədir ki, adətən, heyvan öldükdə insanlar ona əl vurmur, yaxud ona toxunmurlar. Axı kim heyvanın ölüsünə yaxınlaşır və yaxud ona toxunur? Heyvan öldükdən sonra kim onu qucaqlayıb öpür? Amma insanlarda belə deyil. Bir insan dünyasını dəyişdikdə yaxınları və ya ailə üzvləri onun yanında əyləşir, kimisi üzündən, kimisi əl-ayağından öpürlər. Ona görə də şəriət qüsl müəyyən etməklə bir növ insanları meyitdən uzaq durmağa çağırır. Bir daha qeyd etmək istərdim ki, bu barədə həm şəriət məsələləri, həm də elmi müzakirələr mövcuddur və kitablarda müvafiq məsələ geniş şəkildə açıqlanmışdır. Biz burada insan öldükdən sonra onun bədəni ilə bağlı vacib olan məsələlər haqda

danışırıq. Əlavə olaraq onu da bilmək lazımdır ki, insanın cəsədi ilə əlaqədar müəyyən olunmuş bu hökmlər onun Allah-təala yanındakı ehtiramına görədir. İnsan bir ömür boyu ruhu bədənində gəzdirir və həmin ruha hörmət əlaməti olaraq onun cisminə də ehtiramla yanaşılmalıdır.

## 2. Meyitin kəfənlənməsi

İnsan dünyasını dəyişdikdən sonra qüsldən və hənutdan sonra onun bədənini üç parça ilə bükmək vacibdir. Həmin parçalardan biri meyitin göbəyindən dizinədək fitə kimi bağlanır. İkinci parça köynək kimi çiyinlərdən dizlərə qədər bədənə bükülür. Üçüncü parça isə meyitin başından ayağınadək bükülməli, habelə onun ayaq və baş tərəfi bağlanmalıdır. Parçaların hansı rəngdə olması vacib deyil, lakin meyitin ağ parça ilə kəfənlənməsi müstəhəbdir. Həmçinin insanın hələ həyatda ikən kəfən alıb üzərinə Allahla etdiyi minacat və raz-niyazlardan yazması də müstəhəbdir. Kimisi Kərbəladan, kimisi Məkkədən, kimisi isə Məşhəddən təbərrük olaraq kəfən alıb gətirir. Kim istəsə aldığı kəfəni təbərrük üçün Kəbə evinə sürtə, zəmzəm suyu ilə yuya da bilər. İmamların qəbrinə sürtməklə də təbərrük etmək olar. “Cövşən Kəbir” duasını, Qurani-Kərimdən müxtəlif ayələri, mömin insanların onun barəsində etdikləri duaları, özünün Allahla etdiyi raz-niyazı da kəfənin üzərinə yazdırmaq müstəhəb əməllərdəndir.

## 3. Cənazəni müşayiət etmə

İslam dinində cənazəni müşayiət etmək vacib əməllərdən hesab olunmur. Amma bu işin görülməsi təkid olunmuş müstəhəb əməllərdəndir. Cənazəni müşayiət etmə ondan ibarətdir ki, bir mömin insan dünyasını

dəyişdikdən sonra onun digər mömin qardaşları onu son mənzilə yola salsınlar. Əlbəttə, mömin dedikdə burada iki əsas məsələyə xüsusi diqqət yetirilməlidir. Birincisi budur ki, həmin şəxs Həzrət Əlinin(ə) imamət və vilayətini qəbul etmiş olsun, ikincisi isə onun fasiq insan olmamasıdır. Yəni Həzrət Əlinin(ə) vilayətini qəbul etməklə yanaşı, Allah-təalanın haram buyurduğu əməllərdən çəkinən insan olsun. Əgər birisi bilərəkdən günahlar işlətsə və ya fəsad əməllərlə məşğul olmuş olsa, həmin şəxsin cənazəsini müşayiət etmək o qədər də müstəhəb əməl sayılmaz. Məsələn, bilərəkdən şərab içən və bu əməlindən əl çəkməyən insanın cənazəsini müşayiət etməyin heç bir savabı yoxdur. Savab o mömininin cənazəsini müşayiət etmədədir ki, İmam Əlinin(ə) imamətini qəbul etmiş olsun və hərdən səhvən günaha, yaxud xətaya yol verməsinə baxmayaraq, Allahın haram etdiyi əməllərdən çəkinsin və vacib əməlləri yerinə yetirmiş olsun.

Burada söhbət insanın imanının az və ya çoxluğundan getmir. Əsas imanın meyarıdır ki, qeyd olundu. Yəni ola bilsin ki, bir insan Həzrət Əlinin(ə) vilayətini qəbul etməklə yanaşı, Allahın əmrlərini də yerinə yetirsin, haramlardan çəkinsin, amma bəzən bir xətaya da yol vermiş olsun. İnşallah, Allah-təala öz lütf və mərhəməti ilə həmin şəxsin günahlarından keçər. İnsanın imanının güclü və ya zəif olması, eləcə də bu barədə müvafiq araşdırmaların aparılması isə bizə aid olan məsələ deyildir. Hər bir insanın imanı ancaq Allah-təala yanında ölçülür. Bir insanın Həzrət Əlinin(ə) imamətini qəbul etməsi və namaz əhli olması artıq bizim üçün onun möminliyinin sübutudur. İnşallah, həmin insanın digər əməllərinin də düzgün və yerli-yerində olduğunu zənn etməliyik.

Odur ki, hədis və rəvayətlərə əsasən mömin insanın cənazəsini müşayiət etməyin çox böyük savabı vardır. Mömin insanın cənazəsini dəfn edənə qədər zikr edə-edə onu müşayiət etmək müstəhəbdir. Bu əməlin o qədər böyük savabı vardır ki, hətta mələklər belə həmin savaba tamah salaraq cənazəni müşayiət edənlərə qibtə edirlər. Hədislərdə belə nəql olunmuşdur ki, mələklər yer üzündə insanların bir neçə əməlinə görə insan olmağı arzu etmişlər. Həmin əməllərdən biri camaat namazı, digəri isə cənazəni müşayiət etməkdir. Onlar insana qibtə edərək belə deyərlər: "İlahi, kaş bizi də insan yaradaydın, biz də bu əməllərdə iştirak etməklə həmin savablara nail olardıq." Cənazəni müşayiət edərkən deyilən zikrlərin ən çox savabı olanı "La ilahə illəllah" və salavat zikridir. Bəzi möminlər cənazəni müşayiət edərkən yeddi addımının savabını atasına, yeddi addımının savabını anasına, yeddi addımının savabını isə ürəyi istədiyi şəxsə hədiyyə edir. Cənazəni müşayiət etməyin savabı barədə Həzrət Peyğəmbər(s) və imamlarımızdan bir çox hədislər nəql olunmuşdur. Həmin hədislərdən bir neçəsinə diqqət yetirək:

قَالَ رَسُولُ اللّهِ(ص): إنّ أوّلَ ما يُجازَى بِهِ المؤمنُ بعدَ مَوتهِ أَن يُغفَرَ لِجَميعِ مَن تَبعَ جَنازَتَهُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Mömin öldükdən sonra ona verilən ilk ərməğan onun cənazəsini müşayiət edənlərin günahlarının bağışlanmasıdır."[1]

Bu hədisi oxuduqda başa düşmək olur ki, nə üçün mələklər möminin cənazəsini müşayiət edənlərə bu qədər

[1] Mizanül-hikmə, 12-ci cild, hədis - 19271.

qibtə edirlər. Yəni Allah-təala həmin möminin şərəf və hörmətinə görə onun cənazəsini müşayiət edənləri bağışlayır. Bu məsələ qarşılıqlı olduğundan Allah-təala həm möminin cənazəsini müşayiət edənlərin ehtiramına görə həmin mömini, həm də onun hörmətinə xatir müşayiət edənləri bağışlayır. Buradan da bilmək olur ki, Həzrət Əlinin(ə) vilayətini qəbul etməklə yanaşı, Allaha səcdə etmək insan üçün bu qədər mühümdür.

Çox yaxşı olardı ki, cənazəni müşayiət edən hər bir insan yaxşı-yaxşı düşünüb öz ölümünü də yada salsın.

قَالَ رَسُولُ اللّهِ(ص): يا أباذرّ، إذا تَبِعت جَنازَةً فلْيَكُنْ عَقلُك فيها مَشغولاً بالتَّفكُّرِ و الخُشوعِ، و اعلَمْ أنّكَ لاحِقٌ بهِ

-Həzrət Peyğəmbər(s) Əbuzərə buyurdu: "Ey Əbuzər, cənazənin arxasınca getdiyin zaman gərək ağlını işlədəsən və yaxşıca düşünəsən. Bil ki, bir gün sən də ona qoşulacaqsan."[1]

قَالَ الصَّادِقُ(ع): إذا حَمَلت جَنازَةً فكُنْ كأنّكَ أنتَ المِحمولُ، أو كأنّكَ سَألتَ ربَّكَ الرُّجوعَ إلَى الدُّنيا لِتَعمَلَ، فانظُرْ ما ذا تَستَأنِفُ...

-İmam Sadiq(ə) buyurur: "Cənazəni çiyninə alıb apararkən elə güman et ki, çiyinlərdə aparılan həmin cənazə sən özünsən. Yaxud elə təsəvvür et ki, o halda Allahdan yaxşı işlər görmək üçün səni yenidən dünyaya qaytarmasını istəyirsən (və Allah da səni dünyaya geri

---

[1] Mizanül-hikmə,12-ci cild, hədis - 19282.

qaytarmışdır). Belə olduqda bax gör bu dünyada axirətin üçün çalışıb həyatını necə qurmalısan."[1]

Odur ki, insan cənazəni müşayiət edərkən ölümü və ölümdən sonrakı vəziyyəti xatırlamalıdır. İnsan özünü həmin cənazənin yerində təsəvvür etməli və elə bir hal almalıdır ki, sanki peşman olub Allahdan dünyaya geri qaytarılmasını istəyir. Elə təsəvvür etməlidir ki, Allah-təala ona möhlət vermişdir və onu yaxşı işlər görmək üçün yenidən dünyaya qaytarmışdır. Odur ki, oranı görüb dünyaya qayıtdıqdan sonra dərdinə dəyən əməlləri yerinə yetirəcəyi haqda düşünməli və hansı işləri görəcəyinə qərar verməlidir.

Hədislərdə nəql olunmuşdur ki, insan dünyasını dəyişdikdən sonra onun ruhu cənazəsinin yanında dayanır. Orada dayananları, ağlayanları və onu müşayiət edənləri görür. Hamı ilə danışır, amma onu eşitmək üçün eşidən qulaq, görmək üçün bəsirət gözü lazımdır. İmam Sadiq(ə) Həzrət Əlinin(ə) barəsində belə buyurur:

شَيَّعَ أميرُ المؤمنينَ عليه السلام جَنازَةً فلَمّا وُضِعَت في لَحدِها عَجَّ أهلُها و بَكوا، فقالَ: ما تَبكونَ؟! أما و اللّهِ لَو عايَنوا ما عايَنَ مَيِّتُهُم لأذهَلَهُم ذلكَ عنِ البُكاءِ علَيهِ، أما و اللّهِ إنّ لَهُ إلَيهِم لَعَودَةً ثُمّ عَودَةً، حتّى لا يُبقي مِنهُم أحَدا

-Günlərin birində Əmirəlmöminin Əli əleyhissalam bir cənazəni müşayiət edirdi. Cənazəni qəbrə qoyarkən qohum-əqrəbası qışqırıb ağlamağa başladı. Həzrət(ə) buyurdu: "Nə üçün belə ağlayırsınız? (Sonra üzünü

[1] Yenə orada, hədis - 19284.

camaata tutaraq buyurdu:) And olsun Allaha, əgər onlar (ağlayanlar) bu meyitin gördüklərini görsəydilər, şübhəsiz ki, (gözlərinə görünənlər) ağlamağı onlara unutdurardı. And olsun Allaha, ölüm dəfələrlə onlara tərəf qayıdacaq və onların heç birini bu dünyada qoymayacaq."[1]

Buna görə də cənazəni müşayiət edərkən insan öz ölümünü xatırlamalı, özünü hazırlaşdırmalıdır. Hədislərdə belə nəql olunmuşdur ki, dünyasını dəyişən insan öz cənazəsinin kənarında dayanıb camaatı səsləyər və deyər: "Camaat, mən dünyada gördüyüm pis işlərdən peşman olmuşam. Siz elə bir iş görməyin ki, öləndən sonra mənim kimi peşman olasınız. Nə qədər ki, dirisiniz, başınıza çarə qılın." Lakin camaat onun bu sözlərini eşitmir. Ona görə də insan cənazəni müşayiət edərkən bu kimi fikirlərə dalmalı, özünü həmin cənazənin yerində təsəvvür etməlidir. Elə güman etməlidir ki, Allah-təala onu geri qaytarmışdır və buna görə də axirəti üçün çalışmalıdır.

**4. Meyit namazı**

Müsəlmanlar üçün vacib əməllərdən biri də budur ki, dünyasını dəyişən möminə qüsl verəndən və onu kəfənlədikdən sonra onun üçün namaz qılınsın. Əgər dünyasını dəyişən insan 6 yaşından yuxarı olarsa, onun üçün cənazə namazı qılmaq vacibdir. Bir məsələ də vardır ki, həmin uşağın ata və anasından heç olmasa biri müsəlman olmalıdır. Əlbəttə, meyit namazı gündəlik vacib namazlardan fərqli olaraq ayaq üstə qılınır və bu namazın rüku və səcdəsi yoxdur. Bir növ vacib bir duadır ki, beş təkbirlə qılınır. Hər bir təkbirdən sonra müəyyən sözlər

[1] Mizanül-hikmə,12-ci cild, hədis - 19287.

vardır ki, onları oxumaq vacibdir. Bu namazda Allahın vəhdaniyyətinə, Həzrət Peyğəmbərin(s) peyğəmbərliyinə şəhadət verilir, müsəlmanlara və möminlərə dua edilir və Allahdan onun bağışlanması istənilir. Bu namazın qaydası barədə risalələrdə geniş şəkildə şərh verilmişdir. Burada diqqət olunası məsələlərdən biri də odur ki, mömin insan dünyasını dəyişdikdə camaatın bir-birinə xəbər vermələri də çox yaxşı haldır. Həmçinin adamların vəfat etmiş insanın cənazəsini müşayiət etməyə və onun üçün meyit namazı qılmağa toplaşmaları da yaxşı haldır. Belə bir hal baş verdikdə hüzr sahibi camaatı öncədən xəbərdar etməlidir və camaat da vəfat etmiş şəxsin dəfnində iştirak etməlidir. Camaatın toplaşmasının isə bir neçə xüsusiyyət və əlaməti vardır. Bu əvvəla, möminin cənazəsinə hörmət əlamətidir, ikincisi əza sahibinə başsağlığı, üçüncüsü isə insanın öz ölümünü və axirəti xatırlamasıdır.

قَالَ الصَّادِقُ(ع): يَنبَغي لأولياءِ الميّتِ أن يُؤْذِنوا إخوانَ الميّتِ بموتِهِ، فيَشهَدونَ جنازَتَهُ و يُصَلُّونَ علَيهِ، فيُكسِبُ لَهُمُ الأجرَ و يُكسِبُ لِمَيّتِهِ الاستِغفارَ

-İmam Sadiq(ə) buyurur: “Yaxşı olar ki, meyitin din qardaşlarına onun ölümü barədə xəbər versinlər və onun cənazəsini müşayiət edib namazına dura bilsinlər. Beləliklə, həm onlar əcr sahibi olsunlar, həm də meyit bağışlansın.”[1]

### 5. Meyiti dəfn etmək

---

[1] Mizanül-hikmə,12-ci cild, hədis - 19274.

Meyiti dəfn etmək də İslam dinində vacib məsələlərdən biridir ki, bu da vacib əməl kimi müsəlmanların boynuna düşür. Əgər bir neçə nəfər bu işi yerinə yetirərsə, digər müsəlmanların da boynundan götürülür. Dəfn mərasimində iştirak edərkən bir neçə müstəhəb əməl vardır ki, bunlar da hədislərdə nəql olunmuşdur. Nümunə olaraq həmin hədislərdən bir neçəsinə diqqət yetirək:

قَالَ رَسُولُ اللّهِ(ص): أفضَلُ أهلِ الجَنازَةِ أكثَرُهُم فيهِ ذِكرا و مَن لم يَجلِسْ حتّى تُوضَعَ، و أوفاهُم مِكيالاً مَن حَثا علَيها ثلاثا

-Həzrət Peyğəmbər(s) buyurur: "Cənazəni müşayiət edənlərin ən üstünü o kəsdir ki, həmin halda Allahı, ölümü və ölümdən sonrakı əhvalatı xatırlasın... Ən mükəmməl savabı isə o kəs qazanır ki, cənazəni qəbrə qoyduqdan sonra üç ovuc torpaq götürüb əlhəd daşının üstünə töksün."[1]

Meyiti dəfn etməyin vaxtı ilə əlaqədar olaraq onu qeyd etməliyik ki, onun tez dəfn edilməsi təkid olunmuşdur. Meyit nə qədər tez dəfn edilsə, bir o qədər yaxşıdır. Amma zərurət olmadıqda gecə vaxtı meyiti dəfn etmək bəyənilmir. Hədislərdə oxuyuruq:

قَالَ رَسُولُ اللّهِ(ص): إذا ماتَ المَيِّتُ في الغَداةِ فلا يَقيلَنَّ إلاّ في قَبرِهِ، و إذا ماتَ بالعَشيِّ فلا يَبيتَنَّ إلاّ في قَبرِهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Kim günün başlanğıcında ölsə, günortanı qəbrindən qeyri yerdə

---

[1] Mizanül-hikmə,12-ci cild, hədis - 19285.

keçirməməlidir. Kim axşam (zöhrdən sonra) ölsə gecəni qəbrindən qeyri yerdə keçirməməlidir.”[1]

قَالَ رَسُولُ اللّهِ(ص): لا تَدفِنوا مَوتاكُم باللّيلِ إلاّ أن تَضطَرُّوا

-Həzrət Peyğəmbər(s) buyurur: “Naçar qaldığınız hallardan savayı başqa hallarda ölülərinizi gecə vaxtı dəfn etməyin.”[2]

Çox yaxşı olar ki, mömin insan əməlisaleh və yaxşı insanların qəbrinin kənarında dəfn olunsun. İnsan həyatda ikən qonşusunun yaxşı olmasına görə sevindiyi və pis qonşusunun əlindən əziyyət çəkdiyi kimi, qəbir qonşusundan da həmin halları yaşayır.

قَالَ رَسُولُ اللّهِ(ص): اِدفِنوا مَوتاكُم وَسطَ قَومٍ صالِحينَ؛ فإنّ المَيّتَ يَتأذّى بجارِ السَّوءِ كما يَتأذّى الحَيُّ بجارِ السَّوءِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Öz ölülərinizi əməlisaleh adamların arasında dəfn edin. Çünki ölülər də dirilər kimi pis qonşudan əziyyət çəkirlər.”[3]

Bəzən görürük ki, bir mömin dünyasını dəyişdikdə qohum-əqrəbası onu İmamzadədə və ya başqa müqəddəs yerlərdə dəfn edirlər. Bütün bunların səbəbi Həzrət Peyğəmbərin(s) və imamlarımızın buyurduğu hədislərlə birbaşa bağlıdır.

Tehranda “Behişti Zəhra” qəbiristanlığı var və o qədər böyükdür ki, orada gün ərzində təxminən 200 meyit

---

[1] Yenə orada, hədis - 19292.
[2] Yenə orada, hədis - 19295.
[3] Mizanül-hikmə,12-ci cild, hədis - 19289.

dəfn edilir. Seyid Mahmud adlı tanıdığım bir alim dünyasını dəyişmişdi. Seyidin bizə də qohumluğu çatırdı. Çox dindar və mömin bir insan idi. Daim Allahı zikr edər və ibadətlə məşğul olardı. Həyatda ikən elə bir insan görmədik ki, ondan narazı qalmış olsun. Ailədə və qohum-əqrəba arasında da hamı onun hörmət və ehtiramını saxlayır, ona səmimi qəlbdən qulluq edirdilər. Onun qaynı bizə belə bir əhvalat danışmışdı:

-Seyid Mahmudla yeznə-qayın olmamışdan əvvəl biz yaxın dost idik. O, dünyasını dəyişdikdən sonra onu həmin qəbiristanlıqda dəfn etdik. Dəfnindən üç gün sonra mən onun qəbri üstə gedib fatihə oxumaq qərarına gəldim. Odur ki, sübh namazını qılaraq qəbiristanlığa getdim. Seyidin qəbrinə tərəf addımlayanda uzaqdan bir qadının onun qəbrinin kənarında əyləşib hönkürtü ilə ağladığını gördüm. Əvvəlcə qəbri səhv saldığımı düşündüm. Yaxınlaşdıqdan sonra diqqətlə baxıb gördüm ki, xeyr, mən səhv eləməmişəm. Amma həmin qadını da tanımırdım. Öz-özümə fikirləşdim ki, görəsən bu qadın kimdir və nə üçün seyidin qəbri üstə belə ürəkyanğısı ilə ağlayır? Yaxınlaşıb salam verdikdən sonra ondan soruşdum ki, xanım, siz kimsiniz və bu seyidi haradan tanıyırsınız? Xanım məni görcək çarşabını düzəldib salamımın cavabını aldı və dedi: "Bəs siz kimsiniz?" Mən dedim: "Mən bu seyidin qaynıyam. Fatihə oxumaq üçün onun qəbri üstünə gəlmişəm." Qadın məni dinlədikdən sonra ağlayıb dedi: "Mən bu seyidin qəbrinə qurban olum. Əgər mənə icazə versəydiniz, gəlib onun ailəsinin əllərindən öpərdim." Təəccüblə soruşdum: "Axı nə baş verib?" Qadın orada olan qəbirlərdən birini mənə göstərib dedi: "Bax, o qəbir mənim oğlumun qəbridir. Mən ondan razı deyildim. Günahkar bir insan idi. O, öləndən sonra onun halına çox

yanırdım. Gecə-gündüz Allahdan onun bağışlanmasını diləyirdim. Üç aydır ki, dünyasını dəyişib. Bu üç ayda hər gün onun qəbri üstünə gəlib Allaha yalvarırdım ki, onu bağışlasın. Məni incitməsin və ondan narazı olmağıma baxmayaraq, övladım olduğu üçün ürəyim onun halına yanırdı. Bu gecə onu yuxuda gördüm. Mənə dedi ki, anacan, daha mənim üçün ağlama. Üç gün olar ki, bizim yaxınlığımızda bir seyidi, ruhanini və möhtərəm insanı dəfn ediblər. Allah-təala onun şərəf və ehtiramına görə bizi də bağışlayıb. Sonra oğlum yuxuda mənim əlimdən tutub bu qəbrin kənarına gətirdi. Yuxudan ayıldıqdan sonra gördüklərimə inana bilmirdim. Bu gün səhər tezdən oğlumun yuxuda mənə göstərdiyi kimi bura gəldikdə gördüm ki, doğrudan da bütün dunlar bir həqiqət imiş."

Odur ki, bəzən bir insanın Allah-təala yanında hörməti çox olduğundan o, vəfat etdikdən sonra Allah-təala ona ehtiram əlaməti olaraq onun qəbir qonşularını da bağışlayır. Buna görə də hədislərdə belə tövsiyə olunur ki, ölülərinizi əməlisaleh və yaxşı insanların qəbrinin yaxınlığında dəfn edin.

## Öldükdən sonra insanın ardınca gələnlər

Yuxarıda qeyd edildi ki, insan cisim və ruhdan ibarət olduğu üçün dünyasını dəyişdikdə qarşıda iki önəmli məsələ dayanır. Birinci məsələ onun cisminə aid olan məsələdir ki, kifayət qədər nəzərinizə çatdırdım. Cismin məsələsi onu torpağa dəfn edənə qədərdir. Bununla insan öldükdən sonra onun bədəninə aid olan məsələlər də sona çatır. Bizim əsas bəhsimiz insanın ruhu barəsindədir ki, bədəndən ayrıldıqdan sonra qiyamət gününə qədər və ondan sonrakı hallarda necə olacaqdır? Ruhun qiyamət gününə qədər necə olacağı barədə, həmçinin ondan

sonrakı mərhələlər barədə də müzakirə və bəhslər vardır. İnsan öldükdən sonra onun cismi torpağa tapşırılır, ruhu isə bərzəx aləminə gedir. Bərzəx aləmi barədə söhbətə başlamazdan öncə bir mətləbə də diqqət yetirməyimiz çox yaxşı olardı. Həmin mətləb bundan ibarətdir ki, ruh insanın bədənindən ayrıldıqdan sonra onun əməl kitabı da bağlanır. Yəni o, dünyada hər nə bir iş görmüşdüsə qurtardı. İnsan öləndən sonra iki rükət namaz qılmaq üçün dünyaya qayıtmasını istəsə də bu, mümkün olmayacaqdır. Ölənə qədər hər nə iş görmüşdüsə hamısı əməl kitabında yazılmışdır və ruhu bədəndən çıxdıqdan sonra həmin dəftər bağlanır. Bir sözlə desək, bir daha geri qayıtması mümkün deyildir. İnsanın əməl kitabının bağlanmasına baxmayaraq, elə əməllər var ki, bəlkə də insan qiyamətə qədər həmin əməllərin faydasından bəhrələnir. Yəni insan bu dünyada elə bir işin təməlini qoyub gedir ki, digər insanlar ondan faydalandıqca həmin əməlin savabı onun ardınca göndərilir. Yəni fiziki baxımdan həyata keçirə biləcəyi əməllərin kitabı bağlanır. Məsələn, daha oruc tutmur, namaz qılmır və bu kimi başqa ibadətləri yerinə yetirə bilmir. Amma təməlini qoyub getdiyi yaxşı və ya pis əməllərin siyahısı bağlanmır. Həmin işlər insanlar arasında görüldükcə onun cəzasından və ya xeyrindən pay aparır. Nümunə olaraq həmin xeyir işlərdən bir neçəsini nəzərinizə çatdırıram. Gəlin baxaq görək insan vəfat etdikdən sonra bu dünyada qoyub getdiyi hansı əməllərin ona xeyri olacaqdır.

### 1. Elm öyrətmə

Vəfat etdikdən sonra insanın ardınca gələn əməllərdən birincisi elmdir. Elm elə bir sistemli bilgidir ki, insan zəhmət çəkib onu qazanır və qazandığı həmin

elmi biliklərini sonradan həm də başqalarına öyrədir. Həmin elmi öyrədən insan vəfat etdikdən sonra isə öyrətdiyi insanlar həmin elmdən bəhrələndikcə və ya həmin elmə əməl etdikcə dünyasını dəyişən əvvəlki insana da savab yazılır. Əgər ondan öyrənən insan həmin elmi daha on nəfərə öyrətmiş olsa və həmin on nəfər yaşadıqca o iki nəfərə də savab çatır. Əgər həmin on nəfərin hər biri o elmi digər on nəfərə öyrətsələr, öyrənənlər ona əməl etdikcə bütün öyrənənlərə savab düşür. Beləcə, həmin elm insanlar arasında yayılıb əməl oldunduqca dünyasını dəyişmiş əvvəlki öyrədənlərə də savabı çatır. Deməli, bu elm sinələrdən sinələrə, beyinlərdən beyinlərə köçdükcə və ona əməl olunduqca, birinci şəxsdən tutmuş bütün öyrədənlərə qədər zəncirvari şəkildə bu elmin fəziləti, savabı və bəhrəsi Allah-təalanın məhzərində yazılır. Dünyada elm öyrənərək həmin elmi başqalarına da öyrətməklə onu yayan hər bir insan vəfat etdikdən sonra həmin elmə əməl olunduqca, şübhəsiz, onun da burada savab payı vardır.

قَالَ رَسُولُ اللّهِ(ص): أربَعةٌ تَجري علَيهِم أُجورُهُم بعدَ الموتِ... و رجُلٌ عَلَّمَ عِلما فأجرُهُ يَجري علَيهِ ما عُمِلَ بِهِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Dörd kəsin əməlinin savabı öldükdən sonra onların ardınca göndərilir... və onlardan biri həmin kəsdir ki, elm öyrənmiş, onu başqalarına öyrətmişdir. Həmin elmə əməl olunduqca savabı da o şəxsə göndərilir.”[1]

[1] Mizanül-hikmə,12-ci cild, hədis - 19302.

قَالَ رَسُولُ اللّهِ(ص): إنّ مِمّا يَلحَقُ المؤمنَ مِن عَمَلِهِ و حَسناتِهِ بعدَ مَوتِهِ عِلما علّمَهُ و نَشَرَهُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Öldükdən sonra möminin ardınca gedən (onun əməllərinə qoşulan) əməl və yaxşılıqlarından biri onun öyrənib yaydığı elmdir."[1]

Əlbəttə, bəzi hədislər vardır ki, onları daha yaxşı qavramaq üçün şərh etmək lazım gəlir. Oxuduğumuz bu hədisə də qısaca şərh verək ki, elm məsələsi bizim üçün qaranlıq qalmasın. Elm öyrənib öyrətmək barədə olan hədislərin şərhində qeyd olunmuşdur ki, insanın öyrənib öyrətdiyi elm müsbət elm olmalıdır. Müsbət elmin savabı öləndən sonra insanın ardınca gəldiyi kimi, mənfi elmin də günahı onun ardınca gəlir. Məsələn, əgər bir insan digərlərinə pis və yaxud haram əməl öyrədibsə, vəfat etdikdən sonra insanlar həmin əməli etdikcə günahı da birincinin ardınca gedir. Müsbət və ya faydalı elm dedikdə isə fərqi yoxdur şəriət elmləri olsun, fizika, kimya, riyaziyyat, yaxud humanitar elmlər olsun. Məsələn, fərz edək ki, bir müəllim öz şagirdlərinə fizika elmini öyrədir. Şagirdlər də öyrəndikləri həmin elmi digərlərinə ötürürlər. Beləcə, fizika sahəsində çalışan alimlərin sayı çoxalır, bu elm sahəsi kifayət qədər inkişaf edir və ölkə başqalarına möhtac olmur. Belə olduqda həmin elm də öz yerində müqəddəs və təqdirəlayiqdir. Çünki vaxtilə bu elmi öyrənən bir insan onu sonradan başqalarına da öyrətməklə öz ölkəsinə xidmət etmiş olur. Bunun savab və fəziləti də sonradan həmin elmi öyrədən insanın ardınca gedir. Bir

[1] Yenə orada, hədis - 19301.

sözlə, bütün müsbət elmlərin hamısından müsbət istifadə olunduqca, onun savabı da onu öyrədib yayan insana çatır.

Bəs, nə üçün biz burada müsbət sözünü işlətdik? Ona görə ki, bəzən insanlar həmin müsbət elmdən mənfi mənada da istifadə edirlər. Elmdən müsbət mənada istifadə etmək üçün insan mütləq imana və ağıla əsaslanmalıdır. Əgər elmin yanında iman olmasa, bu elm bir alova bənzəyər ki, düşdüyü hər bir yeri yandırar. Necə ki, bütün tarix boyu yandırmış və yandıra-yandıra da gəlmişdir. Əgər elmin yanında iman olmasa, həmin elmin sahibi də nicat tapa bilməyəcək. Buna görə də elmdən düzgün və müsbət mənada istifadə etmək üçün onun yanında hökmən iman olmalıdır.

قَالَ رَسُولُ اللّهِ(ص): اَلعِلمُ وَالعَمَلُ تُوأَمان اِذَا افتَرَقا، اِحتَرَقا

-Həzrət Peyğəmbər(s) buyurur: "Elm və əməl (iman) bir-449-449 bağlıdır. Ayrılıqda isə hər biri yandırıcı oddur."

Yəni elmi öyrəndikcə onu saxlamaq üçün insana iman və təqva gərəkdir. İmansız insan elm öyrəndikdə həmin elmi mənfi mənada istifadə edəcəkdir. Məsələn, fərz edək ki, bir insanın əlində iti bir bıçaq var. Əgər onun imanı və ağlı olmasa, əlində bıçaq tutması təhlükədir. Amma əgər iman və ağlı olsa, həmin bıçaqdan müsbət mənada istifadə edərək ondan bəhrələnəcəkdir. Buna görə də hədislərdə təkid olunur ki, elmlə əməl bir-birinin yanında olmalıdır. Onları bir-birindən ayırdıqda hər birinin aləmi yandırması bir qığılcımdan asılıdır. Suyun tərkibi hidrogen və oksigendən ibarətdir. Onlar bir-biri ilə birləşdikdə suyu təşkil edirlər. Ayrı-ayrılıqda isə hər biri bir qığılcımdan asılıdır. Elm və iman bir-birilə bağlı olduqda insana inkişaf və tərəqqi bəxş edir. Əgər bir insanda elm olub iman olmasa, həmin şəxs olmazın

cinayətlərə əl ata bilər. Həmçinin elmsiz ibadət də insana heç bir fayda verməz. Elm və mərifət olmadan ibadət edən insan nə qədər çalışsa da sanki öz ətrafında dövrə vurur, amma heç bir məqama çata bilmir.

Odur ki, əgər bir insan zəhmət çəkib iman və elm öyrənirsə, eləcə də həmin bu elmi başqalarına da öyrədirsə, vəfat etdikdən sonra həmin elmdən müsbət mənada istifadə olunduqca onun üçün də savab yazılır.

قَالَ رَسُولُ اللّهِ(ص): يَجِيءُ الرَّجُلُ يَومَ القِيامَةِ و لَهُ مِنَ الحَسَناتِ كالسَّحابِ الرُّكامِ أو كالجِبالِ الرَّواسي، فيَقولُ: يا رَبِّ، أنّى لي هذا و لَمْ أعمَلها؟ فيَقولُ: هذا عِلمُكَ الّذي عَلَّمتَهُ النّاسَ يُعمَلُ بِهِ مِن بَعدِكَ

-Həzrət Peyğəmbər(s) buyurur: “Qiyamət günü bir insanı buludlar topası və yaxud hündür dağlar boyda yaxşılıq və savablarla (məhşərə) gətirərlər. O deyər: Pərvərdigara, mən dünyada bu savab və yaxşılıqları eləməmişdim. Bunlar haradandır belə? Ona deyilər: Bunlar sənin camaata öyrətdiyin həmin elmin savab və yaxşılıqlarıdır ki, (sən öləndən sonra) insanlar ona əməl edirdilər.”[1]

**2. Ölkənin sərhədlərini qoruma**

Öləndən sonra insanın ardınca göndərilən savablardan biri İslam ölkələrin sərhədlərinin keşiyində dayanmaqdır. Hər kəs öz vətəninin keşiyini çəksə, öldükdən sonra həmin ölkə durduqca onun da savab payı

[1] Mizanül-hikmə, 8-ci cild, hədis - 13800.

göndərilir. Bir əsgər ölkəsini qorumaq üçün hər növ xidmət göstərirsə və onun müdafiə olunmasında hansısa bir formada rolu olursa, vəfat etdikdən sonra həmin ölkə durduqca onun savab payı da həmin əsgərə göndəriləcək. Ölkəni qorumağın və Vətən yolunda can verməyin öz fəzilət və savabları vardır. Hədislərdə belə nəql olunmuşdur ki, Allah-təala bir neçə bəndəsi ilə fəxr edir. Məsələn, biri o insandır ki, hamının gözündən uzaq bir yerdə alnını səcdəyə qoyaraq Allahla minacat edərək ağlayır və gözlərindən tökülən yaş torpağı isladır. Belə olduqda Allah-təala mələklərə buyurar: "Baxın Mənim bəndəmə. Cavan bir bəndədir və istədiyi hər bir yola gedə, yaxud istədiyi hər bir günahı edə bilər. Lakin o, bütün nəfsi istəklərindən keçərək Mənə ibadət və səcdə etməyi üstün tutmuşdur." Allahın fəxr etdiyi bəndələrindən biri də o insandır ki, Vətənini qorumaq üçün döyüş meydanında iştirak edir. Hamının döyüşdən qaçdığını görür, amma canı bədənindən çıxana qədər düşmənlə mübarizə aparır. Vətəni qorumaq üçün canını əsirgəmir. Allah-təala həmin bəndəni də mələklərə göstərərək onunla fəxr edir. Belə bir insan öldükdən sonra Vətən və ölkəsi durduqca onun üçün savab və fəzilət yazılır.

قَالَ رَسُولُ اللّهِ(ص): أربَعةٌ تَجري علَيهِم أُجورُهُم بعدَ الموتِ: رجُلٌ ماتَ مُرابِطا في سبيلِ اللّهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Dörd kəsin əməli öldükdən sonra savabı onların ardınca göndərilir. Onlardan biri o kəsdir ki, Allaha xatir ölkəsinin sərhədini qoruyub bu yolda canını tapşırsın."[1]

[1] Mizanül-hikmə,12-ci cild, hədis - 19302.

Bu hədisdə də incə bir məqam vardır ki, ona da diqqət yetirməyimiz yaxşı olardı. Həmin məqam odur ki, qeyd olunan savab o kəsə şamil olunur ki, Vətənini Allaha xatir "Qürbətən iləllah" xalis niyyətilə qorumuş olsun. Elm məsələsində mövzuya uyğun olaraq bir o qədər də ixlasdan söhbət getmir. Yəni əgər elm ixlasla olsa, onun savab və fəziləti o qədər çox olar ki, ərşə gedib çatar. Amma elm öyrədən ixlas olmadan belə öyrətdiyi elmin savabını qazanır. Çünki ola bilsin ki, öyrətdiyi insanlar həmin elmə ixlasla əməl etmiş olsunlar. Belə olduqda elm öyrədən insan öldükdən sonra həmin elmə əməl olunduqca onun savab və bəhrəsini qazanacaqdır. Elm öyrətməkdə ixlas şərt deyil, amma sərhədin keşiyini çəkməkdə ixlas şərtdir. Döyüş, cihad və Vətəni qorumaq məsələsi isə insanın ixlas və niyyətindən asılıdır. Əgər insan xalis niyyətlə Vətəni qorumuş olsa, nəzərdə tutulan savab ona şamil olunacaq və öldükdən sonra da ardınca savab göndəriləcək.

**3. Hər növ sədəqə (xeyirxahlıq)**

Öldükdən sonra insanın ardınca göndərilən əməllərdən üçüncüsü verdiyi sədəqə və etdiyi xeyirxah əməllərin savabıdır. Məsələn, bir kənddə məktəb olmadığı üçün oranın uşaqları başqa kənddəki məktəbə gedirlər. Bir nəfər xeyirxahlıq edərək həmin kənddə məktəb tikdirir ki, qoy uşaqlar əziyyət çəkməsinlər və yaşadıqları məntəqədə təhsil alsınlar. Həmin insan öldükdən yüz il sonra belə tikdirdiyi məktəbdən istifadə olunduqca onun savab payı da ardınca göndərilir. Burada söhbət təkcə məktəbdən getmir. Məscid, körpü, yol, zəvvarların gecələməsi üçün müsafirxana, habelə məscidə qab-qacaq ehsan etmək və bu kimi xeyirxah əməlləri də misal çəkmək olar. Bütün bu yaxşılıqlardan istifadə olunduqca, həmin əməlin təməlini qoyan insana öldükdən sonra da savabı çatır.

**4. Yazılı səhifə qoyma**

Mömin öldükdən sonra savabı ona çatan əməllərdən biri özündən sonra qoyub getdiyi yazılı səhifədir. Məsələn, bir mömin Quranı gözəl xətlə yazmış və Quran həmin xətlə çap etdirilmişdir. Nəşr olunan həmin Quran kitabından insanlar illər boyu istifadə etdikcə onu yazan şəxsin savab payı da xüsusi olaraq göndərilir.

قَالَ رَسُولُ اللّهِ(ص): سِتّةٌ يَلحَقنَ المؤمنَ بعدَ وَفاتِهِ: ...و مصحَفٌ يُخَلِّفُهُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Mömin öldükdən sonra altı şeyin savabı ona çatar: ...Onlardan biri özündən sonra qoyub getdiyi yazılı səhifədir."[1]

**5. Ağac əkmə**

Ağac əkib becərməyin də savabı vardır. Bu əməl də o əməllərdəndir ki, mömin öldükdən sonra onun da savab payı göndərilir.

قَالَ رَسُولُ اللّهِ(ص): سِتّةٌ يَلحَقنَ المؤمنَ بعدَ وَفاتِهِ: ...و غَرسٌ يَغرِسُهُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Mömin öldükdən sonra altı şeyin savabı ona çatar: Onlardan biri əkdiyi ağacdır."[2]

Deməli, mömin bir insan bir ağac əkərsə, insanlar və digər canlılar da o ağacın kölgəsindən, meyvəsindən və s.-dən bəhrələndikcə həmin mömin dünyadan getmiş olsa belə,

---

[1] Mizanül-hikmə,12-ci cild, hədis - 19303.

[2] Mizanül-hikmə, 6-cı cild, hədis - 9141.

ardınca savab payı göndərilər. Digər bir hədisdə isə belə oxuyuruq:

قَالَ رَسُولُ اللّهِ(ص): ما مِن مُسلِمٍ يَزرَعُ زَرعا أو يَغرِسُ غَرسا فَيَأكُلُ مِنهُ طَيرٌ أو إنسانٌ أو بَهِيمَةٌ إلاّ كانَت لَهُ بِهِ صَدَقَةٌ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər bir müsəlman əkinlə məşğul olsa, yaxud ağac əksə, əkib becərdiklərindən bir quş, yaxud bir insan, yaxud bir heyvan bəhrələnsə, həmin şəxs (əkib becərən) üçün sədəqə hesab olunar."[1]

Bu hədislərdən açıq-aydın görünür ki, əkin əkmək, ağac becərmək savab əməllərdəndir. Elə əməllərdəndir ki, hətta insan öldükdən sonra da belə onun savabı ardınca göndərilir. İslamda ağac əkib becərmək təkid olunmuş, kəsib korlamaq isə bəyənilməyən əməllərdən hesab olunmuşdur.

قَالَ الصَّادِقُ(ع): لا تَقطَعُوا الثِّمارَ فَيَبعَثُ اللّهُ عَليكُمُ العَذابَ صَبّا

-İmam Sadiq(ə) buyurur: "Meyvə ağaclarını kəsməyin ki, Allah-təala sizin üzərinizə əzab nazil edər."[2]

Qeyd etmək lazımdır ki, insan iki cür ağac əkib becərə və onlardan fayda apara bilər. Yəni həm maddi, həm də mənəvi baxımdan fayda götürər. Maddi cəhətdən olan bəhrəsi bundan ibarətdir ki, bir ağac əkdikdə savabı olmaqla yanaşı, onun kölgəsindən, yaxud meyvəsindən də insanlar və digər canlılar bəhrələnə bilər. Bu istifadə maddi olan ağacın savabıdır ki, onu əkən insan üçün savab

---

[1] Yenə orada.
[2] Yenə orada, hədis - 9147.

payı yazılır. Bundan əlavə, insan özü üçün mənəvi ağac da əkə bilər. Bu barədə olan bir rəvayətə diqqət yetirək:

-Günlərin birində Həzrət Peyğəmbər(s) bir nəfərin öz bağında əkin-biçinlə məşğul olduğunu görür. Ona yaxınlaşıb buyurur: “İstəyirsənmi sənə elə bir ağac əkməyi öyrədim ki, onun yetişməsi daha tez, kökü möhkəm və meyvələri daha ətirli və gözəl olmuş olsun? Həmin kişi elə güman edir ki, Peyğəmbər(s) onun bağında olmayan hansısa bir ağacın adını deyəcək. Deyir: İstəyirəm, ya Rəsulallah. Peyğəmbər(s) buyurur: Əgər hər gün sübh və axşam çağı bir dəfə “Subhanallah vəlhəmdulillah və la ilahə illəllah” zikrini etsən, hər birinə görə cənnətdə sənin üçün on ağac əkəcəklər. Belə ki, həmin ağacların kökü möhkəm, inkişafı sürətli və bəhrəsi də daha gözəldir. Həmin kişi bu sözləri eşidən kmi çox sevinir və deyir: Ya Rəsulallah, sənə səmimi qəlbdən inanıram. Mən sizin buyurduqlarınız kimi hər gün bu zikri edəcəyəm. Mənim maddi çətinliyim yoxdur. İcazə versəniz, hazırda əkib-becərdiyim bu bağı Mədinənin süffə əhlinə bağışlayım. Çünki onların maddi vəziyyətləri çox ağırdır. Qoy, bu bağ onların olsun və öz maddi çətinliklərini həll etsinlər.”

Elə bu halda Allah-təala “Leyl” surəsinin 5-7-ci ayələrini nazil etdi:

فَأَمَّا مَن أَعْطَى وَاتَّقَى. وَصَدَّقَ بِالْحُسْنَى. فَسَنُيَسِّرُهُ لِلْيُسْرَى

-Amma kim (öz malından və var-yoxundan Allah yolunda) bəxş etsə və təqvalı olsa. Və Allahın vədlərini təsdiq etsə. Biz onu tezliklə asan olan yola (iman və itaətə)

hazırlayarıq (elə bir ruh yüksəlişi verərik ki, təqva yolunu getmək onun üçün rahat olar).[1]

Odur ki, insan həm əkdiyi maddi ağacların savabından bəhrələnə, həm də Həzrət Peyğəmbərin(s) buyurduğu kimi, mənəvi ağaclar da əldə edə bilər. Bir şərtlə ki cənnətdə əkdiyi ağacları günah etməklə od göndərib yandırmasın.

**6. Su çəkmə, su quyusu qazma**

İslam dinində xeyirxah və savab işlərdən biri də yaşayış məntəqələrinə su çəkdirmə, su quyusu qazma və ya su arxı salmaqdır. Bu elə bir əməldir ki, insan öldükdən sonra da etdiyi həmin xeyirxah əməllərin savabından pay aparır. Hədis belədir:

قَالَ رَسُولُ اللّهِ(ص): سِتّةٌ يَلحَقنَ المؤمنَ بعدَ وَفاتِهِ: و صَدَقَةُ ماءٍ يُجريهِ، و قَليبٌ يَحفِرُهُ ، و سُنّةٌ يُؤخَذُ بها مِن بَعدِهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Mömin öldükdən sonra altı şeyin savabı ona çatar: Onlardan biri axıtdığı (çay və kəhriz kimi) su sədəqəsi, qazdığı su quyusudur."[2]

Deməli, əgər bir insan susuz yerə su çəkdirsə və həmin suyu məntəqə əhalisinə ehsan etsə, öldükdən sonra həmin sudan insanlar və digər canlılar istifadə etdikcə onun savab payı da o şəxsə göndərilər. Həzrət Peyğəmbər(s) və Əhli-beytdən(ə) bu barədə çoxlu hədislər nəql olunmuşdur. Nümunə üçün birini diqqətinizə çatdırıram:

---

[1] Mizanül-hikmə, 14-cü cild, hədis - 22322.
[2] Yenə orada, 12-ci cild, hədis - 19303.

-Əbu Neyzər deyir: “Məntəqələrin birində mənim bir mülküm var idi. Günlərin birində Həzrət Əli(ə) alqı-satqı edərək həmin mülkü məndən aldı. Sonra külüngü götürüb həmin yerdə su quyusu qazmağa başladı. Bir qədər qazdıqdan sonra quyudan çıxıb alnının tərini sildi və nəfəsini dərərək yenidən qazma işini davam etdirdi. Bir qədər də qazdıqdan sonra quyudan elə təzyiqlə su fəvvarə vurdu ki, Həzrət Əli(ə) cəld quyudan çıxdı. Sonra məndən kağız-qələm istədi. Dərhal onun üçün kağız-qələm gətirdim. Həzrət Əli(ə) belə bir vəqfnamə yazdı:

بسمِ اللّهِ الرّحمنِ الرّحيمِ، هذا ما تَصَدَّقَ بهِ عبدُ اللّهِ عليٌّ أميرُ المؤمنينَ، تَصَدَّقَ بِالضَّيعَتَينِ المعروفَتَينِ بِعَينِ أبي نَيزَرٍ و البُغَيْبِغَةِ على فُقَراءِ أهلِ المدينَةِ و ابنِ السَّبيلِ، لِيَقيَ اللّهُ بِهِما وَجهَهُ حَرَّ النّارِ يَومَ القِيامَةِ، لا تُباعا و لا تُوهَبا حتّى يَرِثَهُما اللّهُ و هُو خَيرُ الوارِثِينَ، إلاّ أن يَحتاجَ إلَيهِما الحَسَنُ أو الحُسَينُ فهُما طِلْقٌ لَهُما، و لَيسَ لأحَدٍ غَيرِهِما

-Bağışlayan və mərhəmətli Allahın adı ilə! Bu ərazi və su quyusu elə bir sədəqədir ki, Allahın qulu, möminlərin əmiri olan Əli ibn Əbu Talib Mədinə yoxsullarına, çarəsiz və yolda qalanlara vəqf etdi. Allah-təala qiyamət günü bunun vasitəsilə onun üzünü oddan saxlasın. Buranı heç bir kəsin satmağa və yaxud hədiyyə etməyə icazəsi yoxdur. Bunu Allahın öhdəsinə buraxıram. O, ən gözəl varisdir. Amma əgər birdən oğlum Həsən və Hüseynin buranı məcburiyyət qarşısında qalıb satmağa ehtiyacları olsa, onların ixtiyarındadır. Buranı o iki nəfərdən başqa heç bir kəs sata bilməz.”

Məhəmməd ibn Hişam deyir: "Bu əhvalatın üstündən illər ötdükdən sonra İmam Hüseynin(ə) imaməti dövründə onun borcu oldu. Müaviyənin həmin məntəqədən çox xoşu gəlirdi. Odur ki, oranı almaq arzusunda idi. İmamın(ə) borcu olduğunu fürsət bilib onun yanına qasid göndərdi. İki yüz min dirhəm müqabilində həmin ərazini almaq təklifini irəli sürdü. Amma İmam Hüseyn(ə) həmin ərazini satmadı və Müaviyəyə cavab olaraq belə buyurdu: "Atam oranı Mədinə yoxsullarına və çarəsiz yolda qalanlara vəqf etmişdir ki, Allah-təala bunun vasitəsilə qiyamət günü onun mübarək camalını oddan qorusun. Heç bir şeyin bahasına oranı satmaram."[1]

### 7. Saleh övlad

Mömin öldükdən sonra onun ardınca savabı göndərilən əməllərdən biri də saleh övlad tərbiyə etməkdir. İnsan bu həyatda çalışıb pak, təmiz, xeyirxah və saleh övlad tərbiyə etsə, həmin övlad onun üçün rəhmət və mərhəmət qapısı olar. Tərbiyə etdiyi həmin övlad xeyirxah işlər görməklə yanaşı, valideyninə dua edən, Allahdan onlar üçün bağışlanma diləyən bir insan olmalıdır. Əgər insan belə bir övlad tərbiyə edə bilsə, həmin övlad yaşadıqca və xeyirxah işlər gördükcə atasına da rəhmət qazandırar.

قَالَ رَسُولُ اللّهِ(ص): أربَعةٌ تَجري علَيهِم أُجورُهُم بعدَ الموتِ: ...و رجُلٌ تَرَكَ ولَدا صالِحا يَدعو لَهُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Dörd kəsin əməlinin savabı öldükdən sonra onların ardınca göndərilir.

[1] Mizanül-hikmə, 14-cü cild, hədis - 22329.

Onlardan biri də o kəsdir ki, özündən sonra saleh və onun üçün dua edən övlad tərbiyə edə bilsin."[1]

Digər bir hədisdə belə buyurur:

سِتّةٌ يَلحَقنَ المؤمنَ بعدَ وَفاتِهِ: ولدٌ يَستَغفِرُ لَهُ

-Mömin öldükdən sonra altı şeyin savabı ona çatar: Onlardan biri də onun üçün bağışlanmasını diləyən övladdır."[2]

Rəvayətdə belə nəql olunur ki, günlərin birində Həzrət İsa(ə) bir qəbiristanlığın kənarından keçirdi. Qəbirlərdən birinin sahibinin əzab içində olduğunu görür. Qəbirdə yatan şəxs əzabdan nalə edib ağlayırdı. Həzrət İsa(ə) bir qədər qulaq asdıqdan sonra yoluna davam edir. Bir müddətdən sonra yenə də yolu həmin qəbiristanlığa düşür və həmin qəbrin kənarından keçdikdə görür ki, bir il bundan öncə əzaba düçar olmuş həmin qəbir yiyəsi indi fərəh və şadlıq içindədir. Allahdan soruşur: "İlahi, bir neçə il bundan öncə gördüyüm həmin qəbirdir ki, orada yatana əzab verirdilər. Amma bu gün onun əzabdan azad olduğunu görürəm." Nida gəlir ki, ey İsa(ə), onun yaxşı bir oğlu var idi. O, camaata xidmət edər, yol çəkər və yetimlərə baş çəkərdi. Onun ehtiramına xatir atasını bağışladım."[3]

Digər bir rəvayətdə isə belə nəql olunur ki, günlərin birində Həzrət İsa(ə) bir qəbrin kənarından keçərkən orada dəfn olunmuş insanın əzab içində olduğunu görür. Bu

---

[1] Mizanül-hikmə, 12-ci cild, hədis - 19302.

[2] Yenə orada, hədis - 19303.

[3] Rəhmət olunmuş və nifrin edilmiş övladlar, səh.179.

hadisənin üçtündən bir müddət keçdikdən sonra Həzrət İsanın(ə) yolu yenə də həmin yerə düşür. Görür ki, o qəbirdə əllərində nur tutmuş mələklər dəfn olunmuş həmin insanın başı üzərində dayanıblar. Bu işə çox təəccüb edir və Allahdan bunun sirrini soruşur: "Allah-təala ona nida edərək buyurur: Ey İsa, Mənim bu bəndəm günahkar bir insan idi. O, dünyasını dəyişərkən həyat yoldaşı hamilə idi. Uşaq dünyaya gəldikdən sonra anası ona gözəl tərbiyə verdi. Məktəb vaxtı yetişdi. Anası onu aparıb müəllim yanına qoydu. Müəllim ilk növbədə ona "Bismillahir-Rəhmanir-Rəhim" kəlməsini öyrətdi. Uşaq da dilinə bu kəlməni gətirdi.

فَاستَحيَيتُ مِن عَبدِي أَن أُعَذِّبَهُ بِنَارِي فِي بَطنِ الأَرضِ وَوَلَدُهُ يَذكُر اِسمِي عَلى وَجهِ الأَرض

-Övladı yer üzərində Mənim adımı dilinə gətirən bəndəmə yerin altında əzab verməyə utanıram."[1]

Odur ki, əgər valideyn özündən sonra saleh, xeyirxah, valideyni üçün dua və istiğfar edən övlad qoyub getsə, həmin övladın xeyirxah əməllərindən və dualarından o valideynə də pay düşər. Hətta onun valideyni üçün Həzrət Peyğəmbər(s) və Əhli-beytinə(ə) salavat zikr etməsinin savabı belə onlara çatır. Həzrət Ayətullah Behcət deyərdi: "Siz elə fikirləşməyin ki, salavatı zikr etdiniz və bununla da məsələ bitdi. İnsan dünyasını dəyişmiş valideynini və yaxud hansısa bir mömini xatırlayıb ona salavat hədiyyə etdikdə, mələklər həmin salavatı elə gözəl, elə nuraniyyətlə nəzərdə tutulmuş insana aparıb çatdırırlar ki,

[1] Rəhmət olunmuş və nifrin edilmiş övladlar, səh. 64.

həmin şəxs onun üçün böyük hədiyyə gəldiyini görüb sevincindən fərəhlənir və bundan ləzzət alır.”

Bəhsimizin nəticəsi belə oldu ki, insan dünyasını dəyişdikdən sonra onun əməl dəftəri də bağlanır. Amma hədis və rəvayətlərə əsasən yuxarıda sadaladığımız əməllər o əməllərdir ki, insan dünyadan getdikdən sonra da həmin əməllərdən ona pay yazılır.

## BƏRZƏX ALƏMİ

Qeyd olundu ki, insan cisim və ruhdan təşkil olunub. Bir müsəlman dünyasını dəyişdikdən sonra bütün müsəlmanlara vacibdir ki, onun bədənini İslam qayda-qanunları daxilində dəfn etsinlər. İnsan öldükdən sonra onun cisminə aid olan məsələləri diqqətinizə çatdırdım. Sual oluna bilər ki, bəs insan öldükdən sonra onun ruhu necə olur və hara gedir? Ayə və hədislərə əsasən insan öldükdən sonra onun ruhu bərzəx aləminə aparılır. "Bərzəx" sözünün mənasına gəldikdə isə qeyd etməliyik ki, lüğətdə iki şey arasında fasilə, hədd və ya məsafə yaradan nəsnəyə bərzəx deyilir. Məsələn, camaat namazı qılınan bir yerdə qadınlarla kişilər arasında pərdə çəkilir. Qadınlarla kişiləri ayırmaq üçün çəkilmiş həmin pərdəyə də bərzəx deyilir. Həmçinin iki həyət arasında çəkilmiş çəpərə də bərzəx demək olar. Yaxud iki nəfər arasında dayanıb onların arasında fasilə əmələ gətirən şəxsə də bərzəx deyilir.

Amma İslam dinində dünya ilə qiyamət arasında olan müddət bərzəx adlanır. Çünki insan müxtəlif mərhələlər keçir. Bir zamanlar zər aləmində yaşayır, sonra isə atanın sülbündə məskunlaşır. Ondan sonra bir müddət ananın bətnində olur, sonra da bu dünyaya gəlib burada yaşayır. Daha sonra dünyasını dəyişib bərzəx aləminə gedir. Bərzəxdən sonra qiyamət gəlir ki, bunun özü də bir aləmdir. Bundan sonra cənnət və ya cəhənnəm mərhələsi gəlir. Sadalanan bütün bu mərhələlər insanın keçdiyi aləmlərdir. Bütün bu mərhələlər bir karvana bənzəyir ki, insan məqsədə çatmaq üçün həmin müxtəlif mənzilləri qət edir.

Hazırda biz bu dünyada yaşayır, bir-birimizi görür, eşidir və söhbət edirik. Amma bu dünyanın bütün əhli bir-bir bərzəx aləminə köçür və qiyamətə qədər də orada

yaşayır. Bərzəx bu dünya ilə qiyamət arasındakı bir aləmdir ki, bütün ruhlar orada məskunlaşırlar. İstəsək də, istəməsək də bizim hər birimiz qiyamətə doğru hərəkətdəyik. Qiyamət günü birdən-birə baş verdiyindən bütün insanlar həmin gün üçün hazır olmalıdırlar. Yəni hər bir insan üçün fərdi qaydada qiyamət səhnəsi qurulmur. Ona görə də insanlar bu dünyadan köçdükcə müvəqqəti olaraq bərzəx aləmində yaşayırlar. Qiyamət baş verdikdə isə hamı bir nəfər kimi məhşər səhnəsində hazır olacaq və dünyada gördüyü bütün əməllərinin hesabını verəcəkdir. Amma qiyamət hələ baş vermədiyi üçün dünyadan gedən insanlara həmin günədək müvəqqəti bir yer verilir ki, bu yerin adına da "bərzəx" deyilir.

Bir məsələni də nəzərinizə çatdırım ki, qiyamətdən qabaq və bu dünyadan sonra insanın məskunlaşdığı həmin bərzəx aləminin cisim, yaxud ruh eibarilə deyilməsinin heç bir fərqi yoxdur. Ruh etibarilə desək - bərzəx, cisim etibarilə desək - qəbir adlanır. İnsan qiyamət gününə qədər harada məskunlaşır? Cismi qəbirdə, ruhu isə bərzəxdə. Deməli, bu aləmə həm bərzəx demək olur, həm də qəbir. Cismi nəzərdə tutub qiyamətə qəbir, ruhu nəzərdə tutduqda isə bərzəx deyilir. İnsan öldükdən sonra qiyamət gününə kimi harada olacaqdır? Cismi qəbirdə, ruhu isə bərzəxdə. Hər ikisini bir anlamda nəzərdə tutmaq olur ki, bəzi hədislərdə də buna işarə olunmuşdur. Məsələn:

قَالَ الصَّادِقُ(ع): وَاللّهِ أَتَخَوَّفُ عليكُم فِي البَرَزَخِ! قُلتُ: وَ مَا البَرْزخُ؟ قَالَ: القَبرُ، مُنذُ حِين مَوتِهِ إِلى يَومِ القِيَامَةِ

-İmam Sadiq(ə) buyurur: "Vallah, sizin üçün bərzəxdən qorxuram. (Rəvayətçi deyir:) Soruşdum: Bərzəx nədir?

Buyurdu: Qəbir – ölümdən qiyamətə kimi!”[1]

Bu hədisdə həm bərzəx, həm də qəbir kəlməsi işlənmişdir ki, hər ikisini eyni məfhum kimi başa düşmək mümkündür. Yəni insan öldükdən sonra qiyamətə kimi cismi qəbirdə, ruhu isə bərzəx aləmində məskunlaşır. Əsas bəhsimiz də bərzəx barəsindədir ki, insanın ruhu qiyamətə kimi orada necə məskunlaşır və orada nə edir? Bu bəhsə başlamamışdan öncə bir mətləbə də diqqət yetirmək lazımdır ki, gələcək söhbətlərimizdə bunu geniş şəkildə açıqlayarıq.

Həmin mətləb ondan ibarətdir ki, bərzəx aləmi nə bu dünyaya, nə də qiyamətə aid deyil. Bərzəxdə yaşayan ruh nə dünyada yaşadığı kimi yaşayır, nə də axirətdə yaşayacağı kimi yaşayır. Oranın özünəməxsus yaşam tərzi vardır ki, bu aləmin də qayda-qanunları mövcuddur. Elmi terminda buna “qalibi-misli” “xəfif bədən” deyilir. Bu, ruhun bərzəx aləmində yerləşdiyi bir formatdır. Yaşadığımız dünyada insanın cismi də onun ruhu üçün bir qəlibdir. İnsan öldükdə ruhu həmin qəlibdən ayrılır. Bərzəx aləmində də ruh bir qəlibə, yəni bədənə yerləşdirilir ki, həmin qəlib də bu dünyadakı bədənə oxşar bir formadadır. Orada insanın ruhunun yerləşdiyi bədən maddi və mücərrəd bədən deyildir. Beləcə, insan öldükdən sonra bərzəx aləmində, həmin xəfif bədəndə yaşayır.

Hədislərdə bərzəx aləminin necə bir yer olduğuna işarə olunmuşdur. Əlbəttə, bu barədə olan hədisləri gələcək bəhslərimizdə qeyd edəcəyik. İndi isə sadəcə olaraq bir hədisdə bərzəx aləmi ilə bu dünyanın müqayisəsinə diqqət yetirək. Hədisdə bərzəx aləmi ilə bu

---

[1] Mizanül-hikmə, 1-ci cild, hədis - 1684.

dünya ana bətni ilə bu dünya kimi müqayisə edilmişdir. Yəni bir uşaq ana bətnində olarkən bu dünyadan xəbəri olmadığı üçün dünyanın nə qədər böyük olduğunu da təsəvvür edə bilmir. Bu dünya ilə bərzəx aləmini müqayisə etmək uşağın ana bətnində olduğu zaman bu dünyanı təsəvvür edə bilməməsi kimidir. Ruh bədəndən ayrıldıqdan sonra başa düşür ki, bərzəx aləmi tamamilə başqa bir aləm imiş.

Mənim yaxın bir dostum var idi. Bir-birimizin xətrini çox istəyirdik. O, şəhid olduqdan sonra yaxın dostumu itirdiyimə görə çox narahat idim. Gecələrin birində yuxuma gəlib mənə dedi: "Siz elə təsəvvür edirsiniz ki, yaşadığınız dünya böyük bir aləmdir? Əgər bura gəlsəniz, görərsiniz ki, aləm necə olur."

Düzdür, bu, bir yuxudur, amma yuxu da olsa hədis və ayələrlə çox uyğun gəlir. Onun dediyi söz həmin sözdür ki, hədislərdə də bizə bəyan olunmuşdur. Uşaq ana bətnini özü üçün böyük bir aləm bilir. Amma dünyaya gəldikdən sonra başa düşür ki, ana bətni onun üçün çox kiçik və dar bir yer imiş. İnsan bu dünyadan köçdükdən və bərzəx aləmini gördükdən sonra bu dünyanın həqiqətən də çox kiçik bir aləm olduğunu dərk edir.

## Quran baxımından bərzəx aləmi

Qurani-Kərimdə bərzəx aləmi barədə müxtəlif ayələr vardır ki, indi biz onlardan bir neçəsinə diqqət yetirək. Qeyd edəcəyim ayələrdən üçü şəhidlər, ikisi isə qeyri-şəhidlər, yəni bütün insanlar barəsindədir. Bütün bunlara baxmayaraq, həmin ayələrin hamısı eyni mənadadır. Yəni bu ayələr bizə başa salır ki, insan dünyasını dəyişdikdən sonra bərzəx aləmində məskunlaşır. Dünyadan köçən şəxs yaxşı insan olsa, bərzəx aləmində də ona yaxşı yer verilir.

Yox, əgər həmin şəxs pis insan olsa, orada da pis bir yerdə məskunlaşacaqdır. Əgər bir insan öldükdən sonra ona əzab verilirsə, bu əzab bərzəxin əzabıdır. Qiyamət əzabı isə həmin günün baş verdiyi təqdirdə bilinəcək. Həmçinin orada şadlıq və ləzzət də eynilə belədir.

Bərzəx aləmi barədə olan ayələrə diqqət yetirək. Allah-təala "Ali-İmran" surəsinin 169-cu ayəsində buyurur:

وَلاَ تَحْسَبَنَّ الَّذِينَ قُتِلُواْ فِي سَبِيلِ اللّهِ أَمْوَاتًا بَلْ أَحْيَاءٌ عِندَ رَبِّهِمْ يُرْزَقُونَ

-Allah yolunda öldürülənləri əsla ölü zənn etmə, əksinə, diridirlər və onlara Rəbbi yanında ruzi verilir.

Allah-təala bu ayədə şəxsən İslam Peyğəmbərinə(s) çox açıq-aydın şəkildə bəyan edir ki, Allah yolunda öldürülən, şəhid olan insanlar Onun yanında diridirlər və orada onlara ruzi verilir.

"Bəqərə" surəsinin 154-cü ayəsində bütün insanlara belə buyurulur:

وَلاَ تَقُولُواْ لِمَنْ يُقْتَلُ فِي سَبيلِ اللّهِ أَمْوَاتٌ بَلْ أَحْيَاء وَلَكِن لاَّ تَشْعُرُونَ

-Allah yolunda öldürülənlərə ölü deməyin, əksinə, diridirlər və lakin (bunu) siz dərk etmirsiniz.

Bərzəx aləmi haqq bir aləmdir ki, yuxarıdakı ayələrdə oranın necəliyi misallarla bizə başa salınır. Amma biz oranın necəliyini dərk edə bilmirik. Bu ayədə də Allah-təala insanlara başa salır ki, Allah yolunda öldürülən insanlar ölü deyillər. Onlar diridirlər, lakin siz bunu dərk etmirsiniz.

Həmçinin "Yasin" surəsinin 26-27-ci ayələrində bir nəfər barəsində söz açılmışdır. Həmin şəxsin adı Həbib

Nəccardır. O, Həzrət İsa Peyğəmbərin(ə) dövründə yaşamışdır. Həzrət İsa(ə) peyğəmbərliyə və camaatı hidayət etməyə başladıqda bəzi ölkələrə nümayəndə göndərdi. Əntakiyyə Şamın ən qədim şəhərlərindən biri olmuşdur. Qədim zamanlarda bu şəhər sərvəti, elmi və ticarəti ilə məşhur olmuş və Roma imperiyasının üç əsas şəhərlərindən biri hesab olunurdu. Əntakiyyə Hələb şəhərindən təxminən 100 kilometr aralıda yerləşirdi. Bu şəhər xristianlar üçün Beytül-müqəddəsdən sonra ikinci dini şəhər sayılırdı. Həzrət İsa(ə) öz dinini təbliğ etmək üçün tərəfdarlarından iki nəfəri Əntakiyyəyə göndərdi. Onlar şəhərə yaxınlaşdıqda orada qoyun otaran qoca bir kişi gördülər. Həmin kişi "Yasin" surəsində haqqında söhbət gedən Həbib Nəccar idi. Həzrət İsanın(ə) tərəfdarları ona salam verdilər. O, salamın cavabını verib onlardan kim olduqlarını soruşdu. Onlar belə cavab verdilər: "Biz İsanın göndərdiyi təbliğatçılarıq. Gəlmişik ki, sizi bütlərə itaət etməkdən çəkindirək və Rəhman Allaha ibadət etməyə dəvət edək."

Həbib soruşdu: "Sizin möcüzəniz varmı?" Onlar dedilər: "Həzrət İsa(ə) Allahın Peyğəmbəridir. Onun xəstələrə şəfa vermək, ölüləri diriltmək kimi möcüzələri vardır. Bizə də anadangəlmə korları və alalıq xəstəliyinə tutulanları Allahın izni ilə sağaltmaq kimi bəzi möcüzələr göstərməyə icazə vermişdir."

Həbib dedi: "Mənim illərlə yataq xəstəsi olan bir övladım var."

Onlar dedilər: "Gəl sənin evinə gedib ona bir nəzər salaq."

Həbib onları da götürüb evinə gəldi. Həzrət İsanın(ə) tərəfdarlarından biri əlini onun övladının bədəninə sürtən kimi xəstə Allahın izni ilə şəfa tapdı. Bu xəbər bütün

şəhərə yayıldı. Bundan sonra onlar bir çox xəstələrə də şəfa verdilər. Həmin adamlar o şəhərin padşahı ilə də görüşüb söhbət etdilər ki, bu barədə kifayət qədər geniş şəkildə söhbət etmək olar.[1]

Uzun sözün qısası, Həbib onlara səmimi qəlbdən iman gətirdiyini təsdiqlədi. Onun Allaha və peyğəmbərlərə olan imanı o qədər möhkəm idi ki, həmişə onları müdafiə edirdi. Axırda da o, bu yolda şəhid oldu. Allah-təala Qurani-Kərimdə onun barəsində belə buyurur:

قِيلَ ادْخُلِ الْجَنَّةَ قَالَ يَا لَيْتَ قَوْمِي يَعْلَمُونَ. بِمَا غَفَرَ لِي رَبِّي وَجَعَلَنِي مِنَ الْمُكْرَمِينَ

-(Axırda onu öldürdülər və ona) deyildi: "Cənnətə daxil ol!" O dedi: "Kaş qövmüm biləydi ki, Rəbbim məni bağışladı və məni hörmət sahiblərindən etdi."

Sual oluna bilər ki, qeyd olunan ayələrdə bərzəx aləmini necə başa düşmək olar? Cavab olaraq Həbib Nəccarın öldükdən sonra dediyi sözlərə diqqət yetirək. Həbibi öldürdükdən sonra ona deyildi: "Cənnətə daxil ol!" O da həmin aləmi gördükdən sonra dedi: "Kaş qövmüm biləydi ki, Rəbbim məni bağışladı və məni hörmət sahiblərindən etdi." Buradan məlum olur ki, həmin məsələ qiyamətdən əvvəl olan bir məsələyə işarədir. O, qövmü diri olan halda, özü isə bərzəxə daxil olduqdan sonra bu sözləri demişdi. Qiyamət günü bütün canlıların hamısı öldükdən sonra baş verəcək. Hər kəs bu ayənin qiyamətə aid olduğunu iddia edirsə, səhv düşünür. Həbib Nəccara "Cənnətə daxil ol!" dedikdə bu cənnət bərzəx cənnətidir. Qiyamətdən əvvəl ölən insanlar bərzəx aləminin

[1] Təfsiri-nümunə,18-ci cild, səh.359.

cənnətində məskunlaşırlar. Qiyamət baş verdikdən sonra isə oranın da özünəməxsus cənnəti vardır. Yəni qiyamətin və bərzəxin cənnətləri bambaşqadır. Qeyd olunan ayələrdə bəyan edilir ki, onlara (şəhidlərə) cənnətdə ruzi verilir, onlara mərhəmət və ikram göstərilir. Bütün bunlar qiyamət cənnətinə deyil, bərzəx cənnətinə aiddir.

Bərzəx aləminə aid olan digər ayələrə diqqət yetirdikdə görürük ki, qiyamət baş verməmişdən öncə pis insanlar öldükdən sonra əzaba düçar olurlarsa, deməli, bu əzab da bərzəx əzabıdır. Yəni bərzəxin cənnəti olduğu kimi, bərzəxin cəhənnəmi də vardır. Məsələn, "Ğafir" surəsinin 45-46-cı ayələrində fironçular barədə oxuyuruq:

وَحَاقَ بِآلِ فِرْعَوْنَ سُوءُ الْعَذَابِ. النَّارُ يُعْرَضُونَ عَلَيْهَا غُدُوًّا وَعَشِيًّا وَيَوْمَ تَقُومُ السَّاعَةُ أَدْخِلُوا آلَ فِرْعَوْنَ أَشَدَّ الْعَذَابِ

-Və fironçulara ağır bir əzab gəldi və onları bürüdü. Fironçuların (Bərzəx aləmində) hər səhər-axşam məruz qaldıqları həmin od! Qiyamət qopduğu gün isə "fironçuları ən şiddətli əzaba daxil edin" (deyiləcəkdir).

Fironçular öldükdən sonra bərzəx aləmində qiyamət gününə kimi hər səhər-axşam onlara əzab verilir. Belə ki, onları odun yanına gətirir, oda yaxınlaşdırır və sonra isə geri çəkirlər. Yaxud odu onlara yaxınlaşdırdıqda onlar odun istisini hiss edib nalə çəkirlər. Onların bərzəx həyatı qiyamətə qədər belə keçir. Qiyamət günü onlar həmişəlik odun içində yanacaqlar. Amma bərzəx aləmində səhər və axşam onlara beləcə əzab veriləcəkdir. Bu barədə İslam Peyğəmbərindən(s) çox eşitməli bir hədis vardır.

قَالَ رَسُولُ اللّهِ(ص): إِنَّ أَحَدَكُمْ إِذَا مَاتَ عُرِضَ عَلَيْهِ مَقْعَدُهُ بِالْغَدَاةِ وَالْعَشِيِّ إِنْ كَانَ مِنْ أَهْلِ الجَنَّةِ فَمِن الجَنَّةِ وَإِنْ كَانَ مِنْ أَهْلِ

النَّارِ فَمِنَ النَّارِ فَيُقَالُ هَذَا مَقْعَدُكَ حَتَّى يَبْعَثَكَ اللهُ يَوْمَ الْقِيَامَةِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Sizlərdən hər hansı biriniz öləndən sonra gedəcəyi yeri gecə və gündüz (gündə iki dəfə) ona göstərərlər. Əgər həmin insan cənnət əhli olsa, ona cənnəti, yox, əgər cəhənnəm əhli olsa, ona cəhənnəmi göstərərək deyərlər: Bu, qiyamət günü Allah səni qəbirdən qaldırdıqdan sonra gedəcəyin yerdir."[1]

Həzrət Nuhun(ə) qövmünün barəsində də belə bir əzab vardır. "Nuh" surəsinin 25-ci ayəsində oxuyuruq:

مِّمَّا خَطِيئَاتِهِمْ أُغْرِقُوا فَأُدْخِلُوا نَارًا فَلَمْ يَجِدُوا لَهُم مِّن دُونِ اللَّهِ أَنصَارًا

-(Bəli,) günahları üzündən onlar suda batdılar və birbaşa (Bərzəx aləmindəki yandırıcı) oda daxil edildilər, özləri üçün Allahdan başqa heç bir köməkçi və yardımçı tapmadılar.

Alimlər bu ayənin də bərzəx aləminə aid olunduğunu qeyd etmişlər. Yəni Nuhun(ə) qövmünə bəla gəldikdən və onlar məhv olduqdan sonra bərzəx əzabına düçar olmuşlar. Deməli, qeyd olunan ayələrdən məlum olur ki, qiyamət baş verməmişdən öncə insanlar bərzəx aləmində məskunlaşır və oranın da özünəməxsus cənnət və cəhənnəmi vardır.

Yaşadığımız bu dünyada nadir hallarda Allah-taalanın bəzi əməlisaleh bəndələrinə bərzəx aləmində baş verən müəyyən halları göstərməsi də müşahidə edilir. Tarixdə belə nümunələrə rast gəlmək mümkündür. Məsələn, İranda atası şəhid olmuş məktəbli ilə bağlı bir hadisəyə diqqət yetirək:

[1] Quranın xəbər verməsi, 5-ci cild, səh. 450.

-İranın şəhərlərinin birində məktəbli bir şagirdin atası şəhid olmuşdu. Həmin hadisənin üstündən təxminən bir il keçirdi. Müəllim şagirdlərin ev tapşırıqlarını yoxladıqdan sonra dəftəri onlara qaytarıb deyir ki, aparın evdə atanız tapşırığın aşağısına imza atsın. Həmin uşaq da dəftəri götürüb evə gəlir. Gecə yatarkən atasını yadına salıb ağlamağa başlayır. Elə o haldaca yuxuya gedir. Yuxuda atası onun yanına gəlib soruşur: “Nə üçün ağlayırsan?” Uşaq deyir: “Müəllim bu dəftəri bizə verib dedi ki, aparın evdə atanız imzalasın. Sənin olmadığını düşünüb ağlayıram.” Atası deyir: “Dəftəri ver mənə.” Uşaq da dəftəri ona verir. O da həmin tapşırığın aşağısına qırmızı qələmlə imza atır. Uşaq səhər yuxudan durub vərəqə baxdıqda görür ki, yuxuda olduğu kimi vərəqin aşağı hissəsində atasının imzası var. Dərsə gedib dəftəri müəllimə verir. Müəllim təəccüblə soruşur: “Bu, kimin imzasıdır.” Uşaq “atamın” - deyə cavab verir.

Həmin əhvalat İranın bütün şəhərlərində təəccüblə qarşılanır. Hətta dəftəri uşaqdan alıb atasının başqa imzaları ilə müqayisə də edirlər. Ekspertlər öz fikirlərini bildirdikdən sonra görürlər ki, bu imza doğrudan da həmin şəhidin imzasıdır. Hazırda da həmin dəftəri İranda muzeydə saxlayırlar.

Mövla Mehdi Nəraqi böyük alim və müctəhidlərdən biri idi. Onun oğlu da böyük şəxsiyyətlərdən sayılırdı. Hər ikisi əxlaq elmi barədə dəyərli kitablar yazmışlar. Atanın yazdığı kitabın adı “Camius-saadat”, oğulun yazdığı kitabın adı isə “Meracus-səadə” adlanır. İslam aləmində demək olar ki, çox insanlar bu kitabları mütaliə etmiş və onlardan bəhrələnmişlər. Mehdi Nəraqi təxminən 81 il yaşamış və 225 il bundan öncə dünyasını dəyişmişdir. O, həm böyük ustad, həm arif, həm əxlaq alimi, həm də

böyük bir şəxsiyyət idi. Onun şəxsiyyəti barədə günlərlə danışmaq olar. Onunla bağlı bir əhvalat məlumdur ki, bu barədə belə yazmışlar:

-Ramazan ayının günlərinin birində evdə ərzaq olmadığından həyat yoldaşı deyinməyə başlayır. Ayətullah Nəraqi evdən çıxıb "Vadiüs-salam" qəbiristanlığına gəlir. Orada bir qədər gəzişdikdən sonra görür ki, dəfn etmək üçün qəbiristanlığa bir cənazə gətirirlər. Həmin cənazəni uzaq bir yerdən gətirirdilər. Dəfndə isə cəmi 4-5 nəfər iştirak edirdi. Onlar meyitin dəfn edilməsi zamanı oxunan duanı bilmədiklərindən həmin yerdə gəzişən Ayətullah Nəraqidən xahiş edirlər ki, bu işdə onlara kömək etsin. Ayətullah Nəraqi onların xahişini qəbul edərək cənazəni qəbrə qoyur və dua oxumaq üçün özü də onun yanına düşür. Özünün dediyinə görə qəbrə düşən kimi oradan bir qapının açıldığını görür. O deyir: Həmin qapıdan içəri daxil olduqda gördüm ki, böyük bir aləm və yaşıllığın içindəyəm. Qarşımda da böyük bir saray var. Saraya daxil olduqda gördüm ki, bir nəfər əyləşib, ətrafında da bir neçə nəfər var. Ona yaxınlaşıb soruşdum: Siz kimsiniz? O dedi: Allahın mömin bir bəndəsi. Dedim: Bəs mənim gördüyüm bu aləm haradır? Dedi: Bura bərzəxin cənnətidir. Bu bağı və sarayı da mənə veriblər. Sonra onun ətrafındakı insanların kim olduğunu soruşdum. O dedi: Bunlar mənim qohum-əqrəbamdır.

Ayətullah Nəraqi daha sonra dedi: Onun vəziyyəti çox yaxşı idi. Amma söhbət əsnasında bir ilan gəlib onu sancdı və getdi. İlan onu sancan kimi halı dəyişdi və vəziyyəti pisləşdi. Bir az keçdikdən sonra özünə gəldi. Yenə də söhbətimizə davam etdik. O, məndən soruşdu: Kimi görmək istəyirsən? Dedim: Atamı. O, mənim atamı çağırdı. Atamla görüşdükdən sonra yenə soruşdu: İndi

kimi görmək istəyirsən? Dedim: Anamı. Anamı da çağırdı və onunla da görüşdüm. Sonra yenə də soruşdu: Bəs indi kimi görmək istəyirsən? Dedim: Daha bəsdir. Amma səndən bir şey soruşmaq istəyirəm. Dedi: Soruşa bilərsən. Dedim: Görürəm ki, burada sənin vəziyyətin çox yaxşıdır. Amma təəccüblüsü budur ki, nə üçün o ilan gəlib səni sancdı? O dedi: Dünyada olarkən mənim bütün işlərim qaydasında idi. Namazım, orucum və digər əməllərim yerli-yerində idi. Günlərin birində küçəmizlə gedirdim. O küçədə bir mağaza var idi. Birdən həmin mağazadan səs-küy eşitdim. İki nəfər uca səslə bir-biri ilə mübahisə edirdilər. Məsələnin nə yerdə olduğunu öyrənmək üçün dükana daxil oldum. Gördüm ki, alıcı deyir: Mən sənə beş dirhəm borcluyam. Satıcı isə deyir ki, xeyr, sən mənə altı dirhəm verməlisən. Mən onların söhbətinə qarışdım və onları sakitləşdirmək üçün dedim: hər ikiniz yarım dirhəm haqqınızdan keçin. Satıcı razılaşdı, amma alıcı ürəksiz halda mənimlə razılaşdı. Həmin məsələyə müdaxilə etdiyim üçün və o möminə bilə-bilə yarım dirhəm ziyan vurduğumdan Allah-təala burada həmin ilanı mənim üzərimdə hakim təyin edib. Həmin ilan hərdən gəlib məni sancır və gedir. O ilan məni sancan kimi bütün əhvalım korlanır. Qiyamətə qədər də hərdən gəlib məni sancacaq.

Mən onunla sağollaşıb qayıtmaq istəyəndə o, mənə bir kisə düyü bağışladı. Mən kisəni ondan alan kimi həmin səhnə gözümün qabağında dəyişildi. Baxıb gördüm ki, qəbirdə cənazə dəfn edirəm. Amma düyü kisəsi də

yanımdadır.[1] Dəfn mərasimindən sonra həmin kisəni evə gətirdim. Həyat yoldaşım düyünü görüb çox sevindi. Evdə həmin düyünü bişirərkən onun ətri qonşulara yayılırdı.

Həmin hadisənin üstündən bir müddət keçdi. Günlərin birində yoldaşım məndən soruşdu ki, bu düyünü haradan almısan? Dedim: Nəyinə lazımdır? Sən bişir və ye özünçün. Dedi: Axı, gətirdiyin gündən bəri bu düyünü bişirirəm, amma kisədəki düyü azalmır. Altı aydır ki, bu düyünü bişirirəm, amma azalmır ki, azalmır. Dedim: Nə üçün bunu dilinə gətirdin?! İndi ki söylədin, bundan sonra işlətdikcə azalıb qurtaracaq. Əgər bu sözü deməsəydin, ömrünün axırına qədər həmin düyünü işlədə biləcəkdin.

Tarixdə bu kimi əhvalatlar nadir hallarda baş versə də, hər halda olmuşdur. Həm peyğəmbərlərin həyatında, həm kəramətli insanların, həm də əməlisaleh insanların həyatında belə halların baş verməsi inkarolunmazdır. İslam Peyğəmbərinin(s) dövründə möminlərdən biri Həzrəti(s) şam yeməyinə qonaq çağırır. Həzrət Peyğəmbər(s) namazdan sonra səhabələri çağırıb buyurur: “Filankəs bizi şam yeməyinə dəvət edib.” Hamı yığışıb birlikdə onun evinə sarı yollanırlar. Yolda hər kimi görürdülərsə, onu da özləri ilə aparırdılar. Ev sahibi baxıb görür ki, Həzrət Peyğəmbər(s) özü ilə xeyli adam da gətirib. Öz-özünə fikirləşib deyir: “İlahi, mən cəmi bir-iki nəfər üçün yemək hazırlatmışam. Bu yeməyi gələn camaata necə paylaşdıra bilərəm?” O, bu işin axırının necə olacağını düşünüb çox narahat olur. Ev kiçik olduğundan

---

[1] Bərzəx aləmində zaman məfhumu olmadığı üçün bütün bu hadisələr bir anın içində də baş verə bilər. Zaman bu dünyaya aid olduğu üçün biz başqa aləmi zamansız təsəvvür edə bilmirik.

Həzrət Peyğəmbər(s) möminlərə göstəriş verir ki, hissə-hissə süfrə kənarında əyləşsinlər və yedikdən sonra çölə çıxsınlar ki, digər möminlər də gəlib yeyə bilsinlər. Sonra Həzrət Peyğəmbər(s) özü qazanın kənarında dayanıb qablara yemək çəkməyə başlayır. Bütün qonaqların hamısı yeyib doyduqdan sonra ev sahibi baxıb görür ki, bişirdiyi yemək olduğu kimi qazanda qalıb və azacıq da olsa azalmayıb. Təəccüblə deyir: "Ya Rəsulallah, mən azacıq yemək bişirmişdim. Gələn bütün qonaqlara çatdı və qazandan da heç bir şey azalmadı. Necə bişirmişdimsə, eləcə də qaldı."

Həzrət Peyğəmbər(s) buyurdu: "Nə üçün dilinə gətirdin? Əgər bu sözü deməsəydin, ömrünün axırına qədər həmin yeməyi yesəydin belə, yenə də azalmayacaqdı. İndi ki, dilinə gətirdin, bundan sonra yedikcə azalacaq."

Bütün bu əhvalatları qeyd etməkdə məqsədim bərzəx aləmi haqda nələrisə sizə çatdırmaqdır. Bu aləm elə bir aləmdir ki, biz oranı görməmişik və oranın necə bir yer olduğunu təsəvvür belə edə bilmirik. Qurani-Kərimin ayələrinə və məsumların hədislərinə əsasən, insanlar öldükcə ruhları orada məskunlaşır. Bəzi insanlar orada əzab içərisində, bəziləri isə şadlıq və firavanlıq içərisində yaşayırlar.

## Bərzəx aləmi hədis və rəvayətlərdə

Ötən bəhsimizdə bərzəx aləmi barədə Quranın beş ayəsini qeyd etdik. Qurani-Kərim baxımından bu ayələrdən bizə məlum olur ki, insan öldükdən sonra ruhu bərzəx aləmində məskunlaşır. Ölən insan əgər dünyada iman əhli olub Allah qarşısında baş əymişsə, Onun qanunlarına riayət etmişsə, bu insanın ruhu bərzəx

aləminin cənnətində yaşayır. Yox, əgər dünyada Allahın qanunlarına məhəl qoymayaraq Ona bəndəlik etməyibsə, yaxud iman gətirməyibsə və küfr aləmində yaşayaraq elə o haldaca ölsə, onun ruhu qiyamətə kimi bərzəx aləminin cəhənnəmində yaşayacaq. Lakin bu əzab qiyamət əzabı kimi deyil. Oranın əzabı yuxarıda qeyd olunan ayədə bəyan edildiyi kimi odla təhdid halında, əzab içərisində yaşamaqdır. Əzaba düçar olunmuş insan qiyamət gününə kimi beləcə yaşayacaqdır. Bunlar Qurani-Kərimin yığcam şəkildə bizlərə buyurduqlarıdır.

Hədis və rəvayətlərə gəldikdə isə, bunlar bərzəx aləmini bir qədər geniş şəkildə açıqlayır. Bildiyimiz kimi, hədis və rəvayətlər Quranı təfsir edib ayələrini açıqlayır. Həzrət Peyğəmbərin(s) hədisləri Qurani-Kərimin ayələrinin təfsir və şərhindən ibarətdir. Əgər Quran hər hansı bir məsələni ümumi şəkildə bəyan edirsə, hədis həmin məsələnin incəliklərinə qədər bizə açıqlayır. Həmçinin bərzəx aləmi barədə də bir çox hədislər nəql olunmuş və həmin hədislərdə bərzəx barədə bəzi xırdalıqlar bəyan olunmuşdur.

Bərzəx barədə nəql olunmuş hədisləri üç qismə bölmək olar. Bu barədə nəql edilmiş hədislərin bəzisində ümumi insanların bərzəxdəki halı, bəzisində möminlərin bərzəxdəki vəziyyəti və bəzilərində isə kafirlərin oradakı vəziyyəti haqda söhbət açılmışdır.

Bu bəhsimizdə bütün insanların bərzəx aləminə getməsi barədə nəql olunmuş hədislərdən danışacağıq. Yəni burada söhbət ümumi olaraq insanların öldükdən sonra onların ruhlarının harada məskunlaşmasından gedir. Həm Quran ayələrindən, həm də hədislərdən aydın olur ki, insan dünyasını dəyişdikdən sonra cismi torpağa, ruhu isə bərzəx adlı bir aləmə gedir. Qiyamətə qədər bütün ruhlar

orada yaşayırlar. Möminlər bərzəxin cənnətində, kafirlər isə oranın cəhənnəmində qalır. Beləcə, orada hamı qiyamətin baş verməsini gözləyir. Qiyamət baş verdikdə isə bərzəx aləminə son qoyulacaq. Çünki qiyamətin özü də bir aləm olduğu üçün insanlar bərzəx aləmindən qiyamət aləminə köçəcəklər. İnşallah, gələcək bəhslərimizdə qiyamət barədə də bəhs edəcəyik.

## Bərzəxin həqiqəti və insanların ruhlarının orada məskunlaşması

Bərzəx aləmi barəsində olan hədislərdən biri belədir: Bədr döyüşü müsəlmanların qələbəsi ilə başa çatdıqdan sonra Həzrət Peyğəmbər(s) bir qrup səhabələrlə meydanda gəzirdi. Müsəlmanların əli ilə öldürülmüş müşriklərin cəsədlərinin kənarından keçərkən Həzrət Peyğəmbər(s) dayanıb onların bəzisinin adını çəkdi və belə buyurdu:

يا أبا جهلٍ يا عُتبةُ يا شَيبةُ يا أُميّةُ، هل وجَدْتُم ما وَعَدَ ربُّكُم حَقّا؟ فإنّي قد وَجَدْتُ ما وَعَدني ربّي حَقّا. فقالَ عمرُ: يا رسولُ اللّهِ، ما تُكَلِّمُ مِن أجسادٍ لا أرواحَ فيها؟! فقالَ: و الّذي نَفْسي بِيَدِهِ، ما أنتُم بأسْمَعَ لِما أقولُ مِنهُم، غيرَ أنَّهُم لا يَسْتَطيعونَ جَوابا

-Ey Əbu Cəhl, ey Ütbə, ey Şeybə, ey Üməyyə, Allahın sizin barənizdə verdiyi (əzab və məğlubiyyət) vədəsinin haqq olduğunu gördünüzmü? Mən Allahımın mənə verdiyi vədəsinin haqq olduğunu gördüm.

Ömər dedi: “Ya Rəsulallah, ruhsuz bədənlərləmi söhbət edirsən?”

Həzrət Peyğəmbər(s) buyurdu: “And olsun canım əlində olan zata ki, siz mənim sözlərimi onların eşitdiyi

kimi yaxşı eşitmirsiniz. (Onlar məni çox yaxşı eşidirlər), amma cavab verə bilmirlər.”

Bu hədisin mövzumuza uyğun olaraq mənası odur ki, insan öldükdən sonra qiyamət gününə qədər (dünya ilə qiyamət arasındakı) bir aləmdə yaşayır. Həmin aləmə bərzəx deyilir. Dünyadan gedən hər bir kəs orada məskunlaşır və qiyaməti gözləyir. İmanla gedən insan orada yaxşı, imansız gedən insan isə pis vəziyyətdə yaşayır.

Digər bir hədis isə belədir: Həzrət Əli(ə) səhabələrlə birgə Siffeyn müharibəsindən qayıdarkən Kufə qəbiristanlığının kənarında dayanıb qəbiristanlıq əhlini səsləyərək buyurdu:

يَا أَهْلَ الدِّيَارِ الْمُوحِشَةِ وَ الْمَحَالِّ الْمُقْفِرَةِ وَ الْقُبُورِ الْمُظْلِمَةِ يَا أَهْلَ التُّرْبَةِ يَا أَهْلَ الْغُرْبَةِ يَا أَهْلَ الْوَحْدَةِ يَا أَهْلَ الْوَحْشَةِ أَنْتُمْ لَنَا فَرَطٌ سَابِقٌ وَ نَحْنُ لَكُمْ تَبَعٌ لَاحِقٌ أَمَّا الدُّورُ فَقَدْ سُكِنَتْ وَ أَمَّا الْأَزْوَاجُ فَقَدْ نُكِحَتْ وَ أَمَّا الْأَمْوَالُ فَقَدْ قُسِمَتْ هَذَا خَبَرُ مَا عِنْدَنَا فَمَا خَبَرُ مَا عِنْدَكُمْ. ثُمَّ الْتَفَتَ إِلَى أَصْحَابِهِ فَقَالَ أَمَا لَوْ أُذِنَ لَهُمْ فِي الْكَلَامِ لَأَخْبَرُوكُمْ أَنَّ خَيْرَ الزَّادِ التَّقْوَى

-Ey qorxulu diyarların, kimsəsiz və yemək-içməksiz yerlərin və qaranlıq qəbirlərin sakinləri! Ey torpaq sakinləri, ey vətəndən uzaq qalanlar, ey kimsəsizlər, ey qorxulular! Siz bizim irəli getmiş qabaqcıllarımızsınız və biz sizin arxanızca gələnlərik və sizə çatacağıq. Evlərə *(evlərinizə)* gəldikdə, *(bilin ki,)* onlarda sakin oldular, arvadları *(arvadlarınızı)* aldılar, var-dövlətləri *(sizin sərvətlərinizi)* bölüşdürdülər. Bu, bizim yanımızda olan şeylər barəsindəki xəbərlərdir. Bəs sizin yanınızda olan şeylərdən nə xəbər?

Sonra üzünü yoldaşlarına tutub buyurdu: “Bilin! Əgər onlara danışmaq icazəsi və əmri verilsəydi, sizə xəbər verərdilər ki, *(bu yolda)* ən yaxşı azuqə təqva və pəhrizkarlıqdır.”[1]

Bu hədisdən də başa düşürük ki, səhabələr İmam Əlinin(ə) buyurduğu sözləri eşitdiyi kimi, həmin sözləri qəbiristanlıq əhli də eşidir. Amma səhabələrlə qəbiristanlıq əhlinin fərqi budur ki, səhabələr danışa, sual və cavab verə bilirlər, lakin qəbiristanlıq əhlinə danışmaq icazəsi verilmədiyi üçün cavab verə bilmirlər. Necə ki, Həzrət Əli(ə) sözünün axırında buyurur: “Əgər onlara danışmaq icazəsi və əmri verilsəydi, sizə xəbər verərdilər ki, *(bu yolda)* ən yaxşı azuqə təqva və pəhrizkarlıqdır.” Onlar yalnız Allah danışmaq izni verdikdə danışa bilərlər. Onlar görürlər, eşidirlər, həqiqətləri bilirlər. Sadəcə danışmaq qüdrəti onlardan alınıb və danışmağa icazələri yoxdur. Elə də düşünmək lazım deyil ki, insan öldüsə, deməli, çürüyüb torpağa qarışır, nə görə bilir və nə də eşidə bilir. Bədən çürüyə bilər, amma insanın ruhu həmişə diridir. Ruh bərzəx aləmində qiyamət gününü gözləyir. Qiyamət baş verdikdə isə böyük bir məhkəmə qurulacaq və insan dünyada etdiyi əməllərinə görə mühakimə olunacaq. Qiyamət gününə qədər isə bərzəxdə yaşayan yaxşı insanlar yaxşı, pis insanlar isə oranın pis yerində məskunlaşırlar.

قَالَ الصَّادِقُ(ع): البَرْزَخُ القبر و فيه الثَّوابُ و العِقابُ بَينَ الدُّنيا وَ الآخِرَةِ.

---

[1] Mizanül-hikmə, 1-ci cild, hədis - 1695; Quranın xəbər verməsi, 5-ci cild, səh. 457.

-İmam Sadiq(ə) buyurur: “Bərzəx (həmin qəbirdir ki,) dünya və axirətin arasında insana mükafat və cəza verilən yerdir.”[1]

Qeyd etdiyimiz hədislər ümumi şəkildə insanların bərzəx aləmi ilə bağlı nəql olunan hədislərdəndir. Bu hədislərdən bizə aydın olur ki, insan öldükdən sonra cismi torpaqda, ruhu isə bərzəx adlanan yerdə məskunlaşır.

## Möminlərin bərzəxdəki vəziyyətləri

Bəzi hədisləri oxuduqda görürük ki, həmin hədislər bərzəx aləmindəki möminlərin vəziyyətndən xəbər verir. Məsələn, İmam Sadiq(ə) möminlərin ruhları barəsində belə buyurur:

ذَكَرَ الأرواحَ أرواحَ المؤمنينَ فقالَ: يَلْتَقونَ. قلتُ: يَلْتَقونَ؟! فقالَ: نَعَم، و يَتَساءَلونَ و يَتَعارَفونَ، حتّى إذا رأيتَهُ قُلتَ: فُلانٌ

-Bərzəxdəki möminlər bir-biri ilə görüşürlər. Rəvayətçi (Əbu bəsir) deyir: Təəccüblə ondan soruşdum: Görüşürlər? İmam(ə) buyurdu: Bəli, (hətta) bir-birindən nəyisə soruşurlar, bir-birini tanıyırlar. Belə ki, bir mömini gördükdə yanındakına deyir: Bu filankəsdir.[2]

Başqa bir hədisdə İmam Sadiq(ə) möminlərin ruhları barəsində belə buyurur:

[1] Mizanül-hikmə, 1-ci cild, hədis - 1683.
[2] Mizanül-hikmə, 1-ci cild, hədis - 1688.

أرواحُ المؤمنينَ في حُجُراتٍ في الجنّةِ، يأكُلونَ مِن طَعامِها، و يَشْرَبونَ مِن شَرابِها، و يَتَزاوَرونَ فيها، و يقولونَ: ربَّنا، أقِمْ لنا السّاعةَ لِتُنْجِزَ لنا ما وَعَدْتَنا

-Bərzəxdə möminlərin ruhları cənnətdəki otaqlardadır. Oranın yeməklərindən yeyir, içməlilərindən içirlər. Bir-birilərinin görüşünə gedir və "Pərvərdigara! Bizə vəd etdiklərini həyata keçirmək üçün qiyaməti bərqərar et!" - deyirlər.[1]

Bu hədisdə də görürük ki, möminlərin ruhları bərzəxin cənnətindədir və öz otaqlarında məskunlaşıb oranın yeməlilərindən, içməlilərindən meyl edir, bir-biriləri ilə görüşürlər. Bundan əlavə, qiyamətin tez baş verməsini Allahdan diləyirlər. Çünki onlar bilirlər ki, qiyamət baş verdikdən sonra onlar əsl cənnətə daxil olacaqlar. Bilirlər ki, bərzəx cənnəti ilə qiyamətin cənnəti tamamilə fərqlidir.

Həzrət Peyğəmbər(s) buyurur: "Ölüm mələyi mömінin canını aldıqdan sonra bərzəxdəki rəhmət əhli olan möminlər onu qarşılamağa gəlirlər. Onu bərzəxin cənnətinə apardıqdan sonra isə həmin möminlər deyərlər: Bu mömin yenicə gəlib və yorğundur. (Dünyada çox zəhmətlər çəkdiyi üçün) qoyun dincəlsin. (Dincəldikdən sonra) ondan dünyadakı möminlərin halını soruşarlar. O da onların suallarına cavab verər. Elə ki, ondan əvvəl ölmüş bəzi insanlar barədə soruşduqda o deyir: Axı onlar məndən qabaq vəfat etmişlər. (Orada hamıya məlum olur ki, ondan soruşulan möminlər əgər bərzəxdəki cənnətə

---

[1] Yenə orada, hədis - 1689.

gəlməyiblərsə, deməli, oranın cəhənnəminə düşüblər.) Sonra bu ayəni oxuyarlar: “Həqiqətən, biz Allaha məxsusuq və həqiqətən, Ona tərəf qayıdacağıq.”[1]

**Kafirlərin bərzəxdəki vəziyyətləri**

Bəzi hədislərdə isə kafirlərin bərzəxdəki vəziyyətindən söhbət açılmışdır. Bu hədisləri oxuduqda görürük ki, kafirlər bərzəxin cəhənnəmində məskunlaşır və orada əzab içində yaşayırlar. İmam Sadiq(ə) səhabələrə möminlərin bərzəxdəki vəziyyətindən söhbət etdikdən sonra kafirlərin ruhları barədə belə buyurdu:

فِي حُجُراتٍ فِي النّارِ، يأكُلونَ مِن طَعامِها، و يَشْرَبونَ مِن شَرابِها، و يَتَزاوَرونَ فيها، و يقولونَ: ربَّنا، لا تُقِمْ لنا السَّاعةَ لِتُنْجِزَ لنا ما وَعَدْتَنا

-Kafirlərin ruhları cəhənnəm odunun içərisindədir. Oranın yeməklərindən yeyir, içməlilərindən içirlər. Onlar “Pərvərdigara! Qiyaməti bərqərar etmə, bizə vəd etdiklərini həyata keçirmə!” - deyərlər.[2]

قَالَ الصَّادِقُ(ع): إنّ أرواحَ الكُفّارِ فِي نارِ جَهنّمَ يُعْرَضونَ علَيها يقولونَ : ربَّنا، لا تُقِمْ لنا السَّاعةَ، و لا تُنْجِزْ لنا ما وَعَدْتَنا، و لا تُلْحِقْ آخِرَنا بأوَّلِنا!

-İmam Sadiq(ə) belə buyurur: “Kafirlərin ruhları (Bərzəxdə) cəhənnəm odunun içərisindədir. Onları odun qarşısına gətirərlər və onlar “Pərvərdigara! Qiyaməti

---

[1] Quranın xəbər verməsi, 5-ci cild, səh. 450.
[2] Mizanül-hikmə, 1-ci cild, hədis - 1693.

bərqərar etmə, bizə vəd etdiklərini həyata keçirmə və bizim birincimizi sonuncumuza yoldaş etmə!" - deyərlər."[1]

Bu hədislərdən də açıq-aydın başa düşülür ki, kafirlərin ruhları da bərzəx aləminə gedir, amma oranın cəhənnəmində əzab içərisində yaşayırlar. Onlar da bilirlər ki, qiyamət günü əsl cəhənnəmə düşəcəklər. Buna görə də Allaha yalvarıb qiyamətin bərqərar olmamasını diləyirlər.

Bu bəhsimizin nəticəsi belə oldu ki, bərzəx aləmi barədə nəql olunan hədis və rəvayətlər üç hissədən ibarətdir. Birinci hissədə ümumi olaraq bütün insanların ruhlarının bərzəxdə məskunlaşmasından söz açılır. İkinci hissədə möminlərin ruhlarının bərzəxdəki vəziyyəti, üçüncü hissədə isə kafirlərin ruhlarının oradakı acınacaqlı hallarından bəhs olunur. Amma orada necə yaşamaları, necə məskunlaşmaları, orada yerləşdikləri yerlərin adları və bu dünya ilə əlaqələri barədə gələn bəhsimizdə bir qədər geniş şəkildə söhbət edərik. İnşallah.

Həqiqətən, biz fikirləşdikdə görürük ki, özümüzdən də asılı olmayaraq istər-istəməz ağır bir səfərə başlamışıq. Bu, elə bir səfərdir ki, geriyə də yol yoxdur. Heyvanın döşündən sağılan südün bir daha geri qayıtması mümkün olmadığı kimi, insanın da bir daha ana bətninə geri qayıtması mümkün deyildir. İnsan getdiyi bu yolu heç cür dəyişdirə bilməyəcək. Belə olduqda insanın getdiyi həmin yolun axırı ya cənnətdə, ya da cəhənnəmdə qurtaracaq. Allahın göndərdiyi kitab və peyğəmbərlər bizə belə xəbər vermişlər. Biz də onlara inanırıq və Allahdan istəyirik ki, bizi hidayət etsin, eyni zamanda bu hidayəti bizim üçün mübarək qərar versin.

---

[1] Yenə orada, hədis - 1694.

## Bərzəx aləmində insanlar hansı surətdədir?

Quran ayələrinə və hədislərə əsasən qeyd etdik ki, bütün insanlar öldükdən sonra onların ruhu dünya ilə qiyamət arasındakı bir məkanda qərar tutur. Həmin məkana bərzəx deyilir. Hədislərdən bu mətləbi də öyrəndik ki, möminlər bərzəxin cənnətində, kafirlər isə oranın cəhənnəmində yaşayırlar. Burada iki mətləbin qeyd olunması da önəmli yer tutur. Həmin mətləblərdən biri odur ki, bərzəx aləmində insanların vəziyyəti hansı surətdə olacaq? İkinci mətləb isə budur ki, bərzəx aləmi haradadır? Bu iki mətləb haqqında hədislərdə bəhs olunmuşdur. Hər bir kəs bərzəxin adını eşidib və bilir. Amma oranın necə bir yer olması və oradakı yaşam tərzi insanlar üçün maraqlıdır. Hamı oranın necə bir yer olduğu, orada hansı surətdə və necə yaşayacağı haqda fikirləşir. İnsan ağlı isə bunu dərk etməkdə acizdir. Belə ki, Allah-təala insana nuru zülmətdən, yaxşını pisdən, xeyri şərdən ayırd etmək üçün ona müəyyən qədər ağıl verib. Əgər insan bu ağıl ilə yanaşı peyğəmbərlərin dəvətini də qəbul etsə, o zaman dünyada cənnətlə cəhənnəmi də ayırd edə bilər. Peyğəmbərlərin dəvətini qəbul etməyən insanlar isə heç bir vaxt cənnətlə cəhənnəmi bir-birindən ayırd edə bilməzlər. Özləri də başa düşmədən cəhənnəmə sarı yönəlirlər. Çağıranların (peyğəmbərlərin) dəvətini qəbul etmədiklərinə görə də günah elə onların özlərindədir.

Bərzəx aləminin necəliyi, insanın orada hansı surətdə yaşaması və vəziyyətinin necə olmasını hədislərə müraciət etməklə öyrənmək olar. Qurani-Kərimdə bərzəx aləmi barədə ümumi şəkildə məlumat verilmişdir. Amma bərzəxin harada olduğu, insanların orada hansı surətdə yaşaması haqda söhbət açılmayıb. Bütün bu incəlikləri

bizə Həzrət Peyğəmbər(s) və məsum imamlarımız bəyan etmişlər. Deməli, bu sualların cavabını tapmaq üçün yeganə mənbəyimiz hədislərdir. Birinci sual budur ki, insan öldükdən sonra bərzəx aləmində hansı surətdə yaşayır? Bu sualın cavabını öyrənmək üçün ilk növbədə "Zumər" surəsinin 42-ci ayəsinə diqqət yetirək. Allah-təala belə buyurur:

اللَّهُ يَتَوَفَّى الْأَنفُسَ حِينَ مَوْتِهَا وَالَّتِي لَمْ تَمُتْ فِي مَنَامِهَا فَيُمْسِكُ الَّتِي قَضَى عَلَيْهَا الْمَوْتَ وَيُرْسِلُ الْأُخْرَى إِلَى أَجَلٍ مُسَمًّى إِنَّ فِي ذَلِكَ لَآيَاتٍ لِّقَوْمٍ يَتَفَكَّرُونَ

-Allah (əcəli çatan kimsələrin) canlarını (ruhlarını) onlar öldüyü zaman, ölməyənlərin (hələ əcəli çatmayanların) canlarını isə yuxuda alar. Ölümünə hökm olunmuş kimsələrin canlarını (ruhlar aləmində) saxlayar (onların ruhu bir daha bədənlərinə qayıtmaz, beləliklə də bədən ölüb gedər). Digər (ölümünə hökm olunmamış) kimsələrin canlarını isə müəyyən bir müddətədək (əcəlləri gəlib çatıncaya qədər yuxudan oyandıqda bədənlərinə) qaytarar. Həqiqətən, bunda düşünən bir qövm üçün (Allahın hər şeyə qadir olmasına, qiyamət günü ölüləri dirildəcəyinə dəlalət edən) əlamətlər vardır!

Bu ayəni qeyd etməkdə məqsədim odur ki, insanın ölümü yuxu kimidir. Bu ayəyə əsasən hədislərdə də ölüm yuxuya bənzədilmişdir. Ayədə açıq-aydın bəyan olunur ki, ölümlə yuxunun kökü eynidir. Hər ikisində Allah-təala insanın ruhunu bədəndən çıxarır. Təkcə fərq bundadır ki, yuxuda insanın ruhu müvəqqəti, öləndə isə qiyamətə kimi ayrılır. Ruhun bədəndən ayrılmasına gəldikdə isə, yuxuda zəif, ölümdə isə şiddətli şəkildə olur. Misal üçün qazanda

qaynadılmış suya diqqət yetirmək kifayətdir. Əgər qazandakı su 40 dərəcə temperaturda qaynayıbsa, bu su insanın əlini yandırmır. Amma əgər 80 və ya 100 dərəcə temperaturda qaynayıbsa, bu su insanın əlini yandırır.

Həmçinin elektrik cərəyanı da belədir. Bəzi elektrik cərəyanları var ki, gərginliyi az olduğundan insan bədənini titrədir, amma öldürmür. Ancaq bəzi elektrik cərəyanlarının gərginliyi o qədər yüksək olur ki, toxunan kimi insanı yandırıb kül edir.

Qeyd olundu ki, yuxuda insanın ruhu bədəndən zəif, öldükdə isə şiddətli şəkildə ayrılır. Hər iki halda ruh insan bədənindən ayrılır və bir-birinə oxşarlığı vardır. Bu barədə Həzrət Peyğəmbər(s) buyurur: "Yuxu ölümün qardaşıdır."[1]

Günlərin birində Həzrət Peyğəmbər(s) öz qohum-əqrəbasını ətrafına toplamışdı. Həzrət(s) üzünü onlara tutaraq buyurdu: "Ey Əbdül-Müttəlibin övladları! Bilin ki, heç bir qəbilə başçısı öz qövmünə yalan danışmaz. And olsun məni peyğəmbərliyə məbus edən Allaha, siz yatdığınız kimi öləcəksiniz. Yuxudan oyandığınız kimi, öldükdən sonra da diriləcəksiniz."[2]

İmam Cavaddan(ə) ölüm barədə soruşduqda Həzrət(ə) buyurdu:

هُو النَّومُ الّذي يأتيكُم كُلَّ ليلَةٍ إلاّ أنّهُ طويلٌ مُدَّتُهُ لا يُنتَبَهُ مِنهُ إلاّ يَومَ القيامَةِ، فمَن رأى في نَومِهِ من أصنافِ الفَرَحِ ما لا يُقادِرُ قَدرَهُ،

[1] Ölümdən bərzəxə, səh. 89.
[2] Mizanül-hikmə,12-ci cild, hədis - 19108.

و مِن أصنافِ الأهوالِ ما لا يُقادِرُ قَدرَهُ، فكيفَ حالُ فَرِحٍ في النَّومِ و وَجِلٍ فيهِ ؟ هذا هُو المِوتُ، فاستَعِدُّوا لَهُ

-Hər gecə sizin sorağınıza gələn, ancaq müddəti uzun olan yuxudur. İnsan yalnız qiyamət günü bu yuxudan oyanar. Yuxusunda müxtəlif növ saysız-hesabsız şadlıqlar, saysız-hesabsız qorxu-vəhşət görənin, ölüm yuxusunda şad olan və ya qorxuya düşənin halı necə olacaqdır? Budur ölüm. Elə isə özünüzü ona hazırlayın.[1]

Bura qədər öyrəndik ki, istər yuxuda olsun, istərsə də ölən zaman insanın ruhu bədənindən ayrılır. Birində müvəqqəti, birində isə uzunmüddətli. Sual oluna bilər ki, insanın ruhu bədəndən çıxdıqda hansı qəlib və surətə daxil olur? Ötən bəhslərimizdə bu məsələyə azacıq da olsa toxunmuşduq. Bunu bizim üçün belə şərh edirlər:

-İnsanın ömrü başa çatdıqda ruh yumşaq, lətif və incə bir bədənə daxil olur. Amma ruhun daxil olduğu bu bədən nə maddi bədəndir, nə də ruhun özü kimidir. Ruhun daxil olduğu həmin bədən insanın öz bədəninə oxşadığı üçün ona "qəlib forması" deyilir. Bu bədən qətiyyən mücərrəd və maddi bədən deyil. Hədis və rəvayətlərdən əlavə, dünya alimləri də ölümü yuxuya bənzətmişlər. Onlar da deyirlər ki, ölüm eynilə yuxu kimidir. İnsan yatarkən ruhu bədənindən çıxıb başqa bir qəlibə girərək gəzib dolaşdığı kimi, öldükdən sonra da onun ruhu bərzəx aləmində başqa bir qəlibə girir.

Ayətullah Əllamə Məclisi "Biharul-ənvar"da belə yazır: "Hətta insanın ruhu o qədər güclü ola bilər ki, onun nəinki bir, bir neçə qəliblərə girməsi də mümkündür."

---

[1] Yenə orada.

Sonra o, misal çəkərək buyurur: “Məsələn, dünyada eyni zamanda yüzlərlə mömin dünyasını dəyişir. Hər mömin dünyasını dəyişərkən Həzrət Əlini(ə) başı üzərində görür. Əgər yüzlərlə mömin eyni zamanda dünyadan gedirsə, hamı eyni zamanda  Həzrət Əlini(ə) başı üzərində necə görür? Deməli, Həzrət Əlinin(ə) ruhu o qədər əzəmətlidir ki, yüzlərlə qəlibə girə bilir və həmin möminlərin başı üzərinə gəlir. Həmçinin Həzrət Peyğəmbər(s) və digər məsum imamlarımız da belədir. Möminlər də bu qüdrətə malik ola bilərlər. Hansı möminin ruhu güclü və əzəmətli olarsa, o da yüzlərlə qəlibdə gəzə bilər.”

Əllamə Məclisi sonra maraqlı bir məsələyə işarə edərək buyurur: “İnsan öldükdən sonra ruhunun daxil olacağı həmin qəlib də insanın bədəninin daxilindədir. Ölüm mələyi insanın ruhunu aldıqdan sonra həmin qəlib də insanın bədənindən çıxır və ruh onun içinə girərək bərzəx aləminə gedir.” Bunu daha açıq-aydın şəkildə  başa düşmək üçün bir misalı diqqətinizə yetirirəm. Məsələn, bir nəfər təyyarə ilə havaya qalxır. Onun buludlara qədər qalxmasının səbəbi təyyarədir. O, təyyarənin gücü hesabına həmin yüksəkliyə qalxa bilmişdir. Əgər onu təyyarədən aşağı atsalar, yerə düşüb ölər. Amma əgər onun paraşütü olsa və təyyarədən atıldıqda paraşütü açsa, o zaman sağ-salamat yerə enər. Odur ki, insan ölərkən ruhu bədənindən ayrılır, girəcəyi qəlib forması da onun bədənindən çıxır və ruh onunla birgə bərzəxə uçur.

Bəziləri belə iddia edirlər ki, insanın ruhu bədəndən çıxdıqdan sonra hansısa heyvanların və ya insanların bədənində yaşayır. Bu, yanlış və səhv iddiadır. Buna metempsixoz deyilir ki, İslam dünyasında bütün alimlər bu fikrin batil və yanlış olduğunu bildirmişlər.

İmam Sadiqin(ə) səhabələrindən biri Həzrətdən(ə) soruşdu: “Ey Allahın höccəti, biz eşitmişik ki, insan öldükdən sonra onun ruhu quşların çinədanında ərşə qalxır. Bu doğrudurmu?” İmam(ə) buyurdu: “Bu, xurafatdır.

المؤمنُ أكرَمُ علَى اللّهِ مِن أنْ يجعلَ رُوحَهُ في حَوصَلَةِ طَيرٍ، لكنْ في أبْدانٍ كأبْدانِهِم

-Möminin hörməti Allahın yanında o qədər əzizdir ki, heç bir vaxt onun ruhunu quşların çinədanına salmaz. Möminlər öldükdən sonra onların ruhunu öz bədənlərinə oxşar bir bədəndə qərar verir.”[1]

قَالَ الصَّادِقُ(ع): فإذا قَبضَهُ اللّهُ عزّ و جلّ صَيّرَ تلكَ الرُّوحَ في قالَبٍ كقالَبِهِ في الدُّنيا، فيَأكُلونَ و يَشْرَبونَ، فإذا قَدِمَ علَيهِمُ القادِمُ عَرَفوهُ بتِلكَ الصُّورةِ الّتي كانتْ في الدُّنيا

-Başqa bir hədisdə İmam Sadiq(ə) belə buyurur: “Allah-təala insanın canını aldıqdan sonra onun ruhunu dünyadakı bədəninə oxşar bir bədənə salıb aparır. (İnsan yuxuda yediyi, içdiyi kimi, bərzəx aləmində də yeyir, içir.) Bərzəx aləmində onu görənlər dünyada gördükləri surətdə görüb tanıyarlar.”[2]

Bəzən biz yuxuda dünyasını dəyişmiş insanları görürük. Gördükdə də onun kim olduğunu tanıyırıq. Çünki onun ruhu dünyadakı bədəninə oxşar bədəndə gəlir. Amma bir daha qeyd etmək lazımdır ki, həmin bədən maddi və mücərrəd bədən deyil. Çox lətif və xəfif bir

[1] Quranın xəbər verməsi, 5-ci cild, səh. 468; Mizanül-hikmə, 1-ci cild, hədis - 1686.
[2] Mizanül-hikmə,1-ci cild, hədis - 1687.

bədəndir ki, insanın ruhu onda yaşayır. Bəzən insan yuxuda dünyasını dəyişmiş tanıdığı bir insanla söhbət edir. Yuxudan ayıldıqdan sonra isə həmin söhbətin həqiqətini dərk edir. Həyatımızda bu kimi hallarla tez-tez rastlaşırıq. Mərhum ustad Şəhid Mütəhhərinin həyat yoldaşı deyir: "Mütəhhəri şəhid olduqdan sonra onun bir təsbehi var idi. Günlərin birində mən həmin təsbehi itirdim. Nə qədər axtardımsa, tapa bilmədim. Üç gün idi ki, təsbehi tapa bilmirdim. Gecə narahat halda yatdım. Yuxuda gördüm ki, o, gəlib məndən nə üçün narahat olduğumu soruşur. Dedim: Təsbehi itirmişəm. Dedi: Qapının arxasına düşüb. Səhər yuxudan oyanıb qapının arxasına baxmaq istədim. Sonra fikirləşdim ki, birdən təsbeh orada olmaz, ağaya qarşı olan əqidə və inamım pozular. Beləcə, qorxudan üç gün qapının arxasına baxmadım. Sonra öz-özümə dedim: Əvvəl-axır mən bu işi görməliyəm. Sonra qapını yerindən tərpədib arxasına baxdım. Yuxuda mənə necə buyurmuşdusa, təsbehi həqiqətən də həmin yerdə gördüm."

İnsan yuxusunda tanıdığı insanları gördüyü kimi, bərzəx aləmində də eləcə görüb tanıyır. Çünki Allah-təala orada da insanın ruhunu dünyadakı bədənə oxşar xəfif bədənə yerləşdirir. Qeyd olunduğu kimi, bəziləri səhv düşüncələrinə əsasən elə başa düşürlər ki, insan ölərkən ruhu bədənindən çıxıb hansısa heyvanın, yaxud başqa bir insanın bədənində yaşayır. Bu, batil və səhv düşüncədir. Ruh insanın bədənindən çıxıb öz bədəninə oxşar incə bir bədənə girərək bərzəx aləminə pərvaz edir. Bu barədə Həzrət Əli(ə) buyurur: "Müsəlman gərək boynunda qüsl olduğu halda yatmasın. Çox yaxşıdır ki, əgər qüslü varsa, qüsl edib yatsın. Əgər dəstəmazı yoxdursa, dəstəmaz alıb yatsın. Su olmadıqda təyəmmüm etsin. Çünki yatarkən mömin insanın ruhu Allahın məhzərinə pərvaz edir. Allah-

təala onu qəbul edib ona bərəkət verir. Əgər həmin insanın ömrü tamamdırsa, Allah-təala onu Öz rəhmətinin içərisində qərar verir. Yox, əgər onun ömrü sona çatmayıbsa, ruhunu mələklərin vasitəsilə öz bədəninə qaytarır.”[1]

Buna görə də hər bir mömin yatarkən pak halda yatmalıdır ki, ruhu da pak halda Allahın məhzərinə getsin. Ruhunun murdar halda pərvaz etməsinə imkan verməsin. Buna görə də hədislərdə belə nəql olunur ki, hər kim gecə dəstəmaz alıb yatarsa, səhərə qədər onun üçün ibadət yazılır.

## Ruhun bədənlə əlaqəsi

Qeyd olundu ki, insan ölərkən ruhu bədənindən ayrılıb “qəlib forması”na, yəni xəfif bir bədənə daxil olaraq bərzəx aləminə gedir. Hədislərə əsasən qeyd edildi ki, həmin bədən incə və lətif olmasına baxmayaraq, insanın öz bədəninə oxşarlığı vardır. Həmçinin fərqli olaraq insanın bərzəxdəki bədəni nə maddi bədəndir, nə də mücərrəd. Sual oluna bilər ki, insan öldükdən sonra dünyadakı bədənilə əlaqəsi qalırmı? Bu sualın cavabında demək olar ki, insan öldükdən sonra ruhun bədənlə olan əlaqəsi tamamilə kəsilmir və az da olsa bu əlaqə qalır. Çünki ruhla bədənin üç növ əlaqəsi vardır. Birinci növ əlaqə ruhun cisimlə dünyadakı əlaqəsidir ki, bu, mükəmməl və tam əlaqə hesab olunur. Ruh bədənlə mükəmməl şəkildə yaşadığı üçün insan hər bir şeyi hiss edir və duyur. İkinci növ əlaqə orta vəziyyətdədir və bu zaman ruh bədəndən çıxır, amma tamamilə yox. Yuxuya

---

[1] Ölümdən bərzəxə, səh. 90.

gedərkən bəzən hiss edir, bəzən də hiss etmir. Yatan insanın yanında yavaşca danışarkən eşitmir, amma qışqırdıqda yuxudan oyanır. Yatmış insanın üstünə yüngül parça atdıqda bəzən hiss etmir, amma ağır yorğan saldıqda hiss edə bilir. Bir sözlə, insan yatdıqda ruh yarımçıq halda bədəndən çıxır. Üçüncü növ əlaqə isə çox zəifdir və ruhun tamamilə insanın bədənindən çıxmasına baxmayaraq, çox zəif halda ünsiyyət qalır. Belə ki, bu əlaqəni birinci və ikinci növ əlaqə ilə tam fərqli hesab etmək olar. İnsan öldükdən sonra onun bədəni heç bir şey hiss etmir, çünki ruh artıq o bədəndən ayrılmışdır. Amma əlaqənin tamamilə kəsilməsini də demək olmaz. Belə ki, hədislərə əsasən ruh öz bədənini, cənazəsini dəfn edən insanları görür və dəfn olunduqdan sonra bəzi vaxtlar Allahın izni ilə öz bədəninə baş çəkir və onun çürüdüyünü görərək çox narahat olur. Bu barədə Həzrət Peyğəmbər(s) və Əhli-beytdən(ə) hədislər vardır ki, onlardan birinə diqqət yetirək:

-Həzrət Peyğəmbər(s) buyurur: "Ruh insanın bədənindən çıxdıqdan və cənazəsi dəfn olunduqdan sonra üçüncü gün Allahdan icazə istəyərək deyir: "İlahi, qəbirdəki bədənimi görmək üçün mənə icazə ver." Allah-təala ona icazə verir. O gələrək öz qəbrinin kənarında dayanır. Cənazəsinin ağzından və burnundan su töküldüyünü görüb ağlayaraq deyir: "Ey mənim səmimi dostum, dünyada bu gününü düşünürdünmü?" Ruh öz cənazəsi ilə beləcə söhbət etdikdən sonra yerinə qayıdır. Beş və ya yeddi gün keçdikdən sonra yenə Allahdan icazə alaraq öz qəbrinin kənarına gəlir. Baxıb görür ki, burnundan və ağzından qan tökülür. Yenə də ağlayaraq deyir: "Ey mənim səmimi dostum, dünyada heç bu gününü düşünürdünmü ki, bir gün həşəratlar, ilan və

əqrəblər səni didib yeyəcək?" Sonra öz yerinə qayıdır və bir ay, yaxud qırx gündən sonra Allahın icazəsi ilə yenə qəbrinin kənarına gəlir. Baxıb görür ki, cənazəsini qurd basıb. Sonra vərəsə və yaxınlarının onun üçün nə etdiklərini, malını necə bölüşdürdüklərini, onun borclarını qaytarıb-qaytarmadıqlarını, onun üçün ehsan edib-etmədiklərini görmək istəyir."

Sonra Həzrət Peyğəmbər(s) buyurur: "Ruh beləcə bir il öz qəbrinin ətrafına dolanır. Bilmək istəyir ki, görəsən kimlər onun üçün Allahdan bağışlanmaq diləyirlər. Bir ildən sonra onun ruhu sur çalınana (Qiyamət gününə qədər) bütün ruhların məskunlaşdığı yerə qayıdır."[1]

Bu və bu kimi başqa hədislərə əsasən insan öldükdən sonra ruhunun bədənlə əlaqəsinin nə dərəcədə olduğunu öyrənə bilirik. Bir ildən sonra əlaqənin tamamilə kəsilməsinə baxmayaraq, azacıq da olsa yenə də bu əlaqə qalır. Lakin həmin əlaqənin nə kimi faydaları olduğunu bizə söyləməmişlər.

## Bərzəx aləmi haradır?

Demək olar ki, hamını maraqlandıran suallardan biri budur ki, insan öldükdən sonra ruhunun məskunlaşdığı bərzəx aləmi haradır? Bu sualın cavabını yalnız hədislərə istinad etməklə öyrənmək olar. Çünki ora gedənlərə bir daha dünyaya qayıtmağa icazə verilməyib ki, bizə də bir məlumat versinlər. Qurani-Kərimdə ümumi şəkildə bərzəx aləmi haqda danışılır, amma oranın harada yerləşdiyi və necə bir yer olması haqda söhbət açılmır. Bu barədə

[1] Ölümdən bərzəxə, səh. 73.

yeganə məlumat və istinad yerimiz Həzrət Peyğəmbərin(s) və imamlarımızın buyurduğu hədislərdir.

Hədislərdən ümumi şəkildə belə başa düşmək olur ki, gördüyümüz bu dünya bərzəx aləminin yanında bir halqaya bənzəyir. Sanki bir neçə nəfər böyük bir səhrada dövrə vurub əyləşmişlər. Həmin dövrəyə bir halqa deyilir və uzaqdan baxdıqda səhrada bir neçə nəfərin halqavari şəkildə əyləşməsi olduqca kiçik görünür. Bərzəx aləminin bu dünya ilə müqayisəsi haqda digər misallar da çəkilmişdir. Mərhum Ayətullah Meşkini dərslərinin birində misal çəkərək belə buyurardı: “Böyük bir alma bağına daxil olursan. Həmin bağda bir ağacın yanına gəlib ağacda olan almalardan birini dərib bölürsən. Onun içindən kiçik bir qurd çıxır. Öz-özünə deyirsən: Bu qurd bu almanın içində olan qurdlardan biridir. Bu alma bu ağacda olan almalardan biridir. Bu ağac bu bağda olan ağaclardan biridir. Bu bağ bu kənddə olan bağlardan biridir. Bu kənd bu məntəqədə olan kəndlərdən biridir. Bu məntəqə bu ölkədə olan məntəqələrdən biridir. Bu ölkə yer kürəsində olan ölkələrdən biridir. Bu yer kürəsi kainatda olan saysız-hesabsız kürələrdən biridir. Bütün bu aləmlər həmin qurd üçün nə qədər böyükdürsə, bərzəx aləmi də bu dünya ilə müqayisədə o qədər və ondan daha çox böyükdür.”

Bəzən bərzəx aləminin gözəlliyi barədə hədisləri oxuyarkən, onları dinləyərkən və bu zaman həmin aləmin gözəlliyini təsəvvür etdikdə adam o aləmi görmək üçün tələsir. İnsan üçün bu dünyadan ayrılmağın çətinlikləri ilə yanaşı, onun şirinlikləri daha çoxdur. Əlbəttə, bu o insanlara aiddir ki, ölümdən sonrakı aləmi düşünərək ora üçün azuqə toplamışlar.

Yadıma gəlir ki, böyük alim və çox təqvalı insanlardan biri xəstəxanada yatırdı. Mən ona baş çəkməyə getmişdim. Ustadlardan biri onun vəziyyətinin yaxşı olmadığını görüb onunla söhbət etmək qərarına gəldi. Belə bir halda istəyirdi ki, onunla ölüm barədə söhbət etsin. "Bu halda özünü necə görürsən?" – deyə ona sual vermək istəyirdi. Lakin ona qarşı cəsarət və hörmətsizlik olmasın deyə belə soruşdu: "Ağa, dünyanı necə görürsünüz?" Həmin alim arif insan olduğu üçün belə cavab verdi: "Ustadım buyurduğu kimi görürəm." Amma hansı ustadının və ona nə dediyini danışmadı. Sonra üzünü bizə tutub buyurdu: "Bu dünyadan ayrılmağın bir sıra çətinlikləri var. O da bunlardan ibarətdir ki, insan həyat yoldaşından, övladlarından, qohum-əqrəbasından və dostlarından ayrılır. Amma bu ayrılmağın şirinlikləri daha çoxdur. O da budur ki, neçə illər görmədiyim ata-anamı, İmam Xomeyni, Mürtəza Mütəhhəri kimi yaxın dostlarımı görəcəyəm." Daha sonra əlavə etdi: "Başımın üstündə çalışan bu həkimləri görürsünüzmü? Bunlar da Əzrayılla mübarizə etməyə gəliblər. Amma bilsinlər ki, onlar yox, Əzrayıl qələbə çalacaq."

Ölümün insan üçün qorxulu bir hal olmasına baxmayaraq, sonrakı həyatın özünəməxsus şirinlik və gözəlliyi vardır. Ölüm insan üçün ona görə qorxuludur ki, tanımadığı və görmədiyi bir yerə gedir. Orada onu nə gözləyəcəyini də bilmir. Buna görə də həmişə nigaran və narahatdır. Çünki bərzəxə gedənlərin heç biri qayıdaraq oradan bir xəbər verməmişdir. Lakin İslam Peyğəmbəri(s) həmin aləmdən bizə xəbər vermişdir. Allah-təala Həzrəti(s) meraca apararaq cənnət və cəhənnəmi, eləcə də bərzəxdə baş verən halları ona göstərmişdir. Həzrət Peyğəmbər(s) meracda gördüklərini bizlərə danışmış və

biz də ona inanmışıq. Beləliklə, bərzəx aləminin bir həqiqət olduğuna, oranın nə qədər böyük olmasına, oranın ləzzət və əzablarının mövcudluğuna Həzrət Peyğəmbərin(s) söylədiklərinə əsasən inanırıq. Həzrət Peyğəmbər(s) Səfa dağının üstünə çıxıb qohum-əqrəbasını səslədi. Hamı toplaşdıqdan sonra üzünü onlara tutaraq buyurdu: “Əgər sizə dağın arxasından düşmənin hücum etdiyini söyləsəm, mənə inanarmısınızmı?” Hamı yekdilliklə dedilər: “Bəli, inanarıq. Çünki bu qırx ildə səndən bircə kəlmə də olsun yalan söz eşitməmişik.” Həzrət Peyğəmbər(s) buyurdu: “Ey Əbdül-Müttəlibin övladları! Bilin ki, heç bir qəbilə başçısı öz qövmünə yalan danışmaz. And olsun məni peyğəmbərliyə məbus edən Allaha ki, siz yatdığınız kimi öləcəksiniz. Yuxudan oyandığınız kimi öldükdən sonra da diriləcəksiniz.”[1]

Ötən bəhslərimizdə qeyd etdik ki, hədislərdə bir misal da çəkilmişdir. Hədislərdə deyilir ki, o dünya ilə bu dünyanın fərqi, ana bətni ilə bu dünyanın fərqi kimidir. Uşaq ana bətnində olarkən bu dünyanın genişliyini başa düşmədiyi kimi, insan da bu dünyada bərzəx aləminin nə qədər böyük və gözəl olduğunu dərk edə bilmir. Uşaq dünyaya gəldikdən sonra buranın böyük və gözəl olduğunu başa düşdüyü kimi, insan da bərzəxin gözəllik və genişliyini ora getdikdən sonra tam dərk edəcəkdir.

Bura qədər hədislərdə çəkilmiş misallar əsasında bərzəx aləminin bu aləmlə fərqini öyrənə bildik. Lakin əsas sualımız budur ki, bərzəx aləminin özü haradadır? Bu sualın da cavabı ilə bağlı hədislərə əsasən müəyyən qədər bəhs etmək olar. Məlum məsələdir ki, insanlar öldükdən

---

[1] Ölümdən bərzəxə, səh. 89.

sonra onların hamısının ruhu bərzəx aləmində bir məkanda olmayacaq. Möminlərin ruhu oranın cənnətində, kafirlərin ruhu isə oranın cəhənnəmində qərar tutacaq. Hədislərə əsasən bərzəxdə möminlərin ruhunun qərar tutduğu yerin adı Vadiüs-salam, kafirlərin ruhunun qərar tutduğu yerin adı isə Vadiul-bərəhut adlanır. Bu məkanların hər ikisi yer kürəsində də mövcuddur. Yer kürəsində yerləşən bu yerlər bərzəx aləminə bir qapı və giriş kimi hesab oluna bilər.

قَالَ الصَّادِقُ(ع): أمَا إنّهُ لا يَبقى مؤمنٌ في شرقِ الأرضِ و غربِها إلاّ حَشَرَ اللّهُ رُوحَهُ إلى وادِي السَّلامِ. [قالَ الراوي:]فقلتُ لَهُ: و أينَ وادِي السَّلامِ؟ قالَ: ظَهرُ الكوفةِ، أمَا إنّي كأنّي بِهِم حَلَقٌ حَلَقٌ قُعودٌ يَتَحدَّثونَ

-İmam Sadiq(ə) buyurur: "Allah-təala yer üzündə Şərqdə və Qərbdə olan bütün möminlərin ruhlarını Vadiüs-salamda toplamışdır. Rəvayətçi deyir: Soruşdum: Vadiüs-salam haradadır? İmam buyurdu(ə): Kufə (şəhəri)nin arxasında. Sanki gözlərimlə görürəm ki, onlar halqa-halqa (dövrə vuraraq) əyləşib söhbət edirlər."[1]

Əsbəğ ibn Nəbatə deyir: "Günlərin birində Həzrət Əli(ə) Kufədən çıxıb Vadiüs-salam adlı məntəqəyə gəldi. Orada yaşıllıq olan bir yerdə əyləşdi. Sonra arxası üstə uzandı. Qənbər Həzrətə(ə) yaxınlaşıb ərz etdi: Ya Əmirəl-möminin, icazə versəniz, sizin üçün yerə əba sərərdim ki, üstündə uzanasınız. Həzrət(ə) buyurdu: Xeyr. Bura möminlərin torpağıdır. Sənin bura əba sərməyin onları

[1] Mizanül-hikmə,1-ci cild, hədis - 1692.

incidər. Qənbər dedi: Ağa, buranın möminlərin torpağı olduğunu anladım. Amma onların inciyə biləcəyini başa düşmədim. Həzrət(ə) buyurdu:

يا بنَ نُباتةَ، لو كُشِفَ لَكُم لَرأيتُم أرواحَ المؤمنينَ في هذا الظَّهرِ حَلَقا يَتزاوَرونَ و يَتَحدَّثونَ، إنَّ في هذا الظَّهرِ رُوحَ كلِّ مؤمنٍ، و بِوادي بَرَهوتَ نَسَمَةُ كُلِّ كافرٍ

-Ey Nəbatənin oğlu, əgər gözlərinizdən pərdələr götürülsəydi, arxada (Həzrətin(ə) işarə etdiyi yerdə) dövrə vurub əyləşərək, bir-biri ilə görüşüb söhbət edən möminlərin ruhlarını görərdiniz. Bütün möminlərin ruhları oradadır. Bütün kafirlərin ruhları isə Bərəhut dərəsindədir.”[1]

## Bərzəx aləminin müddəti nə qədərdir?

Hədislərə əsasən qeyd olundu ki, bərzəx aləminin müddəti insanın öldüyü andan qiyamətə qədərdir. Yəni hədislərdə bəyan edilir ki, qiyamət hələ baş vermədiyi üçün insanlar öldükdən sonra ruhları bərzəx aləmində qərar tutur. Lakin Qurani-Kərimin “Rum” surəsinin 55-ci ayəsini oxuduqda görürük ki, qeyd olunan hədislərlə tutmur. Amma bu ayənin təfsirini oxuduqda isə uyğunluğu müşahidə etmək mümkündür. Həmin ayə belədir:

وَيَوْمَ تَقُومُ السَّاعَةُ يُقْسِمُ الْمُجْرِمُونَ مَا لَبِثُوا غَيْرَ سَاعَةٍ كَذَلِكَ كَانُوا يُؤْفَكُونَ

-Və qiyamət qopacağı gün günahkarlar and içəcəklər ki, yalnız bircə saat qalmış (və ölümlə dirilmə arasında

---

[1] Yenə orada, hədis - 1691.

heç bir fasilə olmamışdır). Onlar(ın dünyada da) bu cür (səhv edib) azırdılar.

Bu ayənin təfsiri ilə maraqlandıqda və ayəni açıqladıqda görürük ki, rəvayət olunan hədislərin həmin ayə ilə heç bir ziddiyyəti yoxdur. Təfsirçilər bu ayənin açıqlamasında qeyd etmişlər ki, bərzəx aləmində yaşayan insanların hamısı eyni dərəcədə deyil. Bərzəxdə yaşayan insanları onlar üç qismə bölmüşlər:

Birinci qisim insanlar bərzəxdə yaşayan mükəmməl möminlərdir ki, onlar harada olduqlarını yaxşı dərk edə bilir, orada hər şeydən agahdırlar və qiyamət gününə qədər oranın nemətlərindən istifadə edirlər. Bu insanlar Allaha yaxın olan bəndələrdir ki, bərzəxin özü və müddəti barədə kamil şəkildə məlumatları vardır.

İkinci qisim insanlar bərzəxdə əzab və işgəncə içərisində yaşayan günahkarlardır. Onlar orada daim ah-nalə edirlər. Quran ayələrinə əsasən, sübh və axşam onlara əzab verilir. Ötən bəhslərdə həm bu barədə, həm də onlara necə əzab verildiyi haqda söhbət etmişik. Onlar bərzəxdə əzab içərisində qaldıqlarına görə çox narahatdırlar.

Üçüncü qisim insanlar isə elə insanlardır ki, bərzəx aləmi onlara yuxu kimi gələcəkdir. Yəni bu insanlar bərzəxdə nə ləzzət görürlər, nə də əzab-əziyyət. Yatıb oyandıqları kimi, ölüb qiyamətdə diriləcəklər. Bərzəx aləmi onlara yuxu kimi gələcəkdir. Məsələn, bir neçə nəfər xarici ölkəyə birgünlük səfər edirlər. Səfərdən qayıtdıqdan sonra onlardan səfərlərinin necə keçdiyi haqda soruşurlar. Biri deyir: “Mən çox yorğun olduğum üçün ora çatan kimi yatdım. Birdə məni oyadıb dedilər ki, artıq qayıtmaq vaxtıdır. Necə getmişdimsə, eləcə də qayıtdım. Yuxuda olduğum üçün orada heç bir şeylə maraqlana bilmədim.”

Odur ki, belə insanlar barəsində demək olar ki, onlar üçün bərzəx aləminin müddəti bir saat kimi görünə bilər. Qurani-Kərimin digər ayələrinə də diqqət yetirdikdə məsələn, “Əshabi-Kəhf”dəki mağara adamlarının 309 il yatmalarına baxmayaraq, oyandıqdan sonra günün bir hissəsini yatdıqlarını təsəvvür etdiklərini görürük. Yaxud Üzeyir Peyğəmbərin(ə) 100 il əvvəl ölməsinə baxmayaraq, dirildikdən sonra bir gün yatmasını təsəvvür etdiyini oxuyuruq. “Bəqərə” surəsinin 259-cu ayəsində Üzeyir Peyğəmbər(ə) barədə buyurulur:

أَوْ كَالَّذِي مَرَّ عَلَى قَرْيَةٍ وَهِيَ خَاوِيَةٌ عَلَى عُرُوشِهَا قَالَ أَنَّىَ يُحْيِي هَـَذِهِ اللّهُ بَعْدَ مَوْتِهَا فَأَمَاتَهُ اللّهُ مِئَةَ عَامٍ ثُمَّ بَعَثَهُ قَالَ كَمْ لَبِثْتَ قَالَ لَبِثْتُ يَوْمًا أَوْ بَعْضَ يَوْمٍ قَالَ بَل لَّبِثْتَ مِئَةَ عَامٍ فَانظُرْ إِلَى طَعَامِكَ وَشَرَابِكَ لَمْ يَتَسَنَّهْ وَانظُرْ إِلَى حِمَارِكَ وَلِنَجْعَلَكَ آيَةً لِّلنَّاسِ وَانظُرْ إِلَى العِظَامِ كَيْفَ نُنشِزُهَا ثُمَّ نَكْسُوهَا لَحْمًا فَلَمَّا تَبَيَّنَ لَهُ قَالَ أَعْلَمُ أَنَّ اللّهَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

-Yaxud (evlərinin damı çökmüş və) divarları damlarının üzərinə uçmuş (və sakinlərinin cəsədləri çürüyüb dağılmış) kənddən keçən (kəs) kimisini (görmüsənmi)? (O, təəccüblə öz-özünə) dedi: “Allah bunları ölümlərindən sonra necə dirildəcək?!” Buna görə də Allah onu yüz il öldürdü, sonra diriltdi (və) dedi: “(Burada) nə qədər qalmısan?” Dedi: “Bir gün, ya günün bir hissəsini (qalmışam).” Dedi: “Xeyr, yüz il qalmısan; yemək-içməyinə bax ki, heç dəyişməyib və uzunqulağına bax (gör necə çürüyüb dağılıb). Biz (bunu sənin istəyini yerinə yetirmək və) səni insanlara (Öz tövhid və

qüdrətimizin) nişanə(si) etmək üçün (etdik). Bax (gör uzunqulağının) sümükləri(ni) necə götürür (və onları bir-birinə birləşdirir), sonra onların üstünə ət örtürük!" Beləliklə (dirilməyin necəliyi) ona aydın olduqda dedi: "İndi bilirəm ki, Allah hər şeyə qadirdir (və indi bunu öz gözlərimlə görüb yəqinlik əldə etdim)."

Deməli, nəticədə görürük ki, qiyamət baş verərkən and içərək bərzəxdə yalnız bircə saat qaldıqlarını deyən kəslər ya o kəslərdir ki, oranı yuxu kimi görmüşlər, yaxud o kəslərdir ki, orada şiddətli əzabın içində yaşadıqları üçün vaxtın necə ötüb keçdiyini hiss etməmişlər. Buna görə də güman edəcəklər ki, bərzəxdə yalnız bircə saat qalmışlar.

## Ruhların öz ailələri və ya bu dünya ilə əlaqəsi

Bəhsimizə əlavə olaraq bərzəx aləminə dair iki mətləbi də diqqətinizə çatdırmaq istərdim. Birinci mətləb belədir ki, insan öldükdən sonra öz ailəsi və ya bu dünya ilə əlaqə yarada bilirmi? Ötən bəhslərdə buna oxşar bir mətləbi qeyd etdik ki, insan öldükdən sonra öz cismi ilə nə kimi əlaqəsi qalır. Amma bu mətləb ondan fərqli olaraq insanın dünyadan getdikdən sonra onun ruhunun bu dünya ilə nə kimi əlaqəsinin olub-olmaması ilə bağlıdır. İkinci mətləb isə ondan ibarətdir ki, insan öldükdən sonra öz ailəsindən, dostlarından, qohum-əqrəbasından və ya tanıdığı insanlardan istəyi və umacağı olurmu? Əgər olursa, bu hansı dərəcədə və hansı keyfiyyətdədir?

Bu iki mətləbin izahına başlamazdan öncə bir məsələyə diqqət yetirək. Həmin məsələ ondan ibarətdir ki, ruh insana aid olduğundan bu məsələ hamının marağını cəlb edir. Demək olar ki, insanların hamısı bu məsələ ilə

maraqlanır və məlumatlanmaq istəyirlər. İnsanlar bilmək istəyirlər ki, öldükdən sonra taleləri necə olacaqdır. Dünya alimləri, xüsusilə bu sahənin mütəxəssisləri məsələ ilə maraqlanmış və çoxsaylı məqalələr, kitablar yazmışlar. Həm Şərq, həm də Qərb alimləri bu barədə geniş və maraqlı söhbətlər etmişlər. Bizim əsas bəhsimiz dini sahə ilə bağlı olduğu üçün həmin alimlərin yazdıqlarını çox da açıqlamaq istəməzdim. Çünki əgər həmin alimlərin ruh haqqında yazdıqları elmi fikirlərdən danışası olsaq, bunun özü ayrıca bir mövzudur. Qısaca olaraq həmin alimlərin yazdıqlarından bir neçə cümləni diqqətinizə çatdırmaq istəyirəm. Həmin alimlər elmi və praktik cəhətdən belə bir qənaətə gəlmişlər ki, insan öldükdən sonra bu dünya ilə əlaqəsi tamamilə kəsilmir. Bəzən ölmüş insanın ruhu bu dünya ilə əlaqə saxlayır, bəzən də bu dünyada yaşayan insanların bəzisi elmi yollarla onlarla əlaqə saxlaya bilirlər. Bu bir neçə cümlədən ibarət olan fikir dünya alimlərinin ruh barədə apardıqları elmi və praktik tədqiqatlar əsasında yazdıqları neçə-neçə kitabın nəticəsidir.

Amma bizim bu barədə əldə etdiyimiz məlumatlar Həzrət Peyğəmbərin(s) və məsum imamlarımızın buyurduqları hədislərə əsaslanır. Dünya alimləri illər boyu zəhmət çəkərək tədqiqat aparmaqla bu məsələ barədə müəyyən qədər məlumat əldə etmişlərsə, biz isə Həzrət Peyğəmbərin(s) və Əhli-beytin(ə) buyurduqlarına əsasən çox rahat və asan şəkildə bizim üçün zəruri olan məlumatları əldə edə bilirik. Dəfələrlə şahidi olmuşuq ki, alimlər yeni-yeni kəşflər etdikdə min dörd yüz il bundan öncə Qurani-Kərimin, Həzrət Peyğəmbərin(s) və Əhli-beytin(ə) həmin kəşflərdən xəbər verdiklərini görüb təəccüblənmişlər. Ruh barədə olan bu məsələ də həmin təəccübdoğuran məsələlərdən biridir.

Həzrət Peyğəmbər(s) buyurmuşdur: “Insan öldükdən sonra ruhu öz ailəsini ziyarət edir.” Bu barədə bir çox hədis və rəvayətlər nəql olunmuşdur ki, onlardan bir neçəsinə diqqət yetirək:

قَالَ الصَّادِقُ(ع): مَا مِنْ مُؤْمِنٍ وَلاَ كَافِرٍ إِلاَّ وَهُوَ يَأْتِي أَهْلَهُ عِنْدَ زَوَالِ الشَّمْسِ فَإِذَا رَأَى أَهْلَهُ يَعْمَلُونَ بِالصَّالِحَاتِ حَمِدَ اللهَ عَلَى ذَلِكَ وَإِذَا رَأَى الْكَافِرُ أَهْلَهُ يَعْمَلُونَ بِالصَّالِحَاتِ كَانَتْ عَلَيْهِ حَسْرَةً

-İmam Sadiq(ə) buyurur: “Elə bir mömin və kafir yoxdur ki, (öldükdən sonra) günorta çağı öz ailəsinə baş çəkməsin. Möminin ruhu öz ailəsinə baş çəkərkən onların (övladlarının) saleh əməllərlə məşğul olduğunu gördükdə sevinir və Allaha həmd-səna edir. Kafir insanın ruhu isə öz ailəsinə baş çəkərkən onların yaxşı əməl sahibi olduqlarını gördükdə narahat olur və onlara həsrət çəkir.”[1]

Bu hədisdən açıq-aydın şəkildə görürük ki, insan kafir və ya müsəlman olmasından asılı olmayaraq, öldükdən sonra ruhu öz ailəsinə baş çəkir. İnsan öldükdən sonra gözlərindən bütün pərdələr götürülür və hər bir şeyin həqiqətini dərk edə bilir. Dünyada çox şeylər insan üçün qaranlıq və üstüörtülüdür. Mömin insanlar axirətə, cənnətə, cəhənnəmə və qiyamət gününə inanırlar. Öldükdən sonra onların həqiqət olduğunu isə gözləri ilə görürlər. Kafir insanlar isə inanmasalar da belə, öldükdən sonra bu həqiqətləri mütləq görəcəklər. O zaman çox peşman olub həsrət çəkəcəklər. Onlar dünyada cənnətin, cəhənnəmin mövcud olduğunu, qiyamət gününün baş verəcəyini eşitmişdilər, amma buna inanmırdılar. Öləndən sonra isə

[1]Biharül-ənvar, 6-cı cild, səh. 257.

gözlərindən pərdə götürüldükdə bütün bunların həqiqət olduğunu anlayacaqlar. Həmçinin öldükdən sonra ruhu ailəsinə baş çəkdikdə övladlarının, nəvə və nəticələrinin əməlisaleh, mömin insanlar olduğunu görüb həsrət çəkəcək və deyəcəkdir ki, nə üçün dünyada özü bu işləri görməmişdir?

عَنْ إِسْحَاقَ بْنِ عَمَّارٍ عَنْ مُوسى ابنِ جعفر(عَلَيْهِ السَّلام) قَالَ: سَأَلْتُهُ عَنِ الْمَيِّتِ يَزُورُ أَهْلَهُ؟ قَالَ: نَعَمْ فَقُلْتُ فِي كَمْ يَزُورُ؟ قَالَ: فِي الْجُمْعَةِ وَفِي الشَّهْرِ وَفِي السَّنَةِ عَلَى قَدْرِ مَنْزِلَتِهِ فَقُلْتُ: فِي أَيِّ صُورَةٍ يَأْتِيهِمْ؟ قَالَ: فِي صُورَةِ طَائِرٍ لَطِيفٍ يَسْقُطُ عَلَى جُدُرِهِمْ وَيُشْرِفُ عَلَيْهِمْ فَإِنْ رَآهُمْ بِخَيْرٍ فَرِحَ وَإِنْ رَآهُمْ بِشَرٍّ وَحَاجَةٍ حَزِنَ وَاغْتَمَّ.

İshaq ibn Əmmar deyir: “İmam Musa ibn Cəfərdən(ə) soruşdum: Ölən insan (ın ruhu) öz ailəsinə baş çəkirmi? İmam(ə) buyurdu: Bəli. Soruşdum: Nə vaxtlar ailəsinin yanına gəlir? Buyurdu: Cümə günü, hər ay, hər il. Hər kəsə öz dərəcə və məqamı qədər gəlməyə icazə verilir... Onlar gəlib öz ailəsinin xeyir işlər etdiyini gördükdə fərəhlənib sevinirlər. Ailəsinin şər işlər etdiyini, pis və narahat yaşadıqlarını gördükdə isə kədərlənirlər.”[1]

Bu hədisdən aydın olur ki, insan öldükdən sonra onun ruhu Allahın izni ilə müəyyən vaxtlar gəlib öz ailəsinə baş çəkir. Digər bir hədisdə belə nəql olunur ki, ruhlar öz ailələrinə baş çəkmək üçün Allahdan icazə aldıqda, Allah-təala icazə verir və iki mələyi də onlara qoşur. Hədis belədir:

---

[1] Biharül-ənvar, 6-cı cild, səh. 257.

عَنْ عَبْدِ الرَّحِيمِ الْقَصِيرِ قَالَ: قُلْتُ لَهُ: الْمُؤْمِنُ يَزُورُ أَهْلَهُ؟ فَقَالَ: نَعَمْ يَسْتَأْذِنُ رَبَّهُ فَيَأْذَنُ لَهُ فَيَبْعَثُ مَعَهُ مَلَكَيْنِ فَيَأْتِيهِمْ فِي بَعْضِ صُوَرِ الطَّيْرِ يَقَعُ فِي دَارِهِ يَنْظُرُ إِلَيْهِمْ وَيَسْمَعُ كَلاَمَهُمْ

-Əbdürrəhim əl-Qəsir deyir: "İmam Musa ibn Cəfərdən(ə) soruşdum: Mömin insanın ruhu öz ailəsini ziyarət edirmi? Həzrət(ə) buyurdu: Bəli. Allahdan izn alır və Allah da ona icazə verir. Sonra isə iki mələyi də ona qoşur və o, bəzi quşların surətində öz evinin üstünə qonur. Evdəkilərə baxır və onların sözlərini eşidir."[1]

Qeyd olunan hədislərdən açıq-aydın məlum olur ki, insan öldükdən sonra ruhu Allahın izni ilə öz ailəsinə baş çəkməyə gəlir. Allah-təala kimə nə qədər icazə verirsə, o qədər də gəlib ailəsini ziyarət edir. Hədisdə də qeyd olunduğu kimi, ruhların öz ailələrini nə qədər çox ziyarət etmələri onların öz məqam və dərəcələrindən asılıdır.

## Dünyasını dəyişmiş insanın öz ailəsindən istəyi

Bəhsimizə uyğun olaraq insanın fikrinə bir neçə sual da gəlir. Həmin suallar bunlardır: Ölü dirilərdən ehsan umurmu? Ailəsinin və digər möminlərin ehsanı ölüyə yetişirmi? Ehsanın ölüyə faydası varmı? Bu sualların cavabında hədis və rəvayətlərə əsasən demək olar ki, dünyasını dəyişən hər bir insanın gözü yenə də bu dünyadadır. Axirət dünyası qazanmaq dünyası deyil. İnsan öz əməlləri ilə hər nə qazana bilirsə, elə bu dünyada mümkündür. Hədislərdə deyilir ki, dünya bir bazardır.

[1]Yenə orada.

Kimi xeyir aparır, kimi ziyana düşür. Bu dünyada insan hər bir fürsətdən istifadə etməli, axirəti üçün azuqə toplamalıdır. Çünki axirət aləmi əməl dünyası deyil. İnsan dünyasını dəyişən kimi əməl dəftəri də bağlanır. Buna görə də heç bir savab qazanmaq iqtidarında olmur. Odur ki, insan bu dünyada axirəti üçün bacardığı qədər çalışmalıdır.

Allah-təala Həzrət Süleyman Peyğəmbərə(ə) çox şeyin ixtiyarını inayət etmişdi. Heyvanlarla danışır, küləyə əmr edə bilirdi. Həm Allahın peyğəmbəri idi, həm də şah idi. Allah-təala onu böyük əzəmət və qüdrət sahibi etmişdi. Günlərin birində özünəməxsus miniyi ilə göydə uçurdu. Dərələrdən birində Allaha ibadət edən bir şəxsin gözü Həzrət Süleymanın(ə) cah-cəlalına düşdü. Gördü ki, Həzrət Süleyman(ə) əzəmət və cah-cəlalla harasa gedir. Öz-özünə dedi: "Subhanallah! Süleymanın əzəmətinə və cah-cəlalına bax!" Həzrət Süleyman(ə) onun sözlərini eşitdi və adamlarına əmr verdi ki, həmin dərəyə ensinlər. Dərəyə endikdən sonra həmin abidin yanına gəlib soruşdu: "Ey Allahın bəndəsi, sən bir söz dedin ki, mən həmin sözə görə bura enməli oldum. Bunu bil ki, sənin sidq ürəklə və saf niyyətlə bircə kəlmə "Subhanallah" deməyin Süleymanın bütün cah-cəlalından böyük və əzəmətlidir. Əgər dediyin o kəlməni tərəzinin bir gözünə, mənim bütün cah-cəlalımı digər gözünə qoysalar, həmin "Subhanallah" kəlməsi ağır gələr."

Odur ki, insan bu dünyada sağ ikən ona verilmiş fürsəti əldən qaçırmamalıdır. Bəndənin Allaha etdiyi hər bir ibadətinin təcəssümü var. Bütün zikrlər və əməllər axirətdə təcəssüm olunacaq. Allah-təala insanı bu dünyada qazanmaq üçün azad buraxmışdır. Hətta bəzi hədislərdə nəql olunmuşdur ki, insanın camaat namazında dediyi

bircə “Allahu Əkbər” kəlməsinin savabı yetmiş həccin savabından üstündür.

Yaxşı və saleh əməllərin müştərisi şəxsən Allahın özüdür. Allah-təala kərim olduğu üçün bəndələrin saleh əməllərini, ixlasla etdiyi ibadətlərin hamısını baha qiymətlə alır. Allah-təala insana bu dünyada qazanmaq üçün azadlıq bəxş etmişdir və bəndə də bacardığı qədər qazansın. Bütün əməllər böyüklüyündən və kiçikliyindən asılı olmayaraq həmin əməlin paklığından asılıdır. Mümkündür ki, bir nəfər orucluq ayında 500 nəfərə iftar süfrəsi versin. Digər mömin isə gücü çatdığı qədər və xalis niyyətlə bir nəfər oruc tutana iftar etmək üçün bircə xurma versin. Qiyamət günü onun əməli saf və paklığına görə həmin 500 nəfərə iftar verənin əməlindən üstün olacaq. Qiyamət günü bütün əməllərin ixlasına, saflığına və paklığına baxılacaq. Qiyamət günü hay-küy günü deyil ki, hər kəs öz istədiyini danışsın və istədiyi işi görsün. Heç bir kəsə danışmaq ixtiyarı verilməyəcək. Hamı icazə və iznlə söz deyəcək. Hər kimin dünyada zərrə qədər belə xeyir əməli olubsa, o da bunun əvəzini görəcəkdir.

Odur ki, insanın bütün əməlləri sonradan öz təcəssümünü tapır. Əgər bir insan sədəqə verirsə, namaz qılırsa və ya yaxşı iş görürsə, bütün bunlar axirət aləmində insan üçün saxlanılır. İnsan bu əməllərdən öz ölüsünə və ya dünyasını dəyişmiş dostuna, qohumuna, digər möminlərə hədiyyə edə bilər. Bu hədiyyələr həmin mərhuma çatır. Hədiyyələr onlara çatdıqda sevinib şad olurlar. Bu barədə bir çox hədis və rəvayətlər nəql olunmuşdur və indi onlardan bir neçəsinə diqqət yetirək.

قَالَ الصَّادِقُ(ع): إِنَّ الْمَيِّتَ لَيَفْرَحُ بِالتَّرَحُّمِ عَلَيْهِ وَالإِسْتِغْفَارِ، كَمَا يَفْرَحُ الْحَيُّ بالْهَدِيَّةِ

-İmam Sadiq(ə) buyurur: “Ölü üçün mərhəmət (ehsan) və istiğfar edildikdə (Allahdan bağışlanma dilədikdə) hədiyyə göndərilən diri insanın şad olduğu kimi şad olur.”[1]

Həzrət Peyğəmbər(s) buyurdu: “Ölənləriniz üçün hədiyyə göndərin. Soruşdular: Ya Rəsulallah, ölənlərimizə necə hədiyyə göndərək? Həzrət(s) buyurdu: Onlar üçün dua edin və sədəqə verin. Sonra buyurdu: Hər cümə axşamı möminlərin ruhu göy qatının aşağı təbəqəsində dayanıb öz ailəsini səsləyər və bəzən də ağlaya-ağlaya belə deyərlər: Ey mənim ailəm, ey mənim övladım, ey ata-anam, bizə mərhəmət göstərin. Allah sizə rəhm eləsin. Dünyada sağ ikən qazandığımız mallarımızın xeyrini siz görürsünüz. Həmin malların əzab və ehsanı bizə qaldı. Bizim üçün (həmin maldan) bircə dirhəm, yaxud bircə çörək və ya bir paltar ehsan edin.” Bu sözləri dedikdən sonra Həzrət Peyğəmbər(s) ağladı və ətrafında əyləşənlər də ağladılar. Sonra Həzrət(s) buyurdu: “Dünyasını dəyişmiş möminlər sizin dini qardaşlarınızdır. İndi bədənləri torpağın altında çürümüşdür. Onlar (ın ruhları) sizi səsləyərək deyirlər: Dünyada əlimizdə olan mallardan infaq etsəydik, indi sizə möhtac olmazdıq.”[2]

Bu hədisdən açıq-aydın görürük ki, ölənlərin gözü bu dünyadadır. Hər bir insan dünyasını dəyişdikdən sonra

---

[1] Quranın xəbər verməsi, 5-ci cild, səh. 460.
[2] Axirət səfərindən hekayətlər, səh. 39.

salavat, sədəqə, namaz və s. kimi ehsanlara ehtiyacı olur. Hədisə əsasən hər cümə axşamı Allahdan izn alaraq öz ailələrini ziyarət edir və onlardan ehsan gözləyirlər. Ölənlər üçün göndərilən ehsan və sədəqə onlara çatdırılır. Mərhum Ayətullah Behcət deyərdi: "Dünyasını dəyişmiş bir insan üçün Həzrət Peyğəmbər(s) və Əhli-beytə(ə) salavat göndərdikdə, mələklər bu salavatı xonça kimi bəzək-düzəkli halda, müqəddəs bir pay olaraq həmin şəxsə aparırlar. Hədiyyəni ona verdikdə həmin şəxsin qəbri nurla dolur." Əlbəttə, Ayətullah Behcət kimi bir şəxsiyyət bu məsələni Həzrət Peyğəmbərin(s) və Əhli-beytin(ə) hədislərindən bizə nəql edir.

Həzrət Peyğəmbər(s) buyurur: "Dünyasını dəyişən insan üçün göndərilən hər sədəqəni bir mələk alır və onu nurdan bir tabağa qoyaraq həmin şəxsin qəbrinin kənarına gətirib deyir: "Salam olsun sizə, ey qəbir əhli. Bu hədiyyəni sizin ailəniz göndərib." Ölü həmin hədiyyəni mələkdən alır və şad olur."

Sonra Həzrət Peyğəmbər(s) buyurur: "Hər kim ölüyə sədəqə ehsan etsə, həmin sədəqəni Allah yanında göndərən insan üçün Ühüd dağı qədər savab yazılar. Qiyamət günü ərşin sayəsində daldalanar. Bu sədəqənin vasitəsilə qiyamət günü hər ikisi (ölü və sədəqə göndərən) əzabdan nicat tapar."[1]

Odur ki, insan ölənləri üçün ehsan və yaxşılıqları kiçik sanmamalıdır. Bilməlidir ki, etdiyi hər bir ehsan və yaxşılıqların həm özünə, həm də ölənlərinə xeyri vardır. Xüsusilə əməli az olub, dünyadan gedən insanlar bu dünyadakı ehsan və sədəqələrə daha çox möhtacdırlar.

---

[1] Axirət səfərindən hekayətlər, səh. 40.

Xorasan əmirlərindən biri öldükdən sonra oğlu yuxuda onu görür. Atası ilə danışanda deyir: “Ey Əmir. Atası deyir: Əmir yox, denən, ey əsir. Mən dünyada əmir idim, amma bu gün əsirəm. Bu gün sizin etdiyiniz hər hansı kiçik ehsana möhtacam. İtə atdığınız sümüyü belə mənim adıma ehsan etməyinizə möhtacam.”[1]

Vaxtilə Həcc ziyarətinə getmişdim. Həmin vaxt İslamın böyük alim və ustadlarından bəziləri də ziyarətdə idilər. Ərəfatda “Ərəfə” duasına başlamazdan öncə Ayətullah Meşkinidən xahiş etdilər ki, bir neçə dəqiqə moizə etsin. Böyük ustadlar və müctəhidlərin əyləşdiyi bir yerdə elə güman etdim ki, Ayətullah Meşkini dərin və fəlsəfi söhbətlər edəcək. Amma bir neçə dəqiqəlik çox sadə və gözəl bir moizə etdi. Söhbət əsnasında buyurdu: “Hədislərdə belə nəql olunur ki, əgər bir heyvana sümük də atsanız belə onu “Qürbətən iləllah” niyyəti ilə həmin əməlin savabını ölənlərinizə hədiyyə edin. Bu hədiyyənin də onlara xeyri var.”

İmam Sadiq(ə) hər gecə öz övladları üçün iki rükət namaz qılardı. Gündüzlər isə valideynləri üçün iki rükət namaz qılardı. Birinci rükətdə “Həmd” surəsindən sonra “Qədr”, ikinci rükətdə isə “Həmd” surəsindən sonra “Kövsər” surəsini oxuyardı.[2]

Ölənlər üçün dua etmək, Allahdan onlar üçün bağışlanmaq diləmək, namaz qılıb onlara hədiyyə etmək, onlar üçün salavat göndərmək savabdır. Biz bunları gözümüzlə görməsək də, bütün bu ehsanlar ölənlərimizə çatdırılır.

---

[1] Axirət səfərindən hekayətlər, səh. 41.
[2] Yenə orada, səh. 42.

Böyük alim, Ayətullah Molla Əbülhəsən Mazandarani belə bir əhvalat danışır: - Şeyx Cəfər adlı təqvalı bir alim, tanınmış bir şəxslə dostluq edirdim. O, çox yaxşı və əmin insan idi. İllərin birində Nəcəf şəhərində epidemiya yayılmışdı. Bir çox insanlar bu xəstəliyə yoluxmuşdu. Bəzi möminlər də həmin epidemiyadan öləcəklərini yəqin edərək öldükdən sonra mallarını yerbəyer etmək üçün onu Şeyx Cəfərə vəsiyyət etdilər. Onlar dünyalarını dəyişdikdən sonra Şeyx Cəfər həımin adamların mallarını vəsiyyətlərinə uyğun şəkildə yerbəyer etdi. Özü də bu xəstəliyə yoluxduğu üçün dünyasını dəyişdi. Buna görə də bəzi işləri tamamlaya bilmədi.

Ayətullah Mazandarani deyir: "Günlərin birində Kərbəla ziyarətinə getmişdim. İmam Hüseynin(ə) hərəmini ziyarət etdikdən sonra qaldığım evə döndüm. Gecə yuxuda gördüm ki, Şeyx Cəfəri çox pis vəziyyətdə - sinəsinə qədər uzanmış halda gətirirlər. O, məni görən kimi nəsə demək istəyirdi. Amma ona danışmağa imkan vermirdilər. Mənə söz deməyə nə qədər cəhd edirdisə, onu danışmağa qoymurdular. Elə bu haldaca yuxudan ayıldım. Ürəyim onun halına yandı. İmam Hüseynin(ə) hərəminə yollandım. Bir küncdə əyləşib ağlaya-ağlaya ata-anama, özümə dua etdim. Bütün bunlarla yanaşı, Şeyx Cəfərə də dua etdim. Həmin hadisənin üstündən iyirmi il keçdikdən sonra Həcc zıyarətinə getmişdim. Mədinədə elə xəstələndim ki, sanki ömrümün axırlarını yaşadığımı güman edirdim. Belə ki, ayaqlarım tutulmuş, iştaham tamamilə kəsilmişdi. Dostlardan xahiş etdim ki, ziyarət və dua etmək üçün məni Həzrət Peyğəmbərin(s) hərəminə aparsınlar. Onlar məni hərəmə apardılar. Hərəmin kənarında əyləşib dua etməyə başladım. Elə bu halda Şeyx Cəfər də yadıma düşdü. Ağlaya-ağlaya ona da o qədər dua

etdim ki, az qaldı gözlərimin yaşı qurusun. Sonra dostlardan xahiş etdim ki, məni həmin məsciddə Xanım Fatimeyi Zəhranın(s.ə) qapısının kənarına aparsınlar. Məni həmin qapının yanına gətirdilər. Qapıdan yapışıb Allaha dua etməyə başladım. Özümə, valideynlərimə dua etməklə yanaşı, ən çox Şeyx Cəfərə dua etdim. Sonra məni evə gətirdilər. Hiss etdim ki, halım yavaş-yavaş düzəlir. Artıq həm yemək yeyə bilirdim, həm də yeriyə bilirdim. Qərara aldım ki, Ühüd dağına gedib orada şəhid olanların qəbrini ziyarət edim. Yola düşüb şəhidlərin dəfn olunduğu yerə getdik. Torpağın üstündə əyləşib Allaha dua etməyə başladım. Orada da Şeyx Cəfər yadıma düşdü. Ona da çoxlu dua etdim və Allahdan onun bağışlanmasını dilədim. Çox yorğun olduğumdan elə oradaca yuxuya getdim. Yuxuda gördüm ki, Şeyx Cəfər təzə libaslarla gözəl surətdə yanıma gəldi. Mənə baxıb dedi: "Afərin, sənin mənimlə olan qardaşlıq və sədaqətinə. Üç gün olar ki, burada məni əzabdan qurtardılar. Sən mənə dua etdikdən, Allahdan bağışlanmağımı dilədikdən sonra məni hamama aparıb çimdirdilər. Sonra Həzrət Peyğəmbərin(s) mənə göndərdiyi libasları geyindirdilər. Çiynimə saldığım bu əbanı isə Xanım Zəhra(s.ə) hədiyyə göndərib. Səni yola salmağa gəlmişəm. Sən sağ-salamat gedib evinə çatacaqsan, ailən də səni sağ-salamat gözləyir."

Ayətullah Mazandarani sonra əlavə etdi: "Yuxudan ayıldım və Həcc ziyarətini başa vurduqdan sonra Şeyx Cəfərin dediyi kimi,  sağ-salamat evə çatdım. Mən tamamilə sağalmışdım. Ailəm də sağ-salamat idi." [1]

---

[1] Axirət səfərindən hekayətlər, səh. 45.

Bu, yuxu da olmuş olsa, hədis və rəvayətlərə uyğun gəlir. Yəni ölənlərə dua etmək, onlar üçün Allahdan bağışlanma diləmək, onların adından sədəqə vermək lazımi məsələlərdəndir. Dünyasını dəyişənlər bizdən bu kimi xeyirxahlıqları umurlar. Bu işləri görməyin təkcə onlara deyil, bizim özümüz üçün də faydası vardır. Onlar da bizim üçün Allaha yalvarıb dua edirlər. Amma burada bir məsələyə diqqət yetirmək lazımdır. Boynunda camaatın haqqı qala-qala dünyasını dəyişənlər bilərəkdən camaatın haqqını yeyib, borcu qaytarmayıblarsa, onların ruhlarına icazə verilmir ki, gəlib dünyada kiməsə bu haqda xəbər versinlər. Amma bir insan unutqanlıq üzündən kiminsə haqqı onun boynunda qalıbsa, yadından çıxaraq borcunu ödəyə bilməyibsə, belə şəxslərə icazə verilir ki, gəlib yaxın adamlarını həmin məsələdən agah etsinlər. Həyatımızda bu kimi halların çox şahidi olmuşuq. Nümunə üçün bir əhvalata diqqət yetirək.

Saleh möminlərdən biri deyir: “Atamın ölümündən bir müddət keçdikdən sonra onu yuxuda gördüm. O, mənimlə salamlaşdıqdan sonra dedi: “Qonşumuz Hacı Rzaya 500 tümən borclu qalmışam. Mənim burada vəziyyətim yaxşı deyil. Həmin borcu qaytarsanız, mənə nicat vermiş olarsınız.” Yuxudan ayıldıqdan sonra bu məsələyə əhəmiyyət vermədim. Sabah gecə yenə də atam yuxuma gələrək həmin sözləri mənə dedi. Bu hadisələr yuxuda baş verdiyindən mən yenə də onun dediklərinə fikir vermədim. Üçüncü gün Atam yenə də yuxuma gəlib dedi: “Axı nə üçün mənim dediklərimə əhəmiyyət vermirsən?” Dedim: “Axı bu bir yuxudur. Mən haradan bilim ki, bu sən özünsən? Ola bilsin mənimlə danışan sənin surətində başqa birisidir. Əgər mənə bir əlamət və nişan göstərə bilsən, arxayın olardım.” Atam dedi: “Yaxşı.

Mən sənə əlamət və nişan deyərəm. İnsan dünyasını dəyişdikdən sonra bütün məchul və qaranlıqların hamısı onun üçün aydın olur. Əməllərin üzərindən pərdələr götürülür. İnsan üçün bütün gizlilər aşkara çıxır. Yadındadırmı, sən cavan olarkən günlərin birində evdə əyləşmişdik. Birdən tavandan suvaq qopub yerə töküldü? Dedim: Bəli, yadıma gəlir. Atam dedi: Sonra biz palçıq düzəldib oranı suvamağa başladıq. Sən mənə palçıq verirdin, mən də oranı suvayırdım. Yadındadırmı, həmin yeri suvadıqdan sonra baxıb gördüm ki, barmağımdakı üzük yoxdur və nə qədər axtardıqsa, tapa bilmədik? Dedim: Bəli, yadıma gəlir. Atam dedi: Mən tavanı suvayanda üzük barmağımdan çıxıb və palçıqla birgə tavandadır. İnanmırsansa, get həmin yerdəki suvağı sök. Əgər üzüyü orada tapsan, deməli yuxuna gələn həqiqətən də mənəm."

Səhər yuxudan oyanıb tavandakı həmin yerin suvağını sökdüm. Bir qaba su töküb sökülmüş suvaq parçalarını həmin qaba atırdım. Sonra onları suyun içərisində ovmağa başladım və birdən əlim həmin üzüyə toxundu. Baxıb gördüm ki, atam yuxuda mənə necə demişdisə, hamısı həqiqət imiş. Sonra qonşumuz Hacı Rzanın yanına gedib soruşdum: "Atamın sənə borcu var idi? O dedi: Bəli, atan mənə 500 tümən borclu qalmışdı. Dedim: Bəs nə üçün bizə deməmisən? Hacı Rza dedi: Həmin pulu atana verəndə hər hansı bir sənədi yazıb imzalamamışdıq. Atan dünyasını dəyişdikdən sonra əlimdə yazılı bir sənəd olmadığından sizə də demədim. Bəlkə də mənə inanmayacaqdınız. Buna görə də heç bir kəsə bu haqda danışmamışam."

Sonra mən başıma gələn əhvalatı Hacı Rzaya danışdım və onun pulunu verib evə qayıtdım.[1]

## Ölənlərin qəbrini ziyarət etmək lazımdırmı?

Hədislərə əsasən qeyd olundu ki, insan dünyasını dəyişdikdən sonra bəzi vaxtlar onların ruhları Allahdan izn alaraq hər biri öz fəzilət və məqamı qədər ailələrini ziyarət edirlər. Həmçinin qeyd edildi ki, onlar üçün sədəqə vermək, namaz qılıb hədiyyə etmək, Allahdan onlar üçün bağışlanmaq diləmək savab və gözəl əməllərdəndir. Sual oluna bilər ki, görəsən, dirilərin onların qəbrini ziyarət etmələrinə ehtiyac varmı? Əgər onları ziyarət etməyə ehtiyac varsa, bəs bu əməlin həm ölülərə, həm də dirilərə nə kimi faydaları vardır? Evdə əyləşib ölüləri yad etməklə, onlar üçün Quran oxuyub, ehsan etməklə qəbirlərini ziyarət etməyin fərqi nədir?

Əlbəttə, qeyd etmək lazımdır ki, bu həqiqətən də çox geniş bir mövzudur. Biz əsas bəhsimizə uyğun olaraq bu barədə müəyyən qədər bəhs etmişik. Qeyd olunan suallara cavab olaraq bir neçə hədisi diqqətinizə çatdırmaq istərdim.

Abdullah ibn Süleyman deyir: "İmam Baqirdən(ə) soruşdum: Qəbiristanlıq əhlini ziyarət etmək lazımdırmı? İmam(ə) buyurdu:

إِذَا كَانَ يَومُ الْجُمُعَة فَزُرهُم، فَإِنَّه مَن كَانَ مِنهُم فِي ضِيقٍ وُسِّعَ عَلَيهِ مَا بَينَ طُلُوعِ الفَجرِ إِلى طُلُوعِ الشَّمس، يَعلَمُونَ بِمَن أَتَاهُم فِي كُلِّ يَومٍ،

[1] Ölümdən bərzəxə, səh. 132.

فَإِذا طَلَعَتِ الشَّمس كَانُوا سُدًى، قُلتُ: فَيَعلَمُونَ بِمَن أَتَاهُم فَيَفرَحُونَ بِهِ؟.. قَالَ: نَعَم، وَيَستَوحِشُونَ لَهُ إِذَا انصَرَفَ عَنهُم

-Cümə günü onları ziyarət edin. Çünki əgər hansısa çətin vəziyyətə düşüblərsə, sizin onları fəcrdən[1] gün çıxana qədər ziyarət etməyiniz onları çətinlikdən və narahatçılıqdan çıxarar. Bütün günü onlar üçün nə hədiyyə etdiyinizi bilirlər. Günəş çıxdıqdan sonra isə heç nədən xəbərləri olmur.

Həzrətdən(ə) yenə də soruşdum: Bizim onları ziyarət edib onlar üçün (sədəqə, dua, istiğfar və s.) etdiklərimizi bilib sevinirlərmi?

İmam(ə) buyurdu: Əlbəttə, bilirlər və sevinirlər. O qədər şad olurlar ki, onlardan ayrılmağınızı istəmirlər."[2]

Bu hədisi açıqladıqda görürük ki, hər cümə günü ölüləri ziyarət etməyin xüsusi savabı vardır. Lakin başqa günlər isə qəbiristanlıq əhlini sübh namazından gün çıxana qədər ziyarət etməyin özünəməxsus savab və faydası vardır. Ölüləri ziyarət edərkən onlar üçün dua, istiğfar etdikdə bundan xəbərdar olub sevinirlər. Əlbəttə, bunu da qeyd etmək lazımdır ki, bərzəx aləmində olanların hamısı eyni səviyyədə yaşamırlar. Bəzi insanlar orada yüksək, bəzisi isə ən aşağı səviyyədə yaşayırlar. Yuxarı səviyyədə yaşayanlar aşağı səviyyədə yaşayanların halından xəbərdardırlar. Amma aşağı səviyyədə yaşayanlar isə yuxarı səviyyədə yaşayanların halından xəbər tuta

[1] Sübh azanı.
[2] Ölümdən bərzəxə, səh. 75; Biharül-ənvar, 6-cı cild, səh. 256.

bilmirlər. Bir sözlə, bərzəxdə olan insanlar öz məqam və dərəcələrinə uyğun yerlərdə yaşayırlar.

Mərhum Seyid Cəmaləddin Qolpayeqani arif alimlər içərisində ən məşhur və ən görkəmli bir şəxs idi. O, ömrünün axırına qədər Nəcəf şəhərində yaşamış və elə orada da dünyasını dəyişmişdir. Şagirdləri deyirlər ki, o, həmişə "Vadiüs-salam" qəbiristanlığını ziyarət etdikdən sonra orada boş bir yerdə əyləşirdi. Bizə təəccüblü gəlirdi ki, görəsən nə üçün o, qəbiristanlığı ziyarət etdikdən sonra həmin boş yerdə oturur. Biz ondan bu məsələnin sirrini soruşduqda isə bizə cavab vermirdi. Uzun müddət keçdi və sonra o, dünyasını dəyişdi. Onu aparıb həmin yerdə dəfn etdilər və biz onun nə üçün həmişə həmin yerdə əyləşib fikrə daldığını dərk etdik. Yəni özünün dəfn olunduğu yeri əvvəlcədən bilirmiş.

Seyid Cəmaləddin Qolpayeqani elə şərafətli bir insan idi ki, onun barəsində günlərlə söhbət etmək olar. Oğlu deyir: "Günlərin birində atamı yuxuda gördüm. Gördüm ki, Həzrət Əlinin(ə) qəbrinin kənarında dövrə vura-vura ziyarətlə məşğulam. Birdən gördüm ki, atam da qəbrin ətrafındadır və əks istiqamətdə dövrə vurduğu üçün onunla üz-üzə gəldik. Ancaq bilmirəm ki, mən əksinə fırlanırdım, yoxsa atam. Avam camaat arasında belə bir misal var ki, hər kim dünyadan gedən insanı yuxuda görsə və onun baş barmağından yapışsa, istədiyi suala cavab ala biləcək. Mən də bundan istifadə edərək tez atamın baş barmağından yapışdım. Atam mənə baxıb gülümsəyərək dedi: Bu avam söhbətləri bir kənara qoy. Dedim: Axı səndən söz soruşmaq istəyirəm. Atam dedi: Axı insan bura (o biri dünyaya) gələndən sonra buranın sirlərindən danışmağa icazə verilmir. Müəyyən qədər danışmaq olar, amma artıq danışmağa icazə yoxdur. Dedim: Mən səndən

başqa şey soruşmayacağam. Sadəcə bilmək istəyirəm ki, siz bərzəx aləmində hansı məqamdasınız? Dedi: Mən bərzəxin yeddinci təbəqəsindəyəm. Məni və tanıdığım altı şəxsi orada məskunlaşdırıblar. Soruşdum: Onların adlarını mənə deyə bilərsənmi? Atam bir-bir onların adlarını mənə dedi. Mən onların adlarını eşitmişdim. Sonra tanınmış, ancaq dünyasını dəyişmiş böyük müctəhidlərdən birini atamdan xəbər aldım. Soruşdum ki, bəs o, hansı məqam və dərəcədədir? Atam dedi: O, birinci təbəqədədir. Soruşdum: Sizin onlardan xəbəriniz varmı? Dedi: Bəli. Bəs onlar sizin vəziyyətinizdən xəbərdardılarmı? Dedi: Xeyr, onların yuxarı təbəqələrdən xəbərdar olmalarına icazə verilmir. Yuxarıdakıların aşağıdakılardan xəbər tutmağa icazələri var, amma aşağıda yerləşənlər yuxarıdakılardan xəbər tuta bilməzlər."

Bu, yuxuda baş vermiş bir hadisə olsa da belə, hədislərlə uyğun gəldiyi üçün etibarlı hesab oluna bilər. Cənnətdə müxtəlif səviyyələrdə yaşayanların bir-birindən xəbərdar olmaları mümkündür. Amma bərzəx aləminin qayda-qanunlarına görə dərəcəsi aşağı olan insana yuxarı dərəcədə yaşayanlardan xəbər tutmağa icazə verilmir.

Odur ki, dünyasını dəyişən insanların qəbrini ziyarət etmək bizə tövsiyə olunmuşdur. Əlbəttə, bunu da bilmək lazımdır ki, peyğəmbərlərin və məsum imamların dərəcə və məqamları müxtəlif olduğu üçün onları ziyarət etmə də fərqlidir. Hər hansı bir imamımızın qəbrini ziyarət edərkən onunla xüsusi söhbət edir və fərqli şəkildə ziyarətnamə oxuyaraq deyirik:

أَشْهَدُ أَنَّكَ تَشْهَدُ مَقَامِی وَ تَسْمَعُ كَلَامِی تَرُدُّ سَلامِي وَ أَنَّكَ حَیٌّ عِنْدَ رَبِّكَ تُرْزَقُ

-Sənin mənim məqamımdan xəbərin olduğuna və sözlərimi eşitdiyinə şəhadət verirəm. Şəhadət verirəm ki, mənim salamıma cavab verirsən. Şəhadət verirəm ki, sən Allah yanında dirisən və sənə ruzi verilir.

Beləliklə, həm Həzrət Peyğəmbəri(s), həm imamlarımızı, həm şəhidləri, həm də saleh insanları ziyarət edərkən müxtəlif ibarələrlə onlarla danışırıq. Həzrət Peyğəmbər(s) Ühüd şəhidlərinə işarə edərək belə buyurdu:

أَيُّهَا النَّاسُ زوروهم وَ أْتُوهُمْ وَ سَلِّمُوا عَلَيْهِمْ فَوَالَّذِى نَفْسِى بِيَدِهِ لَا يُسَلِّمُ عَلَيْهِمْ مُسْلِمِ الَىَّ يَوْمَ القيامه الَّا رَدُّوا عَلَيْهِ السَّلَامُ

-Camaat! Onları ziyarət edin və onlara salam verin. And olsun canım əlində olan Allaha ki, qiyamətə qədər hər bir müsəlman onlara salam verdikdə, onlar salamın cavabını qaytarırlar.[1]

Ola bilsin ki, Həzrət Peyğəmbəri(s) və imamlarımızı ziyarət etmək istəyən şəxsin onları ziyarət etməyə imkanı olmasın. Belə olduqda onların buyurduqlarına əsasən saleh və mömin insanların qəbrini ziyarət etmək lazımdır.

قَالَ الإِمَامُ الكَاظِمُ(ع): مَن لَم يَستَطِعْ أن يَزُورَ قُبُورَنا فَلْيَزُرْ قُبُورَ صُلَحاءِ إخوانِنا

-İmam Musa Kazım(ə) buyurur: “Kimin bizləri ziyarət etməyə imkanı çatmırsa, əməlisaleh dostlarımızın qəbirlərini ziyarət etsə, onun üçün bizim ziyarətimizin savabı yazılar.”[2]

---

[1] Quranın xəbər verməsi, 5-ci cild, səh. 460.
[2] Mizanül-hikmə, 5-ci cild, hədis - 7985.

Davud Riqqi deyir: “İmam Sadiqdən(ə) soruşdum: İnsan öz atasının, qohumunun və qəribin qəbri üstünə gedir. Bu işin ona faydası varmı?” İmam(ə) buyurdu:

نَعَم إنّ ذلك يَدخُلُ علَيهِ كما يَدخُلُ عَلى أحَدِكُم الهَدِيَّةُ، يَفرَحُ بِها

-Bəli. Sizlərdən birinizə bir hədiyyə veriləndə şad olduğunuz kimi, ölü də sizin bu işinizə sevinir.”[1]

[1] Yenə orada, hədis - 7988.

## Əhli-qüburu ziyarət etməyin qaydası və savabı

Bura qədər öyrəndik ki, qəbiristanlıq əhlini ziyarət etmək, onlara salam vermək, onlar üçün Allahdan bağışlanma diləmək, Quran oxumaq kimi əməllər bəyənilmiş və təkid olunmuş əməllərdir. Yaxşı olar ki, qəbiristanlıq əhlini ziyarət etməyin qaydaları haqda da söhbət edək. Sual oluna bilər ki, bu işin insana nə kimi faydası vardır? Bu barədə də bir çox hədis və rəvayətlər nəql olunmuşdur ki, bir neçəsini diqqətinizə ərz edirəm.

قَالَ عَلِيّ ابن مُوسى الرِّضا(ع): مَا مِنْ عَبْدٍ زارَ قَبْرَ مُؤْمِنٍ، فَقَرَا عَلَيْهِ "إِنّا ا نْزَلْناهُ فِى لَيْلَهِ الْقَدْرِ" سَبْعَ مَرّاتٍ، إِلاّ غَفَرَ اللّهُ لَهُ وَلِصاحِبِ الْقَبْرِ

-İmam Rza(ə) buyurur: “Hər hansı bir bəndə mömin insanın qəbrini ziyarət etsə və yeddi dəfə “İnna ənzəlnahu fi leylətil qədr” surəsini oxusa, Allah-təala həm onun özünü, həm də qəbir sahibini bağışlayar.”[1]

İmam Sadiq(ə) buyurur: “Qəbiristanlığın içinə daxil olduqda (qəbirlərin arasında gəzə-gəzə) 11 dəfə “İxlas” (Qul huvəllah) surəsini oxu və savabını əhli-qübura hədiyyə et. Hər kim bu işi görsə, Allah-təala ona həmin qəbiristanlıqda dəfn olunan insanların sayı qədər savab inayət edər.”[2]

Həzrət Peyğəmbər(s) buyurur: “Qəbiristanlıqda “Ayətəl-kürsü”nü oxuyub savabını əhli-qübura hədiyyə

---

[1] Quranın xəbər verməsi, 5-ci cild, səh. 472.
[2] Ölümdən bərzəxə, səh. 76.

etdikdə Allah-təala hər qəbrə məşriqdən məğribə qədər qırx nur daxil edər, onların qəbrini genişləndirər və hər birini bir dərəcə yüksəldər. Hər kim "Ayətəl-kürsü"nü oxuyub savabını əhli-qübura hədiyyə etsə, Allah-təala onun oxuduğu hər bir hərfdən onun üçün qiyamətə qədər zikr, dua və istiğfar edəcək bir mələk yaradar."[1]

## Ata-ananın qəbrini ziyarət etməyin xüsusiyyətləri

Hədislərdə övladın ata-anasının qəbrini ziyarət etməsi xüsusi tövsiyə olunmuşdur. Hətta övladın öz valideyninin qəbri üstündə dua etməsi onun dualarının qəbul edilməsinə səbəb olar.

قَالَ عَلِيٌّ(ع): زُورُوا مَوتاكُم؛ فإنّهُم يَفرَحُونَ بِزِيارَتِكُم، و لْيَطلُبِ الرَّجُلُ حاجَتَهُ عِندَ قَبرِ أبيهِ و أُمِّهِ بعدَ ما يَدعُو لَهُما

-Həzrət Əli(ə) buyurur: "Ölülərinizi ziyarət edin. Çünki onlar sizin ziyarətinizdən şad olurlar. Əgər bir kəsin Allahdan istək və hacəti olsa, ata-anasının qəbrinin üstünə gedib valideyninə dua etsin və Allahdan (onlara xatir) öz hacətlərini diləsin."[2]

## Əhli-qübura salam verməyin qaydası

Hədislərdə qəbiristanlıq əhlinə salam verməyin qaydası nəql olunmuşdur. Yəni hədislərdə qəbiristanlıq əhlinə salam vermək tövsiyə olunduğu kimi, salam verməyin qaydasını da bizə öyrətmişlər.

---

[1] "Ayətəl-kürsü"nün siması, səh. 33.
[2] Mizanül-hikmə, 5-ci cild, hədis - 7987.

Əli ibn Əbi Həmzə deyir: “İmam Sadiqdən(ə) soruşdum: Əhli-qübura salam verimmi? İmam(ə) buyurdu: Bəli. Soruşdum: Necə salam verim? İmam(ə) buyurdu:

السَّلَامُ عَلَى أَهْلِ الدِّيَارِ مِنَ الْمُؤْمِنِينَ وَ الْمُؤْمِنَاتِ، وَ الْمُسْلِمِينَ وَ الْمُسْلِمَاتِ، أَنْتُمْ لَنَا فَرَطٌ، وَ إِنَّا بِكُمْ إِنْ شَاءَ اللَّهُ لَاحِقُونَ

-Salam olsun mömin kişi və mömin qadınların, müsəlman kişi və müsəlman qadınların əhlinin diyarına. Siz bizdən öncə getmisiniz və biz də, inşallah, sizə qoşulacağıq.”[1]

İkinci rəvayət Həzrət Əlidən(ə) nəql olunmuşdur. Yəni Həzrət Əli(ə) qəbiristanlığın kənarından keçərkən əhli-qübura belə salam verərdi:

السَّلامُ على أهلِ لا إلَهَ إلاّ اللّهُ، مِن أهلِ لا إلَهَ إلاّ اللّهُ، يا أهلَ لا إلهَ إلاّ اللّهُ كيفَ وَجَدتُم كَلِمَةَ لا إلهَ إلاّ اللّهُ؟ يا لا إلهَ إلاّ اللّهُ بِحَقِّ لا إلهَ إلاّ اللّهُ اغفِرْ لِمَن قالَ لا إلهَ إلاّ اللّهُ، واحشُرْنا في زُمرَةِ مَن قالَ لا إلهَ إلاّ اللّهُ

-Salam olsun la ilahə illəllah əhlinə, la ilahə illəllah əhlindən. Ey la ilahə illəllah əhli! (Öldükdən sonra) La ilahə illəllah kəlməsini necə gördünüz? Ey la ilahə illəllah, la ilahə illəllah haqqına la ilahə illəllah deyən kəsləri bağışla. Bizi la ilahə illəllah deyənlərin zümrəsində qərar ver.

[1] Mizanül-hikmə, 5-ci cild, hədis - 7991.

سَمِعتُ رسولَ اللّهِ صلى الله عليه و آله يقولُ: مَن قالَها إذا مَرَّ بالمِقابِرِ غُفِرَ لَهُ ذُنوبُ خَمسِينَ سَنةً، فقالوا: يا رسولَ اللّهِ، مَن لَم يَكُن لَهُ ذُنوبُ خَمسِينَ سَنةً؟ قالَ: لِوالِدَيهِ و إخوانِهِ و لعامَّةِ المسلمينَ

Həzrət Əli(ə) əhli-qübura salam verdikdən sonra belə buyurdu: “Allahın Rəsulundan eşitdim ki, belə buyurdu: Kim qəbiristanlıqdan keçərkən bu cümlələri oxuyub əhli-qübura salam versə, əlliillik günahları bağışlanar. Soruşdular: Ya Rəsulallah, əgər birinin əlli illik günahı olmasa necə? Həzrət(s) buyurdu: Ata- anasının, qardaşlarının və ümumi müsəlmanların əlli illik günahları bağışlanar.”[1]

Bu hədislərdən görürük ki, insan dünyasını dəyişdikdən sonra dünya ilə əlaqələri kəsilmir. Gözümüzlə görməsək də belə həm bu dünyadan onlarla əlaqə saxlamaq olur, həm də onlar bu dünya ilə əlaqə saxlaya bilirlər. Ölənləri yad etmək, onların qəbrinin üstünə getmək təkid olunmuş əməllərdəndir. Həzrət Peyğəmbər(s) istəyir ki, ölənlərin ruhları bizimlə əlaqə saxladıqları kimi, biz də onlarla əlaqəni kəsməyək. Qəbiristanlıq əhlinin ziyarətini haram bilən, şirk və küfr bilən insanlar Allahın rəhmət qapılarını öz üzlərinə bağlamış kəslərdir. Allah-təala rəhmət qapılarını insanların üzünə açıq qoymuşdur. Onlar isə həmin qapıları öz üzlərinə bağlayıblar. Onlar əhli-qüburu ziyarət etməyi qəbul etmək istəmirlər. Hər kim bunu qəbul etməsə, Allah onu həmin savabdan məhrum edər. Onlar hətta qiyamət günü Həzrət Peyğəmbərin(s) və Əhli-beytin(ə) şəfaət edəcəyini belə qəbul etmirlər. Belə

[1] Mizanül-hikmə, 5-ci cild, hədis - 7992.

olduqda onlar şəfaətdən də məhrum olacaqlar. Şəxsən Həzrət Peyğəmbər(s) özü belə buyurmuşdur: "Kim mənim şəfaət etməyimə iman gətirməsə, Allah-təala mənim şəfaətimi ona çatdırmayacaq."

Bütün müsəlmanlar bilməlidirlər ki, Həzrət Peyğəmbərdən(s) sonra Allah-təala yer üzündə Əhli-beyti(ə) onun naibi təyin etmişdir. Əhli-beyt(ə) və məsum imamlar Həzrət Peyğəmbərin(s) elminin varisi və daşıyıcılarıdır. İmamların elmi Həzrət Peyğəmbərin(s) elmidir. Həzrət Peyğəmbər(s) dünyasını dəyişdikdən sonra bir sıra müsəlmanlar Allahın rəhmət qapılarını öz üzlərinə bağlayaraq dedilər ki, bizə hədis lazım deyil. Allahın kitabı bizə bəs edər. Həzrət Peyğəmbərdən(s) nə qədər eşitmişdilərsə, elə onunla də kifayətləndilər. Amma bunu qəbul etmək istəmədilər ki, Həzrət Peyğəmbərdən(ə) sonra Həzrət Əli(ə), İmam Həsən(ə) və digər imamlar da dini məsələləri bizə öyrədirlər. Buna görə də onlar Əhli-beytin(ə) bizə öyrətdiyi hədisləri qəbul etmədikdə mənası belə çıxır ki, Allahın rəhmət qapılarını öz üzlərinə bağlamış və özlərini bu rəhmətdən məhrum etmişlər. Əhli-beytin(ə) vücudu ilə Allahdan bizə çatmış rəhmət və mərhəməti (müstəhəb əməlləri) şirk bilən insanların ixtiyarı yoxdur ki, kiminsə əqidəsinə müdaxilə etsinlər. Bizim Peyğəmbərə(s), onun Əhli-beytinə(ə) və onların buyurduqları hər bir kəlməyə möhkəm əqidəmiz vardır. Biz bu əqidəyə əməl edirik. Onlarla müxalif olanlar da gedib öz əqidələrinə əməl etsinlər. Əhli-beytin(ə) buyurduqlarını qəbul etmək istəmirlərsə, qəbul etməsinlər. Amma onların sözlərini qəbul edənləri heç kəsin ixtiyarı yoxdur ki, şirk və ya küfr adlandırsın. Onların müsəlmanların əməllərinə şirk demələri iftira və ən pis böhtandır. Odur ki, əgər əhli-qüburu ziyarət etmək pis əməl olsaydı, Həzrət

Peyğəmbər(s) və imamlarımız bizə həmin əməli tövsiyə etməzdilər. Onlar qəbiristanlıq əhlini, ata-ananın, qohum-əqrəbanın, əməlisaleh insanların, xüsusilə məsumların qəbrini ziyarət etməyin nə qədər savab olduğunu bizə bəyan etmişlər. Bu əməl ikitərəfli faydalıdır ki, yuxarıdakı hədislərdə qeyd olundu.

## Bədən çürüdükdən sonra qəbri ziyarət etmək lazımdırmı

İnsanın ruhu bədənindən ayrıldıqdan sonra qiyamət gününə qədər bərzəx aləmində yaşayır. Cansız bədən isə qiyamət gününə qədər qəbirdə qalmalı olur. Qeyd etdik ki, insan öldükdən sonra ruhun öz bədəni ilə az da olsa, əlaqəsi və bağlılığı qalır. Həmçinin bu əlaqə və bağlılıq haqda olan hədisləri oxuduq. Burada yaxşı olar ki, bir mətləbə də diqqət yetirək. Əlbəttə, həmin mətləbi bilib-bilməməyimiz bilavasitə insan taleyinə mənfi təsir edə biləcək məsələlərdən deyil. Amma onu da bilməliyik ki, yaşadığımız indiki aləmdə bu bir həqiqətdir. Məlumdur ki, insan öldükdən sonra onun bədənini torpağa tapşırırlar. Amma bəzən uzun illər keçməsinə baxmayaraq, qəbirdə bir sıra insanların bədəninin çürümədiyinin şahidi oluruq. Müəyyən hadisələrlə əlaqədar olaraq min ilin qəbri açıldıqda orada dəfn olunmuş insanın bədəninin çürümədiyi aşkar edilmişdir. Yaxud yol çəkilişi ilə bağlı min ilin qəbiristanlığı başqa bir yerə köçürüldükdə orada elə qəbirlərə rast gəlinib ki, həmin qəbirdə yatan insan sanki yenicə dəfn olunmuşdur.

Allahın varlığına əqidəsi olan insanlar bilirlər ki, O, yenilməz qüdrət sahibidir. Allah hər nəyə iradə etsə, mütləq yerinə yetər. Məsələn, insanın bütün vücudunda Allahın qüdrətinin şahidi ola bilirik. Göz insanın üzvlərindən biridir. 80-90 il suyun içində qalır, amma çürümür. Həmçinin insanın dili illər boyu ağzın içərisində qalır, amma çürümür. Yaxud insanın saçları ilə qaşlarına diqqət yetirdikdə görürük ki, eyni dərinin altından çıxmasına baxmayaraq, saç uzanır, amma qaşlar olduğu kimi qalır. Allah hər bir şeyə necə iradə edirsə, mütləq

Onun iradəsi kimi olur. Bütün xilqət aləmində varlıqların hamısı Allahın iradəsi ilə hərəkət edir.

Həmçinin min illər boyu dəfn olunmuş bir ölünün bədəninin çürüməməsi də Onun iradə və əmriilədir. Allahı qəbul edən və Onun qüdrətinə şəkk etməyən insanlar üçün belə məsələləri qəbul etmək də çox asandır. İnsanlar bilirlər ki, torpaq Allahındır və torpağa kimi çürüdüb-çürütməməsini də O, əmr verir. Məsələn, alovun xüsusiyyəti yandırmaqdırsa, hər yerə düşdükdə yandırıb kül edirsə, Allahın əmri ilə o da öz xüsusiyyətini itirə bilir. Həzrət İbrahimi(ə) tonqalın içinə atdıqda Allahın əmri ilə od onu yandırmadı. Eyni zamanda Allahın əmri ilə xəncərin xüsusiyyəti də kəsməkdir, lakin o da Allahın əmri ilə İsmayılın(ə) boğazını kəsmədi. Torpaq da elə bu cürdür. Torpağın xüsusiyyəti çürütməkdir. Allah-təala ona hansı bədəni çürütməməyi əmr edirsə, o da Allahın əmrinə tabe olur. Allaha etiqadı olanların belə məsələləri başa düşməsi çox asandır. Çünki hər bir şeyin Allahın qüdrətində olduğunu yəqin bilirlər.

Kommunistlər və onlar kimi düşünən başqa insanlar hər bir şeyə maddi nöqteyi-nəzərdən baxdıqlarına və mənəvi aləmə inanmadıqları üçün bütün bunları boş bir şey hesab edirlər. Onlara sual vermək lazımdır ki, bəs nə üçün eyni qəbiristanlıqda yüz illər bundan öncə dəfn olunmuş bəzi insanların cəsədləri çürümür? Amma onun yanında bir neçə il öncə basdırılmış ölünün cəsədi tamamilə çürümüş, yalnız sümükləri qalmışdır? Əgər onlar desələr ki, bu, həmin yerdəki torpağın tərkibi ilə bağlıdır və əgər belədirsə, onda bəs nə üçün yan-yana dəfn olunmuş cəsədlərdən biri çürümüş, digəri isə olduğu kimi qalmışdır?

Görünür ki, bunun torpağın tərkibi ilə heç bir əlaqəsi yoxdur. Nə varsa, məhz həmin cəsəddədir ki, torpaq onu çürüdə bilmir. Dini alimlər yazmışlar ki, əgər ruhun bədənlə əlaqəsi və bağlılığı möhkəm olarsa, torpaq onun cəsədini çürütməz. Tarixə nəzər saldıqda minlərlə belə hadisələrə rast gəlmək mümkündür. Bədənin torpaq altında çürüməməsi təsadüfi bir hal deyildir. Həzrət Peyğəmbər(s) və imamlarımızdan da bu haqda kifayət qədər hədis və rəvayətlər nəql olunmuşdur.

Həzrət Peyğəmbər(s) buyurur: "Mənim həyatda olmağım da, ölümüm də sizin üçün nemətdir. Hər ikisinin sizə fayda və xeyri vardır." Soruşdular: "Ya Rəsulallah, bu, necə ola bilər?" Peyğəmbər(s) buyurdu: "Həyatda olmağımın sizin üçün faydası budur ki, Allah-təala "Ənfal" surəsinin 33-cü ayəsində belə buyurur:

وَمَا كَانَ اللّهُ لِيُعَذِّبَهُمْ وَأَنتَ فِيهِمْ

-Nə qədər ki, sən onların arasındasan, Allah onlara əzab verməyəcəkdir.

Mən dünyanı dəyişdikdən sonra da sizə xeyri var. Səbəbi də budur ki, hər gün sizin əməlləriniz mənə təqdim olunar. Əgər əməlləriniz yaxşı olsa, Allahdan istəyərəm ki, yaxşı əməllərinizi çoxaltsın. Yox, əgər əməlləriniz pis olsa, Allahdan sizin üçün bağışlanmaq diləyərəm." Soruşdular: "Ya Rəsulallah, sizin bədəniniz qəbirdə çürüdükdən sonra da bizə xeyri olacaq?" Peyğəmbər(s) buyurdu: "Qəbirdə bizim bədənimiz çürüməyəcək. Çünki Allah-təala bizim bədənimizin ətini (çürütməyi) torpağa haram etmişdir."[1]

---

[1] Ölümdən bərzəxə, səh. 228; Mən la yəhzurhul fəqih,1-ci cild, səh.121.

Həzrət Əli(ə) “Nəhcül-bəlağə”də bu haqda belə buyurur:

أَيُّهَا النّاسُ! خُذُوها عَنْ خاتَمِ النَّبِيِّينَ صلّى اللّهُ عَلَيهِ وآلِهِ وَسلَّم: إِنَّهُ يَمُوتُ مَنْ ماتَ مِنّا ولَيْسَ بِمَيِّت، ويَبْلَى مَنْ بَلِيَ مِنّا ولَيْسَ بِبال. فَلا تَقُولُوا بِما لا تَعْرِفُونَ

-Ey camaat! Bu rəvayəti Xatəmül-ənbiya səlləllahu əleyhi və alih və səlləmdən öyrənin (öz ailəsinin mədhi və əzəməti barədə buyurmuşdur): Bizlərdən biri *(zahirən)* ölsə belə diridir. Və *(nadanların səhv əqidələrinə görə)* bizdən çürüyənlər də çürümüşdür, halbuki çürüməmişlər. Belə isə tanımadığınız *(bilmədiyiniz)* şeydən *(Həzrət Peyğəmbərin ailəsi barədə)* danışmayın, çünki sizin inkar etdiklərinizdə həqiqət daha çoxdur.[1]

قَالَ الصَّادِقُ(ع): إِنَّ اللَّهِ عزوجل حَرَّمَ عِظَامَنَا عَلَى الارضِ وَ حَرَّمَ لُحُومَنَا عَلَى الدُّودِ ان يُطْعِمُ مِنْهَا شَيْئاً

-İmam Sadiq(ə) buyurur: “Həqiqətən, Allah-təala bizim sümüklərimizi torpağa, ətimizi də (heyvan və) həşəratlara haram etmişdir. Onlar heç bir vaxt bizim ətimizdən bir şey yeməzlər.”[2]

Əlbəttə, bu haqda əhli-sünnə mənbələrində də hədislər nəql olunmuşdur. Həmin hədislərdən biri belədir:

---

[1] Nəhcül-bəlağə, 86-cı xütbədən.
[2] Ölümdən bərzəxə, səh. 76; Əbədi cəsədlər, səh. 17.

قَالَ رَسُولُ اللّهِ(ص): إِنَّ اللَّهَ عَزَّ وَجَلَّ حَرّمَ عَلَى الْأَرْضِ أَجْسَادَ الْأَنْبِيَاءِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Həqiqətən, Allah-təala peyğəmbərlərin cəsədlərini (çürütməyi) torpağa haram buyurmuşdur."[1]

## Qəbirdə bədənin çürüməməsinə səbəb olan əməllər

Həm hədislərə, həm də müşahidələrə əsasən şahidi ola bilirik ki, Peyğəmbərin(s), Əhli-beytin(ə) və əməlisaleh insanların bədənləri torpaq altında çürümür. Bu, Allahın hikmət və qüdrətidir ki, torpağa onların bədənlərini çürütməyə icazə vermir. Burada sual oluna bilər ki, bəs nə üçün başqa insanların bədənləri çürüyür, amma onların bədənləri torpaq altında çürümür? Bunun hansısa bir səbəbi vardırmı? Bu sualın cavabı belədir ki, ilk növbədə Allah kimin bədəninin çürüməsini istəməsə, torpaq da onu çürütməyəcək. Amma bunu da bilmək lazımdır ki, Allahın bu iradəsi də insanın əməlləri ilə əlaqəlidir. İnsanın hidayət olunması da belədir. Allah insanın hidayət olunmasını iradə edirsə, bəzi insanlar öz əməlləri ilə özlərini bu hidayətdən məhrum edirlər. Həmçinin bir sıra əməllər də vardır ki, insan həyatında onlara riayət etsə, öldükdən sonra Allahın əmri ilə torpaq həmin şəxsin bədənini çürütməz. Burada yaxşı olar ki, həmin əməllərdən bir neçəsini diqqətinizə çatdırım.

---

[1] Müstədrək, Hakim Həskani, 4-cü cild, səh. 560; Sünəni ibn Macə, 1-ci cild, səh. 345; Müsnədi Əhməd ibn Hənbəl, 4-cü cild, səh. 8; Əl-bidayəti vən-nihayə, 5-ci cild, səh. 276.

Mərhum Qütbiddin Ravəndi böyük alimlərdən biri idi. Onun qəbri Qum şəhərində Xanım Məsumənin(s.ə) ziyarətgahının həyətindədir. Alimin qəbrini təmir edərkən neçə illər bundan öncə dünyasını dəyişməsinə baxmayaraq, bədəninin dəfn olunduğu kimi qaldığı aşkar olunmuşdur. Onun yazdığı kitablardan birində də bu haqda hədis və rəvayətlər nəql edilmişdir. "Lübbül-lübab" əsərində məsum imamlarımızdan belə bir hədis nəql edir:

لا تَبْلِى عَشَرَةَ: الْغَازِي، وَ الْمُؤَذِّنُ، وَ الْعَالِمُ، وَ حَامِلُ الْقُرْآنِ وَ الشَّهِيدُ، وَ النَّبِيِّ، والمرأه إِذَا مَاتَتْ فِي نِفَاسِهَا، وَ مَنْ قُتِلَ مَظْلُوماً، وَ مَنْ مَاتَ يَوْمَ الجمعه أَوْ لَيْلَتَهَا

-On cür insanın cəsədi qəbirdə çürüməyəcək: Allah yolunda cihad edib döyüşənlərin, azan verənlərin, (elmlərinə əməl edən) alimlərin, Quran hafizlərinin, şəhidlərin, peyğəmbərlərin, uşaq dünyaya gətirərkən ölən qadınların, məzlumcasına qətlə yetirilənlərin, cümə günü və cümə axşamı dünyasını dəyişənlərin.[1]

Merac hədisində belə nəql olunur ki, kim qəbirdə bədəninin çürüməsini və həşəratların onun ətini yeməsini istəmirsə, məscidləri süpürsün. Kim qəbirdə bədəninin çürüməsini istəmirsə, məscidləri (xalça və yaxud) başqa döşənəcəklərlə döşəsin.[2]

Bu hədisdən belə çıxır ki, məsciddə işləyən xidmətçi yox, hər hansı bir mömin də məsciddə xidmət göstərərsə, o insanın da bədəni qəbirdə çürüməz.

[1] Əbədi cəsədlər, səh. 18.
[2] Yenə orada, səh. 19-20.

Həzrət Peyğəmbər(s) buyurur: "Kim pak və təqvalı alimləri sevib onlara xidmət göstərsə... dünyadan getməmişdən öncə (can verərkən) ona Kövsər suyu içirdərlər və onun bədənini qəbirdə həşəratlar yeməz."[1]

**Qeyd:** Burada bir mətləbə də diqqət yetirmək lazımdır ki, sadalanan bu amillərin hamısının ümumi bir şərti vardır. Həmin şərt isə insanın mömin olması ilə bağlıdır. Əgər insanda iman olmasa, bütün bunların heç birinin insana təsiri olmayacaq. Kim Allaha iman gətirsə, Onun vacib etdiyi əməlləri vacib, haram etdyi işləri haram bilsə, Allahın buyurduqlarına riayət etsə, o zaman yuxarıda qeyd olunan əlamətlərin ona təsiri olar. Əlbəttə, imanla yanaşı, insanın bədəninin qəbirdə çürüməməsində təsirli olan bir sıra əməllər də mövcuddur ki, onları diqqətinizə çatdırıram:

1. Davamlı şəkildə cümə qüslü vermək. Bu əməl öz-özlüyündə də müstəhəb və savab əməllərdəndir;

2. Davamlı şəkildə gecə namazı qılmaq. Bu namaz sübh namazından əvvəl, yəni gecəyarısı qılınır;

3. Davamlı şəkildə Quran oxumaq. Gün ərzində az da olsa, Quran oxumaq və heç bir vaxt bu işi tərk etməmək;

4. Davamlı şəkildə Aşura ziyarətini oxumaq;

5. Davamlı şəkildə "Camieyi-Kəbirə" duasını oxumaq;

6. Həmişə təharətli və pak olmaq. Qüslə düşdükdə qüsl almaq və həmişə dəstəmazlı olmaq;

7. Camaatın dərdinə yaramaq, ehtiyac üzündən qapıya gələni əli boş yola salmamaq;

---

[1] Yenə orada, səh. 20.

8. İmam Hüseynin(ə) əzadarlıq məclisində iştirak etmək və o məclisdə xidmət göstərmək;

9. Möminlərin abrını qorumaq üçün çalışmaq. Bilmək lazımdır ki, mömінin hörməti Allahın yanında Kəbənin hörmətindən üstündür. Buna görə də hədislərdə nəql olunur ki, bir mömini təhqir edib onu rüsvay etmək və abrını tökmək Kəbəni murdarlamaqdan daha pisdir;

10. Gündəlik vacib namazları vaxtında qılmaq;

11. Beytülmaldan (hətta ehtiyac olsa da belə) istifadə etməmək.

Sadaladığımız bu on bir əməl alimlərin həyat və fəaliyyətlərindən götürülmüş faktlardır. Yəni illər öncə dünyasını dəyişmiş bəzi alimlərin qəbri hansısa hadisə nəticəsində dağıldığından və ya zərurət üzündən qəbrinin açılması lazım olduqda baxıb görmüşlər ki, onların bədənləri çürüməyib. Həmin alimlərin həyatı haqda maraqlanarkən onların həmişə yuxarıda qeyd etdiyimiz əməllərə riayət etdiklərini görürük.

## Qəbirdə bədənləri çürüməyən insanlardan nümunələr

Qeyd etdik ki, bütün tarix boyu müxtəlif zərurətlər üzündən bəzi qəbirlərin  yerləri dəyişdirilərkən, yaxud dağılmış qəbirlər bərpa edilərkən insanların uzun illər öncə həmin yerdə dəfn olunmalarına baxmayaraq, onların bədənlərinin çürümədiyi aşkar olunmuşdur. Tarixdə belə insanlar çox olmuşdur və peyğəmbərlər, şəhidlər, alimlər, əməlisaleh insanlarla bağlı bu kimi hallar kifayət qədər müşahidə edilmişdir. Burada yaxşı olardı ki, nümunə olaraq konkret faktlar əsasında bədənləri torpaq altında çürüməyən insanlardan bir neçəsi haqda bəhs edək.

## Həzrət Daniyal Peyğəmbər(ə)

Tarixi faktlara əsasən bədəni qəbirdə çürüməyən insanlardan biri Həzrət Daniyal Peyğəmbərdir(ə). Demək olar ki, bütün peyğəmbərlərin bədəni qəbirdə çürüməyib. İslam Peyğəmbərindən(s) qeyd etdiyimiz hədis bunun əsas dəlilidir. Təsadüfən Daniyal Peyğəmbərin(ə) qəbri söküldüyü üçün onun cəsədinin dəfn edildiyi qəbirə baxdıqda cəsədin olduğu kimi qaldığını görmüşlər. Həzrət Daniyal(ə) 606 il Həzrət İsa Məsihdən(ə) qabaq yaşamış və camaata Musa Peyğəmbərin(ə) dinini (Tövratı) təbliğ edirmiş. Sonra Buxtun-qəsrin əsarətinə götürülmüş və öldürülmüşdür. Onu Xuzestan əyalətinin Şuş şəhərində dəfn etmişlər. Bu hadisənin üstündən 1200 il keçdikdən sonra ikinci xəlifənin dövründə Əbu Musa Əşəri Şuş şəhərinə gəlir. O, şəhəri fəth edərkən Daniyal Peyğəmbərin(ə) qəbri dağıdılır və onun bədəninin çürümədiyinin şahidi olurlar. Belə olduqda Əbu Musa Əşəri əl saxlayıb bu xəbəri ikinci xəlifəyə çatdırır. İkinci xəlifə bu xəbəri eşitdikdə göstəriş verir ki, bir neçə nəfərlə onun bədəninə qüsl verib kəfənləsinlər. Sonra onu elə öz məzarında dəfn etsinlər.[1] Hazırda Şuş şəhərində Daniyal Peyğəmbərin(ə) qəbri bir ziyarətgaha çevrilmişdir.

## Həzrət Həmzə Seyyidüş-şühəda

Tarixdə bədəni qəbirdə çürüməyən insanlardan biri Həzrət Həmzə Seyyidüş-şühədadır. Həzrət Həmzə Ühüd döyüşündə şəhid oldu. Müaviyənin anası Hindin ona qarşı o qədər kin-küdurəti var idi ki, döyüş meydanına gəlib Həmzənin nəşini yardıraraq onun ciyərini çıxartdırıb

---

[1] Əbədi cəsədlər, səh. 22.

dişləmişdir. Həm Müaviyənin özü, həm anası, həm atası, həm oğlu və həm də törəmələri tarixin ən fasiq və cinayətkar insanlarıdır. Onlar İslama qarşı olmazın cinayətlərə əl atdılar və tarixdə bağışlanılmaz günahlara əl atdılar. Həmzəni şəhid etdikdən sonra onun sinəsini yarıb ciyərini çıxartdılar və əl-ayağını kəsdilər. Həzrət Peyğəmbər(s) Həmzənin bu halından çox təsirlənmişdi. Odur ki, Həmzəni belə bir vəziyyətdə görüb çox ağladı və sonra onu dəfn etdilər.

Həmin hadisənin üstündən 46 il keçdikdən sonra Müaviyə Ühüd şəhidlərini, xüsusilə Həmzənin qəbrini ziyarət edənlərin sayının çoxaldığından hiylə işlədərək Həmzənin qəbrini dağıtmaq qərarına gəldi. O, istəmirdi ki, camaat gəlib Həmzənin qəbrini ziyarət etsinlər. Ona görə istəmirdi ki, Həmzənin qətlində onun anasının əli var idi. Hamı bilirdi ki, Həmzəni onun anası öldürtdürüb və ciyərini çıxartdırıb dişləmişdir. Buna görə də Həmzənin qəbrini ziyarət edənlər onun anasını lənətləyirdilər.

Təbiidir ki, qatil heç bir vaxt öldürdüyü insanın adının əbədi olaraq yaşaması ilə də razılaşa bilmir. Ona görə də Müaviyə öz hakimiyyəti dövründə bir dəstə başbilənlərini ətrafına toplayıb onlarla bu haqda məsləhətləşdi. Bir nəfər dedi ki, əgər biz qəbirləri söksək, bu, müsəlmanlar arasında hay-küyə səbəb olacaq. Odur ki, sən bulaqdan qəbirlərin arası ilə arx çəkdir. Həmin arx yavaş-yavaş böyüyüb bütün qəbirləri yuyub aparacaq. Qoy camaat elə başa düşsün ki, qəbirləri su yuyaraq aparıb. Müaviyə bu təkliflə razılaşdı. Bir nəfəri çağırıb öyrətdilər ki, Mədinə camaatına həmin qəbiristanlıqda kimin ölüsü varsa, çıxarıb başqa yerdə dəfn etməyi çatdırsın. Çünki bu yeri su basacaq. Müaviyə Mədinə camaatını ona görə xəbərdar edirdi ki, sonradan kimsə nə üçün bu haqda bisə xəbər verilməyib deməsin.

Bu xəbəri eşitdikdə Həmzənin, Əmr ibn Cəmuhun, Cabirin atası Abdullahın adamları, bir sözlə, möminlər axışıb həmin qəbiristanlığa gəldilər. Hamı qəbirləri açmağa başladı. Bir neçə qəbri açdıqda gördülər ki, neçə il bundan əvvəl şəhid olmuş insanların cənazələri elə bil bu gün torpağa tapşırılıb. Üstündən qırx altı il keçməsinə baxmayaraq, necə dəfn olunmuşdularsa, cənazələri eləcə də qalmışdı. Hətta Həmzənin qəbrini qazarkən bel onun ayağına dəymiş və belin dəydiyi yerdən diri adamın bədənindən qan axdığı kimi qan axırdı. Bu hadisəni Müaviyəyə xəbər verdilər. Müaviyə həmin xəbəri eşitdikdə bütün planlarının alt-üst olduğunu hiss etdi. Ona görə də şəhidlərin qəbirləri ilə bağlı nəzərdə tutduğu işdən vaz keçdi. Xəbər göndərdi ki, bu məsələnin üstünü elə bir yolla ört-basdır etsinlər ki, onun adı hallanmasın.[1]

### Əmr ibn Cəmuh və Abdullah ibn Əmr

Onlar da Ühüd şəhidlərindən idi və Həmzənin dəfn olunduğu yerdə dəfn olunmuşdular. Bu şəxslərin qəbrini açdıqda da gördülər ki, sanki yenicə dəfn edilib. Tarixi mənbələrdə yazılıb ki, onlardan biri hətta qəbirdə əlini yarasının üstünə qoymuş vəziyyətdə idi. Əlini yarasının üstündən götürdükdə gördülər ki, qan axmağa başladı. Əlini yarasının üstünə qoyduqda isə qan dayandı.[2]

### Hürr ibn Yəzid Riyahi

Tarixi mənbələrdə bu barədə olan ən mühüm nümunələrdən biri Hürrün cənazəsidir. Hicri qəməri

---

[1] Əbədi cəsədlər, səh. 49.
[2] Əl-müvətta, 2-ci cild, səh. 470.

tarixinin 914-cü ilində Şah İsmayıl Bağdada gəlir. Onun Bağdadda gördüyü işlər çox idi. O cümlədən Hürrün qəbrinin bərpası da onun göstərişi ilə yerinə yetirilmişdi. Yəni Şah İsmayıl Bağdadı fəth edərkən ona xəbər vermişdilər ki, Hürrün qəbri dağılıb və cənazəsi 853 il öncə dəfn olunmasına baxmayaraq, eləcə də qalır. Şah İsmayıl bunu öz gözləri ilə görmək üçün Hürrün dağılmış qəbrinin kənarına gəlir. Bilirdi ki, Hürr başından yaralanarkən İmam Hüseyn(ə) dəsmalla onun yarasını bağlamışdır. Həmin dəsmalı Hürrün alnında gördükdə onu açıb təbərrük kimi özünə götürmək istədi. Ancaq dəsmalı açdıqda həmin yaradan qan axmağa başladı. Onun alnını başqa parça ilə bağladılar, amma qan dayanmadı. Yenidən həmin dəsmalla onun yarasını sarıdılar və qan dayandı. Sonra Hürrün cənazəsini yenidən elə oradaca dəfn etdilər.[1]

### Həzrət Xanım Rüqəyyə(s.ə)

"Əbədi cəsədlər" kitabında faktlara əsasən 136 nəfərin adı qeyd olunmuşdur ki, onların cəsədləri qəbirdə çürüməyib. Həmin insanlardan biri də İmam Hüseynin(ə) qızı Xanım Rüqəyyədir(s.ə). Onun barəsində yazırlar ki, Xanım Rüqəyyənin(s.ə) dəfnindən 1220 il keçdikdən sonra qəbri açılmış və onun bədəninin çürümədiyinin şahidi olmuşlar.

Şam şəhərində Seyid İbrahim adlı böyük bir alim yaşayırdı. Onun təxminən 90 yaşı var idi. Allah-təala ona üç qız övladı nəsib etmişdi, amma oğlu yox idi. Günlərin birində böyük qızı yuxuda Xanım Rüqəyyəni(s.ə) görür.

[1] Əbədi cəsədlər, səh. 52.

Xanım ona buyurur ki, mənim qəbrim su ilə dolub. Atana de gəlib mənim qəbrimdən suyu təmizləsin və qəbri bərpa etsin. Qız səhər yuxudan oyanıb yuxusunu atasına danışır. Yuxu olduğu üçün Seyid İbrahim buna əhəmiyyət vermir. Sabahısı gün ortancıl qız həmin hadisəni yuxuda görür və atasına danışır. Üçüncü gün kiçik qız da eyni yuxunu görür. Dördüncü gün Seyid İbrahimin özü də həmin yuxunu gördükdə başa düşür ki, bu, ciddi və mühüm bir məsələdir. Səhərisi gün gedib şəhərin başçısı ilə bu məsələni müzakirə edir. Başçı razılıq verərək bildirir ki, bir neçə alimi də həmin işə cəlb etsinlər.

Beləcə, bir neçə nəfər məşhur alim yığışaraq Xanım Rüqəyyənin(s.ə) qəbrini açmağa başlayırlar. Şəxsən Seyid İbrahim özü qəbir açıldıqdan sonra baxıb görür ki, doğrudan da oranı su basıb. Sonra qəbrə düşərək xanımın cənazəsini qucağına götürür. Qəbir bərpa olunana qədər üç gecə-gündüz onu əlləri üzərində saxlayır və yalnız namazdan-namaza yerə qoyur. Bu üç gün ərzində nə yuxusu gəlir, nə də acır. Seyid İbrahim deyir: "Xanım Rüqəyyə(s.ə) dünyasını dəyişdikdən sonra kəfən olmadığı üçün onu Xanım Zeynəbin(s.ə) örpəyi ilə büküb qəbrə qoymuşdular. Biz qəbri bərpa etdikdən sonra fikrimə gəldi ki, həmin örpəyi açım və uşağı təzə kəfənə büküb yenidən qəbrə qoyum. Elə bu halda bir anlıq yuxuya getdim. Yuxuda Xanım mənə buyurdu: "Xahiş edirəm, bibimin bükdüyü örpəyə toxunma. Necə bükübsə, eləcə də məni dəfn elə."

Deyilənə görə, uşağı olduğu kimi dəfn etdikdən sonra Seyid İbrahim onun qəbri üstə Allaha yalvarır ki, bu ahıl yaşında ona bir oğlan övladı bəxş etsin. Allah-təala Xanım Rüqəyyənin(s.ə) ehtiramına xatir ona 90 yaşında bir oğlan övladı inayət etdi. Uşağın adını Mustafa qoydular. Mustafa

böyüdükdən sonra ailə qurur və bir oğlu olur. Onun da adını Seyid Abbas qoyurlar. Seyid Abbas bu hadisəni atasından, atası da öz atasından nəql etmişdir.

Bu kimi əhvalatlar təkcə adlarını çəkdiyimiş şəxslər barədə deyil, digər şəhid və alimlər haqda da nəql olunmuşdur. O cümlədən Həbib ibn Məzahir, mərhum Ayətullah Kuleyni, Seyid Mürtəza Ələmül-hüda, Təbərsi, Qütbi Ravəndi, Fazil Dərbəndi, Şeyx Səduq, İmamzadə Tahir, Ağa Camal Xonsari, Şəhidi Salis, Şeyx Sədra Badkubeyi, Mirzə Əli Əkbər Ərdəbili kimi şəxslərin də qəbirləri təsadüfi və zəruri hallarda açılıb bərpa edilərkən onların da cənazələrinin çürümədiyinin şahidi olmuşlar.

Odur ki, hədis və rəvayətlərə əsasən, insanın ruhu güclü olsa, yüksək mənəviyyata malik olsa, nəticədə qəbirdə onun bədəni çürüməz.

## ƏCƏL

Ötən bəhslərimizdə qeyd olundu ki, insanın ruhu bədənindən ayrıldıqdan sonra ruh bərzəxə, bədən isə torpağa gedir. Bunlar bir də qiyamət günündə bir-birinə qovuşacaqlar. Qiyamət günü Allahın əmri ilə həmin ruh həmin bədənə qayıdacaq və insan torpağın altından qalxaraq məhşər səhnəsinə gətiriləcək. Qiyamət günü hesab-kitabdan sonra onun yeri (cənnət və ya cəhənnəm) müəyyən olunacaq və həmin yerdə məskunlaşacaq. Lakin qiyamət hələ baş vermədiyi üçün insan öldükdan sonra onun ruhunun məskunlaşdığı yer və zamanın adına bərzəx aləmi, bədəninin qaldığı yerin adına isə qəbir deyilir ki, bu haqda da lazımi qədər bəhs etdik. Lakin bəhsimizə əlavə olaraq bir neçə mətləbə də diqqət yetirməyə ehtiyac duyulur. Çünki ölüm bəhsinə aid olan bəzi suallar qarşıya çıxdığı üçün bu suallara cavab vermək də zəruridir. Bu bəhsimizdə həmin suallara cavab olaraq söhbətimizə davam edək.

Haqqında söhbət edəcəyimiz mətləblərdən biri budur ki, insanın ölməyində heç bir şübhə yoxdur. Yəni kimliyindən asılı olmayaraq əvvəl-axır hər bir insan öləcəkdir. Hamı bunu yəqin bilir ki, ona verilən ömür müddəti sona yetəcək və o, dünyasını dəyişəcəkdir. İnsan həyatda yaşadığı müddətdə ölüm barədə iki mətləb onun üçün məchul və naməlumdur. İnsan bilir ki, mütləq bu dünyadan köçəcəkdir. Amma nə vaxt öləcəyini bilmir. Deməli, insanın ölümünün vaxtı onun üçün naməlum olaraq qalır. İkinci mətləb isə budur ki, insan necə öləcəyindən də xəbərsizdir. Yəni insanın harada və necə öləcəyi də onun üçün qaranlıqdır.

İnsanın ömrünün nə qədər olması onun malik olduğu məlumatlardan kənardadır. Heç bir kəs ömrünün nə qədər olduğunu bilmir. Amma bir-birimizə dua edərkən “Allah

uzun ömür versin!” kimi dualar edirik. Etdiyimiz bu duanın özü də dəqiq bilinmir ki, duadır, yoxsa qarğışdır. Çünki İslamda ömrün uzun olmasının şərti vardır. Əgər insanda həmin şərt olsa, onun barəsində edilən həmin dua əsl duadır. Amma həmin şərt olmasa, onun dua olması da məlum deyil. Ola bilsin ki, qarğış hesab edilsin. Biz elə bilirik ki, hər kim 80 il və ya ondan daha çox yaşasa, o, xoşbəxt adamdır. Yəni elə bilirik ki, bir gün artıq yaşasa belə xoşbəxtdir. Amma əsl həqiqətdə belə deyil. İnsanın xoşbəxtliyi və bədbəxtliyi onun necə yaşamasından asılıdır. Necə yaşamağın da məqsədi maddi səbəblərlə ölçülmür. Məsələn, adam var ki, pendir-çörək yeməklə həyatını sürür. Adam da var ki, hər gün müxtəlif kabablar və xörəklər yeməklə yaşayır. İnsan yaxşı yeyib-içirsə, yaxşı geyinirsə, yaxşı dolanırsa və uzun ömür sürürsə, bu, hələ onun üçün yaxşıdır demək deyildir. Necə yaşamaq və necə ömür sürmək tamamilə başqa bir şeydir. Hədislərdə bu məsələ bizə çox gözəl şəkildə bəyan olunmuşdur:

قَالَ رَسُولُ اللّهِ(ص): النّاسُ اثنانِ: واحِدٌ أراحَ، و آخَرُ استَراحَ؛ فأمّا الّذي استَراحَ فالمؤمنُ إذا ماتَ استَراحَ من الدُّنيا و بَلائها، و أمّا الّذي أراحَ فالكافِرُ إذا ماتَ أراحَ الشَّجَرَ و الدَّوابَّ و كثيرا مِن النّاسِ

-Həzrət Peyğəmbər(s) buyurur: “İnsanlar iki dəstədir: Bir dəstəsi rahatlaşdıranlar, digər dəstəsi isə rahat olacaq insanlardır. Rahat olacaq dəstə möminlərdir ki, öldükdən sonra dünyanın dərdindən, çətinliklərindən və bəlalarından rahat olacaqlar. Rahatlaşdıran dəstə isə kafirlərdir ki, onlar

öldükdə ağaclar, heyvanlar və insanların çoxu onların əlindən (şərindən) rahat olurlar."[1]

Uzun ömür arzulamaq o zaman faydalı olar ki, insan ondan (axirəti üçün) bəhrə apara bilsin. Amma uzun ömürlü olub günahla yaşamaq isə insan üçün çox pisdir. İmam Səccad(ə) (**"**Məkarim-ül əxlaq" duasında) Allahla belə minacat edərdi:

و عَمِّرْني ما كانَ عُمري بِذْلَةً في طاعَتِكَ ، فإذا كانَ عُمري مَرتَعا لِلشَّيطانِ فَاقبِضْني إلَيكَ

-İlahi, ömrümü sənin itaətinə sərf olununcaya qədər uzat və nə vaxt ömrüm şeytanın otlağına dönsə, canımı al və öz yanına apar.[2]

فاطمةُ الزَّهراءُ عليها السلام ( ـ فِي المناجاةِ ـ ): اللّهُمَّ بِعِلمِكَ الغَيبَ، و قُدرَتِكَ عَلَى الخَلقِ، أحيِني ما عَلِمتَ الحَياةَ خَيرًا لي، و تَوَفَّني إذا كانَتِ الوَفاةُ خَيرا لي

-Xanım Fatimeyi Zəhra(s.ə) minacatda belə deyərdi: "İlahi! Səni and verirəm qeybdən olan elminə və məxluqlar üzərində qüdrətinə, məni sağ qalmağımın mənim üçün yaxşı olduğunu bildiyin müddətə qədər sağ saxla və nə vaxt ölüm mənim üçün yaxşı olsa, onda öldür."[3]

Məsumların bu dualarından belə çıxır ki, uzunömürlü olmaq insan üçün həmişə yaxşı deyil. Uzun ömrün o

---

[1] Mizanül-hikmə, 12-ci cild, hədis - 19139.
[2] Mizanül-hikmə, 8-ci cild, hədis - 14253.
[3] Yenə orada, hədis - 14254.

zaman faydası vardır ki, insanın ömrü Allahın itaətində keçmiş olsun. İnsan da var ki, ömrü boyu zülm etməklə məşğuldur. Mərhum İmam Xomeyni(r) buyurardı: “Zalım insanı qarğış edərkən ən yaxşı qarğış budur ki, ona belə deyilsin: “Allah ömrünü kəssin.”

Çünki zalım insan cəmiyyətdə qaldıqca zülmü və günahı artır. Dünyada insanların, axirətdə də özünün əzabını çoxaldır. İnsanlar həyatda onun şərindən və zülmündən narahat olurlar. Odur ki, ömrün uzun olmasını dua etmək həmişə insan üçün xoş dua sayılmır. Ömrün nə qədər olması insan üçün məchuldur. Ömrün müddətinin naməlum olması da Allahın möminə bəxş etdiyi kəramətdir.

قَالَ رَسُولُ اللّٰهِ(ص): يا عَلِيُّ، مِن كَرامَةِ المؤمِنِ عَلَى اللّٰهِ أنَّهُ لَم يَجعَلْ لِأجلِهِ وَقتا حَتّى يَهُمَّ ببائقَةٍ ، فإذا هَمَّ بِبائقَةٍ قَبَضَهُ إلَيهِ

-Həzrət Peyğəmbər(s) buyurdu: “Ya Əli, möminin Allah yanında kəramətli olmasının səbəblərindən biri budur ki, (Allah onun üçün) əcəlinin vaxtını müəyyən etməmişdir. (Nə vaxt öləcəyini ona məlum etməmişdir). O zamana qədər ki, Allaha qarşı itaətsizlik etmiş olsun. (Əgər ömrünün nə vaxt qurtaracağını bilsəydi, mümkündür ki, günah işlər görmüş olsun.) İtaətsiziyə və günaha düşmək istədikdə Allah onun canını alır (ki, onun əməl kitabına günah əməllər yazılmasın).”[1]

Bundan əlavə, Allahın hikməti belədir ki, insan ömrünün müddətini bilməsin. Əgər belə olmasaydı, insan üçün həyatın ləzzət və mənası da olmazdı. Belə olduqda insanlar Allahın rizayətini qazana bilməyəcəkdi. İmam Sadiq(ə) Müfəzzələ belə buyurur:

[1] Mizanül-hikmə, 8-ci cild, hədis - 14255.

أَمَّلِ الآنَ يا مُفَضَّلُ ما سُتِرَ عَنِ الإنسانِ عِلمُهُ مِن مُدَّةِ حَياتِهِ؛ فإنَّهُ لَو عَرَفَ مِقدارَ عُمرِهِ و كانَ قَصيرَ العُمرِ لَم يَتَهَنَّأْ بِالعَيشِ مَعَ تَرَقُّبِ المَوتِ و تَوَقُّعِهِ لِوَقتٍ قَد عَرَفَهُ، بَل كانَ يَكونُ بِمَنزِلَةِ مَن قَد فَنى مالُهُ أو قارَبَ الفَناءَ، فقَدِ استَشعَرَ الفَقرَ و الوَجَلَ مِن فَناءِ مالِهِ و خَوفِ الفَقرِ، عَلى أنَّ الّذي يَدخُلُ عَلَى الإنسانِ مِن فَناءِ العُمرِ أعظَمُ مِمّا يَدخُلُ عَلَيهِ مِن فَناءِ المالِ ، لِأَنَّ مَن يَقِلُّ مالُه يَأمَلُ أن يَستَخلِفَ مِنهُ فَيَسكُنُ إلى ذلكَ، و مَن أيقَنَ بِفَناءِ العُمرِ استَحكَمَ عَلَيهِ اليَأسُ، و إن كانَ طَويلَ العُمرِ ثُمَّ عَرَفَ ذلكَ وَثِقَ بِالبَقاءِ ، وَ انهَمَكَ فِي اللَّذّاتِ و المَعاصي، و عَمِلَ عَلى أنَّهُ يَبلُغُ مِن ذلكَ شَهوَتَهُ ثُمَّ يَتوبُ في آخِرِ عُمرِهِ ...فإن قُلتَ: و ها هُوَ الآنَ قَد سُتِرَ عَنهُ مِقدارُ حَياتِه و صارَ يَتَرَقَّبُ المَوتَ، في كُلِّ ساعَةٍ يُقارِفُ الفَواحِشَ و يَنتَهِكُ المَحارِمَ! قُلنا: إنَّ وَجهَ التَّدبيرِ في هذا البابِ هُوَ الّذي جَرى عَلَيهِ الأمرُ فيهِ، فإن كانَ الإنسانُ مَعَ ذلكَ لا يَرعَوي و لا يَنصَرِفُ عَنِ المَساوِئِ فإنَّما ذلكَ مِن مَرَحِهِ و مِن قَساوَةِ قَلبِهِ...

-İndi ey Müfəzzəl! İnsanın ömür müddətinin ondan gizlin olması üzərində düşün. Çünki insan ömrünün nə qədər olduğunu bilsə və ömrü qısa olsa, həyat ona dözülməz olar. Belə ki, insan ölümünün vaxtını bildiyi zaman oturub onun gəlməsini gözləyəcək. Sanki malı aradan getmiş və ya məhv olmaq ərəfəsində olan insan tək olacaqdır. Belə insan malının məhv olmasının və yoxsul

olmasının qorxusundan əməli surətdə yoxsulluğu hiss edəcək. O ki qaldı malın yox olması qorxusundan dəfələrlə daha dəhşətli olan ömrün sona yetmək qorxusu ola. Çünki kiminsə sərvəti azalarsa, onun əvəzini qazanmaq ümidi ilə təskinlik tapır. Ancaq ömrünün tamam olmasına (konkret və məlum vaxta) yəqinliyi olan kimsənin vücudunu yas bürüyər. Ancaq ömrü uzun olsa və bundan xəbərdar olsa, hələ diri olacağına yəqinlik tapacaq. Buna görə də ləzzət və günahlara qərq olub, kamına çatmağa və sonra həyatının sonlarında tövbə etməyə çalışacaq. Deyə bilərsən ki, elə indinin özündə də ömür müddətinin məlum olmadığı və hər an ölümün gəlişini gözlədiyi halda belə insan murdar işlər görüb itaətsizlik edir. Cavabında deyirəm: "Ömür müddətinin məlum olmamasının hikməti barədə dediyimiz öz qüvvəsində qalır. Ancaq bununla belə, insan yenə də çirkin əməllərdən çəkinmirsə, bu, artıq onun başının məstliyindən və ürəyinin daşlığındandır."[1]

## Əcəli-müsəmma və əcəli-müəlləq

Burada bir mətləbi də bilmək çox vacibdir. Həmin mətləb budur ki, insan dünyaya gəldikdə onun üçün bir ömür təyin olunmuşdur. Məsələn, bir insana altmış il ömür təyin olunmuş və bu ömür müddəti Allah yanında yazılmışdır. Təyin olunmuş həmin ömrün nə qədər olmasını Allahdan başqa heç kəs bilmir. Hətta Ölüm mələyinin də bundan xəbəri yoxdur. O, kimin canını almaq vaxtı çatdıqda Allahın əmri ilə məlum işi görür. Bu məsələ qeyb elminə aid olduğu üçün Allahdan başqa heç kəsə bəlli deyil. Bir də Allah kimə bildirsə, həmin şəxs

---

[1] Mizanül-hikmə, 8-ci cild, hədis - 14256.

bilər. Lakin Allah insana bəzi əməllərin vasitəsilə ona verilən ömür müddətini azaltmağa və ya çoxaltmağa icazə vermişdir. “Ənam” surəsinin 2-ci ayəsində oxuyuruq:

هُوَ الَّذِي خَلَقَكُم مِّن طِينٍ ثُمَّ قَضَى أَجَلاً وَأَجَلٌ مُّسمًّى عِندَهُ

-Sizi palçıqdan yaradan, sonra (sizin hər biriniz üçün ömür) müddəti müəyyənləşdirən Odur. Müəyyən olunmuş bir müddət də Onun yanındadır.

“Əcəl” sözü müəyyən olunmuş müddət mənasını ifadə edir. Bəzi müddət və vaxtların axır hissəsinə də “əcəl” deyilir. Məsələn, bir nəfər birindən ayda müəyyən qədər qaytarmaq şərtilə borc pul alır. Hər ay razılaşdıqları kimi aparıb borcunu qaytarır. Axırıncı ayın borcunu qaytarmağa da “əcəl” deyilir. Çünki artıq müddət sona çatmışdır. Deməli, müddətin sona çatmasına “əcəl” deyilir. Beləliklə, insanın ömrünün sona çatmasına da “əcəl” deyilir. Amma əcəl iki növdür. Onun birinə “əcəli-müsəmma”, digərinə isə “əcəli-müəlləq” deyilir. “Əcəli-müsəmma” - təbii ölüm, “əcəli-müəlləq” – qeyri-təbii ölümdür. Əgər insan onun üçün müəyyən olunan müddəti başa çatdıra bilirsə, buna “müsəmma” deyilir. Yox, əgər müəyyən olunmuş müddəti başa çatdıra bilməsə, “müəlləq” adlanır. Yəni ömrünün hamısını yaşaya bilmədi. Təfsir kitablarında alimlər buna dair belə bir misal çəkmişlər. Məsələn, zavodlardan biri neft lampası istehsal edir. Həmin lampanın istifadə qaydası belədir ki, möhkəm külək, güclü yağış olmadıqda 2 litr neftlə 20 saat yana bilər. Amma əgər möhkəm külək əssə, güclü yağış yağsa, yaxud deşilib nefti yerə tökülsə, onun yanması üçün nəzərdə tütülan müddət tez bitəcək. Əgər qeyd etdiyimiz həmin hadisələr olmasaydı, təbii halda bu çıraqdan 20 saat müddətində istifadə olunacaqdı. Onun

hansısa hadisələrə görə 20 saatdan az yanıb qurtarmasına isə müəlləq deyilir. Yəni vaxtından tez yanıb qurtarmışdır.

İnsanın ömrü də belədir. Allah-təala insanı yaradarkən hər birinə müəyyən qədər ömür yazır. Heç kim ömrünün nə qədər olduğunu bilmir. Əgər insan ömrünün qısalmasına səbəb olan bir hadisə ilə üzləşməsə, ona verilən ömrü sona çatdıracaqdır. Əgər insan intihar etməklə, bəzi maddələri qəbul etməklə, müxtəlif günahların vasitəsilə onun üçün müəyyən olunmuş ömrü sona çatmağa qoymursa, yaxud zəlzələ, yol qəzası kimi bədbəxt hadisələr nəticəsində həlak olursa, buna "əcəli-müəlləq" deyilir.

Bu barədə başqa bir misalı da təqdim etmək istərdim. Maşın istehsal edən zavod istehsal etdiyi maşın üçün müddət təyin edir. Məsələn, bir maşın üçün 20 il vaxt müəyyən edir. Əgər insan bu maşından nəzərdə tutulmuş qayda-qanun çərçivəsində istifadə etsə, 20 il sürə biləcək. Yox, əgər maşına baxmasa, onu daşlı-torpaqlı yerlərdə sürsə, müxtəlif hadisələrlə üzləşsə, həmin maşının müddəti 20 il olmayacaq.

Buna görə də peyğəmbərlər həmin məsələdə insana iki şeyi başa salmaq istəmişlər. Biri budur ki, insan ömründən sərfəli şəkildə istifadə etməli, digəri isə budur ki, insan ömrünü sona qədər yaşamalıdır. Qurani-Kərimin "İbrahim" surəsinin 10-cu ayəsində oxuyuruq:

يَدْعُوكُمْ لِيَغْفِرَ لَكُم مِّن ذُنُوبِكُمْ وَيُؤَخِّرَكُمْ إِلَى أَجَلٍ مُّسَمًّى

-O sizi günahlarınızdan bəzisini bağışlamağa və sizə (ömrünüzün) müəyyən bir müddət(in)ədək möhlət verməyə çağırır.

"Əraf" surəsinin 34-cü ayəsində isə belə buyurulur:

فَإِذَا جَاء أَجَلُهُمْ لاَ يَسْتَأْخِرُونَ سَاعَةً وَلاَ يَسْتَقْدِمُونَ

-Beləliklə, müddətləri başa çatdıqda ondan nə bir saat gecikər və nə də qabağa keçərlər.

Bu ayədə təbii əcəldən söz açılır və bəyan olunur ki, hər bir insan üçün müəyyən olunmuş ömür müddəti sona çatdıqda bir saat da olsa belə təxirə salınmır və ya irəliyə çəkilmir. Amma insan ona verilən ömrün qədrini bilməsə və bu ömrü müxtəlif işlər vasitəsilə yarıda qoysa, buna “əcəli-müəlləq” deyilir. Yəni insan ona verilən ömrü sona qədər yaşamır.

Bu bəhsimizdə belə bir nəticəyə gəldik ki, əgər insanın ömrü Allahın itaətində keçsə, bu, insan üçün xoşbəxtlikdir. Yox, əgər həmin ömrü günah etməklə keçirsə, buna xoşbəxtlik demək olmaz.

## Ömrünüzdən sərfəli istifadə edin

İnsan gərək ona verilən ömür müddətindən bacardığı qədər sərfəli şəkildə istifadə edib bəhrə aparsın. Odur ki, insanın ömrünün uzun olması və bütün ömrünü Allah-təala yolunda sərf etməsi onun üçün böyük xoşbəxtlikdir.

قَالَ عَلِيٌّ(ع): إنَّ أوقاتَكَ أجزاءُ عُمرِكَ، فَلا تُنفِذْ لَكَ وَقتا إلاّ فيما يُنجيكَ

-Həzrət Əli(ə) buyurur: “Həqiqətən, hər keçən vaxt sənin ömrünün hissələridir. Vaxtını sənə nicat verən (xoşbəxtliyinə səbəb olan) şeydən savayı başqa bir şeyə sərf etmə.”[1]

قَالَ عَلِيٌّ(ع): إنَّ أنفاسَكَ أجزاءُ عُمرِكَ، فلا تُفنِها إلاّ في طاعَةٍ تُزلِفُكَ

[1] Mizanül-hikmə, 8-ci cild, hədis - 14221.

-Həzrət Əli(ə) buyurur: “Sənin nəfəslərin ömrünün hissələridir. Elə isə onları səni Allaha yaxın edən işlərdən başqa bir şeyə sərf etmə.”[1]

قَالَ عَلِيٌّ(ع): اِحفَظْ عُمرَكَ مِنَ التَّضييعِ لَهُ في غَيرِ العِبادَةِ و الطّاعاتِ

-Həzrət Əli(ə) buyurur: “Ömrünü Allaha itaət etməkdən savayı başqa şeylərə sərf etməkdən qoru.”[2]

Hər bir insana ömür bircə dəfə verilir. Buna görə də ayə və hədislərdə insana təkidlə tövsiyə olunur ki, ömrünü Allaha itaətdən savayı başqa şeylərlə zay etməsin. Ticarətlə məşğul olanlara diqqət yetirdikdə görürük ki, pullarının qədrini bilir, ona xeyir gətirməyən şeylərə pul xərcləmirlər. Hər malı almır və ya satmırlar. Hansı maldan xeyir götürəcəklərsə, ona da pul xərcləyirlər. Pulu aradan gedib batacağı malı heç bir vaxt almırlar. Ömür də insan üçün böyük sərmayədir. Buna görə də insan ömrünü çox dəqiqliklə sərf etməli, ona ziyan verən işlərə xərcləməməlidir. İnsan ömrünü Allaha yaxınlaşdıran və ona təhlükələrdən nicat verən işlərə xərcləməlidir. Belə olduqda uzun ömrün insana faydası olar.

قَالَ رَسُولُ اللّهِ(ص): طوبى لِمَن طالَ عُمرُهُ و حَسُنَ عَمَلُهُ فحَسُنَ مُنقَلَبُهُ إذ رَضِيَ عَنهُ ربُّهُ، و وَيلٌ لِمَن طالَ عُمرُهُ و ساءَ عَمَلُهُ و ساءَ مُنقَلَبُهُ إذ سَخِطَ عَلَيهِ رَبُّهُ

-Həzrət Peyğəmbər(s) buyurur: “Xoş o kəsin halına ki, ömrü uzun, əməli və gedəcəyi yer gözəl olsun. Çünki

[1] Yenə orada, hədis - 14220.
[2] Mizanül-hikmə, 8-ci cild, hədis - 14222.

Allah belə insandan razıdır. Vay olsun o kəsin halına ki, ömrü uzun, əməli və gedəcəyi yer pis olsun. Çünki Allah ondan narazıdır."[1]

## Ömrün azaldılıb çoxaldılması

Qeyd edildi ki, Allah-təalanın insana verdiyi ömrün müddətinin nə qədər olduğunu Allahdan başqa kimsə bilmir. Həmçinin bir qədər insanın əcəli haqda da bəhs etdik. Allah-təala "Ənam" surəsinin 2-ci ayəsində belə buyurur:

هُوَ الَّذِي خَلَقَكُم مِّن طِينٍ ثُمَّ قَضَى أَجَلاً وَأَجَلٌ مُّسمًّى عِندَهُ ثُمَّ أَنتُمْ تَمْتَرُونَ

-Sizi palçıqdan yaradan, sonra (sizin hər biriniz üçün ömür) müddət(i) müəyyənləşdirən Odur. Müəyyən olunmuş bir müddət də Onun yanındadır. Siz (ey müşriklər, Allaha və Onun qüdrətinə) yenə də şəkk edirsiniz.

Bu ayədə "əcəl" sözü iki dəfə bəyan olunmuşdur. Birində heç bir qeyd edilmədən, ikincisində isə "müsəmma" qeydi ilə bəyan edilir. Ayədə "əcəl" sözünün iki dəfə işlənilməsi təkrar deyildir. Çünki qeyd edilməyən və qeyd edilən "əcəl" sözləri arasında məna fərqləri vardır. Bir qədər əvvəl qeyd etdiyimiz kimi, əcəl iki növdür. Onlardan biri "əcəli-müsəmma"dır ki, buna "hətmi əcəl", "mütləq əcəl", "münəccəz əcəl" və "təbii ölüm" də deyilir. Bu əcəldə heç cür dəyişiklik etmək mümkün deyil. Çünki bu, Allahın məhfüz kitabında ("Lövhi məhfuz"da) yazılmışdır. Digəri isə artıq qeyd olunduğu kimi, "əcəli-müəlləq"dir ki, buna "əcəli-

[1] Yenə orada, hədis - 14251.

məşrut", "qeyri-hətmi əcəl", "əcəli-mövquf" və "qeyri-təbii ölüm" deyilir. Bu əcəl də Allah-təalanın yanında yazılmışdır. Amma əcəlin bu növündə dəyişiklik etmək mümkündür. Deməli, belə çıxır ki, bu barədə Allahın iki yazısı (kitabı) vardır. Birində heç cür dəyişiklik etmək mümkün deyil, digərində isə mümkündür. Buna sübut olaraq "Rəd" surəsinin 38-39-cu ayələrini misal çəkmək olar. Allah-təala buyurur:

...لِكُلِّ أَجَلٍ كِتَابٌ. يَمْحُو اللّهُ مَا يَشَاء وَيُثْبِتُ وَعِندَهُ أُمُّ الْكِتَابِ

-Hər bir əcəl üçün (hikmətə uyğun olaraq) bir yazı və hökm qərara alınmışdır. Allah ("məhv və isbat" lövhəsində yazılmış olacaq hadisələrdən) istədiyini məhv və (bəzi hadisələri orada) dərc edir və "Ümmül-kitab" ("Lövhi-məhfuz" və şeylərin sabit cəhətlərinin yazıldığı yer) Onun yanındadır.

Bu ayələrdən açıq-aydın məlum olur ki, Allahın iki yazı kitabı vardır. Onların birində dəyişiklik etmək mümkün, digərində isə qeyri-mümkündür. Dəyişiklik mümkün olan kitabda dəyişiklik etmək insanın ixtiyarına verilmişdir. İnsan bəzi əməllərlə ömrünü çoxalda, bəzi əməllərlə isə azalda bilər. Məsələn, orada insanın ömrü 50 il yazılmışdısa, insan elə bir iş görə bilər ki, onu pozub 100 il yazdırsın. Yaxud elə bir iş görə bilər ki, orada yazılmış ömrünün yarısı silinsin. Mərhum Ayətullah Meşkini təfsir dərslərində bu kitabın adına "məhv və isbat kitabı" deyərdi. Yəni orada yazılanlara dəyişiklik etmək mümkündür. Amma bu yazı Allahın dəyişilməyən kitabına - "Ümmül-kitab"a keçsə, onda heç bir şeyi dəyişmək mümkün olmayacaqdır. İnsanın əcəl müddəti bu kitaba düşdükdən sonra orada heç bir saniyə belə dəyişiklik etmək mümkün deyil.

Əlbəttə, bu barədə çox danışmaq olar. Hətta bu bəhslə bağlı olaraq müəyyən elmi məsələlər də var ki, əgər həmin məsələlərə başlasaq, əsas mövzumuzdan çox uzaq düşərik. Amma bu haqda bir məsələni diqqətinizə çatdırmaq istərdim. Həmin məsələ də ondan ibarətdir ki, bəzi amillər insanın ömrünü çoxaldır, bəzi amillər isə insanın ömrünün azalmasına səbəb olur. Yəni insanın "məhv və isbat kitabı"nda yazılmış ömür müddətini artıra da bilər, azalda da bilər. Amma yenə də insan ömrünün nə qədər yazıldığını bilmir. İnsanın bunu bilməməsinin səbəbini də hədislərə istinadən qeyd etdik. "Fatir" surəsinin 11-ci ayəsində oxuyuruq:

وَاللَّهُ خَلَقَكُم مِّن تُرَابٍ ثُمَّ مِن نُّطْفَةٍ ثُمَّ جَعَلَكُمْ أَزْوَاجًا وَمَا تَحْمِلُ مِنْ أُنثَى وَلَا تَضَعُ إِلَّا بِعِلْمِهِ وَمَا يُعَمَّرُ مِن مُّعَمَّرٍ وَلَا يُنقَصُ مِنْ عُمُرِهِ إِلَّا فِي كِتَابٍ إِنَّ ذَلِكَ عَلَى اللَّهِ يَسِيرٌ

-Allah sizi (Adəmin nəslini əvvəlcə) torpaqdan, sonra nütfədən yaratdı, bu zaman sizi (erkək və dişi) cüt-cüt etdi. Heç bir dişi Onun izni olmadan hamilə olmaz və doğmaz. Ömür sahibi olan birinin uzun ömür sürməsi də, onun ömrünün qısalması da ancaq kitabda yazılmışdır. Həqiqətən, bu, Allah üçün çox asandır.

## Ömrü artıran amillər

Sual oluna bilər ki, görəsən, hansı amillər insanın ömrünün artırılmasına səbəb olur? Bu sualın cavabında ömrü artıran amillərdən bir neçəsini diqqətinizə çatdırıram. Hər kim ömrünün çoxalmasını istəyirsə, bu əməllərə riayət etməklə ömrünü artıra bilər.

**1. Xoşniyyətli olmaq**

İnsanın ömrünü artıran amillərdən biri xoş niyyətdir. Yəni əgər insan özünə, ailəsinə, övladına, qonşularına və başqa insanlara qarşı həmişə xoşniyyətli olsa, bu, onun ömrünün uzun olmasına gətirib çıxarar.

قَالَ الصَّادِقُ(ع): مَن حَسُنَت نِيَّتُهُ زِيدَ فِي عُمرِهِ

-İmam Sadiq(ə) buyurur: "Hər kim xoşniyyətli olsa, ömrü uzun olar."[1]

**2. Təharətli olmaq**

İnsanın ömrünü uzadan amillərdən ikincisi həmişə təharətli olmaqdır. Təharət odur ki, insan pak yaşasın. Təharət mövzusu xüsusi bir bəhsdir ki, onun barəsində saatlarla danışmaq olar. "Təharət" sözünün mənası isə "paklıq" deməkdir. Həm zahiri, həm də batini təharət vardır. Amma bəhsimizə uyğun olaraq burada söhbət zahirin təharət və paklığından gedir. Yəni insan həmişə dəstəmazlı olsa, boynuna qüsl düşdükdə gedib qüsl versə və özünü gün ərzində pak saxlasa, bu əməl insanın ömrünün artmasına səbəb ola bilər.

قَالَ رَسُولُ اللّهِ(ص): أَكثِرْ مِنَ الطَّهورِ يَزِدِ اللّهُ فِي عُمرِكَ

-Həzrət Peyğəmbər(s) buyurur: "Həmişə təharət (şəriət qaydalarına əsasən təmizlik) və pak halda ol ki, Allah ömrünü artırsın."[2]

Əlbəttə, qüsl vermək və dəstəmaz almaq öz-özlüyündə müstəhəb əməldir. Amma namaz vaxtı olduqda

---

[1] Mizanül-hikmə, 8-ci cild, hədis - 14242.

[2] Yenə orada, hədis - 14241.

bu əməllər insana vacib olur. Məsələn, azan verilən kimi əgər insanın boynunda qüsl varsa, qüsl verməyi vacibdir. Ancaq namaz vaxtı olmamış boynunda qüsl olsa, gedib qüsl vertmək müstəhəbdir. Hətta tövsiyə olunmuşdur ki, insan qüsllü halda yatmasa daha yaxşıdır. Gecə boynuna qüsl düşübsə, əvvəl qüsl verməli və  sonra isə yatmaq lazımdır. Həmçinin həmişə dəstəmazlı olmaq da müstəhəb və bəyənilmiş əməllərdəndir. Əgər insanın dəstəmazı vardırsa və onun üstündən bir də dəstəmaz alırsa, bu daha savabdır. Sanki nur üstə nur ələnmişdir.

Tanınmış alimlərdən biri bu barədə belə deyərdi: "Hədislərdə deyilir ki, insan təmiz su görsə və əgər dəstəmaz almasa, deməli, insafsızlıq etmişdir. Dəstəmaz aldıqdan sonra iki rükət namaz qılmasa, insafsızlıq etmişdir. Namazı qurtardıqdan sonra Allaha dua edib hacətlərini istəməsə, insafsızlıq etmişdir. Dua və hacətlərini istədikdə əgər Allah onun istəklərini verməsə, insafsızlıq etmişdir. Amma bilin ki, Allah insafsız deyil (Onun istəklərini mütləq verəcək.)."

Odur ki, insan həmişə (dəstəmaz və qüsl kimi əməllərə riyaət etməklə) paklığa əməl etsə, həmişə çirkinlik və murdarlıqlardan təmiz olsa, bunun ona çox faydası var ki, onlardan biri də insanın ömrünü artırmasıdır.

**3. Pisliklərdən uzaqlaşmaq**

Ömrün artırılmasına səbəb olan əməllərdən üçüncüsü hər cür pisliklərdən uzaq olmaqdır.

قَالَ الصَّادِقُ(ع): تَجَنَّبوا البَوائقَ يُمَدَّ لَكُم في الأعمارِ

-İmam Sadiq(ə) buyurur: “Bütün pisliklərdən uzaq olun ki, ömürləriniz uzun olsun.”[1]

**4. Validеyni şad еtmək**

İnsanın ömrünü uzadan amillərdən dördüncüsü və mühüm olan amil valideyni şad etməkdir. Valideyn övlad tərəfindən nə qədər çox şad olsa, həmin şəxsin ömrü də bir o qədər artar.

قَالَ الصَّادِقُ(ع): إن أحبَبتَ أن يَزِيدَ اللّهُ فِي عُمرِكَ فسُرَّ أبَوَيكَ

-İmam Sadiq(ə) buyurur: “Əgər Allahın sənin ömrünü uzatmasını istəyirsənsə, ata-ananı sevindir.”[2]

Bəzən insan ata-ananın hüququ barədə olan hədisləri oxuduqda çox təəccüblənir. Kimliyindən asılı olmayaraq valideynin ehtiramı həmişə əziz tutulmalı, övlad onlara qarşı heç vaxt ağ olmamalıdır. Valideyn pis adam da olsa, kafir də olsa, fasiq də olsa, övladın ona qarşı hörmətsizlik və itaətsizlik etməyə ixtiyarı yoxdur. Kimsə ata-ananın pis olmasına, kafir olmasına, fasiq olmasına baxmamalıdır. Sadəcə olaraq körpə ikən gecələr başı üzərində durub onu əzizləyənin, onun qayğısına qalanın kim olduğu barədə düşünməyi kifayətdir. Ana təxminən 9 ay uşağını bətnində saxlayır, sonra dünyaya gətirir və ona hər cür mehribançılıq göstərərək, onun böyüməsi uğrunda müxtəlif əzab-əziyyətlərə qatlaşır. Bir zaman gəlir ki, ana qocalır və övlad böyüyür. Qocalıq üzündən səbirsiz olursa, əsəbiləşirsə, kobud danışırsa, söyürsə, döyürsə yenə də övladın ona qarşı hər hansı bir hörmətsizlik

[1] Mizanül-hikmə, 8-ci cild, hədis - 14243.
[2] Mizanül-hikmə, 8-ci cild, hədis - 14245.

etməsinə icazə yoxdur. Allah-təala Qurani-Kərimdə övlada beş yerdə valideynə ehsan verməyi və yaxşılıq etməyi buyurur. Həmin məqamlardan biri "İsra" surəsinin 23-24-cü ayələridir. Allah-təala belə buyurur:

وَقَضَى رَبُّكَ أَلاَّ تَعْبُدُواْ إِلاَّ إِيَّاهُ وَبِالْوَالِدَيْنِ إِحْسَانًا إِمَّا يَبْلُغَنَّ عِندَكَ الْكِبَرَ أَحَدُهُمَا أَوْ كِلاَهُمَا فَلاَ تَقُل لَّهُمَآ أُفٍّ وَلاَ تَنْهَرْهُمَا وَقُل لَّهُمَا قَوْلاً كَرِيمًا. وَاخْفِضْ لَهُمَا جَنَاحَ الذُّلِّ مِنَ الرَّحْمَةِ وَقُل رَّبِّ ارْحَمْهُمَا كَمَا رَبَّيَانِي صَغِيرًا

-Və Rəbbin Ondan başqasına ibadət etməməyinizi və ata-anaya (öz valideynlərinizə) yaxşılıq etməyinizi qəti olaraq hökm etdi. Əgər onlardan biri və ya hər ikisi sənin yanında qocalıq çağlarına yetişsələr belə (onların zəhmət, yaxud sərt davranışları müqabilində narahatlığını büruzə vermə, hətta) onlara "uf" demə, üstlərinə qışqırma, kobud söz demə və onlara xoş sözlər söylə. Və mehribançılıq üzündən onların qarşısında təvazökarlıq və kiçiklik göstər. Və de: "Ey Rəbbim, körpəlikdə məni (rəhmət üzündən) tərbiyə etmələrinin müqabilində onların hər ikisinə rəhm et!"

### Valideynə ehsan etməyin nümunələri

Allah-təala Quranda valideynlərə ehsan verməyi vacib əməllərdən biri kimi buyurmuşdur və bu, insanın ömrünü uzadan amillərdən beşincisidir. Sual oluna bilər ki, valideynlərə nə kimi ehsan və yaxşılıqlar edə bilərik? Alimlər valideynlərə ehsan verməyin nümunə və qaydalarını belə şərh etmişlər:

1. Valideynlərə xidmət etmək, ehtiyaclarını dilə gətirməmişdən öncə onların istəklərini yerinə yetirmək;

2. Allahın əmri ilə ziddiyyət olmadıqda onlara itaət etmək. Yəni Allahın əmrlərindən başqa valideynlər hər nə desələr, övlad onlara itaət etməlidir. Əgər Allahın əmrinə zidd olan bir şey desələr, o zaman onlara itaət etmək olmaz. Əgər valideyn övladına namaz qılma desə, bu zaman onun sözünə baxmaq lazım deyil. Məsələn, əgər valideyn övladı içki içməyə sövq etsə, yenə də onun sözünə qulaq asmaq gərək deyil. Əvvəl Allahın əmri, sonra isə ata-anaya itaət. Allaha itaət onlara itaətdən üstün olmalıdır;

3. Valideynlərə ehsan vermək və yaxşılıq etməyin nümunələrindən biri budur ki, onlarla yumşaq tərzdə danışılsın;

4. Valideyn danışarkən övlad susub onu dinləməlidir. Yəni onun sözünü kəsməməli və gözləməlidir ki, fikrini axıradək deyə bilsin;

5. Valideyn narahat olduqda övlad da narahat olmalı, şad olduqda övlad da şad olmalıdır. Yəni qəmli və şad günlərində onlara şərik olmalıdır;

6. Valideynlərin sevdikləri kəsləri sevmək, onlarla düşmən olanlarla düşmən olmaq. Əlbəttə, burada bir daha qeyd etmək lazımdır ki, Allahın əmri onların əmrindən üstün olmalıdır. Əgər birdən valideynin sevdiyi insan Allahın düşmənidirsə, onu sevmək olmaz. Həmçinin valideynin düşmən bildiyi insan Allahın dostudursa, onunla düşmənçilik etmək olmaz;

7. Valideynə qarşı yaxşılığın bir nümunəsi də odur ki, övlad onların qarşısında təvazökar olsun;

8. Övlad valideynlərin adlarını hörmət və ehtiramla çəkməlidir;

9. Valideynlər həyatda olsa da, dünyasını dəyişsə də, övlad onun üçün daim dua etməlidir;

10. Övlad valideyndən onun üçün dua etməyi xahiş etməlidir;

11. Valideynlər dünyasını dəyişdikdən sonra övlad onların borclarını qaytarmaq, qəbirlərini ziyarət etmək, onlar üçün sədəqə vermək kimi xeyirli işlər görməlidir.

Sadaladığımız bu əməllərin hamısı valideynləri şad etmək üçün nəzərdə tutulan şərtlərdir. Hər kim valideynlərini şad etsə, Allah-təala da həmin insanın ömrünü uzadar.

## Valideynlərin hüququ

Övlada vacibdir ki, valideynlərin hüquqlarına riayət etsin. Həcc kimi vacib səfərlər istisna olmaqla, əgər övlad müstəhəb bir səfərə getmək istərsə və buna ata-ana razılıq verməzsə, o, həmin səfərə getməməlidir. İslamda namazı vaxtında qılmağın çox böyük əhəmiyyəti vardır. Əgər azan deyilən kimi valideyn övlada hansısa bir iş buyursa, övlad gərək valideynin sözünə qulaq assın. Namaz qəzaya getməmək şərtilə onların tapşırıqlarını yerinə yetirdikdən sonra namazını qılsın. Əgər namazın axır vaxtıdırsa və bu zaman valideyn övlada bir iş buyursa, övlad gərək ilk növbədə namazını qılsın, sonra isə onların buyuruqlarına əməl etsin. Yəni ilk növbədə Allahın buyurduğu vacib əməllər, sonra isə valideynlərə itaət etmək lazımdır. Əgər ata-ananın buyurduğunu yerinə yetirməklə namaz qəzaya gedəcəksə, o zaman namazı qabağa salmalıdır. Həmçinin camaat namazının savabının nə qədər çox olduğunu möminlər yaxşı bilirlər. Əgər valideyn övlada camaat namazında iştirak etməyə icazə verməsə, onların sözünə əməl olunmalıdır. Yaxud övlad müstəhəb namaz qıldığı halda valideyn onu səsləyib çağırsa, övlad dərhal həmin namazı kəsməli və valideyninin sözünə baxmalıdır.

Müstəhəb oruc da eynilə belədir. Əgər valideyn icazə verməsə, övladın müstəhəb oruc tutmağa ixtiyarı yoxdur.

Ayətullah Mərəşi Nəcəfi böyük müctəhid və görkəmli alimlərdən biri idi. Qum şəhərində sübh namazlarını Xanım Fatimeyi Məsumə(s.ə) ziyarətgahında qılardı. Hər gün namaza bir saat qalmış gəlib mehrabda əyləşər, ibadət və zikrlə məşğul olardı. O deyir:

-Nəcəf şəhərində yaşadığım illər gənc vaxtlarıma təsadüf edirdi. Günlərin birində anam yemək süfrəsi hazırlayıb mənə dedi: Get, atanı çağır gəlsin. Atam da böyük alimlərdən biri idi. Onun otağına daxil olduqda gördüm ki, əlində kitab oxuduğu halda yuxuya gedib. Bir az dayanıb ona tamaşa etdim. Bilmirdim onu necə oyadım ki, narahat olmasın. Gördüm ayaqlarını uzatmış halda yatıb. Yavaşca gəlib ayaqlarının altını öpməyə başladım. Bir neçə dəfə öpdükdən sonra onun qıdığı gəldi və yuxudan oyandı. Mənim onun ayaqlarının altını hörmət əlaməti kimi öpdüyümü görüb gülümsədi və belə dua etdi: "Şəhabəddin, Allah dünyada sənə xeyir versin. Səni Əhli-beytə xidmət edənlərdən qərar versin." Atamın etdiyi bu duanı Allah-təala ömrümün axırına qədər mənim barəmdə qəbul etdi.

Ayətullah Şəhabəddin Mərəşi Nəcəfi ölənə qədər Əhli-beytin(ə) qulluqçusu oldu. Neçə-neçə kitabın müəllifi oldu, neçə-neçə kitaba müqəddimə yazdı. Qum şəhərində böyük bir kitabxana təşkil etmişdi.

Beləliklə, hər kəs bilməlidir ki, övladın ata-anasına qarşı münasibəti tamamilə fərqli olmalıdır. Allahın vacib və haramlarından başqa, bütün digər məsələlərdə onlara itaət etmək vacibdir.

**5. Yaxşılıq etmək**

İnsanın ömrünü uzadan amillərdən altıncısı ailəsinə, övladlarına, qohum-əqrəbasına, qonşularına və başqalarına yaxşılıq etməkdir.

قَالَ رَسُولُ اللّهِ(ص): لاَ يَزِيدُ فِي العُمْرِ إِلاَّ البِرُّ

-Həzrət Peyğəmbər(s) buyurur: "Yaxşılıq etmək ömrü artırar."[1]

قَالَ الصَّادِقُ(ع): مَن حَسُنَ بِرُّهُ بِأَهلِ بَيتِهِ زيدَ فِى عُمرِهِ

-İmam Sadiq(ə) buyurur: "Kim ailəsi ilə yaxşı olsa, ömrü uzun olar."[2]

**6. Qohum-əqrəbaya baş çəkmək**

İnsanın ömrünü uzadan amillərdən yeddincisi qohum-əqrəbaya baş çəkməkdir. İnsan öz qohum-əqrəbasına nə qədər çox baş çəksə, Allah-təala onun ömrünü bir o qədər uzun edər.

قَالَ رَسُولُ اللّهِ(ص): مَن سَرَّهُ أن يُبسَطَ لَهُ فِي رِزقِهِ و يُنسَأَ لَهُ فِي أجَلِهِ فَلْيَصِلْ رَحِمَهُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Kim ruzisinin çox və ömrünün uzun olmasını istəyirsə, qohum-əqrəbasına baş çəksin."[3]

Günlərin birində Həzrət Əli(ə) xütbə oxuyarkən belə buyurdu: "Ölümü tezləşdirən və ömrü azaldan günahlardan Allaha pənah aparıram." İbn Kəvva Həzrət Əlinin(ə) dövründə yaşayan tanınmış münafiqlərdən biri

---

[1] Mizanül-hikmə, 8-ci cild, hədis - 14247.
[2] Mizanül-hikmə, 8-ci cild, hədis - 14244.
[3] Yenə orada, hədis - 14246.

idi. Sonralar o, yolunu azmış və xəvaricə qoşularaq onlara rəhbərlik etməyə başlamışdı. Həzrət Əli(ə) minbərdə həmin sözü buyurduqda İbn Kəvva ayağa qalxıb soruşur: “Ya Əmirəlmöminin, ölümü tezləşdirən günah varmı?” Həzrət Əli(ə) buyurur: “Həmin günah qohum-əqrəba ilə əlaqəni kəsməkdir. Haqdan uzaq düşmüş bəzi ailələr var ki, qohum-əqrəbaya baş çəkir və bir yerə toplaşıb hal-əhval tutduqlarına görə Allah onların ruzisini çoxaldır. Bəzən də elə təqvalı ailələr olur ki, qohum-əqrəba ilə əlaqələri kəsdiklərinə görə Allah onlardan ruzi və rəhmətini də kəsir.”[1]

**7. İmam Hüseynin(ə) qəbrinin ziyarəti**

İnsanın ömrünü uzadan amillərdən səkkizincisi İmam Hüseynin(ə) qəbrinin ziyarətinə getməkdir. Ümumiyyətlə, İmam Hüseyni(ə) ziyarət etməyin çox böyük faydaları vardır ki, onlardan biri də insanın ömrünü uzatmasıdır.

قَالَ البَاقِرُ(ع): مُروا شيعَتَنا بِزِيارَةِ قَبرِ الحُسَينِ بنِ عَلِيٍّ عليه السلام؛ فإنَّ إتيانَهُ يَزيدُ فِي الرِّزقِ، و يَمُدُّ فِي العُمرِ، و يَدفَعُ مَدافِعَ السُّوءِ

-İmam Baqir(ə) buyurur: “Bizim şiələrimizə Hüseyn ibn Əlinin(ə) qəbrini ziyarət etməyi əmr edin. Çünki onun ziyarəti ruzini artırar, ömrü uzadar və pislikləri uzaqlaşdırar.”[2]

**8. Sədəqə**

Ömrü artıran amillərdən biri də sədəqədir. Sədəqə İslam dünyasında çox böyük fəzilətlərə malikdir. Bu xeyirxah

---

[1] Günahkarların cəzası, səh. 104.

[2] Mizanül-hikmə, 8-ci cild, hədis - 14249.

əməlin insan üçün çox faydaları vardır. O cümlədən bu əməl insandan xata-balaları uzaq edər və ömrü uzadar.

قَالَ البَاقِرُ(ع): الْبِرُّ وَ الصَّدَقَةُ يَنْفِيَانِ الْفَقْرَ، وَ يَزِيدَانِ فِي الْعُمُرِ، وَ يَدْفَعَانِ عَنْ سَبْعِينَ مِيتَةَ سَوْءٍ

-İmam Baqir(ə) buyurur: "Yaxşılıq və sədəqə yoxsulluğu aradan qaldırar, ömrü uzadar və yetmiş cür faciəli ölümü insandan uzaqlaşdırar." [1]

قَالَ عَلِيٌّ(ع): بِالصَّدَقَة تُفسَحُ الآجَال

-Həzrət Əli(ə) buyurur: "Ömürlər sədəqə vasitəsilə artırılır."[2]

Sədəqə barədə çoxlu hədislər, rəvayətlər və hekayətlər nəql olunmuşdur. Əgər sədəqə barədə hədis və hekayətləri bir yerə toplasaq, bir neçə cild kitab dərc etmək olar. Hətta keçmiş peyğəmbərlərin dövründə də sədəqə barədə çoxlu rəvayətlər nəql edilmişdir. Nümunə üçün həmin hədis və rəvayətlərdən bir neçəsinə diqqət yetirək:

-Günlərin birində sübh çağı Həzrət İsa(ə) tərəfdarları ilə bir yerdən keçirdi. Gördülər ki, odun daşıyan bir kişi əyləşib çörək yeyir. Cənab Cəbrayıl(ə) nazil olub Həzrət İsaya(ə) buyurdu: "Ya Ruhallah, şad və rahat halda əyləşib çörək yeyən bu kişini görürsünüzmü? Onun ömrünə bir saatdan çox vaxt qalmayıb." Həzrət İsa(ə) həmin xəbəri tərəfdarlarına söylədikdən sonra onlar yollarına davam etdilər. Axşamüstü geri qayıdarkən gördülər ki, həmin kimi çiynində odun daşıyır. Onlar

---

[1] Təfsiri-nümunə,18-ci cild, səh.208.
[2] Qəfil ölüm, səh.165.

təəccüblə dedilər: “Ya İsa, bu kişi hələ də sağdır. Amma səhər siz xəbər verdiniz ki, onun ömrünə bircə saatdan da az vaxt qalıb.” Həzrət İsa(ə) cənab Cəbrayıldan(ə) bunun sirrini soruşdu. Cəbrayıl(ə) ərz etdi: “Səhər mən sənin yanına gələndə onun ömrünün sonuna bir saatdan az vaxt qalmışdı. Mən onun canını alacaqdım. Siz getdikdən sonra yoxsul bir insan onun yanına gəlib yeməyə çörək istədi. O da nə qədər çörəyi var idisə, hamısını həmin yoxsul şəxsə verdi. Allah-təala onun bu əməlinə görə ömrünü əlli il də artırdı. Yoxsa daşıdığı odunların arasındakı qara bir ilan onu sancıb öldürəcəkdi. Həmin ilan indi də o odunların arasındadır.” Həzrət İsa(ə) həmin kişini çağırıb buyurdu: “Odunları yerə qoy və iplərini aç.” Kişi odunları yerə qoyub ipləri açdı. Odunların arasından ağzında daş parçası olan qara bir ilan çıxdı. Həzrət İsa(ə) buyurdu: “Allah-təala sənin yoxsul bir şəxsə verdiyin həmin sədəqəni daş edib ilanın ağzına yerləşdirmişdir ki, səni sancıb öldürməsin.”[1]

İslam Peyğəmbərindən(s) və Əhli-beytdən(ə) sədəqə barədə bundan da gözəl və daha açıq-aydın hədislər nəql olunmuşdur.

قَالَ الصَّادِقُ(ع): إِنَّ مَلَكَ الْمَوْتِ يُدْفَعُ إِلَيْهِ الصَّكُّ بِقَبْضِ رُوحِ الْعَبْدِ فَيَتَصَدَّقُ فَيُقَالُ لَهُ رُدَّ الصَّكَّ

-İmam Sadiq(ə) buyurur: “(Bəzən) Ölüm mələyinə filan bəndənin canını almaq üçün əmr verilir. (Mələk onun canını almaq üçün getdikdə) belə olur ki, həmin bəndə

[1] Qəfil ölüm, səh.166.

sədəqə verir. Ölüm mələyinə göstəriş verirlər ki, (onun canını almasın və) geri qayıtsın."[1]

## İslamda sədəqənin əhəmiyyəti

Hədis və rəvayətlərdən açıq-aydın şəkildə görürük ki, sədəqə vermək ömrü uzadır. Lakin burada bir mətləbə də diqqət yetirməyimiz yaxşı olardı. Bəzən elə başa düşülür ki, bu, dilənçiyə, yaxud ehtiyacı olan hər hansı bir şəxsə bir neçə qəpik və ya bir neçə manat pul verməkdən ibarətdir. Doğrudur, bu da sədəqə sayılır, amma sədəqənin mənası bu kimi işləri görməklə məhdudlaşmır. Sədəqənin olduqca geniş mənası və İslam aləmində çox böyük əhəmiyyəti vardır. Allah-təala "Tövbə" surəsinin 103-cü ayəsində buyurur:

خُذْ مِنْ أَمْوَالِهِمْ صَدَقَةً تُطَهِّرُهُمْ وَتُزَكِّيهِم بِهَا وَصَلِّ عَلَيْهِمْ إِنَّ صَلاَتَكَ سَكَنٌ لَّهُمْ وَاللّهُ سَمِيعٌ عَلِيمٌ

-(Ya Rəsulum!) Onların mallarından sədəqə (zəkat) al. Bununla onları (günahlarından) təmizləmiş, pak etmiş (mallarına bərəkət vermiş, əməllərinin savabını artırmış) olarsan. Onlardan ötrü dua et, çünki sənin duan onlar üçün bir arxayınçılıqdır (rahatlıqdır). Allah (hər şeyi) eşidəndir, biləndir.

Bu ayədə işlənmiş sədəqə kəlməsi həm də zəkat mənasını daşıyır. Yəni həm vacib olan dini vergilər, həm də sədəqə göstərilmişdir. Sonrakı ayədə belə buyurulur:

---

[1] Mizanül-hikmə,7-ci cild, hədis - 10364.

أَلَمْ يَعْلَمُواْ أَنَّ اللّهَ هُوَ يَقْبَلُ التَّوْبَةَ عَنْ عِبَادِهِ وَيَأْخُذُ الصَّدَقَاتِ وَأَنَّ اللّهَ هُوَ التَّوَّابُ الرَّحِيمُ

-Məgər onlar bilmirlərmi ki, bəndələrindən tövbəni Allah qəbul edir, sədəqələri əslində Onun Özü götürür və Allah tövbələri qəbul edən və mehribandır?! [1]

Bu ayə ilə bağlı qeyd olunan hədislərə əsasən təfsir alimləri yazmışlar ki, verilən zəkat və sədəqələri zahirən Həzrət Peyğəmbərin(s), imamların, yaxud müctəhidlər kimi haqq sahiblərinin almasına baxmayaraq, əsl həqiqətdə Allah Özü onu götürür. Əgər zəkat və sədəqəni Həzrət Peyğəmbər(s), imamlar və yaxud dini rəhbərlər alırlarsa, bəs nə üçün ayədə birbaşa Allahın aldığı bəyan olunmuşdur. Alimlər bu məsələni bir neçə ifadə ilə təfsir etmişlər. Bir mənası budur ki, Allah-təala Həzrət Peyğəmbərin(s), imamın və imamların təyin etdiyi din alimlərinin əlini Öz əli hesab edir. Hətta sədəqə alan yoxsulun əlini də Öz əli hesab edir. Başqa bir mənası odur ki, kimsə sədəqə verdikdə sədəqə alan şəxsi təhqir etməyə, yaxud ona həqarət gözü ilə baxmağa heç cür ixtiyarı yoxdur. Həmçinin kimsə zəkat, xüms verdikdə (kiməsə öz malından verdiyi üçün) qürur hissi duymamalıdır. Çünki əsl həqiqətdə həmin malı insana verən də, alan da Allahın özüdür. Əgər bir insanın malı xüms həddinə çatırsa, Allah-təala həmin malın beşdə bir hissəsini mütləq verməlidir. Heç bir kəs deyə bilməz ki, həmin malı mən qazanmışam və heç bir kəsə də vermirəm. Onu verən də Allahdır, alan da Allahdır. İstəsə bir anın içərisində hamısını insandan ala bilər.

---

[1] Təfsiri-nümunə, 8-ci cild, səh.122.

قَالَ رَسُولُ اللّهِ(ص): إِنَّ الصَّدَقَةَ تَقَعُ فِي يَدِ اللَّهِ قَبْلَ أَنْ تَقَعَ فِي يَدِ السَّائِلِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Sədəqə ehtiyacı olanın əlinə çatmazdan öncə Allahın əlinə çatır."[1]

Yəni bir insan sədəqə verdikdə sanki Allah həmin sədəqəni alır və ehtiyacı olana verir. Bu və bu kimi hədislər barədə firqələr arasında heç bir ixtilaf yoxdur. Həm əhli-sünnə, həm də şiə alimlərinin yazdıqları kitablarda bu kimi hədislərə çox rast gəlmək mümkündür. Həmin hədislərdən biri də belədir:

قَالَ رَسُولُ اللّهِ(ص): مَا تَصَدَّقَ أَحَدُكُمْ بِصَدَقَةٍ مِنْ كَسْبِ حَلَالُ طَيِّبُ وَ لَا يَقْبَلُ اللَّهُ إِلَّا أَخَذَهَا الرَّحْمَنِ بِيَمِينِهِ وَ إِنْ كَانَ تَمْرَةً فتربو فِي كَفِّ الرَّحْمَنِ حَتَّى تَكُونَ أَعْظَمَ مِنَ الْجَبَلِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Sizlərdən heç biriniz öz halal gəlirindən bir sədəqə vermir. Əlbəttə, Allah halaldan başqa heç bir sədəqəni də qəbul etmir. Allah-təala hətta əgər bir xurma dənəsi olsa da belə, öz sağ əli ilə onu alır, sonra isə həmin xurma dənəsi dağdan da böyük olana qədər Allahın əlində böyüyər."[2]

---

[1] Təfsiri-nümunə, 8-ci cild, səh.122.
[2] Təfsiri-nümunə, 8-ci cild, səh.122.

قَالَ رَسُولُ اللّهِ(ص): اِتَّقُوا النارَ و لَو بِشِقِّ التَّمرَةِ؛ فإنّ اللّهَ عَزَّ و جلَّ يُرِبيها لِصاحِبِها كما يُرْبي أحَدُكُم فِلْوَهُ أو فَصِيلَهُ؛ حتّى يُوَفِّيَهُ إيّاها يَومَ القِيامَةِ، حتّى يكونَ أعظَمَ مِن الجَبَلِ العَظيمِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Özünü xurma dənəsinin yarısını belə sədəqə verməklə cəhənnəm odundan qoru. Çünki siz at və dəvə balasını saxlayıb böyütdüyünüz kimi, Allah da həmin yarım xurma dənəsini böyük dağdan daha çox böyüdər və qiyamət günü öz sahibinə qaytarar."[1]

**Sədəqənin növləri**

Quran və hədislərdə sədəqə vermək insanlara təkid olunmuşdur. Bilmək lazımdır ki, sədəqə təkcə yoxsula pul və ya yemək verməklə tamamlanmır. Sədəqə o deyil ki, insan 5 manat pul verməklə özünü sədəqə vermiş bir insan kimi hiss etsin. Düzdür, yoxsul və ehtiyacı olan bir insana 5 manat da, 1 manat da, 50 qəpik də vermək sədəqə sayılır, amma sədəqə yalnız pul verməklə bitmir. Əgər bir insan cibindən 5 manat pul çıxarıb onu ehtiyacı olan başqa birisinə verirsə, bu, həmin insanın pulunun sədəqəsi hesab olunur.

Mərhum Ayətullah Behcət buyurardı: "Əgər müəyyən bir məbləği sədəqə vermək istəyirsənsə, onu iki yoxsulun arasında bölüşdür. Yarısını birinə, o biri yarısını isə digərinə ver ki, gün ərzində iki dəfə sədəqə vermiş olasan." Bəzi yerlər vardır ki, orada sayın yox, məbləğin çoxluğu lazımdır. Amma sədəqədə sayın çoxluğuna görə

[1] Mizanül-hikmə, 7-ci cild, hədis - 10350.

də savab artır. Yəni insan gün ərzində nə qədər çox adama sədəqə verirsə, bir o qədər çox savab qazanır. Qeyd olunduğu kimi, sədəqə təkcə pul və ya malla tamamlanmır. Sədəqənin geniş mənası və növləri vardır. Şərait və mövqeyindən asılı olaraq sədəqə verməyin qaydaları və növləri Allah-təala tərəfindən müəyyən olunmuşdur. Nümunə üçün onlardan bir neçəsinə diqqət yetirək.

**1. Məqam və vəzifənin sədəqəsi**

Əgər insan halal yolla vəzifə və məqam kürsüsündə əyləşirsə, bu vəzifənin də özünəməxsus sədəqəsi vardır. Əlbəttə, bir daha qeyd etmək lazımdır ki, burada söhbət halal sədəqədən gedir. Allah-təala haramı və haram yolla əldə olunmuş malı qəbul etmir. Halal vəzifənin sədəqəsi isə budur ki, ehtiyacı olan mömin həmin vəzifədə əyləşən şəxsin qapısına gəldikdə o, əlindən gələni əsirgəməsin və onun çətinliyini həll etsin.

قَالَ رَسُولُ اللّهِ(ص): إنَّ أفضَلَ الصَّدَقةِ صَدَقةُ اللِّسانِ... و تَدفَعُ بِهِ الكَرِيهَةَ، و تَجُرُّ المَنفَعةَ إلى أخيكَ المسلِمِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Ən üstün sədəqə elə bir dilin sədəqəsidir… və xoşagəlməz hadisənin qarşısını alasan və müsəlman qardaşına xeyir gətirəsən."[1]

İnsan istər adi halda, istərsə də vəzifə başında olsun, öz insanlığını və başqa insanlarla münasibətini qoruyub saxlamalıdır. Yəni vəzifə başına keçdikdən sonra başqa insanlarla əvvəlki münasibət və rəftarı fərqli olmamalıdır. Vəzifə başına keçdikdən sonra qapısına gələn hər bir

[1] Mizanül-hikmə, 7-ci cild, hədis - 10396.

müsəlmanın problemi ilə maraqlanmalı və onların çətinliyini həll etməyə çalışmalıdır. Bu işi görmək vəzifənin sədəqəsi hesab olunur.

**2. Ağlın sədəqəsi**

Əgər bir insan dərrakəlidirsə, hər bir məsələni yaxşı başa düşə bilirsə, o zaman digər möminlərə də yol göstərməlidir. Yaxud məsləhət istəyən insanlara yaxşı və xeyirli məsləhət verməyi bacarırsa, deməli, ağlının sədəqəsini vermiş olur.

قَالَ رَسُولُ اللّهِ(ص): تَصَدَّقُوا على أخِيكُم بِعِلمٍ يُرشِدُهُ و رَأيٍ يُسَدِّدُهُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Mömin qardaşınız öz biliyi və ağlı ilə sizi istiqamətləndirirsə və ya bir baxışı ilə sizə düz yolu göstərirsə, ona sədəqə verin."[1]

**3. Elmin sədəqəsi**

Elmin sədəqə və zəkatı onun yayılması və öyrədilməsidir. Əgər bir insan elm öyrənirsə, onu başqalarına öyrətməklə sədəqə vermiş olur.

قَالَ رَسُولُ اللّهِ(ص): أفضَلُ الصَّدَقةِ أن يَتَعَلَّمَ المرءُ المسلمُ عِلما ثُمَّ يُعَلِّمَهُ أخاهُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Ən fəzilətli sədəqə müsəlman şəxsin bir elmi öyrənməsi və sonra onu digər müsəlman qardaşına öyrətməsidir."[2]

---

[1] Mizanül-hikmə, 7-ci cild, hədis - 10378.

[2] Yenə orada, hədis - 10399.

**4. Haqq danışmaq**

Sədəqənin növlərindən biri haqq söz söyləməkdir. Haqq söz söyləmək bəzən milyonlarla pulu sədəqə verməkdən üstün sayılır.

قَالَ رَسُولُ اللّٰهِ(ص): ما مِن صَدَقةٍ أفضلَ مِن قَولِ الحَقِّ

-Həzrət Peyğəmbər(s) buyurur: "Haqq söz söyləməkdən üstün bir sədəqə yoxdur."[1]

**5. Məzluma yardım etmək**

Zəif və məzlum insanlara yardım etmək böyük sədəqələrdən hesab olunur. Əgər məzlum bir insan sənə əl uzadırsa, onun əlindən tutub zülmdən ona nicat vermək ən böyük sədəqədir.

قَالَ رَسُولُ اللّٰهِ(ص): عَونُكَ لِلضَّعيفِ مِن أفضَلِ الصَّدَقةِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Sənin zəif insana kömək etməyin ən fəzilətli sədəqələrdəndir."[2]

Əgər Allah birinə qüdrət və imkan veribsə, onun boynuna haqq da qoymuşdur. İnsan gərək öz qüdrət və imkanından istifadə edib zəif və məzlum insanlara kömək etsin.

**6. Dilin sədəqəsi**

Sədəqənin növlərindən biri də dilin sədəqəsidir. Günlərin birində Həzrət Peyğəmbər(s) buyurdu: "Ən yaxşı sədəqə dilin sədəqəsidir." Soruşdular: "Ya Rəsulallah,

---

[1] Mizanül-hikmə, 7-ci cild, hədis - 10341.

[2] Yenə orada, hədis -10405.

dilin sədəqəsi nədir?” Peyğəmbər(s) buyurdu: “Fitnə alovunu söndürmək üçün vasitəçi və şəfaətçi olmaq.”[1]

Ümumiyyətlə, hədislərdə dilin iki cür sədəqəsinin olduğunu müşahidə etmək mümkündür. Yəni dilin iki cür sədəqəsi vardır. Biri dili qorumaq, digəri isə küsənləri barışdırmaq və fitnənin qarşısını almaqdır.

قَالَ رَسُولُ اللّهِ(ص): أمسِكْ لِسانَكَ؛ فإنّها صَدَقةٌ تَصَدَّقُ بها على نَفسِكَ

-Həzrət Peyğəmbər(s) buyurur: “Dilini saxla. Çünki bu iş özünə verdiyin sədəqədir.”[2]

Hər bir kəs dilini saxlasa, bu iş onun özü üçün bir sədəqədir. Bəzi hədislərdə də deyilir ki, küsənlərin arasında vasitəçi olaraq onları barışdırmaq, insanlar arasında sülh yaratmaq, həmçinin fitnə-fəsad alovunu söndürmək dilin sədəqəsi sayılır.

قَالَ رَسُولُ اللّهِ(ص): أَفْضَلُ الصَّدَقَةِ إِصْلاحُ ذَاتُ البِيْنِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Ən yaxşı sədəqə camaatın arasında sülh yaratmaq (küsənləri barışdırmaq, xoşagəlməz halların qarşısını almaqdır).”[3]

قَالَ الصَّادِقُ(ع): صَدَقةٌ يُحِبُّها اللّهُ: إصلاحٌ بَينَ الناسِ إذا تَفاسَدُوا

-İmam Sadiq(ə) buyurur: “Allahın sevdiyi sədəqə bunlardır: insanların bir-birilə əlaqələri pozulan zaman onlar

[1] Qəfil ölüm, səh.165.
[2] Mizanül-hikmə, 7-ci cild, hədis - 10387.
[3] Camiüs-səadaт, 7-ci cild, səh. 216.

arasında sülh yaratmaq və bir-birilərindən uzaqlaşanda onları yaxınlaşdırmaq."[1]

[1] Mizanül-hikmə, 7-ci cild, hədis - 10379.

**7. Camaatı incitməmək**

Sədəqənin növlərindən biri də budur ki, əgər insanın sədəqə verməyə heç cür imkanı çatmırsa, heç olmasa öz şərini camaatdan uzaq etsin. Əgər insanın valideyninə, qonşularına, ailəsinə və camaata xeyri dəymirsə, heç olmasa camaat onun əlindən amanda olsun. Camaatın insanın əlindən təngə və zara gəlməməsi onun üçün böyük bir sədəqədir.

قَالَ رَسُولُ اللّهِ(ص): كُفَّ شَرَّكَ عنِ الناسِ؛ فإنّها صَدَقةٌ مِنكَ على نفسِكَ

-Həzrət Peyğəmbər(s) buyurur: “Camaata ziyan vurma. Çünki bu iş sənin özünə verdiyin sədəqədir.”[1]

**8. Möminin abrını qorumaq**

Əgər bir insan möminin abrını qoruya bilsə, bu, onun üçün bir sədəqədir.

قَالَ رَسُولُ اللّهِ(ص): كُلُّ مَعروفٍ صَدَقةٌ، و ما وَقَى بهِ المرءُ عِرضَهُ كُتِبَ لَهُ بهِ صَدَقةٌ

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər yaxşı bir iş sədəqədir. Möminin abrını qorumaq üçün görülən hər bir işə sədəqə savabı yazılar.”[2]

**9. Namaz qılmaq üçün atılan addımlar**

---

[1] Mizanül-hikmə, 7-ci cild, hədis - 10386.

[2] Yenə orada, hədis - 10377.

Sədəqənin növlərindən biri insanın namaz qılmaq üçün atdığı addımlardır.

قَالَ رَسُولُ اللّهِ(ص): ...و كُلُّ خُطوَةٍ تَخطُوها إلى الصلاةِ صَدَقةٌ

-Həzrət Peyğəmbər(s) buyurur: "Namaza sarı atılan hər bir addım sədəqədir."[1]

**10. Kar insana sözü başa salmaq sədəqədir**

Əgər bir insanın qulağı kardırsa, onu başa salmaq və öyrətmək də bir sədəqədir.

قَالَ رَسُولُ اللّهِ(ص): إسماعُ الأصَمِّ صَدَقَةٌ

-Həzrət Peyğəmbər(s) buyurur: "Kar insanı başa salmaq sədəqədir."[2]

قَالَ الصَّادِقُ(ع): إسماعُ الأصَمِّ مِن غَيرِ تَضَجُّرٍ صَدَقةٌ هَنِيئَةٌ

-İmam Sadiq(ə) buyurur: "Kar adama təngə gəlmədən bir sözü başa salmaq gözəl sədəqədir."[3]

Yuxarıda sadalanan bu əməllərin hər biri insan üçün sədəqədir. Bütün bu əməllər insanın, bütövlükdə cəmiyyətin təkmilləşməsi və savab əldə etməsi üçün nəzərdə tutulubdur. Bəzi adamlar isə bu kimi incə məqamlarla maraqlanmaq belə istəmirlər. Ümumiyyətlə, İslam dininin özünəməxsus gözəllikləri, incə məqamları var ki, dünya əhli bunu başa düşmür. Dünyapərəst insanlar bu dünyada çalıb-oynamaqla, başqalarına zülm etməklə,

---

[1] Mizanül-hikmə, 7-ci cild, hədis - 10380.
[2] Yenə orada, hədis - 10381.
[3] Yenə orada, hədis - 10382.

yeyib-içməklə, gəzməklə, hakimiyyətlə və s. ilə məşğuldurlar. Belələri qəflət içərisində yaşadıqları üçün İslam dininin gözəlliklərindən, onun incə məqamlarından xəbərsizdirlər. Bütün bunları o zaman başa düşəcəklər ki, artıq onlar üçün gec olacaqdır. Əzrayıl belə adamların başının üstünü alarkən onlar çox peşman olacaqlar. Dinin bu kimi incə məqamları insanların həm bu dünyası, həm də axirəti üçün faydalıdır.

## Allah hansı sədəqəni tərifləyir?

Ümumiyyətlə, hər bir sədəqə bəyənilmiş və gözəl bir əməl sayılır. Amma bəzi sədəqələr Qurani-Kərimdə xüsusi olaraq təqdir edilmişdir. Allah-təala "Həşr" surəsinin 9-cu ayəsində buyurur:

وَيُؤْثِرُونَ عَلَى أَنفُسِهِمْ وَلَوْ كَانَ بِهِمْ خَصَاصَةٌ

-Özləri ehtiyac içində olduqları halda onları özlərindən üstün tutarlar.

قَالَ الصَّادِقُ(ع): إنّ صاحِبَ الكثيرِ يَهُونُ عليهِ ذَلكَ، وَ قَد مَدَحَ اللّهُ عَزَّوجَلَّ صَاحِبَ القَليلِ فَقالَ: و يُؤْثِرُونَ على أنْفُسِهِم و لَو كانَ بِهِم خَصاصَةٌ.

-İmam Sadiq(ə) buyurur: "Malı çox olan insanın sədəqə verməsi onun üçün asandır. Amma Allah-təala az malı olan və onu da (Allah yolunda) sədəqə verən insanı tərif (mədh) edir. Necə ki, buyurur: Özləri ehtiyac içində olduqları halda onları özlərindən üstün tutarlar."[1]

[1] Mizanül-hikmə, 7-ci cild, hədis - 10392.

Ola bilər ki, bir insanın sərvəti çox olsun. Belə bir insanın gün ərzində 100 manat sədəqə verməsi gözünə görünmür. Amma aylıq məvacibi 200-300 manat olan insanın sədəqə verməsi olduqca incə və dəyərli bir məsələdir. Allah-təala da məhz imkanı az olmasına baxmayaraq, məhz bu cür sədəqə verən insanları tərifləyir.

**Sədəqənin digər nümunələri**

Hədislərdə sədəqənin digər müxtəlif nümunələri də bəyan olunmuşdur. Müxtəlif hallardan asılı olaraq sədəqə verməyin özünəməxsus xüsusiyyət və üstünlükləri vardır ki, indi onlardan bir neçə nümunəyə diqqət yetirək:

**1. Kin bəsləyən qohumlara sədəqə vermək**

Ən yaxşı sədəqələrdən biri insanın ona qarşı kin-küdurət bəsləyən qohumlarına sədəqə verməsidir. Ümumiyyətlə, sənə qarşı kin-küdurəti olan yoxsul bir qohumuna sədəqə vermək çox çətin və olduqca mürəkkəb sədəqələrdəndir.

Həzrət Peyğəmbərdən(s) soruşdular: "Ya Rəsulallah, ən üstün sədəqə hansıdır? Peyğəmbər(s) buyurdu:

على ذِي الرَّحِمِ الكاشِحِ

-Ən üstün sədəqə kin bəsləyən qohumuna verdiyin sədəqədir." [1]

**2. Ac əsirə sədəqə vermək**

Ən üstün sədəqələrdən biri ac əsiri doydurmaqdır.

---

[1] Mizanül-hikmə, 7-ci cild, hədis - 10402.

قَالَ رَسُولُ اللّهِ(ص): أفضَلُ الصَّدَقةِ على الأسِيرِ المخضَرِّ عَيناهُ مِنَ الجُوعِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Ən üstün sədəqə acından gözləri bərəlmiş əsirə verilən sədəqədir.”[1]

**3. Ciyəri yanana su vermək**

Ən yaxşı və üstün sədəqələrdən biri susamış insana verilən sədəqədir.

قَالَ الصَّادِقُ(ع): أفضَلُ الصَّدَقةِ إبرادُ الكَبِدِ الحَرّى

-İmam Sadiq(ə) buyurur: “Ən yaxşı sədəqə yanğılı ciyəri su ilə sərinlətməkdir.”[2]

**4. Zəif və köməksiz insana yardım etmək**

Zəif və köməksiz insana yardım etmək də İslamda ən üstün sədəqələrdən hesab olunur.

قَالَ الكَاظِمُ(ص): عَونُكَ لِلضَّعيفِ مِن أفضَلِ الصَّدَقةِ

-İmam Musa Kazım(ə) buyurur: “Sənin imkansızlara köməyin ən üstün sədəqələrdəndir.”[3]

**5. Ramazan ayında verilən sədəqə**

Bütün növ sədəqələrin hamısı gözəl və yaxşı əməllərdir. Həmçinin bütün günlərdə verilən sədəqələr

---

[1] Yenə orada, hədis - 10403.
[2] Mizanül-hikmə, 7-ci cild, hədis - 10405.
[3] Yenə orada, hədis - 10404.

fəzilətlidir. Lakin mübarək ramazan ayında verilən sədəqənin savabı daha çoxdur.

قَالَ رَسُولُ اللّهِ(ص): أفضَلُ الصَّدَقةِ في رَمَضانَ

-Həzrət Peyğəmbər(s) buyurur: "Ən üstün sədəqə ramazan ayında veriləndir."[1]

### 6. Qohum-əqrəbaya verilən sədəqə

Hədislərdə belə deyilir ki, qohum-əqrəbaya verilən sədəqənin savabı daha çoxdur.

قَالَ رَسُولُ اللّهِ(ص): إنَّ الصَّدَقةَ على ذِي القَرابَةِ يُضَعَّفُ أجرُها مَرَّتَينِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Qohum-əqrəbaya verilən sədəqənin savabı ikiqat çoxdur."[2]

Bu işin savabı ona görə ikiqatdır ki, insan həm qohum-əqrəbaya baş çəkir, həm də sədəqə verir.

قَالَ رَسُولُ اللّهِ(ص): صَدَقةُ ذِي الرَّحِمِ على ذِي الرَّحِمِ صَدَقةٌ و صِلَةٌ

-Həzrət Peyğəmbər(s) buyurur: "Qohum-əqrəbaya sədəqə vermək həm sədəqədir, həm də onlara baş çəkmək deməkdir."[3]

## Sədəqə kimə verilir?

---

[1] Yenə orada, hədis - 10407.
[2] Mizanül-hikmə, 7-ci cild, hədis - 10410.
[3] Yenə orada, hədis - 10412.

Sual oluna bilər ki, sədəqə hansı şəxslərə verilməlidir. Hər bir şəxsə sədəqə düşürmü? Bu sualların cavabı da hədislərdə bizim üçün açıqlanmışdır.

قَالَ رَسُولُ اللّهِ(ص): ليسَ المِسكينُ بالطَّوّافِ، و لا بِالذي تَرُدُّهُ التَّمرَةُ و التَّمرَتانِ، و اللُّقمَةُ و اللُّقمَتانِ، و لكنَّ المِسكينَ المتَعَفِّفُ الذي لا يَسألُ الناسَ شيئا و لا يُفطَنُ لَهُ فَيُتَصَدَّقُ عليهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Miskin adam küçələri dolanan dilənçi və ya iki parça çörəklə iki xurma dənəsini əlinə alıb gedən şəxs deyil. Əslində, miskin adam həyasına və nəfsinin izzətinə görə kömək əlini insanlara açmayan yoxsul bir şəxsdir. Heç bir kəs onun yoxsul olduğunu başa düşməz ki, ona sədəqə versin."[1]

### Sədəqənin ziyanları

Qeyd olundu ki, sədəqə vermək olduqca fəzilətli bir əməldir. Amma bunu da bilmək lazımdır ki, sədəqə verdikdə də son dərəcə diqqətli olmaq lazımdır. Bəzən sədəqənin ziyanı və mənfi cəhətləri də meydana çıxır. Sədəqənin bir sıra mənfi cəhətləri vardır ki, onlardan ikisi xüsusilə əhəmiyyətlidir.

Həmin mənfi cəhətlərdən biri şeytanın vəsvəsəsidir. Yəni insan sədəqə vermək qərarına gəldikdə şeytan vəsvəsə edərək onu bu işdən çəkindirməyə çalışır. Şeytan, ümumiyyətlə, həmişə insanları xeyir işlərdən çəkindirməyə və buna mane olmağa cəhd edir.

Sədəqənin ikinci mənfi cəhəti isə başqasına minnət qoymaqdır. Sədəqənin bircə zəif məqamı vardır ki, bu da

---

[1] Yenə orada, hədis - 10444.

minnətdir. Allah-təala “Bəqərə” surəsinin 264-cü ayəsində buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تُبْطِلُواْ صَدَقَاتِكُم بِالْمَنِّ وَالأذَى

-Ey iman gətirənlər, sədəqələrinizi minnət qoymaq və əziyyət verməklə puça çıxarmayın.

Yatmaq dəstəmazı, yemək orucu batil etdiyi kimi, minnət qoymaq da sədəqəni batil edir. Sədəqə odur ki, insan onu verdikdən sonra dilinə gətirməsin. Hətta hədislərdə belə deyilir ki, sağ əlinlə elə sədəqə ver ki, sol əlinin xəbəri olmasın. Yox, əgər bir insan kiməsə hər hansı növ sədəqə verdikdən sonra onu başqalarına desə və yaxud minnət qoysa, onda bu iş sədəqə sayılmaz.

**9. Gözəl əxlaq və xoşrəftar olmaq**

İnsanın ömrünü uzadan amillərdən biri xoşəxlaq və xoşrəftar olmaqdır.

قَالَ الصَّادِقُ(ع): اِنَّ الْبِرَّ وَحُسْنَ الْخُلْقِ يَعْمُرانِ الدِّيارِ وَيَزيدانِ فِي الأَعْمارِ

-İmam Sadiq(ə) buyurur: "Yaxşılıq etmək və gözəl əxlaqlı olmaq şəhərləri, evləri abad edər və ömürləri uzadar."[1]

**10. Əfv etmək və bağışlamaq**

Ömrün uzun olmasına səbəb olan əməllərdən biri də bağışlamaq və güzəştə getməkdir.

İmam Sadiq(ə) buyurur: "İslam Peyğəmbəri(s) buyurmuşdur: Allah-təala peyğəmbərlərdən birinə belə buyurdu: Ey Adəm övladı, qəzəbləndiyin an Məni xatırla (qəzəbini söndür) ki, Mən də qəzəbləndiyim an sənə qarşı qəzəbimi söndürüm… Sonra buyurdu: Kim çox güzəştə getsə, ömrü uzun olar."[2]

---

[1] Бiharül-ənвar, 68-ci cild, səh. 395.

[2] Yenə orada, 72-ci cild, səh. 352.

## Ömrü azaldan və qəfil ölümə səbəb olan amillər

Ötən bəhslərimizdə insanın ömrünü artıran amillərlə tanış olduq. Burada isə yaxşı olar ki, ömrü qısaldan və qəfil ölümlərə səbəb olan amillərlə də tanış olaq.

### 1.Günah

İnsanın ömrünü qısaldan və qəfil ölümlərə səbəb olan amillərdən başlıcası günah etməkdir. Hər bir insan günah etməkdə israrlı olsa, bu, onun ömrünün azalması ilə nəticələnər. Çünki insanın günah əməlləri ilə onun cəzaları bir-birilə sıx şəkildə bağlıdır. İnsanlar öz günahlarına uyğun olaraq cəzalanırlar. Bütövlükdə insanların günahları ilə cəzalarının bir-birinə bağlı olmasına "mükafat" deyilir. Ümumiyyətlə, "mükafat" kəlməsi ərəb sözüdür, amma biz bu sözü istədiyimiz kimi mənalandırıb yaxşı işlərin qarşısında verilən qiymət və hədiyyə kimi işlədirik. Ərəb dilində isə "mükafat" sözü insanın əməlinin nəticəsi deməkdir.

Elmi terminlərə diqqət yetirdikdə görürük ki, insanın əməlinin nəticəsi iki cürdür. Birincisi, insan elə bir iş görür ki, Allah həmin şəxsə savab verir. Allah-təalanın hökmlərində qayda belədir ki, müsbət bir iş görən insana savab, mənfi iş görənə isə əzab veriləcəkdir. Bundan əlavə, hər bir əməlin insana həm də vəziyyətlə bağlı təsiri vardır. Məsələn, içki içən bir insanın cəzası qiyamət günündə əzabdır. Amma həmin mayenin insana həm də bu dünyada təsiri vardır. Yəni içki insanı sərxoş edir və onun ağlını başından alır. İçkinin xüsusiyyəti insanı məst etməkdir. Əgər bir nəfər stəkana tökülmüş içkinin məstedici içki olduğunu bilməsə və onu götürüb adi su niyyəti ilə içsə, ancaq sonradan onun şərab olduğunu başa

düşsə, ona günah yazılmaz. Lakin içkinin xüsusiyyəti insanı xumarlandırmaq və məst etmək olduğundan həmin şəxsə də mütləq öz təsirini göstərəcəkdir. Onu içdikdən sonra deyə bilməz ki, mən səni bilməyərəkdən içmişəm və buna görə də mənə təsir göstərmə.

Başqa bir misal. Məsələn, fərz edək ki, elektrik lampasının naqilləri açıq vəziyyətdə qalmışdır. Dünyadan bezmiş bir insan isə intihar etmək niyyəti ilə həmin naqillərdən yapışır və cərəyan onu öldürür. Hədislərdə deyilir ki, intihar edən insan günah halında öldüyündən birbaşa cəhənnəmə gedir. Amma başqa bir insan bilməyərəkdən həmin naqillərə toxunur və cərəyan onu öldürür. Bu insan günah işlətmək və intihar etmək niyyətində olmadığı üçün ona günah yazılmır. Amma cərəyanın xüsusiyyəti öldürmək olduğundan mütləq insana öz təsirini göstərməlidir.

Günahlar da eynilə belədir. Bütün günahların hər birinin özünəməxsus təsir və xüsusiyyətləri vardır. Dərmanların hər birinin öz xüsusiyyəti olduğu kimi, hər bir günahın da öz təsiri vardır. O cümlədən bəzi günahların xüsusiyyəti odur ki, insanların ömrünü azaldır. Həmin günahları sadalamazdan öncə qeyd etmək istərdim ki, onlardan biri, ümumiyyətlə, günahla ünsiyyətdə olmaqdır. Günahla ünsiyyətdə olan və günah etməkdə israrlı olan hər bir insanın ömrü qısa olar. Allah-təala “Nisa” surəsinin 79-cu ayəsində buyurur:

وَمَا أَصَابَكَ مِن سَيِّئَةٍ فَمِن نَّفْسِكَ

-Sənə yetişən hər hansı bir pislik sənin öz tərəfindəndir (onun səbəbi sənin günahlarındır).

“Şura” surəsinin 30-cu ayəsində oxuyuruq:

وَمَا أَصَابَكُم مِّن مُّصِيبَةٍ فَبِمَا كَسَبَتْ أَيْدِيكُمْ

-Sizə yetişən müsibətlər özünüzün qazandığınız günahlara görədir.

Əgər insana müsibət və narahatçılıq üz verirsə, həyat çətinləşirsə, cəmiyyətdə yaşamağın şirinliyi itirsə, hürriyyət, şərafət aradan gedirsə, insanlar pis vəziyyətlərə düşürlərsə, uğursuzluqlar bir-birini əvəz edirsə, bütün bunların hamısının səbəbi günahlardır.

قَالَ عَلِيٌّ(ع): تَوَقُّوا الذُّنُوبَ فَمَا مِنْ بَلِيَّةٍ وَ لَا نَقْصِ رِزْقٍ إِلَّا بِذَنْبٍ حَتَّى الْخَدْشَ وَ الْكَبْوَةَ وَ الْمُصِيبَةَ

-Həzrət Əli(ə) buyurur: "Günahlardan çəkinin. Bəlaya düçar olmaq və ruzinin azalması günahın nəticəsidir. Hətta insanın bədəninin cızılması, yaralanması, onun yıxılması və müsibətə düçar olması da günahlarının nəticəsində baş verir."[1]

لَمْ تَظْهَرِ الْفَاحِشَةُ فِي قَوْمٍ قَطُّ حَتَّى يُعْلِنُوهَا إِلَّا ظَهَرَ فِيهِمُ الطَّاعُونُ وَ الْأَوْجَاعُ الَّتِي لَمْ تَكُنْ فِي أَسْلَافِهِمُ الَّذِينَ مَضَوْا وَ لَمْ يَنْقُصُوا الْمِكْيَالَ وَ الْمِيزَانَ إِلَّا أُخِذُوا بِالسِّنِينَ وَ شِدَّةِ الْمَئُونَةِ وَ جَوْرِ السُّلْطَانِ وَ لَمْ يَمْنَعُوا الزَّكَاةَ إِلَّا مُنِعُوا الْقَطْرَ مِنَ السَّمَاءِ وَ لَوْ لَا الْبَهَائِمُ لَمْ يُمْطَرُوا وَ لَمْ يَنْقُضُوا عَهْدَ اللَّهِ وَ عَهْدَ رَسُولِهِ إِلَّا سَلَّطَ اللَّهُ عَلَيْهِمْ عَدُوَّهُمْ وَ أَخَذُوا بَعْضَ مَا

[1] Qəfil ölüm, səh. 127.

فِي أَيْدِيهِمْ وَ لَمْ يَحْكُمُوا بِغَيْرِ مَا أَنْزَلَ اللَّهُ عَزَّ وَ جَلَّ إِلَّا جَعَلَ اللَّهُ عَزَّ وَ جَلَّ بَأْسَهُمْ بَيْنَهُمْ

-Həzrət Peyğəmbər(s) buyurur: "İnsanlar pozğun işləri (günahları) aşkar şəkildə görsələr, həmin cəmiyyətdə taun, habelə keçmişdə ata-babalarının görmədiyi, analoqu olmayan xəstəliklər və bəlalar baş verər. Tərəzidə aldatdıqda (alanda ağır çəkidə alıb, satanda isə əskik satan zaman) həmin cəmiyyət qıtlığa düçar olar, insanların dolanışıqları çətinləşər və onlar şahların zülmünə məruz qalarlar. (Mallarını zülmlə əllərindən alarlar və onlar da etiraz edə bilməzlər.) Zəkat vermədikdə yağış onların üzünə kəsilər. Əgər heyvanlara xatir olmasaydı, həmin məmləkətə heç yağış yağmazdı. (Yəni zəkat verilməyən məmləkətə yağış yağırsa, heyvanlara xatir yağır.) İnsanlar Allah və onun Rəsulu(s) ilə bağladıqları əhd-peymanı pozduqda, Allah öz düşmənlərini həmin cəmiyyətdə yaşayanlar üzərində hakim təyin edər. Onlar da bu adamların əllərində olan mallarını alarlar. Əgər Allahın nazil etdiyi hökmlərdən savayı, başqa qanunları özlərinə qanun seçsələr, onda Allah-təala onların arasında münaqişə yaradar. (Çünki onlara lazım olan ilahi qanunları bir kənara qoyaraq öz bildikləri qanunlara riayət etmişlər.)"[1]

قَالَ الصَّادِقُ(ع): مَنْ يَمُوتُ بِالذُّنُوبِ أَكْثَرُ مِمَّا يَمُوتُ بالاجال، وَ مَنْ يَعِيشُ بالاحسان أَكْثَرُ مِمَّنْ يَعِيشُ بِالأَعمَال

-İmam Sadiq(ə) buyurur: "Günahlar nəticəsində ölən adamların sayı əcəlinin çatmasına görə ölənlərin sayından

[1] Üsuli-Kafi, 4-cü cild, səh. 81.

çoxdur. Yaxşı əməllər sayəsində sağ qalanların (ömrü uzun olanların) sayı, adi ömür yaşayanların sayından çoxdur."[1]

Ruhul-bəyan təfsirində belə bir əhvalatdan bəhs olunmuşdur: - Bir şəhərdə üç qardaş yaşayırdı. Onların hər üçünün gözəl səsi var idi. Böyük qardaş hər gün namaz vaxtı məscidin minarəsinə qalxıb azan verirdi. On il olardı ki, bu işi davam etdirirdi.  O, dünyasını dəyişdikdən sonra ortancıl qardaş azan verməyə başladı. Bir neçə ildən sonra o da dünyasını dəyişdi. Amma onlardan sonra kiçik qardaş azan verməkdən imtina etdi. Camaat nə qədər israr etdisə, qəbul etmədi. Ona bu iş üçün pul da təklif etdilər, amma razılaşmayıb dedi: "Mən minarədə heç vaxt azan verməyəcəyəm. Amma məscidin içində deyə bilərəm." Dedilər: "Axı nə üçün minarəyə qalxıb azan vermək istəmirsən?" Dedi: "Böyük qardaşım can verərkən başının üstündə "Yasin" oxuyurdum, amma o, işarə edərək məni oxumağa qoymurdu. Bu işə məəttəl qalıb narahat oldum. Amma həmin məsələni heç bir kəsə demədim. İkinci qardaşım da dünyasını dəyişərkən həmin əhvalat baş verdi. O da razı olmadı ki, "Yasin" oxuyum. Bu iki hadisə sirr olaraq ürəyimdə qaldı. Gecələrin birində böyük qardaşımı yuxuda gördüm. Ondan soruşdum ki, sən can verərkən nə üçün məni "Yasin" oxumağa qoymadın? O dedi: Mən minarəyə çıxıb azan verərkən oradan qonşunun evinə və namusuna baxırdım. Dildə azan deməyimə baxmayaraq, gözüm qonşunun namusunda idi. Ona görə də can verərkən aqibətim xeyir olmadı və həmin əməl mənim gözümün qabağında təcəssüm oldu. Bu işin

[1] Təfsiri-nümunə, 10-cu cild, səh. 289.

nəticəsində də ölən zaman mənə "Yasin" surəsini dinləmək qismət olmadı."[1]

Qeyd olunan amil ümumilikdə bütün günahlara aiddir ki, əgər insan günahla ünsiyyətdə olsa və günah etməkdə israrlı olsa, ömrü qısa olar. Amma bəzi günahlar da vardır ki, onların xüsusiyyəti insanın ömrünü qısaltmaqdır. Nümunə üçün onlardan bir neçəsini diqqətinizə çatdırıram.

**2. Zina etmə**

İnsanın ömrünü azaldan pis və iyrənc günahlardan biri zinadır. Zinanın nə qədər böyük günah olduğu barədə çoxlu hədis və rəvayətlər mövcuddur.

قَالَ رَسُولُ اللّهِ(ص): يا عليُّ في الزِنا سِتُّ خِصالٍ: ثلاثٌ مِنها في الدنيا و ثلاثٌ في الآخِرَةِ، فأمّا التي في الدنيا فَيَذهَبُ بالبَهاءِ، و يُعَجِّلُ الفَناءَ، و يَقطَعُ الرِّزقَ، و أمّا التي في الآخِرَةِ فَسُوءُ الحِسابِ، و سَخَطُ الرحمنِ، و الخُلُودُ في النارِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Ey Əli! Zinanın altı nəticəsi var: üçü dünyada, üçü axirətdə üzə çıxar. Dünyadakı nəticələri budur ki, abır-həyanı aparar, ölümü tezləşdirər və ruzini kəsər. Axirət nəticələri isə ağır və dəqiq hesabatın aparılması, Rəhman Allahın qəzəbi və cəhənnəm odunda əbədi qalmaqdan ibarətdir."[2]

قَالَ عَلِيٌّ(ع): اِذَا فَشَى الزِّنا ظَهرَ مَوتُ الفُجاءَة

---

[1] Gəncineyi-məarif, 3-cü cild, səh. 744.
[2] Mizanül-hikmə, 5-ci cild, hədis - 7648.

-Həzrət Əli(ə) buyurur: “Zina (çoxalıb) aşkar şəkildə olsa, qəfil ölümlər də çoxalar.”[1]

Bələm Baura Musa Peyğəmbərin(ə) zamanında yaşamışdır. Gözəl ibadət edən bir insan idi. O qədər elmli bir insan idi ki, Həzrət Musa(ə) bəzi vaxtlar onu müəyyən məntəqələrə öz adından təbliğat aparmağa göndərərdi. “İsmi-Əzəm”i bildiyi üçün elə bir məqama çatmışdı ki, duaları Allah dərgahında qəbul olunurdu. Bütün bunlara baxmayaraq, o zaman zalım hökmdarlardan biri olan Əmaliqə Bələm Baura ilə dostlaşmağa başladı. Onların dostluğu yavaş-yavaş artdıqca Bələm Baura Musadan(ə) ayrılıb ona qoşuldu. Həmin vaxt Həzrət Musa(ə) Bəni-İsraillə birgə Beytül-müqəddəsi fəth etmək üçün həmin məntəqəyə yollandı.

Əmaliqə Musanın(ə) böyük bir ordu ilə onlara sarı gəldiyini öyrəndikdə başa düşdü ki, əgər onlarla döyüşsə, mütləq məğlub olacaqdır. Buna görə də o, Bələm Bauranı çağırıb dedi: “Sənin duaların qəbul olunduğu üçün Musaya(ə) qarğış et ki, onlar bizə qalib gələ bilməsinlər.” Bələm Baura baxıb gördü ki, Əmaliqə ondan çox böyük bir məsələni tələb edir. Ona görə də onun bu tələbindən imtina etdi. Lakin Əmaliqənin təhdid və israrı nəticəsində onun tələbini qəbul edərək dağın üstünə çıxıb dua etmək üçün ulağa mindi. Allahın əmri ilə heyvan yerindən tərpənmədi. Bələm nə qədər çalışdısa, heyvan yerimədi ki, yerimədi. Axırda düşüb piyada getməli oldu. Dua etmək istəyəndə “İsmi-Əzəm” yadından çıxdı. Nə qədər fikirləşdisə, yadına düşmədi. “İsmi-Əzəm”in yadından çıxdığını görüb elə belə dua etməyə başladı. Dua edərkən

[1] Qəfil ölüm, səh. 121.

dili çaşdı və Musanın(ə) xeyrinə dua edib Əmaliqəyə isə qarğış etdi.

Sonra Əmaliqənin yanına qayıdıb dedi: “Dünyamı da əldən verdim, axirətimi də. Bundan sonra mənim heç bir duam qəbul olunmayacaq. Siz Musaya(ə) yalnız kələk və hiylə yolu ilə qalib gələ bilərsiniz.” Əmaliqə soruşdu: “Hansı hiylə ilə?” Bələm dedi: “Qadınları bəzəyib Musanın(ə) ordusunun qarşısına çıxarın. Onların əllərinə də satmaq üçün ərzaq malları verin. Qoy aparıb Musanın(ə) əsgərlərinə satsınlar. Onlara tapşırın ki, əgər Musanın(ə) adamlarından hansı biri onlarla zina etmək istəsə, imtina etməsinlər.” Əmaliqə soruşdu: “Nə üçün belə?” Bələm dedi: “Musa(ə) əzəmət və nuraniyyətlə üstümüzə gəlir. Əgər onun qoşununda bircə nəfər belə zina etsə, daha onlar bizə qələbə çala bilməyəcək.”

Əmaliqə Bələm Bauranın dediyi kimi göstəriş verdi ki, qadınlar bəzənsinlər və əllərinə də ərzaq malları götürərək Musanın(ə) əsgərlərinə satmaq üçün hazır olsunlar. Qadınlar göstərişə uyğun olaraq Musanın(ə) adamlarının arasında gəzə-gəzə mal satmağa başladılar. Qoşunda Zuməri ibn Şəlum adlı bir nəfər həmin qadınlardan biri ilə şirin-şirin söhbət edib razılaşdı və onun əlindən tutub zina etməyə apardı. Bu günahın sayəsində Allah-təala Musanın(ə) ordusuna elə bir xəstəlik nazil etdi ki, həmin xəstəliyin nəticəsində iyirmi min nəfər həlak oldu. Beləcə, Musanın(ə) ordusu dağıldı. Sonra Həzrət Musa(ə) Yuşə ibn Nunu çağırıb onu yeni yaradılan orduya rəhbər təyin etdi. Onun rəhbərliyi ilə yenidən Əmaliqənin üstünə hücum çəkdilər və qələbə çaldılar.[1]

---

[1] Qəfil ölüm, səh. 143.

Zina elə mənfur və iyrənc bir günahdır ki, onun nəticəsində bəla nazil olar və insanlar arasında qəfil ölümlər baş verər. Zina insanın ömrünü qısaldır. Amma bu o demək deyildir ki, bütün qəfil ölən insanlar zina nəticəsində ölmüşlər. Müəlləq əcəl barədə söhbət edərkən bu haqda bəhs olunacaqdır.

**3. Əsəbiləşmək**

İnsanın ömrünü azaldan amillərdən biri əsəbiləşməkdir. Əlbəttə, qeyd etmək lazımdır ki, bəzi hallarda əsəbiləşmək insana vacib, bəzən də haram olur. Bəzi yerlərdə isə insanın qəzəblənməsi yersiz hesab olunur. Qəzəblənməyin hansı yerlərdə yaxşı və ya pis olub-olmaması haqda indi söz açmayacağıq. Çünki bu barədə danışası olsaq, əsas bəhsimizdən uzaq düşəcəyik. Mövzumuza uyğun olaraq burada qısaca olaraq bunu demək olar ki, bəzi yerlərdə qəzəblənməyi Allah-təala insana vacib buyurub. Əgər insan vacib və lazım olan yerdə qəzəblənməsə, həmçinin qəzəblənməyin haram olduğu yerdə qəzəblənsə, günah iş görmüşdür. Allah-təala insana qeyrət, məhəbbət, qüdrət, ağıl və s. kimi keyfiyyətlər bəxş etmişdir. Bu kimi xüsusiyyətlərə malik olan bir insan digər insanları özünə yaxınlaşdıra da bilər, uzaqlaşdıra da. Bu xüsusiyyətlər insana məxsus olan hallardır, o cümlədən qəzəblənmək də həmin hallardan biridir. Allah-təala bunun üçün də müəyyən bir hədd qoymuş və lazım olan yerdə ondan istifadə etməyi vacib buyurmuşdur.

Həzrət Musa(ə) Allahla minacat edərkən belə dedi: "İlahi, mənə ən acığın gəldiyi insanı göstər." Allah-təala buyurdu: "Filan yerdə dayanarsan. Orada sənin yanından keçən birinci adamı görsən, bil ki, hamıdan çox ondan acığım gəlir." Musa(ə) Allahın buyurduğu yerə gedir və orada gözləyir. Bir qədər keçməmiş görür ki, nurani bir insan gəlib oradan keçdi. Onu tanıdığı üçün öz-özünə təəccübləndi. Allahdan soruşdu: "İlahi, bu insan həmişə Sənə inanır və gecə-gündüz ibadətlə məşğul olur. Nə üçün ondan acığın gəlir?" Allah-təala buyurdu: "Onun namaz və ibadətinin yaxşı olmasına baxmayaraq, Mənim ona

görə ondan acığım gəlir ki, indiyə qədər haqqın yolunda qəzəbdən onun boynunun damarı şişməyib və heç rəngi də qızarmayıb. (Batil haqqın üzərinə gəldikdə, haqq əzildikdə heç bir vaxt narahat olmayıb və ya üzündə etiraz nişanəsi görünməyib. Haqqın əzildiyini, aradan getdiyini gördükdə vecinə də almırdı.)”

Əgər qəzəb barədə danışmalı olsaq, bu haqda yetərincə söz demək olar. Lakin əsas mətləb üçün bu qədər kifayət edər. Bununla belə, qeyd etməliyəm ki, qəzəbin bir xüsusiyyəti vardır ki, bu da insanın ömrünün azalmasına səbəb olur.

قَالَ عَلِيٌّ(ع): الْحِدَّةُ ضَرْبٌ مِنَ الْجُنُونِ لِأَنَّ صَاحِبَهَا يَنْدَمُ فَإِنْ لَمْ يَنْدَمْ فَجُنُونُهُ مُسْتَحْكَمٌ

-Həzrət Əli(ə) buyurur: “Qəzəb və sərtlik dəliliyin bir növüdür. Çünki bunlara sahib olan peşmançılıq çəkər. Əgər peşman olmasa, dəliliyi qətidir.”[1]

Mərhum Nəraqi “Camiüs-səadat” kitabında bu hədisin izahında belə buyurur: “Əsəbiləşmək insanın bədəninin hərarətini qaldırır. Bədəndə bu hərarət artdıqca, insanın ömrü azalır və qəfil ölümə səbəb olur.”

### 4. Murdar qidalar

İnsanın ömrünü azaldan səbəblərdən biri murdar yemək və içməklərdir. Şərab, pivə, məstedici murdar içkilər içmək, eləcə də şəriət yolu ilə kəsilməyən, yaxud murdar olan heyvan və donuz ətini yemək insanın ömrünü azaldır.

---

[1] Qəfil ölüm, səh. 123.

Müfəzzəl deyir: “İmam Sadiqdən(ə) şərabın, ölüb murdar olan heyvanın və donuz ətinin haram olmasının səbəbini soruşdum. İmam(ə) buyurdu: İnsanın bədəninə ziyan verən şeyləri Allah haram edib... Sonra buyurdu: Donuz və murdar olmuş heyvanın ətini yemək nəslin kəsilməsinə və qəfil ölümə səbəb olur.”[1]

**5. Valideynləri incitmək**

Ötən bəhslərdə qeyd olundu ki, ata-anaya yaxşılıq və xidmət etmək insanın ömrünü uzadır. Eləcə də valideynləri incitmək, onlara əziyyət vermək insanın ömrünün azalmasına səbəb olar.

قَالَ البَاقِرُ(ع): نَعوذُ باللهِ عن الذنوبِ الّتي تُعجّل الفَناءَ و تُقَرّب الآجال و تخليّ الديّار وَ هيَ قطيعةُ الرَّحِمِ و العقوقِ...

-İmam Baqir(ə) dua edərkən belə buyurardı: “Ölümü tezləşdirən və ya ölümü yaxınlaşdıran, şəhərləri sakinsiz qoyan günahlardan Allaha pənah aparırıq. O günahlar qohum-əqrəba ilə əlaqəni kəsmək və valideynlərin üzünə ağ olmaqdır (valideynləri incitməkdir).”[2]

Mütəvəkkil Abbasi zalım xəlifələrdən biri idi. O, çox murdar, alçaq, pozğun bir adam idi. Həm gözünə, həm də dilinə etibar yox idi. Müntəsər onun oğlu olmasına baxmayaraq, onun da atasından xoşu gəlmirdi. Mütəvəkkil müsəlmanlara çox zülm etmişdi. Müntəsər belə atası olmasına görə çox xəcalət çəkirdi. Onun xüsusilə müsəlmanlara etdiyi zülmlərə dözə bilmirdi. Odur ki, plan

---

[1] Qəfil ölüm, səh. 124.
[2] Yenə orada, səh. 138.

qurub atasını öldürmək qərarına gəldi. Gecələrin birində bir neçə nəfərlə saraya daxil olub, bütün xidmətçiləri çölə çıxartdı. Fəth ibn Xaqan Mütəvəkkilin ən yaxın adamı olduğundan orada qaldı. Sonra Müntəsər atasının otağına girdi. Atası o qədər şərab içmişdi ki, heç kəsi tanımırdı. Müntəsərə məsləhətləşdiyi adamlardan biri demişdi ki, atanı sən öldürmə. Sən kənarda dayan, qoy səninlə gedənlər bu işi görsünlər. Çünki hər kim ata-anasını öldürsə, ömrü az olar. Müntəsər isə həmin adama dedi ki, mən Allahın hökmünü icra edirəm. Ömrüm nə qədər olur-olsun, fərqi yoxdur. Təki müsəlmanlar atamın şərindən uzaq olsunlar. Beləliklə, Müntəsər xəncəri çıxarıb atasını öldürmək istədi. Fəth ibn Xaqan işi belə görüb özünü Mütəvəkkilin üstünə atdı ki, onu öldürməyə qoymasın. Lakin Müntəsər və onunla gələnlər hər ikisini öldürdülər. Bu hadisədən sonra camaat yığışıb Müntəsəri xəlifə seçdi. O, xəlifə olduqdan sonra cəmi altı ay yaşadı.[1]

Odur ki, hər kim ata-anasını öldürsə, onları incitsə, həmin övladın ömrü qısalar.

**6. Yalan danışmaq**

İnsanın ömrünü azaldan günahlardan biri yalan danışmaqdır.

قَالَ عَلِيٌّ(ع): أَلَا فَاصْدُقُوا إِنَّ اللَّهَ مَعَ الصَّادِقِينَ وَ جَانِبُوا الْكَذِبَ فَإِنَّهُ مُجَانِبٌ لِلْإِيمَانِ أَلَا إِنَّ الصَّادِقَ عَلَى شَفَا مَنْجَاةٍ وَ كَرَامَةٍ و إِنَّ الْكَاذِبَ عَلَى شَفَا مَخْزَاةٍ وَ هَلَكَةٍ

[1] Qəfil ölüm, səh. 139.

-Həzrət Əli(ə) buyurur: “Doğru danışın! Çünki Allah doğruçularladır. Yalandan (yalan danışmaqdan) kənar olun. Çünki yalan imandan kənardır. Doğru danışan nicat və kəramətin sahilində, yalançı isə uçurum və ölümün astanasındadır.”[1]

**7. Yalandan and içmək**

Yalandan and içmək də ömrü azaldan günahlardandır ki, hər kim yalandan and içsə, onun da ömrü qısalar.

قَالَ رَسُولُ اللّهِ(ص): مَنْ حَلَفَ عَلَى يَمِينٍ وَهُوَ يَعْلَمُ أَنَّهُ كَاذِبٌ فَقَدْ بَارَزَ اللهَ وَ إِنَّ اليَمِين الكَاذِبة تَذَرُ الدِّيَار بَلاقِعَ مِن أَهلِهَا...

-Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəs yalan olduğunu bildiyi halda and içsə, Allaha qarşı müharibəyə qalxmışdır. Həqiqətən, yalandan and içmək evləri sahibsiz və viran qoyar.”[2]

**8. Acıdil olmaq**

Acıdil olmaq da insanın ömrünü qısaldan amillərdəndir.

قَالَ عَلِيٌّ(ع): حَدُّ اللِّسان يَقطَعُ الآجَال

-Həzrət Əli(ə) buyurur: “Acıdil olmaq ömrü qısaldır.”

**9.Qohum-əqrəba ilə əlaqə**

Qohum-əqrəba ilə əlaqələrin saxlanılması elə bir əməldir ki, hər kim bu işi görsə, onun ömrü uzun olar. Amma əksinə, qohum-əqrəba ilə əlaqəni kəsmək isə

---

[1] Yenə orada, səh. 150.
[2] Yenə orada, səh. 146.

insanın ömrünü qısaldar. Qohum-əqrəba ilə əlaqələrin saxlanılması həm Quran ayələrində, həm də bir çox hədislərdə təqdir olunmuşdur. Allah-təala “Rəd” surəsinin 25-ci ayəsində buyurur:

وَيَقْطَعُونَ مَآ أَمَرَ اللّهُ بِهِ أَن يُوصَلَ وَيُفْسِدُونَ فِي الأَرْضِ أُوْلَئِكَ لَهُمُ اللَّعْنَةُ وَلَهُمْ سُوءُ الدَّارِ

-Allahın birləşilməsinə əmr etdiyi şeyi qıran və yer üzündə fəsad törədən kəslər üçün lənət və bu dünyanın pis sonu vardır.

Şüeyb Əqərqufi həm İmam Sadiqin(ə), həm də İmam Kazımın(ə) səhabəsi olmuşdur. O deyir: “Günlərin birində Həcc ziyarətinə getmişdik. Məkkədə İmam Kazım(ə) mənə buyurdu: “Ey Şüeyb, sabah təvaf edərkən bir nəfər səninlə görüşəcək. O, atam İmam Sadiqin(ə) şiələrindən idi. Atam şəhid olduqdan sonra onun düşüncələrində bir qədər şübhələr yaranıb. Səndən mənim barəmdə soruşsa, onun cavabında belə deyərsən: Allaha and olsun ki, İmam Sadiqin(ə) təyin etdiyi İmam Musa ibn Cəfərdir. Əgər birdən mənimlə görüşmək istəsə, onu yanıma gətirərsən.”

Soruşdum: Ağa, onun əlamətlərini mənə buyura bilərsinizmi? İmam(ə) buyurdu: “Ucaboylu bir insandır. Onun adı Yaqubdur. Özü də məğrim əhalisindəndir.”

Şüeyb deyir: Səhərisi gün Kəbə evini təvaf edərkən bir nəfər arxadan əlini çiynimə qoyub soruşdu: “Sənin adın Şüeybdirmi?” Dedim: Bəli. Sən məni haradan tanıdın? Dedi: “Səni yuxuda görmüşdüm. Axtarıb bu gün tapdım səni.” Ondan soruşdum: Sənin adın Yaqubdur? Dedi: “Bəli.”

Baxıb gördüm ki, İmamın(ə) buyurduğu həmin əlamətlər onda vardır. Ona dedim: Təvafı qurtarmağıma az qalıb. Bir yerdə əyləş məni gözlə, təvafı qurtarıb gəlirəm.

Təvaf edib qartardıqdan sonra onun yanına gəldim. Bir az söhbət etdikdən sonra gördüm ki, çox alicənab və ağıllı bir insandır. Sonra o, mənə dedi: "Musa ibn Cəfəri ziyarət etmək istəyirəm." Onu götürüb İmamın(ə) yanına apardım. İmam(ə) salam və xoşgəldindən sonra üzünü Yaquba tutub buyurdu:

-Ey Yaqub! Sən dünən Mədinəyə gəldin, qardaşınla filan məhəllədə görüşdün. Lakin tutaqlaşdınız və bir-birinizi söydünüz. Siz heç bir zaman belə xoşagəlməz işlər görməməlisiniz. Söymək mənim və atalarımın üslubundan deyil və bizim şiələrimizə də yaraşmaz ki, dilə söyüş gətirsinlər.

Ey Yaqub! Bu əməlinizə görə ölüm aranıza ayrılıq salacaq. Qardaşın İshaq evinə çatmamış elə səfərdə dünyadan köçəcək. Sən də gördüyün işdən peşman olacaqsan. Allah ömrünüzü qısaldacaqdır.

Özünü itirmiş Yaqub İmamdan(ə) soruşdu: Qurbanınız olum, mənim əcəlim nə vaxt çatacaq?

İmam(ə) buyurdu: "Sənin də əcəlin çatmışdı, lakin filan yolüstü karvansarada birisinə xidmət göstərdin və hədiyyə ilə onu sevindirdin, ona görə Allah da sənin ömrünü daha 20 il uzatdı."

Yaqub İmamın(ə) onun barəsində buyurduqlarını eşidib çox təəccübləndi və başa düşdü ki, İmam Sadiqdən(ə) sonra Allahın yer üzərindəki höccəti odur."

Heyrətlə İmam Kazımın(ə) söhbətini dinləyən Şüeyb müəyyən müddətdən sonra Yaqubu Məkkədə görəndə ondan qardaşı haqda soruşdu. O da cavab verdi ki, İmam Musa ibn Cəfərin(ə) buyurduğu kimi, qardaşım evinə çatmamış (İmamın(ə) buyurduğu yerdə) rəhmətə getdi.

Elə yolda dəfn olundu və ailəsini də heç zaman görə bilmədi.[1]

[1] Qəfil ölüm, səh. 135.

**10. Sələmçilik**

İnsanın ömrünü qısaldan günahlardan biri də sələmçilikdir. Keçmiş bəhslərimizdə bu barədə çox söz açılmışdır. Qurani-Kərimdə də Allah-təala bu mənfur əməli qətiyyətlə haram etmişdir. Sələmin elə bir xasiyyəti vardır ki, qəfil ölümlərə səbəb olur.

قَالَ رَسُولُ اللّهِ(ص): إِذَا كَثُرَ الرِّبا كَثُرَ مَوتُ الفُجَاءَة

-Həzrət Peyğəmbər(s) buyurur: "Sələmçilik artdıqca qəfil ölümlər də çoxalar."[1]

Həzrət Əli(ə) buyurur: "İnsanlar üçün elə bir zaman gələr ki, neçə-neçə böyük günahlar camaat arasında yayılar:

1. Haram və qəbahətli işlər adiləşər;
2. İffət və həya pərdələri yırtılar;
3. Zina aşkar olar;
4. Sələmçilik çoxalar;
5. Tərəzidə aldadarlar (Alverçilər alanda ağır çəkib alar, satanda isə yüngül çəkib satarlar.);
6. Şərab və içki adiləşər;
7. Rüşvəti hədiyyə və şirinlik adı ilə alarlar;
8. Əmanətə xəyanət edərlər;
9. Kişilər qadın, qadınlar da kişi paltarı geyinərlər;
10. İlahi ehkama və namaza etina etməzlər;
11. Həccə Allahdan başqasına görə (ona "Hacı" desinlər deyə və ya səyahət üçün) gedərlər;
12. Yetim malı yeyilər.

Belə olduqda Allah-təala həmin cəmiyyətə iki cür bəla göndərəcək:

[1] Qəfil ölüm, səh. 122.

Birincisi budur ki, Allah onları Öz rəhmət və feyzindən məhrum edəcək. İş o yerə gəlib çatar ki, şəvval ayının əvvəli (Fitr bayramı) onlar üçün gizli qalar. Bəzən ramazan ayının axırıncı gününü yeyib bayram edərlər. Bəzən də şəvvalın birinci günü oruc tutub ikinci gününü bayram edərlər.

İkincisi isə qəfil ölümlərin çoxalmasıdır. İnsanlar zəlzələ, tufan və sel kimi bəlalara düçar olarlar.

Vəziyyətin belə olduğunu gördükdə vəsiyyətinizi yazın. Məbada vəsiyyətsiz öləsiniz. (Yəni qəfil ölüm hər an insanı yaxaladığı üçün heç bir kəsə fürsət verilməyəcək.) Namazlarınızı vaxtında qılın. Ola bilsin ki, namazın son vaxtına ömrünüz qalmasın. Dəstəmazsız yatmayın. Çünki ola bilsin ki, qəfil ölüm sizi də haqlasın. (Heç olmasa öldükdə dəstəmazsız ölməyəsiniz.)”[1]

Hədisdə qeyd olunan günahlar cəmiyyətdə yayılıb artdıqca, bəlalar və qəfil ölümlər də çoxalacaqdır. Buna görə də Həzrət Əli(ə) möminlərə bu bəlalar zamanı hansı işləri görməyi tövsiyə etmişdir. Çünki cəmiyyətə bəla və qəfil ölümlər nazil olarkən hamını öz ağuşuna alacaqdır.

Beləcə, biz insanın ömrünü artırıb-azaldan səbəblərlə tanış olduq. Ola bilər ki, bir insan dünyaya gələrkən onun üçün 50 illik bir ömür müəyyən olunmasına baxmayaraq, cəmisi 90 il yaşamış olsun. Həmçinin mümkündür ki, bir nəfər üçün 80 illik ömür yazılmasına baxmayaraq, 20 yaşındaca dünyadan getsin. Deməli, insanın ömrünü artırıb-azaldan əməllər onda öz təsirini göstərmiş ola bilər.

---

[1] Gəncineyi-məarif, 3-cü cild, səh.384.

**Necə öləcəyik?**

İnsanın bu dünyada az və çox, yaxud pis və yaxşı yaşamasına baxmayaraq, onu maraqlandıran suallardan biri də necə öləcəyi məsələsi ilə bağlıdır. Bu sualın cavabında demək olar ki, ümumiyyətlə, insanın necə ölməsi iki cürdür. Onlardan biri ölməyin zahiri, digəri isə batini formasıdır. Bu iki cür ölmək insan üçün qaranlıqdır. Yəni insan həm zahiri, həm də batini formada necə öləcəyini bilmir.

Ölməyin zahiri forması odur ki, insan xəstəliklə, başqalarının əli ilə (qətl edilməklə) və zəlzələ, sel və tufan kimi təbii hadisələr nəticəsində dünyasını dəyişə bilər. Amma hansı halda öləcəyi yenə də insana qaranlıq olaraq qalır.

Ölməyin batini forması isə budur ki, ruhun bədəndən ayrılması iman və yaxud küfrlə olacaq. Yəni insan ölən zaman küfr, nifaq, iman halında öləcəyini də bilmir. Əgər iman halında dünyasını dəyişirsə, imanın hansı dərəcəsində öləcəyi də ona bəlli deyil. Allah-təala "Ali-İmran" surəsinin 102-ci ayəsində belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اتَّقُواْ اللّهَ حَقَّ تُقَاتِهِ وَلاَ تَمُوتُنَّ إِلاَّ وَأَنتُم مُّسْلِمُونَ

-Ey iman gətirənlər, Allahdan Ona layiq olan tərzdə qorxun və yalnız müsəlman olaraq ölün.

Allah-təala bu ayədə mömin və təqvalı insanlarla söhbət edir. İnsan üçün təqvalı olmaq təbiidir ki, çox böyük zəhmət tələb edir, amma təqvanı qoruyub saxlamaq, təqvalı qalmaq isə daha çətindir. Tarix boyu çox insanlar olub ki, imanlı və təqvalı yaşamalarına baxmayaraq, sonda şeytanın hiylələrinə aldanaraq dünyadan təqvasız halda gediblər.

Ölümün zahiri formasının bir mənası da vardır. Sual olunur ki, hansı növ ölüm insanın özü və yaxud ailəsi

üçün fəxr hesab olunur? Həmçinin hansı növ ölümlər insanın özü və ailəsi üçün bir ləkə sayılır? Bu məsələ ölümün zahiri formasının bir mənasıdır ki, sual olunur.

Həmin sualın cavabında deyə bilərik ki, insanın əcəli iki qisimdir: müsəmma və müəlləq əcəl. Ötən bəhslərimizdə əcəli-müsəmma barədə müəyyən qədər söhbət etdik. Həmçinin misal olaraq qeyd olundu ki, zavodlardan birində neft lampası istehsal edilir. Həmin lampanın istifadə qaydası belədir ki, möhkəm külək, güclü yağış olmasa, lampadakı 2 litr neft 20 saat yana bilər. Amma əgər möhkəm külək əssə, güclü yağış yağsa, yaxud lampa deşilib nefti yerə tökülsə, onun yanması üçün nəzərdə tutulan müddət tez başa çatacaq. Əgər qeyd olunan bu hadisələr baş verməsə, təbii surətdə həmin çıraq 2 litr neftlə 20 saat yanacaqdır. Onun hansısa hadisələrə görə 20 saatdan az yanıb qurtarmasına müəlləq deyilir. Yəni vaxtından tez yanıb qurtarmışdır. Deməli, həmin çıraq öz qaydası ilə yanıb qurtarsa və heç bir hadisə ilə qarşılaşmasa, buna əcəli-müsəmma deyilir. Yox, əgər onun üçün nəzərdə tutulan müddət qurtarmamış hansısa bir hadisə nəticəsində xarab olub sönsə, buna əcəli-müəlləq deyilir.

## Müəlləq əcəlin növləri

Müəlləq əcəlin özünün də beş növü vardır. Burada çox yaxşı olar ki, həmin əcəlin növləri ilə tanış olaq:

### 1. İxtirami ölüm

“İxtiram” sözünün iki mənası vardır. Bininci mənası “həlak olmaq” deməkdir. Məsələn, “uxturimə filanun” – “filankəs həlak oldu”. Burada fərqi yoxdur ki, insan ürək-damar çatışmazlığı, xərçəng, böyrək çatışmazlığı və s.

xəstəliklərlə, yaxud yol qəzası, sel, zəlzələ və s. kimi təbii fəlakətlər nətisəcində həlak olsun. Bu kimi ölümlərə ixtirami ölüm deyilir. Belə ölmək insan üçün fəxr hesab olunmur. Həmçinin belə ölümün məzəmmət yeri də yoxdur. Əgər bir insan ürək-damar çatışmazlığı nəticəsində ölürsə, belə ölməyə görə fəxr etməyin yeri yoxdur. Məsələn, bir insan deyə bilməz ki, atam ürək-damar çatışmazlığı nəticəsində öldüyü üçün mən fəxr edirəm. Yaxud atasının belə bir vəziyyətdə öldüyündən xəcalət çəkib özünü narahat etməyin də yeri yoxdur. İxtirami ölüm üçün fəxr və ya məzəmmət etmək mümkün deyildir. Adətən, ölümlərin çoxu belədir. Fərqi yoxdur, ixtirami ölümdə insan özü ölmüş olsun, yaxud öldürülmüş olsun.

İxtirami ölümün ikinci mənası isə budur ki, qırx yaşından aşağı olsun. Yəni əgər bir insan qırx yaşına çatmamışdan qabaq ölsə, bu ölüm onun üçün ixtirami ölüm sayılır.

قَالَ البَاقِرُ(ع): مَن مَاتَ دُونَ الأَربَعِين فَقَد أُخترِمَ

-İmam Baqir(ə) buyurur: “Kim qırx yaşına çatmadan əvvəl ölsə, bu, ixtirami ölmüşdür.”[1]

Yenə də fərqi yoxdur ki, insan qırx yaşından qabaq sel, zəlzələ və s. kimi təbii hadisələr nəticəsində, yaxud yol qəzası hadisəsində, eləcə də müxtəlif xəstəliklər nəticəsində ölmüş olsun. Bütün bunların hamısı ixtirami ölüm sayılır.

### 2. Qırmızı ölüm

[1] Qəfil ölüm, səh. 69.

Müəlləq əcəlin ikinci növü qırmızı ölümdən ibarətdir. Ölümün bu növü insan üçün fəxr hesab olunası bir ölümdür. Qırmızı ölümün mənası budur ki, insan müqəddəs bir hədəf uğrunda öldürülmüş olsun. Belə bir ölüm insan üçün şərəf və aqibətinin xoş olması deməkdir. Qırmızı ölüm insanın ailəsinə izzət və fəxr bəxş edir. Bu ölüm insanın aqibətinin xoşbəxtliyidir. Qırmızı ölüm şəhidlikdir. Bu növ ölümün özü də iki növdür.

Birinci növü budur ki, məsələn, bir insan Vətən uğrunda döyüşüb öldürülür. Adının həmişə yaşaması üçün Vətənin torpağını, namus və malını müdafiə etmək uğrunda döyüşüb öldürülürsə, bu insan qəhrəman sayılır. Onun adı tarixə yazılır və o, qəhrəman olur. Bu növ ölüm həm onun özü üçün, həm də ailəsi üçün fəxrdir.

Qırmızı ölümün ikinci növü isə tamamilə başqa bir ölümdür. Fərqi yoxdur ki, insan istər Vətən yolunda, istər namus, istərsə də din yolunda döyüşüb öldürülsün. Amma Vətənin torpağına görə yox, Allahın əmrini hər şeydən üstün tutub yalnız ona xatir döyüşsə və öldürülsə, belə bir insanın şərafəti daha üstündür. Yəni müsəlman öz torpağını, namusunu, dinini qorumasını Allahın əmri bilib, yalnız Ona xatir niyyət edərək bu yolda döyüşüb öldürülsə, deməli, Allahla özü arasında xüsusi bir hesab açmışdır. İslamda belə insanlar şəhid adlanır. Şəhid dini bir məsələdir. Əgər bir insanın Vətəni, namusu qoruması Allaha xatir olsa və o, bu yolda öldürülsə, İslam həmin şəxsə şəhid adı verir.

قَالَ رَسُولُ اللّهِ(ص): فَوْقَ كُلِّ ذِى بِرٍّ بِرٌّ حَتَّى يُقْتَلَ الرَّجُلُ فِى سَبِيلِ اللَّهِ فَإِذَا قُتِلَ فِى سَبِيلِ اللَّهِ فَلَيْسَ فَوْقَهُ بِرٌّ

-Həzrət Peyğəmbər(s) buyurur: "İnsanın Allah yolunda öldürülməsi həddinə qədər hər yaxşılıqdan üstün yaxşılıq vardır. Beləliklə, insan Allah yolunda öldürülərsə, bundan üstün (və dəyərli) yaxşılıq olmaz."[1]

Bu hədisdə çox açıq-aydın şəkildə bəyan olunur ki, insanın təsəvvür etdiyi hər bir yaxşılıqdan üstün yaxşılıq var, amma Allah yolunda şəhid olmaqdan üstün heç bir yaxşılıq yoxdur. Şəhid olmaqda ən ümdə məsələ niyyət və Allahın rizayətidir. İmam Hüseynin(ə) bütün işləri və şəhid olması Allahın rizayəti əsasında idi. İmam Hüseyn(ə) Məkkədən hərəkət edərkən siyasətçilər ona getməməyi məsləhət gördülər. İmam(ə) isə buyurdu: "Siz elə bilirsiniz ki, mən getdiyim yerin hara olduğunu və başıma nələr gələcəyini bilmirəm? Elə güman edirsiniz ki, mən bütün bunları siyasi cəhətdən təhlil edə bilmirəm? Bütün bunların hamısını bilməklə yanaşı, barmaqlarımın arasından görürəm ki, Kufənin ac canavarları öz qarınlarını mənim bədənimin əti ilə doyururlar. Sabah mənim başıma nələr gələcəyini indidən görürəm. Başımın nizənin üstündə "Kəhf" surəsini oxuduğunu, ailəmin dəvələrin üstündə əsir aparıldığını indidən görürəm. Allahım iradə etmişdir ki, məni qanıma boyanmış və ailəmi də əsir düşmüş görsün. Əgər bütün bu işlər Allahın rizayəti üçündürsə və Allah bunu məndən istəyirsə, bunun qarşısında nə sözünüz ola bilər?"

Torpaq, Vətən və namus insan üçün şərəfdir. Bu yolda ölmək də şərəfdir. Amma bütün bunlar Allahın rizayətinə görə qorunarsa və insan Onun razılığı əsasında döyüşüb öldürülərsə, şəhiddir.

---

[1] Üsuli-Kafi, 4-cü cild, səh. 50.

## Şəhidlər diridir və onlara Allah yanında ruzi verilir

Allah yolunda öldürülmək, şəhid olmaq insan üçün ən böyük şərafətdir. Allah-təala insanlara başa salır ki, şəhid olanları ölü zənn etməyin. "Ali-İmran" surəsinin 169-cu ayəsində belə buyurulur:

وَلاَ تَحْسَبَنَّ الَّذِينَ قُتِلُواْ فِي سَبِيلِ اللّهِ أَمْوَاتًا بَلْ أَحْيَاء عِندَ رَبِّهِمْ يُرْزَقُونَ

-Allah yolunda öldürülənləri əsla ölü zənn etməyin, əksinə, onlar diridirlər və onlara Rəbbi yanında ruzi verilir.

Əgər bir insan dünyasını dəyişirsə, ruzisi də kəsilir. Şəhid olanlar isə dünyalarını dəyişmələrinə baxmayaraq, həm diridirlər, həm də onlara ruzi verilir. Qeyd olunan ayə Abdullah Ənsari barəsində nazil olmuşdur. O, Cabirin atası idi. Cabir Həzrət Peyğəmbərin(s) ən çox ömür sürən səhabəsi olmuşdur. Abdullah Ənsari Həzrət Peyğəmbərin(s) səhabələrindən biri idi. Hicrətin ikinci ilində Bədr müharibəsi baş verdi. Mübəşşir ibn Münzər həmin döyüşdə şəhid oldu. O, şəhid olduqdan sonra hicrətin 3-cü ilində Ühüd müharibəsi baş verdi. Bu müharibədən bir neçə gün öncə Abdullah Ənsari Mübəşşiri yuxuda görür. Cənnətin naz-nemətləri içərisində yaşayan Mübəşşir ibn Münzər ona baxıb deyir: "Abdullah, cənnətə necə də həsrətlə baxırsan. Amma bilirəm ki, bir neçə gündən sonra sən də burada olacaqsan. Abdullah soruşur: Sən indi haradasan? Mübəşşir deyir: Mən hazırda cənnətdəyəm və istədiyim yeri də seyr edirəm. Abdullah soruşur: Sən Bədr döyüşündə şəhid olmadınmı? Mübəşşir deyir: Mən həmin döyüşdə öldürüldüm. Amma Allah-təala məni burada diriltdi." Abdullah daha sonra deyir: "Həyəcanlı halda yuxudan oyanıb Həzrət Peyğəmbərin(s) hüzuruna gəldim. Gördüyüm

yuxunu Həzrətə(s) danışdım. Həzrət Peyğəmbər(s) mənə buyurdu: Ey Cabirin atası, bu yuxu sənin şəhid olacağından xəbər verir.”

Bu hadisənin üstündən bir neçə gün keçmişdi ki, Ühüd müharibəsi baş verdi və Abdullah Ənsari ilə Əmr ibn Cəmuh həmin döyüşdə şəhid oldular. Onların bədənlərinə o qədər qılınc zərbəsi vurulmuşdu ki, yerdən götürmək belə mümkün deyildi. Bədənləri tikə-tikə olmuşdu. Həzrət Peyğəmbər(s) göstəriş verdi ki, onların ikisini də bir qəbirdə dəfn etsinlər.[1]

Cabir atasının ölüm xəbərini eşidib ağladı. Həzrət Peyğəmbər(s) Cabirə buyurdu: “Bilmək istəyirsənmi, Allah sənin atanla nə söhbət edir? Cabir ərz etdi: Bəli, ya Rəsulallah, istəyirəm. Peyğəmbər(s) buyurdu: Atan şəhid olduqdan sonra onu cənnətə apardılar. Allah-təala ona buyurdu: Hər nə istəyin varsa, dilə Məndən. Abdullah dedi: “İlahi, məni dünyaya qaytar, gedim Həzrət Peyğəmbərin(s) hüzurunda bir də şəhid olum. İstəyirəm ki, bir daha şəhadət feyzinə nail olum.” Allah-təala ona xitab edərək bildirdi ki, əgər bir insan dünyasını dəyişərsə, onu bir daha dünyaya qaytarmaram. Məndən başqa bir şey dilə. Cabir dedi: “İlahi, onda mənim buradakı məqamımı və naz-nemətin mənə aid olduğunu ailəmə və mənim barəmdə narahat olanlara çatdır. Qoy onlar bilsinlər ki, mən burada hansı cah-cəlalın içindəyəm.”

Həzrət Peyğəmbər(s) buyurdu: Ey Cabir, atan Allahdan bunu istədikdən sonra Allah-təala bu ayəni nazil etdi:

وَلاَ تَحْسَبَنَّ الَّذِينَ قُتِلُواْ فِي سَبِيلِ اللّهِ أَمْوَاتًا بَلْ أَحْيَاء عِندَ رَبِّهِمْ يُرْزَقُونَ

[1] Səfinətül-bəhar, 2-ci cild, səh. 259.

-Allah yolunda öldürülənləri əsla ölü zənn etmə, əksinə, diridirlər və onlara Rəbbi yanında ruzi verilir."

Bu, şəhidə verilən qiymət və əzəmətdir. Allahın dinini, Vətənini və namusunu qorumaq uğrunda, eləcə də Allah rizası üçün canını qurban verən insanlar barəsində Allah-təala Qurani-Kərimin "Ali-İmran" surəsinin 195-ci ayəsində belə buyurur:

فَالَّذِينَ هَاجَرُواْ وَأُخْرِجُواْ مِن دِيَارِهِمْ وَأُوذُواْ فِي سَبِيلِي وَقَاتَلُواْ وَقُتِلُواْ لأُكَفِّرَنَّ عَنْهُمْ سَيِّئَاتِهِمْ وَلأُدْخِلَنَّهُمْ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ ثَوَابًا مِّن عِندِ اللّهِ وَاللّهُ عِندَهُ حُسْنُ الثَّوَابِ

-Odur ki, hicrət edən, öz evlərindən qovulan, Mənim yolumda əzab-əziyyət görən, döyüşən və öldürülən kəslərin pisliklərini (pis əməl və günahlarını) mütləq təmizləyəcək və onları (evlərinin və ağaclarının) altından çaylar axan cənnətlərə daxil edəcəyəm. (Bu,) Allah tərəfindən bir mükafatdır. Gözəl mükafat yalnız Allahın yanındadır.

Allah-təala şəhidə böyük əcr və mükafat verəcək. "Nisa" surəsinin 74-cü ayəsində belə oxuyuruq:

فَلْيُقَاتِلْ فِي سَبِيلِ اللّهِ الَّذِينَ يَشْرُونَ الْحَيَاةَ الدُّنْيَا بِالآخِرَةِ وَمَن يُقَاتِلْ فِي سَبِيلِ اللّهِ فَيُقْتَلْ أَو يَغْلِبْ فَسَوْفَ نُؤْتِيهِ أَجْرًا عَظِيمًا

-Odur ki, gərək dünya həyatını axirətə satan kəslər Allah yolunda vuruşsunlar. Kim Allah yolunda vuruşaraq öldürülsə, yaxud qalib gəlsə, tezliklə ona böyük bir mükafat əta edəcəyik.

İmam Rza(ə) buyurur: "Həzrət Əli(ə) ordunu Siffeyn müharibəsinə hazırlamaq üçün bir xütbə oxuyaraq camaatı döyüşə həvəsləndirirdi. Xütbədən sonra bir nəfər cavan

oğlan ayağa qalxıb Həzrət Əlidən(ə) Allah yolunda cihad edən və şəhid olanın fəzilətləri barədə soruşdu. Həzrət Əli(ə) buyurdu: “Biz Peyğəmbərin(s) hüzurunda olarkən mən də bu sualı Həzrətə(s) vermişdim. Həzrət Peyğəmbər(s) bu sualın cavabında belə buyurdu:

إِنَّ الْغُزَاةَ إِذَا هَمُّوا بِالْغَزْوِ كَتَبَ اللَّهُ لَهُمْ بَرَاءَةً مِنَ النَّارِ

-Döyüşçü Allah yolunda cihad etmək üçün döyüşə sarı hərəkət etdikdə, Allah- təala ona cəhənnəm odundan bəraət yazar.

فَإِذَا تَجَهَّزُوا لِغَزْوِهِمْ بَاهَى اللَّهُ بِهِمُ الْمَلَائِكَةَ

-Silahını götürüb döyüşə hazırlaşarkən Allah-təala mələklərin içərisində onunla fəxr edər.

فَإِذَا وَدَّعَهُمْ أَهْلُوهُمْ بَكَتْ عَلَيْهِمُ الْحِيطَانُ وَ الْبُيُوتُ وَ يَخْرُجُونَ مِنْ ذُنُوبِهِمْ كَمَا تَخْرُجُ الْحَيَّةُ مِنْ سِلْخِهَا...

-Öz ailəsi ilə vidalaşıb qapıdan çıxarkən, ilan qabığından çıxdığı kimi, bütün günahlarından eləcə təmizlənər.

فَإِذَا صَارُوا بِحَضْرَةِ عَدُوِّهِمِ انْقَطَعَ عِلْمُ أَهْلِ الدُّنْيَا عَنْ ثَوَابِ اللَّهِ إِيَّاهُمْ...

-Düşmənə yaxınlaşan zaman Allahın onun üçün yazdığı savabın sayını heç kəs bilməz.

وَ إِذَا بَرَزُوا لِعَدُوِّهِمْ وَ أُشْرِعَتِ الْأَسِنَّةُ وَ فُوِّقَتِ السِّهَامُ وَ تَقَدَّمَ الرَّجُلُ إِلَى الرَّجُلِ، حَفَّتْهُمُ الْمَلَائِكَةُ بِأَجْنِحَتِهِمْ وَ يَدْعُونَ اللَّهَ تَعَالَى لَهُمْ بِالنَّصْرِ وَ التَّثْبِيتِ

-Düşmənlə mübarizə etmək üçün nizəsini əlində möhkəm tutub, oxlarını kamana qoyub atan zaman və

döyüşçülər düşmənə hücum etmək üçün bir-birini ötən zaman mələklər öz qanadlarını onlara sarıyar və onların dözümlü və sabitqədəm olması üçün Allaha dua edərlər.

وَ نَادَى مُنَادٍ: الْجَنَّةُ تَحْتَ ظِلَالِ السُّيُوفِ، فَتَكُونُ الطَّعْنَةُ وَ الضَّرْبَةُ أَهْوَنَ عَلَى الشَّهِيدِ مِنْ شُرْبِ الْمَاءِ الْبَارِدِ فِى الْيَوْمِ الصَّائِفِ

-Carçı car çəkib "Cənnət qılıncların kölgəsi altındadır," - xəbərini uca səslə başqalarına yetirəndə şəhidə dəyən qılınc zərbələri və nizə yaraları onun üçün yayın istisində içilən sərin sudan daha xoş olar.

فَإِذَا وَصَلَ إِلَى الْأَرْضِ تَقُولُ لَهُ: مَرْحَباً بِالرُّوحِ الطَّيِّبَةِ الَّتِى خَرَجَتْ مِنَ الْبَدَنِ الطَّيِّبِ، أَبْشِرْ فَإِنَّ لَكَ مَا لَا عَيْنٌ رَأَتْ وَ لَا أُذُنٌ سَمِعَتْ وَ لَا خَطَرَ عَلَى قَلْبِ بَشَرٍ، وَ يَقُولُ اللَّهُ عَزَّوَجَلَّ: أَنَا خَلِيفَتُهُ

-Şəhid yerə yıxıldıqdan və canını tapşırdıqdan sonra yer ona belə deyər: "Mərhəba, pak bədəndən çıxmış pak ruha! Müjdə olsun sənə! Sənə elə bir şey verəcəklər ki, heç bir göz onu görməyib, heç bir qulaq onun barəsində eşitməyib və heç bir qəlb onu hiss etməyib."

...وَإِذَا كَانَ يَومُ القِيَامَة، يَخْرُجُ مِن قَبرِهِ شَاهِراً سَيفَه وَ تَشخَبُ أَودَاجُهُ دَماً، وَاللَّونُ لَونُ الدَّم، وَالرَّائِحَةُ رَائِحَةُ الْمِسك... فَوَالَّذِي نَفسِي بِيَدِهِ، لَوكَانَ الأَنبِيَاءُ عَلى طَرِيقِهِم لَتُرَجِّلُوا لِمَا يَرَونَ مِن بَهَائِهِم... وَيَشفَعُ الرَّجُل مِنهُم سَبعِينَ أَلفاً مِن أَهلِ بَيتِهِ وَجِيرَتِهِ، أَنَّ الْجَارِينَ يَختَصِمَانِ أَيُّهُمَا أَقرَب، فَيقعُدُونَ مَعهُ وَمَعَ إِبرَاهِيم عَلَى مَائِدَةِ الْخُلدِ، فَينظُرُون إِلَى اللهِ تَعَالَى بُكرَةٍ وَعَشِيّةٍ

-Qiyamət baş verən zaman (şəhid) qılıncı əlində yaralarından qan axdığı halda qəbirdən çıxar. Onun yaralarından axdığı qanın rəngi qırmızı olmasına baxmayaraq, ondan müşk ətri ətrafa yayılar... And olsun canım əlində olan Allaha, o (şəhid) cənnətə getdiyi yolda hər hansı bir peyğəmbərlə qarşılaşdıqda həmin peyğəmbər öz miniyindən enib ona ehtiram göstərər. Hər bir şəhidə öz ailəsindən və qonşularından yetmiş min nəfərə şəfaət etməyə icazə veriləcək. Orada onun dünyadakı qonşuları hansının ona yaxın qonşu olması barədə bir-biri ilə höccət edəcəklər. Beləliklə, həmin şəhid şəfaət etdiyi yetmiş min nəfərlə və Həzrət İbrahim Peyğəmbərlə(ə) birgə əbədiyyət süfrəsinin kənarında əyləşəcəklər. Onlar hər sübh və axşam Allahın əzəmətini görəcəklər.[1]

Hədisdə sadalanan bütün bu şərafət və fəzilətlərin hamısı Allah yolunda cihad edən insana aiddir. Həzrət Peyğəmbər(s) Allah yolunda döyüşən və şəhid olan insanın savab və üstünlüklərindən danışdıqca ona iman gətirən insanlar şəhid olmaq üçün daha da həvəslənir, bu yolda bir-birini ötməyə çalışırdılar. Tarixə nəzər saldıqda görürük ki, Bədr və Ühüd kimi döyüşlərdə Həzrət Peyğəmbərin(s) səhabələri bu yolda öndə getmək üçün bir-biri ilə yarışırdılar. İslam döyüşlərində ata-bala arasında mübahisə düşürdü ki, kim döyüşə getməlidir.

Bədr müharibəsi elan olunduqda Xeysəmə oğlu Sədə dedi: “Oğlum, sən qal evdə, mən gedim Həzrət Peyğəmbərə(s) kömək edim. Oğlu isə deyirdi: Atacan, sən evdə qal, ailəni dolandır və icazə ver, mən gedim.” Beləcə, mübahisə etdikdən sonra onlar püşk atmalı

---

[1] Məcməül-bəyan, 2-ci cild, səh. 538.

oldular. Püşk atdıqda oğlanın xeyrinə düşdü. Səd atasının gözlərindən öpüb onun razılığını aldıqdan sonra müharibəyə hazırlaşdı. Ata öz oğlunu döyüş meydanına yola salır. Səd döyüşə gedib şəhid olur. Şəhid olduqdan sonra gecələrin birində atası onu yuxuda görür. Oğlu atasına deyir: "Gəlin, cənnətdə siz də bizə qoşulun. Atacan, burada Allahın bizə verdiyi vədlərin hamısının həqiqət olduğunu gördüm." Xeysəmə yuxudan ayılıb ağlayır. Səhərisi gün Həzrət Peyğəmbərin(s) hüzuruna gəlib deyir: "Ya Rəsulallah, gözümü cənnətdə ona qovuşmaq həvəsilə açmışam. Mənim yaşım artıb, sümüklərim zəifləmişdir. Allahın görüşünə getməyi çox sevirəm. Xahiş edirəm dua et, Allah mənə şəhadət nəsib etsin". Həzrət Peyğəmbər(s) görür ki, kişi çox səbirsiz halda onun yanına gəlib. Odur ki, Həzrət Peyğəmbər(s) onun üçün dua edir və heç bir il də keçmir ki, Xeysəmə Ühüd müharibəsində şəhid olur.[1]

Şəhidlik Həzrət Peyğəmbəri(s), Həzrət Əlini(ə) və Əhli-beyti(ə) sevənlərin məktəbidir. Düşmən həmişə Əhli-beyt(ə) tərəfdarlarına ölümlə hədə-qorxu gəlməyə çalışmışdır. Lakin Əhli-beyti(ə) sevənlər ölümü özlərinə şərəf bilirlər. Həmişə ölümü axtarmış və şəhadətə can atmışlar. Çünki bilirlər ki, şəhid olduqdan sonra cənnətə gedəcəklər, Həzrət Peyğəmbərə(s) və Əhli-beytə(ə) qovuşacaqlar. Şəhidlik elə bir kəsin yoludur ki, Allah-təala onu yer üzündə insanlara nümunə və höccət qərar vermişdir. Həzrət Əli ibn Əbu Talib(ə) ölümün gözünə düz baxan, həmişə ölümü özünə xoşbəxtlik bilən bir şəxsiyyət olmuşdur. Həzrət Əli(ə) belə buyurmuşdur: "And

---

[1] Şəhidliyin qırmızı xətti, səh. 31.

olsun Allaha, Əbu Talib oğlunun ölümə meyli südəmər uşağın anasının döşünə olan meylindən daha artıqdır.”

Həzrət Əli(ə) “Nəhcül-bəlağə”nin 62-ci məktubunda buyurur:

إِنِّي وَاللهِ لَوْ لَقِيتُهُمْ وَاحِداً وَهُمْ طِلاَعُ الْأَرْضِ كُلِّهَا مَا بَالَيْتُ وَلاَ اسْتَوْحَشْتُ، وَإِنِّي مِنْضَلاَلِهِمُ الَّذِي هُمْ فِيهِ وَالْهُدَى الَّذِي أَنَا عَلَيْهِ لَعَلى بَصِيرَةٍ مِنْ نَفْسِي وَيَقِينٍ مِنْ رَبِّي وَإِنِّي إِلَى لِقَاءِ اللهِ لَمُشْتَاقٌ، وَحُسْنِ ثَوَابِهِ لَمُنْتَظِرٌ رَاجٍ

-And olsun Allaha ki, əgər mən onlarla *(Müaviyə və onun qoşunu ilə)* təkbaşına qarşılaşsam və onlar *(öz çoxluqları ilə)* bütün yer üzünü doldursalar, *(qətiyyən heç nədən)* çəkinməz və qorxmaram. Mən onların düçar olduqları azğınlıqlar və özümün hidayət və nicat yolunda olmağım barəsində öz tərəfimdən bəsirətə, Rəbbim tərəfindən isə yəqinlik və inama malikəm. Allahla görüşü *(Onun yolunda öldürülməyi)* arzulayır və ümidvarcasına Onun gözəl savabını gözləyirəm.

Həzrət Əli(ə) kimi bir şəxsiyyəti və onun yolunu tutan insanları nə ilə qorxutmaq olar? Əgər bir insan şəhadəti özünə şərəf bilirsə, hər an ölümünü gözləyirsə və heç bir şeydən qorxmursa, belə bir insanı ölümlə hədələmək mümkündürmü? Əlbəttə ki, bu, mümkün deyildir.

Aşura günü İmam Hüseyn(ə) qətl olunduğu yerə düşmüşdü. Ürəyindən axan qanı ovcuna doldurub üzünə sürtərək buyurdu:

هَكَذا وَاللهِ أَكُونُ حَتَّى أَلْقَى جَدِّي رَسُولَ الله وَ أَنَا مَخْضُوبٌ بِدَمِي وَ أَقُولُ: يَا رَسُولَ الله قَتَلَنِي فُلانٌ فُلانٌ

-And olsun Allaha, cəddim Rəsulallahı bu halda ziyarət edəcəyəm. Mən öz qanıma boyanmış halda Peyğəmbərə belə deyəcəyəm: Ya Rəsulallah, məni filankəs, filankəs… öldürdü. [1]

**3. Qətl**

Müəlləq əcəlin zahiri formasının üçüncü növü insanın qətl və cinayət yolu ilə öldürülməsidir. Qətl təbii ölüm hesab olunmur və bir nəfərin digərini öldürməsi kimi başa düşülür. Əlbəttə, burada söhbət cinayət xarakterli qətldən gedir. Cinayət xarakterli ölüm iki cürdür. Biri budur ki, insan cinayət edərək kimisə öldürür. Digəri isə budur ki, cinayətkar özü öldürülür. Bunların hər ikisi pis ölümdür. Qatilin cinayət törətməsi fərdi bir hal olduğundan bunun dinə-məzhəbə, iman və ölkəyə heç bir aidiyyəti yoxdur. Məsələn, fərz edək ki, bir oğlan bir qızı sevir. Digər bir oğlan da həmin qızı istəyir. Onlardan biri bilir ki, həmin qızı ona verməyəcəklər. Ona görə də öz nəfsinin istəklərinə uyub məqsədinə çatmaq üçün digər oğlanı vurub öldürür. Burada cinayəti törədən şəxs qatil hesab olunur. Öldürülənin isə bu vəziyyətdə heç bir günahı yoxdur. Dünyada istənilən qədər bu kimi cinayətlər baş verir. Hətta bir sıra romanlarda isə belə cinayətlər qələmə alınır.

Başqa bir misala diqqət yetirək. Məsələn, ailəli bir qadın başqa kişi ilə tanış olaraq onunla görüşməyə başlayır. Amma onun ərinin bundan heç bir xəbəri yoxdur. Onun xəbəri olduqda isə vəziyyətin çox acınacaqlı

[1] Şəhidliyin qırmızı xətti, səh. 31.

olacağını başa düşən qadın görüşdüyü kişi ilə məqsədlərinə çatmaq üçün plan qurub ərini öldürürlər.

Dünyada bəzən şəhvətə, bəzən pula, bəzən də siyasi məsələlərə görə törədilən kifayət qədər qətl hadisələri müşahidə olunmuşdur. Məsələn, iki nəfər şərik işləyib pul qazanırlar. Onlardan biri pula tamah salıb öz şərikinin qatili olur. Həmçinin, vəzifə üstündə qardaş öz qardaşının qanına bais olur.

Bir sözlə, bir insan müxtəlif səbəblərə görə digərinin qatilinə çevrilir. Bu kimi qətllər cinayətdir və burada öldürülən insanın günahı yoxdur. Amma bəzən cinayətkarın özü öldürülür. Məsələn, hər hansı bir vasitə ilə öz canına qəsd edərək intihar edir. Yəni öldürülən insanın qatili özüdür. Yaxud məsələn, maşın sürərkən yol hərəkəti qaydalarına əməl etməməyin nəticəsində qəza törədərək həm özünün, həm də başqalarının ölümünə səbəb olur. Burada da günahkar onun özüdür. Hər hansı bir yerdə insan öz ölümünə səbəb olursa, günahkar və cinayətkardır. Bu cinayətdə də qatil həmin şəxsin özüdür.

**4. Qisas**

Müəlləq əsəlin beşinci növü isə qisasdır. Qisas odur ki, bir insan digər bir insanı öldürür və məhkəmə də onun ölümünə hökm verir. Ümumiyyətlə, qisas məsələsi geniş bir mövzudur. Həm Quran ayələrində, həm hədislərdə, həm də fiqh elmində qisas haqqında geniş məsələlər bəyan olunmuşdur. Burada qisas barəsində bir neçə ayə və elmi müzakirələri nəzərinizə çatdırmaq istərdim. Həmçinin bəzi müsəlmanların və qeyrilərinin qisas məsələsi ilə bağlı tutduqları iradlara cavab verməyi zəruri hesab edirəm. Əlbəttə, bunu da qeyd etmək lazımdır ki, bizim bu bəhsimiz ümumi şəkildə sırf dini-elmi cəhətdən müzakirə

olunur. Hər bir ölkənin qanunu özünə möhtərəmdir. Bizim bu söhbətimiz siyasi və ictimai xarakterli deyil. Sadəcə olaraq Quranın bu barədə elmi cəhətdən bəyan etdiyi ayələri diqqətinizə çatdırıram. Allah-təala "Bəqərə" surəsinin 178-179-cu ayələrində möminlərə xitab edərək belə buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُتِبَ عَلَيْكُمُ الْقِصَاصُ فِي الْقَتْلَى الْحُرُّ بِالْحُرِّ وَالْعَبْدُ بِالْعَبْدِ وَالأُنثَى بِالأُنثَى فَمَنْ عُفِيَ لَهُ مِنْ أَخِيهِ شَيْءٌ فَاتِّبَاعٌ بِالْمَعْرُوفِ وَأَدَاء إِلَيْهِ بِإِحْسَانٍ ذَلِكَ تَخْفِيفٌ مِّن رَّبِّكُمْ وَرَحْمَةٌ فَمَنِ اعْتَدَى بَعْدَ ذَلِكَ فَلَهُ عَذَابٌ أَلِيمٌ. وَلَكُمْ فِي الْقِصَاصِ حَيَاةٌ يَاْ أُولِيْ الأَلْبَابِ لَعَلَّكُمْ تَتَّقُونَ

-Ey iman gətirənlər, sizə (qəsdən) öldürülənlər barəsində qisas (hökmü) yazılmış və qərara alınmışdır: azad şəxsin müqabilində azad, qulun müqabilində qul və qadının müqabilində qadın. Beləliklə kim (hər hansı bir qatil) öz (din) qardaşı (öldürülənin qəyyumu) tərəfindən müəyyən qədər əfv olunsa (qəyyum bütün qisas haqqını, yaxud onun bir hissəsini bağışlasa və ya onu qanbahası ilə əvəz etsə), onda (əfv edən tərəf qalan hissələr barəsində, ya diyənin alınmasında) bəyənilən bir yol seçməlidir və (qatil də) diyəni ona yaxşılıqla (xoşluqla), gözəl surətdə ödəməlidir. (Yerinə yetirilməsi eyni ilə zəruri deyil, seçimlə ixtiyari olan) bu (qisas hökmü), sizin Rəbbiniz tərəfindən bir yüngüllük və rəhmətdir. Odur ki, kim əfv etdikdən sonra həddini aşsa (qatili öldürsə), onun üçün ağrılı bir əzab vardır.

Ey ağıl sahibləri, qisasda sizin üçün həyat vardır (cəmiyyətin həyatı qisas hökmünün həyata keçirilməsindədir), (ki) bəlkə (nahaq qanlar axıtmaqdan) çəkinəsiniz.

Qeyd olunan ayələrdə Allah-təala qisas hökmünü İslam ümməti üçün qərara almışdır. Digər ayələri oxuduqda görürük ki, qisas məsələsi təkcə İslam aləminə deyil, keçmiş ümmətlər üçün də qərara alınmışdır. “Maidə” surəsinin 45-ci ayəsində oxuyuruq:

وَكَتَبْنَا عَلَيْهِمْ فِيهَا أَنَّ النَّفْسَ بِالنَّفْسِ وَالْعَيْنَ بِالْعَيْنِ وَالأَنفَ بِالأَنفِ وَالأُذُنَ بِالأُذُنِ وَالسِّنَّ بِالسِّنِّ وَالْجُرُوحَ قِصَاصٌ فَمَن تَصَدَّقَ بِهِ فَهُوَ كَفَّارَةٌ لَّهُ وَمَن لَّمْ يَحْكُم بِمَا أنزَلَ اللّهُ فَأُوْلَئِكَ هُمُ الظَّالِمُونَ

-Biz o kitabda (Tövratda) onlar üçün (belə) qərara aldıq ki, canın müqabilində can, gözün müqabilində göz, burunun müqabilində burun, qulağın müqabilində qulaq və dişin müqabilində dişdir (və bunların hər birinin qisası alınır). Yaraların da qisası vardır. Kim qisas alınmasına boyun qoysa, bu, (onun həmin günahı üçün) bir kəffarədir. Kim qisas almaqdan keçsə, bu, (onun günahları üçün) bir kəffarədir. Allahın nazil etdiyinin əsasında hökm etməyənlər – məhz onlardır zalımlar!

## Əfv, yoxsa qisas?

Yuxarıda qisas barədə Quranın bir neçə ayəsini oxuduq və qisas məsələsi ilə bağlı ümumi bir məlumat əldə etdik. Burada gəlin baxaq görək, əfv etmək yaxşıdır, yoxsa qisas almaq?

İslamın bu barədə öz nəzəri və hökmü vardır ki, yuxarıdakı ayələrdə bəyan olundu. Yəhudilərin və xristianların da hər birinin təhrif olunmuş kitablarında bu barədə öz nəzərləri verilmişdir. Yəhudilərin qanunlarında bir insan digərini öldürdükdə, yalnız qisas hökmünü irəli sürürlər. Əfv etmək və ya qanbahası kimi məsələlər

onların qanunlarında mövcud deyil. Xristianlar isə qanbahası almağa üstünlük verərək qisası qəbul etmirlər. İslam dini onların hər iki hökmü barəsində belə buyurur: “Yalnız qisası üstün tutanlar və əfvi qəbul etməyənlərin (yəhudilərin) fikrində intiqam məsələsidir. Yəni yalnız qisas hökmünə üstünlük vermək intiqam almaq deməkdir və bu məsələ tərbiyəvi xarakter daşımır. Belə olduqda cəmiyyətdə tərbiyənin əhəmiyyəti inkar edilir və bu zaman yaxşılığa doğru inkişaf da olmaz. Bu fikir və qanun düzgün deyildir. Xristianların təhrif olunmuş qanunlarına əsasən, qisas hökmü yox, yalnız qanbahası almaqla kifayətlənmək cinayətkarları cəsarətləndirib onlara yol açmaq deməkdir. Yəni bir nəfər kimisə öldürdükdə bilir ki, onun barəsində ölüm hökmü kəsilməyəcəkdir. Onu da bilir ki, bir neçə il həbs cəzası çəkməklə həyatını davam etdirəcəkdir. Belə olduqda təbiidir ki, həmin şəxs adam öldürməkdən, oğurluq və digər cinayətləri törətməkdən çəkinməz.

İslam dini bu iki fikrin yanlış olduğunu bəyan edərək hər ikisi ilə bağlı belə bir misal çəkir. Məsələn, fərz edək ki, bir qardaş öz doğma qardaşını öldürmüşdür. Bu hadisədə aydındır ki, ata-ananın, digər qardaş və bacıların ürəyi ağrıyır. Əgər yəhudilərin dediyi kimi, yalnız qisas hökmü icra edilərək digər qardaş da öldürülsə, qəlblərdəki dağın üstünə daha bir dağ çəkiləcək. Əgər xristianların təhrif olunmuş qanununa əsasən qisas hökmünü bir kənara qoyaraq yalnız qanbahası ilə kifayətlənsək, cinayətkarlar cinayət etməkdə daha da cəsarətlənəcəklər. İslam dininin sözü isə budur ki, hökm qisasdır, amma əfv etmək də onun yanındadır. Bunları bir-birindən ayırmaq olmaz. İslam dini bu məsələdə insanları üç cür seçim qarşısında qoyur. Məsələn, əgər bir nəfər digərini vurub öldürübsə, öldürülən

şəxsin adamları həmin üç seçimdən birini qəbul etməkdə ixtiyar sahibidirlər. Onlardan biri qatildən qisas almaq, ikincisi qisası bağışlayıb qanbahası ilə kifayətlənmək, üçüncüsü isə əfv edib onu tamamilə bağışlamaqdır. Öldürülən şəxsin adamları qeyd olunan bu üç seçimdən birini qəbul etməkdə ixtiyar sahibidirlər.

## Qisas hökmünü tənqid edənlərin iradlarına cavab

Qisas hökmünə qarşı irad tutanlar bir neçə qrupdan ibarətdir. Hər bir qrup öz düşüncəsinə görə qisas hökmünə irad tutmuş və bu hökmü tənqid edərək dünyaya səs-səda salmışlar. Burada yaxşı olar ki, irad tutan hər bir qrupun tutduğu irada diqqət yetirək və onlara cavab verək. Əlbəttə, onu da qeyd etmək lazımdır ki, qisas məsələsi geniş bir mövzudur və görkəmli alimlər bu haqda yetərincə söz açmışlar. Xüsusilə İslam dini qisas barəsində kifayət qədər bəhs etmiş və bu məsələnin hər bir incəliyinə toxunmuşdur. Bütün bunlar elmi kitablarda müzakirə və təhlil olunmuşdur. Qisas bəhsi o qədər geniş bir bəhsdir ki, dini mədrəsədə təhsil alanlar neçə il bu mövzunu öyrənirlər.

### 1. Birinci irad

Ümumiyyətlə, qisas hökmünü tənqid edib irad tutanlar dörd qrupa ayrılırlar ki, bir qrup insanların iradı belədir: "Qatil bir insanı öldürməklə cinayət törətmiş hesab olunur. Ancaq ondan qisas almaqla həmin əməl bir daha təkrar olunur. Yəni bir insan digərini qətlə yetirmişdir və hamı bilir ki, bu iş cinayətdir. Bəs onda nə üçün qisas almaqla həmin qatili öldürür və cinayəti

yenidən təkrar edirik. Yaxşı olmazmı ki, ölüm cəzası götürülsün və bu məsələ qanbahası ilə həll olunsun?"

**Cavab:** Bu iradı irəli sürən şəxslərin düşüncə və baxışları fərdidir. Onlar cəmiyyəti düşünmədən bu fikri irəli sürürlər. Əgər onların baxışları ictimai xarakter kəsb etsə və onlar cəmiyyəti də nəzərə alsalar, onda qisasın tərbiyəvi cəhətini də görə bilərlər. Onların bu məsələyə yanaşmaları fərdi olduğundan qisas məsələsi barədə olan düşüncələri də məhduddur. Onlar yalnız qatilin hüquqlarını qorumaq haqda düşünürlər, amma həmin qatilin də yaşadığı milyonlarla insanları düşünmürlər. Bu irada qarşı bir neçə tutarlı misal çəkmək olar. Məsələn, ilin müəyyən bir fəslində ağacların yaxşı inkişaf etməsi üçün onların budaqlarını kəsirlər. Aydındır ki, ağac da canlı bir varlıqdır, o da böyüyür və inkişaf edir. Məgər ağacın budaqlarını kəsmək ona zülm etmək deyilmi? Fərdi yanaşdıqda həmin ağacın kəsilən budaqları nəzərdə tutulur. Amma budaqlar həmin ağacın sağlam böyüməsi nəzərə alınaraq budanır.

Digər bir misala diqqət yetirək. Bir insanın barmağı qanqren edir. Həkim xəstəni müayinə etdikdən sonra onun barmağını kəsməyi qərara alır. Deyir ki, əgər onun bu barmağı kəsilməsə, qanqren əlinə yayılacaq. Əgər əli də kəsilməsə, bütün qoluna yayılacaq və qolunu dibindən kəsməli olacaqlar. Həmin xəstənin adamları onun barmağının kəsilməsinə razılıq verirlər. Bəs, nə üçün onun barmağının kəsilməsinə razı olurlar? Məgər bu, ona zülm etmək deyilmi? Xeyr, bu, zülm deyil, əksinə, xəstənin sağlam qalması deməkdir. Hamı bilir ki, əgər onun barmağı bu başdan kəsilməsə, sonu pis və acınacaqlı olacaqdır. Bu zaman ən ümdə məsələ barmağın yox, onun sahibinin sağlamlığıdır.

Qisas məsələsinə "cinayətin təkrar olunması" kimi yanaşanlara gəldikdə isə, onların bu fikirləri məsələyə fərdi yanaşmadan savayı bir şey deyildir. Əgər cəmiyyətdənkənar bir yerdə iki nəfərdən biri qətl törətmiş olsa, onda belə bir fərdi yanaşma düzdür. Amma minlərlə, milyonlarla insanların yaşadığı hər hansı bir cəmiyyətdə onların bu iradı məqbul sayılmır. Çünki əgər bədənin bir üzvü qanqren edibsə, həmin üzv mütləq kəsilib atılmalıdır. Əgər kəsilməsə, həmin xəstəlik daha da böyüyəcək və bütün bədənə yayılacaqdır. Eləcə də əgər cəmiyyətdə bir insan qətl törədirsə və bunun qarşısı qisasla alınmırsa, o zaman həmin şəxsin törətdiyi bu cinayət bütün cəmiyyətə sirayət edəcəkdir.

**2. İkinci irad**

Qisas hökmünə qarşı irad tutan ikinci qrup şəxslər belə bir iddianı irəli sürürlər: "Sağlam və ağlı başında olan insan qətl törətməz. Qətl törədən insan ruhi cəhətdən xəstə olduğundan mütləq müalicə olunmalıdır. Ruhi xəstə olan insandan qisas almaq yox, onu xəstəxanada yatırtmaq lazımdır."

**Cavab:** Bu iradın iki cavabı vardır. Bir sıra hallarda bu söz doğrudur. Yəni ruhi xəstə olan insana (dəliyə) İslamda hökm yoxdur. Nəinki qisas hökmü, eləcə də namaz, oruc və digər hökmlər belə ona vacib deyil. Əgər bir dəli başqa bir insanı vurub öldürsə, ondan qisas almaq heç bir qanunda yazılmayıb. Yox, əgər "hər bir qatil, dəli olmasa da, ruhi baxumdan xəstə olduğundan ondan qisas almaq gərək deyil, əksinə, onu müalicə etmək lazımdır" - deyilirsə, ikinci cavab budur ki, belə olduqda o zaman bütün cinayətkarlara da həmin hökm tətbiq edilməlidir. Əgər bir nəfər digərinin namusuna təcavüz edirsə, o, ruhi

baxımdan sağlamdırmı? Əgər biri digərinin torpağını qəsb edirsə, o, ruhi baxımdan sağlamdırmı? Əgər hər bir cinayətkar ruhi xəstədirsə, o zaman onları nə üçün həbsxanaya salırlar? Doğrudur, dəliyə hökm yoxdur. Ancaq həbsxanaya düşən bütün cinayətkarlar ruhi xəstədirsə, o zaman dünyada olan həbsxanalar ləğv edilməli, onların yerində ruhi xəstələrin müalicəsi məqsədilə xəstəxanalar tikilməlidir. Hər kim hansı cinayətləri törətsə də, müalicə olunmaq üçün xəstəxanalara göndərilməlidirlər.

Deməli, qisas hökmünə qarşı irəli sürülən bu iradın da boş sözlərdən başqa bir şey olmadığının şahidi oluruq.

**3. Üçüncü irad**

Üçüncü qrup şəxslərin iradı bundan ibarətdir ki, cəmiyyət hər bir sahədə inkişaf etdikcə dövrün hökmləri də inkişaf etməli və dəyişilməlidir. Deməli, ötən 1400 ildə cəmiyyət çox inkişaf etmişdir. Bəs onda nə üçün o dövrün hökmləri hazırkı inkişaf etmiş mütərəqqi bir cəmiyyətdə icra olunmalıdır?

**Cavab:** Bu iradın da iki cavabı vardır. Birinci cavab budur ki, müasir dövrdə texnologiya xeyli inkişaf etmişdir. Keçmiş dövrdə bir məsafəni qət etmək üçün at, dəvə və s. kimi heyvanlardan minik vasitəsi kimi istifadə olunurdu. Amma hazırda texnika elə bir həddə gəlib çatıb ki, insanlar həmin məsafələri qısa bir müddətdə maşın, təyyarə və s. kimi vasitələrlə qət edirlər. Keçmişdə məktub bir ölkədən digər ölkəyə neçə aya çatdırılırdı. Amma müasir dövrdə məktub yazılıb imzalanan kimi İnternet vasitəsilə bir neçə saniyə ərzində dünyanın istənilən məntəqəsinə çatdırıla bilir. Həmçinin qədim zamanın geyimləri ilə indiki dövrün geyimlərində də çox fərqlər vardır. Heç kəsin şübhəsi yoxdur ki, kompüter, telefon,

maşın, təyyarə, evlər, geyimlər və s. sahələrdə kifayət qədər inkişaf baş vermişdir. Amma həmin paltar, maşın və s. kimi vasitələrdən istifadə edənlərdə inkişaf, tərəqqi nəzərə çarpmır. Bazarlarda elə kostyumlar var ki, qiyməti 15 min dollardır. Müasir dövrdə elə papaqlar var ki, qiyməti 10 min dollardı. Ancaq görkəm və qiymət cəhətindən inkişaf edən papağın və s. sahibi olan insanlar inkişaf etməyib. Əksinə, mənəviyyat baxımından günü-gündən daha da geriləyir. Məsələn, qədim dövrlərdə iki ölkə və yaxud iki qəbilə müharibə edərkən min nəfər bir tərəfdə, min nəfər də digər tərəfdə qarşı-qarşıya döyüşürdü. 5 gün, 10 gün və ya 1 ay döyüşdükdən sonra yüz nəfər bir tərəfdən, yüz nəfər də digər tərəfdən ölürdü və beləcə, müharibə sona çatırdı. Amma müasir və adını inkişaf etmiş adlandırdığımız çağdaş dövrdə birisi əyləşdiyi yerdəcə bir düyməni sıxmaqla 5 min nəfərin həyatına son qoyur, yaxud şəhərləri xarabalığa çevirir. Silah-sursat, texnologiya, miniklər, evlər, daş-kərpic, geyimlər və s. kimi sahələrdə inkişaf var, amma dünya insanlıq baxımından hələ də tərəqqi etməyib.

Qustave Le Bon Fransanın görkəmli alimlərindən biridir. O, həm həkim, həm də tarixçi olmuşdur. 1841-ci ildə anadan olmuş və 90 il ömür sürərək 1931-ci ildə dünyasını dəyişmişdir. Onun yazdığı "İslam və ərəb sivilizasiyası" kitabında həmin doxsan ilin nəticəsi olaraq belə bir cümlə yazılmışdır: "Camaat, insaniyyətə kömək edin! Texnologiya inkişaf etdikcə əxlaq və insanlıq bir o qədər zəifləyir və geri düşür."

Sənət və texnika inkişaf edir, amma insanlar əxlaqi cəhətdən tərəqqi etmirlər. Əgər insanlıq və əxlaq inkişaf etsəydi, cəmiyyətdə yalanlar, qətllər, oğurluqlar və s. kimi cinayətlər də olmazdı. Qədimdə yalan, şərləmə, qətl, insan

oğurluğu, günahsız insanları öldürmək və təcavüz kimi cinayətlər var idi, məgər indi yoxdurmu? Müasir dövrdə saydığımız cinayətlər daha da artıb. Buna görə də "Cəmiyyətdə hər hansı bir sahə inkişaf etdikcə ona aid hökmlər də dəyişdirilməli, inkişaf etdirilməlidir," - deyənlər səhv fikirdədirlər.

Bu irada ikinci cavab isə belədir. Fərz edək ki, bugünkü cəmiyyət keçmişdəkindən çox inkişaf etmişdir. İslam dini qisas hökmündə insanları təqdim olunan üç yoldan birini seçməkdə ixtiyar sahibi etmişdir: qisas qanununun kənarında, qanbahası və əfv qanunu. Cəmiyyətdə əxlaq və insanlığın xeyli irəli getdiyini iddia edən şəxslər "qisas alınmasın və qanbahası ilə kifayətlənilsin" - deyirlər. Əgər həqiqətən də insanların əxlaqı daha çox inkişaf edibsə, bəs onda nə üçün əfv yolu daha yaxşı variant kimi irəli sürülməməlidir? Heç bir kəs bunu da danmır ki, qatil əfv olunmamalıdır. Yəhudilərin öz qanunlarına görə, qatildən mütləq qisas alınmalıdır. Amma İslam dini insanları təqdim olunan üç yoldan birini seçməkdə ixtiyar sahibi etmişdir.

"Əhlən min Əsləm" tarixdə məşhur bir məsəldir. Əsləm görkəmli əxlaq alimlərindən biri idi. O, neçə-neçə kitabın müəllifiydi. Onun bir neçə oğlu, qardaşı və qardaşı uşaqları var idi. Günlərin birində o, kitabxanasında oturub kitab yazmaqla məşğul olduğu zaman ona xəbər verirlər ki, qardaşın oğlu sənin oğlunla dalaşdı və onu vurub öldürdü. Əsləm bu xəbəri eşitdikdə çox səbir və təmkinlə "İnna lillah və inna ileyhi raciun" ("Allah tərəfindənik və Ona tərəf də qayıdacağıq") ayəsini oxuyub dedi: "Əgər o, öz əmisi oğlunu öldürməsəydi, ona faydası olardı. Bir zaman ona işi düşəndə əmisi oğlunun dərdinə dəyərdi.

Qardaşım oğlu çox böyük səhv edib. Mən onu bağışladım. İndi isə durun gedək, uşağı dəfn edək.”

Demək istəyirəm ki, insanın əxlaqı inkişaf etdikcə belə bir səviyyəyə gəlib çatar. İnkişaf etmiş əxlaqın nümunəsi bax budur. “Cəmiyyətdə hər bir sahə inkişaf etdikcə ona aid hökmlər də dəyişdirilməli və inkişaf etdirilməlidir. Çünki köhnəlmiş hökmlər inkişaf etmiş cəmiyyətdə yararsızdır” - deyənlər özlərindən belə bir nümunə göstərə bilərlərmi? Cəmiyyətdə çox az insanlar var ki, əxlaqi baxımdan və insanlıq nöqteyi- nəzərindən inkişaf ediblər. Yalnız Əsləm və onun kimi digər nadir insanlarla bütün cəmiyyəti inkişaf etmiş cəmiyyət adlandırmaq olmaz.

### 4. Dördüncü irad

Qisas hökmü ilə bağlı dördüncü qrup şəxslərin iradına əsasən, “Həyat Allahın insana bəxş etdiyi bir mərhəmətdir. Allah verən canı Ondan başqa heç bir kəsin almağa ixtiyarı yoxdur. Buna görə də qisas və edam hökmü ləğv olunmalıdır.”

Çox təəssüflər olsun ki, bu iradı irəli sürənlərin əksəriyyəti savadsız müsəlmanlardır. Zahirən xoşagələn görünən bu fikrin əsas tərəfdarları da elə həmin həssas və eyni zamanda savadsız insanlardır.

**Cavab:** Bu iradın da iki cür cavabı vardır. Birincisi, irəli sürülən iradı şərh etməklə, yəni açıqlamaqla verilən cavabdır. İkincisi, irəli sürülən iradı aradan qaldırmaq və ya ləğv etməklə verilən  cavabdır.

Bu iradın aradan qaldırmaq və ya ləğv etməklə verilən cavabı belədir: “Canı Allah verib və Ondan başqa heç bir kəsin can almağa ixtiyarı yoxdur” - deyənlərdən soruşmaq lazımdır ki, dünyada düzəldilən yeni-yeni

silahlar nə üçündür? Qərbdə və Şərqdə istehsal olunan yeni tipli silahlar kimlər üçün nəzərdə tutulur? Yalandan xoşagələn sözlər danışıb camaatı aldatmaq lazım deyil. Məgər insanları kütləvi şəkildə öldürməyə cəhd göstərən mənfur qüvvələrin qarşısını almaq lazım deyilmi? Aydın məsələdir ki, əgər sən onu vurub öldürməsən, o, səni vurub öldürəcəkdir. Əgər belədirsə, o zaman Allahın verdiyi canı nə üçün ondan alırlar? Bir söz deyəndə gərək yaxşı-yaxşı düşünəsən və yalnız bundan sonra deyəsən. İnsan sözə başlayarkən harada qurtaracağını da fikirləşməlidir. Dünyada milyonlarla insan qətlə yetirilmişdir. Bu gün də həmin proses davam edir. Məgər onların canı yoxdurmu? Məgər canı onlara Allah verməyibmi? Nə üçün Allah verən canı onlardan alırlar? O insanlar hansı günahlarına görə öldürülürlər?

Qeyd olunan iradın digər, yəni şərh etməklə verilən cavabı da budur ki, canı verən Allah kitab da göndərib. Allah-təala insanı yaratmış, ona kitab və peyğəmbər göndərmişdir. Şəriət hökmlərində Allah-təala insanı öldürməyi haram etməklə yanaşı, müstəsna halları da müəyyən edib. Məsələn, ramazan ayında oruc tutmaq hamıya vacibdir. Ancaq bu zaman səfərdə olanlar, xəstələr, müəyyən günləri olan qadınlar və b. istisna təşkil edir. Hər bir hökmdə müstəsna hallar vardır ki, onlardan biri də insan öldürməklə bağlı olan hökmdür. “Maidə” surəsinin 32-ci ayəsində belə buyurulur:

مَن قَتَلَ نَفْسًا بِغَيْرِ نَفْسٍ أَوْ فَسَادٍ فِي الأَرْضِ فَكَأَنَّمَا قَتَلَ النَّاسَ جَمِيعًا وَمَنْ أَحْيَاهَا فَكَأَنَّمَا أَحْيَا النَّاسَ جَمِيعًا

-Kim can qisası (haqqına malik) olmadan və ya yer üzündə fitnə-fəsad törətməmiş bir insanı öldürsə, sanki bütün

insanları öldürmüşdür. Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa), o, bütün insanları diriltmiş kimi olur.

Bu ayədə insan öldürməyin qadağan edildiyi bəyan olunur. Amma istisna hallar da qeyd olunmuşdur ki, qisas almaq və fitnə-fəsad törədən insanları öldürmək olar.

“Ənam” surəsinin 151-ci ayəsində belə buyurulur:

وَلاَ تَقْتُلُواْ النَّفْسَ الَّتِي حَرَّمَ اللّهُ إِلاَّ بِالْحَقِّ ذَلِكُمْ وَصَّاكُمْ بِهِ لَعَلَّكُمْ تَعْقِلُونَ

-Həmçinin Allahın möhtərəm saydığı və öldürülməsini haram buyurduğu canı - (qisas, şəriətin müəyyənləşdirdiyi cəza hədlərinin icrası və ya müdafiə məqsədli) haqq (öldürmələr) istisna olmaqla – öldürməyin. Bəlkə düşünəsiniz deyə Allahın sizə tapşırdıqları bunlardır.

“Bəqərə” surəsinin 216-cı ayəsində buyurulur:

كُتِبَ عَلَيْكُمُ الْقِتَالُ وَهُوَ كُرْهٌ لَّكُمْ وَعَسَى أَن تَكْرَهُواْ شَيْئًا وَهُوَ خَيْرٌ لَّكُمْ وَعَسَى أَن تُحِبُّواْ شَيْئًا وَهُوَ شَرٌّ لَّكُمْ وَاللّهُ يَعْلَمُ وَأَنتُمْ لاَ تَعْلَمُونَ

-Sizin üçün (kafirlərlə) döyüş yazıldı və qərara alındı, halbuki (bu,) sizin xoşunuza gəlmir. Çox vaxt bir şeyi xoşlamırsınız, halbuki o, sizin üçün xeyirlidir və çox vaxt bir şeyi xoşlayırsınız, halbuki o, sizin üçün pisdir. Allah bilir, siz isə bilmirsiniz.

Canı verən Allahdır və müstəsna hallarda onu almağı da Allah icazə verir. Kimsə qisas hökmünü tənqid edib irad tutursa, belə çıxır ki, o, Allahdan qabağa keçir və Ondan çox bilir. Allahı sevən, Onun hökmlərini qəbul edən insan Allahın göndərdiyi kitabın bir ayəsini qəbul edib, digərini inkar etməz.

“Bəqərə” surəsinin 191-ci ayəsində buyurulur:

وَقَاتِلُواْ فِي سَبِيلِ اللّهِ الَّذِينَ يُقَاتِلُونَكُمْ وَلاَ تَعْتَدُواْ إِنَّ اللّهَ لاَ يُحِبِّ الْمُعْتَدِينَ

-Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun və həddi aşmayın (döyüş zamanı şəriət və ağılın müharibə barəsindəki çərçivə və qanunlarından kənara çıxmayın, qanuni dəlil olmadan hücum etməyin, sülh müqaviləsi bağladığınız kəslərlə müharibə etməyin, zərərsiz zəifləri öldürməyin, ölülərin bədən üzvlərini kəsməyin və malları səbəbsiz tələf etməyin). Allah həddi aşanları sevmir.

وَاقْتُلُوهُمْ حَيْثُ ثَقِفْتُمُوهُمْ وَأَخْرِجُوهُم مِّنْ حَيْثُ أَخْرَجُوكُمْ وَالْفِتْنَةُ أَشَدُّ مِنَ الْقَتْلِ وَلاَ تُقَاتِلُوهُمْ عِندَ الْمَسْجِدِ الْحَرَامِ حَتَّى يُقَاتِلُوكُمْ فِيهِ فَإِن قَاتَلُوكُمْ فَاقْتُلُوهُمْ كَذَلِكَ جَزَاء الْكَافِرِينَ

-Onları (Məkkə müşriklərini) harada ələ keçirsəniz öldürün və sizi qovub çıxardıqları yerdən (Məkkədən) qovub çıxardın. Fitnə öldürməkdən daha pisdir. Onlar sizinlə Məscidül-Həramın yanında vuruşmayınca, siz də onlarla orada vuruşmayın. Beləliklə əgər sizinlə (orada) vuruşsalar, onları öldürün ki, kafirlərin cəzası elə odur.

Allahın kitabının adından danışan şəxs heç olmasa həmin kitabda yazılanları oxumalıdır. Kitabın bir səhifəsini oxuyub digər səhifəsindən xəbəri olmayan kəsin Allahın adından danışmağa ixtiyarı yoxdur. Kitabı üzündən oxuya bilməyən, Quranın əlifbasını tərsinə tutub baxan bir şəxs Onun adından danışıb dünyanı özünə güldürməsin.

Qisas barədə qeyd etdiyimiz hökmlər ümumi hökmlərdir. Amma qisasın incə və xırda məsələləri şəriət kitablarında geniş şəkildə şərh olunmuşdur.

“Maidə” surəsinin 45-ci ayəsində oxuyuruq:

وَكَتَبْنَا عَلَيْهِمْ فِيهَا أَنَّ النَّفْسَ بِالنَّفْسِ

-Biz o kitabda onlar üçün (belə) qərara aldıq ki, canın müqabilində can.

Həzrət Peyğəmbərdən(s) soruşdular: “Ya Rəsulallah, bir nəfərin müqabilində yalnız bir nəfərdən qisas alınmalıdırmı?” Həzrət(s) buyurdu: “Bəli, yalnız bir nəfərdən.” Soruşdular: “Birdən həmin şəxs Bahili qəbiləsindən olsa necə?” (Bahil bir qəbilənin adıdır ki, onların böyükləri Bahil idi. Kimsə onlardan birini öldürsəydi, hücum çəkib həmin şəxsin tayfasından neçə-neçə insanı qətlə yetirməsəydilər rahat olmazdılar.) Peyğəmbər(s) buyurdu: “Fərqi yoxdur. Bir nəfərin müqabilində bir nəfərdən qisas alınmalıdır. İstər Bahilin özü olmuş olsa belə.”[1]

İbn Mülcəm(l) Həzrət Əlinin(ə) başına qılıncla zərbə vurduqdan sonra onu yaxaladılar. Həzrəti(ə) isə yaralı halda evə gətirdilər. Onun üçün süd gətirdilər. İmam(ə) soruşdu: “Məni vuran şəxsi neylədiniz?” Dedilər: “Tutub saxlamışıq.” İmam(ə) buyurdu: “Aparıb ona da süd verin. O qatildir və hökmü icra edin, amma onu ac saxlamayın.

انْظُرُوا إِذَا أَنَا مُتُّ مِنْ ضَرْبَتِهِ هَذِهِ فَاضْرِبُوهُ ضَرْبَةً بِضَرْبَةٍ وَ لَا يُمَثَّلُ بِالرَّجُلِ

-Əgər mən onun vurduğu zərbədən ölsəm, ona yalnız bir zərbə vura bilərsiniz. Onu müslə[2] etməyin.”[1]

---

[1] 500 dastan, 3-cü cild, səh. 271.

[2] Öldürüləndən qabaq və ya sonra onun göz, qulaq, burun, dodaq, əl, ayaq və digər əzalarını kəsməyin və ya ona qarşı digər çirkin işlər görməyin.

Bir daha qeyd etmək lazımdır ki, qisas barədə etdiyimiz bu söhbət ümumi söhbətdir. Bundan əlavə, qisasın geniş ehkamı da vardır. Fiqhdə qətl və qisasın müxtəlif halları barədə bəhs olunmuşdur. Nümunə üçün tarixdə baş vermiş həmin hallardan birini diqqətinizə çatdırıram.

Həzrət Peyğəmbərin(s) dövründə bir qadın digər bir qadınla zarafat edirmiş. Yəni evdə onu boynuna mindirib gəzdirirmiş. Bu zaman üçüncü bir qadın onları belə bir vəziyyətdə görüb o da bu zarafata qoşulmaq üçün həmin qadının ayağını çimdikləyir. Həmin qadın büdrəyir və boynuna mindirdiyi qadın yerə yıxılaraq boynu sınır və ölür. Bu hadisəni Həzrət Əliyə(ə) danışırlar. Həzrət(ə) buyurur: "Burada qisas yoxdur. Yalnız qanbahası ödənilməlidir. Bu qanbahası həmin qadınların arasında üç yerə bölünməlidir. Bir hissəsi o qadını öz boynuna mindirənin öhdəsinə, ikinci hissəsi (onun boynuna minən) ölənin öhdəsinə, üçüncü hissəsi isə onları bu halda görüb ayağını çimdikləyən qadının öhdəsinə düşür."[2]

Həzrət Peyğəmbər(s) ömrünün axırlarında məscidə daxil olub buyurdu: "Hər kəsin məndən bir tələbi varsa, qoy bu dünyada tələb etsin. Dünyadakı qisas axirətdəkindən asandır." Bu vaxt Səvadə ibn Qeys qalxıb dedi: "Ya Rəsulallah, Taif döyüşündən qayıdarkən dəvəyə vurduğun çubuq mənə dəydi. Mən səndən onun qisasını almaq istəyirəm." Məsciddə əyləşənlərin hamısı mat-məəttəl qaldılar. Həzrət Peyğəmbər(s) çubuğu yerimək üçün dəvəyə vuran zaman o, Səvadənin qarnına dəymişdi. Buna

---

[1] Nəhcül-bəlağə, 47-ci məktub.
[2] 500 dastan, 3-cü cild, səh. 272.

görə də həmin çubuğu gətirmək üçün bir nəfəri evinə göndərdi. Çubuğu gətirdilər. Həzrət Peyğəmbər(s) onu Səvadəyə verib buyurdu: “Çubuğu götür və məndən öz qisasını al.” Səvadə Həzrət Peyğəmbərə(s) yaxınlaşdı və onu qucaqlayıb öpərək dedi: “Ya Rəsulallah, mən səni bağışladım, sən də Allahdan mənim bağışlanmağımı dilə.”

Bu rəvayətləri qeyd etməkdə məqsədim budur ki, qisas məsələsinin müxtəlif cəhətləri və minlərlə məsələsi vardır. Hər bir məsələnin də öz hədisi, sənədi və qanunu var.

**5. Qəfil ölüm**

Qeyd olundu ki, insanın ömrünün uzun və ya qısa olması onun öz ixtiyarına verilmişdir. Yəni insan bəzi əməllərə riayət etməklə ömrünü artıra, həmçinin bəzi işləri görməklə ömrünü azalda bilər. Həmin əməllərdən bir neçəsini də qeyd etdik. Bu bəhsimizə insanı düşündürən suallardan birini də əlavə etmək yerinə düşərdi. Çünki bu sual bəzi insanlarda maraq doğurur. İnsanın ömrü sona çatdıqda o, bəzən müqəddimə ilə, bəzən də müqəddiməsiz olaraq qəfil şəkildə dünyasını dəyişir. Sual isə bundan ibarətdir ki, insanın ölümü müqəddimə ilə qurtarsa yaxşıdır, yoxsa qəflətən ölməsi yaxşıdır? Yaxud belə deyək: “İnsanın qəflətən ölməsi onun üçün müsbət haldır, yoxsa mənfi haldır?

Hədislərdə qəfil ölüm müxtəlif ibarələrlə işlənmişdir. Azərbaycan dilində bu müqəddiməsiz ölümə qəfil və ya qəflətən gələn ölüm deyilir. Ərəb dilində bu ölümün adına “fucətən” və “fəcətən” deyilir. Bu ölüm belədir ki, insan olduğu halda bir neçə dəqiqə içində halı dəyişir və dünyadan gedir. Dilçi alimlər bu barədə belə demişlər:

كُلُّ مَا هَجَمَ عَلَيكَ مِن أَمرٍ لَم تَحتَسِبهُ فَقَد فَجَأَكَ

-Gözlənilmədən səndə baş verən hər hansı bir işə “fəcətən” (“qəflətən”) deyilir.

Bəzi lüğətlərdə qəfil ölüm “əbtətən” kəlməsi ilə də ifadə olunmuşdur. Bu ölümü cavan insanın ölümünə aid etmişlər. Məsələn, alimlər demişlər:

ماتَ فُلانٌ عَبْطَةً أَي شَابًّا صَحيحاً

-Filankəs cavan və sağlam olduğu halda qəflətən öldü.

Lüğətdə qəfil ölüm “fəltətən” və “bəğtətən” kəlmələri ilə də ifadə olunmuşdur. Bu iki kəlmənin mənası belədir ki, insan gözlənilmədən hər hansı bir hadisə nəticəsində qəflətən dünyasını dəyişir.

**Hədislərdə qəfil ölümün mənası**

Yuxarıda qəfil ölümün lüğəvi mənaları ilə tanış olduq. Hədis və rəvayətlərdə də qəfil ölümün mənası izah olunmuşdur.

قَالَ البَاقِرُ(ع): مَن مَاتَ دُونَ اَربَعَةَ عَشَر يَومًا فَمَوتُهُ مَوتُ فُجَاءَةٍ

-İmam Baqir(ə) buyurur: “Hər kim o dörd gündən az müddətdə (xəstələnib) dünyasını dəyişsə, onun ölümü qəfil ölümdür.”[1]

**Qəfil ölüm insan üçün müsbət haldır, yoxsa mənfi?**

İndi isə bizi maraqlandıran sual belədir ki, qəflətən ölmək insan üçün yaxşıdır, yoxsa pisdir? Yaxud bu cür ölüm insan üçün bəladır, yoxsa bir nemətdir? Bu sualın cavabında dini kitablara əsasən üç mətləbi qeyd etmək

[1] Qəfil ölüm, səh. 109.

olar. Burada həmin üç mətləbə diqqət yetirək və sonda qeyd olunan sualın cavabı olaraq bir nəticə çıxaraq.

Birinci mətləb budur ki, qəfil ölüm mömin barəsində Allahın rəhmət və kəramətidir. Burada qətiyyən xoşbəxtlikdən söhbət belə getmir. Sadəcə olaraq qəfil ölüm mömin bəndələr üçün Allahın rəhmət və kəraməti kimi qeyd edilmişdir. Yəni mömin insan qəflətən ölməklə Allah-təala ona mərhəmət və kəramət edir. Həzrət Peyğəmbər(s) Həzrət Əliyə(ə) bunun mənasını izah edərək belə buyurur:

يا عَلي، مِنْ كَرامَةِ الْمُؤمِنِ عَلَي اللّه اَنَّهُ لَمْ يَجْعَلْ لاَجلِهِ وَقتا حَتّي يَهُمَّ بِبائقَةٍ فَاِذا هَمَّ بِبائقَةٍ قَبَضَهُ اِلَيْهِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Ey Əli! Möminin Allah-təala yanında kəramətlərindəndir ki, onun üçün ölüm vaxtını təyin etməmişdir. Mömin şər bir iş görmək istədikdə isə Allah-təala onun canını alır (ki, günah etmədən dünyasını dəyişsin).”[1]

Yəni mömin iman halında, haramlardan uzaq, vacibləri yerinə yetirərək yaşadığı vaxta qədər Allah-təala ona möhlət verir. Amma şeytan o möminin qəlbinə girib onu yoldan çıxarmağa, şər işlər görməyə sövq etdikdə Allah onun canını (qəfildən) alır ki, həmin günahlara düşməsin. Bu, Allahın mömin bəndəsinə qarşı olan lütf və mərhəmətidir. Əgər Allahın bu lütf və mərhəməti olmasaydı, onu özbaşına buraxsaydı, həmin mömin gedib o günahları edəcəkdi. Belə olduqda da həmin günahların nəticəsində cəhənnəmə gedəcəkdi. Onun cəhənnəmə getməməsi və pis insan olmaması üçün Allah onun ömrünü qəfildən alır. Bu məsələni həm Xanım Fatimeyi

---

[1] Qəfil ölüm, səh. 101.

Zəhra(s.ə), həm də İmam Səccad(ə) Allahla etdiyi minacatlarda bizə başa salmışlar.

فاطمةُ الزَّهراءُ عليها السلام ( . فِي المناجاةِ . ): اللّهُمَّ بِعِلمِكَ الغَيبَ، و قُدرَتِكَ عَلَى الخَلقِ، أحيِني ما عَلِمتَ الحَياةَ خَيرًا لي، و تَوَفَّني إذا كانَتِ الوَفاةُ خَيرا لي

-Xanım Fatimeyi Zəhra(s.ə) (Minacatda belə deyərdi): "İlahi! Səni and verirəm qeybdən olan elminə və məxluqlar üzərində qüdrətinə, sağ qalmağım mənim üçün yaxşı olduğunu bildiyin müddətə qədər məni sağ saxla və nə vaxt ölüm mənim üçün yaxşı olsa, onda öldür."[1]

الإمامُ زينُ العابدينَ عليه السلام . مِن دُعائِهِ فِي مَكارِمِ الأخلاقِ .: و عَمِّرْني ما كانَ عُمري بِذْلَةً في طاعَتِكَ، فإذا كانَ عُمري مَرتَعا لِلشَّيطانِ فَاقبِضْني إلَيكَ

-İmam Səccad(ə) (Məkarimül-əxlaq duasında minacat edərək belə deyərdi): "İlahi, ömrümü, sənin itaətinə sərf olununcaya qədər uzat və nə vaxt ömrüm şeytanın otlağına dönsə, canımı al və öz yanına apar."[2]

Deməli, möminin qəflətən dünyasını dəyişməsi Allahın ona etdiyi kəramət və mərhəmətdir. Əlbəttə, bir daha qeyd etmək lazımdır ki, buna xoşbəxtlik deyilməsə də, bu işdə Allahın möminə qarşı lütf və mərhəməti vardır. Yəni o bəndəni mömin olaraq dünyadan aparır ki, qalıb

---
[1] Mizanül-hikmə,8-ci cild, hədis - 14254.
[2] Yenə orada, hədis - 14253.

şeytanın vəsvəsəsilə onun nəzərdə tutduğu günahlara düçar olmasın və cənnətə getsin.

İkinci mətləb budur ki, əgər kafir və fasiq insan müqəddiməsiz olaraq qəflətən dünyasını dəyişirsə, bu, Allahın ona qəzəbi və əzabıdır. Yəni kafir və fasiq insana "haram işlər görmə, Allahın vacib etdiyi əməlləri yerinə yetir" – deyilməsinə baxmayaraq, həmin sözləri qulaqardına vuraraq etdiyi çirkin işlərdən əl çəkmir. Düşünür ki, hələ günah etməkdə davam etsin və ömrünün axırlarında tövbə edər. Beləcə, günah işlər görməkdə o qədər davam edir ki, Allahı qəzəbə gətirir. Allah onun barəsində qəzəbə gəldikdə isə ömrünü qəfil olaraq alır. Həmin insanın isə heç ağlına belə gəlməzdi ki, ömrü qəfil və müqəddiməsiz sona çatacaqdır. O, elə fikirləşir ki, qocalacaq, xəstələnib həkimlərin əlinə düşəcək və bu zaman ömrünün sona çatacağını başa düşüb tövbə edəcək. Amma ölümünün qəflətən baş verməsi onun bütün ümidlərini puça çıxarır. Yəni gələcəkdə tövbə edəcəyini düşünürdü, amma ölümü birdən-birə gəldiyindən tövbə etmək ona qismət olmadı.

قَالَ رَسُولُ اللّهِ(ص): مَوْتُ الْفجاءَة رَحمةٌ الْمُؤْمِنِين وَ عَذابٌ لِلْكَافِرِين

-Həzrət Peyğəmbər(s) buyurur: "Qəfil ölüm möminlər üçün rəhmət və kafirlər üçün bir əzabdır."[1]

Qəfil ölüm barəsində olan üçüncü mətləb budur ki, qəfildən ölənlər haqda bir fikir irəli sürməyə bizə icazə verilməyib. Belə ki, Həzrət Peyğəmbər(s) buyurmuşdur: "Elə bir ev yoxdur ki, ölüm mələyi gündə beş dəfə o evə baş çəkməsin. Kimin ömrü sona çatıbsa, Allahın əmri ilə

[1] Qəfil ölüm, səh. 104.

onun canını alır. Ruh bədəndən çıxdıqdan sonra qəbrə qoyulana qədər öz bədəninin ətrafında dolanır. Necə yuyulmasını, tabuta qoyulmasını, dəfn olunmasını görür. Onun cənazəsini müşayiət edənlərlə onun üçün ağlayan ailəsini səsləyərək deyir: "Ey mənim ailəm və övladlarım! Dünya sizi məni oynadıb aldatdığı kimi aldatmasın. (Mənim bu hala düşməyimdən ibrət götürün. Qazandığım bütün mal-dövlətimi qoyub əliboş gedirəm. Əgər qəflətdə olmasaydım, bu günümü düşünsəydim, haramı halala qatmazdım.) Ey mənim ailəm və övladlarım! Elə isə mənim bu halımı görüb ibrət alın və dünyaya (dünya malına) ürək bağlamaqdan çəkinin!"[1]

Biz dünyasını dəyişən insanın sözlərini eşidə bilmədiyimiz üçün Həzrət Peyğəmbər(s) onun nə danışdığını bizə söyləyir. Deməli, qəfil ölüm möminlər üçün Allahın rəhməti, kafir və fasiqlər üçün əzabı, həm də bütün insanlara ibrət dərsidir. Qəfil ölümdə olan üçüncü mətləb budur ki, Allah-təala insanları qəflət yuxusundan oyadaraq onlara ibrət dərsi verir. Yəni insan qocalmağını və ya xəstələnəcəyini gözləməməlidir. Ola bilsin ki, cavan və sağlam vaxtında ömrü qurtarsın. Həyatımızda nə qədər qəfil ölümlərin şahidi oluruq. Sağlam və cavan olmasına baxmayaraq, nə qədər insan elə dayandığı yerdəcə gözlənilmədən dünyasını dəyişir. Böyük qardaşın gözü qabağında kiçik qardaşın ömrü sona çatır. Allah bununla da bizi başa salır ki, ölüm sizin əlinizdə deyil. Bu işə qarışmağa da icazəniz yoxdur.

Allahın iradəsi belədir ki, insan bu dünyada yaşamalıdır. Amma insan bu dünyada elə yaşayır ki, bircə

---

[1] Qəfil ölüm, səh. 92.

dəqiqə sonra nə baş verəcəyini bilmir. İnsan heç bir vaxt sabah harada olacağına, yaxud nələrin baş verəcəyinə belə arxayın deyil. Amma bu o demək deyil ki, insan heç bir iş görməməli, oturub ölümünü gözləməlidir. İnsan bu dünyada yaşadıqca iş görməli, çalışmalı və xidmət göstərməlidir. Həm də yüz il yaşamaq ümidilə yanaşı, Allahın vacib buyurduğu əməlləri yerinə yetirməli, haramlardan çəkinməlidir. Həmişə elə düşünməlidir ki, sanki bu gün son gününü yaşayır. Yəni insan nə qədər yaşayır-yaşasın, amma yaşadığı hər bir günü elə keçirməlidir ki, sanki o gün onun ömrü qurtarır. Amma fəaliyyətində gələcəyə ümid bəsləməklə yanaşı, imanını qoruyub haramlardan çəkinməklə, vacib əməlləri yerinə yetirməklə gününü başa vurmalıdır. Bir sözlə, insan qəflət və unutqanlıq içində yaşamamalıdır.

Qeyd etdik ki, qəfil ölüm mömінin barəsində Allahın rəhməti, kafir və fasiqin barəsində əzab, bəzən isə bütün insanlara ibrət və qəflətdən oyanmaq dərsidir. Bu üç mətləbin nəticəsi belədir ki, qəflətən dünyasını dəyişən insanın barəsində heç bir kəs fikir irəli sürə bilməz və onun barəsində mühakimə yürüdə bilməz. Heç bir kəs deyə bilməz ki, filankəs qəfildən öldüyü üçün yaxşı və yaxud pis insandır. Belə olduqda biz Allahın əmrinə tabe olaraq bu barədə heç bir fikir irəli sürə bilmərik. Allah-təala bizim insanlara qiymət və məqam verməyimizi istəmir. İnsanların məqamını ölçmək və qiymətləndirmək haramdır. Yəni bir nəfər dünyadan gedərkən onun yüz faiz cəhənnəmlik, yaxud cənnətlik olduğunu deməyə heç bir kəsin ixtiyarı yoxdur.

Əlbəttə, kafir, lənətlənmiş, cinayətkar, qatil, baş kəsən, qarət edən, öz nəfsani istəklərinə görə insanların ac qalmasına razı olan, özünün bir neçə gün hakimiyyətdə

qalmasına xatir insanların kafir olmasına razı olan insanların məsələsi aydındır. Həmçinin peyğəmbərlər və məsum imamların Allah dərgahında hansı məqamda olduqları da bəllidir. Burada İmam Hüseyn(ə) və ya Yezid(l) haqqında da söhbət getmir. Məlumdur ki, Yezid(l) cəhənnəm əhlidir, şəhidlərin ağası İmam Hüseyn(ə) isə Allah dərgahında ən yüksək zirvədədir. Bizim söhbətimiz adi camaat barəsindədir ki, bir-birimizin imanının dərəcəsindən xəbərimiz olmadığımız üçün dünyasını dəyişmiş bir insanın barəsində mühakimə yürütməyə ixtiyarımız yoxdur. Kimsə dünyasını dəyişdikdə onun cənnətə, yaxud cəhənnəmə getməsi barədə fikir irəli sürməyə də icazəmiz yoxdur. Çünki həmin şəxsin cənnətə və ya cəhənnəmə düşməsi Allah-təalanın işidir, Onun işinə qarışmaq isə haramdır.

## Qəfil ölən tanınmış insanlardan nümunələr

Bütün tarix boyu qəfildən dünyasını dəyişən tanınmış insanlar çox olmuşdur. Həm mömin insanların, həm də kafir insanların qəflətən ölümləri haqda bir çox kitablar da yazılmışdır. Nümunə üçün onlardan bir neçəsinə diqqət yetirək.

### Həzrət Davud Peyğəmbər(ə)

İmam Rza(ə) buyurur: "Həzrət Əli(ə) Kufə məscidində ölüm haqqında moizə edərkən bir nəfər soruşdu. Ya Əmirəlmöminin, qəfildən ölən ilk insan kim olmuşdur? İmam(ə) buyurdu: Həzrət Davud əleyhissalam. Minbərdə moizə edərkən qəfildən dünyasını dəyişmişdir."[1]

[1] Qəfil ölüm, səh. 110.

**Həzrət Süleyman Peyğəmbər(ə)**

Həzrət Süleyman(ə) həm Allahın peyğəmbəri idi, həm də Allah-təala ona səltənət bəxş etmişdi və bütün heyvanların, küləyin və s.-in ixtiyarını da ona vermişdi. Günlərin birində Həzrət Süleyman(ə) göstəriş verdi ki, bütün qoşunlar gəlib nizam-intizamla onun qarşısından keçsinlər. Bütün insanlar, heyvanlar və cinlər onun əmrilə gəlib sarayın qarşısından keçdilər. Həzrət Süleyman(ə) sarayda öz çəliyinə söykənib onlara tamaşa edirdi. Cənab Əzrayıl(ə) Allahın əmri ilə elə həmin halda onun canını aldı. Bu hadisənin üstündən on saat keçdi. Camaat gördü ki, Həzrət Süleyman(ə) elə olduğu kimi, yəni əsaya söykənmiş halda dayanıb. Beləcə, şayiələr başlandı. Bəziləri Süleymanın Allah, bəziləri onun cadugər olduğunu iddia etdilər. İnsan bu qədər eyni bir vəziyyətdə dayana bilməz və s. kimi cürbəcür fikirlər eşidilməyə başlandı. Bəzi mömin insanlar dedilər ki, belə sözlər danışmağa və ya şayiələr düzəltməyə ehtiyac yoxdur. Azacıq səbir edin, bir azdan hər şey aydınlaşar. Həzrət Süleyman(ə) on saat həmin halda qaldıqdan sonra Allah-təala bir qarışqanı göndərdi ki, gedib Süleymanın(ə) əlindəki əsanın altını oysun. Qarışqa gəlib əsanın altını o qədər oydu ki, Həzrət Süleymanın(ə) cəsədi yerə sərildi.

Həzrət Süleyman(ə) Həzrət Davudun(ə) oğlu idi. Onların hər ikisi dünyasını qəfildən dəyişmişdir. Onlar Allahın peyğəmbərləri və seçilmiş bəndələri idilər. Bütün bunlara baxmayaraq, qəfil ölüm onlardan da yan keçməmişdir. Qəfil ölümün gəlməsi insanın yaxşı və yaxud pis adam olmasına dəxli yoxdur. Hər bir insan qəfildən dünyasını dəyişə bilər. Tarixdə bir çox zalım insanlar da olub ki, qəfil ölüm onları haqlamışdır.

**Harun ər-Rəşid**

Harun zalım və qəddar xəlifələrdən biri idi. O, öz hakimiyyətini möhkəmləndirməkdən ötrü müharibə etmək məqsədilə Xorasana hərəkət etdi. Tus şəhərinə çatdıqda birdən-birə halı dəyişdi və həmin gecə cəhənnəmə vasil oldu. Yazırlar ki, o, ürək-damar çatışmazlığından (infarktdan) ölmüşdür.

**Məmun**

Məmun Harun ər-Rəşidin oğlu idi. Atasından sonra hakimiyyəti öz əlinə keçirdi. Onun ölümü haqda tarixi mənbələrdə belə yazıblar:

-Məmun bizanslılarla müharibəyə başlamışdı. Döyüşdən qayıdarkən çox yorğun və susuz idilər. Birdən kimsə dağın ətəyində su görüb hamını səslədi. Məmun özünü dağın arasından axan çeşməyə çatdırıb bir az su içdi. Həmin yerin gözəl mənzərəsi olduğunu gördükdə göstəriş verdi ki, orada istirahət üçün şərait yaratsınlar. Bulağın kənarında öz çadırlarını qurub, yerə xalça və palaz döşədilər. Məmun əyləşib bulağın axmasına tamaşa edirdi. Birdən onun gözü suyun içində üzən bir balığa sataşdı. Ətrafındakılara dedi: "Kim o balığı tuta bilsə, mükafat olaraq ona bir qılınc verəcəyəm." Bir nəfər çox çətinliklə olsa da, həmin balığı tuta bildi. Onu Məmuna gətirəndə balıq əlindən sürüşüb suya düşdü. Yenə də çox çətinliklə həmin balığı tutub gətirdi. Məmun göstəriş verdi ki, həmin balığı bişirib gətirsinlər. Qulluqçular balığı bişirməklə məşğul oldular. Elə bu vaxt birdən-birə Məmunu üşütmə tutdu. Onun üstünə nə qədər yorğan saldılarsa, yenə də xeyri olmadı. Tonqal qaladılar, amma yenə də Məmun özünə gələ bilmədi və ölüm elə o haldaca onu haqladı.

**Şəddad**

Şəddad Həzrət Hud Peyğəmbərin(ə) dövründə yaşayan zalım padşahlardan biri idi. Allah-təala insanların hidayəti üçün Hud əleyhissalamı peyğəmbər təyin etdi. Həzrət Hud(ə) camaata moizə edərək onları tək olan Allaha ibadət etməyə dəvət edirdi. Şəddada xəbər verdilər ki, şəhərdə bir nəfər camaatı başına yığıb moizə edir. Şəddad

Hudun(ə) apardığı təbliğatın onun hakimiyyətinə ziyanı olacağını hiss edib onu yanına gətizdirdi. Hudu(ə) saraya gətirdikdə Şəddad öz taxtında oturmuşdu. Hudun(ə) ona təzim etmədiyini görən Şəddad qəzəblənərək dedi: “Nə üçün mənə təzim etmirsən? Hud(ə) ona cavab vermədi. Şəddad dedi: Eşitmişəm öz sözlərinlə camaatı aldadıb onlara cənnət və cəhənnəm barədə danışırsan. Camaata belə sözlər danışmaqla hakimiyyəti ələ keçirmək fikrindəsən? Hud(ə) sakitcə dayanıb bircə kəlmə də danışmırdı. Şəddad dedi: Əgər sənin Allahının dəvətini qəbul etsəm, mənə nə verəcək? Hud(ə) buyurdu: Cənnətdə əbədi həyat. Şəddad soruşdu: Cənnət necə bir yerdir? Hud(ə) cənnətin bir neçə nemətinin adını çəkib gözəlliklərini tərif etdi.”

Şəddad cənnətin bu nemətlərinin adını eşidib yer üzündə özü üçün cənnət düzəltmək qərarına gəldi. Şam şəhərinin ən gözəl yerini seçib bütün şəhərlərdəki nümayəndələrinə tapşırdı ki, nə qədər qızıl-gümüşləri varsa ora göndərsinlər. Ən mahir ustaları və tanınmış mühəndisləri bu işə cəlb etdi. Beləcə, Şəddad özündən cənnət düzəltməyə başladı. Tarixi mənbələrdə yazılanlara görə, onlar bir neçə on il çalışıb fikirlərində təsəvvür etdikləri cənnəti ərsəyə gətirdilər. Yaxşı ağaclar əkib altından bulaq və çeşmələr çəkdilər. Daş-divarı qızıl-gümüşlə, ləl-cəvahiratla bəzədilər. Şəddada xəbər verdilər ki, cənnət hazırdır. Şəddad qohum-əqrəbası və qoşunu ilə birgə Şam şəhərinə yola düşdü. Uzaqdan onun üçün düzəldilmiş cənnətin qapısında ayaqları parlayan bir ceyran gördü. Soruşdu: “O nədir? Dedilər: Cənnətin qapılarında qızıldan bəzədilmiş ceyran fiqurlarıdır.” Bunu eşidən kimi atı həmin səmtə çapdı. Bir az getmişdi ki, bir nəfərin ona yaxınlaşdığını görüb qorxdu. Həmin şəxs Şəddada yaxınlaşdıqca qorxusu daha da artdı. O

yaxınlaşdıqda Şəddad soruşdu: "Sən kimsən? O dedi: Mən Əzrayılam və sənin canını almağa gəlmişəm. Sən elə güman edirsən ki, özünə cənnət tikməklə ölümdən amanda qalacaqsan? Şəddad dedi: Mənə möhlət ver, qoy cənnətimi görüm, sonra canımı alarsan. Əzrayıl dedi: Mən sənin canını burada almaq üçün tapşırıq almışam." Beləcə, Əzrayıl elə oradaca Şəddadın canını aldı və özü üçün düzəltdiyi cənnəti görmək ona qismət olmadı.

Bəzi kitablarda isə qeyd olunur ki, həmin vaxt Əzrayıldan soruşdular: "Bu qədər insanın canını aldığın halda heç olubmu ki, kiminsə canını alarkən ona rəhmin gəlsin və ürəyin yansın? Əzrayıl dedi: İki dəfə məndə belə bir hal olub. Günlərin birində bir gəmi tufana düşüb batdı. Qucağında körpə balası olan bir qadın özünü güc-bəla ilə sahilə çatdırdı. Böyük bir dalğa gəlib qadını haqladı. Qadın boğulacağını görüb uşağı dənizin sahilinə atdı və özü dəryada boğuldu. Mənə əmr gəldi ki, qadının canını alım. Uşaq sağ qaldı və ona ürəyim yandı. İkinci dəfə isə Şəddadın canını alarkən rəhmim gəldi və ürəyim onun halına yandı. O istəyirdi ki, düzəltdiyi cənnətinə girsin, amma ona möhlət verilmədi. Buna görə də onun canını alarkən ürəyim onun halına yandı. Əzrayıla bir nida gəldi ki, dənizin kənarına atılan və rəhmin gələn həmin uşaq Şəddadın özü imiş ki, onun canını alarkən yenə də ona rəhmin gəldi."[1]

Bütün bu hadisələr, qəfil ölümlər insanların ibrət götürməsi üçündür. Deməli, qəfil ölümlərin səbəblərindən biri də budur ki, Allah-təala insanları qəflət yuxusundan

---

[1] Bu rəvayət kitablarda qeyd edilib, amma sənədinin dəqiq olub-olmamasında şübhə var.

oyadır və onlara ibrət dərsi verir. Qəfil ölüm insanı hər zaman yaxalaya bilər.

**Pis və qəfil ölümləri uzaqlaşdırmağın yolları**

Ötən bəhslərimizdə qeyd olundu ki, insanın ömrü sona çatdıqda bəzən müqəddimə ilə (xəstələnmək kimi hallarla) dünyasını dəyişir, bəzən də heç bir müqəddimə olmadan qəfil ölüm onu haqlayır. Həmçinin qeyd edildi ki, qəfil ölüm mömin üçün Allahın rəhməti, kafir üçün əzabı, həm də insanlar üçün ibrət dərsidir. Sual oluna bilər ki, ömrün uzun və yaxud qısa olması insanın əməllərindən asılı olduğu kimi qəfil ölümdən yaxa qurtarmağın da yolları varmı? Yəni elə bir əməl varmı ki, insan ona riayət etməklə qəfil ölümü özündən uzaqlaşdırsın?

Cavab olaraq demək olar ki, insana qəfil ölümü uzaqlaşdırmaq şansı verilmişdir. Yəni insanın ömrünü artırıb-azaldan əməllər olduğu kimi, qəfil və yaxud müqəddiməli ölümə səbəb olan amillər də vardır. Bəzi əməllər səbəb olur ki, insan dünyasını müqəddimə ilə dəyişsin, bəzi əməllər isə insanın qəfil və pis halda ölməsinə gətirib çıxarır. Burada yaxşı olar ki, qəfil ölümü insandan uzaqlaşdıran əməllərdən bir neçəsinə diqqət yetirək:

**1) “Təğabun” surəsini oxumaq**

Ümumiyyətlə, Quranın hər bir surə və ayələrinin mənası vardır. Bu surə və ayələr insanlara ehkamları, əxlaqı, qaydaları və s. öyrətməklə yanaşı, həm də bəzi surələrin özünəməxsus təsir və xüsusiyyətləri vardır. Kim hansı surəni çox oxusa, həmin surə də insana öz təsirini göstərəcəkdir. O cümlədən insandan qəfil ölümü uzaqlaşdıran amillərdən biri “Təğabun” surəsini çox oxumaqdır.

“Təğabun” qiyamətin adlarından biridir. Allah-təala həmin surənin 9-cu ayəsində belə buyurur:

يَوْمَ يَجْمَعُكُمْ لِيَوْمِ الْجَمْعِ ذَلِكَ يَوْمُ التَّغَابُنِ...

-Elə bir gündə (dirildiləcəksiniz) ki, sizi toplaşma günü üçün cəm edəcəklər. Məhz o gün bir-birini (qarşılıqlı) ziyana uğratma günüdür…

Surənin özündə bəyan edilir ki, qiyamət günü təğabun günüdür. "Təğabun" sözünün bir mənası insanın ziyanının aşkara çıxmasına deyilir. "Ğabin" qiyamət günü udan, "məğbun" isə uduzan kəslərə deyilir. Qiyamət günü hər ikisi zahirə çıxacaq. Yəni o gün udan və uduzanlar bilinəcəkdir.

Bir mənası budur ki, dünya ticarətində kimin xeyir götürdüyü və kimin ziyana uğradığı bilinəcək. Hədislərdə belə qeyd olunur ki, dünya bir bazardır. Kimisi xeyir götürür, kimisi ziyana uğrayır. İnsan çalışmalıdır ki, bu dünyada ziyana düşməsin. Çünki qiyamət gününün müsabiqəsində qazanan və ziyana uğrayanlar tanınacaq.

Digər bir mənası isə belədir ki, cəhənnəm əhlinin cənnətdəki yerinin boş qaldığını görüb həsrət çəkəcəyi və cənnət əhlinin də cəhənnəmdəki yerinin boş qaldığını görüb sevinəcəyi günə "Təğabun" deyilir.

Hədislərdə qeyd olunur ki, insanlar qiyamət meydanına daxil olduqda cəhənnəmi yaxşı insanlara göstərərək deyəcəklər: "Əgər siz pis insan olsaydınız, yeriniz bura olacaqdı. Həmin insanlar cəhənnəmi gördükdə Allaha çox şükür edərək deyəcəklər ki, İlahi, şükürlər olsun Sənə, dünyada bizi hidayət etdin və cəhənnəmə salmadın." Pis insanlara da cənnəti göstərib deyəcəklər: "Əgər siz yaxşı insan olsaydınız və Allahın əmrinə itaət etsəydiniz, burada qərar tutacaqdınız. Belə olduqda onlar çox peşman olub həsrət çəkərək deyəcəklər ki, biz nə üçün dünyada Allaha itaət etmədik?"

“Təğabun” sözünün bir mənası hamının peşman olacağı gündür. Yəni mömin və kafir hər ikisi peşman olacaq. Kafir insanlar qazanmadıqları üçün peşman olacaqlar. Onlar dünyada ikən cənnətə və cəhənnəmə inanmırdılar. Allahın hökmlərinə əhəmiyyət verməyərək dünyaya aldanıb öz keflərini çəkirdilər. Amma qiyaməti öz gözləri ilə gördükdə həsrət və peşmançılıqlarının sayı-hesabı olmayacaqdır. Mömin isə ona görə peşman olacaqdır ki, nə üçün dünyada az əməl etdim və az qazandım? Bundan artıq da qazana bilərdim, amma qazanmadım.”

Mərhum Seyid Əliağa Qazi böyük alimlərdən biri idi. O, Təbrizdə anadan olmuşdu. Nəcəf şəhərində böyük-böyük müctəhidlərin ustadı idi. Onun barəsində yazırlar ki, dünyasını dəyişəndən sonra qız nəvəsi onu yuxuda görür. Onun nəvəsi də böyük alimlərdən idi. O deyir ki, babamı yuxuda görəndə ondan vəziyyəti haqda soruşduqda belə buyurdu: “Mən dünyada gündə bir dəfə Aşura ziyarətini oxuyardım. İndi peşmanam ki, nə üçün iki dəfə oxumamışam?”

Odur ki, qiyamət günü kafirlər dünyada iman gətirmədiklərinə və cəhənnəmə getdiklərinə görə peşman olacaqlar. Möminlər isə ona görə peşman olacaqlar ki, cənnətin yüksək dərəcələrini əldə edə bildikləri halda fürsəti əldən buraxdılar. Buna görə də bir mənada qiyamətin adına da “Təğabun günü” deyilir.

Alimlərin hədislərə istinadən irəli sürdükləri “Təğabun” sözünün bir mənası da yolunu azmış təkəbbürlü insanların və onların hiylələrinə aldanmış tərəfdarlarının peşman olacağı bir gündür. Yəni dünyada təkəbbürlülük edərək yollarını azmış, həm də öz tərəfdarlarını azdırmış insanlar qiyamət günü çox peşman olacaqlar. Təkəbbürlü adamlar

və yolunu azmışlar ona görə peşman olacaqlar ki, həm özləri yoldan çıxmışlar, həm də neçə-neçə insanın yoldan çıxmasına şərait yaratmışlar. Eyni zamanda onların cəhənnəmə getmələrinə də səbəb olmuşlar. Onların tərəfdarları da ona görə peşman olacaqlar ki, əgər o zalımlara itaət etməsəydilər, onlara zülm etməyəcəkdilər və nəticədə özləri də cəhənnəmə getməyəcəkdilər. Hər iki qrup insanlar qarşılıqlı olaraq bir-birinin cəhənnəmə getmələrinə səbəb olurlar.

Bütün bunlara baxmayaraq, “Təğabun” surəsinin xüsusi bir özəlliyi də vardır. “Təğabun” surəsi Qurani-Kərimdə əvvəli təsbihlə başlayan altı[1] surədən biridir. Bu altı surəyə “surəvi müsəbbihat” deyilir ki, onların da xüsusi fəzilətləri və özəllikləri vardır. “Təğabun” surəsinin özünəməxsus xüsusiyyətlərindən biri də budur ki, hər kim bu surəni davamlı olaraq oxusa və onunla ünsiyyət bağlasa, pis və qəfil ölümlər həmin şəxsdən uzaqlaşar.

قَالَ رَسُولُ اللّٰهِ(ص): مَنْ قَرَأَ سُورَةَ التَّغَابُنِ دُفِعَ عَنْهُ مَوْتُ الْفَجْأَةِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Kim “Təğabun” surəsini oxusa, qəfil ölümlər ondan uzaqlaşar.”[2]

**2) Dua**

---

[1] Hədid, Həşr və Səff surələri “Səbbəhə lillahi ma fis-səmavati və ma fil-ərz” ayəsilə, Təğabun və Cümə surələri “Yusəbbihu lillahi ma fis-səmavati və ma fil-ərz” ayəsilə, Əla surəsi isə “Səbbihismə Rəbbikəl Əla” ayəsi ilə başlanır.

[2] Qəfil ölüm, səh. 179.

İnsandan pis və qəfil ölümləri uzaqlaşdıran amillərdən biri də duadır. İmam Baqir(ə) Məhəmməd ibn Muslimə buyurdu:

أَلا أُخبِرُكَ بِمَا فِيهِ شِفاء مِن كُلّ دَاء وَسَامّ؟ قُلتُ: بَلى، قَال: اَلدُّعَاء

-Sənə bütün dərdlərin dərmanı və pis ölümlərin qarşısını alan bir şey öyrədimmi? Dedim: Bəli. Buyurdu: Dua.[1]

Ümumiyyətlə, duanın çox böyük təsir və xüsusiyyətləri vardır. Çox yaxşı olardı ki, insan namazdan əvvəl və sonra dua etsin. Münasib vaxtlarda Allahla təkbaşına qaldıqda, gecə yarı minacat və dua etmək çox yaxşıdır. "Məfatih" kitabında bütün günlərin hər vaxtı üçün dualar yazılmışdır. Bu o demək deyil ki, insan bütün bu duaların hamısını mütləq oxumalıdır. Bu duaların hansı biri kimin zövqünə və vaxtına uyğun gəlirsə, onu seçib həmişə oxuya bilər. Duanın xüsusiyyətlərindən biri budur ki, pis və qəfil ölümləri insandan uzaqlaşdırar. Əlbəttə, bu barədə xüsusi dualar da qeyd olunmuşdur.

Həzrət Əli(ə) buyurur: "Peyğəmbər(s) buyurdu: Bir gün namazdan sonra ümmətimin günahlarının bağışlanması üçün Allaha yalvarıb dua edirdim. Elə bu zaman Cəbrayıl(ə) nazil olub ərz etdi: Ey Məhəmməd, görürəm ki, ümmətin üçün ürəyin yanır və onların bağışlanmasını istəyirsən. Gəl, sənə bir dua deyim, sən də onu ümmətinə öyrət. Hər kim ayın 13, 14 və 15-i üç gün oruc tutub bu duanı oxuyaraq Allahı çağırsa, istədiyi dərəcəyə çata bilər. Həmçinin hər kim bu duanı oxusa, Allah-təala ondan qəfil ölümləri uzaqlaşdırar. Peyğəmbər(s) buyurdu: Cənab

---

[1] Yenə orada, səh. 181.

Cəbrayıl(ə) bu duanın fəzilət və xüsusiyyətləri barədə o qədər danışdı ki, məni heyrətə saldı.

Həmin dua belədir:

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ سُبْحانَ اللهِ العَظِيمِ وَبِحَمْدِهِ (تقولها ٣ مرّات ثم تقول) سُبْحانَهُ مِنْ إِلهٍ ما أَمْلَكَهُ وَسُبْحانَهُ مِنْ مَلِيكٍ ما أَقْدَرَهُ وَسُبحانَهُ مِنْ قَدِيرٍ ما أَعْظَمَهُ وَسُبحانَهُ مِنْ عَظِيمٍ ما أَجَلَّهُ وَسُبحانَهُ مِنْ جَلِيلٍ ما أَمْجَدَهُ وَسُبحانَهُ مِنْ ماجِدٍ ما أَرْأَفَهُ وَسُبْحانَهُ مِنْ رَؤُوفٍ ما أَعَزَّهُ وَسُبْحانَهُ مِنْ عَزِيزٍ ما أَكْبَرَهُ وَسُبْحانَهُ مِنْ كَبِيرٍ ما أَقْدَمَهُ وَسُبْحانَهُ مِنْ قَدِيمٍ ما أَعْلاهُ وَسُبْحانَهُ مِنْ عالٍ ما أَسْناهُ وَسُبْحانَهُ مِنْ سَنِي ما أَبْهاهُ وَسُبْحانَهُ مِنْ بَهِي ما أَنْوَرَهُ وَسُبْحانَهُ مِنْ مُنِيرٍ ما أَظْهَرَهُ وَسُبْحانَهُ مِنْ ظاهِرٍ ما أَخْفاهُ وَسُبْحانَهُ مِنْ خَفي ما أَعْلَمَهُ وَسُبْحانَهُ مِنْ عَلِيمٍ ما أَخْبَرَهُ وَسُبْحانَهُ مِنْ خَبِيرٍ ما أَكْرَمَهُ وَسُبْحانَهُ مِنْ كَرِيمٍ ما أَلْطَفَهُ وَسُبْحانَهُ مِنْ لَطِيفٍ ما أَبصَرَهُ وَسُبحانَهُ مِنْ بصِيرٍ ما أَسْمَعَهُ وَسُبْحانَهُ مِنْ سَمِيعٍ ما أَحْفَظَهُ وَسُبْحانَهُ مِنْ حَفِيظٍ ما أَمْلاهُ وَسُبحانَهُ مِنْ مَلي ما أَوْفاهُ وَسُبْحانَهُ مِنْ وَفي ما أَغْناهُ وَسُبْحانَهُ مِنْ غَني ما أَعْطاهُ وَسُبْحانَهُ مِنْ مُعْطٍ ما أَوْسَعَهُ وَسُبْحانَهُ مِنْ واسِعٍ ما أَجْوَدَهُ وَسُبْحانَهُ مِنْ جَوادٍ ما أَفْضَلَهُ وَسُبْحانَهُ مِنْ مُفْضِلٍ ما أَنْعَمَهُ وَسُبْحانَهُ مِنْ مُنْعِمٍ ما أَسْيدَهُ وَسُبْحانَهُ مِنْ سَيدٍ ما أَرحَمَهُ وَسُبْحانَهُ مِنْ رَحِيمٍ ما أَشَدَّهُ وَسُبْحانَهُ مِنْ شَدِيدٍ ما أَقْواهُ وَسُبحانَهُ مِنْ قَوِي ما أَحكَمَهُ وَسُبْحانَهُ مِنْ حَكِيمٍ ما

أَبْطَشَهُ وَسُبْحانَهُ مِنْ باطِشٍ ما أَقْوَمَهُ وَسُبْحانَهُ مِنْ قَيومٍ ما أَحْمَدَهُ وَسُبْحانَهُ مِنْ حَمِيدٍ ما أَدْوَمَهُ وَسُبْحانَهُ مِنْ دائِمٍ ما أَبقاهُ وَسُبْحانَهُ مِنْ باقٍ ما أَفْرَدَهُ وَسُبْحانَهُ مِنْ فَرْدٍ ما أَوْحَدَهُ وَسُبْحانَهُ مِنْ واحِدٍ ما أَصْمَدَهُ وَسُبْحانَهُ مِنْ صَمَدٍ ما أَمْلَكَهُ وَسُبْحانَهُ مِنْ مالِكٍ ما أَوْلاهُ وَسُبْحانَهُ مِنْ وَلِي ما أَعْظَمَهُ وَسُبْحانَهُ مِنْ عَظِيمٍ ما أَكْمَلَهُ وَسُبْحانَهُ مِنْ كامِلٍ ما أَتَمَّهُ وَسُبْحانَهُ مِنْ تامٍّ ما أَعْجَبهُ وَسُبْحانَهُ مِنْ عَجِيبٍ ما أَفْخَرَهُ وَسُبْحانَهُ مِنْ فاخِرٍ ما أَبعَدَهُ وَسُبْحانَهُ مِنْ بعِيدٍ ما أَقْرَبهُ وَسُبْحانَهُ مِنْ قَرِيبٍ ما أَمْنَعَهُ وَسُبْحانَهُ مِنْ مانِعٍ ما أَغْلَبهُ وَسُبْحانَهُ مِنْ غالِبٍ ما أَعْفاهُ وَسُبْحانَهُ مِنْ عَفُوٍّ ما أَحْسَنَهُ وَسُبْحانَهُ مِنْ مُحْسِنٍ ما أَجْمَلَهُ وَسُبْحانَهُ مِنْ جَمِيلٍ ما أَقْبلَهُ وَسُبْحانَهُ مِنْ قابِلٍ ما أَشْكَرَهُ وَسُبْحانَهُ مِنْ شَكُورٍ ما أَغْفَرَهُ وَسُبْحانَهُ مِنْ غَفُورٍ ما أَكْبرَهُ وَسُبْحانَهُ مِنْ كَبِيرٍ ما أَجْبرَهُ وَسُبْحانَهُ مِنْ جَبّارٍ ما أَدْيَنَهُ وَسُبْحانَهُ مِنْ دَيّانٍ ما أَقْضاهُ وَسُبْحانَهُ مِنْ قاضٍ ما أَمْضاهُ وَسُبْحانَهُ مِنْ ماضٍ ما أَنْفَذَهُ وَسُبْحانَهُ مِنْ نافِذٍ ما أَرْحَمَهُ وَسُبْحانَهُ مِنْ رَحِيمٍ ما أَخْلَقَهُ وَسُبْحانَهُ مِنْ خالِقٍ ما أَقْهَرَهُ وَسُبْحانَهُ مِنْ قاهِرٍ ما أَمْلَكَهُ وَسُبْحانَهُ مِنْ مَلِيكٍ ما أَقْدَرَهُ وَسُبْحانَهُ مِنْ قادِرٍ ما أَرْفَعَهُ وَسُبْحانَهُ مِنْ رَفِيعٍ ما أَشْرَفَهُ وَسُبْحانَهُ مِنْ شَرِيفٍ ما أَرْزَقَهُ وَسُبْحانَهُ مِنْ رازِقٍ ما أَقْبضَهُ وَسُبْحانَهُ مِنْ قابِضٍ ما

أَبْسَطَهُ وَسُبْحانَهُ مِنْ باسِطٍ ما أَهْداهُ وَسُبْحانَهُ مِنْ هادٍ ما أَصْدَقَهُ وَسُبْحانَهُ مِنْ صادِقٍ ما أَبْدَئَهُ وَسُبْحانَهُ مِنْ بادِيءٍ ما أَقْدَسَهُ وَسُبْحانَهُ مِنْ قُدُّوسٍ ما أَطْهَرَهُ وَسُبْحانَهُ مِنْ طاهِرٍ ما أَزْكاهُ وَسُبْحانَهُ مِنْ زَكي ما أَبْقاهُ وَسُبْحانَهُ مِنْ باقٍ ما أَعْوَدَهُ وَسُبْحانَهُ مِنْ عَوّادٍ ما أَفْطَرَهُ وَسُبْحانَهُ مِنْ فاطِرٍ ما أَرْعاهُ وَسُبْحانَهُ مِنْ راعٍ ما أَعْوَنَهُ وَسُبْحانَهُ مِنْ مُعِينٍ ما أَوْهَبَهُ وَسُبْحانَهُ مِنْ وَهّابٍ ما أَتْوَبَهُ وَسُبْحانَهُ مِنْ تَوّابٍ ما أَسْخاهُ وَسُبْحانَهُ مِنْ سَخي ما أَبصَرَهُ وَسُبْحانَهُ مِنْ بصِيرٍ ما أَسْلَمَهُ وَسُبْحانَهُ مِنْ سَلِيمٍ ما أَشْفاهُ وَسُبْحانَهُ مِنْ شافٍ ما أَنْجاهُ وَسُبْحانَهُ مِنْ مُنْجٍ ما أَبَرَّهُ وَسُبْحانَهُ مِنْ بارٍّ ما أَطْلَبهُ وَسُبْحانَهُ مِنْ طالِبٍ ما أَدْرَكَهُ وَسُبْحانَهُ مِنْ مُدْرِكٍ ما أَشَدَّهُ وَسُبْحانَهُ مِنْ شَدِيدٍ ما أَعْطَفَهُ وَسُبْحانَهُ مِنْ مُتَعَطِّفٍ ما أَعْدَلَهُ وَسُبْحانَهُ مِنْ عادِلٍ ما أَتْقَنَهُ وَسُبْحانَهُ مِنْ مُتْقِنٍ ما أَحْكَمَهُ وَسُبْحانَهُ مِنْ حَكِيمٍ ما أَكْفَلَهُ وَسُبْحانَهُ مِنْ كَفِيلٍ ما أَشْهَدَهُ وَسُبْحانَهُ مِنْ شَهيدٍ ما أَحْمَدَهُ وَسُبْحانَهُ هُوَ اللهُ العَظِيمُ وَبِحَمْدِهِ وَالحَمدُ للهِ وَلا إِلهَ إِلاّ اللهُ وَاللهُ أَكْبَرُ وَللهِ الحَمْدُ وَلا حَوْلَ وَلا قُوَّةَ إِلاّ بِاللهِ العَلي العَظِيمِ دافِعِ كُلِّ بليةٍ وَهُوَ حَسْبي وَنِعْمَ الوَكِيلُ

Sonra Həzrət Peyğəmbər(s) buyurdu: “Hər hansı müharibəyə gedərkən bu duanı oxuyurdum. Beləcə, elə bir

müharibə olmadı ki, bu duanı oxuduqdan sonra onu qələbə ilə başa vurmayaq."[1]

[1] Biharül-ənvar, 92-ci cild, səh. 367.

**3) Sədəqə**

Ötən bəhslərimizdə sədəqə barədə müəyyən qədər söhbət etmişik. Sədəqə elə bir əməldir ki, onun da özünəməxsus özəllik və xüsusiyyətləri vardır. O cümlədən sədəqə vermək insanı pis ölümlərdən qoruyar.

قَالَ رَسُولُ اللّٰهِ(ص): إِنَّ الصَّدَقَةَ تَدْفَعُ مِيتَةَ السُّوءِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Sədəqə pis ölümləri uzaqlaşdırır."[1]

İmam Baqir(ə) buyurur: "Sədəqə vermək insanın pis ölümünə səbəb olan yetmiş bəlanın qarşısını alır və sədəqə verən insan heç bir vaxt pis ölümlərlə dünyadan getmir."[2]

Şeyx Səduq öz kitabında İmam Sadiqdən(ə) belə bir rəvayət danışır: "Günlərin birində Həzrət İsa(ə) tərəfdarları ilə bir məntəqədən keçirdi. Orada bir dəstə insan şadlıq edirdi. Bu şadlığın səbəbini soruşduqda dedilər: Ya Ruhəllah, filankəsin qızının toyudur. İsa(ə) orada dayanıb mənalı baxışlarla camaata baxaraq tərəfdarlarına buyurdu: Bu gün şadlıq edirlər, amma bilmirlər ki, sabah elə burada matəm tutacaqlar. Soruşdular: Ya Ruhəllah, kimin matəmini? Buyurdu: Toyu olan həmin qızın. O qız bu gecə öləcək."

Səhərisi gün həmin yerə gəldikdə gördülər ki, heç bir yas məclisi yoxdur və gəlin də ölməyib. Həzrət İsanın (ə) tərəfdarları soruşdular: "Ya İsa, dünən buyurdunuz ki, o qız öləcək, amma hələ də sağ-salamatdır. İsa(ə) buyurdu: Dünən gecə Allah-təala bir ilanı göndərdi ki, gecə həmin gəlini sancıb öldürsün. Amma gəlin gecə sədəqə verdiyi üçün Allah-təala həmin sədəqəyə xatir bəlanı və ölümü

---

[1] Qəfil ölüm, səh. 191.

[2] Yenə orada.

ondan uzaqlaşdırdı. Sonra gəlinin yanına gəlib soruşdular: Gecə kiməsə sədəqə vermisənmi? Gəlin dedi: Bizim məntəqədə yoxsul bir insan yaşayır. Hər cümə axşamı bizim qohum-əqrəba ona sədəqə verir. Dünən o, yenə də gəlmişdi. Camaatı bir neçə dəfə səslədi, ona cavab verən olmadı. Hamının başı toya qarışdığı üçün ona fikir verən yox idi. Amma o, mənim diqqətimdən yayınmadı. Gəlin olmağıma baxmayaraq, onun halına ürəyim ağrıdı və nə lazım idisə hazırlayıb ona verdim. O da razılığını bildirib mənə dua edə-edə getdi."[1]

Odur ki, sədəqə vermək insanın ömrünü uzadır, ruzisini bol edir, həm də insanı pis və faciəli ölümlərdən qoruyur.

**4) "Huməzə" surəsini oxumaq**

İmam Səccad(ə) buyurur: "Hər kim vacib namazlarda "Huməzə" surəsini oxusa, pis ölümlər ondan uzaqlaşar."[2]

**5) Qohum-əqrəbaya baş çəkmə**

Həzrət Peyğəmbər(s) buyurur: "Kim ömrünün uzun, ruzisinin bol olmasını və pis ölümlərdən nicat tapmasını istəyirsə, gərək təqvalı olsun və qohum-əqrəbaya baş çəksin."[3]

**6) Yaxşı işlər görmək**

---

[1] Qəfil ölüm, səh. 191.
[2] Yenə orada, səh. 193.
[3] Yenə orada, səh. 194.

İnsan əlindən gələn hər bir yaxşı və xeyirxah işi (əməli) görməklə pis ölümləri özündən uzaqlaşdıra bilər. Yəni yaxşı və xeyirxah əməllərin xüsusiyyətlərindən biri də pis və qəfil ölümləri insandan uzaqlaşdırmaqdır.

قَالَ عَلِيٌّ(ع): وَصَنَايِعُ الْمَعْرُوفِ فَإِنَّهَا تدفع ميتة السّوء تَقِي مَصَارِعَ الْهَوَانِ

-İmam Əli(ə) buyurur: "Yaxşı və xeyirxah işləri görmək pis ölümləri insandan uzaqlaşdırar və insanı rüsvayçılıqdan qoruyar."[1]

Beləliklə, adlarını çəkdiyimiz əməllərin vasitəsilə insan öz taleyində dəyişiklik edərək qəfil və pis ölümləri özündən uzaqlaşdıra bilər. Allah-təala insana öz taleyində dəyişiklik edə bilmək üçün bu qədər ixtiyar və icazə vermişdir.

## Ölümün batini surəti

Ötən bəhslərimizdə qeyd olundu ki, ölümün iki forması vardır. Onlardan biri zahiri, digəri isə batini formalardır. Həmçinin ölümün zahiri forması haqda müəyyən qədər bəhs etdik. Bu bəhsimizdə isə bir neçə cümlə ölümün batini forması barədə danışacağıq. Əsas söhbət də elə burasındadır ki, insan dünyasını dəyişərkən bu dünyadan xoşbəxt olaraq ayrılır, yoxsa bədbəxt halda gedir. İnsanın dünyadan imanlı və yaxud imansız ayrılması onun taleyinin nəticəsidir.

İnsanın ömrü sona çatarkən ətrafında əyləşənlərin ona heç bir faydası olmur. Yəni insan ehtizaz halına (can ayağına) düşdükdə zahirdə onun huşunun başından çıxdığı

[1] Qəfil ölüm, səh. 194.

müşahidə olunur. Sanki ətrafında kimin olduğunu görmür. Ona bu halda ölüm bihuşluğu gəlir. Həm Quranda, həm də hədislərdə bu haqda qeyd olunmuşdur. “Qaf” surəsinin 19-cu ayəsində oxuyuruq:

وَجَاءتْ سَكْرَةُ الْمَوْتِ بِالْحَقِّ ذَلِكَ مَا كُنتَ مِنْهُ تَحِيدُ

-Ölüm bihuşluğu həqiqətən gələr və (başqa aləm barəsində insanın qarşısına) həqiqəti çıxarar. (Və ona deyilər:) Bu, sənin qaçdığın həmin şeydir.

Əlbəttə, bu barədə keçmiş bəhslərimizdə ətraflı şəkildə söz açılmışdır. Əsas söhbətimiz bundan ibarətdir ki, insan ehtizaz halına düşdükdə gözünün önündən müəyyən qədər pərdələr götürülür və aləmin həqiqətlərini görə bilir. Bu halda insanın dünya (zahiri) gözü bağlanır və bərzəx (bəsirət) gözü açılır. Belə olduqda insan dünyada axirət barəsində eşitdiklərini və təsəvvür etmədiklərini görür. İnsanın can verərkən nələri gördüyü haqda söhbət etmişik. Onlardan biri də dünyada etdiyi əməlləridir ki, bəsirət gözü açıldıqda bir ömür boyu etdiyi bəzi əməllərinin həqiqəti gəlib gözünün qarşısında dayanır. Ona görə bəzi əməlləri qeyd edirəm ki, hədis və rəvayətlərə əsasən insan dünyada etdiyi əməllərin bir qismini qəbirdə və çoxunu isə qiyamət günündə görəcəkdir. İnsan bu dünyada yaxşı və pis işlər görür, namaz qılır, oruc tutur, halal yeyir, haram yeyir, düz və yalan danışır və s. kimi müxtəlif işlər görür. Bu baxımdan insanlar müxtəlif qruplara ayrılır. Yəni adam var ki, yaxşı əməlləri, adam da var ki, pis əməlləri çoxdur. Elə insanlar da var ki, əməlləri yarıbayarıdır.

Bizim söhbətimiz hazırda bu haqda deyil. Lazım gəlsə gələcək bəhslərimizdə bu məsələyə də toxunacağıq. Əsas sözümüz budur ki, insan can verərkən bəsirət gözü

açıldıqda dünyada etdiyi əməllərini necə görür? Məsələn, namaz qılan bir insan ölüm ayağına düşdükdə namazını hansı şəkildə görür? Görəsən, insan etdiyi əməlləri bu dünyadakı formasında görür, yoxsa tamamilə başqa bir formada ona göstərirlər? Cavab belədir ki, insan öz əməllərinin həqiqətini təcəssüm olunmuş halda görəcəkdir. Yəni insanın əməlləri təcəssüm olacaq və onlar qiyamətdəki şəklində görünəcəkdir. İnsan bu dünyada etdiyi əməlləri dünyadakı formasında deyil, axirətdəki formasında görəcək və ona məxsus əməllər olduğunu biləcəkdir. Hər bir əməlin dünyada bir şəkli, qiyamətdə isə başqa bir şəkli vardır. Deməli, can verən insanın bəsirət gözü açıldıqda o, dünyada etdiyi əməlləri qiyamətdəki formasında görür.

Quranda "Möminun" surəsinin 99-100-cü ayələrində bu məsələyə belə işarə olunur:

حَتَّى إِذَا جَاءَ أَحَدَهُمُ الْمَوْتُ قَالَ رَبِّ ارْجِعُونِ. لَعَلِّي أَعْمَلُ صَالِحًا فِيمَا تَرَكْتُ كَلَّا إِنَّهَا كَلِمَةٌ هُوَ قَائِلُهَا...

-Nəhayət, onlardan (müşriklərdən) birinin ölümü çatan zaman (canı mələklərin əlində olduğu halda Allaha) deyər: "Ey Rəbbim, məni (dünyaya) qaytar, bəlkə (dünyada) qoyduğum şey (dünya malı və ömür günləri) barəsində yaxşı bir iş gördüm. Xeyir, bu, onun dediyi (boş) sözdür (gerçəkləşməyəcəkdir)."

Əgər bir insan bu dünyada 70-80 il yaşayıb Allahın buyurduqlarına, peyğəmbərlərin gətirdiklərinə, şəriət məsələlərinə, böyük-böyük alimlərin və müctəhidlərin yazdıqlarına əhəmiyyət vermirsə, xüsusən texnologiyanın sürətlə inkişaf etdiyi və informasiyaların tez bir vaxtda dünyaya yayıldığı bir zamanda axirətinə lazım olan

məsələləri oxuyub onları qulaqardına vurursa, canı bədəndən çıxdığı halda hamısının həqiqətini gördükdə peşman olub yaxşı işlər görmək üçün Allahdan onu dünyaya qaytarmasını istəyəcəkdir. Onda artıq çox gec olacaq və ona heç bir möhlət verilməyəcəkdir.

قَالَ عَلِيٌّ(ع): فَإِنَّكُمْ لَوْ عَايَنْتُمْ مَا قَدْ عَايَنَ مَنْ مَاتَ مِنْكُمْ لَجَزِعْتُمْ وَ وَهِلْتُمْ وَ سَمِعْتُمْ وَ أَطَعْتُمْ وَ لَكِنْ مَحْجُوبٌ عَنْكُمْ مَا قَدْ عَايَنُوا وَ قَرِيبٌ مَا يُطْرَحُ الْحِجَابُ...

-Həzrət Əli(ə) buyurur: "Əgər siz ölülərinizin gözləri ilə gördüklərini gözünüz ilə görsəniz, mütləq qəmgin olarsınız və ah-zar edərsiniz, *(Allahın əmr və qadağanını)* eşidər və itaət edərsiniz, lakin keçmişdəkilərin gördükləri şeylər sizdən gizlindir. *(Buna görə də ah-zar etmir, qorxmur və Allaha, onun Rəsuluna və haqq olan xəlifəsinə itaət etmir və tabe olmursunuz).* Tezliklə *(keçmişdəkilərin gördüklərini siz də görərsiniz deyə)* pərdə qaldırılacaq."[1]

Bu dünyada insanların gözlərində pərdə olduğu üçün yalnız varlıqların zahiri tərəfini müşahidə edə bilir. Bundan başqa heç bir şey gözümüzə dəymir. Amma gözlərdən pərdələr götürüldüyü zaman insan başa düşəcək ki, bu aləm başqa, o biri aləm isə tamam başqa bir şeydir. Hədislərdə qeyd olunur ki, bu dünyanın hamısı o biri aləmin kölgəsində qalır. İnsan həmin kölgədən kənara çıxan zaman o aləmi və bütün həqiqətləri gözləri ilə görəcəkdir.

## Əməllərin təcəssümü

[1] Nəhcül-bəlağə, 20-ci xütbə.

İnsanın cismani gözləri bağlandıqdan və bərzəx gözləri açıldıqdan sonra əməllərini həmin bərzəx gözü ilə görəcəkdir. Buna əməllərin təcəssümü deyilir. Yəni insanın dünyada etdiyi əməllər onun gözünə təcəssüm olunmuş halda görünəcəkdir.

Əməllərin təcəssümü ona deyilir ki, insanın etdiyi əməllər onun gözünün qarşısında təcəssüm olunacaqdır. Yəni əməlin həqiqi surəti görünəcək. Alimlər "əməllərin təcəssümü"nü belə tərif etmişlər:

1. İnsanın bu dünyada etdiyi hər bir əməl o biri dünyaya münasib şəkildə formalaşacaqdır;

2. Qiyamətdə insana verilən cəza və mükafatlar, nemət və əzablar, şadlıq və işgəncələrin hamısı onun bu dünyada etdiyi əməllərinin həqiqətidir;[1]

3. İnsanın əməlinin cəza və mükafatı elə onun dünyada etdiyi əməllər olacaq. Məsələn, imtahanda iştirak edən şagird ona verilən sualları yazılı şəkildə cavablandırır. Sonra həmin imtahan vərəqələri yoxlanılır və şagirdə qiymət verilir. Şagirdin aldığı qiymət elə onun öz yazdığının cavabıdır. Yəni şagird yazılarının özünü qiymət şəklində görür.

Bu barədə bir mətləbi də bilmək yaxşı olardı. Həmin mətləb də ondan ibarətdir ki, əməllərin təcəssümü dedikdə biz elə başa düşürük ki, yalnız insanın etdiyi əməllər təcəssüm olunacaqdır. Xeyr, məsələ təkcə bununla bitmir. Hətta insanın daxili aləmi və əqidəsi də təcəssüm olunacaq. Həm tövhidi qəbul edən, həm də etməyən hər bir insan öz əqidəsini başqa formada görəcəkdir. Nübüvvət və imaməti qəbul edən və etməyən insanlar da

[1] Mənşuri-Cavid, 9-cu cild, səh. 406.

öz əqidələrini özünəməxsus şəkildə görəcəklər. Hətta insanın niyyəti də zahirə çıxaraq təcəssüm olunacaqdır. Niyyət elə bir şeydir ki, onu insanların içərisində özündən savayı başqa heç kim bilmir. Xoş və bəd niyyətindən asılı olmayaraq, qiyamət günündə onların hər biri öz surətində mücəssəm olacaqdır.

İnsanın bu dünyadakı surət və forması gözümüzlə gördüyümüz formadır. Amma pərdənin arxasındakı surəti niyyətinin yaratdığı qiyafədir. Böyük alim və filosof mərhum Səbzevari demişdir: “İnsan əxlaq etibarilə üç hala düşə bilir. Yəni insanın niyyət və əxlaqını görmək olsaydı, üç surətdən birində görmək mümkün olardı: mələk, heyvan və şeytan surətlərində.” İnsanın bu formalara düşməsinin səbəbi onun əqidəsi, əməli, əxlaq və niyyəti ilə bağlıdır. Ustad Səbzevari yenə də buyurur: “İnsanın dünyəvi surət və qiyafəsinin bir cür olmasına baxmayaraq, onun axirətdəki surətləri müxtəlif qiyafələrə düşə bilər. Əgər şəhvət və qəzəb insana qalib gəlsə, onun axirətdəki surəti heyvan qiyafəsinə düşər. Əgər insanın hiyləsi, fırıldağı, kələyi və hoqqabazlığı çox olsa, axirətdəki surəti şeytanın qiyafəsində olar. Əgər bir insanın əxlaq və imanı gözəl olsa, axirətdəki surətini cənnətə münasib gözəl qiyafədə görmək olar.” [1]

Mərhum Ayətullah Ağacamal Xunsari İslam aləminin məşhur, görkəmli və əzəmətli şəxsiyyətlərindən biri olmuşdur. O, fiqh, irfan, əxlaq elmində mükəmməl bir alim idi. Ayətullah Xunsari Nəcəf şəhərində yaşayırdı və Həzrət Əlinin(ə) qəbrini də tez-tez ziyarət edirdi. Həzrət

[1] Mənşuri-Cavid, 9-cu cild, səh. 407.

Əlinin(ə) ziyarətgahının xidmətçisi onun barəsində belə bir əhvalat danışır:

-Bir gün gecəyarısı gördüm ki, Ayətullah Xunsari Həzrət Əlinin(ə) qəbrinin yanına gəlib dayandı və müxtəlif işarələrlə söhbət etməyə başladı. Mən yalnız onun dediklərindən bir cümləni eşitdim ki, deyirdi: "Ya Əmirəl-möminin, istəmirəm, al məndən." Mən çox təəccübləndim. Çünki 30 ildən artıq idi ki, İmam Əlinin(ə) ziyarətgahında işləyirdim. Bu otuz ildə gündə yüzlərlə insan Həzrətin(ə) qəbrinin kənarında dayanıb deyərdilər: "Ya Əli(ə), filan istəyimi ver mənə." Lakin Ayətullah Xunsarinin "Ya Əli(ə), al məndən, istəmirəm" - deməsi məni həqiqətən də təəccübləndirmişdi.

Ayətullah Xunsari ziyarətgahdan getmək istəyərkən mən ona yaxınlaşıb bunun sirrini soruşdum. Ancaq o, heç bir söz demədi. Mən yenə də israr etdim və dedim: "Əgər bunun sirrini mənə deməsən, ürəyimdə qalacaq." Sonra Həzrət Əlinin(ə) pak ruhuna and verdim ki, bu sirri mənə açsın. Ayətullah Xunsari buyurdu: "Mən bunun sirrini sənə deyərəm. Lakin nə qədər ki, mən sağam, heç bir kəsə bu barədə bir kəlmə belə deməməlisən." Mən ona söz verdim ki, heç bir kəsə bir kəlmə də deməyəcəyəm. O, mənə dedi: "Allah mənə elə bir məqam verib ki, mən onun vasitəsilə insanların iç üzünü və həqiqi qiyafəsini görürəm. Evimdə bir süfrə kənarında oğlanlarım, qızlarım, dostlarımla əyləşəndə onların hərəsini bir sifətdə görürəm. Məsələn, biri it, biri pişik və s. kimi sifətlərdə mənə görünür. Ürəyim buna dözmür və çox əziyyət çəkirəm. Mən bu hala dözə bilmədiyim üçün Həzrət Əlinin(ə) yanına gəlib bu keyfiyyəti məndən almasını istədim."

Günlərin birində Həzrət Peyğəmbər(s) Əbu Əyyub Ənsarinin evinə getmişdi. Məaz ibn Cəbəl də Həzrətin(s)

yanında əyləşmişdi. Söhbət əsnasında Məaz ibn Cəbəl Həzrət Peyğəmbərdən(s) bir söz soruşmaq üçün icazə istədi. Həzrət(s) icazə verdikdən sonra o, belə ərz etdi: “Ya Rəsulallah, Allah-təala “Nəbə” surəsinin 18-ci ayəsində buyurur:

يَوْمَ يُنفَخُ فِي الصُّورِ فَتَأْتُونَ أَفْوَاجًا

-Sura üfürüləcəyi gün siz (qəbirlərdən çıxıb haqq-hesab olunmaq üçün) dəstə-dəstə gələcəksiniz.

Bu ayənin mənası nədir?”

Həzrət Peyğəmbər(s) buyurdu: “Ey Məaz! Çox böyük bir məsələ barəsində soruşdun! Mənim ümmətimdən on dəstə başqaları ilə fərqli müxtəlif surətlərdə məhşərə gətiriləcəklər (Onlar İslam ümmətinin içərisində olsalar da belə onları ayıraraq məhşərə gətirəcəklər.): 1. Bəziləri meymun surətində; 2. Bəziləri donuz surətində; 3. Bəziləri başları yerdə, ayaqları isə göydə hərəkət edən halda; 4. Bəziləri kor və sərgərdan halda; 5. Bəziləri kar və lal halda; 6. Bəzilərinin əlləri və ayaqları kəsilmiş halda; 7. Bəziləri dillərini çeynəyərək ağızlarından çirk, qan axdığı və (bütün) məhşər əhlinin onlara nifrət etdiyi halda; 8. Bəziləri budaqları oddan olan ağaclara bağlanmış halda; 9. Bəziləri üfunətli heyvan ölüsündən də pis iy verdikləri halda; 10. Bəziləri bədənlərinə oddan olan paltarlar geyinmiş halda.”

Sonra Həzrət Peyğəmbər(s) bu əzabların səbəblərini izah edərək buyurdu:

فَأَمّا الّذينَ بِصُورَةِ القِرَدَة، فَالقتّات (النَّمّامُون) وَ أَمَّا الَّذينَ عَلَى صُورةِ الْخَنَازِير فأَهلُ السُّحت وَ أَمَّا الْمُنَكِسُونَ عَلى رُؤُسِهم فَأَكَلَةُ الرِّبا، وَ العُمي الجَائِرُون فِي الحُكم، وَالصُّمّ البكم الْمُعجِبُون بِأَعمالِهم، وَالَّذِينَ

يَمضَغُون بِأَلسِنَتِهِم اَلعُلماء وَالقضاة اَلَّذين خَالف أَعمالهم أقوالهم، وَالْمُقَطّعةُ أَيدِيهِم وَ أَرجهلم الَّذِين يُؤذون الجِيران، وَالْمُصَلَّبُون عَلي جُذُوع مِن نَارِ فَالسُّعاة بِالنَّاسِ إِلي السُّلطان وَالّذِينَ هُم أَشَدّ نَتِناً مِنَ الجيف فَالّذين يَتَمَتَّعُون بِالشَّهَوات وَاللَّذّات وَيَمنَعُونَ حَقّ الله فِي أَموَالِهِم، وَالَّذِينَ يلبسون الجباب فَأَهلُ الفَخرِ والخُيَلاء

-Meymun şəklində gələnlər söz aparıb-gətirənlər, sözgəzdirənlərdir. Donuz surətində məşhur olanlar rüşvət alanlar və haram mal yeyənlərdir, kəlləsi üstə hərəkət edənlər sələm yeyənlərdir, kor gələnlər mühakimədə zülm edənlərdir, kar və kor olanlar rəftarlarında (əməl və ibadətlərində) xudpəsənd olub özünü bəyənənlərdir, dillərini dişləyənlər əməlləri sözləri ilə uyğun gəlməyən alimlər və qazilərdir. Əlləri və ayaqları kəsilmiş halda gələnlər qonşularına əziyyət vermiş olanlardır. Oddan olan budaqlardan asılan kəslər insanların hüzurunda camaatdan şikayət edənlərdir. Üfunətli iyləri olan şəxslər dünyada nəfsə, şəhvətə uyan, ləzzətlərin ardınca gedib öz mal-dövlətlərindən Allahın haqqını verməyənlərdir. Bədənlərində oddan paltar olanlar isə təkəbbürlülər və lovğalardır.[1]

Hədisdə bir-bir adı çəkilən hallar günahkar insanların daxili surətləridir. Zahiri gözlərlə bu qiyafələri görmək mümkün deyil. Çox nadir insanlar ola bilər ki, Allaha itaət və ibadət nəticəsində bəsirət gözü açılsın və insanların həqiqi surətini görə bilsin. Belə də düşünməməliyik ki, bəsirət gözümüzün açılması üçün dəridən- qabıqdan

---

[1] Məcməül-bəyan, 10-cu cild, səh. 423.

çıxmaq lazımdır. Bəsirət gözünün açıqlığı tamamilə başqa bir şeydir. Biz bu işin əhli deyilik ki, onu da axtaraq. Bizim gözümüzün açıqlığı o ola bilər ki, qıldığımız namaza göy aləmindən baxdıqlarını bilək. Yəni insan etdiyi hər bir əməlinə nəzarət edənlərin olduğunu başa düşürsə, deməli, qəlbində yəqinlik və bəsirət vardır. Əgər bir insan sübh və digər namazlarını vaxtlı-vaxtında qıldıqda onun bu əməlinin yazıldığını başa düşsə, onun namaz qılmasına tamaşa edənlərin olduğunu bilsə, necə namaz qıla bilər? Əgər insan bilsə ki, ərşdən ən müqəddəs kimsələr onun ibadətinə tamaşa edirlər, fikri namazdan yayınarmı? Bütün bu halları dərk edən insanın bəsirət gözü açıqdır ki, bunları başa düşür. Əgər bir insan harama baxmırsa, haram yemirsə, günahla qarşılaşdıqda Allahın ona nəzarət etdiyini görüb həmin günahı etmirsə, deməli, bəsirətli insandır.

Odur ki, bizim etdiyimiz əməllərin zahiri surəti elə gördüyümüz surətdir. Əməl və niyyətlərimiz isə bizim üçün qiyafə və surəti formalaşdırır. Bu qiyafələri biz bu gün görə bilmirik. Amma sabah gözümüz açıldıqda əqidəmizin, əxlaqımızın, niyyət və əməllərimizin formalaşdırdığı qiyafələri bizə göstərəcəklər. Hər bir insan hər bir əməlinin həqiqi surətini görəcək və qiyamət günü həmin əməlini olduğu surətdə onun özünə qaytaracaqlar.

## Quranda əməllərin təcəssümü

Qeyd olundu ki, insanın ömrünün son anlarında, yəni canı bədənindən çıxarkən pərdələr gözlərinin önündən kənara çəkilir və etdiyi bəzi əməllərin həqiqi surətini görür. İnsanın bu dünyada etdiyi hər bir əməlinin bərzəx və qiyamətə uyğun forması vardır. Buna əməllərin təcəssümü deyilir ki, mənası yuxarıda şərh olundu. İnsan

təkcə can verən halda deyil, bərzəxdə və qiyamətdə də dünyadakı əməllərinin təcəssümünü görəcəkdir. Həmin təcəssüm olunmuş əməllər insanın bu dünyada etdiyi əməllərdir ki, qiyamət günü ona təqdim olunacaq. Qurani-Kərimdə təxminən on iki ayədə bu haqda söhbət açılmışdır. Nümunə üçün bu bəhsimizdə həmin ayələrdən bir neçəsinə diqqət yetirək. Allah-təala "Zəlzələ" surəsinin 6-8-ci ayələrində buyurur:

يَوْمَئِذٍ يَصْدُرُ النَّاسُ أَشْتَاتًا لِّيُرَوْا أَعْمَالَهُمْ. فَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ خَيْرًا يَرَهُ. وَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ شَرًّا يَرَهُ

-O gün insanlar əməllərinin özlərinə göstərilməsi üçün (qəbirlərdən) dəstə-dəstə çıxıb (haqq-hesab səhnəsinə tərəf) gələrlər və əməlləri(nin qarşılığı, ya eyni ilə təcəssümü) onlara göstərilsin deyə (haqq-hesab mərkəzindən öz əbədi məskənlərinə doğru) çıxarlar. Hər kim bir zərrə ağırlığında yaxşı iş görmüşsə, onu(n qarşılığını, yaxud eynilə təcəssümünü) görəcəkdir. Və hər kim bir zərrə ağırlığında pis iş görmüşsə, onu görəcəkdir.

Bu ayələrdə açıq-aydın şəkildə bəyan olunur ki, həmin gün insana öz əməllərini göstərəcəklər. Hər kim dünyada zərrə qədər yaxşı və ya pis iş görmüşsə, qiyamət günü onu da görəcəkdir. "Ali-İmran" surəsinin 30-cu ayəsində belə buyurulur:

يَوْمَ تَجِدُ كُلُّ نَفْسٍ مَّا عَمِلَتْ مِنْ خَيْرٍ مُّحْضَرًا وَمَا عَمِلَتْ مِن سُوَءٍ تَوَدُّ لَوْ أَنَّ بَيْنَهَا وَبَيْنَهُ أَمَدًا بَعِيدًا

-Hər bir kəs (dünyada) yerinə yetirdiyi xeyir və etdiyi pis əməlləri hazır görəcəyi (həmin əməllərin eynilə qiyamətə uyğun şəkildə mücəssəm olunacağı) gün arzu

edəcək ki, kaş onunla pis əməlləri arasında uzun bir zaman fasiləsi olaydı.

Əgər insan dünyada gözü, qulağı, əl-ayağı, dili və bütün bədən üzvləri ilə nə qədər xeyir iş görübsə, qiyamət günü o əməllərin hamısını həmin şəxsə təqdim edəcəklər. Həmçinin əgər pis işlər görübsə, o işlərin də hamısı ona təqdim olunacaqdır. Naməhrəmlərlə oturub-durması, yediyi haramlar, danışdığı yalanlar və etdiyi bütün günahların hamısının təcəssümünü gördükdə vəziyyətinin pis olduğunu başa düşüb Allahdan arzu edəcəkdir ki, pis əməlləri ilə onun arasında uzun bir zaman fasiləsi olsun.

Deməli, bu ayələrdən də başa düşürük ki, qiyamət günü insanın pis və yaxşı, xırda və böyük əməllərinin hamısını təcəssüm olunmuş halda onun özünə qaytaracaqlar. “Kəhf” surəsinin 49-cu ayəsində belə oxuyuruq:

وَوَجَدُوا مَا عَمِلُوا حَاضِرًا وَلَا يَظْلِمُ رَبُّكَ أَحَدًا

-Onlar (dünyada) etdiklərini hazır görəcəklər. Sənin Rəbbin heç bir kəsə zülm etməyəcəkdir.

Allah-təala “Təhrim” surəsinin 7-ci ayəsində buyurur:

يَا أَيُّهَا الَّذِينَ كَفَرُوا لَا تَعْتَذِرُوا الْيَوْمَ إِنَّمَا تُجْزَوْنَ مَا كُنتُمْ تَعْمَلُونَ

-(O gün deyiləcəkdir:) “Ey kafirlər, bu gün üzr gətirməyin. Siz ancaq (dünyada) etdiyiniz əməllərə görə cəzalandırılırsınız, yaxud o əqidə və əməllərin eynilə təcəssüm olunması bu gün sizin cəzanızdır.”

Ayətullah Əllamə Təbatəbayi bu ayənin mənasının şərhində belə buyurmuşdur:

أَي أَنَّ العَذَابَ الَّذِي تُعَذَّبُونَ بِه هُو عَمَلُكُم السَّيِّء الَّذِي عَمِلتُمُوهُ وَ قَد بَرَزَ لَكُم اليَوم حَقِيقَتُه

-Yəni (qiyamət günü kafirlərə deyiləcək:) Sizə verilən bu əzab (dünyada) etdiyiniz pis əməllərdir ki, bu gün onların həqiqəti sizin üçün (belə) üzə çıxmışdır.

Qiyamət günü heç bir kəsin pis əməlini başqasının qarşısına qoymayacaqlar. İnsan qiyamət günü hər nə görəcəksə, dünyada etdiyi öz əməllərinin həqiqətini görəcəkdir. İçki içməyin, yalan danışmağın, zülm etməyin, yaxşı və pis əməllərin hər birinin özünəməxsus surət və qiyafələri vardır.

Qeyd olunan ayələrdən bir daha aydın olur ki, qiyamət günü hər bir insan dünyada etdiyi əməlini görəcəkdir. Lakin bütün bu əməllər qiyamətə münasib surətdə təcəssüm olunacaqdır. Pis əməllər pis surətdə insana verildikdə onun üçün əzab çəkəcək, yaxşı əməllər gözəl və ruhu oxşayan qiyafədə insana təqdim olunduqda isə ondan ləzzət alacaqdır.

Bu məsələyə dair iki qısa açıqlamanı burada təqdim etmək çox yaxşı olardı. Həmin açıqlamaların biri sadə, digəri isə elmi və irfani açıqlamadır.

Sadə açıqlama, qeyd olunduğu kimi, axirətin neməti, ləzzəti, əzab və işgəncələri insanın əqidə, əxlaq və bu dünyada etdiyi əməllərinin təcəssümüdür. İnsanın bu dünyadakı pis əxlaqı axirətdə əzab surətində ona veriləcəkdir. Həmçinin bu dünyadakı yaxşı əxlaqı axirətdə yaxşı və gözəl surətdə ona təqdim olunur. Deməli, axirətdə insana verilən mükafat onun bu dünyada etdiyi yaxşı əməllərinin, əzab isə bu dünyadakı pis əməllərinin nəticəsidir.

Elmi və irfani açıqlama isə odur ki, insanın bu dünyada zahiri və batini olduğu kimi, gördüyümüz aləmin də zahiri və batini vardır. İnsanın zahirinə cisim, batininə isə ruh deyildiyi kimi, bu dünyanın da zahirinə "mülk",

batininə isə “mələkut” deyilir. Zahirdə olanları görə bilirik, amma batini şeyləri isə bədəndə olan hissiyyat üzvləri ilə görmək və hiss etmək mümkün deyildir. “Mələkut”u batini gözlərlə görmək mümkündür.

قَالَ رَسُولُ اللّهِ(ص): ما مِن عَبدٍ إلاّ و في وَجهِهِ عَينانِ يُبصِرُ بِهِما أمرَ الدنيا، و عَينانِ في قَلبِهِ يُبصِرُ بِهِما أمرَ الآخِرَةِ، فإذا أرادَ اللّهُ بعَبدٍ خَيرا فَتَحَ عَينَيهِ اللَّتَينِ في قَلبِهِ، فأبصَرَ بِهِما ما وَعَدَهُ بالغَيبِ، فآمَنَ بالغَيبِ علَى الغَيبِ

-Həzrət Peyğəmbər(s) buyurur: “Elə bir bəndə yoxdur ki, üzündə iki göz olmasın. Dünya işlərini bu gözlərlə görür. Qəlbinin də iki gözü vardır ki, axirət işlərini onlarla görür. Allah Öz bəndəsinə xeyir iradə etdikdə onun qəlbində olan gözlərini açır. Belə olduqda insan qeyb vədələrini görə bilir. Qeybi gördükdən sonra qeyb aləminə iman gətirir.”[1]

Hədisdə bəyan olunmuş bu iman insanın ikinci imanıdır. Yəni Həzrət İbrahimdə olan imana bənzəyir. Necə ki, “Ənam” surəsinin 75-ci ayəsində oxuyuruq:

وَكَذَلِكَ نُرِي إِبْرَاهِيمَ مَلَكُوتَ السَّمَاوَاتِ وَالأَرْضِ

-Və beləcə, İbrahimə göylərin və yerin mələkutunu göstərdik.

Bu ayədə bəyan olunur ki, Allah-təala Həzrət İbrahimə(ə) yerin və göyün mülkünü deyil, mələkutunu göstərmişdir. Çünki bu aləmin mülkünü zahiri gözlərlə

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 16942.

görmək mümkündür, amma mələkutu görmək üçün insanın qəlbinin gözləri açıq olmalıdır.

Sual oluna bilər ki, Allah-təala Həzrət İbrahimə(ə) mələkutu göstərirsə, bəs adi insanlar onu görə bilməzlərmi? Cavab belədir ki, Allah-təala o aləmi görməyi hamıya icazə vermişdir. “Əraf” surəsinin 185-ci ayəsində belə buyurulur:

أَوَلَمْ يَنظُرُواْ فِي مَلَكُوتِ السَّمَاوَاتِ وَالأَرْضِ

-Məgər onlar göylərin və yerin böyük mülkünə (mələkutuna) baxmayıblar?

Mələkut aləmin həqiqəti və iç üzüdür. Cəbərut ondan yuxarı və nur aləmidir. Oranın necə bir aləm olduğunu biz bilmirik. Peyğəmbər(s) bilir ki, ora necə bir aləmdir. Lahut isə ondan daha yuxarı bir aləmdir ki, bu da Allahın zatıdır. Cəbərut və lahut aləminə bizim əlimiz çatmaz, amma mələkut aləmini seyr etməyə bizə icazə verilmişdir. Sual oluna bilər ki, əgər bizə mələkut aləmini görməyə icazə verilibsə, bəs nə üçün görə bilmirik? Cavab budur ki, insanda olan ruhun xəstəlikləri onun gözlərini bağlamışdır. Əgər biz oranı görə bilmiriksə, deməli, ruhumuzda xəstəliklər vardır. İlk növbədə həmin xəstəlikləri müalicə edib onları aradan qaldırmaq lazımdır. Məsələn, adamlar hər cür naz-nemət düzülmüş süfrə kənarında oturub yemək yeyirlər. Bir nəfər isə əlini süfrəyə uzatmır. Ondan “nə üçün yemək yemirsən?” – deyə soruşduqda deyir: “Mən xəstəyəm, yesəm ürəyim bulanar.”

Həmin insan xəstə olduğu müddətdə ən dadlı yeməklərin belə iyi burnuna dəyən kimi onun ürəyi bulanacaqdır. Amma müalicə olunub sağaldıqdan sonra o yeməkləri yeməkdən əlavə, onların iyindən də həzz alacaqdır. Mənəviyyatı və ruhu xəstə olan insanlar da belədir. Bəzən isə insanlar arasında xəstəliyi daha ağır

olan birisi hətta camaat yemək yeyərkən qaşıqların boşqaba toxunmasını eşitdikdə belə ürəyi bulanır. Eləcə də bəzi insanların ruhu o qədər çox xəstədir ki, Allahın adını eşitmək belə istəmir.

Beləcə, insana mələkut və mənəviyyat aləmini görməyə icazə verilib. Oranı görmək təkcə Həzrət İbrahim(ə) üçün deyil. Allah bu aləmin həqiqətini görmək üçün hamını dəvət edir. Amma oranı görməyin şərtləri vardır. İnsan bu şərtlərə riayət etdikdən sonra mələkut aləmini seyr etməyə icazə əldə edir.

### 1. Birinci şərt: İlahi mərifət

Mələkut aləmini görməyin birinci və əsas şərti Allahı dərk etməkdir. Yəni insan bunu yəqin bilməlidir ki, hər bir şey Allahın əlindədir. Allah insana azacıq iradə və ixtiyar vermiş və qiyamət günü həmin iradənin əsasında da onu məhkəməyə çəkəcək. İnsan bilməlidir ki, bütün aləmlər və külli ixtiyar Allahın əlindədir. İnsanın gəzib-dolaşması, hərəkət etməsi və s. Onun işarəsiilədir. Nəfəsin gedib-gəlməsi Onun icazəsilədir və istədiyi vaxt insanın nəfəsini kəsə bilir. Əgər insan Allahı layiqincə dərk edə bilsə, böyük-böyük məqamlara nail olar.

قَالَ رَسُولُ اللّهِ(ص): لَو عَرَفتُمُ اللّهَ حَقَّ مَعرِفتِهِ لَمَشَيتُم عَلَى البُحورِ، و لَزالَت بِدُعائكُمُ الجِبالُ

-Həzrət Peyğəmbər(s) buyurur: “Əgər siz Allahı layiqincə tanıya bilsəniz, dənizlərin üzərində gəzərsiniz və dağlar sizin dualarınızla təlatümə gəlib parça-parça olar.”[1]

---

[1] Mizanül-hikmə, 8-ci cild, hədis - 12258.

Əgər insan öz dəyər və qiymətini bilsə, Allahı layiqincə tanısa, onda əlbəttə ki, duaları qəbul olunar və ona qeyb aləmini görməyə icazə verilər. Günahlar insanın gözünü və əl-qolunu bağlayır. Günah insanın şəxsiyyətini sındırır və onu gözdən salır. Özünü gözdən salan, hörmətini heç edən bir insanın sözünə kim əhəmiyyət verər? Şirkət rəhbəri yeni işə götürülən şəxsin düzgün, etibarlı və dəqiq bir adam olduğunu gördükdə onun qiyməti rəhbərin yanında daha da artar. Yox, əgər işçi yalan danışsa, oğurluq etsə, müdirinin ailəsinə yan baxsa, o zaman özünü etibardan salar və həm də işdən məhrum edilər.

**2. İkinci şərt: Təharət və paklıq**

Mələkut aləmini seyr etmək üçün insana mütləq təharət və paklıq lazımdır. Pak olmayan insana oranı göstərməzlər. “Vaqiə” surəsinin 79-cu ayəsində oxuyuruq:

لَّا يَمَسُّهُ إِلَّا الْمُطَهَّرُونَ

-Ona(Qurana) paklardan başqa heç kəs toxunmaz.

Quranın ayələrinə əl vurmaq və toxunmaq üçün insanın zahiri təharəti (dəstəmazı) olmalıdır. Dəstəmazsız Quranın ayələrinə toxunmaq olmaz. Həmin ayələrin mənasını başa düşmək üçün isə insanın ruhu pak olmalıdır. Günah edən insan öz ruhunu çirkləndirmişdir. Ruhu çirkli olan insan Qurani-Kərimi dərk edə bilməz. Qızılı kömür qabına qoymazlar, qızılı qızıl qabında saxlayarlar. Quranın dərki haram və günah əməllərin sahibi olan insanlara qismət olmaz. Əgər insan ruhunu günahlardan təmizləsə, dünya məhəbbətini qəlbindən çıxarıb özünü Allaha bağlaya bilsə, Onun acığı gəldiyi şeylərdən acığı, xoşuna gəldiyi şeylər xoşuna gəlsə və

özünü həqiqətə uyğunlaşdıra bilsə, o zaman mələkut aləmini görmək şansını əldə edə bilər.

### 3. Üçüncü şərt: Əhli-beytə(ə) məhəbbət və onları tanıma

Mələkut aləmini görməyin üçüncü şərti isə Əhli-beytə(ə) məhəbbət və dərk etmədir. Əhli-beyti(ə) dərk etmədən kimsəni ora qoymazlar.

قَالَ الصَّادِقُ(ع): إنّما شيعَتُنا أصحابُ الأربَعةِ الأعيُنِ: عَينانِ في الرَّأسِ، و عَينانِ في القَلبِ، ألا و الخَلائقُ كُلُّهم كذلكَ، ألا إنّ اللّهَ عَزَّ و جلَّ فَتَحَ أبصارَكُم و أعمى أبصارَهُم

-İmam Sadiq(ə) buyurdu: “Bizim şiələrin əslində dörd gözü var: iki göz başda və ikisi qəlbdə. Əlbəttə, bütün insanlar belədir. Ancaq Allah sizin gözlərinizi açmışdır, onların gözlərini isə kor etmişdir.”[1]

Beləliklə, mələkut aləmini, yəni bu dünyadakı aləmin batinini görmək istəyən hər bir insan mütləq qeyd olunan şərtlərə riayət etməlidir. Əgər bir insan bu şərtlərə riayət etmirsə, ona həmin aləmi görməyə icazə verilməyəcəkdir. İnsanın bu dünyada bərzəx gözünün açılması yalnız həmin şərtlər əsasında mümkündür. Ömür sona çatdıqda isə zahiri gözlər bağlanır və qəlbin gözü açılır. Belə olduqda bütün əməllərin həqiqəti insanın gözü qarşısında təcəssüm olunur.

Allah-təala həmin əməllərin təcəssüm olunduğu gündə bizi Həzrət Peyğəmbər(s) və Əhli-beyt(ə) yanında xəcalətli eləməsin. İnşallah.

---

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 16944.

## Mülki və mələkuti surət
## (Allahın qanunları və insanın əməlləri)

Ötən bəhslərimizdə qeyd olundu ki, insan dünyada etdiyi hər bir əməlini qiyamət günü təcəssüm olunmuş surətdə görəcək. Əməllərin təcəssümü insanın taleyində böyük rol oynayır. Ayə və hədislərdən də gördük ki, hər bir niyyət, əqidə, əxlaq və əməl axirətdə qiyamətə uyğun surətdə təcəssüm olunacaqdır. Qiyamət günü insana verilən mükafat və savablar, cəza və əzablar insanın dünyadakı əməllərinin həqiqi surəti olacaq. Bu əməllərin həqiqi surəti insanı şad, yaxud da bədbəxt edəcək. Həmçinin qeyd edildi ki, insanın zahiri və batini olduğu kimi, aləmin də zahiri və batini vardır. İnsanın zahiri cisim, batini ruh adlandırıldığı kimi, aləmin də zahirinə mülk, batininə isə mələkut deyilir.

Bəhsimizə əlavə olaraq bir mətləbi də əlavə etmək yaxşı olardı. Bu mətləb çox gözəl və bizim üçün bəlkə də təəccüblü bir məsələdir. Həmin mətləb də budur ki, Allahın nazil etdiyi kitabda bizə vacib və haram etdiyi qanunların da həm zahiri, həm də batini surətləri vardır. Məsələn, namaz Allahın bizə vacib etdiyi əməllərdən biridir. Namazın adı "Səlat", zahiri surəti isə onun qılınma qaydasıdır. Hədislərdə qeyd olunur ki, insan namaz qılıb qurtardıqdan sonra həmin namazı Allahın məhzərinə aparırlar. Sual oluna bilər ki, görəsən, namaz Allahın məhzərinə hansı surətdə gedir? Onun adı gedir, yoxsa bizim qıldığımız formada aparırlar? Cavab belədir ki, namaz Allah dərgahına özünəməxsus bir surətdə gedir. Bu surət nə onun adıdır, nə də onun qılınma formasıdır. Namaz Allahın bəndələr üçün təyin etdiyi bir qanundur. Biz o qanunu qəbul edərək bədənimizlə (təkbir demək,

qiyam, rüku və səcdələri yerinə yetirməklə) icra edirik. Amma onun hansı surətdə təcəssüm olunmasını biz görə bilmirik. Onun həqiqi surətini başda İslam Peyğəmbəri(s) olmaqla bütün peyğəmbərlər, on dörd məsum(ə) və zəhmət çəkərək ibadət edib Allahın haramlarından çəkinməklə özlərini yüksək məqamlara çatdırmış gözləri açıq bəndələr görə bilirlər. Onlardan savayı başqa insanlar bu dünyada namazın və digər əməllərin həqiqi surətini görə bilmirlər. Amma o biri dünyada isə hamı yaxşı və ya pis bütün əməllərin həqiqətlərini görəcəkdir.

Qeyd etmək lazımdır ki, əməllərin həqiqi surətini beş yerdə görmək mümkündür. Onlardan biri yuxuda, biri bu dünyada bəsirət gözü ilə, biri ehtizar halında (can verərkən), biri bərzəx, biri isə qiyamət günüdür. İnsan bu beş yerdə öz əməlinin mələkuti surətini görə bilər. Yuxu məsələsi geniş bir mövzu olduğu üçün bu bəhslərimizdə onun barəsində söz açmıram. Çünki əgər bu haqda söhbət edəsi olsaq, ilk öncə yuxunun nə olduğu barədə danışmalı, hansı yuxunun düz, hansının qeyri- düzgün olması haqda bəhs etməliyik. Bu da bizim əsas bəhsimiz üçün çox zəruriyyət kəsb etmədiyindən hələlik bir kənara qoyuruq.

## Quranda əməllərin təcəssümü

Deyildi ki, dünyada insanın əməllərinin həqiqi surətini görmək mümkündür. Amma onu zahiri gözlərlə yox, bəsirət gözü ilə görmək olar. Müstəsna insanlarda bəsirət gözü açıq olduğundan onlar aləmin həqiqətini və əməllərin təcəssümünü görə bilirlər. Burada mühüm bir mətləbə diqqət yetirək. O da bundan ibarətdir ki, Allahın insanlar üçün göndərdiyi qanunların həqiqi surətini görməsək də belə heç olmasa onlar haqda müəyyən qədər danışmaq mümkündür. Əməllərin təcəssümünü, aləmin

həqiqətini görməsək də belə ən azından görənlərin sözlərindən və Quranın ayələrindən oxuyub öyrənə bilərik. Əgər bu haqda bizə deyirlərsə və biz gözümüzlə görməsək də qulaqlarımız eşidir. Məsələn, biz namazın həqiqi surətini görmürük. Amma Həzrət Peyğəmbərin(s) namazın həqiqi surəti haqda danışması və bizim də onu eşitməyimiz çox maraqlıdır. Nümunə üçün Qurandan bir neçə ayə oxuyaq.

## Haram yemək və haqqı gizlətməyin həqiqi surəti

Əməllərin həqiqi surəti barəsində həm Quran ayələri, həm də hədislər bizə açıqlamalar vermişlər. Məsələn, Allah-təala "Bəqərə" surəsinin 174-cü ayəsində iki mətləbi bəyan edir və onların mələkuti surətini də bəyan edir.

إِنَّ الَّذِينَ يَكْتُمُونَ مَا أَنزَلَ اللّهُ مِنَ الْكِتَابِ وَيَشْتَرُونَ بِهِ ثَمَنًا قَلِيلاً
أُولَئِكَ مَا يَأْكُلُونَ فِي بُطُونِهِمْ إِلاَّ النَّارَ وَلاَ يُكَلِّمُهُمُ اللّهُ يَوْمَ الْقِيَامَةِ
وَلاَ يُزَكِّيهِمْ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ

-Şübhəsiz, Allahın kitabdan nazil etdiyini gizlədən və beləliklə də azacıq bir qazanc əldə edən kəslər qarınlarına oddan başqa bir şey daxil etmirlər (onların gizlətdikləri və ya əldə etdikləri o qazanc axirətdə od yemək şəklində zahir olacaqdır). Həmçinin Allah qiyamət günü onlarla danışmayacaq, onları (əməllərinin pisliyindən) paklaşdır-mayacaq və onlar üçün ağrılı bir əzab olacaqdır.

Bu ayədə iki böyük günah əməl barəsində söz açılır. Birincisi, Allahın nazil etdiyi ayələri gizlədərək haqqı, həqiqəti ört-basdır etmək, ikincisi isə ayələri ucuz qiymətə satmaqla qazanc əldə etməkdir. Ucuz satmağın mənası bu deyil ki, insan Quran kitabını bazarda satır. Quranın

ayələrini ucuz satmaq ona əməl etməməkdir. Quranın qadağalarına riayət etməmək onu dünyaya ucuz satmaq deməkdir. Əgər dünyanın hamısını tərəzinin bir gözünə, Quranın bir ayəsini digər gözünə qoysalar, həmin ayə ağır gələr. İnsan Quranın hər hansı bir ayəsini ən bahalı qiymətə satsa da belə yenə də ucuz satmışdır. Ayənin axırındakı cəzadan bilinir ki, haqqı gizlətməklə Allahın ayəsini ucuz satmaq necə də böyük bir günahdır. Bu iki günahın batini surəti və təcəssümü də elə həmin ayədə bəyan olunur. Deməli, hər kim Allahın ayələrini (haqqı) gizlədərək, ayələri ucuz satsa, bu əməllərin batini surəti onun qarnına doldurulmuş oddur. Əgər hər hansı bir insanın görən gözü olsa, həmin günahı edənlərin həqiqətini onların qarınlarına doldurulmuş od halında görər. Qiyamət günü insan belə bir halda məhşərə gətirildikdə Allah onlarla danışmayacaq, onları (əməllərinin pisliyindən) paklaşdırmayacaq və onlar üçün ağrılı bir əzab olacaqdır.

Qiyamət günü Allah-təala bir neçə qrup insanı paklaşdırmayacaq və onlarla danışmayacaqdır. Həmişə bağışlanmağımıza ümid etdiyimiz Allah-təalanın mərhəmət və fəzli ilə cəhənnəm odundan nicat tapacağımıza inanırıq. Onun mərhəməti olmasa, cənnətə getmək mümkün deyil. Bu qədər mərhəmət və fəzl sahibi olan Allah qiyamət günü haqqın üstünə pərdə çəkən, Quranın ayələrini ucuz satan insanla danışmayacaqsa, görəsən, həmin insanın vəziyyəti necə olacaqdır? O zaman insan başa düşəcək ki, haqqı gizlətmək və Allahın ayələrini ucuz satmağın aqibəti necədir. Bir neçə günah var ki, Allah-təala Quranda onların adını çəkir və həmin günahlara əl atanları eyni aqibət gözlədiyini bəyan edir. Onlardan biri də o insanlardır ki, Allahla bağladıqları əhd-peymanı sındırmışlar.

Bundan əlavə, Həzrət Peyğəmbərin(s) də bu haqda buyurduğu bəzi kəlamlar vardır ki, onlar Allah-təalanın qiyamət günü bir neçə qrup günahkar insanlarla danışmayacağından bəhs edir. Həmin günahkar qruplardan biri zülmkar hakimlər, biri qoca zinakarlar, biri uşaqbazlar və onları təsdiqləyənlər, biri onanizmlə məşğul olanlar, biri də zina edən ərli qadınlardır.

## Yetim malını yeməyin həqiqi surəti

Allah-təala yetimlərin malını yeməyin həqiqi surəti və cəzası barədə "Nisa" surəsinin 10-cu ayəsində belə buyurur:

إِنَّ الَّذِينَ يَأْكُلُونَ أَمْوَالَ الْيَتَامَى ظُلْمًا إِنَّمَا يَأْكُلُونَ فِي بُطُونِهِمْ نَارًا وَسَيَصْلَوْنَ سَعِيرًا

-Həqiqətən yetimlərin mallarını zülm ilə yeyənlər əslində qarınlarına od daxil edirlər (yetimin malına toxunmağın axirətdəki gerçək təzahürü od yemək olacaqdır). Və onlar tezliklə (yetimin malını yeməklə ölüm arasındakı az bir fasilədən sonra) yanar oda daxil olar və onun hərarətini dadarlar.

Əgər insan pərdənin arxasını görə bilsə, yetimlərin malını yeyən insanların həqiqətdə öz qarınlarını odla doldurduqlarını görmək olar. Amma biz onu gözümüzlə görməsək də, Allah-təala bizə bu əməlin həqiqətini bəyan etmişdir. Bəzi insanlar da vardır ki, bəsirət gözləri açıq olduğundan elə bu dünyada da əməllərinin həqiqətini görə bilirlər.

### Şeyx Əbdürrəzzaq Kaşani

Allah-təala “Əl-Haqqə” surəsində zalım və günahkarların barəsində söz açdıqdan sonra 35-37-ci ayələrində buyurur:

فَلَيْسَ لَهُ الْيَوْمَ هَاهُنَا حَمِيمٌ. وَلَا طَعَامٌ إِلَّا مِنْ غِسْلِينٍ. لَا يَأْكُلُهُ إِلَّا الْخَاطِؤُونَ

-Bu gün onun burada bir yaxını və mehriban bir dostu yoxdur. (Cəhənnəmdəkilərin bədənindən axan) Od əhlinin irinindən, çirk və qanından başqa bir yeməyi də yoxdur. O (yeməyi) yalnız (yollarını) azmış günahkarlar yeyərlər.

Mərhum Şeyx Əbdürrəzzaq Kaşani böyük alimlərdən biridir. O, bu ayələri oxuduqdan sonra demişdir: “Mən kimin belə yeməkləri yediyini görmüşəm.”

O böyük alimin bəsirəti açıq olduğu üçün belə halları müşahidə edə bilirdi. Biz bu kimi sözləri eşidirik, amma həmin məqamları gözlə görmək tamamilə başqa bir məsələdir.

## Təqvalı və bəsirəti açıq olan bir insanın əhvalatı

Şirazda yaşayan təqvalı, mömin bəndələrdən biri başına gəlmiş əhvalatı danışaraq belə deyir:

-Günlərin birində bir neçə nəfərlə birgə İmam Rzanın(ə) ziyarətinə getmək qərarına gəldik. Maşına minib yola düşdük və yolüstü Qum şəhərinə gələrək Xanım Məsumənin(s.ə) qəbrini ziyarət etdik. İki gün orada qaldıq. Xanımın qəbrini ziyarət edərkən özümdə yaxşı bir hal duydum. Ziyarətgahda etdiyim ibadətlər ruhumu oxşayırdı. Sanki başqa bir aləmdəydim. Üçüncü gün oradan hərəkət edib Tehrana, daha sonra isə Məşhədə yollandıq. Nişapura çatanda yolda bir kişi ilə rastlaşdıq. O, pay-piyada üzü Məşhədə sarı gedirdi. Maşını saxlayıb

soruşduq: “Qardaş, yolun hansı tərəfdədir? O dedi: İnşallah, Məşhədə gedirəm. Dedik: Gəlin əyləşin, biz də Məşhədə gedirik. O, razılaşmayıb dedi: Çox sağ olun, siz yolunuza davam edin.” Uzun söz-söhbətdən sonra onu yolda qoyub getməyi özümüzə rəva bilmədik. Nəhayət, o, bizimlə razılaşıb dedi: “Sizinlə gedərəm, amma iki şərtim var. Biz ondan soruşduq: Şərtin nədir? O, məni göstərərək dedi: Birinci şərtim budur ki, mən bu kişinin yanında oturacağam. İkinci şərtim isə budur ki, mənim sözlərimə etiraz etməyəcəksiniz.”

Biz onunla razılaşıb maşına mindik. Yolda o, yavaş-yavaş mənimlə söhbət etməyə başladı. O, söhbət etdikcə, mənə ləzzət edirdi. İş o yerə gəlib çatdı ki, hətta ömrümün axırına qədər başıma gələcək bütün işləri də mənə danışdı. Yolda namaz qılıb nahar etmək üçün maşını yeməkxanaların birinin yanında saxladıq. Biz yemək üçün yeməkxanaya getdik. O isə kənarda dayanıb məni çağırdı və dedi: “Sən onların yanına getmə. Gəl mənimlə yemək ye.” Dostlarımdan ayrılıb onunla yemək yeməyim yaxşı hal deyildi. Amma onu maşına mindirərkən şərtlərini qəbul etdiyimiz üçün mən onun yanında əyləşdim. O, xurcunundan çörək və yaşıl kişmiş çıxarıb süfrəyə qoydu və yeməyə başladıq. Onun mənə verdiyi yemək o qədər ləzzətli idi ki, dadı damağımdan getmirdi. Bir az yedikdən sonra mənə dedi: “İstəyirsənsə get dostlarına bir baş çək.”

Mən dostlarımın əyləşdiyi masaya yaxınlaşdıqda onların kasalarında irin və çirklə qarışmış qan gördüm. Onlar əlləri ilə həmin irin və çirki götürüb yeyirdilər. Özlərinin bundan xəbəri olmadan əlləri və ağızları da elə həmin yeməyə bulaşmışdı. Onların bu halını görüb heyrətləndim və bir söz demədən həmin kişinin yanına qayıtdım. Kişi mənim halımın pozulduğunu görüb soruşdu:

“Gördünmü? Dedim: Bəli, gördüm. Dedi: Şirazdan bu yerə qədər sən də həmin yeməkdən yemisən.”

Sonra o, mənə bir neçə kəlmə nəsihət etdikdən sonra dedi: “Hətta yolda yeməkxanalarda da yeməyinə fikir ver.” Sonra üzünü İmam Rzanın(ə) qəbri olan səmtə tutub dedi: “Salam olsun sənə ey Əli ibn Musa ər-Rza(ə). Bura qədər gəlməyi mənə lütf etdin. Sənə minnətdaram.”

Sonra cibindən pul çıxararaq mənə verib dedi: “Bu pulu al saxla. Mən öləndən sonra qüsl, kəfən və dəfn üçün lazım olan işlərə xərcləyərsən.” Mən onun hər bir hərəkətindən heyrət içində idim. O, yaxınlıqda olan kiçik bir dağı mənə göstərib dedi: “Mən indi o dağın üstünə çıxacağam və ömrüm sona çatacaq.” Mən də onunla dağın üstünə çıxdım. O, üzü qibləyə uzandı və gülə-gülə dünyasını dəyişdi.[1]

## Rəcəbəli Xəyyat

Rəcəbəli Xəyyat tanınmış arif insanlardan biri idi. Camaat onun çox qəribə və heyrətamiz əhvalatlarından danışırlar. Onun oğlu deyir:

-Günlərin birində evə gəlirdim. Yolda camaatın bir nəfərin ətrafında toplaşdığını gördüm. Yaxınlaşdıqda gördüm ki, həmin şəxs camaat üçün şou göstərir və bu yolla pul qazanır. Onun hərəkətlərinə diqqətlə baxdıqda başa düşdüm ki, o, camaatı aldadaraq pul qazanır. Onun bir neçə hoqqasını üzə çıxardıb camaata dedim. O, mənə yaxınlaşıb dedi: “Xahiş edirəm, mənim çörəyimə bais olma.” Ancaq mən onun sözünə qulaq asmadım. O, kiçik bir xalçanı gətirib mənə verdi və dedi: “Bu xalçanı sənə

[1] Əməllərin təcəssümü, səh. 36.

hədiyyə verirəm. Bunu götür və mənim işimə qarışma.” Mən onunla razılaşıb xalçanı aldım. Evə girəndə atam məni görüb soruşdu: “Oğul, əlindəki o nədir elə? Onu haradan gətirmisən? Dedim: Ata nə üçün soruşursan? Buyurdu: Onu tez apar və yiyəsinə qaytar. Görmürsən onun içərisindən alovlu tüstü çıxır?”

Xalça mənim əlimdə idi və mən onun içərisində heç bir tüstü, yaxud alov görmədim. Amma onu aparıb yiyəsinə qaytardıqdan sonra yolda başıma gələn əhvalatı gəlib atama danışdım.[1]

Odur ki, hər bir günahın ikinci surəti və pərdə arxasında onun özünəməxsus həqiqəti vardır. Bu dünyada günahın üzünü bəzəyib-düzəməklə onun həqiqətini dəyişmək mümkün deyildir. Xəstə bir insanı hamama aparıb çimizdirmək, ona gözəl paltarlar geyindirmək və onun zahiri görkəmini gözəlləşdirmək həmin xəstənin daxilinin hələ sağlam olmasından xəbər vermir. Həkim həmin xəstəni müayinə etdikdən sonra onun yaxınlarına bildirdi ki, tədarükünüzü görün, o, bu xəstəliklə çox yaşamayacaqdır.

## Rüşvətin həqiqi surəti

Allah-təala rüşvət alanların, rüşvət verənlərin və rüşvət yeyənlərin barəsində “Bəqərə” surəsinin 188-ci ayəsində belə buyurur:

وَلاَ تَأْكُلُواْ أَمْوَالَكُم بَيْنَكُم بِالْبَاطِلِ وَتُدْلُواْ بِهَا إِلَى الْحُكَّامِ لِتَأْكُلُواْ فَرِيقًا مِّنْ أَمْوَالِ النَّاسِ بِالإِثْمِ وَأَنتُمْ تَعْلَمُونَ

[1] Əməllərin təcəssümü, səh. 38.

-Mallarınızı öz aranızda haqsız yerə yeməyin və camaatın mallarının bir qismini günah və haqsız yolla yemək üçün (əməlinizin haram olmasını) bilə-bilə onu (rüşvət kimi) qazılara (hakimlərə) tərəf yönəltməyin.

Ayədə işlənmiş «تُدْلُواْ» "tudlu" kəlməsi «إِدلاء» "idla" kəlməsindən «إِدلاء» "idla" kəlməsi isə «دَلو» "dəlv" sözündən götürülmüşdür, mənası isə "çəllək" və "vedrə" deməkdir. Çəlləyi quyuya salıb oradan su çəkməyə «إِدلاء» "idla" deyilir. Ayədə isə rüşvətin iç üzünü və həqiqi surətini başa salmaq üçün bəyan edilir ki, rüşvət verən kəs düzəltdiyi murdar çəlləklə sanki quyudan çıxartdığı irin və çirki rüşvət alana verir. Nə rüşvət verən, nə də rüşvət alan insan bunun həqiqətindən xəbərsizdir. Onlar elə başa düşürlər ki, rüşvət verməklə və ya onu almaqla öz işlərini yoluna qoymuşlar. Əsl həqiqətdə isə həmin murdar irin və çirki bir-birinə verirlər. Deməli, bu ayədə rüşvətin həqiqi və mələkuti surəti bəyan olunmuşdur.

## Qeybətin həqiqi surəti

Həm Quran ayəsinə, həm də hədislərə əsasən, qeybətin həqiqi surəti ölmüş insanın ətini yemək kimi bir şeydir. Ramazan ayında günlərin birində iki mömin qadın bir insanın qeybətini qılırdılar. İftara az qalmış həmin qadınlar hədsiz dərəcədə susuzlayırlar. Həzrət Peyğəmbərə(s) xəbər göndərirlər ki, daha dözə bilmirik, azacıq su içməyə icazə varmı? Həzrət Peyğəmbər(s) gələn adama bir qab verərək buyurur: "Bu qabı apar və həmin qadınların ağızlarının qabağında tut." Həmin şəxs qabı qadınların ağızlarının qabağında saxlayan kimi, onların hər ikisi

qusdular və ağızlarından qabın içinə ət töküldü. Bu xəbəri Həzrət Peyğəmbərə(s) çatdırdıqda Həzrət(s) buyurdu: "O qadınlar halal ruzi ilə oruc tutub, haram yeməklə oruclarını sındırdılar. Onlar mömin qardaşlarının qeybətini etdiklərinə görə sanki onun ölmüş bədənini yemişdilər."

Allah-təala "Hucurat" surəsinin 12-ci ayəsində qeybətin həqiqi surətini bizə bəyan edərək buyurur:

وَلَا يَغْتَب بَّعْضُكُم بَعْضًا أَيُحِبُّ أَحَدُكُمْ أَن يَأْكُلَ لَحْمَ أَخِيهِ مَيْتًا فَكَرِهْتُمُوهُ وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ تَوَّابٌ رَّحِيمٌ

-Bir-birinizin qeybətini etməyin. Məgər sizin biriniz öz ölmüş qardaşının ətini yemək istəyər? (Şübhəsiz,) ondan iyrənərsiniz. Allahdan qorxun ki, Allah çox nəzər yetirən, tövbəni qəbul edən və mehribandır.

قَالَ عَلِيٌّ(ع): اجْتَنِبِ الْغِيبَةَ فَإِنَّهَا إِدَامُ كِلَابِ النَّارِ

-Həzrət Əli(ə) buyurur: "Qeybətdən çəkin. Çünki qeybət cəhənnəm itlərinin yalıdır."[1]

Beləliklə, Allahın nazil etdiyi bütün qanunların hamısının həqiqi surəti var. Hər bir qanunun özünəməxsus surəti vardır ki, bəziləri Quranda, bəziləri isə hədislərdə bizim üçün bəyan olunmuşdur.

## Quranda əməllərin təcəssümü

Ötən bəhsdə deyildi ki, insanın istər yaxşı, istərsə də pis əməllərinin iki surəti vardır. Bir surəti onun zahiri görünüşü, ikinci surəti isə onun həqiqi surəti və axirətdəki təcəssümüdür. Həmçinin Quran ayələrinə əsasən bir neçə əməlin həqiqi surəti haqda söhbət etdik. Bu bəhsimizdə isə

[1] Əməllərin təcəssümü, səh. 42.

əməllərin həqiqəti və təcəssümü barədə bir neçə hədisə müraciət edək.

## Namazın həqiqi surəti

Hər bir əməldə olduğu kimi, insanın qıldığı namazın da zahiri və batini surəti vardır. İmam Sadiq(ə) namaz barəsində belə buyurur:

إِنَّ الْعَبْدَ إِذَا صَلَّى الصَّلَاةَ فِي وَقْتِهَا وَ حَافَظَ عَلَيْهَا ارْتَفَعَتْ بَيْضَاءَ نَقِيَّةً تَقُولُ حَفِظْتَنِي حَفِظَكَ اللَّهُ وَ إِذَا لَمْ يُصَلِّهَا لِوَقْتِهَا وَ لَمْ يُحَافِظْ عَلَيْهَا ارْتَفَعَتْ سَوْدَاءَ مُظْلِمَةً تَقُولُ ضَيَّعْتَنِي ضَيَّعَكَ اللَّهُ

-İmam Sadiq(ə) buyurdu: “Bəndə namazı vaxtına və ədəb-ərkanına riayət edərək əvvəl vaxtında qıldıqdan sonra həmin namaz bir nur parçası kimi göyə ucalır və sahibinə dua edərək belə deyər: Məni qorudun, Allah səni qorusun. Əgər bəndə namazın vaxtına və ədəb-ərkanına riayət etməsə və onun vaxtını gecikdirib qılarsa, həmin namaz qara ləkə kimi göyə ucalar və sahibinə qarğış edərək belə deyər: Məni zay etdin, Allah da səni zay etsin.”[1]

Deməli, insanın qıldığı namaz təkbir, qiyam, rüku, səcdə və təşəhhüd surətində göyə ucalmır. Gözəl qılınarsa, nur parçası və pis qılınarsa, qara bir ləkə surətində təcəssüm olunar və göyə ucalar. Göyə ucaldıqdan sonra isə danışır, sahibinə dua edir, yaxud qarğış edir.

## Quran oxumağın həqiqi surəti

Namazın və digər ibadətlərin həqiqi surəti olduğu kimi, Quranın da həqiqi və batini surəti vardır. Quran oxumaq

---

[1] Əməllərin təcəssümü, səh.42.

insanın qəlbini və evini münəvvər edir. Quran ayələrini oxuduqca onlar nur surətində göy aləmini işıqlandırır.

قَالَ رَسُولُ اللّهِ(ص): نَوِّرُوا بُيُوتَكُمْ بِتِلَاوَةِ الْقُرْآنِ وَ لَا تَتَّخِذُوهَا قُبُوراً كَمَا فَعَلَتِ الْيَهُودُ وَ النَّصَارَى صَلَّوْا فِي الْكَنَائِسِ وَ الْبِيَعِ وَ عَطَّلُوا بُيُوتَهُمْ فَإِنَّ الْبَيْتَ إِذَا كَثُرَ فِيهِ تِلَاوَةُ الْقُرْآنِ كَثُرَ خَيْرُهُ وَ اتَّسَعَ أَهْلُهُ وَ أَضَاءَ لِأَهْلِ السَّمَاءِ كَمَا تُضِيءُ نُجُومُ السَّمَاءِ لِأَهْلِ الدُّنْيَا

-Həzrət Peyğəmbər(s) buyurur: "Öz evlərinizi Quran oxumaqla münəvvər edin. Evlərinizi yəhudi və xristianlar kimi qəbiristanlığa çevirməyin. Onlar ibadət etmək üçün yalnız kilsələrə gedərlər və evlərində ibadətlə məşğul olmazlar. Evdə Quranı çox oxuduqda həmin evin xeyir-bərəkəti artar və onun əhli firavan yaşayar. Göyün ulduzları yer əhlinə işıq saçdığı kimi, Quran oxunan evlərin nuru da göy əhlinə işıq saçar."[1]

## Yaxşı və pis əməllərin həqiqi surəti

İnsanın əməllərindən asılı olmayaraq, həm yaxşı, həm də pis əməllərin iki surəti vardır. Bundan əlavə, hər birinin özünəməxsus qoxusu var. Yaxşı əməlin həm surəti, həm də qoxusu gözəldir. Pis əməlin surət də, qoxusu da pisdir.

قَالَ الصَّادِقُ(ع): مَن صامَ لِلّهِ عَزَّ وَ جَلَّ يَوماً فِي شِدَّةِ الحَرِّ فَأَصابَهُ ظَمَأٌ، وَكَّلَ اللّهُ بِهِ أَلفَ مَلَكٍ يَمسَحونَ وَجهَهُ ويُبَشِّرونَهُ، حَتّى

[1] Əməllərin təcəssümü, səh. 46.

إِذَا أَفطَرَ. قَالَ اللّهُ عَزَّ وَ جَلّ لَهُ: «مَا أَطيَبَ رِيحَكَ ورَوحَكَ! مَلائِكَتِي، اِشهَدوا أَنِّي قَد غَفَرتُ لَهُ

-İmam Sadiq(ə) buyurur: "Hər kəs isti günlərdə Allaha xatir oruc tutsa və istinin şiddətindən susasa, Allah-təala min mələyə iftara qədər onun üzünə əl çəkmək və onu müjdələmək əmrini verər. (İftar zamanı) Allah-təala həmin şəxsə buyurar: Sənin ruhundan necə də gözəl qoxu gəlir. (Sonra mələklərə buyurar:) Mənim mələklərim, şahid olun ki, Mən onu bağışladım."[1]

Kitablarda qeyd olunmuşdur ki, Mədinədə bir nəfərin paltarından çox gözəl ətir iyi gəlirmiş. Bir gün dostları ondan soruşurlar ki, istifadə etdiyin bu ətri haradan almısan? Biz çox ətirlər almışıq, amma belə xoş rayihəlisini tapa bilmirik. Hətta xalis müşk ənbərdən belə gözəl iy gəlmir. Həmin şəxs deyir: "Bunun bir sirri vardır. Dostları deyirlər: Xahiş edirik ki, o sirri bizim üçün də açasan. O deyir: Bunun sirrini deyə bilmərəm." Çox xahiş edirlər, amma o danışmır. Axırda ona and verirlər ki, bunun sirrini açsın. O, axırda razılaşıb deyir: "Sizə bunun sirrini deyərəm, amma şərtim budur ki, mən ölənə qədər bunu heç kəsə danışmayacaqsınız." Hamısı razılaşdıqdan sonra o, başına gələn əhvalatı onlara danışmağa başlayır:

-Gənc yaşlarımda mən çox yaraşıqlı bir oğlan idim. Bazarda parça satmaqla məşğul olurdum. Günlərin birində bir xanım mənə yaxınlaşdı və xeyli parça aldı. Sonra mənə dedi: "Səndən xahiş edirəm ki, bu parçaları evimə aparmaqda mənə kömək edəsən. Yaşadığım ev çox da uzaqda deyil. Evə çatdıqda sənin pulunu da verərəm."

---

[1] Allahın ayı, 1-ci cild, səh.116.

Mən parçaları götürüb o xanımın ardınca düşdüm. Evlərinə çatdıqda o, içəri daxil oldu. Mən də qapının ağzında onu gözləməyə başladım. Bir neçə dəqiqədən sonra başqa bir adam qapını açıb məni içəri dəvət etdi. İçəri girdikdə gördüm ki, çox gözəl evləri var. Parçaları yerə qoyub bir tərəfdə əyləşdim.

Qulluqçular mənə qulluq etməyə başladılar. Onlara dedim: "Mənə qulluq lazım deyil. Parçanın pulunu versəydiniz gedərdim." Elə bu zaman məndən parça alan qadın içəri daxil oldu və üzünü açdı. Ona baxdıqda gördüm ki, çox gözəl bir qadındır. Gəlib mənim yanımda əyləşdikdən sonra dedi: "Mənə parça lazım deyildi. Sənə gözüm düşdüyü üçün bu bəhanə ilə səni evimə gətirmişəm. Səni çoxdan görmüşəm və sənin arzunla yaşayıram. Sən bu gün mütləq mənimlə olmalısan." Tələyə düşdüyümü görüb ona dedim: "Bu iş haramdır. Dedi: Mənə dəxli yoxdur. Mütləq səninlə istədiyimi edəcəyəm." Mən ona nə qədər üzr gətirdimsə, xeyri olmadı. Qulluqçularına göstəriş verdi ki, məni tutub əl-ayağımı bağlasınlar. Əl-ayağımı bağladıqdan sonra mənə dedi: "Sən ya bu gün mənim dediyimi edəcəksən, ya da səni öldürəcəyəm." Elə o andaca Allaha təvəkkül edib ürəkdən Onu səslədim. Birdən kimsə sanki bu ayəni qulağıma oxudu: "Amma kim öz Rəbbinin məqamından, Onun hüzurunda durmaqdan qorxub və nəfsini saxlamışsa, şübhəsiz, onun yeri cənnətdir." [1]

Bədənim əsməyə başladı. Bir tərəfdən əl-ayağımın bağlı olması, bir tərəfdən şeytanın vəsvəsəsi, digər tərəfdən isə qadının təzyiqi məni çox narahat edirdi.

---

[1] Naziat surəsi, ayə 40-41.

Allaha təvəkkül etdiyim üçün elə həmin halda ağlıma bir fikir gəldi. Qadına dedim: "Yaxşı, mən səninlə razılaşaram. İcazə verin, ayaqyoluna gedim." Əl-ayağımı açıb məni buraxdılar. Ayaqyoluna girib nəcisi bütün paltarıma yaxdım. Sonra çıxıb həmin qadının qarşısında dayandım. Qadın məni görüb iyrəndi və evindən qovdu.

Mən qaça-qaça özümü şəhərin kənarındakı bir bulağın başına yetirdim. Elə oradaca Allaha belə bir minacat etdim: "İlahi, mənim paltarım və bədənim murdar oldu. Amma Sənin lütfünlə ruhumu murdar etməyə razı olmadım. Şükürlər olsun Sənə ki, ruhumu murdar olmağa qoymadın."

Sonra paltarlarımı çıxarıb bulaqda yudum. Onları daşın üstünə sərib qurumasını gözləyirdim ki, birdən nurani bir insan mənə yaxınlaşıb dedi: "Sən Allahın əzəmətini yadına salaraq öz nəfsi istəklərini ayaqlarının altına atdın. Buna görə də sənə bir dəst paltar və bir ətir gətirmişəm." Mən onun gətirdiyi paltarı əynimə geyinib, həmin ətirlə özümü ətirlədim. Başımı qaldırdıqda gördüm ki, həmin adam yanımda yoxdur. Bu hadisənin üstündən neçə illər keçib. Amma nə həmin paltar köhnəlir, nə də o ətrin iyi bədənimdən gedir. Bu, həmin günahdan qorunduğum üçün Allahın mənə bu dünyada etdiyi bir mərhəmətdir. Axirətdə isə mənə nə verəcəyini bilmirəm."

Həyatda nadir hallarda bu kimi hadisələrə rast gəlmək olur. Mümkündür ki, bu dünyada bir insana cənnət ətri hədiyyə olunsun. Amma bu o demək deyil ki, cənnət ətrindən yalnız həmin şəxs istifadə edə bilər. Elə insanlar vardır ki, ömrü boyu öz şəhvət və nəfsani istəklərini ayağının altına qoymuşdur. Onların mükafatı bu dünyada verilməsə də, axirət dünyasında mütləq veriləcəkdir.

Yaxşı əməllərin həqiqi surəti və xoş ətri olduğu kimi, pis əməllərin də həqiqi surəti və pis qoxusu var. Yuxarıda yaxşı əməllər haqqında iki nümunəni qeyd etdik. İndi isə pis və murdar əməllər haqqında bir neçə nümunə söyləyək.

قَالَ رَسُولُ اللّهِ(ص): إِذَا كَذَبَ الْعَبْدُ تَبَاعَدَ عَنْهُ الْمَلَكُ مِيلًا مِنْ نَتْنِ مَا جَاءَ بِهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Bəndə yalan danışan zaman mələklər onun yalanından meydana gəlmiş pis iyə görə bir mil uzaqlaşar."[1]

Abdullah ibn Musa ibn Cəfər belə bir rəvayət danışır:

سَأَلْتُهُ عَنِ الْمَلَكَين هَل يَعلَمَانِ بِالذَّنبِ اِذَا اَرَادَ العَبدُ اَن يَفْعَلَهُ اَوِ الْحَسَنَةَ؟ فَقَالَ: رِيحُ الكَنِيف وَ رِيحُ الطِيب سَواءٌ؟ قُلتُ: لا. قَالَ: اِنَّ العَبدَ اِذَا هَمّ بِالْحَسَنَة خَرَجَ نَفَسُهُ طَيِّبَ الرِّيح فَقَالَ صَاحِبُ اليَمِين لِصَاحِبُ الشِّمَال قُم فَاِنَّهُ قَد هَمَّ بِالْحَسَنَة فَاِذَا فَعَلَهَا... وَ اِذَا هَمَّ بِالسَّيِّئَة خَرَجَ نَفَسُهُ مُنتِنَ الرِّيح فَيَقُولُ صَاحِبُ الشِّمَال لِصَاحِبُ اليَمِين قِف فَاِنَّهُ قَد هَمَّ بِالسَّيِّئَة فَاِذَا فَعَلَهَا...

-Atamdan insanın yanında olan iki mələk barədə soruşdum: "İnsan günah və ya yaxşı iş görmək fikrinə düşdükdə həmin mələklər hiss edirlərmi? Həzrət(ə) buyurdu: Pis şeyin qoxusu ilə yaxşı şeyin qoxusu eynidirmi? Dedim: Əlbəttə ki, eyni deyildir. Həzrət(ə) buyurdu: Bəndə yaxşı iş görmək fikrinə düşdükdə onun nəfəsindən

[1] Mizanül-hikmə, 8-ci cild, hədis - 17386.

gözəl iy gələr. Elə olduqda sağda əyləşən mələk solda əyləşən mələyə deyər: Sən uzaqlaş. Çünki bunun işi mənlikdir. Həmin bəndə iradə etdiyi yaxşı işi gördükdə onu qeyd edib yazar. İnsan günah iş görmək fikrinə düşdükdə isə nəfəsindən pis iy gələr. Belə olduqda sol tərəfdə əyləşən mələk sağda əyləşən mələyə deyər: Sən dayan, bunun işi mənimlədir. Əgər həmin şəxs günah işi görsə, solda əyləşən mələk onun etdiyi əməli qeydə alıb yazar."[1]

Əlbəttə, əməllərin qoxusunu təkcə mələklər deyil, peyğəmbərlər, məsum imamlar, pak insanlar da hiss edirlər. Quranda bu məsələyə dair açıq-aydın sübutlar vardır. Yusifin(ə) qardaşları neçə ildən sonra Misirə gəlib onu tapdıqda və tanıdıqda atalarına gözaydınlığı vermək üçün onun köynəyini də özləri ilə götürdülər. Misirlə Kənan şəhəri arasındakı məsafə 480 km təşkil edir. O zamanlar bu məsafəni ən azı 9-10 günə qət edərdilər. Qardaşlar Misirdən çıxıb Kənana tərəf hərəkət etməyə başladıqda Həzrət Yaqub(ə) belə bir uzaq məsafədən Yusifin(ə) ətrini hiss edir. "Yusif" surəsinin 94-cü ayəsində oxuyuruq:

وَلَمَّا فَصَلَتِ الْعِيرُ قَالَ أَبُوهُمْ إِنِّي لَأَجِدُ رِيحَ يُوسُفَ لَوْلاَ أَن تُفَنِّدُونِ

-Karvan (Misirdən) ayrılan kimi ataları (Kənanda) dedi: "Əgər məni səfeh hesab etməsəydiniz, həqiqətən, mən Yusifin ətrini hiss edirəm."

Həzrət Yaqubun(ə) həm görən gözü, həm eşidən qulağı, həm də mənəviyyat aləminin qoxusunu ala bilən burnu vardı. Əgər bir insan mənəviyyat aləmini görmürsə,

[1] Üsuli-kafi, 4-cü cild, səh.162.

deməli, günahları onun gözlərinə pərdə çəkib. Əgər bir insan pərdənin arxasındakı səsləri  eşitmirsə, deməli, günahlar onun qulağını kar edib. Əgər bir insan günahın və yaxşı əməllərin iyini duymursa, günahlar onun ruhunu zökəm etmişdir. Zökəm olmuş bir insan burnu tutulduğu üçün sağalana qədər iyləri hiss edə bilmir. Dünyanı ağuşuna almış günahların iyini hiss edən insana dünya həyatı xoş gəlməz. Buna görə də hədislərdə qeyd olunmuşdur ki, dünya mömininin zindanıdır. Məgər mömin bu dünyanın bağlarını, ləzzətli yeməklərini, gülüstanlarını görmürmü? Bütün bunların hamısını görür, amma bu dünyanın ona zindan olması günahların bütün həqiqət və çirkinliklərini görməsindən irəli gəlir. Əgər bir insanı üfunətli iylər gələn bir yerə salsalar, həmin yer ona xoş gələrmi? Əgər bir insan bu dünyadakı günahların həqiqi üzünü görüb onun pis qoxusundan narahat olursa, dünya onun üçün rahatlıq yeri ola bilərmı? Təbiidir ki, həmişə bu dünyadan getmək arzusu ilə yaşayar.

Odur ki, insanın etdiyi hər bir əməlinin həqiqi surəti, iç üzü vardır. Hədislərdə də hər bir müsbət və mənfi əməlin özünəməxsus həqiqi surəti haqda açıqlamalar verilmişdir.

## Ölümün batini və mələkuti surəti

Quran ayələrinə və hədislərə əsasən öyrəndik ki, hər bir əməlin iki surəti vardır və onlardan biri zahiri, digəri isə batini surətdir. Bəzi insanlar bu surətlərin hər ikisini bu dünyada ikən görüb müşahidə edə bilirlər. Əksər insanlar isə yalnız zahiri surəti görürlər. Amma hər bir insan can verərkən, bərzəxdə və qiyamətdə bütün əməllərinin həqiqətini öz gözləri ilə görəcəkdir. Söhbətimiz ölüm mövzusunda olduğu üçün bir qədər də insanın ölüm

anında görüb hiss etdiklərindən söz açaq. Gələcək bəhslərimizdə isə Allahın köməkliyi ilə bərzəx və qiyamət barədə də bəhslərimiz olacaqdır.

İnsan can verərkən gözlərinin önündən pərdələr müəyyən qədər götürülür və bərzəx gözləri açıldıqdan sonra o, bir sıra şeylərin həqiqətini görür. Bu barədə ötən bəhslərimizdə lazımi qədər söz açılmışdır. Ölümün həqiqətini və iç üzünü insan canını tapşırarkən son anlarında görüb dərk edir. Bu haqda təqdim olunan hədislərdən əlavə, arif insanların da sözləri vardır. Rəcəbəli Xəyyat deyir: "İnsan canını tapşırarkən dünyada bağlı olduğu hər bir şeyi son anlarında onun gözü önündə təcəssüm olunacaqdır." Yəni insanın ürəyində olan hər bir məhəbbət gözəl surətdə ona göstərilir. Məsələn, bir insanın bu dünyada qəlbində naməhrəmə baxmaq məhəbbəti var. Heç kəsin də onun ürəyində nə düşündüyündən xəbəri yoxdur. Amma ömrünün son anında həmin məhəbbəti başqa bir surətdə o insana göstərirlər. O surəti gördükdə ona həvəs edir. Həvəs edən kimi də dünyasını dəyişir. İnsanın xoşbəxt və ya bədbəxtliklə ölməsi də məhz həmin anda bilinir. Yol qəzası, xərçəng və s. vasitələrlə ölmək ölümün zahiri surətidir. İnsan əvvəl-axır bir vasitə ilə bu dünyadan getməlidir. Odur ki, hər hansı bir xəstəliklə bu dünyadan getmək, başqa sözlə, zahiri ölüm insanın xoşbəxt və ya bədbəxt olmasına dəlalət etmir.

Odur ki, insan dünyasını dəyişərkən son anlarında bu dünyadakı əməlləri onun gözünün önündə təcəssüm tapır. Əgər insanın vəzifəyə, pula, şəhvətpərəstliyə, eyş-işrətə və başqa-başqa günahlara həvəsi çox olubsa, son anlarında bu kimi şeylər onun gözünə görünəcəkdir. Həmçinin imanlı bir insanın dünyada namaza, oruca və digər ibadətlərə həvəsi çox olubsa, etdiyi ibadətlər gözləri qarşısında

təcəssüm olunacaqdır. Bütün bunları görən kimi insanın ömrü sona çatır. Hansı əməlini görərkən ruhu bədənindən çıxırsa, bunu biz bilmirik.

İmam Sadiq(ə) buyurur: "Peyğəmbərin(s) zamanında bir nəfər ölüm yatağına düşmüşdü. Həzrət Peyğəmbər(s) bir neçə səhabə ilə birgə ona baş çəkirlər. Baxıb görürlər ki, bəli, o, son anlarını yaşayır və Əzrayıl(ə) da onun canını almaqla məşğuldur. Həzrət Peyğəmbər(s) Əzrayıla(ə) buyurur: Əl saxla. Ondan bir söz soruşmaq istəyirəm. Əzrayıl(ə) ondan əl çəkdikdən sonra həmin şəxs özünə gəlir. Həzrət Peyğəmbər(s) ondan gözlərinə nə görsəndiyini soruşur və o şəxs də deyir: Çoxlu qaranlıqlar və ağ kölgələr görürəm. Peyğəmbər(s) soruşur: Hansı sənə daha yaxındır? O deyir: Qaranlıqlar. Həzrət Peyğəmbər(s) buyurur: Bu kəlmələri təkrar elə.

اللَّهُمَّ اغْفِرْ لِيَ الْكَثِيرَ مِنْ مَعَاصِيكَ وَ اقْبَلْ مِنِّي الْيَسِيرَ مِنْ طَاعَتِكَ

-İlahi, sənə qarşı etdiyim çoxlu günahlarımı bağışla və etdiyim az ibadətləri məndən qəbul et.

O, bu duanı təkrar etdikdən sonra yenə də özündən gedir. Həzrət Peyğəmbər(s) Əzrayıla(ə) bir daha əl saxlamağı göstəriş verdi. Əzrayıl(ə) kənara çəkildikdə o, yenə də özünə gəldi. Peyğəmbər(s) soruşdu: İndi nə görürsən? O dedi: Çoxlu qaranlıqlar və ağ kölgələr görürəm. Peyğəmbər(s) yenə də soruşdu: İndi hansı sənə daha yaxındır? O dedi: Ağ kölgələr və nurlar. Peyğəmbər(s) üzünü səhabələrə tutub buyurdu: Allah-təala sizin bu dostunuzu bağışladı. (Son anlarında nuraniyyət ona yaxın oldu və qaranlıqda deyil, nurun içində dünyadan getdi.)"

İmam Sadiq(ə) bu əhvalatı danışdıqdan sonra belə buyurdu: “Can verən insanın başı üzərinə gedərkən həmin duanı ona təlqin edin.”[1]

Beləliklə, insanın son nəfəsində hansı əməlinə həvəs göstərərək öləcəyi məlum deyildir. İnsan bilmir ki, son anında yaxşı əməllərinin nuraniyyətini görərək öləcək, yoxsa pis əməllərinin zülmətini görüb ona həvəs göstərdikdə ömrü tamam olacaqdır.

Cüneydi Bağdadi Bağdadda yaşayan böyük arif və alimlərdən biri idi. O, ömrünün son anlarında Allaha səcdə edib ağlamağa başladı. Ətrafına yığışan möminlər soruşdular: “Nə üçün ağlayırsan? Sənin bütün ömrün tövhid, zikr, elm və xidmətlə keçib. Bu ağlamağının səbəbi nədir? O dedi: Yetmiş il etdiyim bütün ibadətlərimin hamısını bir tükdən asılı vəziyyətdə görürəm. Külək də əsərək onu yellədir. Bilmirəm, bu külək fəzl küləyidir, yoxsa vəsl küləyi. Bilmirəm ki, bu ip əməllərim cənnətə tərəf yönələndə qırılacaq, yoxsa cəhənnəmə tərəf yönələndə qırılacaq.”

İnsan ömrünün son anında rastlaşacağı bu halı aradan qaldırmaq üçün mütləq dünyada qəlbindəki məhəbbət və istəkləri yoluna qoymalıdır. Çünki insanın son anda taleyi də bundan asılıdır. Ölümün iç üzü və həqiqi surəti belədir. İnsanın xoşbəxt və bədbəxtliyi də ölümün zahiri ilə yox, batini ilə ölçülür.

## Cənab Əzrayılın(ə) ölümü

Aydın məsələdir ki, bütün canlılar və yaranmışların hamısı öləcək. Quranın buyurduğuna əsasən insan hətta

[1] Əməllərin təcəssümü, səh. 69.

möhkəm qalalarda olsa da belə ölümdan qaça bilməyəcəkdir. Allah-təala canları almaq üçün bir mələk təyin edib ki onun adına Əzrayıl(ə) deyilir. Maraqlısı budur ki, bütün canları alan bu ölüm mələyi də bir gün öz canını tapşıracaq. Əzrayılın(ə) necə canını tapşırması haqda İmam Sadiqdən(ə) belə bir rəvayət danışılır:

-Yaqub Əhmər deyir: "İmam Sadiqin(ə) oğlu İsmayıl dünyasını dəyişmişdi. Biz başsağlığı vermək üçün Həzrətin(ə) evinə getdik. Başsağlığı verdikdən sonra İmam(ə) mənə buyurdu: Allah-təala ölümün barəsində ümumi bir qanun qoyub. Bu qanun hamı üçündür. Hətta Öz Peyğəmbərini(s) də bundan xəbərdar etmişdir. "Zumər" surəsinin 30-cu ayəsində Həzrət Peyğəmbərə(s) belə buyurur:

إِنَّكَ مَيِّتٌ وَإِنَّهُم مَّيِّتُونَ

-Şübhəsiz, sən də öləcəksən, onlar da öləcəklər.

Bütün yer və göy əhli öləcək və bir nəfər də olsun canlı diri qalmayacaq. Allah- təala Quranda buyurur: Hər bir canlı ölümü dadacaq."

Sonra Həzrət(ə) buyurdu: "Mələklərin də hamısı öldükdən sonra Əzrayıl(ə) Allahın hüzurunda dayanacaq. Allah-təala soruşacaq: Canlılardan kim qalıb? Əzrayıl(ə) deyəcək: Ərşi daşıyanlar, Cəbrayıl, Mikayıl və mən. Allah-təala əmr edəcək ki, Cəbrayıl və Mikayılın da canını al. Sonra soruşacaq: İndi kim qalıb? Əzrayıl(ə) deyəcək: Ərşi daşıyanlar. Allah-təala buyuracaq: Onların da canını al. Onlar da öldükdən sonra Əzrayıl(ə) qəmgin halda Allahın hüzurunda dayanacaq. Allah-təala soruşacaq: İndi kim diri qalıb? Əzrayıl(ə) deyəcək: Sənin zati-müqəddəsin əbədi və əzəlidir. Yaratdığın canlıların içərisində məndən

başqa heç bir kəs qalmayıb. Allah-təala buyuracaq: İndi isə sən də öl. Əzrayıl(ə) da canını tapşıracaq.”[1]

Daha sonra İmam Sadiq(ə) buyurdu: “Hamı öldükdən sonra Allah-təala yerə və göyə nəzər salaraq belə buyurar: Haradadır Mənim üçün şərik qərar verib iddia edənlər?! Haradadır özlərini dünyanın maliki bilənlər?! Haradadır Mənim verdiyim ruzini yeyərək haqqımı ödəməyənlər?!”

“Ğafir” surəsinin 16-cı ayəsində Allah-təala belə buyurur:

لِّمَنِ الْمُلْكُ الْيَوْمَ لِلَّهِ الْوَاحِدِ الْقَهَّارِ

-Bu gün mülkiyyət və hakimiyyət kimə məxsusdur? Tək və qüdrətli Allaha məxsusdur.

## Əməllərin qəbirdə (Bərzəx aləmindəki) təcəssümü

İnsanın əqidəsi, bütün əməlləri və hətta niyyətləri belə başqa bir surətdə təcəssüm olunur. Odur ki, insanın əməllərinin həqiqətinin mələkuti surətini beş yerdə görmək mümkündür. Həmin yerlərdən biri də bu dünyadadır. Peyğəmbərlər və məsum imamlar bunu görürlər. Bundan əlavə, bəzi təqvalı, pak və əməlisaleh insanlar da bəsirətləri açıq olduğundan həmin əməllərin bəzisini görə bilirlər. Belə də düşünməməliyik ki, bəsirət gözü açıq olan insan hər bir şeyi istədiyi zamanda görə bilər. Bunun da öz aləmi, dərəcəsi və məqamı vardır. Ola bilsin ki, insan ömründə yalnız bircə bu halı görmüş olsun. Elə insan var ki, ömründə iki-üç dəfə, insan da var bundan artıq görə

---

[1] Hədislərdə qeyd olunur ki, Əzrayılın(ə) ruhu bədənindən çıxarkən nalə edib elə dəhşətlə bağıracaq ki, əgər adəm övladı ölməmişdən qabaq onun bağırtısını eşitsəydi, hamısı həlak olardı.

bilir. Bütün bu hallar insanın əməl və qəlbinin nuraniyyətinə bağlıdır. İnsanın pərdənin arxası ilə əlaqəsi nə qədər çox olsa, belə halları da görməsi çox ola bilər. Odur ki, əgər insan bu dünyada ikən əməllərinin həqiqi surətini, hərəkətlərinin necə yazıldığını, günahların hansı surətdə olduğunu görə bilsə, heç vaxt günah etməz.

Bu dünyada digər əməlləri də qəbirdə bərzəx aləminə münasib surətdə insana göstərəcəklər.

İmam Sadiq(ə) buyurur: "Günlərin birində cənab Cəbrayıl(ə) Həzrət Peyğəmbərin(s) hüzuruna gəlib ərz etdi:

يَامُحَمَّد عِش مَا شِئتَ فَاِنَّكَ مَيِّت، اَحبِب مَا شِئتَ فَاِنَّكَ مُفارِقُه وَاعمَل مَاشِئتَ فَاِنَّكَ مُلاقِيه

-Ey Məhəmməd(s), istədiyin kimi yaşa, bil ki, əvvəl-axır öləcəksən. (Dünyada) istədiyini sev, bil ki, əvvəl-axır ondan ayrılacaqsan. İstədiyin əməli gör, bil ki, əvvəl- axır onunla (əməllərinlə) görüşəcəksən."[1]

Qeys ibn Asim Həzrət Peyğəmbərin(s) müəyyən qədər məşhur səhabələrindən idi. Bəni-Təmim qəbiləsindən olan Qeys deyir: "Günlərin birində bir neçə nəfər öz yerlilərimlə birgə Həzrət Peyğəmbərin(s) ziyarətinə getmişdik. Ərz etdim: Ya Rəsulallah, bizə moizə və nəsihət edin. Həzrət Peyğəmbər(s) onlar üçün moizə etməyə başladı. Həmin moizənin bir hissəsi belədir:

يَا قَيْسُ إِنَّ مَعَ الْعِزِّ ذُلا، وَإِنَّ مَعَ الْحَيَاةِ مَوْتًا، وَإِنَّ مَعَ الدُّنْيَا آخِرَةً،

---

[1] Əməllərin təcəssümü, səh. 80.

وَإِنَّ لِكُلِّ شَيْءٍ حَسِيبًا... وَلِكُلِّ أَجَلٍ كِتَابًا، وَإِنَّهُ لا بُدَّ لَكَ يَا قَيْسُ مِنْ قَرِينٍ يُدْفَنُ مَعَكَ وَهُوَ حَيٌّ، وَتُدْفَنُ مَعَهُ وَأَنْتَ مَيِّتٌ، فَإِنْ كَانَ كَرِيمًا أَكْرَمَكَ، وَإِنْ كَانَ لَئِيمًا أَسْلَمَكَ، ثُمَّ لا يُحْشَرُ إِلا مَعَكَ، وَلا تُحشَرُ إِلا مَعَهُ، وَلا تُسْئَلُ إِلا عَنْهُ، فَلا تَجْعَلْهُ إِلا صَالِحًا فَإِنَّهُ إِنْ كَانَ صَلحُ آنَستَ بِهِ، وَإِنْ فَسَد لا تَسْتَوْحِشْ إِلا مِنْهُ، أَلا وَهُوَ فِعْلُكَ

-Ey Qeys! (bil ki) izzətlə yanaşı zillət, həyatla yanaşı ölüm, dünyan ilə yanaşı axirət də var. (Bil ki,) hər bir şeyin hesab-kitabı vardır.

Ey Qeys! Hökmən səninlə dəfn olunacaq bir yaxının (dostun) olmalıdır. O, diridir və öldüyün zaman onunla birgə dəfn olunarsan. Əgər o, kərim olsa, səni əziz edəcək və əgər lənətlənmiş olsa, səni alçaldacaq. (Qiyamət günü) yalnız onunla birgə dirildiləcək, onun barəsində sorğu-sual olunacaqsan. Onu yalnız saleh (yaxşı) qərar ver. Əgər o, saleh olarsa, onunla üns yaradarsan; yox, əgər fasid olarsa, yalnız ondan dəhşətlər görərsən. O yaxın (varlıq) sənin əməlindir.”[1]

Həzrət Əli(ə) buyurur:

فَصَارَ جِيفَةً بَيْنَ أَهْلِهِ... ثُمَّ حَمَلُوهُ إِلَى مَخَطٍّ فِي الْأَرْضِ، فَأَسْلَمُوهُ فِيهِ إِلَى عَمَلِهِ

-Beləliklə, (insan) öz əhli-əyalı arasında murdar bir ət olar ki, ondan qorxaraq uzaq durarlar… Bundan sonra

---

[1] Əməllərin təcəssümü, səh. 80.

onu götürüb yerdəki *(son)* mənzilinə *(qəbrə)* gətirəcək və onu orada *(tənha qoyub)* əməlinə tapşıracaq(lar).[1]

İmam Sadiq(ə) buyurur: “İnsanı (öldükdən sonra) qəbrə qoyarkən onun əməlləri mücəssəm olub ona belə deyəcək:

يَا هَذا كُنّا ثَلاثَةً، كَانَ رِزقُكَ فَانقَطَعَ بِانقِطَاعِ اَجَلُك، وَ كَانَ اَهلُك فَخَلَّفُوكَ وَ انصَرَفُو عَنك وَ كُنتُ عَمَلُك فَبَقِيتُ مَعَك اَمَا اِنِّ كُنتُ اَهوَنَ الثَّلاثَةِ عَلَيك

-Ey kəs, biz üç hissədən ibarət idik. Birincisi, sənin ruzin idi ki, əcəlin çatdıqda kəsildi. İkincisi, ailən idi ki, səni burada qoyub getdilər. Üçüncüsü isə mənəm, sənin əməlin. Mən səninlə birlikdəyəm. Halbuki sənin nəzərində o iki şeydən ən qiymətsizi mən idim. (Ailə və ruzini hər şeydən üstün tuturdun. Mənə heç vaxt diqqət yetirmirdin. Bilmirdin ki, öləndən sonra ruzin kəsiləcək, ailən səndən ayrılacaq, amma mən həmişə səninlə qalacağam?)”[2]

## Qəbirdə mömin və kafirin əqidə və əməlinin təcəssümü

İmam Sadiq(ə) buyurur: “Mömin qəbrə daxil olduqdan sonra yer ona belə deyər: Xoş gəlmisən. Allaha and olsun ki, mənim üzərimdə gəzdiyin zaman səni çox sevirdim. Hazırda mənim içimdə olduğun zaman səni daha da çox sevirəm.

---

[1] Nəhcül-bəlağə, 108-ci xütbə.
[2] Əməllərin təcəssümü, səh. 81.

Elə bu zaman onun qəbri gözün görə biləcəyi qədər genişlənər. Oradan bir qapı açılar ki, cənnətdəki yerini görər. Həmin qapıdan heç vaxt görmədiyi gözəl bir insan içəri daxil olar. Mömin ondan soruşar: Mən heç bir vaxt səndən gözəl bir insan görməmişəm. Sən kimsən? O deyər: Mən sənin (dünyada etiqad bağladığın pak və) gözəl əqidənəm. Mən sənin (dünyada ) etdiyin saleh əməlinəm. Sonra ona deyər: Gözlərin aydın olsun. Elə isə burada şadlıqla yat.

Ondan sonra qiyamət gününə qədər onun cəsədinin üzərinə cənnətin ləzzətli və xoşətirli nəsim küləyi əsər.

Amma kafir insan qəbrə daxil olduqda yer (qəbir) ona deyər: Xoş gəlmədin. Allaha and olsun ki, üzərimdə gəzdiyin zaman sənə nifrət edirdim. İndi isə sənə daha çox nifrət edirəm.

Sonra qəbir onu elə sıxar ki, bütün sümükləri sınar. Daha sonra qəbirdə cəhənnəm qapılarından biri onun üçün açılar və oradakı yerini görər. Həmin qapıdan bir nəfər eybəcər və çirkin bir şəxs qəbrə daxil olar. Kafir ondan soruşar: Mən səndən eybəcər və çirkin bir kəs görməmişəm. Sən kimsən? O deyər: Mən sənin (dünyada etiqad bəslədiyin) çirkin əqidən və pis əməllərinəm.

Bundan sonra onun ruhunu gördüyü həmin cəhənnəmə aparарlar. Qiyamət gününə kimi onun üzərindən zəhərli və alovlu külək əsər. Sonra Allah-təala dünyada misli görünməyən ilanları onun üzərinə salar.”[1]

## Mömininin qəbrində izhar olunan altı nurani surət

[1] Əməllərin təcəssümü, səh. 82.

Əbu Bəsir deyir: “İmam Baqir(ə) buyurur: Mömin insan öldükdə altı nurani surət onunla birgə qəbrə daxil olar. Onlardan biri hamısından daha çox nurlu və gözəl olar. O nurlardan biri sağda, biri solda, biri üzbəüz, biri arxada, biri ayaq tərəfdə dayanar. Ən gözəl və daha nurlu surət isə baş tərəfdə durar. Hansı tərəfdən əzab qəbrə daxil olmaq istədikdə həmin nurani surətlər ona daxil olmağa imkan verməzlər. Başda dayanan hamıdan gözəl surət o birilərdən soruşar: Siz kimsiniz? Sağda dayanan deyər: Mən bu möminin namazıyam. Soldakı deyər: Mən onun zəkatıyam. Üzbəüz dayanan deyər: Mən onun orucuyam. Arxasında dayanan deyər: Mən onun həcciyəm. Ayaq tərəfində dayanan deyər: Mən onun (mömin) qardaşlarına etdiyi xidmət, yaxşılıq və ehsanlarıyam.

Sonra hamısı həmin başda dayanan gözəl surətdən soruşarlar: Bəs sən kimsən ki, bu əzəmət və nuraniyyətlə baş tərəfdə dayanmısan? O deyər: Mən (onun etiqad bəslədiyi və qəbul etdiyi) Ali-Məhəmmədin(s) vilayətiyəm.”[1]

Əməllərin təcəssümü barədə kitab yazan hər bir alim öz kitabında bu hədisi qeyd etmişdir. Yəni bu hədisin səhih olmasında heç bir şəkk-şübhə yoxdur. Bütün əməllərin hamısı Həzrət Peyğəmbərin(s) Əhli-beytinin(ə) vilayəti sayəsində qəbul olunur. Əgər namaz, oruc, həcc və s. əməllər qəbul olunursa, vilayətə xatir qəbuldur.

---

[1] Əməllərin təcəssümü, səh. 84.

## Mərhum Ayətullah Hacı Mirzə Əliağa Şirazinin yuxusu

Ustad Şəhid Mütəhhəri deyir: “Mərhum Ayətullah Hacı Mirzə Əliağa mənim ustadım idi. O, həm fəqih, həm hikmət ustadı, həm arif və həm də təbib idi. Əbu Əli Sinanın “Qanun” kitabını tədris edirdi. Həmçinin o, “Nəhcül-bəlağə”nin gözəl bilicisi idi. Əgər “Nəhcül-bəlağə”ni mücəssəm formada düzəltsəydilər, bu, ustadım Hacı Mirzə Əliağa olardı. O, belə bir şəxsiyyət idi.

Günlərin birində dərsdə o, mənə gördüyü yuxunu danışdı. Yuxunu danışarkən o qədər ağladı ki, göz yaşları yanaqlarından süzülüb bütün sinəsini islatdı. O, mənə buyurdu: “Gecə yuxuda gördüm ki, ölmüşəm. Hədislərdə oxuduğumuz kimi, camaatın mənə qüsl verməyinə, kəfənləməyinə və dəfn etməyinə tamaşa edirdim. Məni dəfn etdikdən sonra qəbirdə tək qaldım. Çox narahat və nigaran halda idim. Elə bu zaman gördüm ki, ağ bir it qəbrə daxil oldu. Başa düşdüm ki, bu, mənim dünyada (cavanlıqda) bəzi vaxtlar bədrəftar olduğumun təcəssümüdür. Əlim hər yerdən üzüldü və çarəsiz halda bu işin axırını gözləməyə başladım. Elə bu zaman qəbrin bir tərəfindən nur saçdı. Diqqətlə baxdıqda gördüm ki, gələn şəxsən Həzrət İmam Hüseyndir(ə). Həzrət(ə) mənə buyurdu: Narahat olma, bu iti səndən uzaqlaşdıraram.

İmam Hüseyn(ə) həmin iti məndən kənarlaşdırdı. İt oradan uzaqlaşan kimi rahatlaşdım və elə o haldaca yuxudan oyandım.”[1]

Beləliklə, qəbirdə də insanın hər bir əməli özünəməxsus şəkildə təcəssüm olunur. Belə bir halda

[1] Qəbrin həqiqəti, səh. 77.

İmam Hüseynin(ə) və Həzrət Peyğəmbər(s) başda olmaqla bütün məsumların insanlara olan inayət və diqqəti çox böyük rol oynayır.

*Ömrümün sürətlə keçdi müfəssəl gecəsi,*
*Olmadı heyf ola taətilə mücəllal gecəsi.*
*And verirəm səni Əkbər qanına, ya Mövla,*
*Məni tək qoymayasan qəbrimin əvvəl gecəsi.*

## Əməllərin qiyamətdəki təcəssümü

Ötən bəhslərimizdə insanın əməllərinin bu dünyada, can verən halda və qəbirdəki (bərzəx aləmindəki) təcəssümü haqda müəyyən qədər söhbət etdik. Əlbəttə, qeyd olunduğu kimi, dünyada əməllərin həqiqi surətini bəzi insanlar istisna olmaqla hamı görə bilmir. Amma ölüm ayağında və qəbirdə hamı öz əməlinin həqiqi surətini görəcək.

İnsanın əməllərinin təcəssüm olunduğu və həqiqi surətinin üzə çıxdığı yerlərdən biri də qiyamət günüdür. Yəni qiyamət günü insanın pis və yaxşı bütün əməllərinin qiyamətə məxsus formada həqiqi surətini ona təqdim edəcəklər. Dünya və axirətin bir-birinə möhkəm və birbaşa bağlılığı vardır. Bu, sanki bir əkin yerinə bənzəyir ki, insan hər nə əkirsə, onu da biçir. Yəni insan öz əli ilə əkdiyi toxumun bəhrə və nəticəsini də biçir. Allah-təala "Şura" surəsinin 20-ci ayəsində buyurur:

مَن كَانَ يُرِيدُ حَرْثَ الْآخِرَةِ نَزِدْ لَهُ فِي حَرْثِهِ وَمَن كَانَ يُرِيدُ حَرْثَ الدُّنْيَا نُؤْتِهِ مِنْهَا وَمَا لَهُ فِي الْآخِرَةِ مِن نَّصِيبٍ

-Kim axirət əkini istəsə (axirət məhsulu üçün əməl toxumu əksə) onun əkinini artırarıq (lütfkarlıqla ona ədalətli dəyərin ən azı on bərabərini verərik) və kim dünya

əkini istəsə (əməli dünya məqsədi ilə etsə, Biz Öz yazımıza əsasən) ondan (bir azını) ona verərik və həmin şəxsin daha axirətdə bir payı olmayacaqdır.

Bu ayədən istifadə edərək "dünya axirətin əkin yeridir" kimi bir ifadə də yaranmışdır. Həzrət Davud(ə) günahkar və pis işlər görən insanlara xitab edərək belə buyurur:

يَا زَارِعَ السَّيِّئَات! أَنتَ تَحصُدُ شَوكَهَا وَحَسَكَهَا

-Ey günah və pislikləri əkən insan! Bil ki, əkdiyinin tikanlarını özün biçəcəksən.

*Arpa əkənin hasili haşa ola buğda,*
*Verməzlər səmər xasirə xüsran əvəzində.*

قَالَ رَسُولُ اللّهِ(ص): وَ أَخوَفُ آيةٍ فِي القُرآن "فَمَنْ يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ خَيْرًا يَرَهُ. وَمَنْ يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ شَرًّا يَرَهُ

-Həzrət Peyğəmbər(s) buyurur: "Quranda ən qorxulu ayə budur: "Hər kim bir zərrə ağırlığında yaxşı iş görmüşsə, onu(n qarşılığını, yaxud eynilə təcəssümünü) görəcəkdir. Və hər kim bir zərrə ağırlığında pis iş görmüşsə, onu görəcəkdir."[1]

Allah-təala "Nəbə" surəsinin 40-cı ayəsində belə buyurur:

إِنَّا أَنذَرْنَاكُمْ عَذَابًا قَرِيبًا يَوْمَ يَنظُرُ الْمَرْءُ مَا قَدَّمَتْ يَدَاهُ وَيَقُولُ الْكَافِرُ يَا لَيْتَنِي كُنتُ تُرَابًا

-Həqiqətən, Biz sizi yaxın olan əzabla qorxutduq. Elə bir gün(lə) ki, (o gün) hər kəs öz əlləri ilə öncədən

---

[1] Əməllərin təcəssümü, səh. 98.

göndərdiklərinə baxar, kafir deyər: “Kaş ki, torpaq olaydım (və heç bir məsuliyyətim olmayaydı).”

“Qaf” surəsinin 22-ci ayəsində buyurulur:

لَقَدْ كُنتَ فِي غَفْلَةٍ مِّنْ هَذَا فَكَشَفْنَا عَنكَ غِطَاءكَ فَبَصَرُكَ الْيَوْمَ حَدِيدٌ

-(Ona deyiləcəkdir:) Həqiqətən, sən bundan (bu gündən) qafil idin. Biz pərdəni (qəflət pərdəsini) səndən kənara çəkdik. Odur ki, bu gün gözün iti görür.

## Qiyamət günündə əməllərin təcəssümündən bəzi nümunələr

### Yaxşı əməlin həqiqi surəti

Hədis və rəvayətlərdə qiyamət günü hansı əməlin hansı surətdə təcəssüm olunması qeyd edilmişdir. Burada yaxşı olar ki, həmin hədislərdən bir neçəsinə diqqət yetirək.

قَالَ رَسُولُ اللّٰهِ(ص): إِنَّ الْمُؤْمِن إِذَا خَرَجَ مِنْ قَبْره صُوِّرَ لَهُ عَمَله فِي صُورَة حَسَنَة فَيَقُول لَهُ: مَا أَنْتَ فَوَاللّٰهِ إِنِّي لَأَرَاكَ اِمْرَأً صِدْق؟ فَيَقُول: أَنَا عَمَلُك فَيَكُونُ لَهُ نُورًا وَقَائِدًا إِلَى الْجَنَّةِ

-Həzrət Peyğəmbər(s) buyurur: “(Qiyamət günü) mömin qəbirdən qalxan zaman əməli gözəl surətdə onun qarşısında təcəssüm olunar. Mömin deyər: And olsun Allaha, mən səni yaxşı bir dost kimi görürəm. Sən kimsən? O isə deyər: Mən sənin əməlinəm. Sonra (onun əməli) nur saçaraq onu cənnətə sarı ötürər.”[1]

### Mömin qardaşı sevindirməyin həqiqi surəti

[1] Quranın xəbər verməsi, 6-cı cild, səh. 136.

İmam Sadiq(ə) buyurur: “Mömin qəbirdən qalxdığı zaman bir surətlə qarşılaşar. Həmin surət onu şadlıq və İlahi kəramətlə müjdələyər. Həyəcanlı və vəhşətli hallarda ona ürək-dirək verər. Beləliklə, o surət həmin mömini cənnətə qədər ötürər və onu cənnətlə müjdələyər. Mömin ondan soruşar: Sən kimsən? Mənə qorxulu hallarda ürək-dirək verdin və mənimlə yoldaş oldun. O, cavab verər:

اَنَا السُّرُور الَّذِى كُنتَ تُدخِلُهُ عَلى اِخوَانِكَ فِى الدُّنيا خُلِقتُ مِنهُ لِاُ بَشِّرُكَ وَ اُونِسَ وَحشَتَك

-Mən sənin dünyada mömin qardaşının qəlbini şad etdiyin həmin şadlığam. Sən qardaşının qəm-qüssəsini aradan qaldırdıqda, səni müjdələmək və vəhşətli hallarda yanında olmaq üçün yaranmışam.”[1]

## Quran oxumağın həqiqi surəti

Quran oxuyan möminlər qiyamət günündə onun həqiqi təcəssümünü görəcəklər. Buna görə də insanın Quran oxumağı öyrənməməsi heç insafdan deyil. Bu da insafdan deyil ki, insan Allahın nazil etdiyi kitabı nazil olduğu dildə oxumasın. Əlbəttə, tərcüməsini bilmək də yaxşıdır. Amma Quranın hərflərinə baxmaq, onu nazil olduğu dildə oxumaq da insana nuraniyyət bəxş edir.

قَالَ رَسُولُ اللَّهِ(ص): تَعَلَّمُوا الْقُرْآنَ فَإِنَّهُ يَأْتِي يَوْمَ الْقِيَامَةِ صَاحِبَهُ فِي صُورَةِ شَابٍّ جَمِيلٍ شَاحِبِ اللَّوْنِ فَيَقُولُ لَهُ الْقُرْآنُ أَنَا الَّذِي كُنْتُ أَسْهَرْتُ لَيْلَكَ وَ أَظْمَأْتُ هَوَاجِرَكَ وَ أَجْفَفْتُ رِيقَكَ وَ أَسَلْتُ

[1] Mənşuri-Cavid, 9-cu cild, səh. 415.

دَمْعَتَكَ أَؤُولُ مَعَكَ حَيْثُمَا أُلْتَ... فَيُؤْتَى بِتَاجٍ فَيُوضَعُ عَلَى رَأْسِهِ وَ يُعْطَى الْأَمَانَ بِيَمِينِهِ وَ الْخُلْدَ فِي الْجِنَانِ بِيَسَارِهِ وَ يُكْسَى حُلَّتَيْنِ ثُمَّ يُقَالُ لَهُ اقْرَأْ وَ ارْقَهْ فَكُلَّمَا قَرَأَ آيَةً صَعِدَ دَرَجَةً وَ يُكْسَى أَبَوَاهُ حُلَّتَيْنِ إِنْ كَانَا مُؤْمِنَيْنِ ثُمَّ يُقَالُ لَهُمَا هَذَا لِمَا عَلَّمْتُمَاهُ الْقُرْآنَ

-Həzrət Peyğəmbər(s) buyurur: “Quranı (oxumağı) öyrənin. Çünki Quran qiyamət günündə gözəl bir cavan oğlan surətində onu oxuyanın yanına gəlib deyər: O, mənəm ki, gecələr səni yatmağa qoymurdum. (Yuxudan oyanıb məni oxumaqla məşğul idin.) O, mənəm ki, isti havalarda məni oxuduqda dil-dodağın quruyar və gözlərinin yaşı tökülərdi. Bu gün hara getsən, mən sənin yanına gələcəyəm…

Sonra həmin şəxsin başına tac qoyub cəhənnəmdən amanda qalmaq vərəqəsini onun sağ əlinə, cənnətdə əbədi qalmaq üçün icazə vərəqəsini isə sol əlinə verərlər. Onun əyninə cənnət libası geyindirib deyərlər: Dünyada oxuduğun ayələri oxu ki, dərəcən artsın. Sonra o, hər bir ayəni oxuduqca bir dərəcə yuxarı gedəcək. Onun atası dünyada mömin adam olubsa, ona da cənnət libası geyindirib deyərlər: Bu, sənin övladına öyrətdiyin Quranın mükafatıdır.”[1]

## Zinakarlığın həqiqi surəti

Yaxşı əməllər qiyamət günü təcəssüm olunduğu kimi, pis əməllər də öz təcəssümünü tapacaqdır. İnsanın qiyamət günündə zinakar kimi məhşərə gəlməsi çox pis

[1] Üsuli-Kafi, 4-cü cild, səh. 405.

bir haldır. Zinakarın etdiyi bu mənfur əməlinə görə bütün məhşər əhli əziyyət çəkəcəkdir.

Həzrət Əli(ə) buyurur: "Qiyamət baş verdikdə çox pis iyi olan bir külək əsəcək və bütün məhşər əhlinə əziyyət verəcək. Elə bu zaman carçı car çəkərək soruşacaq: Bilirsinizmi sizə əziyyət verən bu pis iy nədir? Məhşər əhli deyəcək: Xeyr, bilmirik. Bundan artıq pis bir iy ola bilərmi? Belə cavab veriləcək:

هذِهِ رِيحٌ رِيحُ فُرُوجِ الزُّناة الَّذِينَ لَقُوا اللهَ بِالزِّنَا ثُمَّ لَمْ يَتُوبُوا

Bu iy zina edənlərin övrətindən gələn iydir ki, dünyada zina edib tövbəsiz ölmüşlər."[1]

## Şərab içməyin həqiqi surəti

Həzrət Peyğəmbər(s) buyurur: "Şərab içən insan qiyamət günü üzüqara, ağzının suyu axtığı və dilinin arxadan çıxdığı bir vəziyyətdə məhşərə gələcək."[2]

Başqa bir hədisdə Həzrət(s) buyurur: "Şərab içən insan qiyamət günü hər cür murdar leşdən daha pis iylənmiş halda məhşərə gələr. Onun yanından keçən hər bir məhşər əhli ona lənət oxuyar."[3]

## Qiyamət günündə imanın təcəssümü

Axirət dünyasının hakimiyyəti batinin hakimiyyəti və mühakiməsidir. Yəni dünyada hər bir şey zahiri görkəmində görünür. Amma qiyamət günündə ruhun əsərinin surəti zahir olacaq. Əqidə, əməl, yaxşı və pis

---

[1] Əməllərin təcəssümü, səh. 129.
[2] Əməllərin cəzası, səh. 524.
[3] Əməllərin təcəssümü, səh. 131.

xüsusiyyətlər insanda təzahür olacaqdır. Ruhun gözəlliyi nə qədər çox olsa, qiyamət günü bir o qədər də zahir olacaq. Həmçinin günah əhlinin ruhunun qaralığı nə qədər çox olsa, bir o qədər də çox üzə çıxacaqdır. Həzrət Əli(ə) buyurur: "Qiyamət günündə insana imanı və mərifəti qədər nuraniyyət verilir. Allah-təala "Hədid" surəsinin 12-13-cü ayələrində buyurur:

يَوْمَ تَرَى الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ يَسْعَى نُورُهُم بَيْنَ أَيْدِيهِمْ وَبِأَيْمَانِهِم بُشْرَاكُمُ الْيَوْمَ جَنَّاتٌ تَجْرِي مِن تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا ذَلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ

-Mömin kişi və qadınların nurlarının qabaqlarında və sağ tərəflərində irəlilədiyini görəcəyin gün, (onlara) "bu gün sizə altından çaylar axan, əbədi qalacağınız cənnət və bağlarla müjdə olsun" (deyiləcəkdir). Bu, həmin böyük uğur və qurtuluşdur!

يَوْمَ يَقُولُ الْمُنَافِقُونَ وَالْمُنَافِقَاتُ لِلَّذِينَ آمَنُوا انظُرُونَا نَقْتَبِسْ مِن نُّورِكُمْ قِيلَ ارْجِعُوا وَرَاءَكُمْ فَالْتَمِسُوا نُورًا فَضُرِبَ بَيْنَهُم بِسُورٍ لَّهُ بَابٌ بَاطِنُهُ فِيهِ الرَّحْمَةُ وَظَاهِرُهُ مِن قِبَلِهِ الْعَذَابُ

-(Həmin) o gün ki, münafiq kişi və qadınlar (məhşər əhlinin məxsus hədəf istiqamətindəki yolunda) iman gətirənlərə deyəcəklər: "Bizə görə (bir az) dayanın və möhlət verin və ya bizə tərəf baxın ki, nurunuzdan işıq götürək." Onlara deyiləcək: "Geriyə (dünyaya) qayıdın və (orada) nur axtarın." Həmin vaxt onların (mömin və münafiqlərin) arasında qapısı olan divar çəkiləcək. Onun (cənnətə sarı olan) içəri tərəfində mərhəmət, (cəhənnəmə sarı olan) çölündə isə o tərəfdən əzab vardır."

Əməllərin təcəssümü haqda etdiyimiz bu söhbətlər çox sadə və ibtidai bəhslər idi. Əlbəttə, bu bəhsin dərin və geniş mərhələləri vardır ki, bizim elm və düşüncəmizdən çox yuxarıdır. Məsələn, qiyamət günü Allah-təala Öz əzəmətinin təzahürünü və təcəllasını göstərəcəkdir. Bu, çox dərin və yuxarı səthdə olan bir söhbətdir ki, onu başa düşmək üçün insana dərin elm və yüksək mərifət lazımdır. Hədislərdə qeyd olunur ki, bəndə gecəyarısı yuxudan oyanıb yorğun olmasına baxmayaraq, gecə namazı qılarkən səcdədə ixtiyarsız olaraq yatdıqda Allah-təala mələklərin içərisində həmin bəndəsi ilə fəxr edib deyər: "Görürsünüzmü, bu bəndəmi? Ruhu mənim yanımda, bədəni isə səcdə halındadır. Ona nə verim? Mələklər ərz edər: İlahi, onu bağışla. Allah-təala buyurar: Bağışladım. Amma bu azdır. Mələklər ərz edər: İlahi, ona cənnəti ver. Allah-təala buyurar: Cənnəti də verdim ona. Yenə də azdır. Mələklər ərz edərlər: İlahi, bundan artıq biz bilmirik. Allah buyurar: Gecəyarısı Mənə səcdə edən və səcdədə ixtiyarsız halda yuxuya gedən bəndəmə Özümü Məhəmməd və Ali-Məhəmmədin(s) vücudunda təcəlla edərək onların surətinin həqiqi mənasını göstərəcəyəm."

Yəni Allahın bütün xüsusiyyətləri Həzrət Peyğəmbər(s) və Əhli-beytdə(ə) təcəlla edir. Qurani-Kərimdə oxuyuruq ki, Allah-təala yer üzərində xəlifə yaradarkən mələkləri bu işdən xəbərdar etdi. Allahın xəlifəsi o kəsdir ki, Allahın bütün xüsusiyyətləri onda təcəlla etmiş olsun. Günahkar insanlarda Allahın sifətləri təcəlla edərmi? Allahın xüsusiyyətləri təcəlla olunan kəslər Həzrət Peyğəmbər(s) və Əhli-beytdir(ə) ki, onlar məsum və pak insanlardır. Müqəddəs zatın izharı onların vücudunda təzahür edə bilər. Qiyamət günü Allahın məhşərə gələcəyini iddia edən kəslər həqiqətdə Allahı tanımırlar. Bəziləri "Fəcr"

surəsinin 22-ci ayəsini əllərində əsas tutaraq deyirlər ki, qiyamət günü Allah və mələklər məhşərə gələcək. Onlar əsl həqiqətdə nə ayəni düzgün mənalandıra bilirlər, nə də Allahı olduğu kimi tanıyırlar. Çünki Allah cisim deyil. Əgər Allah cisim olsaydı, Onun məkana, zamana, qidaya və s.-ə ehtiyacı olardı. Allahın isə bütün bunların heç birinə ehtiyacı yoxdur. Həmin ayənin mənası belədir: "Rəbbinin (təkid etdiyi əmri və cəlalının, mütləq hakimiyyətinin təcəllası) yetişəcəyi və mələklər (Məhşər səhnəsinə enib) səf-səf gələcəyi (gün)." Allahın bu təcəllasını başa düşmək bizim elm və mərifətimizdən yüksəkdə olan bir məsələdir.

# Qəbir və insanın bədəni

Ötən bəhslərdə qeyd etdik ki, ruh insanın bədənindən ayrıldıqdan sonra qiyamət gününə qədər bərzəx aləmində məskunlaşır. Amma insanın cansız bədəni isə torpağa tapşırılır və dəfn olunduğu yerə qəbir deyilir. Qəbir barədə bir neçə sual meydana çıxır. Yaxşı olardı ki, bu bəhsimizdə həmin suallara cavab verək. Qəbir necə yaranmışdır? Qəbri insanlar özləri düşünmüşlər, yoxsa bu məsələnin əsaslı bir mənbəyi vardır? "Qəbir" ərəb mənşəli bir sözdür. Quran ayələrində qəbir sözü cəkkiz dəfə hallanmışdır. Məsələn, "Əbəsə" surəsinin 17-21-ci ayələrində Allah-təala insan barəsində buyurur:

قُتِلَ الْإِنسَانُ مَا أَكْفَرَهُ. مِنْ أَيِّ شَيْءٍ خَلَقَهُ. مِن نُّطْفَةٍ خَلَقَهُ فَقَدَّرَهُ. ثُمَّ السَّبِيلَ يَسَّرَهُ. ثُمَّ أَمَاتَهُ فَأَقْبَرَهُ

-Ölsün insan! Nə qədər də kafir və nankordur! (Allahı) onu nədən yaratmışdır? Onu (qarışıq, dəyərsiz) bir nütfədən yaratdı, sonra da (yaradılışının əvvəlindən kamalının zirvəsinədək kəmiyyət və keyfiyyət baxımından bütün hərəkətlərinə) bir ölçü-biçim verdi. Sonra yolunu (xeyir və şər seçmək yolunu – ağıl, iradə və ixtiyar verməklə) ona asanlaşdırdı. Sonra onu öldürdü və qəbrə qoydu.

Bu ayələrdə insanın nədən yaradılması, ona yol göstərilməsi və öldürülüb qəbrə qoyulması barədə söz açılır. Allah insanı yaratdıqdan sonra onun üçün təyin olunmuş yol (ömür) qurtardıqda onu öldürür və qəbrə qoyur. İnsanın həyatı və ölümü Allahın əlindədir. Ayədə oxuyuruq ki, Allah insanı yaradır, öldürür və qəbrə qoyur. Aydın məsələdir ki, həyat və ölüm Allahın əlindədir. Ayədə işlənmiş "Əqbərə" kəlməsi isə o deməkdir ki,

Allah-təala bu işi insanların vasitəsilə görür. Yəni Allah-təala insanlara lazımi qədər ağıl vermiş və dəfn etmək məsələsini də onlara öyrətmişdir. Şəriət hökmlərinə diqqət yetirdikdə orada cənazənin dəfn olunması məsələlərinə də rast gəlirik. Bütün bu hökmlər Allah tərəfindən insanlar üçün müəyyən olunmuş ehkamdır.

Allah-təala insanın qəbrə qoyulması məsələsini ilk dəfə Habil və Qabilin hadisəsi zamanı bizlərə öyrətmişdir. Demək olar ki, hər bir kəsin bu hadisə haqda az da olsa məlumatı vardır. Qardaşlardan biri paxıllıq və nəfsi üzündən digərini öldürdükdən sonra nə edəcəyini bilmirdi. Çünki o zaman dünyada ilk insan ölümü baş vermişdi. Ondan öncə kimsə ölməmişdi və kimsəni dəfn etməmişdilər ki, o da bunları bilmiş olsun. Allah-təala bir qarğanın vasitəsilə cənazəni dəfn etməyi ona öyrətdi. İki qarğa onun gözü qabağında dalaşdı və biri digərini öldürdü. Sonra yeri qazıb ölmüş qarğanı torpağa basdırdı. “Maidə” surəsinin 30-31-ci ayələrində belə oxuyuruq:

فَطَوَّعَتْ لَهُ نَفْسُهُ قَتْلَ أَخِيهِ فَقَتَلَهُ فَأَصْبَحَ مِنَ الْخَاسِرِينَ. فَبَعَثَ اللّهُ غُرَابًا يَبْحَثُ فِي الأَرْضِ لِيُرِيَهُ كَيْفَ يُوَارِي سَوْءةَ أَخِيهِ قَالَ يَا وَيْلَتَا أَعَجَزْتُ أَنْ أَكُونَ مِثْلَ هَذَا الْغُرَابِ فَأُوَارِيَ سَوْءةَ أَخِي...

-Beləliklə, (pis işlərə əmr edən) nəfsi onu qardaşını qətlə yetirməyə həvəsləndirdi və (bu işi ona) asan göstərdi. Beləcə, onu öldürdü və ziyana uğrayanlardan oldu. Allah ona qardaşının görünməməli olan cəsədini necə gizlətməsini göstərmək üçün (nəyisə basdırmaq üçün) yeri qazan bir qarğa göndərdi. O dedi: “Vay olsun mənə! Məgər mən bu qarğa kimi olub qardaşımın cəsədini gizlətməkdən də aciz olmuşam?!”

Yer üzündə ilk qətl hadisəsindən və insan ölümündən sonra Allah-təala insana cənazəni qəbrə qoymağı öyrətdi. Amma bəzi ölkələrdə insanlar cənazəni yandırır, bəzisi mumiyalayır, bəzisi meyitə təzə kostyum geyindirir, bəzisi onun ən bahalı əşyalarını sinəsinin üstünə qoyur. Bütün bunlar insanların öz düşüncə və təfəkkürlərinin bəhrəsidir. Amma İslam aləmində müsəlmanlar cənazəni Allahın buyurduğu hökmlərə əsasən dəfn edərək torpağa tapşırırlar.

Deməli, insan öldükdən sonra ruhu bərzəx aləminə gedir, cəsədi isə torpağa tapşırılır. İnsanın cəsədinin dəfn olunduğu yerə qəbir deyilir. Qəbrin insan üçün necə bir yer olduğu və oranın əhvalatı barədə bir çox hədislər qeyd olunmuşdur. Nümunə üçün birini diqqətinizə çatdırıram.

قَالَ عَلِيّ ابنِ الْحُسَين: إِنَّ القَبرَ رَوْضَةٌ مِنْ رياضِ الجنَّةِ وإمَّا حُفْرَةٌ مِنْ حُفَرِ النيرانِ

-İmam Səccad(ə) buyurur: “Həqiqətən, qəbir insan üçün cənnət bağlarından, yaxud cəhənnəm quyularından biridir.”[1]

Amma biz qəbrin müəyyən ölçüdə qazılmış bir yer olduğunu görürük. Orada nə cənnət bağı görünür, nə də cəhənnəm quyusu. Sual oluna bilər ki, görəsən, bərzəx qəbirdir, yoxsa başqa bir yerdir? Sual oluna bilər ki, əgər qəbir cənnət bağlarından, yaxud cəhənnəm quyularından biridirsə, insanın cəsədi qoyulan həmin qəbirdir, yoxsa burada başqa bir yer nəzərdə tutulur? Digər sual isə budur ki, insan öldükdən sonra ruhla bədənin əlaqəsi tamamilə kəsilir, yoxsa müəyyən qədər əlaqə və rabitəsi qalırmı?

---

[1] Qəbrin həqiqəti, səh. 47.

Ötən bəhslərimizdə bu barədə də lazımi qədər söz açmışıq. İndi isə keçək birinci sualın cavabına. Əgər desək ki, qəbir elə həmin bərzəxdir, burada başqa-başqa müxtəlif suallarla qarşılaşa bilərik. Məsələn, əgər bərzəx insanın dəfn olunduğu qəbirdirsə, bəs dənizdə boğulub ölənlər və meyitləri tapılmayanlar necə olacaq? Əgər qəbir cənnətin bağlarından, yaxud cəhənnəmin quyularından biridirsə, bəs onda qurd-quşa yem olmuş və cəsədi tamamilə aradan getmiş insanların qəbri və aqibəti necə olacaqdır? Əgər Allah-təala insanların qəbrinə xeyir və nur bəxş edirsə, bəs meyitləri tamamilə yanıb kül olmuş, dəfn olunmamış insanların qəbri haradır? Əsrlər boyu dəfn olunmuş və qəbirləri tamamilə itərək aradan getmiş və üzərindən yol, yaşayış məskənləri salınmış insanların təklifi necə olacaqdır? Yaxud illər boyu qəbirdə çürüyüb aradan getmiş insanın qəbrində başqa birisi dəfn olunursa, bir qəbir iki nəfərə məxsus olduqda onların təklifi necə olacaq? Deməli, əgər bərzəxi insanın dəfn olunduğu qəbir hesab etsək, qarşıya bu kimi suallar çıxır və onlara cavab vermək lazım gəlir. Bütün bu sualların cavabında qısaca olaraq belə demək olar: Ruh bədəndən ayrıldıqdan sonra bərzəx aləmində məskunlaşır, cisim isə qəbirdə qalır. Ruh müəyyən müddət öz cəsədi ilə az da olsa əlaqə yarada bilir.

Buradək ruhun bədənlə əlaqəsi haqda lazımi qədər bəhs etmişik. Bəzi ruhlara hərdən öz qəbrinin kənarına getməyə və cəsədini ziyarət etməyə icazə verilir. Bəzi ruhlara da bu işi görməyə az da olsa icazə verilir. Hər halda insan öldükdən sonra cismi ilə müəyyən qədər əlaqə və rabitə saxlaya bilir. Odur ki, insan öldükdən sonra ruhun cismi ilə bundan artıq əlaqəsi yoxdur. Bundan artıq insanın əhvalatı bərzəx aləminə və ruha aid olan

məsələlərdir. Əgər hədisdə qəbir barədə “qəbir insan üçün cənnət bağlarından, yaxud cəhənnəm quyularından biridir” - deyilirsə, bu, mənəvi bir mövzudur və bərzəx aləminə aiddir.

İbrahim ibn İshaq deyir: “İmam Sadiqdən(ə) soruşdum: Möminlərin ruhu haradadır? Həzrət(ə) buyurdu:

أرواحُ المؤمنينَ في حُجُراتٍ في الجنّةِ، يأكُلونَ مِن طَعامِها، و يَشْرَبونَ مِن شَرابِها، و يَتَزاوَرونَ فيها...

-Möminlərin ruhları (bərzəxdəki) cənnətdə otaqlardadır. Oranın yeməklərindən yeyir, içməlilərindən içirlər. Bir-birilərinin görüşünə gedir.[1]

قَالَ الصَّادِقُ(ع): و اللّه ، أتَخَوَّفُ علَيكُم في البَرزَخِ ! قلتُ : و ما البَرْزخُ ؟ قالَ : القَبرُ ، مُنذُ حينِ مَوتِهِ إلى يومِ القيامةِ

-İmam Sadiq(ə) buyurdu: “Vallah sizin üçün bərzəxdən qorxuram. (Rəvayətçi deyir:) Soruşdum: Bərzəx nədir? Buyurdu: Qəbir – ölümdən qiyamətə kimi!”[2]

Bu hədis İslam Peyğəmbərinin(s) adından da qeyd olunmuşdur. Əlbəttə, ötən bəhslərimizdə bu hədisi qeyd edib izahını da verdik ki, cisim etibarilə desək qəbir, ruh etibarilə dedikdə isə bərzəx nəzərdə tutulur. Yəni qiyamət gününə qədər cisim qəbirdə, ruh isə bərzəxdə qalır. İnsan öldükdən sonra başına gələn bütün əhvalat da ruhunun məskunlaşdığı bərzəx aləmində baş verir. Ona görə də

---

[1] Mizanül-hikmə, 1-ci cild, hədis - 1689. Qəbrin həqiqəti, səh. 23.
[2] Qəbrin həqiqəti, səh. 14.

Həzrət Peyğəmbər(s) və məsum imamlarımız buyurmuşlar ki, sizin üçün bərzəxdən qorxuram.

## Hövlül-müttəli nədir?

Bəhsimizə əlavə olaraq bir mətləbi də diqqətə çatdırmaq məqsədəuyğun olardı. Həmin mətləb də budur ki, insanın ruhu bədəndən çıxdıqdan sonra hər bir şey onun üçün aydınlaşır və insan bütün həqiqətləri öz gözləri ilə görür. Belə olduqda insan qorxaraq hövllənir.

İmam Sadiq(ə) buyurur: "İstər mömin, istərsə də kafir insanın ruhu bədənindən çıxdıqda öz bədəninin üzərində dayanır və (cəsədinə aid olan qüsl, kəfən, dəfn kimi) bütün əhvalatı görür. (Sağlığında) etdiyi əməlləri yadına salaraq narahat olur."[1]

İnsanın ruhu bədənindən çıxdıqda bütün aləm onun gözünün qarşısında əlinin içi kimi olur. Yəni sağ ikən dünyada Əzrayılın(ə), ölümün, axirətin adını eşitmişdisə, ruhu bədənindən çıxdıqda ölümdən sonrakı bütün əhvalatın hamısını gözləri ilə görür. Bunları gözləri ilə gördükdə insana qorxu və vahimə gəlir. Bu qorxunun adına «هول المطّلع» "Hövlül-müttəli" deyilir. Həmçinin insan öldükdən sonra onu dəfn edərkən ruhu öz bədəninin qəbrə qoyulduğunu gördükdə ora qoyulan bədənin öz cənazəsi olduğunu görüb vahimələnir. Bu vahiməyə də "Hövlül-müttəli" deyilir. Bu hal elə bir haldır ki, günahkar, yaxud günahı olmayan insana aid deyildir. Bu qorxu və vahiməni kimliyindən asılı olmayaraq hamı yaşayacaq. Çünki insan üçün öz cənazəsinin qəbrə qoyulmasını gözləri ilə görmək

[1] Qəbrin həqiqəti, səh. 51.

analoqu olmayan bir hadisə olduğundan həmin mənzərə onun ürəyində vəhşət və vahimə yaradır.

Həzrət Peyğəmbər(s) və Əhli-beytin(ə) həyatına nəzər saldıqda görürük ki, onlar namaz qılarkən, Allahla minacat edərkən qorxudan bədənləri titrəyir və rəngləri saralırdı. Bəzən də qorxudan özlərindən gedirdilər. Buradan bilinir ki, onların namaz və minacat vaxtı gözlərinə nəsə görünürmüş ki, qorxudan rəngləri saralırdı. Onların namaz qılarkən gözlərinə görünən əhvalatları biz öldükdən sonra görəcəyik. O zaman bizə də elə bir qorxu və vahimə gələcəkdir. Buna görə də Əhli-beyt(ə) bizə həmin qorxulardan nicat tapmaq üçün müəyyən dua və əməllər öyrətmişlər. Dua və minacatların birində oxuyuruq:

اِلٰهی اَعُوذُ بِكَ مِن هَولِ الْمُطَّلِعِ

-İlahi, hövlül-müttəlidən sənə pənah aparıram.

-İmam Həsən(ə) minacat edərkən belə buyurdu: “Qarşıda məni gözləyən “hövlül-müttəli”yə görə ağlayıram.” Sonra buyurdu: “Əgər dünyanın bütün sərvətləri mənə məxsus olsaydı, onların hamısını “hövlül-müttəli”dən nicat tapmaq üçün sədəqə verərdim.”[1]

Əbuzər Ğəffarinin oğlu dünyasını dəyişmişdi. Əbuzər oğlunu dəfn edərkən onun cənazəsinə baxıb dedi:

لَولا هَولُ الْمُطَّلَعِ لَأَحبَبتُ أَن اَكُونَ مَكَانَك

-Əgər “hövlül-müttəli” olmasaydı, razı olardım ki, sənin yerinə qəbrə məni qoyaydılar.

Bu sözü elə bir insan deyir ki, Həzrət Peyğəmbər(s) onun barəsində “cənnət Əbuzərə şövqlüdür” - deyə buyurmuşdur. Belə bir insan da öldükdən sonra qəbrin

---

[1] Qəbrin həqiqəti, səh. 70.

hövl və vəhşətindən qorxduğunu etiraf edir. Odur ki, insanın ruhu bədəndən çıxdıqdan sonra bir sıra qorxu və vəhşətlər çəkəcək. Çünki həmin anlarda heç bir vaxt görmədiyi və heç bir vaxt qarşılaşmadığı mənzərələrin şahidi olduğuna görə bu səhnələr insanın ürəyində qorxu və vəhşət yaradır.

### Hövlül-müttəlinin yaranmasının səbəbləri

Sual oluna bilər ki, insan öldükdən və cənazəsi qəbrə qoyularkən hansı səbəblərə görə hövllənir və nə üçün onda qorxu hissi baş qaldırır? Cavab olaraq demək olar ki, üç səbəbə görə insanda "Hövlül-müttəli" yaranır. Bunun birinci səbəbi yuxarıda qeyd etdiyimiz kimi, qəbrin vəhşətidir. Çünki insan dəfn olunarkən elə bir yerə gedir ki, oranı heç bir vaxt görməmişdir. İkinci səbəbi odur ki, insan qəbrə qoyulduqdan sonra sorğu-sual olunacağını bildiyindən qorxur və hövllənir. Üçüncü səbəb isə qəbirdə ona əzab veriləcəyini bilir və buna görə də hövllənir. Həmin bu üç səbəb insanda "hövlül-müttəli"ni yaradır.

## Qəbrin vəhşəti

### Qəbrin vəhşətini aradan qaldıran amillər

Qeyd olunduğu kimi, qəbrin vəhşət və qorxusu insanda "hövlül-müttəli" yaradır. Amma bunu da bilmək lazımdır ki, hər bir dərdin dərmanı olduğu kimi, qəbrin vəhşətini aradan qaldıran amillər də mövcuddur. Təkcə bu kimi qorxular deyil, axirət aləminə aid olan bütün problem və qorxuları aradan qaldıran amillərin hamısı yaşadığımız bu dünyadadır. Əzrayılın(ə) qorxusu, Nəkir və Münkirin qorxusu, qəbrin ilk gecəsinin qorxusu və insanın qarşılaşacağı digər qorxulu səhnələrin əlacı bu dünyadadır. Hər bir xəstəliyin özünəməxsus müalicəsi

olduğu kimi, axirət aləmində insanın qarşılaşdığı hər bir qorxulu səhnənin də özünəməxsus əlacı və həll yolu vardır. Odur ki, qəbrin vəhşətini aradan qaldıran və insana bu haldan nicat verən amillərlə tanış olaq.

**1. İmam Hüseyn əleyhissalamın türbəti**

İnsanda qəbrin vəhşətini aradan qaldıran amillərdən biri İmam Hüseynin(ə) turbətidir. Belə ki, meyitə qüsl verildikdən sonra onun alnına, əllərinin içinə və sinəsinə Kərbəla türbəti sürtülsə, Allah-təala həmin meyitdən qəbrin vəhşətini götürər.

**2. Meyitə təlqin etmək**

Qəbrin vəhşətini aradan qaldıran amillərdən ikincisi meyitə təlqin etməkdir. Ümumiyyətlə, bir neçə yerdə təlqin etmək müstəhəbdir. Biri budur ki, can verən insana "La ilahə illəllah", kəlmeyi-teyyibə, kəlmeyi-şəhadət və digər zikrlər təlqin olunmalıdır. Bir təlqin var ki, cənazəni qəbrə qoyarkən bir nəfər də qəbrə düşüb müəyyən kəlmələri deyir. Üçüncü təlqin isə dəfn mərasimi bitdikdən, yəni hamının çıxıb getməsindən sonra mümkündür. Bu zaman müstəhəbdir ki, dəfn mərasimi bitdikdən sonra bir nəfər qəbrin kənarında dayanıb təlqin etsin. Çox ehtimal ki, qeyd etdiyimiz bu üçüncü təlqin qəbrin vəhşətinin aradan qalxmasına səbəb olur.

Yəhya ibn Abdullah deyir: "İmam Sadiqdən(ə) eşitdim ki, buyurdu: Sizə meyitinizin Nəkir və Münkiri görməkdən amanda saxlayan işi yerinə yetirməyə nə mane olur?

Sonra buyurdu: Meyit dəfn olunduqdan sonra onun sahibi (yaxınlarından biri) qəbrin kənarında əyləşərək üzünü qəbrə tərəf tutaraq uca səslə belə deməlidir:

اِسمَع اِفهَم يا... هَلْ أنْتَ عَلى العَهْدِ الَّذي فارَقْتَنا عَلَيْهِ مِنْ شَهادَةِ أنْ لا إلهَ إلاّ اللهُ وَحْدَهُ لاشَريكَ لَهُ، وَأنَّ مُحَمَّداً صَلّى اللهُ عَلَيْهِ وَآلِهِ عَبْدُهُ وَرَسُولُهُ وَسَيِّدُ النَّبِيِّينَ وَخاتَمُ المُرْسَلِينَ، وَأنَّ عَلَيّاً أمِيرُ المُؤْمِنِينَ وَسَيِّدُ الوَصِيِّينَ وَإمامٌ افْتَرَضَ اللهُ طاعَتَهُ عَلى العالَمِينَ...

Bu təlqindən sonra İnkir və Münkir bir-birinə deyir: Gəl gedək. Höccət tamam oldu. Höccət təlqin oldu. (Artıq ondan soruşacağımız bütün suallara cavab verməyi ona təlqin etdilər.)”[1]

Burada bir incə mətləbə diqqət yetirmək lazımdır ki, saydığımız həmin amillər o insana aiddir ki, onun ümumi səlahiyyəti olmuş olsun. Əgər bir insan zalım, fasiq, qatil və cinayətkardırsa, təlqin, Kərbəla turbəti və s. amillərin ona heç bir faydası olmayacaqdır. İnsan ən azından bu səlahiyyəti əldə etməlidir ki, ölən zaman sadalanan amillər ona öz təsirini göstərmiş olsun.

### 3. Qırx nəfərin təsdiqi və şahidliyi

İnsana qəbrin vəhşətindən nicat verən amillərdən üçüncüsü qırx nəfər möminin ölən şəxsin yaxşı insan olmasını təsdiqləyib buna şəhadət verməsidir. Qırx nəfərin təsdiqi və şahidliyi həm şifahi, həm də yazılı şəkildə ola bilər. Əgər qırx nəfər mömin bir nəfərin yaxşı insan olmasına dair şahidlik etsə, Allah-təala həmin qırx nəfər möminin hörmətinə xatir onu bağışlayar. Hər bir möminin Allah-təala yanında hörmət və ehtiramı vardır. Bu hörmət və ehtirama görə Allah-təala həmin ölən şəxsi hamıdan

[1] Qəbrin həqiqəti, səh. 73.

yaxşı tanıdığı halda Öz elminə yox, möminlərin xahiş və hörmətinə xatir onu bağışlayar.

Mərhum Mühəddis Cəzairi deyir: “Əllamə Məclisi özü üçün bir dəsmal ayırmışdı. Həmin dəsmalı tanıdığı yaxın möminlərə verirdi ki, dəsmalın üstündə onun barəsində bir söz yazsınlar. O istəyirdi ki, onun barəsində möminlərin təsdiqi olan həmin dəsmalı öz kəfəninin arasına qoysun. Həmin möminlər də “İlahi, onun imanında heç bir şəkk-şübhə yoxdur” sözlərini yazıb imzalamışdılar.

Burada bir mətləbi də nəzərinizə çatdırım ki, mömin bir insanın dəfnində iştirak etməyin ikitərəfli xeyri vardır. Bu zaman həm həmin ölü, həm də onun dəfnində iştirak edənlər savab aparırlar. Bu barədə olan bir hədisə diqqət yetirək.

قَالَ رَسُولُ اللّهِ(ص): إِنَّ أَوَّل مَا يُبَشَّرُ بِهِ الْمُؤمِن فِي قَبرِهِ أَن يُقَال لَه: أَبشِر بِرِضَا الله تَعالى وَالجنّة قَدِمتَ خيرَ مَقدَمٍ، وَقَد غَفَرَ اللّهُ لِمَن شَيَّعَكَ إِلى قَبرِك، وَصَدَّقَ مَن شَهِدَ لَكَ، وَاستَجَاب لِمَن إِستَغفَرَ لَكَ.

-Həzrət Peyğəmbər(s) buyurur: “Mominə qəbirdə verilən ilk müjdə budur ki, ona deyilər: Allahın razılığı və cənnət sənə müjdə olsun. Qədəmlərin xeyirli olsun. Allah səni qəbrə müşayiət edənləri bağışladı. Sənin doğruluğuna şahidlik edənlərin sözlərini təsdiqlədi. Sənin üçün Allahdan bağışlanma diləyənlərin dualarını qəbul etdi.”[1]

### 4. Vəhşət namazı

Qəbrin vəhşətini aradan qaldıran amillərdən dördüncüsü vəhşət namazıdır. Meyitin dəfn olunduğu gecə

---

[1] Qəbrin həqiqəti, səh. 316.

qırx mömin onun üçün vəhşət namazı qılsa, Allah-təala qəbrin vəhşətini onun üçün aradan qaldırar. Bu namaz qəbrin ilk gecəsi şam və xiftən namazlarından dərhal sonra qılınmalıdır.

Seyid ibn Tavus İslam Peyğəmbərindən(ə) belə danışır: "Meyit üçün qəbrin ilk gecəsindən çətin bir zaman yoxdur. Elə isə öz ölənləriniz üçün sədəqə verməklə onlara mərhəmət göstərin. Əgər sədəqə verməyə imkanınız çatmırsa, onun üçün iki rükət (vəhşət namazı) qılın. (Belə olduqda Allah-təala həmin meyit üçün qəbrin vəhşətini aradan qaldırar.)" [1]

**5. Kamil rüku**

Qəbrin vəhşətini aradan qaldıran amillərdən beşincisi və demək olar ki, ən əhəmiyyətlisi budur ki, insan namaz qılarkən rükusuna diqqət etməli və onu mükəmməl şəkildə yerinə yetirməlidir. Zikrləri rükuya gedə-gedə və rükudan qalxa- qalxa tələm-tələsik deməsin. Tələsə-tələsə namaz qılmaq, rükuya və səcdəyə gedə- gedə və ya qalxa-qalxa zikrləri demək namazın həm surətini pozur, həm də sirətini heç edər.  Buna görə də namaz qılarkən insan diqqətli olmalı, rükuya getdikdə bədəni aram və sakitləşdikdən sonra zikrləri deməli, zikrləri tam qurtardıqdan sonra isə qalxmalıdır. Rükunun zikrlərinə gəldikdə isə, bu, insanın Allahla münasibətinin isti, yaxud soyuqluğundan asılıdır. Rəvayətlərdə belə qeyd olunur ki, Xanım Fatimeyi Zəhra(s.ə) namazların rükusunda bəzən yüz dəfə "Subhanə Rəbbiyəl Əzimi və bihəmdih" - deyərdi. Allah-təala onun namaz qılmasını mələklərə göstərərək fəxrlə buyurardı: "Mən insanı

[1] Qəbrin əzabları, səh. 84.

yaradarkən siz etiraz etdiniz. Baxın bu bəndəmə, görün Mənə necə ibadət edir.”

Odur ki, insan namaz qılarkən bilməlidir ki, kimin qarşısında dayanıb. İnsan namazın bütün qaydalarına diqqət yetirməli, zikrləri gözəl şəkildə deməlidir. Xüsusilə də hər kəs namazın rükusunu gözəl və mükəmməl şəkildə yerinə yetirərsə, Allah-təala qəbrin vəhşətini həmin şəxs üçün aradan qaldırar. Bu barədə hədis belədir:

قَالَ الباقر(ع): مَنْ أَتَمَّ رُكُوعَهُ لَمْ تُدْخِلْهُ وَحْشَةُ الْقَبْرِ

-İmam Baqir(ə) buyurur: “Kim namazının rükusunu tam yerinə yetirsə, qəbirdə heç bir qorxu və vəhşət ona yaxın durmaz.”[1]

Deməli, əgər insan Allahla öz arasında səmimiyyət yarada bilsə, ibadət edərkən kimin qarşısında dayandığına fikir versə, namazın rükusunu kamil şəkildə yerinə yetirsə, qəbrin vəhşətindən amanda qalar. Yox, əgər bir insan namazın rükusuna diqqət yetirməsə, rükunun kamilliyinə riayət etməsə, qəbrin vəhşətini aradan qaldıran digər amillərin də ona faydası olmayacaqdır. Çünki həmin amillərin təsiri bircə bu məsələdən (rükunun kamilliyindən) asılıdır. İnsan başa düşməlidir ki, qiyamət günü etdiyi bütün ibadətlərin hamısına baxılacaqdır. Qiyamət günü sirlərin üzərindən pərdələr götürüldüyü bir gündür. Qiyamət günü insanın əməllərini mələklər açacaqlar. Ona görə də insan işlərini elə görməlidir ki, qiyamət günü əməllər açılıb baxıldıqda xəcalət çəkməsin.

Dəfələrlə sizlər üçün danışdığım əhvalatı burada bir daha yada salmağı zəruri hesab edirəm. Günlərin birində

---

[1] Biharül-ənvar, 6-cı cild, səh. 344.

tanıdığım bir şəxs mənim yanıma gəlmişdi. O, müharibə dövründə cəbhədə könüllü iştirak edənlərdən idi. Mənə dedi: “Səndən bir xahişim var. Dedim: Buyur. Əlindəki bağlamanı mənə göstərib dedi: Bu, bir kəfəndir. Özüm üçün alıb indidən tədarük görmüşəm. Bilirəm ki, sənin filan müctəhidlə münasibətin yaxşıdır. Xahişim isə budur ki, bu kəfəni onun yanına aparasan. Çox istərdim ki, öz dəst-xətti ilə onun üstünə mənim üçün bir söz yazsın.” Mən onun xahişini qəbul edib kəfəni götürdüm. Bir müddətdən sonra həmin alimin yanına getdim. Mən həmişə onun yanına gedəndə söhbəti mənimlə müxtəsər edərdi. Bu dəfə də söhbəti qurtardıqdan sonra kəfəni ona göstərib həmin şəxsin xahişini ərz etdim. Həmin alim ayağa qalxıb çox böyük ehtiram və diqqətlə kəfəni məndən alıb qələmi götürdü. Onun bütün hərəkətləri məni təəccübləndirdi. O, həmişə böyük şəxsiyyətlərə, hətta prezidentə belə məktub yazarkən onu tez yazıb qurtarardı. Lakin kəfənin üstünə bir neçə kəlmə söz yazması çox uzun çəkdi. O, həmin kəfənin üstünə gözəl xəttlə belə yazdı:

اللّهُمَّ إِنَّا لانَعْلَمُ مِنْهُ إِلاّ خَيْراً وَ اَنتَ اَعلَمُ بِهِ مِنَّا وَاغفِر لَهُ وَرحَمهُ بِحَقِّ مُحَمَّدٍ وَ آلِ مُحَمَّد

-İlahi onun barəsində xeyirdən başqa bir şey bilmirik. Onun haqqında Sən bizdən daha yaxşı bilirsən. Məhəmməd və Ali-Məhəmməd xatirinə onu bağışla və rəhm elə.

Bu sözləri yazıb qurtardıqdan sonra mən təəccübümü gizlədə bilmədim və soruşdum: “Ağa, siz həmişə böyük şəxsiyyətlərə məktub yazarkən tez yazıb göndərərdiniz. Lakin bu kəfənin üstünə bir neçə kəlmə sözü yazarkən çox böyük diqqət və ehtiyatla yazdınız.” Həmin alim mənə

buyurdu: “Kəfənin üstünə yazılan sözlər prezidentin yanına getməyəcək. Bu kəfəni axirət günündə mələklər açacaq və yazılar orada oxunacaq. Həmin bu yazıları qəbirdə oxuyacaqlar. O biri aləm bu dünya kimi deyil. Orada hər bir şey diqqət altında olacaqdır. Buna görə də yazıb göndərəcəyim sözlərdə daha artıq diqqətli olmalıyam.”

## Qəbrin sorğu-sualı

Deməli, insan öldükdən sonra üç səbəbə görə onda “hövlül-müttəli” yaranır. Onlardan biri qəbrin vəhşətidir ki, bu barədə yetərincə qeyd etdik. Həmçinin qəbrin vəhşətini aradan qaldıran amillərlə də tanış olduq. Bu bəhsimizdə “hövlül-müttəli”nin yaranmasının ikinci səbəbi haqda danışacağıq. Həmin səbəb qeyd olunduğu kimi, qəbrin sorğu-sualıdır. İnsan öldükdən sonra qəbirdə sorğu-sual olunacağı gün kimi aydın və bəlli olur. Bu səbəbə görə də insanda analoqu olmayan bir qorxu yaranır.

Qəbrin sorğu-sualı ilə əlaqədar olaraq insanları daha çox altı məsələ narahat edir. Həmin altı mətləbə qısaca da olsa diqqət yetirək və daha sonra onlardan hər birinin izahına keçək.

1. Görəsən, insan doğrudan da qəbirdə sorğu-sual olunacaq? Yəni qəbrin sorğu-sualı bir həqiqətdirmi?

2. Qəbirdə sual soruşanlar kimlərdir? Yəni əgər qəbirdə sorğu-sual varsa, bu sualları insandan kim soruşacaq? Allah-təala insanı sorğu-sual etmək üçün kimi bu işə məmur etmişdir?

3. Görəsən, insan öldükdən sonra onun cismindən sorğu-sual olunacaq, yoxsa ruhundan? Bəlkə bunlardan deyil, insana aid olan başqa bir varlıqdan soruşacaqlar?

4. Qəbirdə kimlər sorğu-sual olunacaq? Ölənlərin hamısından soruşulacaq, yoxsa müstəsna insanlar da mövcuddur?

5. Nəyin barəsində sorğu-sual edəcəklər? Əməllərdən, əqidədən və ya hər ikisi barədə soruşulacaq? Görəsən, dünyada özümüzü bu suallara hazır etmək imkanımız vardırmı?

6. Hansı əməllər qəbirdə sorğu-sual edənlərin insana qarşı mehriban və xoşrəftar olmasına səbəb ola bilər?

Qəbrin sorğu-sualı barədə insanı bu kimi sual və mətləblər düşündürə bilər. Çox yaxşı olar ki, ayə və hədislərə müraciət etməklə bizi düşündürən bu suallara cavab axtaraq. Əlbəttə, həmin suallara müxtəlif kitablarda da cavab verilmişdir.

## İnsan öldükdən sonra qəbirdə sorğu-sual olunacaqmı?

İlk növbədə qəbirdə insanın sorğu-sual olunması və bu məsələnin həqiqət olub-olmaması barədə bir araşdırma aparaq. Allah-təala Quranın "İbrahim" surəsinin 27-ci ayəsində buyurur:

يُثَبِّتُ اللّهُ الَّذِينَ آمَنُواْ بِالْقَوْلِ الثَّابِتِ فِي الْحَيَاةِ الدُّنْيَا وَفِي الآخِرَةِ

-Allah iman gətirmiş kəsləri möhkəm söz ilə dünya həyatında və axirətdə sabitqədəm edir.

Təfsir alimləri bu ayənin təfsirində müxtəlif mətləbləri qeyd etmişlər. Həmin mətləblərdən üçünü diqqətinizə çatdırıram. Demək olar ki, alimlərin bu ayə barədə buyurduğu bütün mətləblər də elə həmin üç mətləbin içərisində yer almışdır.

Birinci mətləb budur ki, Allah-təala möminləri harada sabitqədəm edəcək? Ayədə bu sualın cavabı aydın şəkildə verilmişdir. O yerlərin biri bu dünyadadır. Hər kim Allaha iman gətirsə və bu yolda əqidəsi möhkəm olsa, Allah da onu əqidəsinin möhkəmliyinə görə şeytanın

vəsvəsəsindən qoruyacaqdır. Şeytan həmişə insanları mal, şəhvət, nəfsani istəklər, vəzifəpərəstlik və şöhrətpərəstlik kimi şeylərlə azdırıb bədbəxt edir. Böyük-böyük şəxsiyyətləri dağın başından dərənin dibinə yuvarladan da elə bu kimi şeylərdir. Şeytan həmişə bu yollarla insanları azdırır və onları zəlalətə salır. Şeytanın əlindən xilas olmaq üçün Allaha iman gətirərək möhkəm əqidəyə sahib olmaq lazımdır. Hər kim Allaha olan əqidəsində möhkəm dayana bilsə, Allah- təala həmin şəxsi şeytanın vəsvəsələrindən qoruyar. Şeytan nə qədər çalışsa belə onu tutduğu bu yoldan azdıra bilməyəcək. Allaha imanı və əqidəsi möhkəm olan böyük insanlar həmişə şeytanı məyus etmişlər. Çünki Allahın köməyi ilə şeytanın bütün hücumlarının qarşısını almaq ona müyəssər olmuşdur. Belə olduqda şeytan onları aldada bilməyəcəyini görüb məyus olur.

İkinci mətləb budur ki, insan ölən zaman şeytan insanın sağına və ya soluna keçərək son anlarında belə onu yoldan çıxarmağa və imanını əlindən almağa çalışır. Əgər can verən insan həqiqi mömin olsa, Allah həmin şəxsi şeytanın bütün vəsvəsələrindən və təhlükələrindən qoruyub saxlayacaqdır. Bu barədə qeyd olunmuş bir hədisə diqqət yetirək:

قَالَ الصَّادِقُ(ع): إنَّ الشَّيْطَانَ لَيَأتِي الرَّجُلَ مِنْ أَوْلِيَائِنَا عِنْدَ مَوْتِهِ، يَأْتِيهِ عَنْ يَمِينِهِ وَ عَنْ يَسَارِهِ لِيَصُدَّهُ عَمَّا هُوَ عَلَيْهِ؛ فَيَأبَیٰ اللَهِ لَهُ ذَلِكَ وَ كَذَلِكَ قَالَ اللَهِ "يُثَبِّتُ اللَهُ الَّذِينَ ءَامَنُوا بِالْقَوْلِ الثَّابِتِ فِي الْحَيَوٰةِ الدُّنْيَا وَ فِي الأْخِرَةِ"

-İmam Sadiq(ə) buyurdu: “Allahın dostlarından biri ölən zaman şeytan onun yanına gəlir. İmanını əlindən

almaq üçün vəsvəsə edərək onun sağına və soluna keçir. Həmin anda Allah-təala o möminə kömək edir. Necə ki, Allah-təala Özü buyurur: “Allah iman gətirmiş kəsləri möhkəm söz ilə dünya həyatında və axirətdə sabitqədəm edir.”[1]

Deməli, bir mömin dünyada yaxşı və pis günlərində imanından dönmürsə, həmişə Allahın əmrinə itaət edirsə, əqidəsində möhkəmdirsə, ölən zaman Allah-təala ona kömək edər və şeytanın vəsvəsəsindən qoruyar.

Üçüncü mətləb budur ki, Allah-təala mömin və əqidəsi möhkəm olan bəndəyə qəbirdə sorğu-sual olunan zaman köməklik göstərər və onu sabitqədəm edər.

قَالَ رَسُولُ اللّهِ(ص): فى قوله تعالى "يثبت الله..." فِى القَبرِ اِذَا سُئِلَ الْمَوتى

-Həzrət Peyğəmbər(s) Allah-təalanın buyurduğu “Allah möminləri ...sabitqədəm edir” ayəsinin şərhində belə buyurur: “Qəbirdə sorğu-sual olunan zaman.”[2]

Bu hədislərdən bizə aydın olur ki, qəbirdə insan sorğu-sual olunacaqdır. Yəni qəbirdə sorğu-sual olunma bir həqiqətdir. Təkcə qeyd etdiyimiz bu hədislərdən deyil, digər hədislərdən də həmin məsələnin həqiqət olduğunu müşahidə etmək olur. Məsələn,

قَالَ الصَّادِقُ(ع): مَن أَنكَرَ ثَلاثَةَ أَشيَاء فَلَيسَ مِن شِيعَتِنَا. اَلْمِعرَاج وَالْمَسْاءَلَةُ فِي القَبرِ وَالشّفَاعَة

---

[1] Təfsiri-nümunə, 10-cu cild, səh. 338.
[2] Yenə orada.

-İmam Sadiq(ə) buyurdu: “Üç şeyi inkar edən bizim şiə deyil: Meracı, qəbirdə sorğu-sualı və şəfaəti.” [1]

قَالَ عَلِيٌّ(ع): حَتَّى إِذَا انْصَرَفَ الْمُشَيِّعُ، وَرَجَعَ الْمُتَفَجِّعُ أُقْعِدَ فِي حُفْرَتِهِ نَجِيّاً لِبَهْتَةِ السُّؤَالِ، وَعَثْرَةِ الْإِمْتِحَانِ

-Həzrət Əli(ə) buyurur: “Dəfnə gələnlər və müsibət sahibləri *(qəbiristanlıqdan)* qayıtdıqdan sonra onu *(İnkir və Münkirin)* sual və imtahanında büdrəməyin qorxusundan, vəhşətindən yavaş danışdığı halda qəbirdə oturdarlar.”[2]

İmam Zeynalabidin(ə) qəbirdə sorğu-sual üçün hazırlıq barədə belə buyurur:

فَخُذْ حِذرَكَ و انظُرْ لِنَفسِكَ، و أعِدَّ للجَوابِ قَبلَ الامتِحانِ و المساءلَةِ

-Ayıq ol və özünü düşün! İmtahan və sorğu-sual başlamamışdan öncə özünü cavab verməyə hazırla.

Qeyd etmək lazımdır ki, qəbirdə sorğu-suala cavab vermək o demək deyil ki, insan əqidə ilə bağlı məsələləri yazıb əzbərləməlidir. Bütün bunları bilməklə yanaşı, əgər insanın iman və əməli də onları təsdiqləməsə, suallara dildə cavab vermək insana fayda verməz.

Sonra İmam Zeynalabidin(ə) qəbrin sorğu-sualına necə hazırlaşmağın mənasını da açıqlayaraq buyurur:

فَإِن تَكُ مُؤمِناً تَقِيًّا عَارِفًا بِدِينِك، مُتَّبِعًا لِلصَّادِقِين، مُوالِياً لِأَولِياءِ اللهِ لَقّاكَ الله حُجَّتَك، وَأَنطَقَ لِسَانَك بِالصَّوَابِ وَ أَحْسَنْتَ الجَوَابَ وَ

[1] Qəbrin həqiqəti, səh. 103.
[2] Nəhcül-bəlağə, 72-ci xütbə.

بُشِّرْتَ بِالرِّضْوَانِ وَ الْجَنَّةِ مِنَ اللَّهِ وَ اسْتَقْبَلَتْكَ الْمَلَائِكَةُ بِالرَّوْحِ وَ الرَّيْحَانِ وَ إِنْ لَمْ تَكُنْ كَذَلِكَ تَلَجْلَجَ لِسَانُكَ وَ دُحِضَتْ حُجَّتُكَ وَ عَيِيتَ عَنِ الْجَوَابِ وَ بُشِّرْتَ بِالنَّارِ وَ اسْتَقْبَلَتْكَ مَلَائِكَةُ العذاب.

-Əgər təqvalı və dininin məsələlərinə (dəlil-sübutla) yiyələnən möminsənsə, dinə rəhbərlik edən (Allahın təyin etdiyi) sadiq insanlara (məsum imamlara) itaət edənsənsə, Allahın dostlarını sevən şəxssənsə, Allah-təala sənə höccəti (qəbirdə sənə verilən sorğu-sualın cavabını) təlqin, dilini suallara cavab vermək üçün məntiqli edər. Belə olduqda suallara gözəl şəkildə cavab verəcəksən. Sənə cənnət və rizvanı Allah tərəfindən müjdə verərlər. Mələklər gül çələngləri ilə səni qarşılayarlar. Əgər belə olmasan (mömin deyilsənsə, dinə rəhbərlik edən Allahın təyin etdiyi məsum imamlara itaət etməmisənsə) qəbirdə sənə verilən sualların qarşısında dilin tutular, dəlil-sübutların əlindən çıxar, onların cavabını verməkdə aciz olarsan. Sənə cəhənnəm müjdə verilər, əzab mələkləri səni qarşılamağa gələrlər.[1]

Hədisdə qeyd olunur ki, uzun sözün qısası, Şərqdə və Qərbdə, dənizdə və quruda ölən elə bir insan olmayacaq ki, İnkir və Münkir onun sorağına gəlməsin.[2]

Deməli, qeyd olunan ayə və hədislərdən açıq-aydın şəkildə başa düşülür ki, qəbrin sorğu-sualı danılmaz bir həqiqətdir.

---

[1] Biharül-ənvar, 6-cı cild, səh. 223.
[2] Qəbrin həqiqəti, səh. 106.

## Qəbirdə sorğu-sualı kim edəcək?

Sual oluna bilər ki, qəbirdə insanı kim sorğu-sual edəcəkdir? Bu sualın qısaca cavabı belədir ki, Allah-təala iki mələyi möminlər, iki mələyi isə kafirlər üçün təyin etmişdir. Möminlər üçün təyin olunan mələklərin adı Bəşir və Mübəşşir, kafirlər üçün təyin olunan mələklərin adı isə İnkir və Münkirdir. Hədislərin çoxunda isə bu mələklərin adları Nəkir və Münkər kimi qeyd olunmuşdur ki, bunun da səbəbi vardır.

قَالَ الصَّادِقُ(ع): إذا ماتَ المؤمنُ شَيَّعَهُ سَبعونَ ألفَ ملَكٍ إلى قَبرِهِ، فإذا أُدخِلَ قَبرَهُ أتاهُ مُنكَرٌ و نَكيرٌ فَيُقعِدانِهِ و يَقولانِ لَهُ : مَن رَبُّكَ؟...

-İmam Sadiq(ə) buyurur: "Bir mömin ölən zaman yetmiş min mələk onun cənazəsini qəbrə müşayiət edər. Qəbrə qoyulduqdan sonra Nəkir və Münkər onun yanına gəlib soruşarlar. Rəbbin kimdir?"[1]

## Qəbirdə bədən, yoxsa ruh sorğu-sual olunacaq?

Yenə də sual oluna bilər ki, qəbirdə insanın bədənindən sorğu-sual olunur, yoxsa ruhundan? Nəkir və Münkər sorğu-sualı torpağın altında aparırlar, yoxsa bərzəx aləmində? Bu sualın cavabını bilmək üçün bir mətləbə daha artıq diqqət yetirmək lazımdır. Həmin mətləb budur ki, qəbrin mənası zahiri xarakter daşıyır. Yəni insan öldükdən sonra torpağı qazıb onun bədənini

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 16260.

dəfn edirlər. Demək olmaz ki, həmin mələklər insanı torpağın altında sorğu-suala tuturlar.

قَالَ الصَّادِقُ(ع): وَاللّهِ، أَتَخَوَّفُ عَلَيكُم فِي البَرزَخِ! قلتُ: و ما البَرْزخُ؟ قالَ: القَبرُ، مُنذُ حينِ مَوتِهِ إلى يومِ القيامةِ

-İmam Sadiq(ə) buyurur: "Vallah sizin üçün bərzəxdən qorxuram." (Rəvayətçi deyir:) Soruşdum: Bərzəx nədir? Buyurdu: "Qəbir – ölümdən qiyamətə kimi!"[1]

İmam Sadiqin(ə) bizim barəmizdə bərzəxdən qorxmasının səbəbi budur ki, bərzəxdə şəfaət yoxdur. Şəfaət qiyamətə aid olan məsələdir. Bərzəxdə insan əməlləri ilə öz-özünü idarə etməlidir. İnsan bərzəxdən rahat keçə bilsə, şəfaətə yetişə biləcək. Qiyamət günü əlimiz imamların əlinə çata bilsə, o zaman bizə şəfaət edəcəklər. Qiyamətə kimi insanın (yaxşı və saleh) əməlləri onun əlinin məsumların əlinə çatmasına səbəb ola bilər.

قَالَ عَلِيّ ابنِ الْحُسَين: إِنَّ القَبرَ رَوْضَةٌ مِنْ رياضِ الجنَّةِ و إمَّا حُفْرةٌ مِنْ حُفَرِ النيرانِ

İmam Səccad(ə) buyurur: "Həqiqətən, qəbir insan üçün cənnət bağlarından, yaxud cəhənnəm quyularından biridir."[2]

Bu barədə düşündükdə görürük ki, cənnət və cəhənnəmin torpağın altında olması mümkün deyil. Çünki bu o halda ola bilər ki, insan təbii halda dünyasını dəyişsin və torpağa tapşırılsın. Əgər sorğu-sual torpağın altında

---

[1] Mənşuri-Cavid, 9-cu cild, səh.236.
[2] Mənşuri-Cavid, 9-cu cild, səh.236.

olunacaqsa, bəs dənizdə boğulub balıqlara yem olanlar, yanıb kül olanlar, hansısa vəhşi heyvanlara yem olan insanlar necə olacaq? Axı onları torpaqda dəfn etmək mümkün olmayacaqdır. Deməli, açıq- aydın başa düşmək olur ki, cənnət qapılarından və cəhənnəm quyularından heç biri insanın dəfn olunduğu həmin torpaq deyildir. Bütün bu sorğu-suallar, cənnət qapısı, cəhənnəm quyusu insan öldükdən sonra ruhunun məskunlaşdığı həmin bərzəx aləmindədir.

Yenə sual oluna bilər ki, bərzəx aləmində insanın təkcə ruhu yaşayır, yoxsa bədəni də mövcuddur? Cavab olaraq demək olar ki, insan öldükdən sonra ruh ayrılır və bədən torpağın altına gedir. Bu bədən qiyamətə qədər o ruha lazım olmayacaq. Ruh başqa bir bədənə daxil olaraq bərzəxdə yaşayır. Xəfif bir bədəndir ki, ötən bəhslərimizdə bu barədə lazımi qədər söhbət etmişdik. İnsan öldükdən sonra ruhu həmin bədəni özünə minik edir. O, elə bir bədəndir ki, maddi bədən kimi deyil. Çox incə, xəfif və lətif bir bədəndir. Hədislərdə qeyd olunur ki, insan öldükdən sonra ruhunun daxil olduğu həmin bədən yuxudakı bədən kimidir. İnsan yatarkən yuxuda müxtəlif yerlərə səyahət edir və müxtəlif yuxular görür. Məsələn, beşcə dəqiqə yatmağına baxmayaraq, Məkkədə Kəbəni təvaf etdiyini, yaxud digər ölkələrdə gəzdiyini görə bilir. İnsan yuxuda müəyyən qədər öz bədəni ilə əlaqəsini kəsir və ruh başqa bir bədənlə yuxu görür. Həmin bədənə daxil olarkən öz bədəni ilə əlaqə kəsilmir. Amma öldükdən sonra ruhun bu bədənlə əlaqəsi qiyamətə qədər kəsilir. Əlbəttə, bəzən öz bədənini görmək üçün Allahdan izn alır. Ruh öz keçmiş bədəni ilə çox zəif şəkildə əlaqə saxlaya bilir. Buna misal olaraq maşın və sürücünü misal çəkmək olar. Məsələn, bir sürücü maşını mağazanın qarşısında

saxlayır və düşüb oradan lazımi əşyaları alır. Bir neçə dəqiqəlik bazarlıqdan sonra yenə gəlib maşına minir. Bəzən isə tez qayıdacağına əmin olub maşını belə söndürmür. Amma uzaq bir səfərə çıxdıqda maşını dayanacağa qoyur. Bir neçə müddətdən sonra gəlib görür ki, maşının üstünü toz-torpaq basıb. Eləcə də insan yatarkən ruhu qısamüddətli bədəndən ayrılır, amma öldükdə isə uzun müddət (qiyamətə qədər) ayrılmalı olur.

Deməli, insan öldükdən sonra sorğu-sual aparılan nə onun qəbirdəki cismidir, nə də ruhun özüdür. Sorğu-sual aparılan bərzəxdəki ruhun içərisində yaşayan bədəndir.

Bir nəfər İmam Sadiqdən(ə) soruşdu: "Dar ağacından asılan və dəfn olunmayan insana da qəbir əzabı vardırmı? İmam(ə) buyurdu: Həqiqətən, torpağın Rəbbi havanın da Rəbbidir. Allah-təala torpağa əmr etdiyi kimi, havaya da əmr edir."[1]

Sual oluna bilər ki, bəzən peyğəmbərlər hansısa bir qəbirdən səs eşitmiş və həmin qəbrin sahibinin əzaba düçar olduğunu söyləmişlər. Əgər insana bərzəxdə əzab verilirsə, yaxud sorğu-sual bərzəx aləmində aparılırsa, bəs onda nə üçün peyğəmbərlər həmin insanın qəbrindən səs eşidirlər? Belə bir sualın cavabında demək olar ki, bu, peyğəmbərlərə və övliyaların gözlərinə görünən istisna hallardır. Həmin qəbir sahibinin hansı vəziyyətdə olduğunu insanlara başa salmaq üçün onun qəbrini göstərmişlər. Həmçinin istisna hallarda Allah-təala onun vəziyyətini başa salmaq üçün ruhunu qəbirdəki bədənə qaytarmaqla onun vəziyyətini peyğəmbərlərə göstərir.

---

[1] Biharül-ənvar, 6-cı cild, səh. 266.

Tarixi mənbələrdə və rəvayətlərdə qeyd olunur ki, bir gün İslam Peyğəmbəri(s) fatihə vermək üçün Bəqi qəbiristanlığına yollanır. Qızı Fatimeyi Zəhra(s.ə) və Həzrət Əli(ə) də icazə alaraq Həzrətə(s) qoşulurlar. Həsən(ə) və Hüseyni(ə) də özləri ilə aparırlar. Qəbiristanlığa gəldikdən sonra qəbirlərdən biri Həzrət Peyğəmbərin(s) diqqətini cəlb edir. Həzrət Peyğəmbər(s) baxıb görür ki, həmin qəbirdə yatana çox şiddətli əzab verilir. Həzrət Peyğəmbər(s) qəbirdə yatana buyurur: "Allahın izni ilə qəbirdən qalx." Həmin şəxs qəbirdən qalxdıqda görürlər ki, bu qəbirdə yatan cavan bir oğlandır. Həzrət Peyğəmbər(s) ondan soruşur: "Hansı səbəbə görə sənə belə əzab verilir? Oğlan deyir: Anam məndən narazı və incik olduğuna mənə əzab verilir? Həzrət Peyğəmbər(s) soruşur: Anan nə üçün səndən narazı idi? Oğlan deyir: Mən təzəcə evlənmişdim. Bir gün evə gəldikdə arvadım anamdan mənə şikayət etdi. Mən onun şikayətlərinə qulaq asıb hirsləndim. O biri otağa keçdikdə gördüm ki, anam təndirin kənarında əyləşib çörək bişirir. Yaxınlaşıb ona bir təpik vurdum. Anam təndirin içinə düşdü. Onun səs-küyünə qonşular də axışıb gəldilər. Onu təndirdən çıxardanda gördüm ki, sinəsi tamamilə yanıb. O, üzü qibləyə dayanıb mənə belə bir qarğış etdi: "İlahi, bu oğlumdan intiqamımı al."

Həmin hadisədən üç gün keçmişdi ki, ömrüm sona çatdı. Qəbrə qoyulduqdan bu günə kimi beləcə əzab içindəyəm. Ya Rəsulallah, indi ki, məni qəbirdən çağırmısan, lütfünü məndən əsirgəmə. Həzrət Peyğəmbər(s) göstəriş verdi ki, onun anasını çağırsınlar. Oğlanın anası gəldikdən sonra Həzrət(s) qadına buyurdu: "Bu oğlanın anası sənsən? Qadın dedi: Bəli, ya Rəsulallah, mənəm. Həzrət Peyğəmbər(s) buyurdu: Bu oğlanı mənə xatir bağışla. Qadın dedi: Ya Rəsulallah, mən səni çox sevirəm. Amma

icazə ver, onu bağışlamayım. Həzrət Peyğəmbər(s) buyurdu: Elə isə qızım Zəhraya(s.ə) bağışla. Qadın dedi: Mən onu da çox sevirəm. İcazə verin, ona haqqımı halal etməyim. Həzrət Peyğəmbər(s) buyurdu: Əliyə(ə) xatir oğlunun günahından keç. Qadın dedi: Mən onu da çox sevirəm. Amma icazə verin, oğlumu bağışlamayım. O, məni çox incidib. Həzrət Peyğəmbər(s) buyurdu: O zaman Həsənə(ə) xatir bağışla. Qadın dedi: Mən oğlumu bağışlamaq istəmirəm. Həzrət Peyğəmbər(s) buyurdu: Elə isə Hüseynə(ə) xatir bağışla. Qadın başını göyə qaldırıb sonra Hüseynə(ə) baxaraq ağlamağa başladı. Ağlaya-ağlaya dedi: Oğlumun günahından keçdim və onu bağışladım. Həzrət Peyğəmbər(s) soruşdu: Biz sənə nə qədər dediksə oğlunu bağışlamadın, amma Hüseynin(ə) adı gəldikdə nə üçün onu bağışladın? Qadın dedi: Ya Rəsulallah, and olsun Allaha, Hüseynin(ə) adı gələndə göyə baxdım. Pərdələr bir anlıq gözümün önündən götürüldü. Mələklər mənə işarə edərək deyirdilər ki, Hüseynə(ə) xatir oğlunu bağışla.”

Bəzən belə hallar olub ki, peyğəmbərlər neçə illər öncə ölmüş insanın qəbri üstə dayanıb onunla söhbət etmişlər. Əgər qəbrin kənarında dayanıb ölü ilə danışırdılarsa, bu ona görədir ki, onun bədəni bu qəbrə qoyulmuşdur. Həmçinin insanlara bərzəxi göstərmək mümkün olmadığından və hamı yerdəki qəbri tanıdığından peyğəmbərlər bu işi görmüşlər. Qəbirdəki əzaba, qəbrin sorğu-sualına gəldikdə isə, bütün bunların hamısı bərzəx aləmindəki bədənə şamil olunur. Dəfn olunan bədən isə qiyamət günü qəbirdən qalxacaq və məhşərə gətiriləcəkdir.

## Qəbirdə kim sorğu-sual olunacaq?

Bura qədər öyrəndik ki, qəbrin sorğu-sualı haqq-həqiqətdir. Həmçinin qeyd olundu ki, orada insandan mələklər sorğu-sual edəcəklər. Həmin sorğu-sualın bərzəx aləminə aid olduğunu da öyrəndik. İnsanı düşündürən suallardan biri də budur ki, görəsən, qəbirdə bütün insanlardan sorğu-sual olunacaq? Qeyd olunan sualın da cavabını bilmək üçün bizim müraciət edəcəyimiz mənbələr məsumların buyurduğu kəlamlardır. Bu haqda həm İmam Baqirdən(ə), həm də İmam Sadiqdən(ə) eyni bir hədis qeyd olunmuşdur. Əbu Bəkir Həzrəmi İmam Baqirdən(ə), Məhəmməd ibn Müslüm isə İmam Sadiqdən(ə) bu haqda soruşmuş və cavablarını almışlar. Həmin hədislərdən biri belədir:

-Əbu Bəkir Həzrəmi deyir: "İmam Baqirdən(ə) qəbirdə kimlərin sorğu-sual olunacağı haqda soruşduqda belə buyurdu:

لا يُسأَلُ فِي القَبرِ إلاّ من مَحَضَ الإيمانَ مَحضًا، أو مَحَضَ الكُفرَ مَحضًا، فَقُلتُ لَهُ: فَسَائِرُ النَّاسِ؟ فَقَالَ: يُلهَى عَنهُم

-Qəbirdə əsl mömin və əsl kafirdən başqa, kimsədən sorğu-sual olunmaz.

Məsələ mənə qaranlıq qaldığı üçün soruşdum: Bəs yerdə qalan insanlar? İmam(ə) buyurdu: Onlara göz yumacaqlar. (Onların məsələsi qiyamət günü Allahın qərarından asılı olacaq.)"[1]

Bu hədisdə əsasən əsl mömin və əsl kafirdən söhbət açılır. Görəsən, hədisdə adı çəkilən əsl iman və əsl küfr nə deməkdir? Əlbəttə, bu barədə dini alimlər müxtəlif fikirlər irəli sürmüşlər.

---

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 16266.

1. Bəzi alimlərin fikrinə görə əsl mömin o kəslərdir ki, əqidələri düzgün və problemsiz olsun. Əqidəsi düzgün və nöqsansız olan insanlardan qəbirdə sorğu-sual olunacaq. Əqidəsində problem və çatışmazlıq olanlara isə göz yumulacaq və işləri qiyamət gününə qalacaqdır.

2. Bəzi alimlər demişlər ki, əsl mömin o kəslərdir ki, imanda kamillik dərəcəsinə çatmış olsunlar. Əsl kafir isə küfrdə ən sonuncu dərəcəyə çatmış insanlardır. Bunlardan başqa bütün insanların məsələsi qiyamət gününə saxlanılacaq.

3. Bu barədə üçüncü fikir belədir ki, fikir və əqli cəhətdən müstəzəf olan kəslər qəbirdə sorğu-sual edilməyəcəklər. Müstəzəf olmayanlar isə sorğu-sual olunacaqlar.

Alimlərin bu kimi fikirlərinə, xüsusilə üçüncüsünə diqqət yetirdikdə qarşımıza daha bir sual çıxır. Görəsən, "müstəzəf" nə deməkdir və qeyd olunan müstəzəf insanlar kimlərdir?

"Müstəzəf" sözü Quran ayələrində də işlənmişdir. "Müstəzəf" sözünün kökü "zəif" kəlməsindən götürülmüşdür. Lakin fərqli mənaları vardır. Zəif o kəsdir ki, ağıl, düşüncə, mal, mədəniyyət, əxlaq və fiziki cəhətdən qüsurlu olsun. Bu cür insanlara zəif insanlar deyilir. Məsələn, bir nəfərin ayaqları tutulduğu üçün gəzə bilmir. Bu insana zəif deyilir. Amma müstəzəf isə başqa mənada işlənir. Müstəzəf odur ki, birisinin imkanı və istedadı olduğu halda ona öz istedadından istifadə etməyə imkan vermirlər. Deyək ki, fiziki cəhətdən heç bir qüsuru olmayan bir insana gəzməsi üçün heç bir şərait yaratmırlar. Sanki onu tutub ayağa durmağa qoymurlar. Müstəzəf odur ki, imkanı olan halda zəif saxlanılmışdır. Burada da fərqi yoxdur ki, onu iqtisadi, mədəni, əxlaqi və s. cəhətlərdən

zəif saxlasınlar. Məsələn, uşaq məktəbə getsə, aydındır ki, yaxşı oxuya bilər. Amma valideyni onu məktəbə getməyə qoymur. Bu uşaq öz-özlüyündə zəif yox, müstəzəfdir. Çünki oxuya bilərdi, amma onun üçün belə bir imkan və şərait yaradılmayıb. Bir sözlə, "zəif" qüdrəti olmayan insana, "müstəzəf" isə zəifliyə düçar edilmiş insana deyilir.

Allah-təala "Nisa" surəsinin 97-99-cu ayələrində belə buyurur:

إِنَّ الَّذِينَ تَوَفَّاهُمُ الْمَلآئِكَةُ ظَالِمِي أَنْفُسِهِمْ قَالُواْ فِيمَ كُنتُمْ قَالُواْ كُنَّا مُسْتَضْعَفِينَ فِي الأَرْضِ قَالْوَاْ أَلَمْ تَكُنْ أَرْضُ اللّهِ وَاسِعَةً فَتُهَاجِرُواْ فِيهَا فَأُوْلَئِكَ مَأْوَاهُمْ جَهَنَّمُ وَسَاءتْ مَصِيرًا. إِلاَّ الْمُسْتَضْعَفِينَ مِنَ الرِّجَالِ وَالنِّسَاء وَالْوِلْدَانِ لاَ يَسْتَطِيعُونَ حِيلَةً وَلاَ يَهْتَدُونَ سَبِيلاً. فَأُوْلَئِكَ عَسَى اللّهُ أَن يَعْفُوَ عَنْهُمْ وَكَانَ اللّهُ عَفُوًّا غَفُورًا

-Həqiqətən, mələklər özlərinə zülm etməkdə olan kəslərin canlarını alarkən (onlara) deyəcəklər: "(Din baxımından) nə (vəziyyət)də idiniz?" Deyəcəklər: "Biz yer üzündə (iman və əməl cəhətdən) zəif (vəziyyətdə saxlanılmış halda) idik." Mələklər deyəcəklər: "Məgər Allahın yeri geniş deyildi ki, orada (küfr mühitindən İslam mühitinə) hicrət edəydiniz?!" Odur ki, onların yerləri cəhənnəmdir və ora çox pis bir dönüş yeridir."

Heç bir çarəsi olmayan və (hicrət etməyə) heç cür yol tapa bilməyən zəif salınmış kişi, qadın və uşaqlar (hakim qüdrətin və ya elm öyrənməyə mane olan mühitin zəif hala saldığı bu kəslər) müstəsnadırlar.

Buna görə də ümid var ki, Allah onları əfv etsin. Allah həmişə çox əfv edən və bağışlayandır."

Deməli, əgər müstəzəf həqiqi mənada müstəzəf olsa, Allah onun üzrünü qəbul edər və onu bağışlayar. İmkan və lazımi şəraiti olan halda öz-özünə müstəzəf deyən şəxsin üzrü qəbul olunmayacaqdır. Həqiqi mənada müstəzəf sayılan insanların mənasını daha açıq başa düşmək üçün qeyd olunan ayələrin nazilolma səbəbinə diqqət yetirək. Bu ayələr harada nazil olmuşdur:

-Bədr müharibəsindən öncə müşriklərin başçıları bütün Məkkə əhlinə elan etdilər ki, müsəlmanlarla müharibə etməyə hazır olsunlar. Sonra bütün əhalini hədələyərək dedilər: "Hər kim bu döyüşdə iştirak etməsə, evlərini xarabalığa çevirəcək və mallarını da müsadirə edəcəyik."

Məkkədə zahirən İslamı qəbul etmiş müsəlmanlar da var idi. Həzrət Peyğəmbər(s) Məkkədən Mədinəyə hicrət edərkən onlar öz evlərinə, mallarına möhkəm bağlı olduqlarından Həzrət Peyğəmbərlə(s) mühacirət etmədilər. Onlar belə düşünürdülər ki, əgər Həzrət Peyğəmbərlə(s) birgə Mədinəyə mühacirət etsələr, Məkkədəki evləri, bağları və malları əllərindən çıxacaqdır. Buna görə də Məkkədə qalıb öz güzəranlarını keçirirdilər. Müşriklər müsəlmanlara qarşı müharibə elan etdikdə isə gördülər ki, əgər müharibəyə getməsələr müşriklərin əlində öləcəklər. Buna görə onlar da müşriklərə qoşulub müsəlmanlara qarşı müharibəyə getdilər. Onlar müsəlman olduqları halda müşriklərin cərgəsində dayanaraq Həzrət Peyğəmbərə(s) qarşı müharibə etdilər və həmin döyüşdə də öldülər.

Yuxarıda qeyd etdiyimiz ayələrdə onların əhvalat və aqibəti barədə söz açılmışdır. Onlar müsəlman olduqları halda müşriklərə qoşulub müsəlmanlarla müharibə etdilər. Bütün bunların səbəbi onların evlərinə, bağlarına, mal-dövlətlərinə ürəkdən bağlı olmaları idi. Həzrət Peyğəmbərin(s)

Allahın Rəsulu olduğunu bildikləri, müşrikləri də yaxşı tanıdıqları halda mallarından, bağlarından və evlərindən keçə bilmədikləri üçün müşriklərin cərgəsində dayanıb müsəlmanlara qarşı vuruşdular. Onlar müstəzəf sayılmırlar. Çünki onlar Həzrət Peyğəmbərə(s) qoşulub onunla birgə Mədinəyə hicrət edə bildikləri halda bunu etmədilər. Nəhayət, müşriklərlə birgə müsəlmanların əleyhinə müharibə etdilər və elə həmin döyüşdə də öldürüldülər.

Beləliklə, müstəzəf o kəsdir ki, həqiqi mənada öz-özünə çıxış yolu tapa bilmir. Bağlara, evlərə, mal-dövlətə olan bağlılığa görə öz-özünü çarəsiz hala salan bir insan müstəzəf hesab olunmur. Burada müstəzəfin kim olduğu barədə bir neçə hədisə də diqqət yetirək:

قَالَ عَلِيٌّ(ع): وَ لاَ يَقَعُ اسْمُ الاِسْتِضْعَافِ عَلَى مَنْ بَلَغَتْهُ الْحُجَّةُ فَسَمِعَتْهَا اءُذُنُهُ وَ وَعَاهَا قَلْبُهُ

-Həzrət Əli(ə) buyurdu: "Allahın höccəti və dəlili ona çatan, qulağı ilə onu eşidən və qəlbi ilə onu başa düşən şəxsə müstəzəf deyilməz."[1]

İmam Musa ibn Cəfərdən(ə) soruşdular: "Əqidə cəhətdən kimə müstəzəf deyilir.

اَلضَّعِيفُ مَن لَم تُرفَع لَهُ حُجَّةٌ، ولَم يَعرِفُ الإختلاف فَإِذَا عَرفَ الإِختِلاف فَلَيسَ بِمُستَضعَف

-İmam(ə) buyurdu: Zəif, dəlil və sübutların yetişmədiyi (müxtəlif fikirlərdəki) ixtilafı ayırd etməyən

[1] Mizanül-hikmə, 7-ci cild, hədis - 11049.

şəxsdir. Əgər (fərdlərin fikirlərindəki) ixtilaflardan agah olarsa, müstəzəf deyil."[1]

Burada ixtilaf dedikdə o nəzərdə tutulur ki, bir insan küfrün içində yaşadığı halda heç bir vaxt İslamın adını eşitməmişdir. Əgər İslamın adını eşitmiş olsaydı, o zaman müsəlmanla kafirin fərqli olduğunu da bilərdi. Belə olduqda onların hansının düz yolda olması ilə maraqlanardı. Buna görə də küfrün içində yaşayırsa və İslamdan, Həzrət Peyğəmbərdən(s) qətiyyən xəbəri yoxdursa, belə bir insana müstəzəf deyilir. Həmçinin fərz edək ki, bir insan müsəlmandır, amma Həzrət Əlinin(ə) vilayət və imaməti haqda heç bir şey eşitməmişdir. Həzrət Peyğəmbərin(s) ümməti və müsəlman olmasına baxmayaraq, çöllərdə, uzaq kəndlərdə yaşadığı üçün vilayətin nə olduğu onun qulağına gəlib çatmayıbsa, bu cür insan da müstəzəf sayılır. Amma əgər vilayət kəlməsini eşidibsə və Həzrət Əlinin(ə) vilayətini qəbul edənləri, yaxud qəbul etməyənləri görürsə, deməli bu ixtilafdan agahdırsa, o adama da müstəzəf deyilməz. Belə olduqda həmin şəxsin bu ixtilafı araşdırıb haqqı özü üçün müəyyən etməsi olduqca vacibdir. Çünki artıq onun taleyi də bu məsələdən asılıdır. Əgər bu məsələnin onun taleyində təsiri yoxdursa, həmin məsələni araşdırmaq vacib deyil. Məsələn, İmam Hüseynin(ə) atının adının nə olduğunu bilib-bilməməyin insanın taleyində heç bir rolu yoxdur. Doğrudur, insan üçün bu kimi məsələləri bilmək yaxşıdır. Amma bilməməsinin də insanın taleyində heç bir rolu yoxdur. Yaxud Musa Peyğəmbərin(ə) anasının adını bilib-bilməməyin insanın taleyində heç bir təsiri yoxdur. Belə

---

[1] Yenə orada, hədis - 11050.

məsələləri qəbirdə və qiyamət günündə insandan soruşmurlar. İnsan elə məsələlərdə cavabdehlik daşıyır ki, həmin məsələnin onun taleyində bir əhəmiyyəti olmuş olsun. Məgər insan cənnət və cəhənnəm məsələsini araşdırmaq fikrinə düşməzmi? İnsan həyatının sonunda ya cəhənnəmdə olacaq, ya da cənnətdə olacaqdır. İnsan həmin iki aqibətdən birinin onu gözlədiyini bilə-bilə məgər bu haqda bir araşdırma aparmamalıdırmı? Əgər insan cənnətdə olmayacaqsa, deməli cəhənnəmdə olacaqdır. Odur ki, hər bir insanın qulağına ixtilaflı bir məsələ gəlib çatıbsa, deməli, həmin şəxsə müstəzəf demək olmaz.

Allah-təala "Nisa" surəsinin 99-cu ayəsində buyurur:

إِلاَّ الْمُسْتَضْعَفِينَ مِنَ الرِّجَالِ وَالنِّسَاء وَالْوِلْدَانِ لاَ يَسْتَطِيعُونَ حِيلَةً وَلاَ يَهْتَدُونَ سَبِيلاً

-Heç bir çarəsi olmayan və (hicrət etməyə) heç cür yol tapa bilməyən zəif salınmış kişi, qadın və uşaqlar (hakim qüdrətin və ya elm öyrənməyə mane olan mühitin zəif hala saldığı bu kəslər) müstəsnadırlar.

Zürarə deyir: "İmam Baqirdən(ə) müstəzəf barədə soruşduqda Həzrət(ə) belə buyurdu:

هُوَ الَّذِى لَا يَهْتَدِى حِيلَةً إِلَى الْكُفْرِ فَيَكْفُرَ وَ لَا يَهْتَدِى سَبِيلًا إِلَى الْإِيمَانِ لَا يَسْتَطِيعُ أَنْ يُؤْمِنَ وَ لَا يَسْتَطِيعُ أَنْ يَكْفُرَ فَهُمُ الصِّبْيَانُ وَ مَنْ كَانَ مِنَ الرِّجَالِ وَ النِّسَاءِ عَلَى مِثْلِ عُقُولِ الصِّبْيَانِ مَرْفُوعٌ عَنْهُمُ الْقَلَمُ

-Müstəzəf kafir olmaq gücündə olmayan, eyni halda mömin olmaq üçün iman yolunu tapa bilməyəndir.

Uşaqların, əqli və fikirləri uşaq səviyyəsində olan kişi və qadınların üzərindən şəriət vəzifələri götürülmüşdür. (Yəni onlar şəriət hökmləri qarşısında cavabdeh deyillər.)”[1]

عَنْ سُفْيَانَ بْنِ السِّمْطِ الْبَجَلِيِّ قَالَ قُلْتُ لِأَبِي عَبْدِ اللَّهِ(ع) مَا تَقُولُ فِي الْمُسْتَضْعَفِينَ فَقَالَ لِي شَبِيهاً بِالْفَزِعِ فَتَرَكْتُمْ أَحَداً يَكُونُ مُسْتَضْعَفاً وَ أَيْنَ الْمُسْتَضْعَفُونَ فَوَ اللَّهِ لَقَدْ مَشَى بِأَمْرِكُمْ هَذَا الْعَوَاتِقُ إِلَى الْعَوَاتِقِ فِي خُدُورِهِنَّ وَ تُحَدِّثُ بِهِ السَّقَّايَاتُ فِي طَرِيقِ الْمَدِينَةِ

-Sufyan ibn Səmt deyir: “İmam Sadiqdən(ə) imamların vilayətindən xəbərsiz olanlar barədə soruşdum: Müstəzəflər barədə nə deyə bilərsiniz? İmam Sadiq(ə) hirsli vəziyyətdə mənə belə buyurdu: Qoymusunuz ki, məstəzəf qalsın!? Haradadır müstəzəflər!? And olsun Allaha, pərdə arxasında əyləşən və şəhərin (uzaq yerlərində) əllərinə səhəng alıb su daşıyan qadınlar belə yolda sizin əqidəniz (imamların vilayəti) haqda söhbət edirlər.”[2]

İmam Baqirdən(ə) müstəzəf barədə soruşduqda Həzrət(ə) belə buyurdu:

الْبَلْهَاءُ فِي خِدْرِهَا وَالْخَادِمُ تَقُولُ لَهَا: صَلِّي فَتُصَلِّي، لاَ تَدْرِي إِلاَّ مَا قُلْتَ لَهَا، والْجَلِيبُ الَّذِي لاَ يَدْرِي إِلاَّ مَا قُلْتَ لَهُ، وَالْكَبِيرُ الْفَانِي وَالصَّبِي الصَّغِيرُ، هَؤُلاَءِ الْمُسْتَضْعَفُونَ.

---

[1] Üsuli-Kafi, 4-cü cild, səh. 126.
[2] Üsuli-Kafi, 4-cü cild, səh. 127.

وَ أَمّا رَجلٌ شَدِيدُ العُنُق جَدِلٌ خَصِمٌ يَتَوَلَى الشِّراء وَالبَيع لا تَستَطِيعُ أَن تَغبُنَهُ فِي شَيءٍ تَقُولُ: هَذا الْمُستَضعَف؟ لا، وَلا كَرامَة

Süleyman ibn Xalid deyir ki, İmam Məhəmməd Baqirdən(ə) "müstəzəf"in (dində zəif düşüb əzilmişlərin) kim olduğu haqqında soruşduqda həzrət belə cavab verdi: "Onlar ağlı hər şeyi dərk etməyən, "namaz qıl" dedikdə qılan, başını aşağı salıb yalnız ona deyilən işi görən, başqa işlərdən bixəbər olan, həmçinin uşaqlar və qocalardır müstəzəflər. Lakin inadkarlıq edib haqqa qarşı çıxan, heç bir yolla qarşısı alınmayan boynu yoğun inadkara müstəzəf demək olarmı? Əlbəttə ki, olmaz."[1]

Gözüaçıq və zirək bir alverçi alış-verişin yollarını yaxşı bilirsə, bəs necə ola bilir ki, iman və din məsələlərinə gəldikdə isə deyir: "Mənim bu barədə məlumatım yoxdur." Əgər istəsə, çoxundan yaxşı öyrənə və xəbərdar ola bilər. Ona görə də bu insan müstəzəf sayılmır.

Bu bəhsin nəticəsi belə oldu ki, İslam dinindən həqiqi mənada xəbəri olmayan, dinin adını belə eşitməyən, imamların vilayəti barədə qulaqlarına heç bir məlumat çatmayan, bu dünyada yaşaya-yaşaya həqiqətdən xəbərsiz olan insanlara, uşaqlara və uşaq ağlında olan yaşlı kişi və qadınlara, eləcə də ruhi xəstələrə müstəzəf deyilir. Amma hər şeyin yollarını bilən, öz ləzzət və istəklərinə çatmaq üçün zirəklik göstərən, amma dini məsələlərlə maraqlanmayan kafirlər və fasiqlər müstəzəf sayılmırlar.

---

[1] Mizanül-hikmə, 7-ci cild, hədis - 11051.

## Nəkir və Münkəri insana qarşı mehribanlaşdıran amillər

Qəbir insan üçün çox qorxulu və vəhşətli məqamlardan biridir. By yer insanın bir ömür qorxduğu bir məkandır ki, əvvəl-axır ora gedəcəkdir. İnsanlar həmişə düşünürlər ki, görəsən, orada başına nə gələcək? Təbiidir ki, insan öldükdən sonra onun bədənini torpağa tapşırırlar. Ruhu isə artıq qeyd etdiyimiz kimi, başqa bir formada bərzəx aləminə gedir. Ora daxil olan kimi Nəkir və Münkər onun başının üstünü alırlar və sorğu-suala başlayırlar. Bu halın özü də insan üçün çox qorxulu bir haldır. Amma bu dünyada bir sıra əməllər vardır ki, əgər insan həmin əməllərə riayət etsə, qorxunu aradan qaldırar və həmin mələkləri (Nəkir və Münkəri) insana qarşı mehriban edər. Buna görə də fürsət əldən çıxmamış insan bu dünyada o günlər üçün tədarük görməlidir. Ruh bədəndən çıxdıqdan sonra artıq heç bir iş görmək mümkün olmayacaqdır. Nə qədər ki, fürsət var, insan onu gözləyən qorxulu məqamlar üçün başına bir çarə qılmalıdır. Burada yaxşı olar ki, Nəkir və Münkəri insana mehribanlaşdıran amillərlə də tanış olaq:

### 1. Şəban ayında 9 gün oruc tutmaq

Hər kim şəban ayında 9 gün oruc tutsa, həmin əməl qəbirdə mələklərin insana qarşı mehriban olmasına gətirib çıxarar.

İbn Abbas deyir: “Bir gün Həzrət Peyğəmbər(s) səhabələrə şəban ayının fəziləti haqda söhbət edirdi. Həzrət(s) buyurdu: Şəban ayı şərafətli aydır. Bu ay mənim ayımdır. Cənnət şəban ayında bəzədilir. Bu ay elə bir aydır ki, möminlərin hər bir yaxşı əməlinə görə onlara yetmiş bərabərində savab verilir.

Elə bu zaman Həzrət Əli(ə) ayağa qalxıb ərz etdi: Ya Rəsulallah, bizim üçün şəban ayının fəzilətləri barədə çox söhbət edin ki, bu ay ibadət etməyə və yaxşı işlər görməyə daha çox həvəsli olaq."

Həzrət Peyğəmbər(s) orada şəban ayının fəzilətləri barədə uzun bir xütbə oxudu. Bu xütbədə isə Həzrət(s) şəban ayının hər bir gününün orucunun fəzilətləri haqda söhbət etdi. Həmçinin belə buyurdu:

مَن صَامَ تِسعَةَ أَيّام مِن شَعبَان عَطَفَ عَلَيهِ مُنكَرٌ وَنَكِيرٌ عِندَ مَا يَسأَلانِه

-Kim şəban ayında doqquz gün oruc tutsa, Nəkir və Münkər sorğu-sual zamanı ona qarşı mehriban olar.[1]

---

[1] Savabul-əmal, səh. 144.

**2. Ramazan ayının 23-cü gecəsini əhya saxlamaq**

Qəbirdə sorğu-sual edən mələkləri insana qarşı mehribanlaşdıran əməllərdən biri ramazan ayının 23-cü gecəsinin əhyasıdır. Kim həmin gecə yatmasa və ibadətlə məşğul olsa, bu əməl qəbirdə Nəkir və Münkərin ona qarşı mehriban olmasına səbəb ola bilər. Əlbəttə, qeyd etmək lazımdır ki, ramazan ayının hər bir gecəsinin özünəməxsus xüsusiyyətləri və təsirləri vardır. Həmçinin ayın 19 və 21-ci gecələri də böyük fəzilət və xüsusiyyətə malikdir. Burada söhbət qəbirdə Nəkir və Münkəri insana qarşı mehriban edən amillərdən getdiyi üçün ayın 23-cü gecəsinin bu məsələdə özünəməxsus rolu vardır.

İmam Baqir(ə) buyurur: "Hər kim ramazan ayının 22-dən 23-nə keçən gecəni əhya saxlayıb, 100 rükət[1] namaz qılsa, Allah-təala dünyada onun ruzisini çoxaldar, düşmənlərin şərindən qoruyar, Nəkir və Münkərin qorxusunu ondan götürər, (Qiyamət günü) qəbirdən qalxarkən üzü nur saçar, əməl dəftəri sağ əlinə verilər, hesab-kitabsız cənnətə daxil olar."[2]

**3. Məntiqi cəhətdən zəif olan insana kömək etmək**

Qəbirdə sorğu-sual edən mələkləri insana qarşı mehribanlaşdıran amillərdən biri də məntiqi cəhətdən zəif

---

[1] Əlbəttə, alimlər tövsiyə etmişlər ki, boynunda qəza namazı olan şəxslər Qədr gecəsi 100 rükətli namazın yerinə 6 günlük qəza namazı qılsalar yaxşı olar. Lakin bu qəza namazlarında adı çəkilən xüsusiyyət (yəni qəbirdə mələkləri insana qarşı mehribanlaşdıran təsir) olmayacaq. Çünki bu təsir və xüsusiyyət həmin 100 rükətli müstəhəb namaza aiddir.

[2] İqbalul-əmal, 1-ci cild, səh. 554.

olan insana kömək etməkdir. Yəni bir mömin İslamın və Əhli-beytin(ə) düşmənləri ilə söhbət edərkən onlara söz çatdırmaq qabiliyyəti zəif olduqda ona yardım etmək, fikir və məntiqini gücləndirmək qəbirdə Nəkir və Münkərin həmin şəxslə (yardım edənlə) mehriban davranmasına səbəb olar.

قَالَ عَلِيٌّ(ع): مَن قَوّی مِسكِيناً فِی دِينِهِ ضَعِيفاً فِی مَعرِفَتِهِ عَلی نَاصبٍ مُخَالِفٍ فَاءَفحَمَهُ لَقَّنَهُ اللّهُ يَومَ يُدلَی فِی قَبرِهِ اَن يَقُول: اَللّهُ رَبِّی وَ مُحَمَّدٌ نَبِيِّ وَ عَليٌّ وَلِيِّي وَالكَعبةُ قِبلَتِي وَالقُرآنُ بَهجَتِي وَعُدَّتِی وَالْمُؤمُنَون إِخوانِی وَالْمُؤمِنَات أَخَواتِی. فَيَقُولُ اللّه: أَدلَيتَ بِالْحُجَّة فَوَجَبتُ لَكَ اَعالِی دَرَجَاتِ الْجَنَّة فَعِندَ ذَلِك يَتَحَوَّلُ عَليهِ قَبرُهُ أَنزَهَ رِياضِ الْجَنَّةِ

-Həzrət Əli(ə) buyurur: "Kim dini maarifi zəif olan şəxsin təfəkkürünü bizim düşmənlərimizə qarşı gücləndirib ona yardımçı olsa, qəbrə qoyulduqda Allah-təala ona belə deməsini təlqin edər: "Mənim rəbbim Allah, peyğəmbərim Məhəmməd(s), İmamım Əli(ə), qibləm Kəbədir. Quran mənim azuqəm, mömin kişilər qardaşlarım, möminə xanımlar bacılarımdır." Belə olduqda Allah ona buyurar: "Sən höccəti bəyan etdin. Buna görə də cənnətin ən yüksək təbəqəsini sənə vacib etdim." Sonra onun qəbri cənnət bağlarından birinə çevrilər."[1]

---

[1] Biharül-ənvar, 6-cı cild, səh. 228.

## Qəbirdə nə barədə sorğu-sual ediləcək?

Əvvəlki bəhslərdə qəbrin sorğu-sualı barədə insanı düşündürən bir neçə məsələ barədə söz açıldı. Əlavə olaraq həmin məsələlərdən biri də budur ki, görəsən, qəbirdə insan nə barədə sorğu-sual olunacaq? Yəni qəbirdə insana hansı suallar veriləcək? Quran ayələrinə və hədislərə əsasən qiyamət günü Sirat körpüsündə insanın kiçikli- böyüklü bütün əməllərindən sorğu-sual olunacaq. Qiyamət günündən öncə insan qəbirdə də mütləq sorğu-sual olunmalıdır. Amma qəbirdə insana ümumi suallar veriləcəkdir. Digər suallar isə qiyamət günü Sirat körpüsündə veriləcək və bütün əməllər tərəzidə ölçüləcək. Quran ayələrinə əsasən insanın zərrə qədər də olsa əməli yerdə qalmayacaq. Hər kimin zərrə qədər yaxşı və pis əməli olubsa, mütləq onun nəticəsini görəcəkdir.

Təhsil ocaqlarında oxuyan tələbələr imtahan zamanı hansı sualların düşəcəyini bilmədiklərindən nigaran və həyəcanlı olurlar. İmtahandan bir gün, yaxud bir neçə saat qabaq şagirdlərə hansı sualların düşəcəyini desələr, onlar sevinər və dərhal həmin suallara uyğun cavab hazırlayarlar. Bundan fərqli olaraq hədislər qəbirdə insandan hansı sualların soruşulacağı haqda bizə xəbər vermişlər. Bizə isə sadəcə olaraq həmin suallara hazırlaşmaq qalır. Yəni nə barədə sorğu-sual olunacağıqsa, hamısını bizə söyləmişlər. Amma bunu da bilmək lazımdır ki, qəbirdə verilən suallara hazırlaşmağın bir çətinliyi vardır. Həmin çətinlik budur ki, sualların cavabını əzbərləmək məsələsi burada yetərli deyildir. Əgər əzbərləməklə məsələ həll olunsaydı, hamı bir neçə cümləni əzbərləyə bilərdi. Qəbirdə suallara verilən cavablar insanın əməlləri ilə ölçülüb qəbul olunacaq. Hədislərə əsasən ümumilikdə qəbirdə insan

təxminən on dörd məsələ barədə sorğu-sual olunacaqdır. Həmin hədislərə diqqət yetirək:

-İmam Zeynalabidin(ə) İmam Hüseyndən(s) sonra təxminən qırx il ömür sürmüş və bu qırx ildə İlahi imamət vəzifəsini daşımışdır. Hər cümə günü Mədinədə məsciddə camaata xütbə oxumuş və moizə etmişdir. Səhabələr də bacardıqları qədər həmin xütbələri qələmə almış və yadda saxlamışlar. Həmişə olduğu kimi cümə günlərinin birində Həzrət(ə) camaata xütbə oxudu. Həmin xütbənin bir hissəsi belədir:

اَيُّهَا النّاس اِتَّقُوا الله وَ اعلَمُوا اَنَّكُم اِلَيهِ تُرجَعُون... و كأن قد أوفِيتَ أجَلَكَ، و قَبَضَ المِلَكُ رُوحَكَ، و صِرتَ إلى مَنزِلٍ وَحيدا، فَرُدَّ إلَيكَ فيهِ رُوحُكَ، و اقتَحَمَ علَيكَ فيهِ مَلَكاكَ مُنكَرٌ و نَكيرٌ لِمُساءلَتِكَ، و شَديدِ امتِحانِكَ. ألاَ و إنَّ أوَّلَ ما يَسألانِكَ

-Camaat, Allahdan qorxun! Bilin ki, həqiqətən, Ona tərəf qayıdacaqsınız... Sənin ömrün (nə vaxtsa) sona çatacaq. Bir gün ölüm mələyi canını alacaq. Səni tək bir mənzilə (qəbrə) yola salacaqlar. Sənin ruhun orada (bərzəxdəki) bədəninə daxil olacaq. Nəkir və Münkər adlı mələklər səndən sorğu-sual etmək üsün qəbrinə yanına gələcəklər. O gün sənin imtahanın çox çətin olacaqdır. Səndən soruşulacaq ilk suallar bunlardır:

١.عن ربِّكَ الذي كُنتَ تَعبُدُهُ،

**1. İbadət etdiyin Rəbbindən soruşacaqlar**

Deməli, qəbirdə insandan ilk soruşulacaq məsələ ibadət etdiyi məbududur. Hər insan dünyada özü üçün məbud seçir. Tarix boyu bütə, daşa, taxtaya, xurmaya, buzova, keçiyə və s. şeylərə ibadət edənlər olmuşdur.

Həmçinin vəzifəyə, pula da pərəstiş edənlər vardır. Amma qəbirdə bütün bu məbudların heç biri insana fayda verməyəcək. Odur ki, insandan qəbirdə ilk növbədə kimə və nəyə ibadət etməsi haqda soruşulacaqdır. Əgər insanın əməli Allaha ibadət edən insanların əməli kimi olsa, əgər Allaha mərifəti olsa, əgər insan dünyada Allahın həqiqi mənada bəndəsi və qulu olsa, qəbirdə ona verilən "İbadət etdiyin məbudun kimdir?" sualına ürəklə cavab verərək belə deyəcəkdir: "Cəlal sahibi olan Allah mənim rəbbimdir. O Allah ki, bir ömür Ona səcdə etmişəm. O Allah ki, həm aşkarda, həm xəlvətdə həmişə mənimlə olub. O Allah ki, Onun adına canımı həmişə qurban verməyə hazır olmuşam."

٢. و عن نَبيِّكَ الذي أُرسِلَ إلَيكَ،

**2. (Allah tərəfindən) sənin üçün göndərilən peyğəmbərdən soruşulacaq**

İnsan hansı peyğəmbərin dövründə yaşamasından asılı olaraq qəbirdə həmin dövrün peyğəmbəri barədə sorğu-sual olunur. İslam Peyğəmbəri(s) peyğəmbərliyə məbus olunandan qiyamət gününə qədər gəlib-gedən insanlardan isə qəbirdə Həzrətin(s) barəsində sorğu-sual olunacaqdır.

٣. و عن دِينِكَ الذي كُنتَ تَدِينُ بِهِ

**3. İnanıb iman gətirdiyin dinin barəsində soruşulacaq**

Bu məsələ də eynilə yuxarıdakı məsələyə bənzəyir. İsa(ə), Musa(ə) və s. peyğəmbərlərin zamanında ölən insanlardan qəbirdə onların gətirdiyi din haqda soruşulacaqdır. Amma İslam dini nazil olduqdan sonra bütün insanlar bu dini qəbul etməlidirlər. Əgər insan

İslamdan savayı başqa hər hansı bir dinə bağlı olsa, bu, ondan qəbul olunmayacaqdır. Allah-təala “Ali-İmran” surəsinin 85-ci ayəsində belə buyurur:

وَمَن يَبْتَغِ غَيْرَ الإِسْلاَمِ دِينًا فَلَن يُقْبَلَ مِنْهُ وَهُوَ فِي الآخِرَةِ مِنَ الْخَاسِرِينَ

-Kim İslamdan başqa bir din axtarışında olsa, əsla ondan qəbul olunmayacaqdır və o, axirətdə ziyana düşənlərdəndir.

Deməli, qəbirdə hər bir insan iman gətirdiyi din barədə sorğu-sual olunacaqdır. Keçmişdə yaşayan insanlar o zaman nazil olan dinlərin, İslam dini nazil olduqdan sonra isə qiyamətədək dünyaya gəlib-gedən insanlardan qəbirdə İslam barədə sorğu-sual aparılacaqdır.

٤. وَ عَن كِتَابِكَ الَّذِي كُنتَ تَتلُوهُ

**4. Oxuduğun (səmavi) kitab haqqında soruşacaqlar**

Qəbirdə hər bir insandan Allahın onun üçün nazil etdiyi kitab barədə, habelə onu necə oxuması və ona əməl edib-etməməsi barədə soruşacaqlar.

٥. وَ عَن إِمَامِكَ الَّذِي كُنتَ تَتَوَلاَّهُ

**5. Vilayətini qəbul etdiyin imam barədə soruşacaqlar**

Hər bir peyğəmbər özündən sonra ümməti üçün bir vəsi təyin etmişdir. Adəm(ə), Musa(ə) və İsa(ə) peyğəmbərlər özlərindən sonra vəsi təyin etdikləri kimi, İslam Peyğəmbəri(s) də ümməti üçün Həzrət Əlini(ə) vəsi və imam təyin etdi. Hər bir peyğəmbərin ümməti dünyadan köçərkən qəbirdə həmin zamanın imamı barədə soruşulacaq. İslam Peyğəmbərindən(s) sonra isə qiyamətə qədər gəlib-gedən insanların hamısından Həzrətin(s) təyin

etdiyi imamları qəbul edib-etmədikləri haqda sorğu-sual olunacaqlar.

٦. ثُمَّ عن عُمُرِكَ فيما أفنَيتَهُ

**6. Ömrünü harada sərf etdiyin haqda soruşacaqlar**

Qəbirdə insandan soruşulacaq suallardan altıncısı ömrünü hara sərf etməsi barədədir. Məsələn, tutaq ki, bir insana 80 il ömür verilmişdir. Həmin insanın həddi-büluğ müddəti istisna olmaqla, hər bir il və hər bir günü harada keçirdiyi, vaxtını nəyə sərf etdiyi barədə soruşacaqlar.

٧. و مالِكَ مِن أينَ اكتَسَبتَهُ و فيما أتلَفتَهُ

**7. Haradan qazanıb harada xərclədiyin malın barəsində soruşacaqlar**

Hədisin bu hissəsində insanın qazancı barədə iki sual yaranır. Biri insanın əldə etdiyi malı haradan qazanması, digəri isə həmin malı harada xərclədiyi barədədir.

فَخُذْ حِذرَكَ و انظُرْ لِنفسِكَ، و أعِدَّ للجَوابِ قَبلَ الامتِحانِ و المساءلَةِ و الاختِبارِ...

İmam Zeynalabidin(ə) buyurur: “Elə isə ayıq ol! Özünü düşün. İmtahan və sorğu-sual olunmamışdan öncə özünü cavab verməyə hazırla.”[1]

**8. Qiblə haqqında soruşacaqlar**

Hər bir insanın üz tutduğu qiblə və istiqamət vardır. Hər bir müsəlmanın qibləsi isə Məscidül-Həramdakı Kəbə evidir. Bu onu bildirir ki, müsəlman üzünü qibləyə tutaraq Allaha tərəf istiqamət götürür. Namaz qılarkən üzü qibləyə

---

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 16259.

dayanmaqla, heyvan kəsərkən üzü qibləyə kəsməklə, bir sıra şəriət məsələlərini qibləyə sarı yerinə yetirməklə öz istiqamətini müəyyən etmiş olur. Qəbirdə də insandan sorğu-sual aparılacaq məsələlərdən biri də bu olacaq.

قَالَ رَسُولُ اللّهِ(ص): وَ إِذا جَاءَهُ مُنكَرٌ وَ نَكِيرٌ... ثُمَّ يَسأَلانِهِ فَيَقُولان: مَن رَبُّك؟ وَمَا دِينُك؟ وَما قِبلَتُك؟...

-Həzrət Peyğəmbər(s) buyurur: "Qəbirdə Nəkir və Münkər (insanın yanına) gələr və soruşarlar... Rəbbin kimdir? Dinin nədir? Qiblən haradır?"

**9. Dost və qardaşlar haqqında soruşacaqlar**

Qəbirdə insandan soruşulan suallardan biri onun dünyadakı dost və qardaşları barədə olacaq. Həzrət Peyğəmbər(s) həmin hədisin ardınca belə buyurur:

ثُمَّ يَسأَلانِه فَيَقُولان:...وَمَن إِخوانِك؟

-Soruşacaqlar: "Qardaşların (dostların) kimlərdir?"

Deməli, qəbirdə insanın bu dünyada oturub-durduğu dostları barədə də sorğu- sual ediləcək. Qəbirdə verilən suallara belə cavab veriləcək:

اَللّهُ رَبِّي، وَمُحَمَّدٌ نَبِيِّي، وَعَلِيٌّ وَصِيُّ مُحَمَّدٍ إِمَامِي، وَ الكَعبَةُ قِبلَتِي، وَ الْمُؤمِنُون الْمُوالُون لِمُحَمَّدٍ وَ عَلِيٍّ وَ آلِهِمَا وَ أَولِيائِهِمَا الْمُعادُون لِأَعدَائِهِمَا إِخوَانِي، فَيَقُولان: عَلى هَذا مِتَّ، وَ عَلَى هَذا تُبعَث إِن شَاءَ الله تَعَالَى، وَ تَكُونُ مَع مَن تَتَوَلّاه فِي دَارِ كَرامَةِ الله...

-Allah mənim Rəbbimdir. Məhəmməd(s) mənim peyğəmbərimdir. Məhəmmədin(s) vəsisi Əli(ə) mənim imamımdır. Qibləm Kəbədir. Məhəmmədi(ə), Əlini(ə) və

Əhli-beytini(ə) sevən və onların düşmənləri ilə düşmən olan möminlər mənim qardaşlarımdır. Belə olduqda (qəbirdə) mələklər ona deyərlər: "Bu əqidə ilə öldün. İnşallah qiyamət günü də bu əqidə ilə ayağa qalxacaqsan (məhşərə gələcəksən). Dünyada dostluq etdiyin həmin insanlarla axirətdə (Allahın kərəmi sayəsində, cənnətdə) də birgə olacaqsan."

وَ إِن كَانَ لِأَولِيَائِنا مُعادِيًا وَلِأَعدَائِنَا مُوالِياً وَلِأَضدَادِنَا بِأَلقَابِنَا مُلَقّباً... فَيَقُولُ لَهُ مَلَكُ الْمَوت: يَا أَيُّهَا الفَاجِر الكَافِر تَرَكتَ أَولِيَاءِ اللهِ إِلَى أَعدَائِه، فَاليَوم لا يُغنُونَ عَنكَ شَيئًا، وَلا تَجِدُ إِلى مَناصٍ سَبيلا، فَيُرَدُّ عَلَيهِ مِنَ العَذابِ مَا لَو قُسِّمَ أَدنَاهُ عَلى أَهِلِ الدُّنيا لَأَهلَكَهُم...

-Sonra Həzrət Peyğəmbər(s) buyurur: "Əgər həmin şəxs bizim dostlarımızla düşmən və düşmənlərimizlə dost olsa, düşmənlərimizi bizim ləqəblərimizlə (əmirəl-möminin[1]) çağırsa, ölüm mələyi ona belə deyər: "Ey kafir, Allahın dostlarını Onun düşmənlərinə xatir tərk etdin. Bu gün onların sənə heç bir faydası yoxdur. Heç bir çıxış yolu tapa bilməyəcəksən." Sonra ona elə bir əzab veriləcək ki, əgər o əzabın kiçik bir hissəsini bütün dünya əhlinə paylasalar, hamı həlak olar."[2]

---

[1] Əmirəlmöminin yalnız Həzrət Əlinin(ə) ləqəbidir. Hər kim Müaviyəni, Yezidi və Əhli-beytin(ə) düşmənlərini bu ləqəblə çağırsa, Həzrət Peyğəmbər(s) və Əhli-beytə(ə) qarşı düşmənçilik etmişdir.

[2] Biharül-ənvar, 6-cı cild, səh. 175.

**10. Əqidə dəlilləri barədə soruşulacaq**

Qəbirdə insandan əqidəsindən əlavə, hansı səbəbə görə etiqad bəslədiyini də soruşacaqlar. İnsandan dəlil və sübut istədikdə məsələ çətinləşəcək.

قَالَ مُوسى اِبن جَعفَر(ع): يُقَالُ لِلمُؤمن فِي قَبرِه: مَن رَبُّك؟ فَيَقُول: اَللهُ. فَيُقَالُ لَهُ: مَن نَبِيُّك؟ فَيَقُول: مُحَمَّد(ص). فَيُقَالُ لَهُ: مَا دِينُك؟ فَيَقُولُ: اَلْإِسلام. فَيُقَالُ: مَن إِمَامُك؟ فَيَقُولُ: فِلان. فَيُقَالُ: كَيفَ عَلِمتَ بِذلِك؟ فَيَقُول: أَمرٌ هَدَانِيَ اللهُ لَهُ وَثَبَّتَنِي عَلَيهِ، فَيُقَالُ لَه: نَم نَومَةً لا حُلُمَ فِيهَا، نَومَةَ العَرُوسِ، ثُمَّ يُفتَحُ لَهُ بَابٌ إِلَى الْجَنَّةِ فَيَدخُلُ عَلَيهِ مِن رَوحِهَا وَ رَيحَانِهَا، فَيَقُولُ: يَا رَبِّ عَجِّل قِيامَ السَّاعَةِ لَعَلِّي أَرجِعُ إِلى أَهلِي وَ مَالِي

-Həzrət Musa ibn Cəfər(ə) buyurur: “Qəbirdə mömindən belə soruşarlar: Rəbbin kimdir? Cavab verər: Allah. Soruşarlar: Peyğəmbərin kimdir? Deyər: Məhəmməd(s). Soruşarlar: Dinin nədir? Deyər: İslam. Soruşarlar: İmamın kimdir? Deyər: Filankəs (Əli və onun on bir övladı). Sonra ondan soruşarlar: Bu əqidəni necə və hansı dəlillərə əsasən bilirdin? Deyər: Allah məni bu əqidədə olmağa (Peyğəmbərin(s), Quranın və imamların vasitəsilə) hidayət və sabitqədəm etdi. (Əqidəsinin və dəlil-sübutlarının möhkəm olduğunu gördükdə) ona deyilər: Elə isə yat. Təzə gəlin və bəyin rahat yatdığı kimi qorxusuz-hürküsüz yat. Sonra qəbirdən cənnət qapılarından biri onun üzünə açılar. Cənnətin (bərzəx cənnətinin) nəsim küləyini və güllərin ətrini hiss edər. Sonra deyər: Ey mənim Rəbbim, qiyamət gününü tezləşdir ki, ailəmin və (dünyada ikən

özümdən əvvəl axirətə göndərdiyim) sərvətimin yanına gedim.”

وَ يُقَالُ: لِلكَافِرِ: مَن رَبُّك؟ فَيَقُول: اَللهُ، فَيُقَالُ: مَن نَبِيُّك؟ فَيَقُولُ: مُحَمَّد، فَيُقَالُ: مَا دِينُك؟ فَيَقُول: اَلْاِسلام: فَيُقَالُ: مِن أَينَ عَلِمتَ ذَلِك؟ فَيَقُولُ: سَمِعتَ النَّاس يَقُولُون. فَقُلتُهُ فَيَضرِبَانِهِ بِمِرزَبَةٍ لَو اِجتَمَعَ عَلَيهَا الثَقَلانِ الْاِنسِ وَالْجِنّ لَم يُطِيقُوهَا، قَالَ: فَيَذُوبُ كَمَا يَذُوبُ الرَّصَاصُ

-Qəbirdə kafirdən soruşular: “Rəbbin kimdir? Cavab verər: Allah. Soruşarlar: Peyğəmbərin kimdir? Deyər: Məhəmməd(s). Soruşarlar: Dinin nədir? Deyər: İslam. Sonra ondan soruşarlar: Bunu necə və hansı dəlillərə əsasən deyirsən? Deyər: Camaatdan eşitmişdim. (Yəni eşitmişdim ki, Allah, peyğəmbər, imam, Quran, qiblə və İslam dini var. Sadəcə olaraq onların adlarını eşitmişdim, amma əqidə baxımından onlara bağlanmamışdım.) Sonra Nəkir və Münkər onun başına dəmir parçası ilə heç bir insanın və cinin dözməyə qüdrəti çatmadığı elə bir zərbə vurarlar ki, həmin zərbənin nəticəsində qalay kimi əriyib tökülər.”[1]

### 11-14. Namaz, zəkat, həcc, oruc

Qəbirdə insandan aparılan sorğu-suallardan dördü də əməl barədədir. Yəni yuxarıda qeyd olunan suallar bilavasitə əqidə ilə bağlı məsələlərə aid suallar idi. Amma əməllərə gəldikdə, qəbirdə əsasən bu dörd əməl barəsində

---

[1] Biharül-ənvar, 6-cı cild, səh. 263.

ümumi şəkildə sorğu-sual aparılacaq. Yəni bu dörd əməlin olub-olmadığı haqda soruşulacaq, amma incəlikləri barədə isə qiyamət günü haqq-hesab çəkiləcək. Həmin dörd əməl bir hədisdə bəyan olunmuşdur. Hədis belədir:

قَالَ الصَّادِقُ(ع): يُسأَلُ المَيِّتُ فِي قَبرِهِ عن خَمسٍ عن صَلاتِهِ، و زَكَاتِهِ، و حَجِّهِ، و صيامِهِ، و وَلايَتِهِ إيّانا أهلَ البَيتِ، فتَقولُ الوَلايةُ مِن جانِبِ القَبرِ للأربَعِ: ما دَخَلَ فِيكُنَّ مِن نَقصٍ فَعلَيَّ تَمامُهُ

-İmam Sadiq(ə) buyurur: "Ölüdən qəbirdə beş şey barədə soruşarlar: namazı, zəkatı, həcci, orucu və bizim ailəmizə vilayəti. Vilayət qəbrin küncündən qalan dörd şeyə deyər: Sizlərin hər birinizin əgər-əskikliyi olsa, onları təkmilləşdirmək mənim boynuma."[1]

Bu hədisdə dörd əməlin və əqidə ilə bağlı bir məsələnin adı çəkilmişdir. Həmin əməllərdən birincisi namazdır ki, insandan namazları qılıb-qılmaması haqda qəbirdə sorğu-sual ediləcəkdir. Sonra malının zəkatı, sonra Həccə gedib-getməməsi, sonra isə oruc tutub-tutmaması haqda ümumi şəkildə soruşulacaq. Amma necə namaz qılması və necə oruc tutması barədə qiyamətdə sorğu-sual olunacaq. Yəni xırda məsələləri qiyamətə aid olduğu üçün onu qəbirdə soruşmayacaqlar. Məsələn, insan var ki, namaz qılarkən namazın bütün qayda-qanunlarına riayət edir. Azan və iqaməni deyir, namazı vaxtında qılır, fikri namazda olur. Amma adam da var ki, nə azan deyir, nə iqamə deyir, namazın vaxtını ötürür. Bu kimi incəlikləri qəbirdə soruşmayacaqlar. Qəbirdə insan ümumi şəkildə

---

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 16265.

namazı qılıb-qılmaması haqda sorğu-sual ediləcək. Əgər qılıbsa, digər sualı verəcəklər.

Deməli, qəbirdə insan həmin dörd əməl haqda sorğu-sual olunduqdan sonra Həzrət Peyğəmbər(s) və məsum imamların vilayəti barədə də ondan soruşacaqlar. Hər kim onların imamət və vilayətini qəbul edibsə, həmin vilayət o dörd əmələ deyər: "Sizlərin hər birinizin əgər-əskikliyi olsa, onları təkmilləşdirmək mənim boynuma." Əgər bir insan imamların vilayətini qəbul etməmiş olsa, qəbirdə onun vəziyyəti çox çətin olacaqdır.

İbn Əbi Həmzə İmam Rzanın(ə) dövrundə yaşayırdı. O, Həzrət Peyğəmbəri(s), Həzrət Əlini(ə) və İmam Rzaya(ə) qədər olan yeddi imamı qəbul edirdi. Amma İmam Rzanın(ə) imamətini qəbul etmirdi. O, öldükdən sonra İmam Rza(ə) onun barəsində belə buyurur:

إنّه اُقعِدَ في قَبرِهِ فسُئلَ عنِ الأئمّةِ عليهم السلام فَأخبَرَ بأسمائهِم، حتَّى انتَهى إلَيَّ فَسُئلَ فَوَقَفَ، فَضُرِبَ على رَأسِهِ ضَربَةً امتَلَأ قَبرُهُ نارًا

-Onu qəbrə qoyduqdan sonra o, imamlar barədə sorğu-sual olundu. O, bütün imamların adlarını çəkdi və mənim adıma çatdıqda dayandı. Mənim imamətim haqda ondan soruşdular, o, cavab vermədi. Sonra ona elə bir zərbə vurdular ki, qəbri odla doldu."[1]

Həsən ibn Əli Vəşşa deyir: "İmam Rza(ə) Xorasana gedərkən Mərvdə bizə buyurdu: "Əli ibn Həmzə dünyasını dəyişdi." Mən bu sözə çox təəccübləndim. Çünki Əli ibn Həmzə Mədinədə, biz isə Mərvdə idik. İmamın(ə) onun ölüm xəbərini söyləməsi bizdə həqiqətən də təəccüb doğurdu. Sonra İmam Rza(ə) buyurdu: "Onu qəbrə

---

[1] Mizanül-hikmə, 10-cu cild, hədis - 16261.

qoyduqdan sonra sorğu-sual üçün iki mələk onun yanına gəldi. İmamlar barəsində soruşduqda cavab verdi. Mənim imamətim haqda soruşduqda isə cavab vermədi. Buna görə də hazırda ona əzab verilir."

Həsən ibn Əli Vəşşa deyir: "Mən kənara çəkilib İmamın(ə) söylədiklərini qələmə aldım və həmin günün tarixini də yazdım. Bir müddətdən sonra bizə məktub gəlmişdi. Həmin məktubda Əli ibn Həmzənin dünyasını dəyişdiyi və dəfn olunduğu gün də yazılmışdı. O tarixi öz yazdığım tarixlə tutuşdurduqda gördüm ki, İmam Rzanın(ə) buyurduğu həmin tarixlə üst-üstə düşür."[1]

[1] Qəbrin həqiqəti, səh. 107.

## Qəbrin əzabı

Qeyd olundu ki, insan öldükdən sonra üç səbəbə görə onda "hövli-müttəli" yaranır. Onlardan biri qəbrin vəhşəti, ikincisi qəbirdə insanın sorğu-sual olunmasıdır. Bu barədə ötən bəhslərimizdə lazımi qədər söhbət etdik. Bu bəhsimizdə isə insanda "hövli-müttəli"ni yaradan üçüncü səbəbə işarə edəcəyik. Beləcə, insanda qorxu və vəhşət yaradan səbəblərdən üçüncüsü qəbrin əzabıdır. Qəbrin əzabı haqda çox hədis və rəvayətlər qeyd olunmuşdur. Burada həmin hədislərdən bir neçəsini əziz möminlərin diqqətinə çatdırmaq istərdim.

İmam Rzanın(ə) Məmuna yazdığı bir məktubda qəbrin əzabına da işarə edilmişdir. Həmin məktubda İmam Rza(ə) Məmuna belə buyurur: "Gərək qəbrin əzabına, Nəkir və Münkərə imanın olsun. (Bil ki, insana qəbirdə əzab veriləcək və Nəkir və Münkər insanı sorğu-sual edəcəklər.)"[1]

قَالَ رَسُولُ اللهِ(ص): عَذابُ القَبر حَقٌّ اِستَعِيذُوا بِاللهِ مِن عَذابِ القَبر، إِنَّهُم يُعَذَّبُونَ فِي قُبُورِهِم عَذابًا يَسمَعُهُ البَهائِم.

-Həzrət Peyğəmbər(s) buyurur: "Qəbrin əzabı haqdır. Qəbir əzabından Allaha pənah aparın. Pis iş görənlər, günahkarlar qəbirlərində elə bir əzaba düçar olurlar ki, onların səslərini heyvanlar eşidərlər."[2]

Başqa hədislərdə belə qeyd olunur ki, bəzən heyvanlar qəbirdə əzab verilən insanların səsini eşidir və bunu qəribə hərəkətlər etməklə sanki ətrafda olanlara başa

---

[1] Qəbrin həqiqəti, səh. 188.
[2] Yenə orada, səh. 189.

salmaq istəyirlər. Bəzən bir heyvan getdiyi yerdə dayanır və heç bir səbəb olmadan müxtəlif hərəkətlər edir, ayağını yerə möhkəm vurur. Onun bu hərəkəti qəbirdə əzab olunanların səslərini eşitməsindən irəli gəlir.

Həzrət Peyğəmbər(s) Bilal Həbəşiyə belə buyurdu:

يَا بِلالُ هَلْ تَسْمَعُ مَا أَسْمَعُ ؟ " فَقَالَ : لا وَاللَّهِ يَا رَسُولَ اللَّهِ مَا أَسْمَعُ ، فَقَالَ : " أَلا تَسْمَعُ أَهْلَ الْقُبُورِ يُعَذَّبُونَ؟

-Ey Bilal, mənim eşitdiklərimi eşidirsənmi? Bilal dedi: Xeyr, ya Rəsulallah, and olsun Allaha ki, eşitmirəm. Peyğəmbər(s) buyurdu: Əhli-qüburun əzab səsini eşitmirsənmi? [1]

Bu və bu kimi hədislərdən açıq-aydın başa düşülür ki, qəbrin əzabı bir həqiqətdir. İnsan bu həqiqət haqda düşünəndə qorxur və vəhşətə gəlir. Dünyasını dəyişən bir insan qəbrə yaxınlaşdıqca orada onu gözləyən halları başa düşür və vəhşət hissi keçirir.

## Qəbir əzabı iki qisimdir

Qəbrin əzabına gəldikdə isə, deməliyik ki, hədis və rəvayətlərə əsasən insana orada iki cür əzab verilə bilər. Onlardan biri qəbrin insanı sıxmasıdır. Qəbrin bu əzabı müvəqqəti bir əzabdır. İkinci əzab isə insanın bəzi pis əməlləri nəticəsində uzunmüddətli və qiyamətədər olan əzabdır. Bu əzabın nə qədər davamlı olması da məhz insanın öz əməlindən asılıdır. İlk növbədə qəbrin birinci qisim əzabı, yəni qəbrin insanı sıxması haqda söz açmaq məqsədəuyğun olardı.

---

[1] Yenə orada.

## Qəbrin insanı sıxması

Hədisləri oxuduqda belə görünür ki, qəbrin insanı sıxması məsələsində istisna hal yoxdur. Əgər bu məsələdə istisna hal olsa belə, çox nadir hallarda ola bilər.

قَالَ رَسُولُ اللهِ(ص): لَيسَ مِن مُؤمِنٍ إلاّ وَ لَهُ ضَمَّةٌ

-Həzrət Peyğəmbər(s) buyurur: "Elə bir mömin yoxdur ki, qəbir onu sıxmasın."[1]

Əbu Bəsir deyir: "İmam Sadiqdən(ə) soruşdum: Ey Allahın höccəti, elə bir insan varmı ki, qəbir sıxıntısından nicat tapmış olsun? İmam(ə) buyurdu: Çox az və nadir hallarda ola bilər ki, bəzi insanlar qəbir sıxıntısını görməsinlər."[2]

Bu hədislərdən başa düşülür ki, əksər insanlar öldükdə qəbir sıxıntısını görəcəklər. Hətta bu hal Həzrət Peyğəmbərin(s) səhabələri haqda da istisna olunmamışdır. O cümlədən Səd ibn Məazın dünyasını dəyişməsi və dəfn olunarkən orada olan söhbətlər çox məşhur olmuş və demək olar ki, əksər kitablarda qeyd edilmişdir.

Məlumdur ki, Səd ibn Məaz Həzrət Peyğəmbərin(s) yaxın və son dərəcə möhtərəm səhabələrindən biri idi. O, möminlərin arasında da böyük hörmət sahibi idi və o qədər alicənab bir insan idi ki, şəhərə daxil olarkən Həzrət Peyğəmbər(s) səhabələrlə birgə onun qarşısına çıxarmış. Hətta hər hansı bir məclisə daxil olarkən Həzrət Peyğəmbər(s) ona hörmət əlaməti olaraq ayağa qalxardı. O, imanlı, uzaqgörən, məntiqli bir insan idi. Həzrət Peyğəmbər(s) yəhudilərlə hakimiyyət məsələsində və bəzi

---

[1] Qəbrin həqiqəti, səh. 153.
[2] Qəbrin əzabları, səh. 58.

başqa məsələlərin müzakirəsi zamanı onu göndərərdi. Səd ibn Məaz həm iman, həm də digər cəhətlərdən möhtərəm bir şəxs sayılırdı. O, dünyasını dəyişdikdən sonra Həzrət Peyğəmbərə(s) onun ölüm xəbərini çatdırdılar. Rəvayətlərdə belə qeyd olunur ki, Sədin dəfn mərasimində yetmiş min mələk iştirak edirdi. Yazırlar ki, Həzrət Peyğəmbər(s) onun cənazəsini ayaqyalın müşayiət edirmiş. Müşayiət edərkən hərdən yaxınlaşıb bir əli ilə də tabutu tuturmuş. Amma digər əli isə sərbəst qalırmış. Bunu görənlər soruşurlar: "Ya Rəsulallah, nə üçün tabutdan iki əlinlə tutmursan?" Həzrət Peyğəmbər(s) buyurur: "Çünki o biri əlimlə Cəbrayılın əlindən tutmuşam."

Qəbiristanlığa çatdıqdan sonra Həzrət Peyğəmbər(s) əbasını çıxarıb yerə qoyur və şəxsən özü qəbrin içinə düşür. Sonra Sədin cənazəsini öz əlləri ilə qəbrə qoyur. Onun anası isə bir kənarda dayanıb baxırdı. Həzrət Peyğəmbərin(s) onun oğlunun cənazəsini qəbrə qoyduğunu gördükdə ürəyi sakitləşir və deyir: "Oğul, cənnət sənə mübarək olsun." Həzrət Peyğəmbər(s) ona buyurdu: "Ey Sədin anası, sakit ol! (Onun heç bir əzab görməyəcəyini və cənnətə getməsini) Allahın boynuna qoyma. Sən bu işlərə qarışma! Onun hörmətinə xatir bu işləri görmək bizim borcumuzdur. Allahın onun barəsində nə edəcəyini isə Özü bilir." Sonra Həzrət Peyğəmbər(s) buyurdu: "Hazırda o, qəbir sıxıntısındadır." Səhabələr təəccüblə soruşdular: "Ya Rəsulallah, Səd kimi bir şəxsiyyət də qəbir əzabı çəkir?" Həzrət Peyğəmbər(s) buyurdu:

“Bəli. Çünki o, öz ailəsinə qarşı bədəxlaq (bədrəftar) idi.”[1]

Səd ibn Məaz Həzrət Peyğəmbərin(s) yanında, möminlərin arasında xüsusi ehtirama malik olmasına baxmayaraq, ailəsinə qarşı bədrəftar olduğu üçün qəbir sıxıntısını çəkdi.

Qəbir sıxıntısı elə bir əzabdır ki, insan dünyasını harada dəyişməsindən asılı olmayaraq, hətta suda batıb balıqlara yem olan, yanaraq kül olan insan da həmin əzabı görəcəkdir. Yəni əgər torpaqda dəfn olunursa torpaq, suda batırsa su, dara çəkilirsə hava onu sıxacaqdır.

İmam Sadiqdən(ə) soruşdular: “Dara çəkilmiş və darda qalmış insana da qəbir sıxıntısı varmı? Həzrət(ə) buyurdu: Yerin pərvərdigarı havanın da pərvərdigarıdır. Allah-təala havaya əmr edir ki, dara çəkilmiş insanı sıxsın.”[2]

## Qəbir sıxıntısının məna və şərtləri

Qəbir sıxıntısının mənasını açıqlamaq üçün bir misala diqqət yetirək. Məsələn, bir nəfər başqa bir ölkəyə gedir. Ora çatdıqda tanışları, qohum-əqrəbası olmadığı, dil bilmədiyi və ailəsindən uzaq düşdüyü üçün darıxır və ürəyi sıxılır. Səfərdə olan insanın çox və yaxud az darıxması, ürəyinin sıxılması təbiidir ki, onun ailəsinə bağlılığından asılıdır. Əgər bir insan öz ailəsinə çox bağlıdırsa, qərib ölkədə də çox darıxacaqdır. Bəzi alimlər də belə bir misal çəkmişlər: Heç bir kəsə sirr deyil ki, narkotik maddə onun aludəçisi olan insanın qanına müəyyən dərəcədə öz təsirini göstərmiş olur. Bu cür

[1] Qəbrin əzabları, səh. 59.
[2] Biharül-ənvar, 6-cı cild, səh. 266.

insanların narkotik maddələrə bağlılığı nə qədər çox olduqca, həmin maddəni ondan uzaqlaşdırarkən bir o qədər də narahat olacaq və sıxıntı içində qalacaqdır. Eləcə də qəbrin sıxıntısı da ən azından insanın dünyaya bağlılığı ilə əlaqəlidir. Yəni kimin dünyaya bağlılığı çoxdursa, qəbirdə də sıxıntısı bir o qədər çox olacaqdır.

Mal-dövləti, evləri, minikləri çox olan insanın yığdığı bu dünya malına bağlılığı çox olsa, öldükdən sonra onu qəbrə qoyarkən, əlbəttə ki, sıxıntısı da çox olacaqdır. Qəbrin sıxıntısı və darıxdırıcılığı isə bu dünyadakı kimi deyildir. Bunu bir qədər əvvəl misallarla da qeyd etdik.

Qəbir sıxıntısı əsasən ruha aid olan məsələdir ki, insan öldükdən sonra onun ruhunu bərzəx aləmində sıxırlar. Yəni əgər söhbət qəbirdən gedirsə, bu, ruhun məskunlaşdığı həmin bərzəxdir. Bu dünyada bəzi əməllər var ki, hər kəs o əməllərin sahibi olsa, həmin şəxs üçün qəbir sıxıntısı çox ağır olacaq. Bəzi əməllər də vardır ki, insan onlara riayət etməklə qəbir sıxıntısından nicat tapa bilər. Burada yaxşı olar ki, həmin əməllərlə tanış olaq.

### Qəbir sıxıntısına səbəb olan amillər

İnsan öldükdən sonra öz sərvətindən, ailəsindən, qohum-əqrəbasından ayrılaraq qəbrə qoyulur. Qeyd olundu ki, bu ayrılığın özü də qəbirdə onun üçün bir sıxıntıdır. Bu sıxıntı hamı üçündür və bunda istisna yoxdur. Deməli, hər kəsin ürəyi bu dünyaya nə qədər bağlıdırsa, qəbir onu bir o qədər çox sıxır. Bu mətləb öz yerində olmaqla yanaşı, qəbrin sıxıntısına səbəb olan üç amil də burada mühüm rol oynayır. Hər kimdə bu üç amildən biri olsa, həmin insanı qəbir sıxacaqdır. Bu, ümumi bir sıxıntı deyildir. Bu məsələ hər bir fərdin öz əməlindən asılı olan bir məsələdir.

**1. Ailədə bədrəftar olmaq**

Qəbir sıxıntısına səbəb olan amillərdən biri insanın öz ailəsində bədrəftar olmasıdır. Hər kim öz ailəsi ilə pis rəftar etsə, kimliyindən asılı olmayaraq, qəbir onu kəskin şəkildə sıxacaqdır.

Yuxarıda Səd ibn Məazın barəsində danışıldı və qeyd etdik ki, Həzrət Peyğəmbər(s) onu qəbrə qoyarkən buyurdu: "Qəbir onu sıxır, çünki o, ailəsinə qarşı bədrəftar idi."[1]

Səd ibn Məaz yaxşı bir insan idi. Təqvalı, alicənab, böyük bir şəxsiyyət, Peyğəmbər(s) və möminlər arasında hörmət sahibi olmasına baxmayaraq, bircə bu əməlinə görə qəbir sıxıntısını çəkməli oldu.

**2. Namaz qılmamaq**

Namaz qılmayan və namazı tərk edən insanın qəbirdə vəziyyəti çox ağır olacaqdır. Qəbir belə insanları da şiddətlə sıxacaqdır. Bəziləri elə düşünməsinlər ki, qəbrin sıxıntısı sadə bir məsələdir. Həzrət Peyğəmbər(s) qəbir sıxıntısı barədə belə buyurmuşdur: "And olsun Allaha, qəbir insanı elə sıxır ki, beyni dırnaqlarından çıxıb tökülür."

Hədislərdə qeyd olunur ki, mömin insanı qəbrə qoyduqda qəbir ona belə deyər: "Ey mömin insan, mənim üzərimdə gəzərkən səninlə fəxr edirdim. Mənim üzərimdə Allaha ibadət edərkən şad olurdum. İndi sənə mənim üzərimdə etdiyin yaxşı əməllərin əvəzini verəcəyəm." Bundan sonra onun qəbri gözün görə biləcəyi qədər genişlənər.

Qəbrin möminlə belə mehriban danışması və onun sonradan genişlənməsi həmin şəxsin namaz qılmasına

---

[1] Biharül-ənvar, 6-cı cild, səh. 220.

görədir. Ancaq namazı pis və ya yaxşı qılması, bəzisinin vaxtını gecikdirərək, bəzisini isə fikirli halda qılması və s. kimi məsələlərin qəbrə heç bir aidiyyəti yoxdur. Yəni namazın xırdalıqları və başqa incə məsələləri qiyamət günündə hesablanacaq. Amma bütövlükdə namaz qılan insan olduğu üçün qəbir onu sıxmaz və onunla mehriban davranar.

Amma namaz qılmayan insanı dəfn etdikdən sonra qəbir ona belə deyər: "Mənim üzərimdə gəzdikcə narahat olurdum və səndən acığım gəlirdi. İndi isə səndən üzərimdə gəzərkən mənə verdiyin narahatlıqların əvəzini çıxacağam." Sonra qəbir aləmi onun üçün o qədər darısqal və sıx olar ki, sanki mismarı çətinliklə divara vururlar."[1]

### 3. Allahın verdiyi nemətləri zay etmək

Qəbrin şiddətli sıxıntısına səbəb olan amillərdən üçüncüsü də Allahın bəxş etdiyi nemətləri zay etməkdir. Əgər insan Allahın ona verdiyi nemətlərə qarşı biganə olsa və onları zay etsə, qəbir həmin şəxsi sıxacaqdır. Allah-təala insana saysız-hesabsız nemətlər bəxş etmişdir. İnsanın vücudunun sağlamlığı, gözü, qulağı, dili, əl-ayağı və s. Allahın verdiyi nemətlərdir. Bundan əlavə, dənizlər, meşələr, yerin altında və üstündə olan nemətlər də insanın ixtiyarına verilmişdir. Əgər hər kim Allahın verdiyi hər bir neməti (nə üçün verilibsə, o iş üçün) öz yerində istifadə etməyib zay etsə, qəbrin əzabı həmin şəxs üçün çox şiddətli və ağrılı olacaqdır.

[1] Qəbrin əzabları, səh. 195.

قَالَ رَسُولُ اللهِ(ص): ضَغْطَةُ الْقَبْرِ لِلْمُؤْمِنِ كَفَّارَةٌ لِمَا كَانَ مِنْهُ مِنْ تَضْيِيعِ النِّعَمِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Qəbrin mömini sıxması dünyada ona verilən nemətləri zay etməsinin kəffarəsidir."[1]

"İbrahim" surəsinin 34-cü ayəsində oxuyuruq:

وَآتَاكُم مِّن كُلِّ مَا سَأَلْتُمُوهُ وَإِن تَعُدُّواْ نِعْمَتَ اللّهِ لاَ تُحْصُوهَا

-Və Ondan istədiyiniz hər bir şeydən sizə əta etdi. Və əgər Allahın nemətlərini saysanız, sayıb hesablaya bilməzsiniz.

قَالَ رَسُولُ اللهِ(ص): أحسِنوا مُجاوَرَةَ النِّعَمِ؛ لا تُمِلّوها و لا تُنَفِّروها؛ فإنّها قَلّما نَفَرَت مِن قَومٍ فعادَت إلَيهِم

-Həzrət Peyğəmbər(s) buyurur: "Nemətlərlə yaxşı qonşuluq edin. Onları incidib əlinizdən qaçırmayın. Çünki nemət insanın əlindən çıxdıqdan sonra nadir hallarda onun əlinə qayıda bilər."[2]

Deməli, hər bir kəs Allah-təalanın insana verdiyi gözü harada istifadə olunmalıdırsa, orada da istifadə etməlidir. Həmçinin qulaq, əl-ayaq, dil və s. kimi nemətlər də yerli-yerində istifadə olunmalıdır. Nemətin şükrü də elə budur ki, insan onu öz yerində istifadə etsin.

---

[1] Qəbrin həqiqəti, səh. 152.
[2] Mizanül-hikmə, 13-cü cild, hədis - 20372.

قَالَ رَسُولُ اللهِ(ص): يَقولُ اللّهُ تبارَكَ و تعالى: يا ابنَ آدمَ، ما تُنصِفُني! أتَحَبَّبُ إلَيكَ بالنِّعَمِ و تَتَمَقَّتُ إلَيَّ بالمِعاصي، خَيري علَيكَ مُنزَلٌ و شَرُّكَ إلَيَّ صاعِدٌ

-Həzrət Peyğəmbər(s) buyurur: "Allah-təala buyurur: Ey Adəm övladı! Mənə qarşı insafsızlıq edirsən! Sənə olan məhəbbətimi nemət verməklə izhar edirəm. Amma sən günah etməklə mənə qarşı düşmənçilik edirsən. (Sənə verdiyim nemətlərin vasitəsilə Mənə qarşı üsyan edirsən.) Mənim xeyrim sənə nazil olur, sənin pisliyin isə mənə sarı ucalır."[1]

Günlərin birində Harun ər-Rəşid vəzirinə dedi: "Könlümə cəzur[2] əti yemək düşüb." Vəzir və qulluqçular onun üçün cəzur əti axtarmağa başlayırlar. Nəhayət, günlərin birində həmin ətdən qovurub Harunun qarşısına gətirirlər. Harun ondan bir tikə götürüb yeyir. Elə bu zaman Cəfər Bərməki gülümsəyir. Harun ondan soruşur: "Nə üçün dodağın qaçdı? Cəfər dedi: Heç, elə belə. Harun dedi: Elə belə ola bilməz. De görüm, nə üçün gülümsədin? Cəfər dedi: Sənin yediyin bu bir tikə ət bilirsənmi neçəyə başa gəlib? Harun dedi: Yox, bilmirəm. Cəfər dedi: Yüz min dirhəmə. Harun dedi: Bu ola bilməz. Bir dəvənin qiyməti belə bahadır? Cəfər dedi: Sənin könlünə cəzur əti düşdüyü gündən bəri qulluqçular hər gün gedib beşaylıq dəvə axtarıb tapırlar. Sonra onu kəsib ətini sənin üçün bişirirlər və qarşına qoyurlar. Sən isə o yeməyi

[1] Mizanül-hikmə, 13-cü cild, hədis - 20399.
[2] Cəzur - ərəb dilində beş aylıq dəvəyə deyilir.

bəyənmirdin. Nəhayət, bu gün sənin üçün kəsilən dəvənin ətindən bir tikə yedin. Sənin bu bir tikə əti yeməyin üçün indiyə qədər kəsilən dəvələrə yüz min dirhəm pul vermişik."[1]

Odur ki, əlində qüdrət və sərvəti olan insan heç də elə düşünməməlidir ki, dünya onun əlindədir və istədiyini edə bilər. Elə də düşünmək lazım deyil ki, insan həmişə bu nemətlərin içərisində qalacaq və heç bir vaxt onunla haqq-hesab kəsilməyəcəkdir. Bir tikə ət yemək üçün Allahın neçə-neçə nemətini zay etməyin ağır cəzası vardır. Odur ki, insana verilən hər bir nemətin hədd-hüdudu olmalıdır. Bu həddi aşmağın həm dünyada, həm də axirətdə cəzası vardır. Axirətin ilk mərhələsi qəbir olduğundan Allahın nemətini zay edən insan qəbrin şiddətli sıxıntızı altında əzaba düçar olacaqdır. Əgər insan dünyada ona verilən nemətlərin qədrini bilməsə, Allah-təala həmin nemətləri onun əlindən alar və onları bəlaya düçar edər.

Allah-təala "Maidə" surəsinin 66-cı ayəsində belə buyurur:

وَلَوْ أَنَّهُمْ أَقَامُواْ التَّوْرَاةَ وَالإِنجِيلَ وَمَا أُنزِلَ إِلَيهِم مِّن رَّبِّهِمْ لأَكَلُواْ مِن فَوْقِهِمْ وَمِن تَحْتِ أَرْجُلِهِم

-Əgər onlar (əsl) Tövrata və İncilə və onlara nazil olana əməl etsəydilər, şübhəsiz, (həm) başlarının üstündən, (həm də) ayaqlarının altından ruzi yeyərdilər (göyün və yerin bərəkətlərindən faydalanardılar).

"Əraf" surəsinin 96-cı ayəsində isə belə buyurulur:

---

[1] 500 dastan, 1-ci cild, səh.520.

وَلَوْ أَنَّ أَهْلَ الْقُرَى آمَنُواْ وَاتَّقَواْ لَفَتَحْنَا عَلَيْهِم بَرَكَاتٍ مِّنَ السَّمَاء
وَالأَرْضِ وَلَكِن كَذَّبُواْ فَأَخَذْنَاهُم بِمَا كَانُواْ يَكْسِبُونَ

-Əgər şəhər və kəndlərin əhalisi iman gətirsəydilər və təqvalı olsaydılar, şübhəsiz, göydən və yerdən onların üzünə bərəkətlər(in qapılarını) açardıq. Lakin onlar (Bizim ayələrimizi) təkzib etdilər. Belə olduqda onları əldə etdiklərinin cəzası olaraq yaxaladıq.

## Qəbrin əzab və sıxıntısından amanda qalan müstəsna insanlar

Qəbir sıxıntısı bir cəhətdən ümumi olaraq bütün insanlara şamil ediləcək, bir cəhətdən isə qəbrin insanı sıxması onun öz əməllərindən asılıdır. Qəbrin ümumi sıxıntısı insanın öz ailəsindən, qohm-əqrəbasından, qazandığı mal-dövlətindən ayrı düşməsidir. Amma xüsusi mənada götürdükdə qəbrin insanı sıxması onun dünyada etdiyi əməllərin nəticəsindədir ki, yuxarıda bu haqda söhbət olundu. Həmçinin bir sıra əməllər də vardır ki, insan onlara riayət etdikdə Allah-təala həmin şəxsdən qəbir sıxıntısını götürər. Həmin əməlləri qeyd etməzdən öncə bir mətləbə də diqqət yetirməyimiz yaxşı olardı. Bu mətləb ondan ibarətdir ki, ümumiyyətlə, qəbrin sıxıntı və əzabı bəzi insanlardan istisna hal kimi götürülmüşdür.

Ümumiyyətlə, Allah-təala qəbrin bu insanları sıxmasına icazə verməyib. Həmin insanlar Allahın qanununda müstəsna şəxslərdir. Yer, göy və aləmdə elə bir varlıq yoxdur ki, Allahın əmrindən kənara çıxsın. Məsələn, odun xüsusiyyəti yandırmaqdır. Hara dəysə, oranı da yandıracaqdır. Bu, Allahın təkvini qanunudur. Amma bəzi hallarda istisna olaraq Allahın əmri ilə öz

təsirini itirə bilir. Həzrət İbrahimi(ə) tonqalın içinə atdıqda Allahın əmrinə əsasən od onu yandırmadı. Bu hadisə Quranda da açıq-aydın şəkildə bəyan olunmuşdur. Həmçinin qəbir və bərzəx aləminin xüsusiyyətlərindən biri insanı sıxmaqdırsa, deməli hamını sıxmalıdır. Amma bu qanunda da bəzi insanlar müstəsnadırlar. Yəni Allah-təala qəbrə həmin insanları sıxmamağı əmr etmişdir. Belə olduqda qəbir və bərzəxin ixtiyarı yoxdur ki, onları sıxsın. Bu insanlar da iki qismə bölünürlər. Bir qisminin adı çəkilmir, amma titulları göstərilmişdir.

Birinci qisimdən olan insanlar peyğəmbərlər və onların vəsiləridir. Yəni Allah-təala belə qərara gəlib ki, Adəmdən(ə) Xatəmə(s) qədər bütün peyğəmbərlər və onların canişinləri qəbrin sıxıntı və əzabından amanda qalsınlar. İslam Peyğəmbərinin(s) vəsisi Həzrət Əli(ə) və Xanım Fatimeyi Zəhra(s.ə) başda olmaqla, on bir imama qəbrin əzab və sıxıntısı yoxdur. Yəni qəbir və bərzəxin bu insanları sıxmağa ixtiyarları yoxdur.

İkinci qisim insanlar isə iki nəfərdir ki, tarixi mənbələrdə onların adları çəkilmişdir. Onlardan biri Həzrət Əlinin(ə) anası Fatimə bint Əsəd(ə), biri isə Peyğəmbərin(s) qızı Rüqəyyə(s.ə) idi. Allah-təala Həzrət Peyğəmbərin(s) dua və xahişi ilə qəbir sıxıntısını həmin iki nəfərin üstündən götürmüşdür.

Fatimə bint Əsəd dünyasını dəyişdi. Həzrət Əli(ə) ağlaya-ağlaya Həzrət Peyğəmbərin(s) hüzuruna gəldi. Həzrət Peyğəmbər(s) onun ağladığını görüb buyurdu: “Allah gözlərini ağlatmasın. Nə üçün ağlayırsan?” Həzrət Əli(ə) ərz etdi: “Ya Rəsulallah, anam dünyasını dəyişdi.” Həzrət Peyğəmbər(s) bu xəbəri eşitdikdə buyurdu: “O, mənim də anamdır, ya Əli.” Sonra Həzrət Peyğəmbər(s) öz xatirələrindən danışaraq belə buyurdu: “Mən uşaq ikən o,

özünün ac uşaqlarından öncə ilk növbədə məni yedizdirərdi. Onların (bədənlərini, geyimlərini) təmizləməzdən öncə mənim təmizliyimin qayğısına qalardı. Əbu Talibin evində (həyətində) bir xurma ağacı var idi. Sübh çağları hamıdan tez qalxıb yerə tökülmüş xurmaları yığar və mənim üçün ağacdan xurma dərərdi. Əmim uşaqları evdən çıxandan sonra həmin xurmaları mənə yedizdirərdi. O, mənə xüsusi hörmət və qayğı göstərirdi."

Bu xatirələri danışdıqdan sonra Həzrət Peyğəmbər(s) ayağa qalxıb dəfn işləri ilə məşğul olmağa başladı. Göstəriş verdi ki, Fatimə bint Əsədə(ə) qüsl versinlər. Qüsl verdikdən sonra Həzrət Peyğəmbər(s) öz köynəyini verib tapşırdı ki, köynəyi kəfən kimi onun bədəninə büksünlər. Cənazəni dəfn etmək üçün onu yerdən götürdülər. Həzrət Peyğəmbər(s) cənazəni müşayiət edərkən ayaqyalın və çox asta addımlarla yeriyirdi. Qəbiristanlıqda Həzrət(s) yetmiş təkbirlə onun üçün cənazə namazı qıldı. Sonra özü qəbrə düşüb orada uzandı və ayağa qalxaraq öz əlləri ilə cənazəni qəbrə qoydu və kəlmeyi-şəhadəti ona təlqin etdi. Qəbrin üstünə torpaq tökərkən Peyğəmbər(s) buyurdu: "Oğlun! Oğlun! Oğlun! Cəfər yox. Əqil yox. Oğlun Əli!"

Həzrət Peyğəmbərin(s) bu dəfn mərasimində etdiyi hərəkətlər hamını heyrətləndirmişdi. Dəfn mərasimi sona çatdıqdan sonra soruşdular: "Ya Rəsulallah, Fatimə bint Əsədin dəfn mərasimində etdiyin qeyri-adi əməlləri heç bir vaxt görməmişdik. Öz köynəyini verib tapşırdın ki, onun bədəninə büksünlər. Cənazəni müşayiət edərkən ayaqyalın və aram-aram yeriyirdin. Cənazə namazını yetmiş təkbirlə qıldın. Qəbrə baxaraq "Cəfər yox. Əqil yox. Oğlun Əli" - deyə səsləyirdin. Bütün bunların sirri nədir?"

Həzrət Peyğəmbər(s) buyurdu: "Aram-aram addımlamağımın səbəbi bu idi ki, dəfn mərasimində mələklər

iştirak edirdilər və çox böyük bir izdiham var idi. Cənazə namazında ona görə yetmiş təkbir dedim ki, mələklər yetmiş cərgə sıraya düzülmüşdü. Hər bir cərgə üçün bir təkbir deyib namazı qılırdım. Günlərin birində mən qəbir sıxıntısı və qəbir əzabı haqda söhbət edirdim. Fatimə bint Əsəd(ə) də mənə qulaq asırdı. Mən danışdıqca qorxudan onun bədəni əsirdi. Onu dəfn edərkən qəbirdə uzandım ki, Allah-təala mənim hörmətimə xatir qəbrin əzabını ondan götürsün. Köynəyimi ona görə onun cənazəsinə bükdüm ki, qiyamət günü həmin köynəklə məhşərə gəlsin. Axırda "Oğlun! Oğlun! Oğlun Əli" səsləməyimin səbəbi isə budur: Qəbri torpaqla doldurduqda iki mələk onun yanına gəlib soruşdu: Rəbbin kimdir? Dedi: Rəbbim Allahdır. Soruşdular: Peyğəmbərin kimdir? Dedi: Məhəmməd(s) mənim peyğəmbərimdir. Soruşdular imamın kimdir? O dayandı və oğlunun adını çəkməyə utandı. Həmin halda ona dedim: Utanma! Oğlun! Oğlun! Oğlun! Cəfər yox. Əqil yox. Oğlun Əli ibn Əbi Talib! O, cavab verdikdən sonra Allah onun gözlərini aydın etdi."[1]

Həzrət Peyğəmbərin(s) Rüqəyyə(s.ə) adlı qızı Osmanın həyat yoldaşı idi. O, çox əzab-əziyyətlə və zülmlə dünyadan getdi. Həzrət Peyğəmbər(s) Rüqəyyəni(s.ə) dəfn edərkən onun üçün ürəyi ağrıdı. Xanım Fatimeyi Zəhra(s.ə) da qəbrin kənarında əyləşib ağlayırdı. Həzrət Peyğəmbər(s) əllərini göyə qaldırıb ağlaya-ağlaya belə dua etdi: "İlahi, Sən şahidsən ki, Rüqəyyə necə zülmlər çəkdi və necə məzlumcasına dünyadan getdi. Onun dünyada çəkdiyi zülmləri nəzərə al və mənim hörmətimə xatir qəbir əzabını və sıxıntısını ondan götür."

---

[1] Qəbrin həqiqəti, səh. 155.

Allah-təala Həzrət Peyğəmbərin(s) bu duasını qəbul etdi və qızını həmin müstəsna insanlardan qərar verdi ki, qəbir ona əzab verməsin.[1]

## İnsana qəbir sıxıntısından nicat verən amillər

Qəbir sıxıntısı həm ümumi, həm də xüsusi xarakterə malikdir. Qeyd etdik ki, bütün insanlar qəbir sıxıntısını görəcəklər, bununla belə, qəbrin sıxıntısına səbəb olan amillər də vardır. Hər kim yuxarıda qeyd olunan işlərin sahibi olsa, qəbrin sıxıntısı da həmin şəxsdən qaçılmazdır. Həmçinin qəbir sıxıntısından amanda qalan müstəsna insanlar da vardır. Peyğəmbərlər və onların vəsiləri, həmçinin on dörd məsum bu məsələdə istisna təşkil edirlər. Bundan əlavə, Həzrət Əlinin(ə) anası Fatimə bint Əsəd(ə) və Həzrət Peyğəmbərin(s) qızı Rüqəyyə(s.ə) Həzrətin(s) Allahdan etdiyi xahişə görə qəbir sıxıntısından nicat tapmışlar. Bu hallardan başqa bütün insanların hamısı qəbir sıxıntısını görəcəklər. Hətta Səd ibn Məazı dəfn edərkən Həzrət Peyğəmbər(s) qəbrin onu sıxdığını səhabələrə xəbər verdi.

Amma hədis və rəvayətlərə əsasən, bəzi əməllər vardır ki, insan onlara riayət etməklə özünü elə bir məqama çatdıra bilər ki, Allah-təala qəbir sıxıntısını ondan götürər. Burada yaxşı olar ki, həmin amillərlə tanış olaq.

### 1. Allah yolunda şəhid olmaq

[1] Yenə orada, səh. 150.

İnsana qəbir sıxıntısından nicat verən amillərdən biri Allah yolunda şəhid olmaqdır. Hər bir əməlin əsas şərti "Qürbətən iləllah" niyyəti olduğu kimi, Allah yolunda cihad etməyin və şəhid olmağın da şərti həmin niyyətdir. Niyyətsiz əməl batildir. Axirətdə də insanın əməlləri niyyəti əsasında ölçülür. Yəni niyyətsiz əməllərlə insana cənnət verməzlər. Hədislərdə qeyd olunmuşdur ki, hər bir insan din yolunda, Vətən uğrunda, namus üstündə, şərəf və azadlıq yolunda, Quranı müdafiə edərək "Qürbətən iləllah" niyyəti ilə döyüşüb şəhid olsa, Allah-təala qəbir sıxıntısını ondan götürür.

**2. Dörd dəfə Həccə getmək**

İmam Sadiq(ə) buyurmuşdur: "Hər kim dörd dəfə Həccə getsə, qəbir sıxıntısını görməz."[1]

Mümkündür ki, bir insan 25 dəfə Həcc ziyarətinə getmiş olsun. Ancaq burada söhbət xalis "Qürbətən iləllah" niyyətilə qılınmış və Allah dərgahında qəbul olunmuş Həcc ziyarətindən gedir.

Həcc ziyarətinə gedən bir nəfər deyir: "İllərin birində mənə Həcc ziyarəti nəsib oldu. Həccin əməllərini yerinə yetirib Ərəfata getdik. Gecə orada yatdım və yuxuda gördüm ki, əzəmətli və nurani bir insan bir neçə nəfərlə birgə yatmış insanların arasında gəzir. Onun yanındakılar isə əllərində dəftər-qələm tutub nəsə yazırdılar. Həmin şəxs hansı hacını işarə edirdisə, onun adını dəftərə yazırdılar. Yaza-yaza mənə sarı gəlirdilər. Məndən öncə bir neçə nəfərin adını yazdılar və yanımdan keçib getdilər. Mənim adımı isə yazmadılar. Elə bu zaman həyəcanlı

[1] Qəbrin həqiqəti, səh. 152.

halda yuxudan oyandım. Başa düşdüm ki, burada bir sirr var. Mənim adımı yazmadıqları üçün dünya mənə dar oldu.

O zaman mobil telefon olmadığı üçün məktub yazıb ziyarətdən qayıdanlara verdim ki, ailəmə çatdırsınlar. Yazmışdım ki, mən bu il qayıtmayacağam. Beləliklə bir il orada Allaha yalvarıb tövbə edərək gələn ilin Həcc ziyarəti üçün özümü hazırladım. Həcc mərasimi başladı, əməllərini də yerinə yetirdim və yenə həmin gün Ərəfatda yatdım. Yenə də yuxuda keçən il gördüyüm hadisəni gördüm. Həmin şəxslər əllərində dəftər-qələm hacıların adını yaza-yaza gəlib mənim yanımdan keçdilər, amma mənim adımı yazmadılar. Yuxudan ayıldım və öz-özümə təəccübləndim.

Beləcə, üç il orada qalıb ibadətlə və Allaha yalvarmaqla məşğul oldum. Üçüncü il Ərəfatda yatmışdım ki, təkrar olaraq həmin yuxunu gördüm. Yenə də mənim adımı siyahıya almadılar. Bu dəfə yalvarıb soruşdum ki, axı nə üçün mənim adımı yazmırsınız? Mənə dedilər ki, sənin boynunda haqqun-nas (camaatın haqqı) qalıb. Ona görə də adın hacıların siyahısına düşmür. Yuxudan ayılıb fikirləşdim ki, görəsən, kimin haqqı boynumda qalıb. Sonra yadıma düşdü ki, bir divar üstə qonşumla dava edirdik. Qonşum həmin hissənin ona məxsus olduğunu deyirdi, mən isə bizə məxsus olduğunu iddia edirdim. Sonra məktub yazıb uşaqlarımı başa saldım ki, həmin qonşu ilə halallaşsınlar. Onun haqqını ödədikdən sonra adımı hacıların siyahısına yazdırıb evimə qayıtdım.

Odur ki, hər kimin əməl dəftərinə Allahın qoyduğu ölçü əsasında dörd Həcc ziyarəti yazılsa, Allah-təala qəbir sıxıntısını həmin insandan götürər.

### 3. Şəban ayında on gün oruc tutmaq

Şəban ayı elə gözəl və əzəmətli bir aydır ki, hər bir günündə oruc tutmağın xüsusi fəzilət və üstünlükləri vardır. Şəban ayının fəzilət və üstünlükləri barədə çoxlu hədislər nəql olunmuşdur. O cümlədən Həzrət Peyğəmbər(s) buyurur: "Hər kim şəban ayında on gün oruc tutsa, Allah-təala həmin şəxsin qəbrini yetmiş zira genişləndirər."[1] (Belə olduqda həmin insan qəbir sıxıntısından nicat tapar.)

**4. "Qələm" surəsini oxumaq**

Hədislərdə rəvayət olunmuşdur ki, hər kim vacib və ya müstəhəb namazlarında "Qələm" surəsini (davamlı şəkildə) oxusa, Allah-təala həmin insana qəbir sıxıntısından nicat verər.[2]

**5. "La ilahə illəllah əlməlikul həqqul-mubin" zikrini demək**

Bu zikrin çox xüsusiyyətləri və fəzilətləri vardır. Hədislərdə qeyd olunur ki, hər kim davamlı şəkildə gündə yüz dəfə bu zikri desə, Allah-təala qəbrin vəhşət və əzabını ondan götürər.[3]

**6. "İxlas" (Qul huvallah) surəsini oxumaq**

Hədislərdə qeyd olunur ki, mömin xəstələnərkən "İxlas" surəsini oxuya-oxuya həmin xəstəlikdən dünyasını dəyişsə, Allah-təala qəbir sıxıntısını ondan götürər.[4] Ola

---

[1] Səvabul-əmal, səh. 144.
[2] Qəbrin əzabları, səh. 7.
[3] Qəbrin həqiqəti, səh. 320.
[4] Qəbrin əzabları, səh. 156.

bilər ki, həmin şəxs sözügedən xəstəliklə dünyadan getməsin və sağalsın. Sağaldıqdan sonra başqa bir xəstəliklə (həmin surəni oxumadan) dünyadan getsə, bu onun halına şamil olmayacaq. Yəni yalnız xəstə olan halda oxuyarsa və həmin xəstəliklə də dünyadan gedərsə, qəbir sıxıntısını görməz.

### 7. Cümə axşamının zöhründən cümə gününün zöhrünədək dünyasını dəyişənlər

Hədislərdə deyilir ki, hər kim dördüncü günün zöhründən (günorta azanından) beşinci günün zöhrünə qədər olan vaxtda dünyasını dəyişsə, Allah-təala qəbir sıxıntısını ondan uzaqlaşdırar.[1] Əlbəttə, bu elə bir fəzilətdir ki, insanın özündən asılı olan məsələ deyil. Bu məsələ Allahın kərəmindən və insanın əməlindən asılıdır. Allah-təalanın insanın hansı əməlinə görə ona bu şərafəti nəsib etməsi bizim üçün gizli olaraq qalır.

### 8. İmam Hüseynin(ə) ziyarəti

Hədislərə əsasən İmam Hüseynin(ə) qəbrini ziyarət etməyin xüsusiyyət və fəzilətlərindən biri budur ki, insandan qəbrin əzab və sıxıntısını götürər. Yəni kim İmam Hüseynin(ə) qəbrini xalis niyyətlə, eşqlə, ədəb və mərifətlə ziyarət etsə, Allah-təala həmin ziyarətin şərafətinə görə o insandan qəbir sıxıntısını götürər.[2]

### 9. Ölənə qədər vilayət xəttində qalmaq

---

[1] Biharül-ənvar, 6-cı cild, səh. 221 və 242.
[2] Qəbrin əzabları, səh. 176.

İnsandan qəbir sıxıntısını götürən amillərdən biri budur ki, hər kim ölənə qədər mərifətlə Həzrət Əlinin(ə) imamət və vilayət xəttində qalsa, Allah-təala həmin insana qəbir sıxıntısından nicat verər.[1]

**10. "Zuxruf" surəsini davamlı şəkildə oxumaq**

Hədislərdə rəvayət olunmuşdur ki, hər kim davamlı şəkildə "Zuxruf" surəsini oxusa, Allah-təala həmin şəxsdən qəbr sıxıntısını götürər.[2]

[1] Yenə orada, səh. 173.
[2] Yenə orada, səh. 82.

## Qəbir əzabı
## (Qəbir əzabına səbəb olan amillər)

Ötən bəhslərdə qeyd olundu ki, qəbrin iki əzabı vardır. Onlardan biri qəbrin sıxıntısı, ikincisi isə insana qəbirdə verilən əzabdır. Bu da insanın imanından asılıdır. Yuxarıda qəbrin sıxıntısı barədə söhbət etdik və qəbir sıxıntısına səbəb olan, həmçinin qəbrin sıxıntısından insana nicat verən amillərlə tanış olduq. Bu bəhsimizdə isə qəbrin əzabı haqda danışacağıq. Qeyd olundu ki, qəbir sıxıntısının özü insan üçün bir əzabdır. Ola bilsin ki, insan bəzi əməllərinin nəticəsində qəbirdə sıxıntı çəkməkdən əlavə, qəbirdə həm də başqa əzablara düçar olsun. Burada yaxşı olar ki, qəbirdə insanın əzabına səbəb olan və insanı bu əzabdan qurtaran amillərlə də tanış olaq. İlk növbədə qəbirdə insana əzab verilməsinə və yaxud əzabının çoxalmasına səbəb olan amilləri diqqətinizə çatdırıram.

### 1-2. Dünya məhəbbəti və tağuta itaət

İnsanın qəbirdə əzaba düçar olmasına səbəb olan amillərdən ikincisinin adı bir rəvayətdə çəkilmişdir. Onlardan biri dünyaya məhəbbət, ikincisi isə şeytana itaət etməkdir. Doğrudur, hədisdə bu iki məsələ barədə açıqlama verilmişdir, amma yaxşı olar ki, buna da şərh verək. Dünyaya məhəbbət odur ki, insan dünyaya ürəkdən bağlı olsun. İnsan bu dünyada yaşayır, çalışır, özünə ev tikir, pul qazanır, ailəsinə baxır və yaşaması üçün başqa işlər görür. Yaşayışı təmin etmək, ailəni dolandırmaq üçün çalışıb vəsait əldə etmək insana vacibdir.

Burada söhbət ondan getmir ki, insan yaşamaq üçün dünya malından istifadə etməməlidir. Söhbətin əsası budur ki, insan dünyaya bağlı olmasın. Məsələn, elə insan var ki, dünyada hər bir şeyi əldə etmişdir. Bağı, ev-eşiyi, müxtəlif

minik vasitələri, yaxşıca pulu olmasına baxmayaraq, bir gün lazım olsa onların hamısından keçməyi bacarar. Amma adam da var ki, dünya malları içərisində bir neçə əşyadan başqa heç nəyi yoxdur. Evində bircə köhnə palaz, bir neçə qab-qacaq və bir neçə xırda əşyaları olmasına baxmayaraq, onlardan heç cür keçə bilmir. İnsan var ki, dünyaya möhkəm bağlıdır. İnsan da var ki, zərrə qədər dünyaya bağlılığı yoxdur.

Doğrudur, hamı danışarkən deyir ki, dünyanın malı elə dünyada qalacaq və mənim üçün mal-dövlətin heç bir rolu yoxdur. Lakin kiçik bir sınaq və imtahanla üzləşdikdə kimin dünyaya nə qədər bağlı olduğu bəlli olur. Bütün bunların əlaməti vardır. İnsanın öz övladını, ailəsini, mal-dövlətini sevməsi əlbəttə ki, çox yaxşıdır. Əgər bir zaman insan iman məsələsi ilə üz-üzə gəldikdə və o, seçim qarşısında qalanda onda bilinər ki, dünyaya bağlıdır, ya yox. Əgər insan bir gün ya Allahın rizasını, ya da övladını seçməli olduqda, o zaman dünyaya bağlılığı aşkar olar. İmam Hüseyn(ə) bu məsələni Kərbəla hadisəsi zamanı açıq-aydın şəkildə başa saldı. Əgər insan seçim qarşısında qalsa, Allahın rizası həm övladdan, həm mal-dövlətdən, həm ailədən və həm də hər bir şeydən üstün olmalıdır. Həzrət(ə) hətta altıaylıq körpəsini belə Allahın rizasına qurban verdi. Quran ayələrinə əsasən, əgər dünya malı, övlad, ailə və s. insanın imanına problem yaradırsa, deməli, onun dünyaya məhəbbəti və bağlılığı vardır. Yox, əgər bütün bunlar insanın imanına təsir etməyəcəksə, deməli, dünyaya bağlılığı yoxdur. Məsələn, elə oğlanlar vardır ki, mal-dövləti başından aşmasına baxmayaraq, lazım gəlsə, Vətən yolunda hər şeyindən keçib “Qürbətən iləllah” niyyəti ilə döyüşər və canını qurban verər. İnsan da var ki, qəpik-quruşundan belə keçə bilmir. Odur ki,

dünyaya bağlı olmaq insanın qəbirdə əzab olunmasına gətirib çıxara bilər.

Tağuta itaət etməyə gəldikdə isə, "tağut" ərəb dilində "tüğyan" sözündən götürülmüşdür. Mənası isə "həddi aşmaq" deməkdir. Məsələn, bir kasaya həddindən artıq su töküldükdə, su kasadan aşıb daşır. Bu suyun aşıb kasadan daşmasına ərəb dilində "tüğyan" deyilir. "Tağut" o kəslərə deyilir ki, onlar hədlərini aşmışlar. "Tağut" - hakimiyyətdə olan, zülm və cinayətdə həddini aşmış zalım insanlara deyilir. Belə kəslərə itaət etməyin cəzalarından biri də insanın qəbirdə əzaba düçar olmasıdır.

İmam Sadiq(ə) buyurur: "Günlərin birində Həzrət İsa(ə) səhabələri ilə səyahətə çıxmışdı. Bir kəndin kənarından keçərkən orada dayandılar. Həmin kəndin əhalisi kütləvi şəkildə qırılmışdı. Hətta o məntəqənin heyvanlarını belə məhv etmişdilər. İsa(ə) ora baxıb buyurdu: "Bu kəndin əhalisinin kütləvi şəkildə məhv olması onlara əzab (bəla) nazil olduğundan xəbər verir." Çünki əgər bunlar tək-tək ölsəydilər, biri öldükdən sonra o biri onu dəfn edərdi. Səhabələr dedilər: "Ya İsa(ə), səndən xahiş edirik ki, bunun sirrini bizə buyurasan." Həzrət İsa(ə) Allahın izni ilə kiçik bir təpənin üstünə çıxıb ölüləri səslədi. Ölülərin içindən cavan və gözəl bir oğlan ayağa qalxıb dedi: "Bəli, ey Allahın Peyğəmbəri." İsa(ə) buyurdu: "Sizin kütləvi şəkildə qırılmağınızın səbəbi nə idi?" Həmin şəxs dedi: "Ey Allahın Peyğəmbəri, bir neçə əmələ görə Allah bizi bu əzaba mübtəla etdi. Birincisi bu idi ki, biz dünyaya ürək bağlamışdıq. Dünya bizi elə qəflətə saldı ki, Allah yadımızdan çıxdı. İkincisi isə biz şeytanlara (tağut və günahkar insanlara) pərəstiş edirdik. Onlar bizə hər nə deyirdilərsə, kor-koranə onlara itaət edirdik."

Həzrət İsa(ə) soruşdu: “Dünyaya olan əlaqə və məhəbbətiniz nə qədər idi?”

Dedi: “Uşağın anasına olan əlaqə və məhəbbəti qədər. Uşaq anasını sevdiyi kimi, biz də dünyanı elə sevirdik. Anası uşağa qucaq açdıqda uşaq sevindiyi kimi, dünya da bizə qucaq açarkən (əlimizə mal-dövlət gəldikdə) eləcə fərəhlənib sevinirdik. Dünya bizdən üz döndərəndə və ondan bəhrələnə bilmədikdə isə qəmgin olurduq.”

Həzrət İsa(ə) soruşdu: “Bəs tağuta necə pərəstiş edirdiniz?”

Dedi: “Günahkarlara itaət edər və onların dedikləri ilə oturub-durardıq.”

Həzrət İsa(ə) soruşdu: “İşlərinizin aqibəti necə sona yetdi?”

Dedi: “Gecələrin birində eyş-işrətlə məşğul olub kef çəkdik. Gecə yatarkən hamımız bəlaya düçar olduq. Ayılıb gördük ki, Allah-təala bizi Həviyənin içində qərar verib.”

Həzrət İsa(ə) soruşdu: “Həviyə nədir?”

Dedi: “Siccin.”

Həzrət İsa(ə) soruşdu: “Siccin nədir?”

Dedi: “Bərzəxdə (qiyamətə kimi) alovdan ibarət olan dağlar.”

Həzrət İsa(ə) soruşdu: “Mən burada həlak olanların hamısını səslədim. Bəs necə oldu ki, mənim səsimə sən cavab verdin?”

Dedi: “Ya İsa, mən onların içində idim, amma onlar kimi deyildim. Buna görə də mənə icazə verildi ki, sənə cavab verim. Onlar Allahın əzabına düçar olduqları üçün cavab verməyə iznləri yoxdur.”

Həzrət İsa(ə) soruşdu: “Bəs orada sənin vəziyyətin necədir?”

Dedi: “Mən orada cəhənnəmin üstündə bir tükdən asılı qalmışam. Bilmirəm, tük qırılacaq, cəhənnəmə düşəcəyəm, yaxıd Allahın mərhəməti ilə oradan nicat tapacağam. Hələ taleyimdən xəbərim yoxdur.”

Bu söhbətdən sonra Həzrət İsa(ə) üzünü səhabələrinə tutub buyurdu:

يَا أَوْلِيَاءَ اللَّهِ أَكْلُ الْخُبْزِ الْيَابِسِ بِالْمِلْحِ الْجَرِيشِ وَ النَّوْمُ عَلَى الْمَزَابِلِ خَيْرٌ كَثِيرٌ مَعَ عَافِيَةِ الدُّنْيَا وَ الْآخِرَةِ

-Ey Allahın dostları, dünya və axirətin əmin-amanlığı ilə yaşayaraq bir ömür quru çörəklə iri duz yeyib, zibillikdə yatmaq (bu bəla nazil olan kəslər kimi yaşayıb, aqibətlərinin pis olmasından) daha xeyirlidir (daha yaxşıdır).”[1]

Odur ki, əgər insan dünyaya bağlı və tağutpərəst olsa, bu insanın cəzalarından biri də qəbirin əzabı olacaq. Qiyamətə qədər qəbirdə əzab içində yaşayacaq.

### 3. Söz gəzdirmək və xəbərçilik etmək

İnsanın qəbirdə əzab olunmasına səbəb olan amillərdən biri də söz gəzdirmək, xəbərçilik etmək və ara vurmaqdır. Bu barədə çox hədislər qeyd olunmuşdur ki, mövzumuza uyğun olaraq bir neçəsinə diqqət yetirək.

قَالَ رَسُولُ اللهِ(ص): عَذَابُ الْقَبْرِ ثَلاثَةُ أَثْلاثٍ: ثُلُثٌ لِلْبَوْلِ وَثُلُثٌ لِلنَّمِيمَةِ و ثُلُثٌ لِلْغِيبَةِ

---

[1] Qəbrin həqiqəti, səh. 173; Üsuli-Kafi, 4-cü cild, səh. 6.

-İbn Abbas deyir: “Həzrət Peyğəmbər(s) buyurdu: Qəbrin əzabı üç hissədən ibarətdir… Onun bir hissəsi söz gəzdirənin payına düşür.”[1]

قَالَ عَلِيٌّ(ع): إِيّاكُم و النَّمائمَ؛ فإنّها تُورِثُ الضَّغائنَ

-Həzrət Əli(ə) buyurur: “Xəbərçilikdən çəkin. Çünki o, kin-küdurət toxumu səpər və (insanı) Allahdan və camaatdan uzaqlaşdırar.”[2]

قالَ رسولُ اللّهِ صلى الله عليه و آله ... لِأَصحَابِهِ: أَلا أُخبِرُكُم بشِرارِكُم؟ قالوا: بلى يا رسولَ اللّهِ. قالَ: المشّاؤونَ بالنَّميمَةِ، المفَرِّقونَ بَينَ الأَحِبَّةِ...

-Həzrət Peyğəmbər(s) səhabələrə buyurdu: “Sizə ən şər və pisinizin kim olmasını xəbər verimmi?” Dedilər: “Bəli, ey Allahın Peyğəmbəri(s)!” Buyurdu: “Xəbərçilik edənlər, dostları bir-birindən ayıranlar, pak və günahsız şəxslər üçün eyb uyduranlar.”[3]

Allah-təala “Qələm” surəsinin 10-11-ci ayələrində doqquz qrup insanın xüsusiyyətlərini sayır və Peyğəmbərə(s) göstəriş verir ki, bu kəslərin sözünə qulaq asma və onlara itaət etmə. Onlardan biri də söz gəzdirənlərdir.

Əli ibn Yəqtin Harun ər-Rəşidin vəzirlərindən biri idi. O, Harunun ətrafında olan insanların içərisində yeganə Cəfəri məzhəbli bir insan idi. Amma bunu sarayda heç

---

[1] Qəbrin həqiqəti, səh. 188.
[2] Mizanül-hikmə, 13-cü cild, hədis - 20698.
[3] Yenə orada, hədis - 20701.

kəsə demirdi. Çünki Harunun bundan xəbəri olsaydı, o, problemlərlə üzləşəcəkdi. Əli ibn Yəqtin Həzrət Musa Kazımı(ə) sevir, onun imamətini qəbul edir və əlinə fürsət düşən kimi Həzrətin(ə) ziyarətinə gedirdi. Amma görüşmək imkanı olmadıqda nəyisə soruşmaq, xüms vermək kimi məsələlərlə bağlı etibar etdiyi yaxın adamlarını İmamın(ə) yanına göndərərdi.[1]

Günlərin birində Harun ər-Rəşid üçün hədiyyə olaraq gözəl və qiymətli bir libas gətirirlər. Bu libasların arasında xəz və qızılla toxunmuş bir rida da olur. Bu libas padşahların geyiminə oxşayırmış. Harun həmin libası Əli ibn Yəqtinə bağışlayır. Əli ibn Yəqtin həmin libası evə aparır və bir neçə gündən sonra üzərinə başqa hədiyyələr də əlavə edərək öz işçilərindən biri ilə İmam Kazıma(ə) göndərir. İmam(ə) hədiyyələri ondan qəbul edib həmin ridanı başqa bir adamla Əli ibn Yəqtinə qaytarır və ona göndərdiyi məktubda yazır: "Ridanı evində saxla, bir gün sənin lazımın olacaq." Əli ibn Yəqtin İmamın(ə) buyruğu ilə ridanı evində saxlayır.

Vaxt ötür, bir gün Əli ibn Yəqtin libası İmama(ə) aparan həmin xidmətçiyə qəzəblənir və onu işdən kənarlaşdırır. Həmin xidmətçi birbaşa Harunun yanına gedib deyir: "Əli ibn Yəqtin Musa ibn Cəfərin (İmam Kazımın) imamətinə inanır, hər il malının xümsünü ona göndərir. Hətta sizin bağışladığınız ridanı da İmama(ə) göndərmişdir." Harun qəzəblənib vəzirini yanına çağırır və ridanın harada olduğunu soruşur. Əli ibn Yəqtin deyir: "Rida evdədir, onu ətirli bir parçaya bükübsandıqda saxlamışam. Hər sübh və axşam açıb baxıram, təbərrük

[1] Min bir əxlaqi hekayətlər, səh. 100.

kimi öpürəm.” Harun göstəriş verir ki, rida gətirilsin. Vəzir öz xidmətçisinə deyir: ”Filan otaqda, filan sandıqda parçaya bükülü rida var. Tez get, onu gətir.” Xidmətçi gedib ridanı gətirir. Harun ridanı ətirlənmiş parçaya bükülü görüb sakitləşir və deyir: “Onu geri qaytar, daha sənin haqqında heç kəsin pis sözünü qəbul etmərəm.” Sonra Harun öz vəzirinə başqa hədiyyələr də verir. Xəbərçilik edən xidmətçiyə min çubuq vurulması əmr edilir. Amma beş yüz çubuq vurulmamış xidmətçi dünyasını dəyişir.”

Odur ki, söz aparıb-gətirən, ara vuran insan nə bu dünyada, nə də axirətdə xoşbəxt olmaz. Bu pis xüsusiyyət insanın qəbirdə əzab olunmasına da səbəb olar.

**4. Qeybət**

İnsanın qəbirdə əzab olunmasına səbəb olan amillərdən dördüncüsü qeybət etməkdir. Möminin arxasınca danışmağa və o olmayan yerdə onun eybi barəsində danışılan hər bir sözə qeybət deyilir. Fərqi yoxdur ki, insan onun eybini özü görmüş olsun, yaxud görməsin. Məsələn, bir mömin çox danışan insan kimi tanınır. Çox danışmaq da insan üçün eyb və nöqsandır. Özü orada olmayan bir yerdə onun çox danışan adam olması barədə söhbət olunursa və onun bundan xəbəri olsa, habelə bundan acığı gəlsə, buna qeybət deyilir. Yox, əgər bir insanın eybini danışdıqda, bu onun acığına gəlmirsə, qeybət sayılmaz. O deyir ki, mənim barəmdə danışılan sözlərdən acığım gəlmir. Düzdür, onun barəsində danışmaq qeybət sayılmır, amma (onun eyblərindən) danışmaq istər-istəməz insana öz təsirini göstərir. Qiyamət günündə də buna görə insana əzab

verilməyəcək, amma əxlaq nöqteyi-nəzərindən insanın ruhuna təsir göstərəcəkdir.

Mərhum Ayətullah Mirzəcavad Məliki Təbrizi böyük arif, alim və görkəmli şəxsiyyətlərdən biri olmuşdur. Onun barəsində deyirlər ki, günlərin birində bir məclisdə əyləşmişdi. Onun yanında bir möminin adını çəkib onun barəsində bir neçə kəlmə söz dedilər. Hiss olunurdu ki, əgər onun barəsində artıq danışılsa, söhbət qeybətə çevriləcək. Elə bu anda Mirzəcavad ağa buyurdu: “Bəsdir, danışmayın. Bu bir neçə kəlmə ilə qırx gün məni geri saldınız.”

Odur ki, qeybət çox pis və böyük günahlardan biridir. Qeybət edən insan qəbirdə şiddətli dərəcədə əzab olunacaq.

قَالَ رَسُولُ اللهِ(ص): عَذَابَ الْقَبْرِ ثَلاثَةُ أَثْلاثٍ: ثُلُثٌ لِلْبَوْلِ وَثُلُثٌ لِلنَّمِيمَةِ و ثُلُثٌ لِلْغِيبَةِ

İbn Abbas deyir: “Həzrət Peyğəmbər(s) buyurdu: Qəbrin əzabı üç hissədən ibarətdir… Onun bir hissəsi qeybət edənin payına düşür.”[1]

Qeybət o qədər böyük bir günahdır ki, İslam dini onu zinadan daha böyük günah sayır. Sadəcə çox insanlar qeybətin nə qədər çirkin əməl və böyük bir günah olduğunu unutmuşlar. Bəzi insanlar zina əməlinə çox pis baxmalarına baxmayaraq, qeybətin ondan daha pis olduğunu unudur və rahatlıqla onun-bunun qeybətini etməklə məşğuldurlar. Buradan bilinir ki, belə insanlar qeybətin nə qədər çirkin bir iş olduğuna inanmayıblar. Hədislərdə deyilir ki, qeybət etmək insanın öz anası ilə Kəbə evində zina etməsindən daha pisdir.

---

[1] Qəbrin həqiqəti, səh. 188.

Qurani-Kərimdə də qeybət haqqında söz açılmış və bu əməlin çox pis bir günah olduğu bəyan edilmişdir. Allah-təala "Hucurat" surəsinin 12-ci ayəsində möminlərə xitab edərək belə buyurur:

وَلَا يَغْتَب بَّعْضُكُم بَعْضًا أَيُحِبُّ أَحَدُكُمْ أَن يَأْكُلَ لَحْمَ أَخِيهِ مَيْتًا فَكَرِهْتُمُوهُ وَاتَّقُوا اللَّهَ...

-Həmçinin başqalarının eyb və sirlərini arayıb-axtarmayın və bir-birinizin qeybətini etməyin. Məgər sizin biriniz öz ölmüş qardaşının ətini yemək istəyər? (Şübhəsiz,) ondan iyrənərsiniz. Allahdan qorxun…

İmam Sadiq(ə) buyurur: "Bir kişi İmam Zeynalabidinə(ə) ərz etdi: "Filankəs sizin haqqınızda pis sözlər danışır." Əli ibn Hüseyn(ə) ona buyurdu: "Sən həmin kişi ilə yoldaşlığın haqqını gözləməmisən. Çünki onun sözünü bizə çatdırmısan. Bizim haqqımızı da gözləməmisən. Çünki qardaşımın mənim bilmədiyim sözlərini mənə çatdırdın! Hər ikimiz öləcəyik və Allah bizim aramızda mühakimə edəcək və hərənin öz haqqını verəcək. Nə üçün qeybət etdin? Sonra buyurdu: Qeybət etməkdən çəkin. Çünki o, cəhənnəm itlərinin yalıdır…"[1]

Həyatda dəfələrlə şahidi olmuşuq ki, bəzi insanların kəraməti çox olduğu üçün sinəsində sir və söz saxlaya bilir. Amma bəzi insanların tutumu və ruhi zəifliyi olduğu üçün birində kiçik bir xəta gördükdə və yaxud eşitdikdə onu hər yerdə danışaraq aləmə car çəkir. Möminin eybini faş etmək və camaat arasında danışmaq haramdır. Məsumlar istisna olmaqla, hər bir insanın eyb və nöqsanı vardır. Hərənin bir çatışmayan cəhəti ola bilər. Buna görə

[1] Min bir əxlaqi hekayətlər, səh. 106.

də insan hər gördüyünü və eşitdiyini dilinə gətirməməlidir. Əgər birinin eybini görübsə, gərək görməmiş və eşitməmiş olsun. Onu içində elə saxlasın ki, hətta öz yadından belə çıxarsın. Qiyamət günü qeybət edən insanın yaxşı əməllərini alıb qeybəti olunan insana verəcəklər. Çünki qeybət etməklə onun sirrini faş etmiş, eybini danışmış və haqqını pozmuşdur. Onun haqqını ödəmək üçün orada yalnız yaxşı əməlləri əlindən verməli olacaq.

Böyük alimlərdən birinə dedilər ki, filankəs sənin qeybətini edir. Həmin alim səbir və təmkinlə ayağa qalxıb evdə olan xurma və şirniyyatlardan bir xonça düzəltdi. Sonra onu həmin adama verib buyurdu: "Bu xonçanı mənim qeybətimi edənə hədiyyə kimi apar və mənim adımdan ona de: Eşitmişəm ki, mənim dalımca danışmısan. Sən mənim qeybətimi qılmaqla mənə bəzi yaxşı əməllərini hədiyyə etmisən. Bunun qarşılığında mənim də sənə etdiyim hədiyyə budur. Az olduğuna görə məni üzürlü hesab elə."

### 5. Murdarçılıqlardan çəkinməmək

İnsanın qəbirdə əzab olunmasına səbəb olan amillərdən biri murdarçılıqlarından çəkinməməkdir. Yəni təmizliyə riayət etmədən yaşamaq, xüsusilə kiçik ehtiyacı dəf edərkən sidiyi paltara və ətrafa sıçratmaq qəbir əzabına səbəb olar.

قَالَ رَسُولُ اللهِ(ص): إِنَّ جُلَّ عَذابِ القَبرِ فِي البُولِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Qəbir əzabının çoxu idrardandır."[1]

---

[1] Qəbrin həqiqəti, səh. 188.

**6. Kişinin arvadından uzaqlaşması**

Qəbir əzabına səbəb olan amillərdən biri kişinin öz arvadından uzaq və ayrı yaşamasıdır. Yəni arvadını evdə qoyub işləmək üçün başqa bir yerə gedən kişi arada bir gəlib arvadına baş çəkməsinə baxmayaraq, uzaqda yaşaması onun qəbirdə əzab olunmasına gətirib çıxaracaqdır.

قَالَ عَلِيٌّ(ع): عَذَابُ الْقَبْرِ يَكُونُ مِنَ النَّمِيمَةِ وَ الْبَوْلِ وَ عَزَبِ الرَّجُلِ عَنْ أَهْلِهِ

-Həzrət Əli(ə) buyurur: "Qəbir əzabının səbəbi üç şeydir: 1) Xəbərçilik; 2) İdrar və nəcasətə əhəmiyyətsiz yanaşmaq; 3) Kişinin ailəsindən uzaqlaşması."[1]

Əgər insan cəmiyyətin təmiz qalmasını, haramların, günahların, zinaların çoxalmamasını istəyirsə, ilk növbədə ailə üzvlərinin hüquqlarına riayət etməlidir. Ailədə ər-arvad bir-biri ilə məhəbbət və mərhəmətlə yaşamalı, bir-birinin hüququna riayət etməlidir. Ər və arvad bir-birinə məhəbbət bəslədikcə həyatları da bir o qədər şirin olar.

قَالَ رَسُولُ اللهِ(ص): إِذَا نَظَرَ الْعَبْدُ إِلَى وَجْهِ زَوْجِهِ، وَنَظَرَتْ إِلَيْهِ نَظَرَ اللَّهُ إِلَيْهِمَا نَظَرَ رَحْمَةٍ، فَإِذَا أَخَذَ بِكَفِّهَا، وَأَخَذَتْ بِكَفِّهِ تَسَاقَطَتْ ذُنُوبُهُمَا مِنْ خِلالِ أَصَابِعِهِمَا

-Həzrət Peyğəmbər(s) buyurur: "Kişi öz arvadının və arvadı da onun üzünə mehribanlıqla baxarkən Allah-təala onların hər ikisinə mərhəmətlə nəzər salar. Kişi öz arvadının, arvadı da onun əlini mehribanlıqla tutarkən

[1] Biharül-ənvar, 6-cı cild, səh. 222.

onların hər ikisinin günahları barmaqlarının arasından tökülüb təmizlənər."[1]

Hədislərdə qeyd olunur ki, kişinin arvadı üçün, arvadın da kişisi üçün bəzənib- düzənməsi ibadətdir. İbadət təkcə namaz qılmaqdan və oruc tutmaqdan ibarət deyil. Düzdür, namaz ibadətlərin başında dayanır. Bu, vacib bir ibadətdir ki, hər bir müsəlman namaz qılmalıdır. Amma ibadətlərin hamısı təkcə namazdan ibarət deyil. Ailədə mehribanlıq yaratmaq, qadının kişinin pis rəftarına, həmçinin kişinin arvadının pis rəftarına dözüb səbir etməsi, bir-biri üçün bəzənmələri də ibadətdir.

قَالَ رَسُولُ اللهِ(ص): يَجِبُ عَلَى الرَّجُلِ لِإِمرَأَتِهِ مَا يَجِبُ لَهُ عَلَيهَا أَنَ يَتَزَيَّنَ لَهَا كَمَا تَتَزَيَّنُ لَهُ فِي غَيْرِ مَأْثَمٍ

-Həzrət Peyğəmbər(s) buyurur: "Kişiyə vacibdir ki, arvad özünü onun üçün bəzədiyi kimi, o da arvadı üçün bəzənsin."[2]

Bundan əlavə, gərək yataq məsələsində də bir-birinin hüququna riayət etsinlər. Qadının ərindən imtina etməsi böyük günahdır. Belə ki, kişi onu (cinsi əlaqəyə girmək üçün) çağırarkən qadın imtina etdikdə mələklərin lənətinə düçar olar.

قَالَ رَسُولُ اللهِ(ص): إِذا دَعَا الرَّجُلُ اِمرَأَتَهُ إِلى فِرَاشِهِ فَأَبتْ غَضبَانَ عَلَيهَا لَعَنتهَا الْمَلائِكَةُ حَتّى تُصبِح

---

[1] Təhkimi-xanevadə, səh. 193.
[2] Yenə orada, səh. 314.

-Həzrət Peyğəmbər(s) buyurur: "Kişi öz arvadını (cinsi əlaqə üçün) yatağa çağırdıqda arvad imtina edərsə, kişi də qəzəbli halda yatarsa, mələklər səhərə qədər o qadına lənət oxuyarlar."[1]

Bu məsələlər çox incə və önəmli məsələlərdir. Cəmiyyətdə günahların, murdarçılıqların, pozğun işlərin təməli ailələrdən başlanır. Əgər ailədə ər-arvad münasibətləri düzgün qaydada olmasa və hüquqlar pozulsa, cəmiyyət də korlanacaq.

Abdullah ibn Ömər deyir: "Günlərin birində Həzrət Peyğəmbər(s) buyurdu:

لَعَنَ اللهُ اَلْمُسَوِّفَات

-Allah işi gecikdirən və təxirə salan qadınlara lənət etsin. Soruşdular: Ya Rəsulallah, işi gecikdirən və təxirə salan qadınlar kimdir? Peyğəmbər(s) buyurdu:

اَلَّتِي يَدعُوهَا زَوجُهَا اِلَى فِراشِهِ فَتَقُولُ: "سَوفَ" حَتَّى غَلَبَهُ عَينَاه

-O qadındır ki, əri onu yatağına çağırdıqda "bir azdan gəlirəm" – deyir, amma getmir. Beləcə, əri onu gözləyib-gözləyib yuxuya gedir."[2]

Belə arvada Allah lənət edir. Çünki məhəbbətin əsaslarından olan belə bir məsələyə riayət etməməklə aradakı məhəbbət məhv edilir. Bu məsələ təkcə qadına aid deyil, kişiyə də aiddir. Qadın evdə öz ərini gözləyir, amma kişi gəlib çıxmır. Qadın ərinin məhəbbətini və yaxınlığını gözləyir, amma kişi evə gəlib çıxmır.

---

[1] Təhkimi-xanevadə, səh. 320.
[2] Yenə orada, səh. 527.

Əbu Musa Əşəri deyir: “Günlərin birində Osman ibn Məzunun həyat yoldaşı Həzrət Peyğəmbərin(s) həyat yoldaşları ilə söhbət edirdi. Xanımlardan biri ona dedi: Sənin həyat yoldaşın ərəblərin içərisində ən varlı insanlardan biridir. Osmanın həyat yoldaşı dedi: Nə olsun? Onun mənə nə faydası var? Nə onun malından, nə də cavanlığından bir fayda görmədim. Gündüzlər oruc tutmaqla, gecələr də ibadət etməklə məşğuldur. Mənə heç diqqət yetirmir.

Bu söhbətdən sonra xanımlar Osmanın həyat yoldaşının giley-güzarından Həzrət Peyğəmbərə(s) danışdılar. Həzrət Peyğəmbər(s) bu sözü eşidən kimi birbaşa Osmanın evinə yollandı. Əyləşdikdən sonra buyurdu: “Ey Osman, mən sənin üçün nümunə və meyar deyiləmmi?” Osman təəccüblə ərz etdi: “Ya Rəsulallah, sən həmişə mənim üçün nümunə olmusan. Ata-anam sənə qurban, nə baş verib?” Həzrət Peyğəmbər(s) buyurdu: “Sən gecələri ibadət edirsən və gündüzləri də oruc tutursan. Bəs bilmirsənmi ki, həyat yoldaşının sənin boynunda haqqı var? Onun haqqına nə üçün riayət etmirsən? Gecələr həm ibadət et, həm də yat dincəl. Bəzi günlər həm oruc tut, bəzi günlər tutma. Ailənin tələblərini ödə ki, qoy onlar da səndən razı qalsınlar. Mən peyğəmbərəm və gecələrin bir hissəsini ibadət edirəm, bir hissəsini dincəlirəm. İlin bəzi günlərini oruc tuturam, bəzi günlərini tutmuram. Həyat yoldaşlarıma qarşı diqqət göstərirəm.”

Osman ibn Məzun Həzrət Peyğəmbərin(s) bütün buyurduqlarına əməl etməyə başladı və bir müddətdən sonra onun yoldaşı Peyğəmbərin(s) xanımlari ilə söhbət edərkən bildirdi ki, (Peyğəmbər(s) bizə gəlib onunla

söhbət edəndən sonra) Osman ona qarşı diqqətli olub və ailədə hər şey qaydasına düşüb."[1]

Ailənin qayğısına qalmaq, arvad-uşağa diqqət yetirmək, onlara qarşı mərhəmətli olmaq Allahın razılığına və qiyamətin qorxulu səhnəsindən nicat tapmağa səbəb olar.

Həzrət Peyğəmbər(s) buyurur: "Qiyamət günü mənim ümmətimdən bir kişini məhşərə gətirərlər. Onun cənnətə getməsinə kifayət qədər yaxşı əməli olmadığı üçün onun barəsində mənfi hökm vermək istədikdə Allah-təala buyurar: "Onu cənnətə aparın. Çünki o, dünyada öz ailəsinə qarşı mehriban və mərhəmətli olmuşdur."[2]

**7. Camaatın haqqını ödəməmək (haqqun-nas)**

İnsanın qəbirdə əzabının şiddətli olmasına səbəb olan amillərdən biri də digər insanların haqqını ödəməməkdir. Qiyamət günü onun yaxşı əməllərini alıb, boynunda haqqı qalan insana verəcəklər. Yaxud yaxşı əməli olmasa, həmin insanın əzabından götürüb onun əzabına artırılacaq. Qiyamət günü bütün bunlar öz yerində olmaqla yanaşı, qəbrin əzabı da həmin şəxsdən qaçılmazdır. Yəni boynunda haqqun-nas (camaatın haqqı) olan insan qiyamətdən əvvəl qəbirdə (bərzəxdə) əzab içində yaşayacaq.

Beyhəqinin tarix kitabında Əbdülhəmid ibn Mahmuddan belə bir rəvayət danışılır: O deyir: "Günlərin birində İbn Abbasın yanında idim. Elə bu zaman bir nəfər içəri daxil olub dedi: "İbn Abbas, biz bir hadisə ilə qarşılaşmışıq. İstəyirik ki, bizə bu işdə yol göstərəsən. Biz bir neçə nəfər Həcc ziyarətinə gəlirdik. Yolda

---

[1] Təhkimi-xanevadə, səh. 326.

[2] Yenə orada, səh. 192.

dostlarımızdan biri dünyasını dəyişdi. Ona qüsl verib, kəfənlədikdən sonra dəfn etmək üçün bir qəbir qazdıq. Cənazəsini qəbrə qoymaq istəyəndə qəbirdə bir ilan peyda oldu. Həmin qəbri doldurub başqa bir tərəfdə qəbir qazdıq. Onu qəbrə qoymaq istəyəndə həmin ilan yenə də peyda oldu. Yenə həmin qəbri torpaqla doldurub başqa bir yerdə qəbir qazdıq, yenə də həmin hadisə baş verdi. Cənazəni orada qoyub sənin yanına gəlmişik ki, bizə məsləhət verəsən və bizi bu işin sirrindən agah edəsən." İbn Abbas dedi: "Həmin ilan onun əməlidir. Aparın onu qazdığınız qəbirdə dəfn edin. Çünki onu dünyanın harasında dəfn etsəniz, həmin ilan ondan əl çəkməyəcək."

Həmin adam deyir: "Onu dəfn etdikdən sonra Həcc ziyarətini bitirib öz vətənimizə qayıtdıq. Sonra onun ailəsinə başsağlığı vermək üçün onun evinə getdik. Həyat yoldaşından soruşduq ki, sənin ərin nə işlə məşğul olurdu? O dedi: Mənim ərim un alveri ilə məşğul idi. Buğdanı üyüdüb un etdikdən sonra özümüz üçün təmiz un ayırırdı. Sonra satacağı una başqa şeylər də əlavə edib camaata satırdı."[1]

Camaatın haqqı (haqqun-nas) məsələsi çox çətin və ağır bir məsələdir. Camaatın haqqına girməyin çox acınacaqlı nəticələri var. Kərbəlada İmam Hüseyn(ə) bir nəfəri çağırıb buyurdu: "Bizimlə gələnlərə mənim adımdan de ki, kimin boynunda camaatın haqqı varsa, çıxıb getsin və camaatın haqqını qaytarsın. Həmin şəxs İmamın(ə) bu sözünü camaata çatdırdı və bir neçə nəfər onlardan ayrılıb getdi. İmam Hüseyn(ə) bilirdi ki, kim bu döyüşdə şəhid olsa, onunla birgə cənnətə gedəcək. Bilirdi

---

[1] Qəbrin əzabları, səh. 122.

ki, cənnətin qapılarını boynunda haqqun-nas olan insanın üzünə açmayacaqlar. Belə bir insan İmam Hüseynlə(ə) birgə cənnətin qapısına çatdıqda İmamı(ə) içəri buraxacaqlar, amma onu yox. Bu da İmama(ə) çox ağır gələcəkdi ki, onunla gələni cənnətə buraxmadılar. Məsələn, fərz edək ki, səni bir yerə qonaq çağırırlar. Sən də özünlə bir nəfəri də aparırsan. Səni həmin qonaqlığa buraxıb yanında gələnə “sənə içəri keçməyə icazə yoxdur” – desələr, təbiidir ki, bu, sənə çox pis təsir edər? Çünki bu, həm də sənə qarşı bir hörmətsizlikdir, sənin özünü geri qaytarmaq kimi bir şeydir. İmam Hüseyn(ə) bilirdi ki, camaatın haqqını ödəməyən insanı cənnətə buraxmayacaqlar. Buna görə də öncədən elan etdi ki, kimin boynunda haqqun-nas varsa, geri qayıtsın.

**8. Validеynin üzünə ağ olmaq**

Qəbir əzabına səbəb olan və qəbrin əzabını şiddətləndirən amillərdən biri də  valideynin üzünə ağ olmaq və onları incitməkdir. Əgər bir insanın ata-anası ondan narazıdırsa, həmin insan qəbirdə əzab içində yaşayacaqdır. Əgər valideyn övladdan narazı olaraq dünyadan gedibsə, onlardan halallıq almağın da yolu var. Dünyasını dəyişmiş valideyndən halallıq almağın yolu budur ki, övlad onların qəbrini ziyarət etməklə, onlar üçün Allahdan bağışlanmaq diləməklə, qılmadığı namazları, tutmadığı oruclları onların əvəzindən yerinə yetirməklə, habelə onların borclarını qaytarmaqla valideynin ruhunu şad edərək onları özündən razı sala bilər.

Tarixi mənbələrdə və rəvayətlərdə qeyd olunur ki, bir gün İslam Peyğəmbəri(s) Bəqi qəbiristanlığını ziyarət etməyə yollanır. Qızı Fatimeyi Zəhra(s.ə) və Həzrət Əli(ə) də icazə alıb Həzrətə(s) qoşulurlar. Həsən(ə) və Hüseyni(ə) də özləri ilə aparırlar. Qəbiristanlığa daxil olduqdan sonra qəbirlərdən biri Həzrət Peyğəmbərin(s) diqqətini cəlb edir. Həzrət(s) baxıb görür ki, qəbirdə dəfn olunan insana çox şiddətli əzab verilir. Həzrət Peyğəmbər(s) o qəbirdə yatana buyurur: “Allahın izni ilə qəbirdən qalx.” Həmin şəxs qəbirdən qalxdıqda görürlər ki, cavan bir oğlandır. Həzrət Peyğəmbər(s) ondan soruşur: “Hansı səbəbə görə sənə belə əzab verilir?” Oğlan deyir: “Anam məndən narazı və incik olduğuna görə mənə əzab verilir?” Həzrət Peyğəmbər(s) soruşur: “Anan nə üçün səndən narazıdır?” Oğlan deyir: “Mən təzəcə evlənmişdim. Bir gün evə gəldikdə arvadım mənə anamdan şikayət etdi. Mən də onun şikayətlərinə qulaq asıb hirsləndim. O biri otağa keçdikdə gördüm ki, anam təndirin kənarında əyləşib çörək bişirir. Yaxınlaşıb ona bir təpik vurdum. Anam

təndirin içinə düşdü. Onun səs-küyünə qonşular da axışıb gəldilər. Onu təndirdən çıxaranda gördüm ki, sinəsi tamamilə yanıb. O, üzü qibləyə dayanıb mənə belə qarğış etdi: “İlahi, oğlumdan intiqamımı al və məni yandırdığı kimi, onu da odda yandır.” Bu hadisədən üç gün keçmişdi ki, ömrüm sona çatdı. Qəbrə qoyulduqdan bu günə kimi beləcə əzab içindəyəm. Ya Rəsulallah, indi ki, məni qəbirdən çağırmısan, lütfünü məndən əsirgəmə.”

Həzrət Peyğəmbər(s) göstəriş verdi ki, onun anasını çağırsınlar. Oğlanın anası gəldikdən sonra Həzrət(s) qadına buyurdu: “Bu oğlanın anası sənsən? Qadın dedi: Bəli, ya Rəsulallah, mənəm. Peyğəmbər(s) buyurdu: Bu oğlanı mənə xatir bağışla. Qadın ağlayaraq dedi: Ya Rəsulallah, mən səni çox sevirəm. Amma icazə ver, onu bağışlamayım. Peyğəmbər(s) buyurdu: Elə isə qızım Zəhraya(s.ə) xatir onu bağışla. Qadın dedi: Mən onu da çox sevirəm. İcazə verin, ona haqqımı halal etməyim. Peyğəmbər(s) buyurdu: Əliyə(ə) xatir oğlunun günahından keç. Qadın dedi: Mən onu da çox sevirəm. Amma icazə verin, oğlumu bağışlamayım. O, məni çox incidib. Peyğəmbər(s) buyurdu: O zaman Həsənə(ə) xatir bağışla. Qadın dedi: Mən oğlumu bağışlamaq istəmirəm. Peyğəmbər(s) buyurdu: Elə isə Hüseynə(ə) xatir bağışla. Qadın başını göyə qaldırdıqdan sonra Hüseynə(ə) baxaraq ağlamağa başladı. Ağlaya- ağlaya dedi: Oğlumun günahından keçdim və onu bağışladım. Peyğəmbər(s) soruşdu: Biz sənə bu qədər deyəndə oğlunu bağışlamadın, amma Hüseynin(ə) adı gəldikdə nə üçün bağışladın? Qadın dedi: Ya Rəsulallah, and olsun Allaha, Hüseynin(ə) adı gələndə göyə baxdım. Pərdələr bir anlıq gözümün

önündən götürüldü. Mələklər mənə işarə edərək deyirdilər ki, Hüseynə(ə) xatir onu bağışla."[1]

**9. Naməhrəmə baxmaq**

Qəbir əzabına səbəb olan və əzabı şiddətləndirən amillərdən biri də naməhrəmə baxmaqdır. Təəssüflər olsun ki, bəzi alimlərin yazdığına əsasən, bizim cəmiyyətdə yaşayan insanların əksəriyyəti bu bəlaya düçar olmuşlar. Çoxunun da əksər problemi elə bu məsələdən başlanır. Məhrəm naməhrəm məsələsi bu gün müsəlmanların içərisində böyük bir problemə çevrilmişdir. İnsanların şəhvət girdabına düçar olub onun qarşısında aciz qalmaları bir məsələdən irəli gəlir. İslam dini bu məsələni həll etmək üçün insanlara yol göstərmiş və bu acizlikdən necə yaxa qurtarmağın yollarını öyrətmişdir. Şəhvət məsələsinə aid olan bütün məsələlərin mənbəyi gözdən və baxmaqdan sərçeşmə alır. Hədislərdə deyilir ki, gözləri başqalarının namuslarında olan insanın qəbirdə və bərzəx aləmindəki əzabı bütün əzablardan daha şiddətli olacaqdır.

Həm kişi, həm da qadın istər subay olsunlar, istərsə də evli, naməhrəmə baxmaları haramdır. Xüsusilə evli qadının naməhrəmə baxmasının əzabı daha şiddətli və acınacaqlıdır.

قَالَ رَسُولُ اللهِ(ص): اِشتَدَّ غَضَبُ اللهِ عَزَّوَجَلَّ عَلَي اِمرَأَةٍ ذَاتِ بَعلٍ مَلَأَت عَينَهَا مِن غَيرِ زَوجِهَا أَو غَيرِ ذِي مَحرَمٍ مِنهَا، فَإِنَّهَا إِن فَعَلَت

[1] Qəbrin əzabları, səh. 113.

ذَلِک أَحبَطَ اللهُ کلَّ عَمَلٍ عَمِلَتهُ فَإِنْ أَوْطَأَتْ فِرَاشَهُ غَيرَهُ کَانَ حَقّاً عَلَى اللَّهِ أَنْ يُحْرِقَهَا بِالنَّارِ بَعْدَ أَنْ يعَذِّبَهَا فِی قَبْرِهَا

-Həzrət Peyğəmbər(s) buyurur: "Gözlərini ərindən qeyrisi və ya ona məhrəm olmayan şəxslərlə dolduran ərli qadına qarşı Allahın qəzəbi şiddətlidir. Çünki belə olduqda Allah-təala həmin qadının bütün yaxşı əməllərini puç (məhv) edər. Əgər öz ərinə xəyanət edərsə, ona (qiyamət günündən öncə) qəbir əzabı verdikdən sonra cəhənnəm odunda yandırmaq Allahın haqqıdır."[1]

Günlərin birində Həzrət İsa(ə) bir qəbiristanlığın kənarından keçirdi. Birdən qəbirlərin birindən alov şöləloəri ucaldığını görüb dayanır. Elə oradaca iki rükət namaz qılır və namazdan sonra çəliyini həmin qəbrə vurub buyurur: "Qalx, Allahın izni ilə!" Elə bu zaman qəbir yarıldı və oradan cavan bir oğlan çıxır. Həzrət(ə) ondan soruşur: "Sən hansı əməlin sahibi olmusan ki, sənə qəbirdə belə əzab verilir?"

Oğlan deyir: "Camaatın namusuna təcavüz edirdim. Məni dəfn edəndən sonra Allahdan xitab gəldi ki, onu qəbirdə yandırın. Həmin gündən bəri mən bu əzaba düçar olmuşam."

Həzrət İsa(ə) qəbrin içinə baxdıqda görür ki, orada yekə bir ilan var. İlandan soruşur: "Sən bu qəbirdə nə edirsən?"

İlan deyir: "Bu oğlan dəfn olan gündən bəri Allahın əmri ilə onunla birgə olacağam. Mənim zəhərim elə bir zəhərdir ki, onun bir damlası Nil çayına düşsə, bütün suyu zəhərləyər."

---

[1] Hicab və iffətin siması, səh. 85.

Həmin oğlan ərz etdi: "Ey Allahın Peyğəmbəri(ə), indi ki mənim vəziyyətimi, necə əzab olunduğumu görürsən, indi ki səsləyib məni qəbirdən çıxartdın, xahiş edirəm, Allahdan mənə bu oddan nicat verməsini istə."

Həzrət İsanın(ə) ürəyi onun halına yandı. Əllərini qaldırıb Allahdan onun üçün əfv dilədi. Allahdan belə bir nida gəldi: "Ey İsa, hər kim camaatın namusunun dalınca getsə, (baxsa, toxunsa və s.) biz ona elə əzab verərik ki, heç kəsi belə əzaba düçar etməmişik. Amma sən Mənim peyğəmbərim olduğun üçün sənin duanı qəbul edib bu oğlanı bağışladım."

Həmin oğlan Həzrət İsaya(ə) öz təşəkkürünü bildirdi. Həzrət İsa(ə) ona buyurdu: "Mənimlə qalmaq istəyirsən, yoxsa yenidən qəbrə qayıdırsan?"

Oğlan dedi: "Səninlə qalsam, aqibətim necə olacaq?"

Həzrət(ə) buyurdu: "Dünyada yaşayıb yenə də öləcəksən."

Oğlan dedi: "Ey Allahın Peyğəmbəri(ə), dünyaya qayıtmaq istəmirəm. Çünki mən yüz il olar ki, ölmüşəm. Ölən zaman canımın bədənimdən çıxmasının acılığı hələ də məndən getməyib."[1]

## İslamın naməhrəm kişi və qadınlar üçün müəyyən etdiyi qanunlar

Allah insanlar üçün qanunlar müəyyən edib. Elektrik cərəyanı mənfi və müsbətdən ibarətdir. Onlar bir-birinə toxunduğu zaman çox fəlakətlərə yol açar. Məhrəmlə naməhrəm məsələsi həmin elektrikin müsbət və mənfisi kimidir. Onların hədləri var və mütləq bir-birindən ayrı

[1] Qəbrin əzabları, səh. 202.

olmalıdırlar. Əks-təqdirdə bütün cəmiyyət korlanıb fəlakətə uğrayacaqdır.

Şərq və Qərb insanların taleyi ilə oynamaqla çox böyük səhvə yol verdilər. Şərq yetmiş il milyonlarla insanı cəhənnəmlik etdikdən sonra Tövhidin (Allahın vəhdaniyyətinin) qarşısında təslim olaraq səhv etdiyini etiraf etdi. Düzdür, onlar yetmiş ildən sonra peşman oldular və tətbiq etdikləri qanunların heç bir faydasının olmadığını başa düşdülər. Bəs cəmiyyətdə təcrübə qazanmaq üçün cəhənnəmə yönəltdikləri milyonlarla insanın cavabını kim verəcək?

Qərb də eynilə başqa məsələlərdə olduğu kimi, naməhrəm və şəhvət məsələsində də böyük xətaya yol vermişdir və səhv etməkdə hələ də davam edir. Onlar belə iddia edirlər ki, naməhrəmləri və şəhvət məsələsini azad qoyduqda hər şey daha yaxşı olacaq. Yəni şəhvət məsələsi adiləşdikcə tamah da azalar. Amma onları ayrı saxladıqda tamahları, həvəs və şövqləri daha da çoxalır. Neçə ildir ki, bu qanunları cəmiyyətdə tətbiq etmişlər, amma müsbət bir nəticəyə gəlib çatmamışlar. Görəsən, neçə ildən sonra bu məsələ adiləşəcək və hər şey yoluna düşəcəkdir? Bir ilə adiləşməyib, on ilə və yüz ilə də bu məsələ adiləşməyib. Bəs nə vaxt şəhvət məsələsi adiləşəcək? Nə üçün adiləşmir? Ac insana çörəyi göstərməklə onu doyurmaq olarmı? Çörəyə baxmaqla insanın qarnı doymur. Ac qarın yemək istəyir. Ciyəri ac pişiyə göstərməklə onun aclığını aradan qaldırmaq olarmı? Ciyəri ona göstərərək məsələni adiləşdirib, ciyərə baxması ilə onun qarnını doyurmar heç mümkündürmü? Fürsət tapan kimi ciyəri oğurlayıb aparacaq. Çünki acdır və baxmaqla aclığını adiləşdirmək də mümkün deyildir. Belə işlərdə təcrübə toplamaq üçün milyonlarla insanı cəhənnəmə göndərməklə məsələni

adiləşdirmək olarmı? Gərək milyonlarla insanı cəhənnəmə yönəltdikdən sonra heç olmasa etdiyin xətanı boynuna alasan? Belə düşüncə və qanunların mənfi nəticədən başqa heç bir nəticəsi olmayacaqdır. İnsanı Allah yaradıb, onun bütün instinktlərini bilir və buna görə də hər bir fitri istəyi üçün mükəmməl bir qanun müəyyən etmişdir. İslamın müəyyən etdiyi bütün qanunların heç birində elmi baxımdan nöqsan yoxdur. Şəhvət ona görə insanın fitrətində qoyulmuşdur ki, onun nəsli davam etsin. Bütün fitri istəklər üçün qanunlar müəyyən olunduğu kimi, şəhvətin də həddi və normaları vardır.

Məhrəm və naməhrəm məsələsi haqda Qurani-Kərimdə açıq-aydın ayələr vardır. Məsələn, Allah-təala "Əhzab" surəsinin 59-cu ayəsində buyurur:

يَا أَيُّهَا النَّبِيُّ قُل لِّأَزْوَاجِكَ وَبَنَاتِكَ وَنِسَاءِ الْمُؤْمِنِينَ يُدْنِينَ عَلَيْهِنَّ مِن جَلَابِيبِهِنَّ ذَٰلِكَ أَدْنَىٰ أَن يُعْرَفْنَ فَلَا يُؤْذَيْنَ وَكَانَ اللَّهُ غَفُورًا رَّحِيمًا

-Ey Peyğəmbər, öz zövcələrinə, qızlarına və möminlərin zövcələrinə de ki, örpəklərini örtsünlər (onlara bürünsünlər, boyun-boğaz, sinə, qolları və qıçları örtülsün). Bu (iş) onların (iffətlə) tanınması, (nadürüstlərin onlara) əziyyət verməməsi və incitməməsi üçün daha münasibdir. Allah həmişə bağışlayan və rəhm edəndir.

Hər kim Allahın bu qanunundan savayı, başqa bir qanunla yaşasa və cəmiyyətdə özünün müəyyənləşdirdiyi qanunları tətbiq etsə, yüz ildən sonra da olsa belə peşman olub Allahın qanunlarına baş əyəcək.

Allah-təala "Nur" surəsinin 31-ci ayəsində qadınlara belə buyurur:

وَلْيَضْرِبْنَ بِخُمُرِهِنَّ عَلَىٰ جُيُوبِهِنَّ...

-Gərək (boyun və sinələrinin örtülməsi üçün) baş örtüklərini (çəkib) yaxalarını da örtsünlər.

وَلَا يَضْرِبْنَ بِأَرْجُلِهِنَّ لِيُعْلَمَ مَا يُخْفِينَ مِن زِينَتِهِنَّ...

-Ayağına xalxal taxmış qadınlar gizlətdikləri zinətlərin bilinməsi üçün ayaqlarını yerə (bərk) vurmasınlar.

"Əhzab" surəsinin 32-ci ayəsində hətta incə bir məsələyə toxunaraq belə buyurulur:

فَلَا تَخْضَعْنَ بِالْقَوْلِ فَيَطْمَعَ الَّذِي فِي قَلْبِهِ مَرَضٌ وَقُلْنَ قَوْلًا مَّعْرُوفًا

-Buna görə də danışığınızda naz-qəmzə və işvə etməyin ki, qəlbində (günah, pozğunluq) xəstəliyi olan kəsin tamahı düşməsin. Gözəl (təhrik və işvədən uzaq) danışın.

Odur ki, hətta qadın naməhrəm kişi ilə danışarkən belə diqqətli olmalı, naz-qəmzə ilə danışmamalıdır. Çünki naz-qəmzə ilə danışmaq, sözü əzib-büzmək qarşı tərəfin həyəcan və təhrik olunmasına səbəb olar.

قَالَ الصَّادِقُ(ع): عَن رَسُولُ اللهِ صَلّى اللهُ عَلَيهِ وَ آلِه: اِنَّهُ كَانَ مِمَّا يَاخُذ عَلَى النِّساءِ فِي البَيعَة اَن لا يُحَدِّثَن مَعَ الرِّجَالِ اِلاّ ذَا مَحرَمٍ

-İmam Sadiq(ə) buyurur: "Həzrət Peyğəmbərin(s) ümmətin qadınlardan aldığı əhd-peymanlardan biri belə bu idi: Öz məhrəmlərindən başqa kişilərlə (zəruri haldan başqa) söhbət etməsinlər."[1]

Buna görə də müsəlman qadın naməhrəm kişi ilə danışarkən həddini aşmamalıdır. Zəruri hallardan başqa naməhrəmlə hətta qərəzli niyyət olmasa da belə söhbət etməyə icazə yoxdur.

---

[1] Qızların hicabı, səh. 24.

قَالَ رَسُولُ اللهِ(ص): مَنْ فاكَهَ بِامْرَأَةٍ لا يَمْلِكُها حُبِسَ بِكُلِّ كَلِمَةٍ كَلَّمَها فِى الدُّنيا اَلْفَ عامٍ

-Həzrət Peyğəmbər(s) buyurur: "Hər kəs naməhrəm qadınla zarafat etsə, hər kəlməsinə görə axirətdə min il məhbus olacaq." [1]

Ayişə deyir: "Günlərin birində bacım bizə qonaq gəlmişdi. Onun əynində nazik paltarlar var idi. Həzrət Peyğəmbər(s) evə gəldikdə onu görən kimi tez üzünü yana çevirib buyurdu:

يَا اَسماء اِنَّ الْمَرأَةَ اِذَا بَلَغَتِ الْمَحِيض لَمْ تَصلَح اَن يُرى مِنهَا اِلاّ هَذَا وَ هَذَا وَ اشارَ اِلَى كَفِّهِ وَ وَجهِه

-Ey Əsma, qız həddi-büluğa çatdıqdan sonra məsləhət deyil ki, bədəninin (əlini və üzünü göstərərək) bu və bu hissədən savayı başqa bir yeri görünsün.[2]

قَالَ رَسُولُ اللهِ(ص): الْمَرْأَةُ إِذَا خَرَجَتْ مِنْ بَابِ دَارِهَا مُتَزَيِّنَةً مُتَعَطِّرَةً وَ الزَّوْجُ بِذَلِكَ رَاضٍ يُبْنَي لِزَوْجِهَا بِكُلِّ قَدَمٍ بَيْتٌ فِي النَّارِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Qadın bəzənib ətirlənmiş halda evin qapısından çıxsa, əri də onun bu halda bayıra çıxmasına razı olsa, o qadının atdığı hər bir addıma görə cəhənnəmdə onun əri üçün oddan bir ev tikilər."[3]

---

[1] Hicab və iffətin siması, səh. 93.
[2] Qızların hicabı, səh. 24; Sünəni-Əbi Davud, 4-cü cild, səh.64.
[3] Qızların hicabı, səh. 42.

قَالَ رَسُولُ اللهِ(ص): ايُّ اِمْرَاَةٍ تطيَّبتْ ثمَّ خَرَجَتْ من بَيتِها فَهِيَ تُلْعَنُ حتّي ترجَعَ الي بيتِها

-Həzrət Peyğəmbər(s) buyurur: "Qadın ətirlənib evdən çıxdıqda evə qayıdana qədər (Allahın və mələklərin) lənətində qərar tutar."[1]

Möminlər Həzrət Peyğəmbərə(s) ərz etdilər ki, bizim həyat yoldaşlarımız, ana-bacılarımız da məsciddə camaat namazında iştirak etmək istəyirlər. Həzrət Peyğəmbər(s) buyurdu: "Onlara mane olmayın, qoyun gəlsinlər. Amma hicaba riayət etmək və özlərinə ətir vurmamaq şərtilə."[2]

İnsan məscidə Allaha ibadət etmək üçün gedir və istəyir ki, ibadətləri qəbul olunsun. Elə bir iş görməməlidirlər və elə bir vəziyyətdə getməməlidirlər ki, Allahın onlardan acığı gəlsin.

Məhrəm naməhrəm məsələsi təkcə qadınlara deyil, kişilərə də aiddir. Kişilər üçün də qanunlar və müəyyən hədlər mövcuddur. Allah-təala "Nur" surəsinin 30-31-ci ayələrində belə buyurur:

قُل لِّلْمُؤْمِنِينَ يَغُضُّوا مِنْ أَبْصَارِهِمْ وَيَحْفَظُوا فُرُوجَهُمْ ذَلِكَ أَزْكَى لَهُمْ...

-Mömin kişilərə de ki, (başqalarının ayıb yerləri və yad qadının bədəni kimi baxılması haram olan şeylərlə qarşılaşanda) gözlərini (ondan) çevirsinlər və ayıb

[1] Yenə orada, səh. 41.
[2] Yenə orada, səh. 42.

yerlərini (görünməkdən) qorusunlar. Bu, onlar üçün daha pakdır.

Şəhvət və bu günaha düşməyin başlıca səbəbi naməhrəmə baxmaqdır. Hətta romanların çoxunda, bir qayda olaraq, bir qızla bir oğlanın əhvalatı yazılır. Çox çətinliklərdən sonra onlar ya bir-birinə qovuşmuş, ya da bədbəxt olmuşlar. Bu kimi məsələlərin əvvəli baxmaqdan başlanır. Bir baxışla onu ürəyinə həkk etdirmiş və daha sonra qarşısını ala bilməmişdir. Baxış insanın qəlbinə bir nöqtə boyda ləkə salır və getdikcə bu ləkə böyüyərək onun bütün qəlbini öz əhatəsinə alır. Nöqtə boyda bir ləkə qəlbə düşdükdə onu pozmaq asandır, amma böyüdükdən sonra onu pozmaq mümkün olmayacaqdır.

قَالَ الصَّادِقُ(ع): النّظر سَهمٌ مِن سَهامِ إِبلِيس مَسمُومٌ. وكَمْ مِنْ نّظرةٍ أَوْرَثَتْ حَسْرَةً طويلةً

-İmam Sadiq(ə) buyurur: “Baxış iblisin zəhərli oxlarından biridir. Nə çox baxışlar var ki, uzun bir həsrət yaradıb.”[1]

Səhl ibn Səd deyir: “Günlərin birində bir oğlan qapının arasından Həzrət Peyğəmbərin(s) evinə baxırdı. Həzrət Peyğəmbər(s) daraqla başını darayırdı. Həmin oğlan getmək istəyəndə Həzrət Peyğəmbər(s) bunu hiss etdi. Qapını açıb bayıra çıxdı və buyurdu: “Əgər səni evin içinə baxdığın halda yaxalasaydım, bu daraqla gözünü çıxardardım.”[2]

[1] Qızların hicabı, səh. 48.
[2] Yenə orada, səh. 49.

Dində icazə verilmir ki, naməhrəm kişi və qadın xəlvət bir yerdə əyləşsinlər. Belə olduqda şeytan onların üçüncüsü olar və onları yoldan çıxarar.

قَالَ رَسُولُ اللهِ(ص): لا يَخْلُوَنَّ رَجُلٌ بِإِمْرَأَةٍ فَما مِنْ رَجُلٍ خَلا بِإِمْرَأَةٍ اِلاّ كانَ الشَّيْطانُ ثالِثُهُما

-Həzrət Peyğəmbər(s) buyurur: "Xəlvətə çəkilmiş elə bir kişi ilə qadın yoxdur ki, şeytan orada üçüncü olmasın."[1]

Şeytan çox hiyləgər və məkrlidir. İnsanı necə yoldan çıxarmağı yaxşı bilir. Naməhrəm kişi ilə qadın xəlvət bir yerdə olduqda şeytan vəsvəsə edərək, onları necə yoldan çıxaracağını bilir. Buna görə İslamda təkid olunmuşdur ki, naməhrəm insanlar xəlvət yerdə qalmasınlar.

Xuvat ibn Cübeyr deyir: "Peyğəmbərlə(s) birlikdə Zəhran adlı bir məntəqəyə getmişdik. Çöldə çadırları qurub hazırlıq işləri görürdük. Mən öz çadırımdan çıxıb gördüm ki, bir neçə xanım öz çadırlarının qarşısında əyləşib söhbət edirlər. Mən də onların yanında əyləşdim və söhbət etməyə başladıq. Elə bu zaman Həzrət Peyğəmbər(s) çadırından çıxıb məni gördü. Peyğəmbərin(s) məni arvadlarla oturub söhbət edən yerdə görməsindən narahat oldum. İstəməzdim ki, Həzrət(s) məni belə bir halda görsün. Həzrət Peyğəmbər(s) məni yanına çağırdı. Sanki məndən nə üçün orada əyləşdiyimi soruşacaqdı. Elə bu barədə düşünə-düşünə özümdən uydurduğum yalanı danışaraq dedim: "Ya Rəsulallah, dəvəm qaçıb, mən də onu axtarıram. Qadınlardan da soruşmaq istəyirdim ki, dəvəmi görməyiblər?" Həzrət Peyğəmbər(s) bir söz demədi. Amma çox narahat görünürdü. Sonra əbasını

[1] Yenə orada, səh. 42.

mənə verib buyurdu: “Bunu saxla, indi gəlirəm.” Dəstəmaz alıb qayıtdıqdan sonra mənə buyurdu: “Dəvəni tapdınmı?” Peyğəmbərin(s) bu sözündən sonra utanıb xəcalət çəkdim. Başa düşdüm ki, gördüyüm iş Peyğəmbəri(s) çox narahat etmişdir. O gündən sonra heç bir vaxt qadınlar əyləşdiyi yerə getmirdim. Amma Həzrət Peyğəmbər(s) bəzən məni görəndə zarafatca deyərdi: “Dəvən necə oldu, onu tapdınmı?”[1]

Günlərin birində Həzrət Peyğəmbər(s) məsciddən çıxarkən görür ki, camaat çox olduğundan qadınlar və kişilər qapıdan çıxarkən bir-birinə toxunurlar. Həzrət(s) qadınlara buyurur: “Siz gözləyin, kişilər çıxsınlar, sonra siz çıxarsınız. Siz yolun ortası ilə getməyin. Yaxşısı budur ki, qadınlar həmişə yolun kənarı ilə yerisinlər.”[2]

Ümmi Sələmə deyir: “Həmişə Peyğəmbər(s) namaz və xütbədən sonra məsciddə əyləşib gözləyərdi. Buna görə də gözləyərdi ki, kişilər çıxsınlar, sonra qadınlar çıxıb getsinlər və axırda da özü çıxıb gedərdi.” [3]

Cabir ibn Abdullah Ənsari deyir: “Günlərin birində Həzrət Peyğəmbər(s) qızı Fatimənin evinə gəlir. Mən də Həzrətin(s) yanında idim. Qızının evinin qapısını döyüb buyurdu: Salaməleykum. Xanım Fatimə(s.ə) içəridən səsləndi: Əleykuməs-salam. Sonra Peyğəmbər(s) içəri keçmək üçün icazə istədi. Xanım ərz etdi ki, buyurun. Peyğəmbər(s) buyurdu: Mən tək deyiləm, Cabir də yanımdadır. Xanım ərz etdi: Gözləyin, örpəyimi örtüm.

---

[1] Qızların hicabı, səh. 51.
[2] Qızların hicabı, səh. 54.
[3] Sünəni-Əbi Davud, 1-ci cild, hədis – 1040.

Sonra isə qapını üzümüzə açdı. Peyğəmbər(s) içəri daxil olmaq üçün yenə də icazə istədi. Xanım Fatimə(s.ə) icazə verdikdən sonra hər ikimiz evə daxil olduq.”[1]

Həzrət Peyğəmbərin(s) ədəb və əxlaqlarından biri bu idi ki, birinin evinə gedərkən əvvəlcə qapını döyər, icazə aldıqdan sonra içəri daxil olardı. Heç bir vaxt qapı ilə üzbəüz dayanmazdı. Həmişə qapını döyərkən sağ tərəfində dayanardı. Çünki birdən qapını açan şəxs qadın da ola bilərdi. Qapını açan insan kişi, yaxıd qadın olduqda Həzrət(s) öz vəzifəsinə uyğun şəkildə əməl edərdi. Həzrət Peyğəmbər(s) bu kimi incə məsələlərə qədər riayət edirdi ki, ümməti də ondan nümunə və örnək götürsün.

---

[1] Qızların hicabı, səh. 60; Nurus-səqəleyn təfsiri, 2-ci cild, səh. 587.

## İmam Həsən(ə) - ikinci Yusif(ə)

Tarixi mənbələrdə İmam Həsəni(ə) Həzrət Yusif Peyğəmbərə(ə) bənzətmişlər. Əlbəttə, bu bənzətməni zahiri gözəllik cəhətindən deyil, baş vermiş oxşar bir hadisə ilə əlaqələndirmişlər. Həzrət Yusif(ə) çox təqvalı bir şəxsiyyət idi. Allah-təala Quranda onun təqvasi ilə fəxr edir. Çox böyük sınaq və imtahanlardan üzüağ çıxmışdır. Xüsusilə Züleyxanın onu tələyə salmasından və şeytanın vəsvəsəsindən canını qurtarması həm tarixi mənbələrdə, həm də Quranda yazılmışdır. [1]

Günlərin birində İmam Həsən(ə) səfərdə olarkən otaqda tək əyləşib öz işi ilə məşğul idi. Bir xanım onun otağına girib deyir: "Mənim ərim yoxdur və sizdən xoşum gəlir." İmam(ə) buyurur: "Otaqdan çıx." Qadın isə otaqdan çıxmır və öz hərəkətləri ilə Həzrətin(ə) ürəyini ələ almaq istəyir. Elə başa düşür ki, belə hərəkətləri ilə onu razı sala bilər. İmam(ə) vəziyyətin belə bir həddə gəlib çatdığını gördükdə ağlamağa başlayır. Qadın da baxıb görür ki, İmam(ə) çox narahat olub və onu ələ almaq mümkün deyil. İmamın(ə) göz yaşları onu da ağladır. Elə bu zaman İmam Hüseyn(ə) içəri daxil olur. Görür ki, hər ikisi ağlayırlar. Qadın bir söz demədən durub gedir.

İmam Hüseyn(ə) buyurur: "Həmin səfərdə bir neçə gündən sonra gecəyarısı ağlamaq səsi eşitdim. Ayılıb gördüm ki, qardaşım Həsən(ə) səcdə edərək ağlayır. Soruşdum: Qardaş, sənə nə olub, nə üçün ağlayırsan? İmam Həsən(ə) buyurdu: Yusif Peyğəmbəri(ə) yuxuda gördüm. Gördüm ki, o dayanıb və camaat bir-bir onun əzəmət və camalına baxırlar. Mən də camaatın içərisində

---

[1] Min bir əxlaqi hekayət, səh. 388.

ona sarı yaxınlaşdım. Onun üzünə baxa-baxa çəkdiyi əziyyətlər, nəfsi ilə mübarizələri yadıma düşdü və ağlamağa başladım. Birdən o, mənə baxıb buyurdu: Ata-anam sənə qurban, nə üçün ağlayırsan? Dedim: Ey Allahın Peyğəmbəri(ə), sənə baxdıqca sənin tarixin, nəfsinlə cihad etməyin, şəhvətinə qələbə çalmağın, atandan ayrı düşməyin, zindanda qalmağın yadıma düşürdü. Çətin də olsa sənin dözüm və iradən məni ağlatdı. O, gülə-gülə mənə buyurdu: Mənim də yadıma gəlir ki, sən də ağlayıb o qadını ağlatdın. O, sənə təsir edə bilmədi. Amma sənin göz yaşların onun ürəyinə təsir göstərdi. Sən onu göz yaşlarınla tərbiyələndirdin."

## Qəbir əzabından insana nicat verən amillər (Əməllər)

Yuxarıda insana qəbirdə əzab verilməsinə, habelə əzabının şiddətli olmasına səbəb olan amillərlə tanış olduq. Bu bəhsimizdə də yaxşı olar ki, insana qəbir əzabından nicat verən amillərlə tanış olaq. Bəzi əməl vardır ki, insan onlara riayət etməklə Allah-təala insandan qəbir əzabını götürər və ya qəbir əzabını yüngülləşdirər. Həmin əməlləri diqqətinizə çatdırıram.

### 1. Cənazəni müşayiət etmək

İnsandan qəbir əzabını götürən əməllərdən biri mömin insanın cənazəsini müşayiət etmək və dəfn mərasimində iştirak etməkdir. Mömin o kəsdir ki, Allahın vəhdaniyyətinə, Peyğəmbərin(s) nübüvvətinə, Həzrət Əlinin(ə) imamətinə, Məada (ölümdən sonrakı həyata) iman gətirsin. Belə bir insan dünyasını dəyişərkən onun dəfn mərasimində iştirak etmək savab əməllərdəndir. Əgər həmin şəxs namaz qılan, oruc tutan, Həccə gedən, malının

zəkatını verən, halal-harama riayət edən, vacib əməlləri yerinə yetirib günahlardan çəkinən insan olmuşsa, onun dəfn mərasimində iştirak etməyin savabı, şübhəsiz ki, daha çox olar. Bir mömin dünyasını dəyişdikdən sonra dəfn qurtarana qədər (qüsl vermək, namazını qılmaq, cənazəni yerdən götürmək və dəfn etmək) olan proseslərdə iştirak etməyə cənazəni müşayiət etmək deyilir.

Hədislərdə deyilir ki, kim cənazəni müşayiət etsə, Allah-təala həmin şəxsin (müşayiət edənin) ölən gündən qiyamətə qədər qəbrinin kənarında əllərində bayraqlar tutmuş mələkləri hazır edər.[1]

Cənazəni müşayiət etməyin və dəfn mərasimində iştirak etməyin bir neçə cəhətdən insana faydası vardır. Birincisi, bu işin fərdi olaraq insanın özünə faydası və xeyri dəyir. Yəni əxlaq və mənəviyyat cəhətdən insana müsbət təsir göstərir. Cənazəni müşayiət edərkən insan bu gündən hamı üçün olacağını düşünür. İkinci faydası budur ki, cənazəni müşayiət edən insanın duaları nəticəsində Allah-təala ölən insanı bağışlayır. Əgər qırx mömin dünyasını dəyişmiş insan üçün Allahdan bağışlanmaq diləsə, Allah-təala həmin möminlərin ehtiramına görə onu bağışlayar. Üçüncü faydası budur ki, həmin ölənin dünyada ehtiramı saxlanılır. Dördüncü faydası budur ki, yaxınlarının qəlbində rahatlıq yaranır. Onlara başsağlığı verməklə, qəmlərinə şərik olmaqla bir növ təsəlli vermiş olursan. Cənazəni müşayiət etmək o əməllərdəndir ki, mələklər onu yerinə yetirmək üçün arzu edərlər. Yəni belə arzu edərlər: “İlahi, əgər bizi insan yaratsaydın, biz həmişə gedib camaat namazında və dəfn mərasimində iştirak

[1] Qəbrin əzabları, səh. 67.

edərdik.” Buradan görünür ki, cənazəni müşayiət etmək nə qədər əhəmiyyətli və savab əməllərdəndir ki, mələklər də bu işi görmək üçün həsrət çəkirlər.

Cənazəni müşayiət edərkən çox yaxşı olar ki, insan öz ölümünü yadına salsın və bir gün belə bir halın onun üçün də baş verəcəyini düşünsün.

كَانَ رَسُولُ اللّهِ صَلّى اللهُ عَلَيهِ وَ آلِه إذا تَبِعَ جَنازَةً غَلَبَتهُ كَآبَةٌ، و أَكثَرَ حَدِيثَ النَّفسِ، و أقَلَّ الكلامَ

-Hədislərdə deyilir ki, Allahın Peyğəmbəri(s) cənazənin ardınca gedəndə onu qəm-kədər bürüyərdi. Daha çox öz içində fikirlərə dalardı. Öz-özünə düşünər və az danışardı.[1]

Hədislərdə qeyd olunur ki, Həzrət Peyğəmbər(s) cənazəni müşayiət edərkən hətta dəfn qurtarana qədər orada iştirak edirdi. Bəzən əyləşib qəbrin kənarında bu ayəni oxuyurdu:

لِمِثْلِ هَذَا فَلْيَعْمَلْ الْعَامِلُونَ

-Çalışanlar bunun üçün çalışmalıdır.[2]

Həzrət Peyğəmbər(s) bütün məsələlərdə olduğu kimi, cənazəni müşayiət edərkən həm öz hərəkətləri ilə, həm də buyurduğu kəlamlarla bu kimi mərasimlərdə insanlara necə davranmağın qaydalarını öyrədirdi. Başa salırdı ki, insan nə qədər yaşasa da, əvvəl-axır ölüb bu dünyadan gedəcəkdir. Bunun üçün axirəti düşünmək və ora üçün çalışmaq lazımdır. Günlərin birində Həzrət(s) Əbuzərə belə buyurdu:

---

[1] Mizanül-hikmə, 12-ci cild, hədis - 19281.
[2] Saffat surəsi, 61-ci ayə.

يا أبا ذرٍّ، إذا تَبِعت جَنازَةً فلْيَكُنْ عَقلُكَ فيها مَشغولاً بالتَّفكُّرِ و الخُشوعِ، و اعلَمْ أنّكَ لاحِقٌ بِهِ

-Ey Əbuzər, cənazənin arxasınca getdiyin zaman gərək zehnini təfəkkür və itaətkarlıqla məşğul edəsən. Bil ki, bir gün sən də ona qoşulacaqsan.[1]

Cənazəni müşayiət etmək barədə qeyd olunan hədislərdən iki mühüm tövsiyə almaq mümkündür. Onlardan biri budur ki, insan ölüm haqda düşünməklə özünü ona hazır etməlidir.

قَالَ الصَّادِقُ(ع): شَيَّعَ أميرُ المؤمنينَ عليه السلام جَنازَةً فلَمّا وُضِعَت في لَحدِها عَجَّ أَهلُها وَ بَكَوا، فَقَالَ: مَا تَبكُونَ؟! أَمَا وَ اللّهِ لَو عايَنُوا مَا عَايَنَ مَيِّتُهُم لَأَذهَلَهُم ذَلِكَ عَنِ البُكاءِ عليهِ، أَمَا وَ اللّهِ أَنّ لَهُ إلَيهِم لَعَودَةً ثُمّ عَودَةً، حتّى لا يُبقي مِنهُم أحَدا

-İmam Sadiq(ə) buyurur: “Günlərin birində Əmirəlmöminin Əli əleyhissalam bir cənazəni müşayiət edirdi. Onu qəbrə qoyarkən qohum-əqrəbası qışqırıb ağlamağa başladılar. Həzrət(ə) buyurdu: Nə üçün belə ağlayırsınız? (Sonra üzünü camaata tutaraq buyurdu:) And olsun Allaha, əgər onlar (ağlayanlar) bu meyitin gördüklərini görsəydilər, şübhəsiz ki, (gözlərinə görünənlər) ağlamağı onlara unutdurardı. And olsun Allaha ki, ölüm dəfələrlə onlara tərəf qayıdacaq və onların heç birini bu dünyada qoymayacaq.”[2]

---

[1] Mizanül-hikmə, 12-ci cild, hədis - 19282.
[2] Yenə orada, hədis - 19287.

İkinci tövsiyə budur ki, ölən insana ehsan olunsun. Yəni yaxınlarının ağlayaraq qışqır-bağır salmasının ölən insana heç bir xeyri yoxdur. Düzdür, insan yaxınını itirəndə narahat olur və ağlayır. Amma elə bir iş görmək lazımdır ki, dünyasını dəyişən şəxs üçün faydası olsun.

Günlərin birində Həzrət Peyğəmbər(s) qəbiristanlığın kənarından keçirdi. Gördü ki, bir nəfəri dəfn ediblər və qohum-əqrəbası onun qəbrinin kənarında ağlayırlar. Üzünü onlara tutaraq buyurdu:

لَرَكْعَتَانِ خَفِيفَتَانِ مِمَّا تَحْقِرُونَ أَحَبُّ إِلَى صَاحِبِ هَذا القَبرِ مِنْ دُنْيَاكُمْ كُلَّها

-Yüngül və qiymətsiz saydığınız iki rükət adicə müstəhəb namaz onun üçün sizin bütün bu dünyanızdan daha sevimlidir.[1]

Buna görə də dünyasını dəyişən insan üçün namaz qılmaq, oruc tutmaq, salavat göndərmək, Quran oxumaq, Allahdan onun günahlarının bağışlanmasını diləmək, borclarını qaytarmaq kimi ehsanlar etmək daha yaxşıdır.

Dünyasını dəyişən insan Allahın rəhmət və mərhəmətinə möhtacdır. Allahdan onun üçün rəhmət diləmək çox əhəmiyyətlidir. İnsan öldükdən sonra qəbrə qoyulana qədər ona iyirmi dəfə xitab olunur. Bu xitabların on səkkizi Allahın əmri ilə mələklər vasitəsilə yer tərəfindən, ikisi isə şəxsən Allah tərəfindən gəlir. Hədis belədir:

[1] Qəbrin həqiqəti, səh. 46.

إِذَا فَارَقَ الرُّوح مِنَ البَدَن نُودِيَ مِنَ السَّماءِ بِثلاثٍ: يَا ابنَ آدَم! أَتَركتَ الدُّنيا أَمِ الدُّنيَا تَركَتكَ؟ أَجَمعتَ الدُّنيَا أَمِ الدُّنيَا جَمَعَتكَ؟ أَقَتَلتَ الدُّنيَا أَمِ الدُّنيَا قَتَلَتكَ؟

-Ruh bədəndən çıxan zaman insana üç nida gələr: "Ey Adəm övladı! Sən dünyanı tərk etdin, yoxsa dünya səni?! Sən dünyanı (özün üçün) topladın, yoxsa dünya səni (özünə çəkdi)?! Sən dünyanı öldürdün, yoxsa dünya səni öldürdü?!"

وَ إِذَا وُضِعَ عَلَى الْمَغسَل نُودِيَ بِثَلاث: يَا ابنَ آدم! أَينَ بَدَنُكَ القَوِيّ؟ لِمَا أَضعَفَكَ! وَ أَينَ لِسَانُكَ الفَصِيح؟ لِمَا أَسكَتَك! وَ أَينَ أَحِبَّاؤُك؟ لِمَا أَوحَشَكَ!

-Onu qüsl verilən yerə qoyan zaman orada üç nida gələr: "Ey Adəm övladı! Haradadır güclü bədənin? Nə üçün belə zəifsən?! Haradadır danışan dilin? Nə üçün sakit qalmısan?! Haradadır sevdiklərin? İndi nə üçün qorxuya düşmüsən?!"

وَ إِذَا وُضِعَ عَلَى الكَفَنِ نُودِيَ بِثَلاث: يَا ابنَ آدَم! تَذهَبُ إِلَى سَفَرٍ بَعِيدٍ بِغَيرِ زَادٍ! وَتَخرُجُ مِن مَنْزِلِك فَلا تَرجِع أَبَدًا! وَتَصِيرُ إِلَى بَيتٍ أَهوَل!

-Onu kəfənə bükən zaman üç nida orada gələr: "Ey Adəm övladı! Azuqəsiz uzun bir səfərə gedirsən! Evindən çıxırsan, amma bir daha ora qayıtmayacaqsan! Elə bir evə gedirsən ki, ora çox qorxuludur!"

وَ إِذَا حُمِلَ عَلَى الْجَنَازة نُودِيَ بِثَلاث: يَا ابنَ آدَم! طُوبى لَكَ إِن كَانَ عَمَلُكَ خَيرًا وَطُوبَى لَكَ إِن كُنتَ صَحِبَكَ رِضوَانُ اللهِ وَ وَيلٌ لَكَ اِن كُنتَ صَحِبَكَ سَخَطُ الله

-Onun cənazəsini apararkən orada üç nida gələr: "Ey Adəm övladı! Əgər xeyir əməlin olubsa, xoş sənin halına! Əgər Allahın rizayəti də səninlə birgədirsə, xoş sənin halına! Yox, əgər Allahın qəzəbi səninlədirsə, vay halına!"

وَ إِذَا وُضِعَ لِلصَّلاةِ نُودِيَ بِثَلاث: يَا ابنَ آدَم! كُلُّ عَمَلٍ عَمِلتَهُ تَرَاهُ سَاعَةً! إِن كَانَ عَمَلُكَ خَيرًا تَرَاهُ خَيرًا! وَ إِن كَانَ شَرًّا تَرَاهُ شَرًا!

-Cənazə üçün namaz qılarkən orada üç nida gələr: "Ey Adəm övladı! Bir azdan etdiyin bütün əməlləri görəcəksən! Əgər əməlin xeyir olubsa, onun xeyrini görəcəksən! Əgər əməlin şər olubsa, şərini görəcəksən!"

وَ إِذَا وُضِعَت الْجَنازةُ عَلَى شَفِيرِ القَبرِ نُودِيَ بِثَلاث: يا ابن آدم! كُنتَ عَلَى ظَهرِي ضَاحِكاً فَصِرتَ فِي بَطنِي بَاكِيًا! وَكُنتَ عَلى ظَهرِي فَرِحًا فَصِرتَ فِي بَطنِي حَزِينًا! وَكُنتَ عَلَى ظَهرِي نَاطِقًا فَصِرتَ فِي بَطنِي سَاكِتًا!

-Cənazəni qəbrə qoyarkən orada (yerdən ona) üç nida gələr: "Ey Adəm övladı! Mənim üzərimdə gülürdün, amma içimdə olarkən ağlayırsan! Mənim üzərimdə olarkən sevinirdin, amma içimdə olarkən qəmlisən! Üzərimdə yeriyərkən danışırdın, içimdə yatarkən sakit qalmısan!"

وَ إِذَا أَدبَرَ النَّاس عَنهُ يَقُولُ اللهِ تَعَالَى: يَا عَبدِي! بَقِيتَ فَرِيدًا وَحِيدًا وَ تَرَكُوكَ فِي ظُلمَةِ القَبرِ وَ قَد عَصَيتَنِي لِأَجلِهِم وَ أَنَا أُرحِمُكَ اليَوم رَحمَةً يَتَعجَّب مِنهُ الْخَلائِق وَأَنا أَشفَقُ عَلَيكَ مِنَ الوَالِدَةِ بِوَلَدِهَا

-Camaat onu dəfn edib getdikdən sonra Allah-təala nida edərək ona buyurar: “Ey Mənim bəndəm! Tək-tənha qalmısan? Səni burada tərk edib getdilər. Sən onlara görə Mənə günah edirdin?! Bu gün sənə elə bir mərhəmət edəcəyəm ki, bütün aləm heyrətə gələcək. Mənim sənə olan mehribançılığım, ananın sənə olan məhəbbət və mehribançılığından daha çoxdur!”[1]

**2. Möminin qəlbini sevindirmək**

Qəbirdə insandan əzabı götürən, yaxud əzabın yüngülləşməsinə səbəb olan amillərdən ikincisi mömin insanın qəlbini sevindirməkdir. Qəlbi sevindirməyin müxtəlif yolları vardır. Bəzən yaxşı söhbətlə, bəzən hədiyyələrlə, ehtiyacını həll etməklə, çətinliyini aradan qaldırmaqla və bu kimi digər (halal) işlərlə insanın qəlbini sevindirmək mümkündür.

قَالَ الصَّادِقُ(ع): مَنْ نَفَّسَ مِن مُؤْمِن كُرْبَةَ، نَفَّسَ اللهُ عَنْهُ كُربَ الأخِرَةِ وَ خَرَجَ مِنْ قَبْرِهِ وَ هُوَ ثَلِجُ الْفُؤَادِ

- İmam Sadiq(ə) buyurur: “Kim möminin qəmini aparsa və çətinliyini həll etsə, Allah-təala axirət qəmlərini

[1]Ləalil-əxbar, 4-cü cild, səh. 44.

ondan uzaqlaşdırar və qəbirdən rahat qəlblə (şad halda) qaldırar."[1]

İmam Sadiqdən(ə) belə rəvayət olunur ki, mömin (qiyamət günü) qəbirdən qalxarkən onunla bir surət də çıxar və hər an o möminin yanındadır. Mömin qiyamət gününün qorxulu səhnələrini görəndə həmin surət deyər: "Qorxma və kədərlənmə…" Beləliklə hesab-kitabdan tez qurtarıb cənnətə daxil olar. Mömin ona deyər: "Sən kimsən? Surət deyər: Mən mömin qardaşının qəlbini sevindirdiyin həmin şadlıq və sevincəm."[2]

Odur ki, mömin insanın çətinliyini həll etmək, qəmini dağıtmaq, ürəyini şad etmək qəbir əzabının aradan qaldırılmasına səbəb olar.

**3. Cümə axşamları iki rükət namaz qılmaq**

Cümə axşamından cümə gününə keçən gecənin özünəməxsus bir namazı vardır. Bu namaz iki rükətdən ibarətdir. Sübh namazı kimi qılınır və hər rükətdə "Həmd" surəsindən sonra 15 dəfə "Zilzal" ("Zəlzələ") surəsini oxumaq lazımdır. Həzrət Peyğəmbər(s) buyurmuşdur: "Hər kim bu namazı qılsa, Allah-təala onu qəbir əzabından və qiyamət gününün qorxulu səhnələrindən amanda saxlayar."[3]

**4. Rəcəb və şəban aylarının namazları**

---

[1] Qəbrin həqiqəti, səh. 44.
[2] Qəbrin əzabları, səh. 67.
[3] Qəbrin əzabları, səh. 75.

Rəcəb və şəban ayının gecələrinin və gündüzlərinin müxtəlif xüsusiyyətlərə malik namazları vardır. Bu namazların da hər birinin qaydası, özünəməxsus təsir və xüsusiyyətləri var ki, burada bəhsimizə uyğun olan namazları diqqətinizə çatdırıram. Yəni hər kim bu namazları qılsa, qəbir əzabının aradan qalxmasına səbəb olar.

Rəcəb ayının 14-dən 15-nə keçən gecənin namazı belədir: 30 rükətli namazdır ki, hər rükətdə 1 dəfə "Həmd" və on dəfə "Tövhid" ("Qul huvəllahu əhəd") surəsi oxunur. Bu namaz rəcəb ayının 16 və 17-ci gecələri üçün də təyin olunmuşdur.

Şəban ayının birinci gecəsi 100 rükətli namaz qeyd olunmuşdur. Hər rükətdə bir "Həmd", bir "Tövhid" surəsi oxunur. Namaz qurtardıqdan sonra 50 dəfə "Tövhid" surəsi oxunmalıdır.

Şəban ayının 24-cü gecəsində iki rükət namaz qılmaq da müstəhəbdir. Bu namaz iki rükətdən ibarətdir və hər rükətdə 1 dəfə "Həmd" və 10 dəfə "Nəsr" surəsini oxumaq lazımdır.

Həmçinin rəcəb ayının ortasında gündüz çağı hər rükətində 1 dəfə "Həmd", "Fələq" və "Nas" surəsindən ibarət 50 rükət namaz qılmaq da tövsiyə olunmuşdur. Bundan əlavə, rəcəb ayının bəzi günləri üçün də namazlar təyin olunmuşdur ki, həm bu namazlar, həm də günlərini qeyd etdiyimiz namazlar insanda böyük nuraniyyət yaranmasına, habelə qəbir əzabının aradan götürülməsinə səbəb olur. Məsələn, o namazlardan biri də "leylətür-rəğaib" namazıdır ki, "Məfatihul-Cinan" kitabında bu haqda açıqlama verilmişdir.

### 5. Rəcəb və şəban aylarının orucları

Rəcəb və şəban aylarının günləri üçün namaz müəyyən olunduğu kimi, oruc tutmaq da nəzərdə tutulmuşdur. Bu mübarək ayların hər bir gününün orucunun özünəməxsus fəziləti, xüsusiyyəti və savabları vardır. Hədislərdə qeyd olunur ki, rəcəb ayında 4 gün və şəban ayında 12 gün oruc tutmaq qəbir əzabının aradan qaldırılmasına səbəb olar.

Bütün bu namaz və digər ibadətlərdə əsas məqsəd odur ki, insan daim Allahla ünsiyyətdə olsun. Allahla ünsiyyət çoxaldıqca təbii ki, günahlar da azalacaq. Ola bilməz ki, insan gecələr Allaha ibadət etsin, gündüzlər isə haram yesin. Ola bilməz ki, insan gecələr alnını səcdəyə qoyub istiğfar etsin və gündüzlər günahla məşğul olsun. İbadət etmək insanı Allaha yaxınlaşdırır, günah etmək isə uzaqlaşdırır. Odur ki, insan namaz, oruc və s. ibadətlər vasitəsilə Allaha yaxınlaşdıqca qəbir əzabı da ondan götürülür.

**6. Gecə namazı**

Gecə namazı çox təkid olunmuş müstəhəb namazlardandır ki, dərin xüsusiyyətlərə və təsirə malikdir. Cəmi 11 rükətdən ibarətdir ki, 8 rükət nafilə, 2 rükət şəf və bir rəkət də vətr namazıdır. Gecə namazı çox mühüm və insanın taleyində böyük təsirə malik olan bir ibadətdir. Bu namazın çoxlu xüsusiyyət və təsirləri vardır ki, onlardan biri də insana qəbir əzabından nicat verməkdir.

قَالَ الرِّضَا(ع): عَلَيْكُمْ بِصَلاةِ اللَّيْلِ فَما مِنْ عَبْدٍ يَقُومُ آخِرَ اللَّيْلِ فَيُصَلِّى ثَمانَ رَكَعاتٍ وَ رَكعَتَيِ الشَّفعِ وَ رَكعةَ الوَترِ وَاستَغفَرَ اللّهَ فِى قُنُوتِهِ سَبعِينَ مَرَّةً اِلاّ اُجِيرَ مِنَ عَذابِ القَبرِ...

-İmam Rza(ə) buyurur: “Sizə gecə namazı qılmağı tapşırıram. Bəndə gecənin axırında (yuxudan) qalxıb 8

rükət gecə, 2 rükət şəf, bir rükət vətr namazı qıldıqda, eləcə də (vətr namazının) qunutunda yetmiş möminə dua etdikdə Allah-təala həmin bəndəni qəbir əzabından amanda saxlayar.[1]

**7. Xəstəyə baş çəkmək**

Xəstəyə baş çəkmək çox savab və əhəmiyyətli əməllərdən biridir. Bu əməlin xüsusiyyətlərindən biri də budur ki, qəbir əzabının yüngülləşməsinə, yaxud aradan götürülməsinə səbəb olur.

İmam Baqir(ə) buyurur: “Həzrət Musa(ə) Allahla minacat edərkən xəstəyə baş çəkməyin savabı haqda soruşduqda Allah-təala ona belə buyurdu:

أُوَكِّلُ بِهِ مَلَكاً يَعُودُهُ فِي قَبرِهِ إِلَى مَحشَرِهِ

-Ona baş çəkmək üçün bir mələk müvəkkil edərəm ki, qəbirdən qiyamət gününə qədər onun yanında olar.[2]

İslamda xəstəyə baş çəkməyin qayda-qanunları vardır. Onlardan biri də budur ki, insan xəstəyə baş çəkərkən onun yanında çox oturmamalıdır. Amma axirət aləmində belə deyil. Kim dünyada xəstəyə baş çəkibsə, Allah-təala qəbirdə ona baş çəkmək üçün bir mələk göndərər və həmin mələk qiyamət gününə qədər qəbirdə onun yanında olar. Belə olduqda qəbir əzabı həmin insandan götürülər. Çünki mələklərin olduğu yerdə əzab olmaz. Hətta Allah-təala bir yerə əzab nazil edərkən mələklərə oranı tərk etməyə əmr verər. Mələklər oranı tərk etdikdən sonra Allah həmin yerə bəla nazil edər.

---

[1] Qəbrin həqiqəti, səh. 190.
[2] Savabul-əmal, səh. 432.

### 8. Övlada "Bismillahir-rəhmanir-rəhim" kəlməsini öyrətmək

İnsandan qəbir əzabını götürən amillərdən biri insanın öz övladına "Bismillahir-rəhmanir-rəhim" kəlməsini öyrətməkdir. Odur ki, hər bir övlad yer üzündə Allahın adını zikr etsə, Allah-təala onun valideynindən qəbir əzabını götürər.

Günlərin birində Həzrət İsa(ə) bir qəbrin kənarından keçərkən orada dəfn olunmuş insanın əzab içində olduğunu görür. Bu hadisənin üstündən bir müddət keçdikdən sonra Həzrət İsanın(ə) yolu yenə də həmin yerə düşür. Görür ki, o qəbirdə əllərində nur tutmuş mələklər həmin dəfn olunan insanın başı üzərində dayanıblar. Bu işə çox təəccüb edir və iki rükət namaz qılaraq Allahdan bunun sirrini soruşur: "Allah-təala ona nida edərək buyurur: Ey İsa, Mənim bu bəndəm günahkar bir insan idi. O, dünyasını dəyişərkən həyat yoldaşı hamilə idi. Uşaq dünyaya gəldikdən sonra anası ona gözəl tərbiyə verdi. Məktəb vaxtı yetişdi. Anası onu aparıb müəllim yanına qoydu. Müəllim ilk növbədə ona "Bismillahir-Rəhmanir-Rəhim" kəlməsini öyrətdi. Uşaq da dilinə bu kəlməni gətirdi. Bir uşaq yer üzərində Mənim adımı çəkdi, yerin altında onun atasına əzab verməyə utandım. Buna görə də onu bağışladım."[1]

Allahın adını zikr etmək çox yaxşıdır. Allah-təala Onun adını çəkən insana mərhəmət inayət edər. Allahın bütün adları bərəkətlidir. Hər bir müqəddəs və halal işi görərkən Allahın adını çəkdikdə Allah həmin işə bərəkət

[1] Rəhmət olunmuş və qarğış edilmiş övladlar, səh. 64.

verər. Hətta Allahın adına hörmət edən insanlara kəramət və hikmət bəxş edər.

Allah-təala Loğmana hikmət bəxş etmişdi. Onun ləqəbi həkim idi. Onun bu dərəcəyə gəlib çatması bir əməlinin nəticəsində olmuşdu. Bir gün Loğman yol gedərkən gözü yerdə toz-torpağa bulaşmış və üzərində "Bismillah" yazılmış bir parçaya və ya dəriyə sataşdı. Əyilib onu götürdü və evə apardı. Onun toz-torpağını yuyub təmizlədikdən sonra hörmət əlaməti olaraq öpüb gözlərinin üzərinə qoydu. Rəvayətlərdə yazırlar ki, ehtiram əlaməti olaraq həmin yazını yuduğu suyu da təbərrük üçün içdi. Allah-təala ona bu əməlinə görə hikmət bəxş etdi. Loğman bircə bu hərəkəti ilə o dərəcəyə gəlib çatdı ki, öz oğluna etdiyi moizə və nəsihətləri Allah-təala Quranda ayə kimi nazil etdi. Bircə hərəkəti ilə belə bir izzətə nail oldu və Allah-təala onun adına "Loğman" surəsini nazil etdi. Onun sözləri Quranın ayəsi oldu. Loğmanın sözlərini və moizələrini Allah-təala bizə Quranda onun dili ilə bəyan edir. Loğmanın Quranda yazılmış sözlərinə (Quran ayəsi olduğu üçün) dəstəmazsız əl vurmaq günahdır.

Beləliklə qəbir əzabından qorxan və bu əzabdan yaxa qurtarmaq istəyən insan yuxarıdakı hədislərə əsasən qeyd olunan əməllərə riayət etməklə qəbir əzabından nicat tapa bilər.

## (Zikrlər)

İnsana qəbir əzabından nicat verən və yaxud əzabı yüngülləşdirən əməllərdən başqa bir sıra zikrlər də mövcuddur. Hədis və rəvayətlərə əsasən bu zikrləri etmək Allah-təalanın insanı qəbir əzabından amanda saxlamasına səbəb olar.

### 9. “Fərəc kəlmələri”ni oxumaq

“Fərəc kəlmələri” İmam Zamanın(ə.c) “Fərəc” duasından fərqlidir. “Fərəc” çətinlikdən çıxmağa deyilir. Bəzən bir-birimizə dua edərkən deyirik: “Allah işinə fərəc versin”, yəni “Allah nicat versin, çətinlikdən qurtarasan və yaxud çıxış yolunu açsın” kimi mənalarda işlənir. İmam Zamanın(ə.c) “Fərəc” duasını onun tez zühur etməsi üçün oxuyuruq. Bundan başqa iki “Fərəc kəlmələri” duası vardır ki, onlardan biri qeyd edəcəyimiz duadır. Bu dua xüsusi bir duadır ki, böyük təsir və əhəmiyyətə malikdir. Bu duanı oxumağın faydalarından biri də budur ki, insana qəbir əzabından nicat verər.

Həzrət Peyğəmbər(s) buyurur: “Hər kəs gündə (ən azı) 10 dəfə bu duanı oxusa, Allah-təala onun günahlarını bağışlayar, ölümün məstliyindən (çətinliyindən), qəbir əzabından, qiyamətin vəhşətindən nicat verər, şeytanın şərindən qoruyar, qəm-qüssəsini aradan qaldırar və borclarını qaytarmaqda ona kömək edər.”

Həmin dua budur:

أَعْدَدْتُ لِكُلِّ هَوْلٍ لَا إِلَهَ إِلَّا اللَّهُ، وَ لِكُلِّ هَمٍّ وَ غَمٍّ مَا شَآءَ اللَّهُ، وَ لِكُلِّ نِعْمَةٍ الْحَمْدُ لِلَّهِ، وَ لِكُلِّ رَخَآءٍ وَ شِدَّةٍ الشُّكْرُ لِلَّهِ، وَ لِكُلِّ أُعْجُوبَةٍ سُبْحَانَ اللَهِ، وَ لِكُلِّ ذَنْبٍ أَسْتَغْفِرُ اللَهَ، وَ لِكُلِّ مُصِيبَةٍ إِنَّا لِلَّهِ وَ إِنَّا إِلَيْهِ رَاجِعُونَ، وَ لِكُلِّ ضِيقٍ حَسْبِيَ اللَّهُ، وَ لِكُلِّ قَضَآءٍ وَ قَدَرٍ تَوَكَّلْتُ عَلَى اللَهِ، وَ لِكُلِّ عَدُوٍّ اعْتَصَمْتُ بِاللَهِ، وَ لِكُلِّ طَاعَةٍ وَ مَعْصِيَةٍ لَا حَوْلَ وَ لَا قُوَّةَ إِلَّا بِاللَهِ الْعَلِيِّ الْعَظِيمِ

-Hər bir qorxu ilə üzləşdikdə (ondan nicat tapmaq üçün) özümü “La ilahə illəllah” - “Allahdan başqa heç bir məbud yoxdur” deməyə hazırlamışam. Hər bir kədərlə

üzləşdikdə (qəm-qüssədən rahat olmaq üçün) “Maşallah”, “Allah istədiyi” deyərəm. Hər bir nemət üçün “Əlhəmdulillah” (“Həmd olsun Allaha”), hər bir rahatlıq üçün “Əşşukru lillah” (“Şükür olsun Allaha”) deyərəm. Qəribə və təəccüblü hallarla qarşılaşdıqda “Subhanallah” (“Allah pak və münəzzəhdir”) və hər bir günah üçün “Əstəğfirullah” (“Allahdan bağışlanmaq diləyirəm”) deyərəm. Hər hansı müsibətlə üzləşdikdə “İnna lillah və inna ileyhi raciun” (“Allah tərəfindən gəlmişik və Ona tərəf də qayıdacağıq”) deyərəm. Hər bir sıxıntı və çətinlikdə “Həsbiyəllah” (“Allah mənə bəs edər”) deyərəm. Hər bir qəza-qədərdə “Təvəkkəltu ələllah” (“Allaha təvəkkül edirəm, arxalanıram”) deyərəm. Hər hansı düşmənlə qarşı-qarşıya gəldikdə (nicat tapmaq üçün) “İtəsəmtu billah” (“Allahın ətəyindən yapışıram”) deyərəm. Hər itaət və günah üçün “La hövlə vəla quvvətə illa bilahil-əliyyil əzim” (“Uca və əzəmətli Allahın köməyindən başqa heç bir güc-qüvvə yoxdur”) deyərəm.[1]

**10. Salavat**

İnsana qəbir əzabından nicat verən zikrlərdən biri də Həzrət Peyğəmbərə(s) və Ali-Məhəmmədə çoxlu salam-salavat göndərməkdir. Həzrət Peyğəmbər(s) buyurur: “Mənə çoxlu salavat göndərin. Çünki mənə salavat göndərmək qəbirdə (salavat göndərənin qəbrində) nur yaranmasına səbəb olar.”[2]

Əlbəttə, salavat barədə çoxlu fəzilətlər qeyd olunmuşdur ki, əgər bu haqda danışası olsaq, əsas

[1] Mənazilül-axirə, səh. 10; Məfatihi-məhəllati, səh.1215.
[2] Qəbrin əzabları, səh. 81.

bəhsimizdən kənara çıxacağıq. Buna görə də bir neçə kəlmə ilə kifayətlənmək istərdim.

**(Quranın surələri)**

Qəbirdə insandan əzabı götürən amillərdən biri də Quranın bəzi surələrini oxumaqdır. Ümumiyyətlə, Quranın həm surələrinin, həm də ayələrinin özünəməxsus təsir və xüsusiyyəti vardır. Hətta bəzən kəlmələrin də təsiri olur. Quran özü elm dəryasıdır. Hədislərdə hər bir surənin xüsusiyyət və təsiri haqda söz açılmışdır. Quranda üç surənin xüsusiyyət və təsirlərindən biri budur ki, qəbirdə insanın əzabını aradan qaldırır. Həmin surələr bunlardır:

**11. "Mülk" surəsi**

"Mülk" surəsi o surələrdəndir ki, onu həmişə oxuyan insandan qəbir əzabını götürər. Buna görə də bu surənin adına "Munciyə" və "Maniə" də deyilir. "Munciyə" nicat verən mənasını ifadə edir və qəbirdə insana nicat verdiyinə görə bu adı özündə daşıyır. "Maniə" maneə deməkdir ki, qəbir əzabını və cəhənnəm odunun insana yetişməsinin qarşısını alır.

**12. "Nisa" surəsi**

Hədislərdə qeyd olunur ki, hər kim cümə günləri "Nisa" surəsini oxusa, qəbir əzabından amanda qalar.

**13. "Yasin" surəsi**

Hədislərdə deyilir ki, yatmazdan öncə "Yasin" surəsini oxumaq qəbir əzabının götürülməsinə səbəb olar.

## İnsandan qəbir əzabını götürən digər əməllər

Yuxarıda qeyd olunan amillərdən əlavə, bir sıra əməllər də vardır ki, onlara riayət etmək insanın qəbir əzabından nicat tapmasına səbəb olur. Əlbəttə, bu əməllər insanın özünə deyil, öldükdən sonra yaxınlarına və onu dəfn edənlərə aid olan əməllərdir. Bu işləri görmək də insanın qəbir əzabının aradan götürülməsinə səbəb olar. Lakin bu işlərin keyfiyyəti gecə namazının və qeyd olunan əməllərin keyfiyyəti qədər güclü deyil. Gecə namazı insana nicat verər və imkan verməz ki, qəbirdə insana əzab versinlər. Amma bu əməllərin də müəyyən qədər təisr və xüsusiyyəti vardır. Həmin əməllər bunlardır:

**14.** Cənazəni peyğəmbərlərin, imamların və məşhur imamzadələrin qəbrinin ətrafında təvaf (dövr) etdirmək.

**15.** Cənazəni imamların və Qum şəhərində Xanım Məsumənin(s.ə) qəbrinin kənarında (həmin şəhərdə) dəfn etmək.

**16.** Cənazəni (Nəcəfdə) "Vadiüs-salam" qəbiristanlığında dəfn etmək.

Burada bir mətləbi də əziz möminlərin diqqətinə çatdırmaq istərdim. Həmin mətləb budur ki, Allahın mələkləri içərisində "Nəqqalə" ("daşıyıcı") adlı bir qrup mələklər vardır. Onların işi cənazələri qəbirdən çıxarıb başqa yerə daşıyaraq orada basdırmaqdır. Əgər zalım və murdar insanları (pulunun və yaxud adamının çoxluğuna görə) aparıb müqəddəs yerlərdə dəfn edirlərsə, sonradan həmin mələklər onun cənazəsini oradan çıxarıb uzaq və murdar yerlərə aparırlar. Çünki Allah-təala murdar və zalım insanların meyitlərinin müqəddəs yerlərdə dəfn olunmasına icazə vermir. Ona görə də həmin mələklərə bu işin icrası həvalə olunmuşdur. O mələklər həmçinin dünyanın uzaq və qərib bir yerində dəfn olunmuş mömin insanların cənazəsini çıxarıb müqəddəs yerlərə gətirərək

dəfn edərlər. Bu barədə tarixi mənbələrdə çoxlu maraqlı əhvalatlar da qeyd olunmuşdur.

**17.** Meyitin qoltuğuna, yaxud qəbrinə yaş çübüq qoymaq. Qədim zamanlarda adətən söyüd ağacının budaqlarından kəsib meyitin qoltuğuna, yaxud da qəbrinə qoyardılar. Səbəbi də bu idi ki, həmin budaqlar quruyana qədər Allah-təala qəbir əzabını ondan götürərdi.

**18.** Qəbrin üstünə su səpmək. Bildirildiyinə görə həmin su quruyana qədər Allah-təala həmin meyitə qəbir əzabı verməz. Su Allahın rəhməti, bərəkəti və Xanım Fatimeyi Zəhranın(s.ə) mehriyəsi olduğundan Allah-təala onun hörmətinə xatir meyitdən qəbir əzabını götürər.

**19-21. Qadının ailədaxili əziyyətlərə dözməsi**

Qəbir əzabını aradan qaldıran amillərdən bir neçəsi də qadınlara məxsus olan əməllərdir. Bunlar üç əməldir ki, üçü də bir hədisdə qeyd olunmuşdur.

قَالَ رَسُولُ اللّهِ(ص): ثَلَاثَةُ نِسَاءٍ يَرْفَعُ اللَّهُ عَنْهُنَّ عَذَابَ الْقَبْرِ وَ حَشَرهنَّ مَعَ فَاطِمَةَ عَلَيهَا السَّلام:

اِمْرَأَةٌ صَبَرَتْ عَلَى عُسرِ زَوْجِهَا وَ اِمْرَأَةٌ صَبَرَتْ عَلَى سُوءِ خُلُقِ زَوْجِهَا وَ اِمْرَأَةٌ وَهَبَتْ صَدَاقَهَا

-Həzrət Peyğəmbər(s) buyurur: "Allah-təala üç cür qadından qəbir əzabını götürər və (qiyamət günü) onu Fatimə(s.ə) ilə məşhur edər: 1) Ərinin imkansızlığına səbir edən qadın; 2) Ərinin pis rəftarına dözüb səbir edən qadın; 3) Mehriyəsini ərinə bağışlayan qadın."[1]

Ailənin mükəmməl olması və bir ailə kimi formalaşması üçün ər-arvad münasibətləri önəmli yerdə dayanır. İslam dini hər bir ailənin xoşbəxt olması üçün müəyyən qanun və tövsiyələr bəyan etmişdir. Əgər qadın kişinin pis rəftarına, həmçinin kişi də qadının pis rəftarına dözüb səbir etsə, Allah-təala hər ikisinə böyük savab inayət edər. Bundan əlavə, ailədə səbirli olmaq ailənin dağılmamasına səbəb olar. Qadının ərinin imkansızlığına və bəd rəftarına səbir etməsinin üstünlükləri barədə çoxlu hədislər qeyd olunmuşdur. O cümlədən:

---

[1] Məvaizul-ədədiyyə, səh.146.

قَالَ رَسُولُ اللّهِ(ص): مَن صَبَرَتْ عَلى سُوءِ خُلُقِ زَوجِها أعطاها مِثلَ (ثَوابِ) آسِيَةَ بنتِ مُزاحِمٍ

-Həzrət Peyğəmbər(s) buyurur: "Allah-təala ərinin bəd rəftarına səbir edən qadına Müzahimin qızı Asiyanın (Fironun həyat yoldaşının) savabı qədər savab verər."[1]

Asiya Allaha iman gətirdiyi üçün Firon onu əzab və işgəncələrlə edam etdi. O, elə bir qadın idi ki, bütün bu işgəncələrə baxmayaraq, imanından dönmədi. Allah- təala onun carmıxda söylədiyi cümləni Quranın ayələrinə daxil etmişdir. Onun söylədiyi cümlənin Quran ayəsinə çevrilməsi məhz onun çox imanlı bir insan olduğundan xəbər verir. Buna görə də hər bir ailədə qadın öz ərinin pis rəftarına səbir etsə, Allah-təala ona Asiyanın savabı qədər savab inayət edər. Əlbəttə, kişi də ailədə əgər arvadın pis rəftarına dözub səbir etsə, Allah-təala ona Əyyub Peyğəmbərin(ə) səbrinə verdiyi savab qədər savab bəxş edər.

قَالَ رَسُولُ اللّهِ(ص): مَن صَبَرَ عَلى سُوءِ خُلُقِ امرَأتِهِ و احتَسَبَهُ، أعطاهُ اللّهُ تَعَالى بِكُلِّ يَومٍ و لَيلةٍ يَصبِرُ عَلَيهَا مِنَ الثَّوابِ مَا أعطى أيُّوبَ عليه السلام عَلى بَلائهِ

-Həzrət Peyğəmbər(s) buyurur: "Əgər kişi Allaha xatir (ailənin dağılmaması üçün) arvadının pis rəftarına dözüb səbir etsə, Allah-təala ona səbir etdiyi hər gecə və

[1] Mizanül-hikmə, 5-ci cild, hədis - 7892.

gündüz üçün Əyyub Peyğəmbərin(ə) bəlalar müqabilində göstərdiyi səbrə verildiyi savab qədər savab verər."[1]

Odur ki, ailədə qadının kişinin əziyyətinə və kişinin də qadının əziyyətinə dözüb səbir etmələri bu qədər savaba malikdir. Lakin əsas sözümüz qəbir əzabını aradan qaldıran amillər haqda olduğundan bütün bu savablarla yanaşı, qadın üçün olan üstünlüklərdən biri budur ki, ərinin imkansızlığına səbir etməsi, pis rəftarına dözməsi, və mehriyəsini ona bağışlaması qəbir əzabının ondan götürülməsinə səbəb olar.

### 22. Peyğəmbərə(s) onun Əhli-beytinə(ə) məhəbbət bəsləmək

Qəbrin əzabını insandan götürən amillərdən biri də Həzrət Peyğəmbərə(s) və onun Əhli-beytinə(ə) məhəbbət bəsləməkdir. Onlara məhəbbət bəsləmək müxtəlif hallarda insana nicat verəcəkdir. Hədis belədir:

-Həzrət Peyğəmbər(s) buyurur: "Mənim və əhli-beytimin məhəbbəti (sizin üçün) neçə yerdə faydalıdır:

1. Ölən zaman;
2. Qəbirdə və Nəkir və Münkərin suallarına cavab verən zaman;
3. Qiyamət günü qəbirdən qalxan zaman;
4. Qiyamət günü hamının qarşısında əməl kitabının açıldığı zaman;
5. Qiyamət məhkəməsində hesab-kitab olunan zaman;
6. Əməl və əqidələrin tərəzidə ölçüldüyü zaman;
7. Siratdan keçən zaman."[2]

---

[1] Yenə orada, - 7891.
[2] Qəbrin həqiqəti, səh. 175.

Həzrət Peyğəmbər(s) dəfələrlə Quran və Əhli-beyti(ə) bizə tapşırmış və onların qiyamət gününə qədər bir-birindən ayrılmayacağını söyləmişdir. Həm Quran, həm də Əhli-beyt(ə) nur və hidayətdir. Hədislərdə deyilir ki, Quranı bilməyən insanı cənnətə buraxmayacaqlar. Əgər dünyada Quranı səhlənkarlıq üzündən deyil, üzürlü səbəbə görə öyrənə bilməyibsə, ona əvvəlcə Quranı öyrədəcəklər və sonra isə cənnətə aparacaqlar. Quran barəsində olduğu kimi, Əhli-beyt(ə) barəsində də belədir. Əgər bir insan dünyada Əhli-beytin(ə) adını eşidibsə, amma onları qəbul etməyibsə, yaxud inadkarlıq edərək onlara qarşı kin bəsləyirsə, onun cənnətə getməsi mümkün deyil. Həzrət Peyğəmbərdən(s) bu barədə təxminən 500-600 hədis söylənilmişdir ki, hər kimin ürəyində Əhli-beytin(ə) məhəbbəti olmasa və onlara qarşı kin-küdurət bəsləsə, ömrünün hamısını ibadətlə keçirməsinə baxmayaraq, cənnətin iyi belə onun burnuna dəyməyəcək. Əgər bir insan inadkarlıq üzündən deyil, ucqar yerlərdə, savadsız insanların arasında, informasiyanın yetişmədiyi yerlərdə yaşaması kimi üzürlü səbəblərə görə bu məsələdən agah olmayıbsa, dünyadan gedəndən sonra ilk növbədə ona Əhli-beytin(ə) vilayətini öyrədib sonra cənnətə buraxarlar.

Əllamə Təbatəbayi deyir: "Kərbəlada Seyid Cavad adlı bir ruhani alim yaşayırdı. Çox gözəl xətib olduğu üçün məclislərə dəvət edərdilər. O da məclislərdə camaat üçün xütbə oxuyardı. O deyir: "Günlərin birində məni Kərbəladan kənarda yerləşən qəsəbələrin birində təşkil olunmuş bir məclisə dəvət etdilər. Orada çıxış etdikdən sonra əyləşdim. Yanımda nurani bir kişi də əyləşmişdi. Onunla bir az söhbət etdikdən sonra başa düşdüm ki, o, Həzrət Əlinin(ə) vilayətindən xəbərsizdir. Belə ki, vilayətin mənasını dəqiq başa düşməmişdir. Yavaş-yavaş

vilayət barədə söhbətə başladım. Sonra ondan soruşdum: Sizin şeyxiniz varmı?”[1]

Kişi dedi: “Əlbəttə ki, var.”

Soruşdum: “Onun nə kimi xüsusiyyətləri var?”

Dedi: “Bizim şeyximizin gözəl xüsusiyyətləri var. Onlardan biri budur ki, evində səhərdən axşama qədər qazanlar ocaq üstə olur. Evində həmişə qonaqlıq verir. Elə gün olmur ki, onun süfrəsində qonaq olmasın. Gecə-gündüz onun evinə getsən, əliboş qayıtmazsan. Çox əliaçıq və səxavətli bir insandır.”

Dedim: “Çox yaxşı şeyxiniz var.”

Sonra heç bir söz demədim və gözlədim ki, o da məndən nəyisə soruşsun. Azacıq keçmişdi ki, o da məndən soruşdu: “Bəs sizin də şeyxiniz varmı?”

Dedim: “Bəli, bizim də yaxşı bir şeyximiz var.”

Soruşdu: “Onun adı nədir?”

Dedim: “Şeyx Əli.”

Soruşdu: “Sizin şeyxinizin xüsusiyyəti nədir?”

Dedim: “Bizim şeyximizin xasiyyəti budur ki, əgər ona ürəkdən iman gətirsən və dünyanın harasında olursan-ol, çətinliyə düşdükdə bircə dəfə “Ya Əli” – deyib, onu səsləsən, görərsən ki, başının üzərində hazırdır.”

Elə bu zaman camaat dağılışdı və onunla söhbətimiz yarımçıq qaldı. Mən sözümü axıra qədər ona çatdıra bilmədim. Sonra camaatla sağollaşıb Kərbəlaya qayıtdım. Qayıtdıqdan sonra fikirləşdim ki, əgər bircə dəfə də o kişi ilə görüşə bilsəydim, Həzrət Əlinin(ə) vilayətini ona tam anlada bilərdim. Amma istəyirdim ki, yenə də onunla

---

[1] Ərəblərdə hər qəbilənin böyüyü olur və ona “Şeyx” - deyə müraciət edirlər.

görüşüm. Bu məsələ hey fikrimdə dolaşırdı. Bir neçə ay keçdikdən sonra həmin qəsəbəyə getdim. Camaatdan həmin kişini soruşdum. Dedilər ki, rəhmətə gedib. Öz-özümə çox narahat oldum. Sonra onun ünvanını soruşub evlərinə sarı yollandım. Qapını döydükdə bir oğlan çıxdı. Soruşdum ki, filankəsin evi buradır? Dedi: Bəli. Dedim: Sən onun oğlusanmı? Dedi: Bəli. Dedim: Mən rəhmətlik atanla dost idim. Onun rəhmətə getdiyini eşitdim və sizə başsağlığı vermək üçün gəlmişəm. Məni evə dəvət etdilər. Başsağlığı verdikdən sonra söhbət etməyə başladıq. Söz şirin gəldiyi üçün bir neçə saat söhbət etdik. Sonra üzrxahlıq edib ayağa qalxdım və getmək istəyəndə məni buraxmadılar. Dedilər: Uzaq yoldan gəlmisən və bu gün bizim qonağımızsan. Həm gedib onun qəbrini ziyarət edərik, həm də gecəni bizdə qalarsan. Qəbir üstə gedib gəldikdən sonra gecə mənim üçün yer düzəltdilər. Gecəni orada yatdım. Yuxuda gördüm ki, uzun bir dalandayam. Dalanın axırından işıq gəlir. Həmin dalanla irəliləyib işıq gələn tərəfə getdim. Ora çatdıqda həmin qoca kişini və daha iki başqa şəxsi də orada gördüm. Kişi məni görən kimi yaxınlaşıb dedi: “Seyid Cavad, sən mənə demişdin ki, şeyxinizin adı Şeyx Əlidir. Bəs niyə demədin ki, Əli ibn Əbu Talibdir(ə)? Mən bunu bilmədim və sözümüz yarımçıq qaldı. Mən öldükdən sonra vəziyyətim çox pis idi. Məni cəhənnəmə tərəf aparırdılar ki, sənin sözün yadıma düşdü. Elə bu zaman “Ya Əli” - deyib sizin şeyxinizi çağırdım. Birdən gördüm ki, şəxsən Əli ibn Əbu Talib özü gəldi. Sən demə, mənə dediyin həmin şeyx Həzrət Əli(ə) imiş. Seyid Cavad, bilirsənmi nə oldu? Mən onu çağıran kimi gəldi və məni aparan mələkləri qaytardı. Sonra özü ilə gətirdiyi bu gördüyün iki nəfərə buyurdu ki, bu kişi inadkar insan olmayıb. O, müstəzəf və üzürlü

olduğu üçün mənim vilayətimi anlamayıb. Siz məni onunla tanış edin və vilayətimi ona öyrədin.

Seyid Cavad, həmin gündən bu günə qədər bu iki nəfər mənə Həzrət Əlinin(ə) imamət və vilayəti haqda dərs deyirlər. Öyrəndikdən sonra məni bərzəxdə cənnət bağlarının birinə aparacaqlar."

Doğrudur, bu hadisənin yuxuda baş verməsinə baxmayaraq, hədislərlə tam uyğun gəldiyi üçün onu etibarlı saymaq olar. Qeyd olunduğu kimi, Həzrət Peyğəmbər(s) buyurmuşdur ki, hər kim əgər dünyada Quranı səhlənkarlıq üzündən deyil, üzürlü səbəbə görə öyrənə bilməyibsə, qəbirdə ona əvvəlcə Quranı öyrədəcəklər, bundan sonra isə cənnətə aparacaqlar. Əhli-beytin vilayət və məhəbbəti də elədir. Hər kim inadkarlıq üzündən deyil, üzürlü səbəblərə görə vilayəti başa düşməyibsə və onlara qarşı kin-küdurət bəsləməyibsə, qəbirdə ona imamların imamət və vilayətini öyrətdikdən sonra cənnətə aparacaqlar.

Odur ki, Həzrət Əlinin(ə) vilayəti, Həzrət Peyğəmbərin(s) və Əhli-beytin(ə) məhəbbəti bütün çətin anlarda insana nicat bəxş edəcəkdir.

***Allah-təala bu dünyada və axirətdə bizi Həzrət Peyğəmbərdən(s) və Əhli-beytdən(ə) ayrı salmasın! İnşallah.***

# MÜNDƏRİCAT

**QURANDA İMAN GƏTİRƏNLƏRƏ XİTABLAR..... 3**
**(Üçüncü nümunənin davamı) ........................................ 3**
**İnsanın ölümdən sonrakı mərhələləri............................ 4**
**Ölümdən qəbrə kimi ........................................................ 4**
**Meyit haqda hökmlər ....................................................... 4**
**Öldükdən sonra insanın ardınca gələnlər ................... 17**
**Elm öyrətmə .................................................................. 18**
**Ölkənin sərhədlərini qoruma ....................................... 22**
**Hər növ sədəqə (xeyirxahlıq)........................................ 24**
**Yazılı səhifə qoyma........................................................ 24**
**Ağac əkmə ..................................................................... 25**
**Su çəkmə, su quyusu qazma ......................................... 27**
**Saleh övlad .................................................................... 29**
**BƏRZƏX ALƏMİ .......................................................... 33**
**Quran baxımından bərzəx aləmi ................................. 36**
**Bərzəx aləmi hədis və rəvayətlərdə............................. 46**
**Bərzəxin həqiqəti və insanların ruhlarının orada məskunlaşması ............................................................. 48**
**Möminlərin bərzəxdəki vəziyyətləri ............................ 51**
**Kafirlərin bərzəxdəki vəziyyətləri ............................... 52**
**Bərzəx aləmində insanlar hansı surətdədir?............... 54**
**Ruhun bədənlə əlaqəsi .................................................. 61**
**Bərzəx aləmi haradır?.................................................... 64**

**Bərzəx aləminin müddəti nə qədərdir? ....................... 68**
**Ruhların öz ailələri və ya bu dünya ilə əlaqəsi ........... 71**
**Dünyasını dəyişmiş insanın öz ailəsindən istəyi.......... 75**
**Ölənlərin qəbrini ziyarət etmək lazımdırmı? ............. 85**
**Əhli-qüburu ziyarət etməyin qaydası və savabı ......... 90**
**Ata-ananın qəbrini ziyarət etməyin xüsusiyyətləri .... 91**
**Əhli-qübura salam verməyin qaydası ......................... 91**
**Bədən çürüdükdən sonra qəbri ziyarət etmək lazımdırmı ......................................................................... 95**
**Qəbirdə bədənin çürüməməsinə səbəb olan əməllər .. 99**
**Qəbirdə bədənləri çürüməyən insanlardan nümunələr ...................................................................... 102**
**ƏCƏL..................................................................................... 109**
**Əcəli-müsəmma və əcəli-müəlləq ............................... 114**
**Ömrünüzdən sərfəli istifadə edin ............................... 117**
**Ömrün azaldılıb çoxaldılması ..................................... 118**
**Ömrü artıran amillər .................................................. 121**
**Ömrü azaldan və qəfil ölümə səbəb olan amillər ..... 148**
**Necə öləcəyik? ............................................................. 165**
**Müəlləq əcəlin növləri ................................................ 166**
**İxtirami ölüm ............................................................... 166**
**Qırmızı ölüm ................................................................ 168**
**Şəhidlər diridir və onlara Allah yanında ruzi verilir ............................................................................ 170**
**Qətl.............................................................................. 178**

**Qisas ... 179**
**Əfv, yoxsa qisas? ... 181**
**Qisas hökmünü tənqid edənlərin iradlarına cavab .. 181**
**Qəfil ölüm ... 195**
**Hədislərdə qəfil ölümün mənası ... 196**
**Qəfil ölüm insan üçün müsbət haldır, yoxsa mənfi? 196**
**Qəfil ölən tanınmış insanlardan nümunələr ... 202**
**Pis və qəfil ölümləri uzaqlaşdırmağın yolları ... 207**
**Ölümün batini surəti ... 217**
**Əməllərin təcəssümü ... 220**
**Quranda əməllərin təcəssümü ... 226**
**Mülki və mələkuti surət ... 234**
**Quranda əməllərin təcəssümü ... 236**
**Hədislərdə əməllərin təcəssümü ... 245**
**Ölümün batini və mələkuti surəti ... 253**
**Cənab Əzrayılın(ə) ölümü ... 256**
**Əməllərin qəbirdə (Bərzəx aləmindəki) təcəssümü .. 257**
**Qəbirdə mömin və kafirin əqidə və əməlinin təcəssümü ... 260**
**Mömininin qəbrində izhar olunan altı nurani surət ... 262**
**Əməllərin qiyamətdəki təcəssümü ... 264**
**Qiyamət günündə əməllərin təcəssümündən bəzi nümunələr ... 266**
**QƏBİR VƏ İNSANIN BƏDƏNİ ... 273**
**Hövlül-müttəli nədir? ... 278**

**Hövlül-müttəlinin yaranmasının səbəbləri ............... 280**
**Qəbrin vəhşəti ........................................................... 280**
**Qəbrin vəhşətini aradan qaldıran amillər ................ 280**
**Qəbrin sorğu-sualı ..................................................... 287**
**İnsan öldükdən sonra qəbirdə sorğu-sual olunacaqmı? ............................................................... 288**
**Qəbirdə sorğu-sualı kim edəcək? .............................. 292**
**Qəbirdə bədən, yoxsa ruh sorğu-sual olunacaq? ..... 293**
**Qəbirdə kim sorğu-sual olunacaq? ........................... 298**
**Nəkir və Münkəri insana qarşı mehribanlaşdıran amillər ......................................................................... 307**
**Qəbirdə nə barədə sorğu-sual ediləcək? ................... 311**
**Qəbrin əzabı ............................................................... 323**
**Qəbir əzabı iki qisimdir .............................................. 324**
**Qəbrin insanı sıxması ................................................. 325**
**Qəbir sıxıntısının məna və şərtləri ............................ 327**
**Qəbir sıxıntısına səbəb olan amillər .......................... 228**
**Qəbrin əzab və sıxıntısından amanda qalan müstəsna insanlar ..................................................................... 333**
**İnsana qəbir sıxıntısından nicat verən amillər ......... 337**
**Qəbir əzabı ................................................................. 343**
**Qəbir əzabına səbəb olan amillər ............................... 343**
**Qəbir əzabından insana nicat verən amillər ............. 374**
**İnsandan qəbir əzabını götürən digər əməllər .......... 390**